# AZƏRBAYCAN RESPUBLİKASININ TARİXİ

## (1991-2021)

# I

(1991-2003)

BAKI
DÖVLƏT
UNİVERSİTETİ

# AZƏRBAYCAN RESPUBLİKASININ TARİXİ

(1991-2021)



*...Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir və bu yolda hamımız əl-ələ verərək çalışmalıyıq.*

**Heydər Əliyev**
**Azərbaycan xalqının Ümummilli lideri**



*Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

Musa Qasımlı

# AZƏRBAYCAN RESPUBLİKASININ TARİXİ

(1991-2021)

2 cilddə

## I cild

(1991-2003)

BAKI – BDU – 2021

*Bakı Dövlət Universitetinin Elmi Şurasının 01 dekabr 2021-ci i tarixli iclasının qərarı ilə çap olunur (pr. № 11).*

Elmi məsləhətçi: **Elçin Babayev**, Bakı Dövlət Universitetinin rektoru
Elmi redaktor: **İbrahim Zeynalov**, tarix elmləri doktoru, professor

Rəyçilər:
BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası;
BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası;
BDU-nun Beynəlxalq münasibətlər kafedrası;
BDU-nun Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası

**Qasımlı M.C. Azərbaycan Respublikasının tarixi (1991-2021): 2 cilddə. I cild (1991-2003). Bakı: Bakı Dövlət Universiteti, 2021. – 384 s.**

İki cilddən ibarət olan əsərin birinci cildində 1991-2003-cü illərdə Azərbaycan Respublikası siyasi tarixinin ən vacib problemləri tədqiq edilmişdir. Əsərdə müxtəlif dillərdə olan mənbə və ədəbiyyatlardan istifadə edilməklə əsasən aşağıdakı məsələlər araşdırılmışdır: Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası ərəfəsində SSRİ-nin daxili və beynəlxalq vəziyyətinin ümumi mənzərəsi; Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarının başlanması; Ermənistandan azərbaycanlıların amansızlıqla qovulması; Əsgəranda ilk qanın tökülməsi; Sumqayıt təxribatı; 1990-cı il 20 yanvar hadisəsi; Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda qəbul edilən qərarlar; Azərbaycan SSR-in adının və bayrağının dəyişdirilməsi; dövlət müstəqilliyinin bərpa edilməsi; Azərbaycan dövlət xadimlərinin helikopterdə öldürülməsi; DQMV-nin ləğvi; SSRİ-nin dağılması və Müstəqil Dövlətlər Birliyinin yaradılması; Ermənistanın açıq hərbi təcavüzünün başlanması; Xocalı soyqırımı; Azərbaycan Respublikasının BMT-yə üzv qəbul edilməsi; ATƏM-in Minsk qrupunun yaradılması; İranın vasitəçilik səyləri və Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi; 1992-ci ilin mayında silahlı çevriliş; Laçın rayonunun işğalı; Yeni Azərbaycan Partiyasının yaradılması; Kəlbəcər rayonunun işğalı; ölkədə ümumi böhranın yaranması; BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi; Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi; Prezident Ə.Elçibəyin Bakını tərk etməsi; Ağdam rayonunun işğalı; BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi; Azərbaycanı parçalamaq cəhdlərinin iflasa uğradılması; Füzuli və Cəbrayıl rayonlarının işğalı; 1993-cü ilin oktyabrında prezident seçkiləri; BMT Təhlükəsizlik Şurasının 874 saylı qətnaməsi; Zəngilan rayonunun işğalı; BMT Təhlükəsizlik Şurasının 884 saylı qətnaməsi; Horadiz əməliyyatı; Prezident Heydər Əliyevin ilk xarici səfərləri; Bişkek protokolu; Azərbaycan Respublikasının neft strategiyası; "Əsrin müqaviləsi"; 1994 və 1995-ci illərdə sui-qəsdlər, dövlət çevrilişi cəhdləri; Azərbaycan Respublikasının ilk konstitusiyasının qəbul edilməsi; Milli Məclisə ilk seçkilər; Azərbaycanın nəqliyyat-kommunikasiya mərkəzinə çevrilməsi üçün həyata keçirilən tədbirlər; NATO və Avropa İttifaqı ilə əlaqələr; neft ixrac boru kəmərləri; Avropa Şurası ilə əməkdaşlıq; həyata keçirilən islahatlar; Minsk qrupu həmsədrlərinin təklifləri; 1998-ci ilin prezident seçkiləri; Avropa Şurasına tam hüquqlu üzv olmaq və İlham Əliyevin rəhbərliyi altında Avropa Şurası Parlament Assambleyasında fəaliyyətlər; Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft və Bakı – Tbilisi – Ərzurum qaz boru kəmərlərinin əleyhinə olan qüvvələrin səylərinin boşa çıxması; enerji strategiyasının ilkin nəticələri; Azərbaycan Respublikasının beynəlxalq terrorizmə qarşı mübarizədə iştirakı; dövlət idarəçiliyinin təkmilləşdirilməsi; 2002-ci il konstitusiya referendumu; İlham Əliyevin Baş nazir vəzifəsinə təyin olunması; BMT Baş Məclisində nitqi və b.

Kitab ali məktəblərin tarix və siyasi elmlər ixtisaslarında təhsil alanlar, siyasətçilər, diplomatlar, həmçinin Azərbaycan Respublikasının siyasi tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-546-21-7 (I cild)
ISBN: 978-9952-546-20-0

© Bakı Dövlət Universiteti, 2021

# İÇİNDƏKİLƏR


ÖN SÖZ *(Elçin Babayev)* . . . . . . . . . . 7

GİRİŞ . . . . . . . . . . 11

**1-ci FƏSİL**

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI ƏRƏFƏSİNDƏ SSRİ-nin BEYNƏLXALQ VƏ DAXİLİ VƏZİYYƏTİ**

1.1. XX əsrin 80-ci illərində SSRİ-nin beynəlxalq vəziyyəti . . . . . . . . . . 29

1.2. "Sanitar kordonu"nun dağılması . . . . . . . . . . 35

1.3. SSRİ-də daxili ictimai-siyasi şərait . . . . . . . . . . 39

**2-ci FƏSİL**

**ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏSASSIZ ƏRAZİ İDDİALARININ BAŞLANMASI VƏ İLK NƏTİCƏLƏRİ**

2.1. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və azərbaycanlıların tarixi torpaqlarından sonuncu deportasiyası . . . . . . . . . . 44

2.2. Əsgəranda ilk qanın tökülməsi . . . . . . . . . . 53

2.3. Sumqayıt təxribatı və Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsinin genişlənməsi . . . . . . . . . . 57

2.4. 1990-cı il 20 yanvar hadisəsi . . . . . . . . . . 66

**3-cü FƏSİL**

**AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI İSTİQAMƏTİNDƏ İLK ADDIMLAR: NAXÇIVANDA QƏBUL EDİLƏN QƏRARLAR**

3.1. Heydər Əliyevin rəhbərliyi altında Naxçıvanda qəbul edilən qərarlar . . . . . . . . . . 70

3.2. Azərbaycan SSR-in adının dəyişdirilməsi və yeni dövlət bayrağının qəbul edilməsi . . . . . . . . . . 73

3.3. SSRİ-nin mövcudluğu məsələsinə münasibət . . . . . . . . . . 75

3.4. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə . . . . . . . . . . 80

3.5. Azərbaycan Respublikasında ilk prezident seçkiləri . . . . . . . . . . 84

## 4-cü FƏSİL
## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPA EDİLMƏSİ VƏ ERMƏNİSTANIN AÇIQ HƏRBİ TƏCAVÜZÜNÜ DAYANDIRMAQ CƏHDLƏRİ


4.1. Dövlət müstəqilliyi haqqında konstitusiya aktının qəbul edilməsi ................89
4.2. İlk addımlar və problemlər ................................................92
4.3. Azərbaycan dövlət xadimlərinin öldürülməsi və DQMV-nin ləğv edilməsi ........96
4.4. SSRİ-nin dağılması və Müstəqil Dövlətlər Birliyinin yaradılması ............... 100
4.5. Ermənistanın açıq hərbi təcavüzünün başlanması və onu dayandırmaq səyləri................................... 103
4.6. Ermənistanın bəşəriyyətə və sivilizasiyaya qarşı törətdiyi ağır cinayət – Xocalı soyqırımı................................. 105
4.7. Azərbaycan Respublikasının BMT-yə üzv qəbul edilməsi və sülh təşəbbüsləri. Minsk qrupunun yaradılması ................... 108
4.8. Tehran görüşü. Şuşa şəhərinin işğal edilməsi və nəticələri .................... 110


## 5-ci FƏSİL
## AZƏRBAYCAN RESPUBLİKASI ANARXİYA VƏ XAOS İLLƏRİNDƏ


5.1. Azərbaycanda silahlı çevriliş ............................................. 114
5.2. Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi........ 119
5.3. Prezident seçkiləri.......................................................... 120
5.4. Azərbaycanda böhranın dərinləşməsi ....................................... 122
5.5. Yeni Azərbaycan Partiyasının yaradılması .................................. 125
5.6. Ermənistanın hərbi təcavüzünün genişlənməsi və Kəlbəcərin işğalı ........... 127
5.7. BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi ........................... 131
5.8. Ölkə parçalanmaq və vətəndaş müharibəsi astanasında ...................... 134


## 6-cı FƏSİL
## ÖLKƏNİN PARÇALANMAQ TƏHLÜKƏSİNDƏN QURTARILMASI


6.1. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi ............................ 137
6.2. Ə. Elçibəyin Bakını tərk etməsi və ölkədə şərait ............................ 144
6.3. Ağdam rayonunun işğal edilməsi............................................ 150
6.4. BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi ........................... 151
6.5. Azərbaycanı parçalamaq cəhdlərinin iflasa uğraması ........................ 153
6.6. Füzuli və Cəbrayıl rayonlarının işğal edilməsi .............................. 154

## 7-ci FƏSİL

## 1993-cü İLİN OKTYABR PREZİDENT SEÇKİLƏRİ: DAXİLİ VƏ XARİCİ SİYASƏTDƏ DƏYİŞİKLİKLƏR


7.1. Prezidentə münasibət ilə əlaqədar olaraq referendum ........................ 157

7.2. Azərbaycan Respublikasının MDB-yə qoşulması ............................... 158

7.3. Prezident seçkiləri və nəticələri ............................................ 160

7.4. BMT Təhlükəsizlik Şurasının 874 saylı qətnaməsi ............................ 161

7.5. Zəngilan rayonunun işğal edilməsi. BMT Təhlükəsizlik Şurasının 884 saylı qətnaməsi ......................................................... 163

7.6. Horadiz əməliyyatı .............................................................. 166

7.7. Prezident Heydər Əliyevin ilk xarici səfəri ................................... 167

7.8. Azərbaycan – Türkiyə münasibətlərində yeni mərhələnin başlanması .......... 170

7.9. Bişkek protokolu ................................................................ 172


## 8-ci FƏSİL

## "ƏSRİN MÜQAVİLƏSİ" VƏ ONA QARŞI FƏALİYYƏTLƏR


8.1. Azərbaycanın enerji diplomatiyasının çətin yolu ............................... 180

8.2. "Əsrin müqaviləsi"nin imzalanması və tarixi əhəmiyyəti ........................ 188

8.3. 1994-1995-ci illərdə sui-qəsdlər və dövlət çevrilişi cəhdləri ................. 190


## 9-cu FƏSİL

## MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ İLK KONSTİTUSİYASININ QƏBUL EDİLMƏSİ VƏ PARLAMENTƏ SEÇKİLƏR


9.1. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbuluna hazırlıq ........... 206

9.2. Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ............................. 209

9.3. Müstəqil Azərbaycan Respublikasında ilk parlament seçkiləri ................. 213


## 10-cu FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT-KOMMUNİKASİYA MƏRKƏZİNƏ ÇEVRİLMƏSİ SİYASƏTİ VƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ


10.1. Azərbaycanın nəqliyyat-kommunikasiya mərkəzinə çevrilməsi istiqamətində diplomatik-siyasi fəaliyyət ...................................... 221

10.2. NATO ilə əməkdaşlıq ............................................................ 227

**11-ci FƏSİL**

**NEFT İXRAC BORU KƏMƏRLƏRİ MƏSƏLƏSİ**


11.1. Boru kəmərlərinin keçirilməsi problemi .................................. 246

11.2. Neft strategiyasının reallaşdırılması uğrunda diplomatik-siyasi mübarizə..... 250


**12-ci FƏSİL**

**DEMOKRATİK İSLAHATLAR VƏ AZƏRBAYCANIN BEYNƏLXALQ MÖVQELƏRİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ**


12.1. İslahatlar zərurətə çevrilir .................................. 273

12.2. Avropa Şurası ilə əməkdaşlıq və demokratik islahatlar .................. 276

12.3. Ölüm hökmünün ləğvi .................................. 284

12.4. Minsk qrupu həmsədrlərinin təklifləri .................................. 288

12.5. 1998-ci il prezident seçkiləri .................................. 296

12.6. Avropa Şurasına tamhüquqlu üzvlük və fəaliyyətlər .................. 300


**13-cü FƏSİL**

**AZƏRBAYCAN RESPUBLİKASI NEFT VƏ QAZ İXRAC EDƏN ÖLKƏYƏ ÇEVRİLİR**


13.1. Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft, Bakı – Tbilisi – Ərzurum qaz boru kəmərlərinin təməlinin qoyulması .................................. 309

13.2. Boru kəmərlərinin əleyhinə olan qüvvələrin səylərinin boşa çıxması ......... 316

13.3. Neft strategiyasının ilkin nəticələri .................................. 329

13.4. Azərbaycan Respublikasının beynəlxalq terrorizmə qarşı mübarizədə iştirakı.................................. 332


**14-cü FƏSİL**

**DÖVLƏT İDARƏÇİLİYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ: AZƏRBAYCAN YENİ ÜFÜQLƏR QARŞISINDA**


14.1. Dünya azərbaycanlılarının təşkilati birliyinin yaradılması .................. 339

14.2. 2002-ci il 24 avqust konstitusiya referendumu .................................. 342

14.3. Azərbaycan yeni üfüqlər qarşısında .................................. 348

NƏTİCƏ .................................. 356

BİBLİOQRAFİYA .................................. 371

# ÖN SÖZ

Azərbaycan sivilizasiyanın ilkin mərkəzlərindən biri olmaqla zəngin və qədim tarixə malikdir. Min illər ərzində ölkəmizin ərazisində köklü milli-mənəvi dəyərlər və zəngin dövlətçilik ənənələri formalaşmış, dünyanın mədəniyyət xəzinəsinə daxil olmuş əsrarəngiz maddi və qeyri-maddi mədəni irs yaradılmışdır.

Bakı Dövlət Universitetinin təşəbbüsü ilə iki cilddə hazırlanmış "Azərbaycan Respublikasının tarixi" kitabı tariximizin son 30 illik dövrünü – 1991-ci ildə dövlət müstəqilliyimizin yenidən bərpasından sonra dünya şöhrətli siyasətçi, görkəmli ictimai-siyasi xadim, xalqımızın Ümummilli lideri Heydər Əliyevin memarlığı ilə qurulan müstəqil Azərbaycan Respublikasının tarixini əhatə edir.

Tarix dəfələrlə sübut etmişdir ki, dövlətin qurulması və müstəqillik əldə edilməsi heç də asan məsələ deyildir. Ulu öndər Heydər Əliyevin dediyi kimi – "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir". Təsadüfi deyildir ki, dünyada mövcud olan millət və xalqların heç də hamısı müstəqil dövlət yarada bilməyib. Bunun üçün dövlət yaratmaq ənənəsinin, müəyyən inkişaf səviyyəsinin və fəaliyyət istiqamətlərinin, milli müstəqillik şüurunun olması zəruridir. Azərbaycan xalqı dünyanın nadir xalqlarındandır ki, bir əsrdə iki dəfə müstəqillik əldə etmiş, özünün suveren dövlətini qurmuşdur.

Ötən əsrin 90-cı illərində əldə edilən dövlət müstəqilliyi hər bir vətəndaşımız üçün ən böyük sərvətdir. Bu illər ərzində demokratik, hüquqi və dünyəvi dövlətin qurulması xalqımızın tarixi nailiyyətidir.

Azərbaycan Respublikası artıq 30 ildir ki, əbədi və dönməz müstəqilliyə qovuşmuşdur. Bu illər ərzində dövlətimiz, xüsusilə müstəqilliyin ilk illərində kifayət qədər çətin və keşməkeşli mərhələlərdən keçərək sürətli və dayanıqlı iqtisadi inkişaf yoluna qədəm qoymuş, iri regional layihələrin təşəbbüskarına və əsas icraçısına, sağlam və düşünülmüş xarici siyasət kursu nəticəsində regional və dünya siyasətinin aparıcı qüvvəsinə çevrilmişdir. İqtisadiyyatın sürətli inkişaf tempi, uğurlu daxili və xarici siyasət, beynəlxalq səviyyədə qazanılan

nüfuzu ilə paralel olaraq ölkəmizin hərbi qüdrətinin möhkəmləndirilməsi və bütün bunların məntiqi nəticəsi olaraq İkinci Qarabağ müharibəsində qazanılan inamlı qələbə ilə ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etməsi Azərbaycanı regionun və dünyanın nüfuzlu dövlətləri ilə bir sıraya qoymuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük məharətlə həyata keçirdiyi uzaqgörən və məqsədyönlü siyasət nəticəsində bu gün regionda lider dövlətə çevrilən ölkəmiz dünya miqyasında söz sahibi olan dövlətlərlə birgə beynəlxalq sülh və təhlükəsizlik məsələlərində əsas rol oynayan etibarlı tərəfdaş mövqeyinə yüksəlmişdir.

Bakı Dövlət Universitetində tarixi faktlar və onların müqayisəli təhlili əsasında ərsəyə gətirilmiş bu kitab müstəqilliyin əldə edilməsi, qorunması və möhkəmləndirilməsi uğrunda mübarizəni, müasir Azərbaycanın yüksəliş və zəfər mərhələlərini əhatə edir. Hesab edirik ki, bu gün qarşımızda duran əsas vəzifələrdən biri də bu mübarizə, yüksəliş və zəfər tarixinin, Azərbaycanın davamlı inkişaf perspektivlərinin daha yaxından öyrənilməsi, təbliğ olunması və gələcək nəsillərə ötürülməsindən ibarətdir. Şübhəsiz ki, “Azərbaycan Respublikasının tarixi” kitabı bu istiqamətdə böyük əhəmiyyət kəsb edir.

Kitabın birinci cildi 1991-ci ildə ölkəmizin müstəqilliyinin yenidən bərpasından 2003-cü ilin sonlarınadək olan dövrü, ikinci cildi isə ölkə başçısı cənab İlham Əliyevin ilk dəfə prezident seçildiyi 2003-cü ilin oktyabr ayından bugünümüzədək olan dövrü əhatə edir. Kitabda eyni zamanda Sovet İttifaqı dövrünün son dönəmində baş verən hadisələrdən və bu kontekstdə Azərbaycanın müstəqilliyə gedən yolundan da ətraflı bəhs olunur.

Azərbaycanın müasir tarixi ilə bağlı bir çox elmi əsərlər, monoqrafiyalar, dərslik və dərs vəsaitləri yazılsa da, bu kitabı digərlərindən fərqləndirən mühüm cəhətlər müstəqil Azərbaycan Respublikasının yaranma və inkişaf tarixinin sistemli, ardıcıl və kompleks tədqiqi və 44 günlük Vətən müharibəsinə geniş yer verilməsidir.

Kitabın müstəqilliyimizin bərpasının 30-cu və Qarabağ Zəfərinin birinci ildönümündə ərsəyə gəlməsi də əlamətdar haldır. Əgər müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi Azərbaycan xalqının Ümumilli lideri Heydər Əliyevin adı ilə bağlıdırsa, ölkəmizin sürətli inkişafı, qüdrətlənməsi və ərazi bütövlüyümüzün bərpası onun siyasətinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin adı ilə bağlıdır.

Kitabın birinci cildində xaos və anarxiya ilə xarakterizə olunan 1991-1993-cü illər və müstəqilliyin və dövlətçiliyin qorunub saxlanılması və möhkələndirilməsi mərhələsi olan 1993-2003-cü illər geniş təhlil edilir. 1991-1993-cü

illərdə Azərbaycan Ermənistanın yürütdüyü təcavüzkar, işğalçı siyasət nəticəsində torpaqlarının təqribən 20 faizindən məhrum olmuş, bir milyondan artıq soydaşımız öz əzəli yurd yerlərindən, tarixi dədə-baba torpaqlarından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmiş, ölkə daxilində qeyri-sabitlik və anarxiya ilə müşayiət olunan xaos və siyasi-iqtisadi böhran vəziyyəti ilə üzləşmişdir. Dövlətimiz yenicə müstəqillik əldə etsə də, xaricdən və daxildən dövlətçiliyimizə, ərazi bütövlüyümüzə qəsdlər həyata keçirilmişdir. Həmin dövrdə hakimiyyətin səriştəsizliyi torpaqlarımızın bir hissəsinin Ermənistan tərəfindən işğalına, ölkəmizin etnik parçalanmaya və vətəndaş müharibəsinə sürüklənməsi üçün real təhlükənin yaranmasına səbəb olmuşdur. Bütün bu hadisələrin fonunda ölkədə siyasi qeyri-sabitlik, sosial-iqtisadi çökmə, xaos və anarxiya hökm sürmüşdür.

1993-cü ilin 15 iyun tarixində Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Milli Məclisinə sədr seçilməsi və daha sonra isə oktyabr ayında keçirilən prezident seçkilərində qalib gəlməsi ilə xalqımız, dövlətimiz parçalanma təhlükəsindən xilas olmuş, sabitlik bərqərar edilmiş, müstəqilliyimiz möhkəmləndirilmiş, ölkəmiz sosial-iqtisadi inkişaf yoluna qədəm qoymuş və xalqımızın işıqlı gələcəyə inam və ümidləri yaranmışdır.

Kitabın ikinci cildində 2003-cü ilin oktyabr ayından başlayaraq cənab İlham Əliyevin prezidentliyi dövrünü əhatə edən növbəti mərhələdə Azərbaycanın ordu quruculuğu, sosial-iqtisadi islahatlar, demokratikləşmə, beynəlxalq əlaqələrin inkişafı, Böyük Zəfərlə nəticələnən Vətən müharibəsi və onun nəticələri ətraflı təhlil edilir.

Möhkəm təməlləri xalqımızın xilaskarı, Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil və qüdrətli Azərbaycan dövləti möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin uğurlu siyasəti, müdrik qərarları və mahir sərkərdəliyi sayəsində 44 günlük Vətən müharibəsində qalib gəldi, BMT-nin dörd müvafiq qətnaməsini təkbaşına icra edərək haqq mübarizəmizi uğurla başa çatdırdı, 30 il düşmən tapdağında qalan cənnət Qarabağımız işğalçılardan azad edildi, tarixi ədalət bərpa olundu. Şəhidlərimizin canı, qazilərimizin qanı, sarsılmaz xalq-iqtidar birliyi sayəsində əldə etdiyimiz tarixi zəfərdən sonra bölgədə yeni reallıqlar yarandı. Elə bir reallıq ki, artıq milli maraqlarımıza xidmət edəcək bütün şərtləri birmənalı olaraq qalib Azərbaycan dövləti özü diktə edir.

Uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində müstəqil Azərbaycan Respublikası bu gün öz tarixinin ən parlaq inkişaf və qüdrətli dövlətçilik dövrünü yaşayır. Bir sıra nüfuzlu beynəlxalq hesabatlarda ən islahatçı

dövlət kimi qeyd edilir, ayrı-ayrı göstəricilər üzrə hər il bir neçə pillə irəliləyərək dünya dövlətləri sırasında layiqli yer tutur.

İkinci cilddə tarixi Zəfərdən keçən bir il ərzində işğaldan azad olunmuş torpaqlarımızdakı böyük quruculuq işləri, bu istiqamətdə həyata keçirilən tədbirlər və gələcək inkişaf perspektivləri də ətraflı təhlil edilir. Bu vaxt ərzində möhtərəm Prezidentimiz İlham Əliyevin misilsiz fəaliyyəti nəticəsində işğaldan azad edilmiş ərazilərdə yeni yollar salınır, körpülər tikilir, su elektrik stansiyaları istifadəyə verilir, beynəlxalq hava limanlarının açılışı keçirilir, yeni yaşayış binalarının təməlləri qoyulur. Saymaqla bitməyən, miqyası heç bir ölçüyə gəlməyən nəhəng layihələr gerçəkləşdirilir. Möhtərəm Prezidentimiz İlham Əliyevin Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə azad edilmiş ərazilərə mütəmadi səfərləri, ictimaiyyət nümayəndələri ilə görüşləri, onlarla səmimi söhbətləri xalqımızda böyük ruh yüksəkliyi yaradır. Cənab Prezidentimiz azad edilmiş ərazilərimizin elmi, mədəni, mənəvi mühitinin bərpası üçün də böyük səylər göstərir, xüsusilə Sovet İttifaqı dönəmində saxtalaşdırılmış tariximizin yenidən yazılması, tarixi adların, toponimlərimizin bərpası üçün öz tapşırıq və tövsiyələrini verir.

Hesab edirik ki, Azərbaycan tarixinin son 30 illik dövrünə, dövlətimizin və xalqımızın müstəqillik və azadlıq uğrunda keçdiyi yola, müasir dövrdə misligörünməmiş sürətlə tərəqqisi və inkişafına, xüsusilə Qarabağ Zəfəri və onun siyasi nəticələrinə müfəssəl şəkildə toxunan "Azərbaycan Respublikasının tarixi" kitabı tariximizin daha dolğun və ətraflı əks etdirilməsi istiqamətində atılmış ilk addımlardan biridir.

Kitabın əsas qayəsi ölkəmizin 30 ildə keçdiyi tarixi inkişaf yolunu – müstəqilliyinin ilk illərində parçalanmaq, vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalan, əraziləri qəsb olunmuş, siyasi, iqtisadi böhran məngənəsində boğulan dövlətdən bugünkü güclü iqtisadiyyata, qüdrətli orduya, milli həmrəyliyə malik, regionda lider dövlətə çevrilməsini, bu yolda maneələrin məharətlə dəf olunmasını, milli maraqlara söykənən uğurlu daxili və xarici siyasətin həyata keçirilməsini və s. olduğu kimi, tarixi faktlarla əks etdirməkdir. İnanırıq ki, kitab müvafiq sahədə çalışan müxtəlif elm adamları, tarixçilər, tədqiqatçılar, müəllim və tələbələr, eləcə də müstəqil dövlətimizin inkişaf tarixi ilə maraqlanan hər kəs üçün qiymətli mənbə olacaqdır.

**Elçin Babayev**,
Bakı Dövlət Universitetinin rektoru

# GİRİŞ

2021-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 30 illiyi tamam oldu. Bu illər ərzində Azərbaycan dövləti mürəkkəb, ziddiyyətli, eyni zamanda böyük inkişaf yolu keçmişdir. Keçilən tarixi yolun zəngin təcrübəsinin öyrənilməsi, ona düzgün qiymət verilməsi, müvafiq elmi-nəzəri ümumiləşdirmələr aparılaraq nəticələrin çıxarılması və lazımi ibrət dərslərinin alınması zəruridir. Bu, həm də milli-mənəvi əhəmiyyət daşımaqla gənc nəsildə müstəqil dövlətçilik və tarixinə sahib çıxmaq hisslərini gücləndirir. Bütün bunlar müstəqil Azərbaycan Respublikasının tarixinə dair ümumiləşdirilmiş əsərlərin yazılmasının tarix və siyasətşünaslıq baxımından aktual olduğunu göstərir.

Məlum olduğu kimi, 5 min ildən çox dövlətçilik tarixi olan Azərbaycan xalqı zəngin ənənələri olan dövlətlər yaratmışdır. Həmin dövlətlər region siyasətində daim vacib rol oynamışdır.

Çar Rusiyasının apardığı işğalçı müharibələr nəticəsində şimal əraziləri xanlıqlar formasında işğal edilib ilhaq olunduqdan sonra Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni və mənəvi həyatında tamamilə yeni bir dövr başladı. Tək millət və tək vətən parçalandı, şimali və cənubi Azərbaycan ifadələri meydana çıxdı.

Rusiyanın tərkibində Azərbaycanın şimal torpaqları vahid imperiya qanunları ilə idarə olunmağa başladı. Azərbaycanın cənub torpaqlarının taleyi isə İran dövləti ilə bağlı oldu.

Birinci Dünya müharibəsi Azərbaycan xalqının da taleyinə ciddi təsir etdi. Müharibənin sonlarında yaranmış mürəkkəb sosial-iqtisadi və siyasi şəraitdə Rusiyada baş verən Fevral inqilabı nəticəsində çarizmin devrilməsindən sonra qurulan Müvəqqəti hökumət Cənubi Qafqazın idarəçiliyində yeniliklər edərək Xüsusi Zaqafqaziya Komitəsi yaratdı.

Rusiyada Oktyabr çevrilişi nəticəsində bolşeviklərin hakimiyyətə gəlməsi və müharibədən çıxdıqlarını elan etməsi Cənubi Qafqazda da ictimai-siyasi şəraiti dəyişdirdi. Bolşeviklərin Bakıda hakimiyyəti ələ almaları əlverişli coğrafi-siyasi, strateji mövqeyi, təbii sərvətləri olan Qafqaz, xüsusən zəngin Azərbaycan nefti uğrunda böyük dövlətlər arasında hərbi, diplomatik-siyasi mübarizəni kəskin-

ləşdirdi. Antanta dövlətlərinin bolşeviklərin əleyhinə olan qüvvələrə etdikləri maliyyə və təşkilati yardımlar nəticəsində Tiflisdə azərbaycanlı, gürcü və erməni nümayəndələrinin qurduqları Zaqafqaziya (Transqafqaz) Komissarlığı və bir müddət sonra isə Zaqafqaziya Seymi müstəqil Azərbaycan dövlətinin qurulması prosesinə gətirən yolda bir səhifə oldu.

Cənubi Qafqaz regionunda kəskinləşən daxili ziddiyyətlər, xüsusən, Bakı Sovetinin və erməni silahlı dəstələrinin mülki azərbaycanlı əhaliyə qarşı törətdikləri kütləvi qırğınların və soyqırımlarının dayandırılmaması və böyük dövlətlər arasında gedən amansız mübarizə səbəbindən 1918-ci ilin may ayının sonlarında Zaqafqaziya Seymi dağıldı. Yaranmış yeni şəraitdə azərbaycanlı nümayəndələr Azərbaycan xalqının gələcək taleyi üçün məsuliyyəti öz üzərinə götürən Milli Şura yaratdılar. Milli Şura Azərbaycan xalqının həyatına dair ən mühüm qərarını – Azərbaycan Xalq Cümhuriyyətinin qurulması haqqında 1918-ci il may ayının 28-də İstiqlal bəyannaməsini qəbul etdi. Müsəlman Şərqində ilk dəfə olaraq parlamentli respublika idarə üsulunda müasir, dünyəvi dövlət quruldu və milli hökumət formalaşdırıldı.

Beləliklə, əgər Azərbaycanın şimal əraziləri çarizm tərəfindən xanlıqlar formasında işğal edilib ilhaq olunmuşdusa, 1918-ci ildə Azərbaycan tək vətən, tək dövlət və tək millət olaraq Rusiyadan ayrıldı. Azərbaycan xalqı uzun əsrlərdən sonra şimal ərazilərində cümhuriyyət formasında müasir dövlətçiliyini bərpa etdi. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə Azərbaycan xalqı dövlət millətinə çevrildi.

Cümhuriyyətin qurulması təkcə Azərbaycan xalqının deyil, bütövlükdə müsəlman Şərqinin həyatında böyük tarixi əhəmiyyət daşıyan bir hadisə oldu. Azərbaycan xalqı bununla müsəlman Şərqi xalqları arasına respublika ideyasını, düşüncəsini və idarə-üsulunu gətirərək onlara müstəmləkəçilikdən xilas olmağın yolunu göstərdi. Bu, böyük tarixi xidmət idi.

Cümhuriyyət hökuməti Tiflisdən Azərbaycan dövlətinin müvəqqəti paytaxtı Gəncəyə köçürüldükdən sonra başlıca diqqətini ölkənin təbii-tarixi, elm, mədəniyyət və ictimai fikir mərkəzi olan Bakı şəhərinin yadelli qüvvələrdən azad edilməsinə yönəltdi. Azərbaycan və Osmanlı hərbçilərindən qurulmuş Qafqaz İslam Ordusunun hücumları qarşısında Bakı Xalq Komissarları Soveti süquta uğradı, onun yerində qurulan və Azərbaycan xalqına düşmən olan yadelli eser, menşevik və daşnaklardan ibarət Sentrokaspi hökuməti də tab gətirə bilməyib qaçdı. Bakı şəhəri 1918-ci il sentyabrın 15-də azad edildi. İki gün sonra Azərbaycan hökuməti paytaxt Bakı şəhərinə köçdü. Bakının azad edilməsi özünün əhəmiyyətinə görə, Cümhuriyyətin elan edilməsindən sonra ikinci böyük tarixi hadisə oldu.

Dünya müharibəsinin gedişində Osmanlı dövləti məğlub olduqdan sonra Azərbaycanda yeni bir şərait yarandı. Qalib dövlətlərin adından Böyük Britaniya qüvvələri Bakıya gəldi.

Cümhuriyyət hökuməti və yeni qurulan parlament ölkə həyatının bütün sahələrinə dair mühüm qərar və qanunlar qəbul etdi, eyni zamanda Qərbin bir çox ölkələrindən əvvəl qadınlara seçki hüququ verməklə dünya demokratiyası qarşısında müstəsna əhəmiyyət daşıyan tarixi xidmət göstərdi.

Dövlət müstəqilliyinin tanıdılması istiqamətində geniş fəaliyyətə başlandı. Cümhuriyyətin dövlət müstəqilliyinin 1920-ci il yanvarın 11-də de-fakto olaraq tanınması Azərbaycan diplomatiyasının böyük uğuru və Cümhuriyyətin qurulmasından sonra əhəmiyyətinə görə üçüncü böyük hadisə oldu.

Cümhuriyyətin ömrü qısa oldu, cəmi 23 ay yaşadı. 1920-ci il aprelin 28-də bolşevik Rusiyasının istilasına məruz qalaraq süquta uğrayan Cümhuriyyətin yerində Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. Müstəqil dövlətin strukturlarının fəaliyyətinə son qoyuldu. Buna baxmayaraq, Cümhuriyyətin mövcudluğu Azərbaycan xalqının tarixində silinməz izlər buraxdı və onun şüuruna müstəqil yaşamaq düşüncələri hakim oldu. Heç şübhəsiz, əgər Cümhuriyyət qurulmasaydı və beynəlxalq aləmdə tanınmasaydı, Azərbaycan SSR də yaradılmaz və sovet dövründə respublikanın formal müstəqilliyi də mövcud olmazdı. 1920-ci ildən 1922-ci ildə SSRİ yaradılana qədərki müddətdə Azərbaycan SSR-in tarixi nisbi müstəqillik illəri idi. SSRİ-ni təşkil edən müttəfiq respublikalardan biri kimi Azərbaycan SSR-in tarixi, müstəqil olmasa da, dövlətçilik tarixinin səhifələrindən biridir. İdeologiya və sistemin fərqliliyinə, bütün məsələlərin Mərkəzdən idarə olunmasına baxmayaraq, SSRİ yaradılandan 1991-ci ildə dağılanadək Azərbaycanda ordu, xarici siyasət istisna olmaqla, dövlətçiliyin atributları mövcud idi. 1946-cı ildə yaradılan Xalq Xarici İşlər Komissarlığı yalnız formal xarakter daşıyırdı. Azərbaycan SSR ikinci respublika olmaqla ümumi Azərbaycan tarixinin tərkib hissəsidir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsindən sonra respublikada şərait tədricən dəyişdi. Hakimiyyətin qanadları arasında sıx birlik yaradıldı, xalqı didib-parçalayan və zəiflədən intriqalara son qoyuldu, xalq və hakimiyyət arasında etimad mühiti formalaşdı. Kommunist ideologiyasının hökmranlıq etdiyi sovet sisteminin mövcud olmasına baxmayaraq, gələcək dövlət müstəqilliyi üçün zəruri olan obyektiv maddi amillər – ərazi, əhali və hökumət Azərbaycan SSR-in coğrafi-siyasi sərhədləri daxilində formalaşdı. Respublikada sənaye, kənd təsərrüfatı, elm, təhsil, mədəniyyət və b. sahələrdə həyata keçirilən tədbirlər, yeni fabrik və zavodların tikintisi, demoqrafik inkişaf, milli kadrların yetişdirilməsi, hərbi məktəblərin açılması sonralar dövlət

müstəqilliyinin bərpa edilməsi prosesində mühüm rol oynadı. SSRİ-nin vahid xarici siyasəti çərçivəsində beynəlxalq əlaqələrini genişləndirən Azərbaycan SSR özünün sosial-iqtisadi, mədəni inkişafı ilə müsəlman Şərqi xalqları üçün nümunə oldu və bir çox beynəlxalq toplantıların keçirildiyi mərkəzə çevrildi. Sonralar çıxışlarının birində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev deyirdi:

*"Doğrudur, 22 il bundan öncə biz bilmirdik ki, Azərbaycan müstəqil dövlət olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım".*[1]

Heydər Əliyevin 1982-ci ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi Azərbaycan tarixinin qürurverici səhifələrindən biri oldu. Bu qərarı qəbul etməklə sovet rəhbərliyi Əfqanıstana sovet hərbi müdaxiləsindən sonra SSRİ-nin müsəlman dünyasında düşmüş nüfuzunu bərpa etmək məqsədi güdürdü. Mərkəz eyni zamanda xalqı tərəfindən sevilən güclü dövlət və siyasi xadim Heydər Əliyevin rəhbərliyi altında 70-ci illərdə bütün sahələrdə inkişaf edən Azərbaycanın gələcək müstəqilliyinin qarşısını almağa çalışırdı. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan xalqının dövlət müstəqilliyini bərpa etməyə hazır olduğu qənaətinə gələn Mərkəz ağır nəticələr doğura biləcəyindən qorxaraq Azərbaycan rəhbərini vəzifəsindən çıxarmağa çəkindiyindən Moskvada işləməsinə qərar vermişdi. Motivlər nə olursa-olsun Heydər Əliyevin Moskvada yüksək vəzifələrdə işləməsi Azərbaycan tarixinin parlaq səhifələrindən biri idi.

80-ci illərin ortalarında M.S.Qorbaçovun SSRİ rəhbərliyinə gətirilməsindən sonra dünyada və ölkədə yeni şərait yaranmağa başladı. Sovet İttifaqının mürəkkəb olan beynəlxalq vəziyyəti SSRİ – ABŞ münasibətlərində gərginlik və Əfqanıstana sovet müdaxiləsindən sonra yaranmış qarşıdurma ilə səciyyələnirdi. Bütün sahələrdə geri qalan və zəif SSRİ Qərb qarşısında güzəştlərə getməyə məcbur olaraq qoşunlarını Əfqanıstandan çıxartdı.

Dünyada baş verən bu proseslər sosialist ölkələrinə də təsir etdi. Mürəkkəb sosial-siyasi proseslərin nəticəsində sosializm sisteminin dağılması ilə Şərqi Avropa ölkələri SSRİ-nin müdaxilələrindən xilas olaraq müstəqil inkişaf yollarını müəyyənləşdirdi. Avropada sosializm sisteminin iflasa uğraması ilə Şərq və Qərb arasında ideya-siyasi və hərbi qarşıdurmaya son qoyuldu. Beynəlxalq münasibətlərin Yalta-Potsdam sistemi dağıldı. Soyuq müharibə tarixə çevrildi. SSRİ İkinci Dünya müharibəsində Şərqi Avropada əldə etdiklərinin çoxunu itirdi. Yeni dünya düzəni formalaşmağa başladı. Dünyanın siyasi xəritəsində dərin dəyişikliklər baş verdi. ABŞ dünyanın yeganə fövqəldövlətinə çevrildi. Şərqi

1 Əliyev H.Ə. Gənclərin nümayəndələri ilə görüşdə çıxışdan. 22 sentyabr 1993-cü il // Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I kitab: iyun 1993 - may 1994. Bakı, 1997, s.114.

Avropada sosializm sistemini qoruya bilməyən sovet rəhbərliyinin başlıca qayğılarından biri bundan sonra SSRİ-nin mövcudluğunu saxlamaq oldu.

Dünyada baş verən proseslər və sosializm sisteminin dağılması SSRİ-də daxili ictimai-siyasi və iqtisadi şəraitə də ağır təsir etdi. M.S.Qorbaçov SSRİ-nin türk, müsəlman respublikalarının L.İ.Brejnevin hakimiyyəti illərində xeyli irəli getdiklərini düşünərək onların Mərkəzdə yüksək məqamlarda əyləşən nümayəndələrini sıxışdırmağa və vəzifələrindən azad etməyə başladı. Heydər Əliyev Sov.İKP MK-nın 1987-ci il oktyabr plenumunda vəzifələrindən çıxarıldıqdan sonra Azərbaycana da münasibət dəyişdi. Ermənistan SSR Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətini (DQMV) qoparmaq üçün əsassız ərazi iddialarını irəli sürdü, daxili işlərinə kobud müdaxiləyə başladı və regionda separatçılığı qızışdırdı.

Sovet rəhbərliyinin məkrli siyasəti nəticəsində yaranmış ağır vəziyyət böhranı daha da dərinləşdirdi. Milli münasibətlər kəskinləşdi və mərkəzdənqaçma meyilləri artdı. Qeyri-formal təşkilatlar yaranmağa başladı. Milli münasibətlər baxımından SSRİ-nin mövcudluğu zəncirində ən zəif halqa Cənubi Qafqaz və Baltikyanı respublikalar idi. Baltikyanı respublikalar Mərkəz ilə bir yerdə yaşaya bilməyəcəklərini elan etdilər. Cənubi Qafqazda isə Ermənistanın əsassız ərazi iddiaları ilə Azərbaycanın daxili işlərinə qarışması və separatçılığı qızışdırması nəticəsində vəziyyət daha da pisləşdi.

Azərbaycanın zəif rəhbərliyi Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarına və daxili işlərinə kobud müdaxiləsinə zamanında cavab verə və qarşısını ala bilmədi. Ermənistanda – tarixi torpaqlarında yaşayan azərbaycanlılara qarşı qanlı əməllərin törədilməsi nəticəsində minlərlə insan öldürüldü və qaçqına çevrildi. DQMV-də qanunsuzluqlar artdı. İki azərbaycanlı gəncin Əsgəranda öldürülməsi ilə münaqişədə ilk qan töküldü. Daha sonra sovet rəhbərliyi və Ermənistan xüsusi xidmət orqanları Sumqayıtda təxribat törətdi. Sumqayıt hadisəsi azərbaycanlılarla ermənilərin birlikdə yaşamasının mümkün olmadığını göstərmək və Azərbaycana təzyiq etmək məqsədi güdürdü. Ermənistandan azərbaycanlıların vəhşicəsinə deportasiyası, DQMV-də baş verən qanuna zidd hərəkətlər Azərbaycan xalqının hiddətini coşdurdu. Vəzifəsindən azad edilən Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırovun yerinə milli ruhdan uzaq olan, kosmopolit Əbdürrəhman Vəzirovun gətirilməsindən sonra şərait daha da ağırlaşdı.

Belə bir zamanda SSRİ-ni təşkil edən müttəfiq respublikalar inkişaf yollarını axtarırdılar. Azərbaycanda xalqın müstəqilliyə gedən yolunu Ermənistanın irəli sürdüyü əsassız ərazi iddiaları, az sonra isə kobud müdaxilələri müşayiət edirdi. Müttəfiq respublika kimi Azərbaycanın hüquqlarını qorumalı olan Mərkəzi

hakimiyyət vəzifəsini yerinə yetirmir və Ermənistanın əsassız iddialarına imkan yaradırdı.

Xalqın təkidli tələbləri ilə Azərbaycan SSR Ali Soveti 1989-cu il sentyabrın 23-də Azərbaycanın suverenliyi haqqında konstitusya qanununu qəbul etdi. Bundan sonra Mərkəzin təzyiqləri artdı, ictimai-siyasi şərait daha da pisləşdi, hakimiyyətin qanadları arasında ixtilaflar, hakimiyyət ilə xalq arasında uçurum dərinləşdi.

Ermənistanın əsassız ərazi iddialarının hansı nəticələr doğura biləcəyini təsəvvür etməyən və milli təəssübkeşlikdən uzaq olan respublikanın yeni rəhbərliyi də vəziyyəti düzəldə bilmədi. Azərbaycan idarəolunmaz həddə gəldi. Yeni qurulmuş Azərbaycan Xalq Cəbhəsinin fəalları bir sıra rayonlarda hakimiyyəti ələ keçirdilər, bəzi yerlərdə isə SSRİ – İran sərhəd xətləri dağıdıldı.

Erməni kilsəsinin bilavasitə iştirakı ilə Bakıdakı ermənilərə qarşı təxribat törədildi. Sovet rəhbərliyi Bakıya qoşun yeritdi və mülki əhalini qətlə yetirdi. Əhalinin informasiya ala bilməməsi və televiziya ilə xalqa müraciətlər edilməsinin qarşısını almaq məqsədi ilə sovet xüsusi orqanları tərəfindən bundan əvvəl 1990-cı il yanvarın 19-da Azərbaycan televiziyasının enerji bloku partladıldı. Ölkəni xarici hərbi müdaxilədən qorumalı olan sovet ordusu digər rayonlarda da mülki əhalini qətlə yetirdi. Yüzlərlə insan öldürüldü, yaralandı və itkin düşdü. Respublika idarəolunmaz həddə gəlib çatdı. Ə.Vəzirov Moskvaya qaçdı. Onun yerinə Ayaz Mütəllibov seçildi.

Azərbaycanın həyatında dönüş mərhələsi olan qanlı 20 Yanvar hadisəsindən sonra xalqın müstəqilliyə doğru yolu qəti xarakter aldı. Törədilən qanlı hadisələrə etiraz olaraq Azərbaycan xalqı şəhidlərinə 40 gün matəm saxladı. İdeoloji baxımdan ölkənin mövcudluğunu qoruyan Kommunist Partiyasına inam məhv oldu, üzvlərinin bir çoxu onun sıralarını tərk etdi.

Bu zaman Moskvada sərt nəzarət altında yaşayan Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın daimi nümayəndəliyinə gələrək 20 yanvarda qanlı hadisəni törədənləri ittiham etdi və ən ağır gündə xalqının yanında oldu. Bu hadisədən sonra Azərbaycan xalqı Mərkəz ilə yolunun bir olmadığını qətiləşdirdi və gələcək inkişafını yalnız müstəqillikdə gördü.

Moskvada yaşamaq mümkün olmadığından Heydər Əliyev Bakıya gəlsə də, Azərbaycan rəhbərliyi onun paytaxtda yaşamasına imkan vermədiyindən doğulduğu Naxçıvana getməyə məcbur oldu. Naxçıvan əhalisi yaranmış ağır şəraitdən çıxmağın yeganə yolunu Heydər Əliyev şəxsiyyətində görürdü. Azərbaycan rəhbərliyinin törətdiyi bütün maneələrə baxmayaraq, seçicilər onu 1990-cı ilin sentyabrında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinə və

Azərbaycan SSR Ali Sovetinə deputat seçdi. Azərbaycan SSR Ali Sovetinə keçirilən seçkilərdə parlamentə müxalifətin də nümayəndələri daxil oldu.

Belə gərgin şəraitdə, 1990-cı ilin sentyabrında A.Mütəllibov respublika prezidenti oldu. Lakin bundan sonra da vəziyyət yaxşılaşmadı.

Ağsaqqal deputat olaraq Heydər Əliyevin rəhbərliyi altında 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin iclasında hələ sovet dövlətinin, sisteminin, kommunist ideologiyasının mövcud olmasına baxmayaraq, respublikanın adından "Sovet Sosialist" ifadələri çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edildi və onu qəbul etmək Bakıya təklif olundu. Azərbaycan SSR Ali Sovetinə müvafiq müraciət etməklə, Naxçıvan ərazisindən sovet qoşun hissələrini çıxarıb sərhədi Azərbaycan əsgərlərinin qorumasına başlamaqla Naxçıvan Muxtar Respublikası həm SSRİ-nin dağılmasında, həm kommunist ideologiyasının ləğvində mühüm rol oynadı, həm də müasir müstəqil Azərbaycan dövlətinin təməlinin rəsmi qoyulduğu ilk yer oldu.

1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin iclasında respublikanın adı Azərbaycan Respublikası adlandırıldı və Cümhuriyyətin bayrağı dövlət bayrağı olaraq qəbul edildi. Naxçıvanda həmin ilin mart ayında SSRİ-nin saxlanılmasına dair referendum keçirilmədi.

İttifaqda vəziyyət getdikcə ağırlaşdığından bir qrup şəxsin 1991-ci il avqustun 19-da etdiyi dövlət çevrilişi cəhdi iflasa uğradıqdan sonra SSRİ-nin dağılması sürətləndi. Baş verən proseslər Azərbaycana da təsir etdi. Azərbaycan parlamenti 1991-ci il avqustun 30-da dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə qəbul etdi. Bundan bir neçə gün sonra, sentyabrın 8-də Azərbaycan Respublikasında ilk prezident seçkisi keçirildi. A.Mütəllibov ölkənin birinci prezidenti oldu. Onun prezident seçilməsi respublikada vəziyyəti yaxşılaşdırmadı. Mərkəz Ermənistanın Azərbaycanın daxili işlərinə qarışmasının qarşısını ala bilmədi.

Ermənistanın davam edən təcavüzünün gedişində 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktı qəbul edildi. Bu sənədlə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisi elan edildi. Beləliklə, Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində yeni bir dövr başladı. Müasir müstəqil Azərbaycan Respublikası dövlətinin memarı Heydər Əliyev bu barədə deyirdi:

*"Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə*

*qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun".*[2]

Dövlət müstəqilliyini bərpa edən Azərbaycan xalqı təkpartiyalı sistemdən çoxpartiyalı sistemə, diktaturadan demokratiyaya, qapalı cəmiyyətdən açıq cəmiyyətə, planlı sosialist təsərrüfat sistemindən azad bazar iqtisadiyyatına keçirdi. Bütün bunlarla yanaşı, Azərbaycan Respublikasının qarşısında bir sıra mühüm vəzifələrin yerinə yetirilməsi dayanırdı: geniş beynəlxalq əməkdaşlıq qurmaq; dövlət müstəqilliyini tanıtmaq və möhkəmləndirmək; Ermənistanın təcavüzünü dayandırmaq; qaçqın və məcburi köçkünlərin problemlərini həll etmək; təbii sərvət olan nefti milli sərvətə çevirib, dünya bazarlarına çıxarmaqla inkişafa nail olmaq; ölkədə demokratik islahatlar aparmaq və s.

1991-2021-ci illər Azərbaycan Respublikasının tarixini əsasən aşağıdakı üç mərhələyə bölmək olar. Birincisi, 1991-1993-cü illər. Bu illər anarxiya, xaos və qarışıqlıq, hakimiyyətlərin tez-tez dəyişməsi, ümumi böhran və ərazilərin təcavüzkar Ermənistan tərəfindən işğal edildiyi illərdir. İkincisi, 1993-2003-cü illər. Bu illər Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən dövlətin dağılmaqdan, xalqın vətəndaş müharibəsindən və ölkənin xaricdən dəstəklənən separatçılıqla parçalanmaqdan xilas edilməsi, müasir müstəqil dövlətin qurulması və islahatların başlanması illəridir. Üçüncüsü, 2003-cü ildən sonrakı illər. Bu illər Prezident İlham Əliyevin liderliyi altında müstəqil Azərbaycan dövlətinin modernləşməsi və güclü dövlətin qurulması illəridir. 2020-ci il işğal altında olan torpaqların azad edilməsi, zəfər ili kimi tarixə düşmüşdür.

Azərbaycan dövləti 1991-ci ildə ilk addım olaraq BMT-yə üzv olmaq və Ermənistanın qanuna zidd hərəkətlərini dayandırmaq üçün suveren dövlətlərin parlamentlərinə müraciət etdi. Lakin buna məhəl qoymayan və silahlı quldur dəstələri göndərən Ermənistan Qarakənd kəndinin səmasında Azərbaycanın dövlət xadimlərinin olduğu helikopteri vuraraq onları öldürdü. Azərbaycan dövləti bundan sonra DQMV-ni ləğv etdi. Həmin qərar sovet rəhbərliyi tərəfindən etirazla qarşılandı.

Mürəkkəb proseslərin gedişində Rusiya, Ukrayna və Belarus respublikalarının rəhbərləri SSRİ-nin varlığına son qoyan sənədi imzaladılar. Sovet İttifaqının dağılması Yalta-Potsdam sisteminin, iki əks qütblü dünyanın sonu oldu. Az sonra Müstəqil Dövlətlər Birliyi yaradıldı.

SSRİ-nin dağılmasından sonra Ermənistanın Azərbaycana qarşı açıq hərbi müdaxiləsi başladı. İşğalçı ölkə uzun müddət mühasirədə saxladığı Xocalı şəhərində 1992-ci il fevralın 25-dən 26-na keçən gecə mülki azərbaycanlı əhalini

2 Əliyev H.Ə. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000-ci il // Müstəqilliyimiz əbədidir. 31-ci kitab. Bakı, 2010, s. 161.

kütləvi şəkildə öldürməklə soyqırım törədərək bəşəriyyətə və sivilizasiyaya qarşı ağır cinayət etdi. Yaranmış şəraitdə istefaya gedən parlamentin sədri Elmira Qafarovanın yerinə Yaqub Məmmədov seçildi. O, dövlət müstəqilliyi elan edildikdən sonra Azərbaycan Respublikası parlamentinin sayca ikinci sədri oldu. Təzyiqlər altında hakimiyyətdən gedən Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibovdan sonra Yaqub Məmmədov həm də Prezident səlahiyyətini icra etməyə başladı.

Azərbaycan Respublikası BMT-yə üzv qəbul edildi. 1992-ci ilin martından Dağlıq Qarabağ münaqişəsini dinc yollarla tənzimləmək üçün ATƏM-in *(1995-ci il yanvarın 1-dən etibarən ATƏT – M.Q.)* Minsk qrupu yaradıldı və konfrans çağırmaq barədə razılıq əldə edildi. Bununla paralel olaraq İran İslam Respublikasının təşəbbüsü ilə Tehranda Azərbaycan və Ermənistan rəhbərlərinin keçirilən görüşünün yekununda imzalanmış sənədin mürəkkəbi qurumamış Qafqazın konservatoriyası və Azərbaycanın mədəniyyətinin beşiklərindən biri olan Şuşa şəhəri təcavüzkar Ermənistan tərəfindən işğal edildi. Şuşanın işğalı Azərbaycanda ictimai-siyasi şəraiti daha da gərginləşdirdi.

Şuşa şəhəri işğal edildikdən sonra A.Mütəllibovun hakimiyyətə qayıtmaq cəhdi ölkədə ağır olan şəraiti daha da kəskinləşdirdi. Silahlı çevriliş edən Azərbaycan Xalq Cəbhəsi dövlət və hökumət binalarını tutdu. A.Mütəllibov Moskvaya qaçmağa məcbur oldu, parlamentin sədri isə istefa verdi.

Parlament sədrinin seçilməsi məsələsinin müzakirəsi zamanı bəzi deputatlar tərəfindən görkəmli dövlət və siyasi xadim, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin namizədliyi barədə fikirlər səsləndirilsə də, nəzərə alınmadı. Azərbaycan Xalq Cəbhəsinin rəhbərlərindən biri olan İsa Qəmbərov parlamentin sədri seçildi. O, parlamentin sayca üçüncü sədri oldu, eyni zamanda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini icra etməyə başladı.

Azərbaycanda yaranmış mürəkkəb şəraitdən istifadə edərək Laçın rayonunu işğal edən təcavüzkar Ermənistan rayon sakinlərini məcburi köçkünə çevirdi, yaşayış evlərini, inzibati binaları, sosial-mədəni obyektləri, tarix və mədəniyyət abidələrini vəhşicəsinə dağıtdı. Laçının işğalı ilə Azərbaycanın Dağlıq Qarabağ regionu və Ermənistan arasında quru əlaqəsi yaradıldı.

Belə bir mürəkkəb şəraitdə keçirilən seçkilərdə AXC sədri Əbülfəz Əliyev (Elçibəy) Prezident seçildi. O, Azərbaycan Respublikasının sayca ikinci prezidenti oldu. Beləliklə, Azərbaycanda AXC-Müsavat hakimiyyəti quruldu.

Hakimiyyətə gələn qüvvələr ölkədə şəraiti yaxşılaşdıra, qaçqın və məcburi köçkünlərin problemlərini həll edə, Ermənistanın hərbi təcavüzünü dayandıra bilmədilər. Yürüdülən uğursuz daxili və xarici siyasət fəaliyyəti ölkəni dala-

na dirədi. ABŞ Konqresi tərəfindən qəbul edilən və başdan-başa ədalətsiz olan Azadlığa dəstək aktına edilən 907-ci düzəliş təcavüzkar Ermənistanın işinə yaradı.

Yaranmış ağır şəraitdən çıxmaqdan ötrü yollar axtaran, ölkənin və millətin nicatını Naxçıvanda yaşayan Heydər Əliyevlə bağlayan 91 nəfər ona müraciət edərək Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasını və sədr seçilməyə razılıq verməsini xahiş etdi. 1992-ci ilin payızında Heydər Əliyevin sədrliyi ilə zərurətdən doğaraq yaradılmış YAP yeni siyasi qüvvə olaraq meydana çıxdı.

Ermənistanın hərbi təcavüzünü dayandırmaq və daxildəki problemləri həll etməkdən ötrü Azərbaycan hakimiyyətinin qəbul etdiyi qərarlar səmərəsiz oldu. Ölkədəki vəziyyətdən istifadə edən təcavüzkar Ermənistan Azərbaycana qarşı hücumlarını genişləndirərək Kəlbəcər rayonunu işğal etdi. Rayon əhalisi məcburi köçkünə çevrildi, yaşayış evləri, tarix və mədəniyyət abidələri, sosial-mədəni obyektlər yerlə-yeksan edildi.

Azərbaycan dövlətinin müraciətləri əsasında BMT Təhlükəsizlik Şurasının sədri və Avropa İttifaqı bu hərəkəti pisləyən bəyanatlar verdi. Daha sonra BMT Təhlükəsizlik Şurası işğalçı qüvvələrin Kəlbəcərdən dərhal çıxarılmasını nəzərdə tutan 822 saylı qətnaməsini qəbul etsə də, Ermənistan onu icra etmədi.

Kəlbəcərin işğalı və yürüdülən yanlış siyasət nəticəsində ölkədə ağır sosial-iqtisadi, siyasi, hərbi və mənəvi-psixoloji böhran yarandı. Hakimiyyətin qanadları, xalq və hakimiyyət, hərbi və mülki hakimiyyət arasındaki uçurum böhranı daha da dərinləşdirdi. Gəncədə hərbi hissədə qiyam baş verdi. Ölkə vətəndaş müharibəsi və parçalanma təhlükəsi qarşısında qaldı. Hakimiyyətin dövlət idarəçiliyində səriştəsizliyi və ərazilərin işğalını dayandıra bilməməsi ölkədə ümumi böhran yaratdı. Parlamentin sədri istefa verdi.

Yaranmış ağır vəziyyətdən çıxmaqdan ötrü ölkə rəhbərliyi xalqın təkidli tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu. Qiyamın baş verdiyi Gəncəyə jurnalistlərlə gedən Heydər Əliyev şəraitlə yerində tanış oldu, Bakıya döndükdən sonra iyunun 15-də parlamentdə çıxış etdi və həmin iclasda sədr seçildi. Müstəqil Azərbaycan Respublikası parlamentinin sayca dördüncü sədri olan Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə xalqın və dövlətin tarixində yeni bir mərhələ başladı. Azərbaycan Respublikasının gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən Heydər Əliyev andiçmə mərasimindəki çıxışında deyirdi:

Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqı vətəndaş müharibəsindən, ölkəni parçalanmaqdan və dövləti dağılmaqdan qurtarmaq naminə xilaskarlıq missiyası, qurtuluş oldu.

Yaranmış ağır şəraitdə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy Bakını tərk edərək doğulduğu Kələki kəndinə getdikdən sonra ölkədə vəziyyət daha da ağırlaşdı. Bakıya qayıtmasına dair ona edilən müraciətlər nəticəsiz qaldığından Milli Məclis Azərbaycan Respublikası Prezidentinin səlahiyyətinin Heydər Əliyevə keçməsi barədə qərar qəbul etdi. Keçirilən Əbülfəz Elçibəyə etimad referendumunda iştirak edənlərin mütləq əksəriyyəti ona etimad göstərmədi.

Azərbaycanda yaranmış ağır vəziyyətdən istifadə edən təcavüzkar Ermənistan Ağdam rayonunu işğal etdi. Rayon əhalisi məcburi köçkünə çevrildi, yaşayış evləri, sosial-mədəni obyektlər, tarix və mədəniyyət abidələri tamamilə dağıdıldı.

Azərbaycan dövlətinin tələbinə əsasən toplanan BMT Təhlükəsizlik Şurası işğalçı qüvvələrin tezliklə, tamamilə və qeyd-şərtsiz çıxarılmasına dair 853 saylı qətnaməni qəbul etdi. Qətnamənin tələblərini yerinə yetirməyən təcavüzkar Ermənistan az sonra Füzuli və Cəbrayıl rayonlarını işğal etdi. Əhali məcburi köçkünə çevrildi, tarix və mədəniyyət abidələri yerlə-yeksan edildi.

Belə bir ağır şəraitdə xaricdən dəstək alan qüvvələrin Azərbaycanı separatçılıqla parçalamaq cəhdləri Heydər Əliyevin səyləri nəticəsində iflasa uğradı. Xalq ayağa qalxaraq dövlətin və millətin birliyini, bütövlüyünü qorudu.

Bu zaman Heydər Əliyevin qarşısında dayanan başlıca vəzifə dövləti dağılmaqdan xilas etmək və Ermənistanın davam edən hərbi təcavüzünü dayandırmaq idi. Bu məqsədlə bir sıra tədbirlər görüldü. Eyni zamanda Azərbaycan Respublikası MDB-yə üzv qəbul edildi.

1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli lider müstəqil Azərbaycan Respublikasının sayca üçüncü prezidenti oldu. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə ölkə separatçılıqla parçalanmaqdan, dövlət dağılmaqdan, xalq isə səriştəsiz idarəçilərdən və vətəndaş müharibəsindən qurtuldu.

*"Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik".*[3]

3 Əliyev H.Ə. Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitq. 10 oktyabr 1993-cü il // Müstəqilliyimiz əbədidir. I kitab, s.204.

Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün Azərbaycan Respublikasının tələblərinə əsasən toplaşan BMT Təhlükəsizlik Şurası qəbul etdiyi 874 saylı qətnaməsində işğalçı qüvvələrin işğal etdiyi ərazilərdən çıxarılmasını tələb etdi. Buna məhəl qoymayan təcavüzkar Ermənistan Zəngilan rayonunu işğal etdi. Azərbaycan Respublikasının tələbləri əsasında toplanan BMT Təhlükəsizlik Şurası 884 saylı qətnaməni qəbul etdi.

Ölkədə yaranmış ağır vəziyyətə baxmayaraq, Heydər Əliyevin Ali Baş Komandanlığı altında Azərbaycan Ordusu uğurlu Horadiz əməliyyatını həyata keçirdi və qısa müddət ərzində bir sıra əraziləri işğalçılardan azad etdi. Bu əməliyyat ölkədə milli ruhu və qələbə əzmini yüksəldən və sonradan atəşkəsin imzalanmasına təsir edən amillərdən biri oldu.

Azərbaycan dövləti geniş beynəlxalq fəaliyyətə başladı. İlk rəsmi xarici səfərini Fransa Respublikasına edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin keçirdiyi danışıqlar və imzaladığı sənədlər iki ölkə arasında qarşılıqlı münasibətlərin hüquq-müqavilə bazasının yaradılması və möhkəmləndirilməsi baxımından əhəmiyyətli oldu. Heydər Əliyevin Türkiyəyə ilk rəsmi səfəri də həm ikitərəfli, həm də regional əməkdaşlıqda müstəsna rol oynadı.

Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün MDB Parlamentlərarası Assambleyasının təşəbbüsü ilə Qırğızıstanın paytaxtı Bişkekdə 1994-cü ilin may ayında müvafiq protokol imzalandı. Dağlıq Qarabağ regionunun azərbaycanlı əhalisi nəzərdə tutulmadığı üçün Azərbaycan tərəfi həmin protokolu imzalamasa da, sonradan bəzi qeydlərlə imza atdı. Münaqişə bölgəsinə sülhməramlı qüvvələr yerləşdirilməsə də, atəşkəs rejimi quruldu.

Artıq qeyd edildiyi kimi, dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan dövlətinin qarşısında dayanan başlıca vəzifələrdən biri təbii sərvət olan nefti milli sərvətə çevirmək, ölkədəki ən vacib sosial-iqtisadi problemləri həll etmək idi. Hələ SSRİ-nin mövcudluğunun son illərində Azərbaycan neftinə maraq göstərən bir sıra iri xarici şirkətlər ilə əməkdaşlıq üçün ilkin məsləhətləşmələrə başlanmışdı. Lakin Azərbaycan daxilində gedən mürəkkəb proseslərin və əməkdaşlığın əleyhdarlarının fəaliyyətlərinin təsiri altında danışıqlar çətinliklərlə üzləşmişdi. Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra neft sahəsində əməkdaşlıqda yeni bir mərhələ başladı. Azərbaycanın neft sahəsində əməkdaşlığına mane olan xarici qüvvələr təzyiqlərini artırsalar da, Heydər Əliyevin qəti iradəsi və gərgin səyləri ilə "Əsrin müqaviləsi" imzalandı. Beləliklə, təbii sərvət olan neftin milli sərvətə çevrilməsinin hüquq-müqavilə bazası yaradıldı.

Məlum olduğu kimi, dövlətin xarici siyasəti daxili siyasətinin davamı olsa da, Heydər Əliyev "Əsrin müqaviləsi"ni imzalamaqla böyük məharət və ustalıqla dünya tarixində nadir rast gəlinən geniş beynəlxalq fəaliyyət həyata keçirərək ölkə daxilindəki bir sıra problemləri uğurla həll etdi. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının bütün sahələrdə inkişafının açarı oldu.

Böyük tarixi əhəmiyyət daşıyan bu müqavilənin imzalanması ilə Azərbaycan dövləti və xalqının tarixində yeni bir səhifə açıldı. Lakin onun əleyhinə olan qüvvələr fəaliyyətlərini daha da genişləndirdilər. Belə ki, bir neçə dövlət xadimi qətlə yetirildi və bəzi məhbuslar təcridxanadan qaçırıldı. 1994-cü ilin oktyabrında dövlət çevrilişi cəhdi baş verdi.[4] Bütün bu qanunsuz hərəkətlərin qarşısı Heydər Əliyevin yenilməz iradəsi və qətiyyəti sayəsində alındı. Azərbaycan xalqı Prezidentin çağırışına səs verərək dövlət hakimiyyətini müdafiə etdi. Çevriliş cəhdində iştirak edən yüksək vəzifəli şəxslər həbs edildilər.

1995-ci ilin martında dövlət əleyhinə qaldırılan qiyam yatırıldı, cinayətkarların bir qismi atışma zamanı zərərsizləşdirildi, digər qismi isə həbs edildi. Azərbaycan Respublikasında sui-qəsdlər, çevrilişlər və dövlət əleyhinə qiyam qaldırmaqla hakimiyyətə gəlmək istəklərinə son qoyuldu. Dövlət əleyhinə baş verən bütün qanunsuz hərəkətlərin qarşısının qətiyyətlə alınmasında Heydər Əliyevin şəxsiyyəti, sarsılmaz iradəsi və qətiyyəti, xalqın rəhbərinə olan inam və etimadı müstəsna rol oynadı. Bundan sonra ölkədə geniş islahatlara başlamaq üçün imkanlar yarandı. Qarşıda dayanan başlıca vəzifələrdən biri müstəqil Azərbaycan Respublikasının konstitusiyasının qəbul edilməsi və birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin keçirilməsi idi. Məlum olduğu kimi, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etsə də, 1995-ci ilədək ölkənin əsas qanunu olan konstitusiya qəbul edilməmişdi və hələ 1990-cı ildə formalaşdırılmış Milli Məclis fəaliyyət göstərirdi. Ona görə də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə təşkil edilən konstitusiya komissiyası dünya təcrübəsinə və ölkə ənənəsinə uyğun olaraq konstitusiya layihəsini hazırladı. Eyni zamanda yeni seçki qanunu işlənilib hazırlandı. 1995-ci il noyabrın 12-də həm birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə çoxpartiyalı əsasda seçkilər keçirildi, həm də ümumxalq səsverməsi yolu ilə ilk konstitusiya qəbul edildi. Azərbaycan Respublikası Konstitusiyasının memarı Heydər Əliyev oldu.

4 *Bax:* Azərbaycan. Oktyabr – 94, mart – 95. Qəsd: dövlət çevrilişi cəhdlərinin xronikası. Bakı, 1995.

Çoxpartiyalı sistem əsasında formalaşdırılan Milli Məclisin ilk iclasında Prezident Heydər Əliyev geniş nitq söyləyərək ölkədə aparılan islahatlar və parlamentin qarşısında dayanan vəzifələr barədə strateji düşüncələrini söylədi.

Dövlətin beynəlxalq əməkdaşlığının daha da genişlənməsi üçün imkanlar yarandı. Qarşıda dayanan vəzifələrdən biri Azərbaycan Respublikasını dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevirmək üçün beynəlxalq təşkilatlarla və ayrı-ayrı dövlətlərlə səmərəli əməkdaşlıq qurmaq idi. Bununla bir sıra sosial-iqtisadi problemləri həll etmək, dövlətin beynəlxalq mövqelərini möhkəmləndirmək, müdafiə qüdrətini artırmaq və Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini həll etmək niyyəti güdülürdü. Tarixi Böyük İpək Yolunun bərpası istiqamətində atılan addımlar sayəsində dünyanın nəhəng nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevilməsi strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikasının beynəlxalq mövqeləri möhkəmləndi və region siyasətində rolu daha da artdı.

Azərbaycan neftinin dünya bazarlarına çıxarılması planlarının reallaşdırılmasından və ölkənin əlverişli nəqliyyat-kommunikasiya mərkəzi kimi fəaliyyət göstərməsindən ötrü beynəlxalq təhlükəsizlik tədbirlərinin görülməsi aktual idi. Ona görə də Azərbaycan Respublikası soyuq müharibə başa çatdıqdan sonra mövcudluğunu qoruyub saxlayan, dünyada sülhü və təhlükəsizliyi təmin edən təşkilat funksiyasını daşıyan və Avropa təhlükəsizliyində başlıca amil olan NATO ilə əlaqələr qurdu. NATO ilə əməkdaşlığa xüsusi yer verilməsi səbəbsiz deyildi. Çünki Cənubi Qafqaz regionu sabitsizlik və risklərlə dolu idi. Dağlıq Qarabağ münaqişəsi həll edilmədiyindən Azərbaycan tərəfi mövqelərinin beynəlxalq səviyyədə müdafiəsinə ehtiyac duyurdu. Dünyanın qabaqcıl ölkələrinin üzv olduğu və təkcə hərbi deyil, həmçinin siyasi təşkilat olan NATO ilə əməkdaşlıq Azərbaycan Respublikasının dövlət müstəqilliyinə beynəlxalq təminat verilməsi nöqteyi-nəzərindən əhəmiyyətli idi. Elm, texnologiya və iqtisadiyyat baxımından qabaqcıl yerləri tutan və demokratik dövlətlərin təşkilatı olan NATO Azərbaycan üçün vacib olan ordu quruculuğu məsələsində müəyyən rol oynaya bilərdi. Qeyd etmək lazımdır ki, əməkdaşlıqda təkcə Azərbaycan maraqlı deyildi. Əlverişli coğrafi-siyasi və strateji mövqeyi, zəngin təbii sərvətləri ilə Azərbaycan Respublikası NATO üçün cəlbedici və əhəmiyyətli rola malik idi.

Azərbaycan Respublikasının dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevrilməsindən və təhlükəsizliyinin təmin edilməsindən ötrü həyata keçirilən fəaliyyətlərlə paralel olaraq geniş müzakirə edilən, diplomatik-siyasi mübahisələr doğuran məsələlərdən biri də Xəzər dənizinin

Azərbaycan sektorundan hasil edilən neftin dünya bazarlarına çıxarılması idi. Azərbaycan Respublikasının okeanlara və açıq dənizlərə birbaşa çıxışı olmadığı üçün neft dünya bazarlarına ya Rusiya, ya İran, ya Gürcüstan, ya Türkiyə, ya da Ermənistan ərazisindən keçirilərək çıxarıla bilərdi.

Rusiya ərazisindən keçən Bakı – Novorossiysk boru kəməri iqlim şərtləri səbəbindən ilin müəyyən hissəsində işləmədəyindən, Şimali Qafqazda terror hərəkətləri davam etdiyindən və sabitlik olmadığından neftin bu ərazidən keçirilməsi riskli idi. Rusiya terror hadisələrini bəhanə gətirərək boru kəmərlərini bağlaya və Azərbaycan Respublikasına qarşı siyasi təzyiq vasitəsi kimi istifadə edə bilərdi. Digər tərəfdən, Türkiyə hökuməti boğazların həddindən artıq yükləndiyini əsas gətirərək neftin Rusiya ərazisindən keçərək Qara dəniz boğazlarından tankerlərlə daşınmasına milli təhlükəsizliyi baxımından yanaşaraq şimal marşrutunun əleyhinə çıxırdı.

Neft İran ərazisindən keçərək dünya bazarlarına çıxarıla bilərdi. Lakin ABŞ-ın İrana qarşı tətbiq etdiyi sanksiyalar səbəbindən bu yoldan istifadə etmək mümkün deyildi.

Hasil edilən neft Türkiyə ərazisindən dünya bazarlarına çıxarıla bilərdi. Bundan ötrü boru kəməri ya Gürcüstan, ya da Ermənistan ərazisindən keçməli idi. Bakı – Batum kəməri fəaliyyət göstərsə də, Gürcüstanda yeni bir boru kəmərinin tikintisinə ehtiyac duyulurdu. Ərazisində mövcud olan münaqişələr səbəbindən neftin Gürcüstandan ixracı riskli idi.

Neftin Ermənistan ərazisindən və Naxçıvandan keçərək Türkiyənin Ceyhan limanına çatdırılması ucuz başa gələn və ən münasib olan yol idi. Bununla Ermənistan tərəfindən blokada şəraitində saxlanılan Naxçıvanın enerji problemləri də həll edilərdi. Lakin Azərbaycana qarşı hərbi təcavüzünü dayandırmadığı və ərazilərin işğalına son qoymadığı üçün neft boru kəmərinin Ermənistan ərazisindən keçirilməsi mümkün deyildi.

Bütün bu problemlərlə yanaşı, neft şirkətlərinin rəhbərləri Bakı – Ceyhan xəttinin bahalı olduğunu bəhanə gətirir, eyni zamanda dünyanın bir sıra təşkilatları, bəzi ölkələr də bu xəttin əleyhinə təbliğat aparırdılar. Problemin həll edilməsində müstəsna tarixi rolu Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və o zaman ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyev oynadı. Rusiya, Türkiyə, Böyük Britaniya, ABŞ dövlət və şirkət rəhbərləri ilə keçirilən görüşlər, aparılan müzakirələr öz təsirini göstərdi. Şirkət rəhbərlərinə Bakı – Ceyhan xəttinin strateji və geosiyasi əhəmiyyəti izah edildi. Buna baxmayaraq, bəzi dövlətlər Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına mane olmaq üçün öz məkrli planlarını işə saldılar. Gürcüstan Prezidenti Eduard

Şevardnadzeyə sui-qəsd edildi, Azərbaycan Respublikasına təzyiq göstərmək məqsədilə Şimali Qafqazda antiterror adı altında hərbi əməliyyatlar aparıldı, ölkəyə gələn quru və dəniz yolları bağlandı.

İntriqalara son qoymaq və enerji diplomatiyasını uğurla həyata keçirmək üçün Heydər Əliyevin təklifi ilə neftin ixracı iki mərhələyə bölündü: ilkin ixrac nefti və əsas ixrac nefti. Buna dair Rusiya və digər dövlətlərlə müvafiq sənədlər imzalandı. İlkin neft şimal marşrutu olan Bakı – Novorossiysk kəməri ilə ixrac edildi. Bu, əslində Rusiya tərəfindən Xəzər dənizinin Azərbaycan sektorunda ölkəmizin hüquqlarının tanınması demək idi. Qərb marşrutu kimi Bakı – Supsa kəməri seçildi. 1998-ci ildə Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi günlərində imzalanan sənədlə Bakı – Tbilisi – Ceyhan ixrac neft boru kəməri əsas ixrac neft boru kəməri kimi qəbul edildi.

Bu zaman Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün beynəlxalq səylər davam etdirilirdi. ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Rusiya və Fransa mərhələli həll, paket həll və ümumi dövlət prinsiplərini təqdim etdilər. Münaqişənin tənzimlənməsi sahəsində həmsədrlərin fəaliyyəti səmərəsiz oldu.

Heydər Əliyevin rəhbərliyi və gərgin səyləri ilə 90-cı illərin ortalarından etibarən ölkədə sosial-siyasi, iqtisadi və digər sahələrdə islahatların aparılması zərurətə çevrildi. Xeyli mürəkkəb və çətin olan torpaq islahatı uğurla həyata keçirildi, inflyasiyanın səviyyəsi aşağı salındı, tədrici iqtisadi inkişafa nail olundu, vətəndaşların, xüsusən qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasında böyük işlər görüldü. Güclü ordu qurulması üçün addımlar atıldı. Xalq və hakimiyyət arasında sıx birlik yarandı. Geniş beynəlxalq fəaliyyət həyata keçirildi.

Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirmək, Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla tənzimlənməsində əlavə imkanlar qazanmaq, ölkə daxilində islahatların aparılmasına dəstək olmaq üçün Avropa Şurası ilə əməkdaşlıq edildi. Azərbaycan Respublikasına Avropa Şurasında xüsusi dəvət olunmuş qonaq statusu verildi. Kütləvi informasiya vasitələri sahəsində dərin islahatlar həyata keçirildi, ölkədə ölüm hökmü ləğv edildi.

Azərbaycan xalqı 1998-ci ildə keçirilən prezident seçkilərində Heydər Əliyevi yenidən dövlət başçısı seçdi. Bundan sonra ölkədə islahatlar xətti daha da dərinləşdirildi və sabitliyi pozmağa çalışan qüvvələrin niyyətləri baş tutmadı.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər 2000-ci ildə keçirildi. Xalq bu dəfə də davamlı, sabit inkişafa səs verdi.

2001-ci ildə Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi diplomatiya tarixinin mühüm səhifələrindən biri oldu. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin

nümayəndə heyətinin rəhbəri İlham Əliyevin səyləri ilə Ermənistanın hərbi təcavüzünün nəticələrini pisləyən qətnamələr qəbul edildi.

Azərbaycan dövlətinin fəal xarici siyasəti nəticəsində Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft və Bakı – Tbilisi – Ərzurum qaz boru kəmərlərinin əsası qoyuldu. Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan neft və qazın daşınmasına mane olmağa çalışan erməni lobbisi və diasporunun cəhdləri iflasa uğradı. Xəzər dənizindəki mübahisə aradan qaldırıldı. Azərbaycan tərəfi xarici tərəfdaşlarla əməkdaşlığını daha da genişləndirərək yeni müqavilələr bağladı. Enerji diplomatiyası özünün ilkin nəticələrini verdi. Azərbaycan iqtisadiyyatına sərmayə qoyuldu, fabrik və zavodlar inşa edildi, iş yerləri açıldı və sosial-iqtisadi inkişafa nail olundu.

Azərbaycan Respublikası ABŞ-da 2001-ci il 11 sentyabrda törədilən terror aktlarından sonra müvafiq sənədləri imzalayaraq birmənalı olaraq beynəlxalq terrorizm əleyhinə mübarizəyə qoşuldu və hava məkanını koalisiya qüvvələrinə açdı. Nəticədə ABŞ Prezidenti Azərbaycana qarşı 1992-ci ilin payızında tətbiq edilmiş ədalətsiz 907-ci düzəlişin fəaliyyətini bir il müddətinə dayandırdı. Azərbaycan hərbçilərinin Əfqanıstan və İraqda sülhməramlı qüvvələrin tərkibində iştirak etməsi beynəlxalq terrorizmə qarşı mübarizəyə verilən töhfənin göstəricilərindən biri oldu.

Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti xaricdə yaşayan azərbaycanlıların birliyinin yaradılması və ölkədə siyasi sistemin təkmilləşdirilməsi istiqamətində geniş iş apardı. Bakıda dünya azərbaycanlılarının birinci qurultayı keçirildi. Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində islahatlar dərinləşdirildi. Keçirilən konstitusiya referendumunda qəbul edilmiş maddəyə görə, Milli Məclisə proporsional seçki sistemi ləğv edildi və yalnız majoritar seçki sistemi saxlanıldı. Eyni zamanda, əgər əvvəllər Prezident səlahiyyətləri Milli Məclis sədrinə keçə bilərdisə, referendum nəticəsində bu səlahiyyətlərin Baş nazirə keçməsinə dair maddə qəbul edildi.

Azərbaycan Respublikası beynəlxalq fəaliyyətini genişləndirərək BMT-də islahatların aparılmasına dair təkliflərini irəli sürdü. Baş nazir İlham Əliyev 2003-cü ilin payızında BMT Baş Məclisində nitq söyləyərək təşkilatda islahatların aparılmasının zəruriliyini əsaslandırdı və Ermənistanın hərbi təcavüzünə son qoyulması üçün çağırışlar etdi. İlham Əliyev BMT Baş Məclisində Azərbaycan Respublikasının nitq söyləyən ilk Baş naziri oldu.

Beləliklə, 1991-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasının siyasi tarixini araşdırmaq keçilən yolun təcrübəsini öyrənmək, baş verən proseslər-

dən dərs çıxarmaq baxımından elmi-nəzəri və siyasi əhəmiyyət daşıyır. Bu, gənc nəsildə müstəqil dövlətçilik, vətənpərvərlik və tarixinə sahib çıxmaq hisslərini gücləndirmək üçün də faydalıdır.

Təqdim edilən kitabda yuxarıda göstərilən məsələlər müxtəlif arxivlərin ən mötəbər mənbələrindən geniş istifadə edilməklə araşdırılmışdır. Tədqiq edilən illərdə Azərbaycan Respublikası dövlətinin daxili və xarici siyasətinin prinsipial əsasları Heydər Əliyevin əsər, nitq və müsahibələrində toplandığından onlardan geniş istifadə edilmişdir.[5] Həmçinin Azərbaycan Respublikasının prezidentləri Ayaz Mütəllibov[6], Əbülfəz Elçibəy[7] və İlham Əliyevin[8] əsərlərinə müraciət olunmuşdur.

Kitabın yazılmasında rəsmi sənədlərdən geniş istifadə edilmişdir. Dövri mətbuat materialları da mənbə kimi mühüm rol oynamışdır. Azərbaycan ilə yanaşı, ABŞ, Türkiyə, Rusiya və b. ölkələrdə dərc edilən bəzi qəzet və jurnalların xarici siyasətə dair materiallarından istifadə edilmişdir. Eyni zamanda Azərbaycanın və xarici ölkələrin diplomat, tarixçi və siyasətçilərinin əsərlərinə də müraciət olunmuşdur.

Qeyd etmək lazımdır ki, ölkəmizdə ayrı-ayrı tədqiqatçılar Azərbaycan Respublikası tarixinin müxtəlif məsələlərinə həsr edilmiş bir sıra kitab və məqalələr yazmışdır. Lakin 1991-ci ildən 2003-cü ilədək müstəqil Azərbaycan Respublikasının siyasi tarixinin ən mühüm məsələləri mötəbər mənbələr – zəngin arxiv materialları və rəsmi sənədlər əsasında kompleks şəkildə indiyədək ayrıca tədqiqat obyekti olmamışdır. Ona görə də kitabın yazılmasında başlıca məqsəd mövcud xronoloji çərçivədə müstəqil Azərbaycan Respublikasının siyasi tarixinin ən vacib məsələlərini araşdırmaq, təhlil etmək və elmi-nəzəri ümumiləşdirmələr etməkdir. Problemlərin tədqiqi zamanı tarixi-xronoloji, sistemli yanaşma, şərh, təhlil, müqayisəli və tənqidi təhlil üsullarından istifadə edilmişdir.

Kitabın təkcə siyasətçilər, diplomatlar üçün deyil, ölkəmizin ali təhsil müəssisələrində çalışan müəllimlər, tarix, politologiya, siyasi idarəetmə və digər ixtisaslarda təhsil alan tələbələr, magistrantlar, doktorantlar və bütövlükdə Azərbaycan Respublikasının 1991-2003-cü illər siyasi tarixi ilə maraqlanan şəxslər üçün faydalı olacağına inanırıq. Həmçinin, ümid edirik ki, təqdim edilən kitab müstəqil Azərbaycan Respublikası siyasi tarixinin müxtəlif mərhələlərinə və problemlərinə dair yeni elmi-tədqiqat işlərinin aparılmasına yol açacaqdır.

5 Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. IV kitab. Bakı, 1997; V kitab. Bakı, 1997; Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 1-46-cı kitablar. Bakı, 1997-2013; Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). I-V cildlər. Bakı, 1996-1999.

6 Муталибов А. Карабах – черный сад. Документальное повествование. М., 2001.

7 Elçibəy Ə. Bu, mənim taleyimdir. Bakı, 1992; Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, 1992.

8 Алиев И. Каспийская нефть Азербайджана. М., 2003.

# 1-ci FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI ƏRƏFƏSİNDƏ SSRİ-nin BEYNƏLXALQ VƏ DAXİLİ VƏZİYYƏTİ

### *1.1. XX əsrin 80-ci illərində SSRİ-nin beynəlxalq vəziyyəti*

XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində beynəlxalq şərait mürəkkəb və ağır olaraq qalırdı. Hələ 70-ci illərin sonlarında SSRİ-nin dünya birliyi tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Əfqanıstana hərbi müdaxiləsi nəticəsində beynəlxalq münasibətlərdə gərginlik artmış və soyuq müharibənin yeni bir mərhələsi başlamışdı. Avropa qitəsində gərginliyin zəiflədilməsinə tərəfdar olduğunu bəyan edən SSRİ dünyanın digər regionlarında tamamilə fərqli siyasət yürüdürdü. Sovet rəhbərliyi zəngin təbii sərvətləri olan, əlverişli geostrateji mövqedə yerləşən isti dənizlərə, Fars körfəzinə və Hind okeanına çıxmaq üçün bütün mümkün vasitələrdən istifadə edirdi.

SSRİ rəhbərliyi geniş təbliğat apararaq əhalini "Qərb təhlükəsi" ilə qorxudur, hərbi-texniki baxımdan həmin ölkələrə çatmaq üçün baha başa gələn və xalqını müflis edərək vəziyyətini daha da ağırlaşdıran sürətlə silahlanma proqramlarını davam etdirirdi. Lakin sürətlə silahlanma üçün kifayət qədər iqtisadi-maliyyə potensialı olmayan sovet iqtisadiyyatı Qərb ölkələrindən geri qalırdı.[9]

Sovet İttifaqının beynəlxalq hüquqa zidd hərəkətləri dünyada kəskin etirazla qarşılandı. Onun qarşısını almaq üçün ABŞ başda olmaqla Qərb dövlətləri fəaliyyətlərini artırdılar. ABŞ və müttəfiqləri əfqan mücahidlərinə açıq şəkildə yardımlar göstərməyə və silahla təmin etməyə başladılar. Bununla yanaşı, onlar BMT kürsüsündən diplomatik-siyasi təzyiqlərini artırdılar, SSRİ-yə qarşı sanksiyalar tətbiq etdilər və 1980-ci il Moskva yay olimpiadasını boykot etdilər.

9 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə. Bakı, 2015, s. 29.

ABŞ Prezidenti Ronald Reyqan[10] Sovet İttifaqı üzərində tam hərbi üstünlüyə nail olmaq planını imzaladı. ABŞ senatının xarici əlaqələr komitəsi iki ölkə arasında strateji hücum silahlarının məhdudlaşdırılması haqqında ikinci müqaviləni senatın təsdiqinə vermədi. ABŞ hökuməti nüvə silahları sınaqlarının tamamilə dayandırılmasına, kütləvi silahların ləğvinə və Hind okeanında silahlı qüvvələrin azaldılmasına dair SSRİ ilə aparılan danışıqlardan imtina etdi.

Qərb ilə rəqabətə tab gətirməkdə çətinlik çəkən SSRİ rəhbərliyi yeni sualtı qayıqlar hazırlamamağa, Avropada yeni nüvə raketləri yerləşdirməməyə, Avropada və Uzaq Şərqdə etimad tədbirlərinə dair danışıqlara başlamağa hazır olduğunu bəyan etdi. Bütün bunlar sovet rəhbərliyinin Qərb ilə silahlanma yarışında fasilə götürməsi və ya "nəfəs alması" üçün aldadıcı manevri idi.

SSRİ – ABŞ münasibətləri 1985-ci ilin yazına qədər donmuş halda idi. Ronald Reyqan SSRİ-ni şər imperiyası adlandıraraq ona qarşı "səlib yürüşü" elan etmişdi. İki ölkə arasında münasibətlərin belə vəziyyəti bütün beynəlxalq münasibətlər sisteminə mənfi təsir edirdi.

80-ci illərin ortalarından etibarən beynəlxalq münasibətlərdə dərin dəyişikliklər baş verdi. SSRİ rəhbəri Konstantin Çernenkonun[11] vəfatından dərhal sonra – 1985-ci il martın 11-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun iclasında Mixail Qorbaçov[12] MK-nın Baş katibi seçildi.[13]

ABŞ ilə münasibətləri yaxşılaşdırmaq qərarına gələn M.S.Qorbaçov 1985-ci il martın 25-də Ronald Reyqana məktubla müraciət edərək ümumi maraqlar naminə yarış və qarşılıqlı hörmət əsasında hər iki dövlətin məsuliyyət daşıması və etimad mühitinin yaradılması zəruriliyini vurğuladı. Belə mövqenin bildirilməsi ölkənin düşmüş olduğu ağır vəziyyətin etiraf edilməsi demək idi.

SSRİ-nin xarici siyasət konsepsiyası dəyişdirildi.[14] Yeni konsepsiya irəli sürüldü. İki sistem ölkələri arasında güc tarazlığı deyil, maraqların tarazlığı prinsipinin irəli sürüldüyü, təhlükəsizliyin hamı üçün bərabər elan edildiyi konsepsiyada yazılırdı ki, nüvə müharibəsi siyasi, iqtisadi və ideoloji məqsədlərə çatmaq üçün vasitə ola bilməz, böyük hərbi münaqişələri ləğv etmək lazımdır.[15]

Yeni sovet rəhbərliyinə və onun yürütdüyü siyasətə Qərb ölkələrində birmənalı münasibət mövcud deyildi. Məsələn, ABŞ-ın sabiq Prezidenti Riçard Nikson[16]

10 Ronald Reyqan (1911-2004) – ABŞ-ın 40-cı Prezidenti (1981-1989).
11 Konstantin Çernenko (1911-1985) – Sov. İKP MK-nın Baş katibi (1984-1985). SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri (aprel, 1984 - mart, 1985).
12 Mixail Qorbaçov (1931) – Sov.İKP MK-nın Baş katibi (1985-1990). SSRİ-nin ilk və son prezidenti (1990-1991).
13 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s.30.
14 Очерки истории Министерства иностранных дел России. Т.II. 1917-2002. М., 2002, с. 440.
15 Горбачев М.С. Перестройка и новое мышление для нашей страны и для всего мира. М., 1987, с. 137-149.
16 Riçard Nikson (1913-1994) – ABŞ-ın 37-ci Prezidenti (1969-1974).

yazırdı ki, Fransa Prezidenti Fransua Mitteranın[17] fikrincə, Qərb M.Qorbaçovun hakimiyyətdə qalmasında maraqlı idi, islahatları yalnız uğurlu olacağı təqdirdə o, hakimiyyətdə qala bilərdi və buna görə də Qərb ölkələri ona yardım etməli idilər. F.Mitteranın bu mövqeyi ilə razılaşmayan R.Nikson Qərbin M.Qorbaçov qarşısında aşağıdakı altı şərti irəli sürməsini uyğun görürdü: SSRİ-də azad bazar iqtisadiyyatının tətbiq edilməsi; Şərqi Avropa ölkələrinin tam müstəqilliyə nail olması; NATO ilə Varşava Müqaviləsi Təşkilatı ölkələri arasında adi silahlara dair tarazlığın yaradılması; SSRİ və ABŞ arasında strateji hücum silahlarına dair real sazişin bağlanması; M.Qorbaçovun üçüncü dünya ölkələrinə qarşı təcavüzkarlıqdan imtina etməsi; Sovet İttifaqında insan hüquqlarına hörmət edilən, xalqın azad seçkilərdə iradəsini ifadə edə bilən siyasi qaydanın yaradılması.

R.Niksonun fikrincə, əgər M.Qorbaçovun islahatları uğurlu olardısa və aşkarlıq SSRİ-də siyasi plüralizmə gətirərdisə, onda amerikalılar güman ki, XXI əsrdə Berinq boğazının o biri sahilində ABŞ-dan fərqlənməyən bir fövqəldövlət görərdilər. Əgər bu islahatlar kommunist rejiminin iki ayaq üstə durmasına kömək edərdisə, onda növbəti yüzillikdə ABŞ daha güclü, özünə inamlı və təhlükəli bir rəqiblə üz-üzə qala bilərdi.[18]

SSRİ-də yaranmış şəraiti qiymətləndirən sovet rəhbərliyi ABŞ ilə münasibətlərin normallaşdırılması məqsədi ilə bəzi konkret addımlar atdı. 1985-ci ilin avqust ayında sovet hökuməti nüvə silahlarının sınaqlarını dayandırdığını bəyan edərək müvafiq moratoriumun vaxtını 1986-cı il martın 31-dək uzatdı. Belə bir qərarın qəbul edilməsi çoxlu səbəblərlə yanaşı, SSRİ-nin nüvə sınaqlarını keçirmək üçün imkanlarının məhdud olması ilə bağlı idi.

SSRİ xarici işlər naziri E.Şevardnadzenin[19] 1985-ci ilin sentyabr ayında Nyu Yorkda ABŞ dövlət katibi Corc Şults[20] və Prezident R.Reyqan ilə görüşündə silahlara nəzarət, regional və ikitərəfli məsələlərə yanaşmada tərəflər arasında dərin fikir ayrılıqlarının mövcudluğu bir daha məlum oldu. Buna baxmayaraq, yüksək səviyyəli SSRİ – ABŞ görüşünə hazırlıqlara başlandı.

Geniş hazırlıq işlərindən sonra 1985-ci ilin noyabr ayında İsveçrənin Cenevrə şəhərində M.Qorbaçov ilə R.Reyqan arasında yalnız tərcüməçilərin iştirakı ilə görüş keçirildi. Hətta xarici işlər nazirləri görüşün nəticəsini bağlı qapılar arxasında gözləyirdilər. Dövlət başçıları qarşılıqlı münasibətlərdə mövcud olan etimadsızlığı və şübhələri aradan qaldırmaq zərurətini vurğuladılar. M.Qorbaçov sürətlə silahlanmanın dayandırılmasının vacibliyindən, R.Reyqan isə SSRİ-nin

17 Fransua Mitteran (1916-1996) – Fransa Respublikasının Prezidenti (1981-1995).
18 Никсон Р. На арене. Воспоминания о победах, поражениях и возрождении. М.,1992, с. 371-372.
19 Eduard Şevardnadze (1928-2014) – Gürcüstan KP MK-nın birinci katibi (1972 -1985). SSRİ-nin xarici işlər naziri (1985-1990). Gürcüstanın 2-ci Prezidenti (1995 - 2003).
20 Corc Şults (1920) – ABŞ-ın 60-cı dövlət katibi (1982-1989).

üçüncü dünya ölkələrində nüfuzunu yaymaq cəhdlərindən danışaraq sovet qoşunlarının Əfqanıstandan çıxarılmasını qəti surətdə tələb etdi. Görüş nəticəsiz sona çatsa da, müsbət meyillər də müşahidə edildi. Ən başlıcası, ölkə rəhbərləri hərbi üstünlüyə çalışmamaq barədə razılığa gəldilər.

Cenevrə görüşündən sonra sovet rəhbərliyi Əfqanıstan siyasətinin dəyişdirilməsinin zəruriliyini anlayaraq müvafiq tədbirlər gördü. Sov.İKP MK Siyasi Bürosunun 1986-cı il martın 20-də keçirilən iclasında Əfqanıstan məsələsi geniş müzakirə edildi. Aparılan müzakirə sovet rəhbərliyinin Əfqanıstandan qoşunları çıxarmağa tədricən hazırlaşdığının ilk göstəricilərindən biri idi.

Qarşılıqlı münasibətlərdə mövcud olan bütün ziddiyyətlərə baxmayaraq, Cenevrə görüşündən sonra SSRİ rəhbərliyi ABŞ ilə yaxınlaşmaq xəttini davam etdirdi. 1986-cı il oktyabrın 10-12-də M.Qorbaçov və R.Reyqan İslandiyanın paytaxtı Reykyavikdə təkbətək görüşərək ikitərəfli və beynəlxalq məsələləri müzakirə etdilər. ABŞ tərəfi yenə də sovet qoşunlarının Əfqanıstandan çıxarılmasını tələb etdi.

Reykyavik görüşündən sonra Sov.İKP MK Siyasi Bürosunun 13 noyabr tarixli iclasında Əfqanıstanda həyata keçiriləcək tədbirlər müzakirə edildi.[21] M.Qorbaçov Siyasi Büro üzvlərinə Əfqanıstan rəhbəri M.Nəcibullanın[22] milli barışıq istəklərini çatdıraraq bildirdi ki, SSRİ bu ölkədə altı ildir döyüşür, əgər yanaşma dəyişməsə, hələ 20-30 il də döyüşməli olacaqdır. Sovet hərbçilərinin Əfqanıstan müharibəsini pis bildiklərini, məsələni həll etmək üçün açar tapa bilmədiklərini etiraf edən M.Qorbaçov qoşunların çıxarılması prosesini tezliklə başa çatdırmağın zəruriliyini vurğuladı. O, 1987-ci ildə sovet qoşunlarının 50%-nin, 1988-ci ildə isə qalan 50%-nin çıxarılmasının, Pakistan və ABŞ ilə danışıqlar aparılmasının, M.Nəcibullanın Moskvaya çağırılmasının, onunla açıq danışılmasının və problemləri özünün həll etməsinin vacibliyini bildirdi.

ABŞ qarşısında geri çəkilən SSRİ 1988-ci ilin aprelində Cenevrədə Əfqanıstandan sovet qoşunlarının çıxarılmasına dair sazişi imzalamağa məcbur oldu. Sazişə görə, qoşunların çıxarılması 1989-cu il fevralın 15-dək başa çatdırılmalı idi.

Əfqanıstandan qoşunların çıxarılması sovet siyasətinin iflasını göstərməklə yanaşı, soyuq müharibənin sonunun başlanğıcı idi və beynəlxalq münasibətlərdə yeni şəraitin yaranmasından xəbər verirdi.

Qoşunlar çıxarılsa da, Əfqanıstan acınacaqlı vəziyyətə düşmüşdü. Sovet müdaxiləsi ölkəyə görünməmiş fəlakətlər gətirmiş, iqtisadiyyat dağılmış və əfqan cəmiyyəti parçalanmışdı. Uzun illər davam edən qanlı vətəndaş müharibəsi ölkəni bürümüş, hakimiyyət uğrunda aparılan amansız silahlı mübarizə on

21 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s.35.
22 Məhəmməd Nəcibulla (1947-1996) – Əfqanıstanın 2-ci Prezidenti (1986-1992).

minlərlə insanın ölümünə və vətənindən didərgin düşməsinə səbəb olmuşdu. Yüz minlərlə əfqan qaçqına çevrilmişdi.

Əfqanıstandan sovet qoşunlarının çıxarılması ABŞ ilə ikitərəfli münasibətlərə və digər beynəlxalq məsələlərin həllinə müsbət təsir etdi. ABŞ-da prezident seçkilərinin keçirilməsi ilə əlaqədar olaraq iki ölkə arasında münasibətlərdə durğunluq yarandı. Seçkilərdən sonra SSRİ – ABŞ münasibətləri ziddiyyətli şəraitdə davam etdi. Bunun başlıca səbəbi 1989-cu ildə ABŞ Prezidenti seçilən Corc Buşun[23] sovet-amerikan münasibətlərində fasilə götürməsi ilə bağlı idi. Həmin müddət ərzində Corc Buş, dövlət katibi Ceyms Beyker[24] və milli təhlükəsizlik məsələləri üzrə müşavir Brent Skoukroft[25] məqsədi SSRİ ilə yaxşı və daha sabit münasibətlər qurmaqdan ibarət olan "çəkindirmədən sonra" adlı strategiya işləyib hazırladılar.

1989-cu il dekabrın 2-3-də Maltada "Maksim Qorki" gəmisində keçirilən görüşdə Corc Buş Almaniyanın birləşdirilməsi məsələsində M.Qorbaçovu razı sala bildi. Bunun müqabilində SSRİ-yə müəyyən məbləğdə maliyyə vəsaiti veriləcəkdi.

Malta görüşünün nəticəsində imzalanan, ABŞ və SSRİ-nin bir-birini zidd dövlətlər hesab etmədikləri, aralarında düşmənçilik dövrünün başa çatdığı yazılan bəyanat dünyada soyuq müharibənin başa çatması istiqamətində atılan mühüm addım oldu. Tərəflər çoxlu fikir ayrılıqlarının mövcud olmasına baxmayaraq, dialoqun davam etdirilməsi barədə ümumi razılığa gəldilər.

SSRİ rəhbərliyi ölkə daxilində gedən mürəkkəb sosial-iqtisadi və siyasi proseslər səbəbindən ABŞ ilə münasibətlərin normal şəkildə davam etdirilməsində maraqlı idi. Çünki ölkədə separatçılıq, mərkəzdənqaçma meyilləri güclənir, milli ziddiyyətlər kəskinləşir və hakimiyyət əleyhinə hərəkətlər artdığından sovet rəhbərliyi xarici yardımlara ehtiyac duyurdu. Baltikyanı ölkələrdə baş verən hadisələr getdikcə daha çox təhlükəli xarakter alırdı. Bu baxımdan SSRİ xarici işlər naziri E.Şevardnadzenin ABŞ-a növbəti səfərinə xüsusi əhəmiyyət verilirdi. Onun 1990-cı il aprelin 4-6-da keçirilən səfərində başlıca məqsəd SSRİ Prezidenti M.Qorbaçovun iyun ayında ABŞ-a nəzərdə tutulan səfərini tezləşdirmək, tərksilah sahəsində mövqeləri yaxınlaşdırmaq, Avropada və dünyada vəziyyəti sabit inkişafa yönəltmək, SSRİ – ABŞ əməkdaşlığını möhkəmləndirmək idi.

---

23 Böyük Corc Buş (1924-2018) – ABŞ-ın 41-ci Prezidenti (1989-1993). ABŞ-ın BMT-dəki daimi nümayəndəsi (1971-1973). Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru (1976-1977). ABŞ-ın vitse-prezidenti (1981-1989).

24 Ceyms Beyker (1930) – ABŞ-ın dövlət katibi (1989-1992). Ağ ev administrasiyasının rəhbəri (1992-1993).

25 Brent Skoukroft (1925-2020) – ABŞ-ın 38-ci Prezidenti Cerald Fordun və 41-ci Prezidenti Böyük Corc Buşun milli təhlükəsizlik məsələləri üzrə müşaviri (1975-1977, 1989-1993).

Səfər barəsində martın 31-də Sov.İKP MK Siyasi Bürosunun bəzi üzvləri direktiv göstərişlərini Sov.İKP MK-ya yazdılar.[26] Direktivlərdə qeyd edilirdi ki, ABŞ tərəfi ilə danışıqlar zamanı SSRİ-nin daxili vəziyyəti barədə açıq söhbət etmək və Baltikyanı respublikalarda baş verənləri söyləmək lazımdır. Elə etmək lazımdır ki, Vaşinqtonun sovet respublikalarında separatçı əhval-ruhiyyəni müdafiə etmək imkanları olmasın. Direktivlərdə strateji hücum silahları ilə raketdən müdafiə sistemlərinin bir-biri ilə əlaqəli olduğu, adi silahlara dair təkliflərdə hər iki blokun Avropada silahlı qüvvələrini 700-750 min nəfər azaltması və kimyəvi silahın ləğvi tövsiyə olunur və dənizlərdə sabitliyin qorunmasının vacibliyi vurğulanırdı. Almaniyanın birləşdirilməsində dörd dövlətin birgə hərəkət etməsi və başqa qüvvələrin ondan sui-istifadə etməsinə yol verilməməsi, SSRİ-yə sərmayələr qoymaq üçün sənədlərin hazırlanmasına dair təkliflər verilməsi tövsiyə olunurdu.

Təqdim olunan direktivlər Sov.İKP MK Siyasi Bürosunun aprelin 2-də keçirilən iclasında geniş müzakirə edilərək bəyənildi.[27] Onların əsasında SSRİ xarici işlər nazirinə Prezident Corc Buş ilə söhbət zamanı müzakirə ediləcək məsələlər barədə konkret göstərişlər verildi.

SSRİ xarici işlər naziri səfər zamanı dövlət katibi Ceyms Beyker və Prezident Corc Buş ilə görüşərək verilən direktiv göstərişlərə uyğun olaraq danışıqlar apardı. Danışıqların yekununda iki ölkə rəhbərinin görüşünün keçirilməsi məsələlərinə dair razılıq əldə edildi.

M.Qorbaçov ilə 1990-cı ilin may-iyun aylarında keçirilən görüşdə C.Buş Almaniyanın birləşməsinin və NATO-ya üzv qəbul edilməsinin vacibliyini SSRİ rəhbərinə izah edə bildi. ABŞ-ın baxışına görə, NATO-dan kənarda və nəzarətsiz qalan birləşmiş Almaniya SSRİ üçün daha çox təhlükə törədə bilərdi. SSRİ rəhbəri birləşmiş Almaniyanın NATO üzvü olması təklifini qəbul etdi. ABŞ isə öz növbəsində bu addımın SSRİ-nin milli təhlükəsizliyinə zidd olmaması üçün tədbirlər həyata keçirəcəyinə söz verdi. Danışıqlar zamanı sovet iqtisadiyyatına maliyyə yardımı edilməsi barədə razılıq əldə olundu.

SSRİ – ABŞ münasibətlərində baş verən bu hadisələr bütün beynəlxalq münasibətlər sistemində yeni bir səhifə açır, ümumavropa prosesinə də müsbət təsir edirdi. Belə ki, ATƏM iştirakçısı olan dövlətlərin hələ 1986-cı ilin noyabr ayından 1989-cu ilin yanvar ayına qədər keçirilən Vyana görüşündə üç əsas məsələdə irəliləyiş əldə olunmuşdu: hərbi-siyasi; iqtisadi əməkdaşlıq; humani-

26 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s.40.

27 Выписка из протокола № 184 заседания Политбюро ЦК КПСС от 2 апреля 1990 года. О директивах для переговоров министра иностранных дел СССР с президентом США Дж.Бушем и государственным секретарем Дж.Бейкерем (Вашингтон, 4-6 апреля 1990 г.). Совершенно секретно // Российский государственный архив новейшей истории (РГАНИ), ф. 89, оп. 9, д.100, л.1.

tar məsələlər və insan hüquqları. Həmin görüşdə etimad tədbirlərinə dair sənəd hazırlanmışdı.[28] Bundan sonra Avropa ölkələri ilə də ikitərəfli münasibətlər genişləndi. Fransa, Böyük Britaniya və İtaliya rəhbərləri ilə keçirilən danışıqlarda "Ümumavropa evi" ideyası irəli sürüldü, Almaniyanın birləşməsi zərurətə çevrildi.

SSRİ eyni sistemdə olmasına baxmayaraq, uzun illər boyu düşmən olduğu Çinin irəli sürdüyü üç şərti qəbul edərək qarşılıqlı münasibətləri normallaşdırmağa məcbur oldu. Sovet rəhbərliyi Çinin aşağıdakı şərtlərini yerinə yetirdi: Cenevrə sazişinə uyğun olaraq Əfqanıstandan qoşunlarını çıxardı; Kambocaya müdaxilə etməyəcəyini bildirdi; Uraldan şərqə tərəf ərazilərindəki silahlı qüvvələrinin sayını azaltdı və ordu hissələrini Monqolustandan çıxardı.

Beləliklə, 80-ci illərin ikinci yarısından etibarən SSRİ – ABŞ münasibətlərində ciddi təkamül baş verdi. ABŞ tərəfinin SSRİ-nin məqsədlərinə açıq şəkildə etirazını bildirməsi və bu siyasətinə geniş xalq kütlələrinin dəstəyini cəlb etməsi nəticəsində M. Qorbaçovun başladığı yenidənqurma siyasəti sosializm sisteminin ümumi böhranına gətirib çıxardı. İki sistem ölkələri arasında münasibətlərdə mövcud olan ziddiyyətlər aradan qaldırılsa da, Avropanın sosialist ölkələrini böhran bürüdü. Dünyada uzun illər boyu zor gücünə mövqelərini qoruyub saxlayan SSRİ-nin yaranmış şəraitdə həmin ölkələr üzərində təsiri getdikcə zəifləyirdi. Belə bir zamanda SSRİ – ABŞ münasibətlərində müzakirə edilən başlıca məsələlərdən biri Avropanın sosialist ölkələrində baş verən proseslər idi. Beynəlxalq münasibətlərdəki dəyişikliklər Sovet İttifaqının hökmlərindən əziyyət çəkən Avropanın sosialist ölkələrindən də yan keçmədi.

## *1.2. "Sanitar kordonu"nun dağılması*

Məlum olduğu kimi, soyuq müharibə illərində Şərqi Avropa ölkələri "dəmir pərdə", qapalı cəmiyyət olan SSRİ və açıq cəmiyyətlərin mövcud olduğu Qərb dövlətləri arasında "sanitar kordon"u rolunu oynayırdılar. Sovet rəhbərliyinin təzyiqlərindən əziyyət çəkən Avropanın sosialist ölkələrinin ərazilərindəki SSRİ hərbi bazaları onların suveren hüquqlarını məhdudlaşdırırdı. Bu ölkələrdəki sosializm sistemləri sovet yardımlarının və silahının gücünə mövcudluğunu saxlayırdı.

Qeyd etmək lazımdır ki, həmin ölkələrin xalqlarının SSRİ-yə xoş yanaşmadığını bilən sovet rəhbərliyi münasibətlərə mane olan amilləri aradan qaldırmaq

28 Венский документ 1990 г. переговоров по мерам укрепления доверия и безопасности. Вена, 1990, с.183-219.

üçün müəyyən zamanlarda cəhdlər etsə də bu, uğursuz nəticələnmişdi. Sov.İKP MK Siyasi Bürosunun 1986-cı il iyunun 26-da keçirilən iclasında MK-nın Baş katibi M. Qorbaçovun sosialist ölkələri arasında mövcud olan bütün maneələri aradan qaldırmaq məqsədi güdən təklifləri əks olunmuş qeydləri müzakirə edildi.[29] Qeydlərdə sosialist ölkələri arasında əməkdaşlığı genişləndirmək üçün tədbirlər nəzərdə tutulsa da, hər şey yazıldığı kimi olmadı. Dünyada və SSRİ daxilində baş verən proseslərin təsiri altında həmin ölkələr sosializmdən uzaqlaşmağa başladılar. Roma Papası siyasi baxımdan təzyiq altında əzilən Şərqi Avropada on illər boyunca davam edən kommunizm ideologiyasının içinin boş olduğunu bəyan etməklə xalqların mənəvi oyanış hisslərini alovlandırdı və bu ölkələrdə böyük dəyişikliklərlə nəticələnən "məxməri inqilablar" baş verdi.

Proseslərin sürətlə getdiyi ölkələrdən biri olan Polşada xalq dinc yolla, qan tökmədən sosializmdən imtina etdi. Ölkədə 1988-1989-cu illərdə radikal islahat tərəfdarları qələbə qazandılar. On ilə yaxın müddətdə sosializmə qarşı mübarizə aparan "Həmrəylik" ("Solidarnost") təşkilatı leqallaşdırıldı. Baş verən proseslərin təsiri altında ölkə rəhbəri Voysex Yaruzelski[30] istefaya getdi. "Həmrəylik" təşkilatının rəhbəri Lex Valensa[31] ölkə rəhbəri seçildi. Polşa sosializm sistemindən qopan ilk ölkə oldu.

Polşadakı hadisələr digər sosialist ölkələrinə də təsir etdi. Macarıstanda siyasi sistemin böhranı baş verdi. Hələ 50-ci illərdən bu ölkədə başlayan mürəkkəb proseslər zor gücünə nəzarətdə saxlanılsa da, artıq köhnə qaydada yaşamaq mümkün deyildi. Mövcud sistemin dağılması üçün siyasi, sosial və iqtisadi səbəblər çoxdan yaranmışdı. 1988-ci ilin may ayında Yanoş Kadar[32] istefaya getdi. Ölkədə çoxpartiyalı sistemə keçid baş verdi.

Sov.İKP MK Siyasi Bürosu Macarıstandan sovet qoşunlarının çıxarılması haqqında 1990-cı il martın 9-da qərar qəbul etdi.[33] Bu isə ölkədəki ictimai-siyasi şəraitə ciddi təsir göstərdi. Keçirilən azad seçkilər nəticəsində Macarıstanda sovet modelində sosializm iflasa uğradı və yeni sistemə qədəm qoyuldu.

Dərin dəyişiklər Almaniya Demokratik Respublikasında da başladı. Erix Honekkerin[34] rəhbərlik etdiyi ölkədə mövcud sistem böhran içərisində idi. Artıq qeyd edildiyi kimi, bu zaman ABŞ Prezidenti R.Reyqan Almaniyanın birləşdirilməsinin və Avropanın bütövləşdirilməsinin vacib olduğunu bildirmiş-

29 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s.46.
30 Voysex Yaruzelski (1923-2014) – Polşanın dövlət, siyasi və hərbi xadimi. Polşa Birləşmiş Fəhlə Partiyasının birinci katibi (1981). Ölkə Prezidenti (1989-1990).
31 Lex Valensa (1943) – Polşanın ictimai və dövlət xadimi. "Həmrəylik" təşkilatının rəhbəri. Nobel mükafatı laureatı. Polşa Prezidenti (1990-1995).
32 Yanoş Kadar (1912-1989) – Macarıstan dövlət və siyasi xadimi, rəhbəri (1956-1988).
33 Постановление Политбюро ЦК КПСС от 09.03.1990 г. №181-30 г. О выводе советских войск из Венгрии. Секретно // РГАНИ, ф.89, оп.8, д.78, л.1-13.
34 Erix Honekker (1912-1994) – ADR rəhbəri (1971-1989).

di. Almaniyanın yenidən birləşməsi ideyası hələ 1986-cı il iyulun 26-da AFR-in xarici işlər naziri Hans Ditrix Genşerin[35] Moskvaya səfəri zamanı M.Qorbaçov ilə keçirdiyi görüşündə qaldırılmışdı. Bundan sonra birləşmə mövzusu tədricən AFR – SSRİ münasibətlərinin çərçivəsini aşaraq ABŞ – SSRİ münasibətlərinin gündəliyinə daxil olmuşdu.

M.Qorbaçovun 1989-cu il iyun ayında AFR-ə səfəri zamanı Almaniyanın birləşdirilməsi məsələsinin mümkünlüyü məlum oldu. Bundan sonra ADR vətəndaşlarının AFR-ə qaçması kütləvi xarakter alsa da, mühacirət etmək istəməyənlər ölkə daxilində dəyişikliklərin həyata keçirilməsini tələb edirdilər. Nəticədə xalqın tələbləri qarşısında Erix Honekker istefaya getdi və ADR-də sosializm sistemi iflasa uğradı. Bundan sonra iki Almaniyanın birləşdirilməsi məsələsi daha kəskin şəkil aldı. Birləşməni qəti surətdə tələb edən alman xalqının 1989-cu il noyabrın 9-da Berlin divarını dağıtması ilə Almaniyanın birləşməsi beynəlxalq münasibətlərin aktual məsələsinə çevrildi. Qeyd edildiyi kimi, Maltada keçirilən SSRİ - ABŞ görüşündə müzakirə edilən əsas məsələ Almaniyanın yenidən birləşdirilməsi olmuşdu. Almaniyanın birləşdirilməsinin qarşısını almaqda aciz olan M.Qorbaçov ADR və AFR-in qovuşmasının vacibliyini başa düşmüşdü. ABŞ rəhbərliyi birləşmə üstündə SSRİ-nin müharibəyə başlamayacağına tam əmin olmuşdu. Beləliklə, Almaniya dinc yolla, qan tökülmədən aşağıdan, xalq tərəfindən birləşdirildi. İki Almaniyanın birləşməsi faktiki olaraq baş versə də, birləşmənin hüquqi cəhətdən rəsmiləşdirilməsi lazım idi.

Beynəlxalq diplomatiya səhnəsində Almaniyanın yenidən birləşməsi 1990-cı ilin fevral ayında real cizgilər almağa başladı. 1990-cı il iyulun 1-də ADR və AFR arasında hər iki ölkənin parlamentləri tərəfindən bəyənilmiş valyuta, iqtisadi və sosial ittifaq haqqında dövlət müqaviləsi imzalandı.

1990-cı il iyulun 15-16-da AFR kansleri Helmut Kol[36], M.Qorbaçov, Hans Ditrix Genşer və E. Şevardnadze Stavropol diyarının Arxız rayon mərkəzində görüşərək Almaniyadan sovet qoşunlarının çıxarılması məsələsini müzakirə etdilər. SSRİ rəhbərliyi çıxarılan qoşun hissələrinin yerləşdirilməsi üçün 20 milyard alman markası istəsə də, Almaniya tərəfi 15 milyard marka və əlavə olaraq 5 milyard marka kredit verməyə razılaşdı. Görüşdən bir müddət sonra, avqustun 31-də ADR ilə AFR arasında Almaniyanın birləşdirilməsi haqqında müqavilə bağlandı. Sovet hərbi hissələrinin ADR ərazisindən çıxarılacağı bəyan edilsə də, qoşunlar bir qədər gec, yalnız 1994-cü ildə çıxarıldı.

Almaniyanın birləşməsi məsələsinə dair 1990-cı ildə keçirilən 2+4 (AFR, ADR, ABŞ, SSRİ, Böyük Britaniya, Fransa) görüşündə alman xalqının təbii tarixi istəklərinin yerinə yetirilməsi zəruri hesab edildi. Sentyabrın 12-də Almaniya

35 Hans Ditrix Genşer (1927-2016) – AFR-in xarici işlər naziri (1974-1982).
36 Helmut Kol (1930-2017) – AFR-in federal kansleri (1982-1998).

məsələsinin tənzimlənməsinə dair sənəd imzalandı. İki Almaniya arasında imzalanan müqaviləni hər iki ölkənin parlamenti 1990-cı il sentyabrın 29-da təsdiq etdi. Sənəd oktyabrın 3-də qüvvəyə mindi.

Beləliklə, ADR dinc yolla AFR-ə qatıldı. Bununla da Almaniyanın parçalanması qan tökülmədən aradan qaldırıldı, Avropa bütövləşdi, qitədə və dünyada yeni şərait yarandı.

Dünyada gedən proseslər Avropanın digər sosialist ölkələrindən də yan keçmədi. 1989-cu ilin noyabrında baş verən "məxməri inqilablar" nəticəsində Çexoslovakiya və Bolqarıstan sosializmdən imtina etdilər.

Rumıniyada isə yeni cəmiyyətə keçid ağrılı oldu. Ölkəni bürüyən nümayişlərin nəticəsində Nikolae Çauşesku[37] devrilərək həyat yoldaşı ilə birlikdə güllələndi. Hakimiyyətə Milli Qurtuluş Cəbhəsinin lideri İon İliesku[38] gəldi.

Albaniya da özünütəcrid vəziyyətindən çıxaraq azad bazar iqtisadiyyatı və demokratiya yolunu tutdu. Ölkədə açıq cəmiyyət quruculuğuna başlandı.

Beləliklə, 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrində keyfiyyətcə yeni şərait yarandı. Kommunist rejimləri devrildi və demokratiyaya keçid baş verdi.

Avropanın müharibədən sonrakı bütün simasını dəyişən bu proseslər 1990-cı il noyabrın 19-21-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Məsələlərinə dair Müşavirənin üzvü olan ölkələrin nümayəndə heyətlərinin yüksək səviyyədə Parisdə keçirilən zirvə görüşündə təsbit edildi. Toplantıda ATƏM üzvü olan ölkələrin dövlət və hökumət başçıları əməkdaşlıq və dostluq sahəsində yeni münasibətlər qurmaq niyyətlərini elan edən Yeni Avropa üçün Paris xartiyasını imzaladılar.[39] Bu sənəd 1975-ci il 1 avqust tarixli Helsinki Yekun aktının prinsiplərini bir daha təsdiq edərək bütün ATƏM iştirakçısı olan dövlətlərin çoxtərəfli əməkdaşlıqda maraqlı olduğunu göstərdi. Zirvə görüşündə müşavirə iştirakçılarının müntəzəm siyasi məsləhətləşmələrinin keçirilməsinin və ümumavropa qarşılıqlı fəaliyyətinin daimi strukturlarının yaradılmasının zəruriliyi etiraf edildi, ümumavropa prosesinin əsas istiqamətləri müəyyənləşdirildi. Paris müşavirəsi Avropadakı dövlətlərarası münasibətlərdə parçalanma və qarşıdurma dövrünün başa çatdığını, yeni bir dövrün başlandığını göstərərək qitədə təhlükəsizliyin yeni təməllərini yaratdı. Xartiya Avropa xalqları üçün ümumi dəyərlərə – demokratiya, insan hüquqlarına hörmət, azad bazar iqtisadiyyatı və qanunun aliliyinə əsaslanırdı.

37 Nikolae Çauşesku (1918-1989) – Rumıniyanın dövlət və siyasi xadimi. Rumıniya KP MK-nın baş katibi (1965-1989). Ölkə Prezidenti (1974-1989).
38 İon İliesku (1930) – Rumıniya dövlət və siyasi xadimi. Ölkə Prezidenti (1989-1996), (2000-2004).
39 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s.50.

Bütün bu dəyişikliklər sosialist ölkələrinin hərbi və iqtisadi əməkdaşlığına da təsir göstərdi. 1949-cu ildə sovet rəhbərliyinin hökmü ilə yaradılmış Qarşılıqlı İqtisadi Yardım Şurası, 1955-ci ildə qurulmuş hərbi-siyasi Varşava Müqaviləsi Təşkilatı 1991-ci ildə dağıldı. Hərbi blokların qarşıdurmasına son qoyulsa da, NATO buraxılmadı.

"Sanitar kordon"u dağıldıqdan sonra Avopada baş verən bütün bu proseslər SSRİ daxilindəki şəraitə də təsir etdi. Çoxlu xalqların yaşadığı, millətlərarası münasibətlərin kəskinləşdiyi və uğurlu islahatlar aparmaq üçün çox böyük, danışıqlar masası arxasında oturmaq üçün isə namünasib olan Sovet İttifaqında böhran dərinləşirdi.

### *1.3. SSRİ-də daxili ictimai-siyasi şərait*

Məlum olduğu kimi, sovet dövləti mövcudluğunu ideoloji baxımdan Sov.İKP-nin hakim rolu, güc baxımından ordu və təhlükəsizliyin, milli münasibətlər baxımından xalqlar dostluğunun, iqtisadi baxımdan mərkəzləşdirilmiş iqtisadiyyatın sayəsində qoruyub saxlayırdı. SSRİ rəhbərliyinin ölkənin beynəlxalq mövqelərini xalqın müflisləşməsi hesabına aparılan və baha başa gələn sürətlə silahlanma proqramlarını artıraraq saxlaması nəticəsində yaranmış ağır sosial-iqtisadi vəziyyətdən narazılıq, Kommunist Partiyasının hakim rolu və ordu əleyhinə təbliğat artırdı.

Sovet rəhbəri M.Qorbaçovun elan etdiyi demokratiya, aşkarlıq və yenidənqurma siyasətindən istifadə edərək rəqiblərini sıradan çıxarması, mövcud problemləri həll etmək əvəzinə onları özündən əvvəlki rəhbərlərin üstünə yıxması, qeyri-ardıcıl, zəif və səriştəsiz siyasəti SSRİ-də vəziyyəti daha da ağırlaşdırırdı. İdarəçilər və xalqlar belə hərəkətlərə hazır deyildi.

Ölkənin ən narahat regionları Cənubi Qafqaz və Baltikyanı respublikalar hesab edilirdi. Milli münasibətlər baxımından SSRİ-nin mövcudluğu zəncirindəki ən zəif yer Cənubi Qafqaz, burada isə hələ XIX əsrdə çarizmin yürütdüyü siyasət nəticəsində regiona gətirilib azərbaycanlı torpaqlarına yerləşdirilmiş ermənilərin dağıdıcı fəaliyyətlərinin doğurduğu və bəlli tarixi olan erməni – azərbaycanlı münasibətlərindəki mürəkkəbliklər idi. ABŞ politoloqu Zbiqnev Bjezinskinin[40] yazdığı kimi, bu illərdə baş verənlərin bir xüsusiyyəti olan zorakılıq "demokratiya və milli müqəddəratı təyinetmə" şüarı altında tətbiq olu-

40 Zbiqnev Bjezinski (1928) – ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri (1977-1981).

nurdu.[41] Regionlarda gedən proseslər bir sıra özünəməxsus xüsusiyyətləri ilə səciyyələnirdi. Hadisələr müxtəlif formalarda baş versə də, mahiyyətinə görə, mərkəzdənqaçma meyillərini, ölkənin dağılmağa doğru getdiyini göstərir və zəncirvari reaksiyaya çevrilirdi.

Cənubi Qafqaz regionu və Baltikyanı respublikalar milli münasibətlər baxımından narahat hesab edilmələrinə baxmayaraq, ölkə ərazisində ilk qan Qazaxıstanda töküldü. M.Qorbaçov SSRİ-nin türk respublikalarının rəhbərlərinə etibar etmir, həmin respublikaların müstəqilliklərini elan edəcəklərindən qorxurdu. Ona görə də 1986-cı ildə Qazaxıstan KP MK-nın birinci katibi Dinməhəmməd Kunayevi[42] vəzifəsindən azad edərək yerinə qazax olmayan Nikolay Kolbini[43] təyin etdi. Qazax xalqının milli hisslərini təhqir edən bu qərara qarşı Alma-Ata küçələrinə çıxan tələbələrin etirazları polis və ordunun, xüsusən qeyri-qazaxlardan təşkil edilmiş silahlı dəstələrin köməyi ilə amansızlıqla yatırıldı. Ölən və yaralananlar oldu, kütləvi həbslər aparıldı.

Bu hadisədən bir müddət sonra – 1987-ci ilin oktyabrında Heydər Əliyevin Sov.İKP MK siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrindən istefa verməsinin ardınca Ermənistan Azərbaycanın daxili işlərinə kobud surətdə müdaxilə edərək Dağlıq Qarabağ regionunda ekstremizmi və davakar separatçılığı qızışdırmağa başladı.

Qanlı hadisələr Gürcüstanda da baş verdi. 1988-ci ilin noyabrından etibarən Tbilisidə başlayan kütləvi nümayişləri Mərkəzi hakimiyyət 1989-cu il aprelin 9-da silah gücünə dağıtdı. 19 nəfər öldürüldü, minlərlə adam qazla zəhərləndi.

Ölkədə elan edilmiş demokratikləşdirmə, aşkarlıq və yenidənqurma siyasətinə baxmayaraq, sovet rəhbərliyi dinc insanların qanını tökmək bahasına köhnə sistemi zor gücünə saxlamağa və müttəfiq respublikaların hüquqlarını məhdudlaşdırmağa çalışırdı. Belə bir şəraitdə müttəfiq respublikalarda demokratik proseslər güclənir və xalq hərəkatları yaranırdı. Onların liderləri ölkədə rəhbərliyin zəif olduğunu görüb yuxarıdan inqilab və ya ciddi dəyişikliklər tələb edirdilər. Moskvada isə hazırlanacaq ölkə konstitusiyasında ediləcək düzəlişlər əsasında müttəfiq respublikaların ən minimum hüquqlarının da məhdudlaşdırılacağının bildirilməsi qeyri-formal təşkilatların narazılığına səbəb oldu. Nəticədə ölkədə dinc tələbləri özündə əks etdirən kütləvi mitinq və nümayişlər keçirilməyə başlandı.

41 Bjezinski Z. İkinci şans: üç prezident və Amerika fövqəldövlətinin böhranı. Bakı, 2009, s. 29.
42 Dinməhəmməd Kunayev (1912-1993) – Qazaxıstanın partiya və dövlət xadimi. Qazaxıstan KP MK-nın birinci katibi. Sov. İKP MK Siyasi Bürosunun üzvü (1964-1986). Qazaxıstan EA-nın akademiki.
43 Nikolay Kolbin (1927-1998) – Qazaxıstan KP MK-nın birinci katibi (1986-1989). SSRİ Xalq Nəzarəti Komitəsinin sədri (1989-1990).

Belə bir şəraitdə hələ 1939-cu il avqustun 23-də imzalanmış gizli Ribbentrop[44] – Molotov[45] paktı və ya sovet-nasist paktına dair Baltikyanı ölkələrdə açıq müzakirələr genişləndi. SSRİ rəhbərliyi paktın mövcudluğunu inkar edirdi. Qeyd etmək lazımdır ki, həmin pakt SSRİ-yə Finlandiya, Litva, Estoniya, Latviya, Bessarabiya və Polşanın digər ərazilərini işğal edib birləşdirməyə əsas vermişdi. Paktın şərtlərinin həyata keçirilməsi nəticəsində Baltikyanı ölkələrin müstəqillikləri ləğv edilmişdi. Lakin Baltikyanı ölkələrin işğal edilərək zorla sovetləşdirilməsi heç də bütün dünya tərəfindən legitim olaraq qəbul edilməmişdi. Bu respublikaların xalqları paktın mətbuat orqanlarında dərcini qətiyyətlə tələb edir, rəhbərləri isə tez-tez Moskvaya gələrək müvafiq istəyi mərkəzi hakimiyyətə çatdırırdılar. Baltikyanı respublikaların rəhbərləri SSRİ-nin federasiyadan konfederasiyaya çevrilməsinə razı olsalar da, sovet rəhbərliyi həmin istəyi yerinə yetirmədi.

Ribbentrop – Molotov paktını axtarmaq üçün xüsusi komissiya təşkil edildi. Lakin sovet arxivlərində həmin sənəd tapılmadı. Aydın oldu ki, xarici işlər naziri V.Molotov 1956-cı ildə vəzifəsindən gedərkən paktı və protokolu SSRİ Xarici İşlər Nazirliyinin arxivindən öz adına götürmüş, lakin arxiv fonduna qaytarmamışdır. Onun vəzifəsindən çıxarılması ilə həmin sənədlər də yoxa çıxmışdı. SSRİ-də tapılmamasına baxmayaraq, Almaniya arxivlərində saxlanılan həmin sənədlər çıxarılaraq dərc edildi. RSFSR parlamenti Baltikyanı respublikaların Stalin və Hitler arasında razılaşmanın qurbanı olduğunu təsdiqlədikdən sonra həmin respublikalar artıq konfederasiya deyil, tam müstəqillik tələb etməyə başladılar.

Estoniyada rəsmi hakimiyyətə alternativ olaraq eston vətəndaş komitələri qurulurdu. Belə bir vəziyyətdə zəif olan Kommunist Partiyası açıq ideoloji mübarizədən çəkinirdi. Yaranmış şərait Sov.İKP MK-nı narahat etdiyindən konkret tədbirlər müəyyənləşdirilsə də[46], nəticəsi olmadı.

Millətçilik və demokratik hərəkatın artdığı Litvada iqtisadi azadlıq və dövlət müstəqilliyi tələbləri genişləndi. Litvalı qeyri-formalların baxışlarına görə, yenidənqurma siyasətinin başlıca məqsədi xalqların milli azadlığa çıxması olmalı idi. Respublika hakimiyyəti Litvanın 1940-cı il iyulun 21-də SSRİ-nin tərkibinə daxil edilməsi haqqında Xalq Seyminin və 1940-cı il avqustun 3-də sovet hökumətinin Litva SSR-i SSRİ-nin tərkibinə daxil etməsi haqqında qərarlarını ləğv etdi.

44 Yoahim fon Ribbentrop (1893-1946) – Hitler Almaniyasının xarici işlər naziri. 1946-cı il Nürnberq məhkəməsinin hökmü ilə edam edilmişdir.

45 Vyaçeslav Molotov (1890-1986) – SSRİ Xalq Komissarları Sovetinini sədri (1930-1941). SSRİ xalq xarici işlər komissarı, xarici işlər naziri (1939-1949, 1953-1956).

46 Выписка из протокола № 163 заседания Политбюро ЦК КПСС от 22 июля 1989 года. О политической ситуации в Прибалтийских республиках. № P163/40. Совершенно секретно // РГАНИ, ф.89, оп.9, д.6, л.1-6.

Bu hadisə narahatlıqla qarşılandığı üçün Moskva vəziyyəti düzəltmək məqsədi ilə yollar axtarmağa başladı. Sov.İKP MK Siyasi Bürosu Litvadakı vəziyyətə dair məsələni müzakirə edərək Sov.İKP MK-nın bəyanatı barədə qərar qəbul etdi.[47] Sov.İKP MK 1989-cu il avqustun 26-da bəyanat verərək respublikadakı hərəkətləri pislədi.[48] Siyasi Büro müvafiq qərar qəbul etsə də[49], Litvada şəraiti sabitləşdirmək mümkün olmadı.

Baltikyanı respublikalarda baş verən proseslərin son məqsədi sosial quruluşu dəyişmək və SSRİ-dən ayrılmaq idi. Ona görə də bu respublikalarda dövlət və partiya orqanları sistemli şəkildə nüfuzdan salınır, anti-kommunist əhval-ruhiyyə, cəmiyyətdə qütbləşmə artır, kommunistlərə mənəvi təzyiqlər edilir və milli dirçəliş güclənirdi.

Sovet rəhbərliyi müvafiq tədbirləri nəzərdə tutan əlavə qərar qəbul etsə də[50], Baltikyanı respublikalarda şərait sabitləşmədi.

SSRİ-də milli münasibətlərdə gərginlik zəifləmirdi. Ölkədə yaranmış şərait Sov.İKP MK Siyasi Bürosunun 1990-cı il 12 mart tarixli iclasında müzakirə edildi.[51] Qəbul edilən qərarda 100 minlərlə qaçqının ədalətə və sovet hakimiyyətinin onların vətəndaşlıq hüquqlarının qorumasına inamını itirdiyi qeyd olunurdu. Belə vəziyyət milli nifaqı qızışdırır və respublikalarda mərkəzdənqaçma meyillərini gücləndirir, müxalifət isə yaranmış vəziyyətdən məharətlə istifadə edirdi. Mitinqlər tədricən Kommunist Partiyasının və sovet hökumətinin əleyhinə çevrilirdi. Sov.İKP parçalanırdı. Bu zaman Litva KP Sov.İKP-dən ayrılaraq müstəqil təşkilat olduğunu bəyan etdi. Baltikyanı respublikaların SSRİ-dən ayrılmasının qarşısını almaq üçün sovet rəhbərliyi Vilnüs və Riqaya ordu hissələri yeridərək hərəkatı qanla boğmağa cəhd etdi. Lakin SSRİ-nin dağılması prosesini dayandırmaq mümkün olmadı.

Ukraynanın qərb vilayətlərində də ictimai-siyasi şərait kəskinləşdi. Burada kommunistlər üzərində cəza tədbirlərinin tətbiq edilməsi barədə çağırışlar

47 Выписка из протокола № 164 заседания Политбюро ЦК КПСС от 26 августа 1989 года. О заявлении ЦК КПСС о положении в республиках Советской Прибалтики. № П 164/168. Совершенно секретно // РГАНИ, ф. 89, оп. 9, д. 25, л.1.

48 Заявление ЦК КПСС о положении в республиках Советской Прибалтики // РГАНИ, ф. 89, оп. 9, д. 25, л.2-10 .

49 Выписка из протокола № 164 заседания Политбюро ЦК КПСС от 30 августа 1989 года. О кризисных явлениях в общественно-политической жизни Литовской ССР. № П 164/200. Совершенно секретно // РГАНИ, ф.89, оп. 9, д.28, л. 1.

50 Постановление секретариата ЦК КПСС. Об информации отделов ЦК КПСС о положении в республиках Прибалтики от 7 декабря 1991 года. № СТ-16/3. Секретно // РГАНИ, ф. 89, оп. 5, д. 12, л. 1.

51 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 56.

genişlənir və sovet ordusu əleyhinə güclü kampaniya aparılırdı.[52] Sovet quruluşunun mövcudluğunu qoruyub saxlayan əsas dayaqlardan biri olan ordunun nüfuzu sarsıdılır və milli münasibətlər qızışdırılırdı.

***

Fəsildə araşdırılan məsələlər göstərir ki, Azərbaycan xalqının dövlət müstəqilliyini bərpa etməsi ərəfəsində SSRİ-nin beynəlxalq vəziyyəti mürəkkəb olmuşdur. Bu mürəkkəblik SSRİ – ABŞ münasibətlərində gərginliklə, tərksilah, Əfqanıstana sovet hərbi müdaxiləsindən sonra yaranmış qarşıdurma ilə səciyyələnmişdir. Bütün sahələrdə zəif olan SSRİ Qərb dövlətləri qarşısında güzəştlərə gedərək qoşunlarını Əfqanıstandan çıxarmışdır.

Dünyada baş verən bu proseslər sosialist ölkələrinə də təsir etmişdir. Avropada sosializm sisteminin iflasa uğraması ilə Şərq və Qərb arasında ideya-siyasi və hərbi qarşıdurmaya son qoyulmuşdur. Soyuq müharibə tarixə çevrilmiş və beynəlxalq münasibətlərin Yalta-Potsdam sistemi dağılmışdır. SSRİ İkinci Dünya müharibəsində silah gücünə Şərqi Avropada əldə etdiklərinin çoxunu itirmişdir. Qarşılıqlı İqtisadi Yardım Şurası və Varşava Müqaviləsi Təşkilatı dağılmışdır. Yeni dünya düzəni formalaşmağa başlamışdır. Dünyanın siyasi xəritəsində dərin dəyişikliklər baş vermişdir. ABŞ dünyanın yeganə fövqəldövlətinə çevrilmişdir. Şərqi Avropada sosializm sistemini qoruya bilməyən sovet rəhbərliyinin başlıca qayğılarından biri bundan sonra SSRİ-nin mövcudluğunu saxlamaq olmuşdur.

Dünyada baş verən proseslər və sosializm sisteminin dağılması SSRİ-də daxili ictimai-siyasi və iqtisadi şəraitə də təsir etmişdir. Sovet rəhbərliyinin uğursuz siyasəti vəziyyəti daha da ağırlaşdırmış və böhranı dərinləşdirmişdir. Belə bir şəraitdə SSRİ islahatların uğurla aparılması üçün ərazi baxımından çox böyük idi.

Sovet İttifaqında millətlərarası münasibətlər kəskinləşmiş və mərkəzdənqaçma meyilləri artmışdır. Milli münasibətlər baxımından SSRİ-nin mövcudluğu zəncirində ən zəif halqa Cənubi Qafqaz və Baltikyanı respublikalar idi. Baltikyanı respublikalar Mərkəz ilə bir yerdə yaşaya bilməyəcəklərini elan etmişdir. Cənubi Qafqazda isə Ermənistanın əsassız ərazi iddiaları ilə Azərbaycanın daxili işlərinə kobud müdaxiləsi və separatçılığı qızışdırması nəticəsində şərait daha da pisləşmişdir.

52 Зам. зав. идеологическим отделом ЦК КПСС А.Дегтярев, зам.зав отделом партийного строительства и кадровой работы ЦК КПСС Ю.Рыжов, зам. зав государственно-правовым отделом ЦК КПСС А.Сошников – ЦК КПСС. Об общественно-политической обстановке в западных областях Украины. 29 августа 1990 года. Секретно // РГАНИ, ф. 89, оп. 8, д. 52, л.2-3.

# 2-ci FƏSİL

## ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏSASSIZ ƏRAZİ İDDİALARININ BAŞLANMASI VƏ İLK NƏTİCƏLƏRİ

### *2.1. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və azərbaycanlıların tarixi torpaqlarından sonuncu deportasiyası*

XX əsrin 80-ci illərinin ortalarında Sovet İttifaqında ən mürəkkəb proseslərdən biri Ermənistanın digər bir müttəfiq respublikanın – Azərbaycanın daxili işlərinə kobud müdaxiləsi oldu. Ermənistanın Azərbaycanın coğrafi-siyasi, etnik-mədəni, tarixi və hüquqi ərazisi olan DQMV-yə əsassız iddialar irəli sürməsi ilə iki respublika arasında münaqişə yarandı.

Məlum olduğu kimi, ermənilər Cənubi Qafqazda aborigen deyildirlər və çar Rusiyası tərəfindən strateji məqsədlər naminə azərbaycanlılara məxsus torpaqlara XIX əsrdə köçürülmüşdürlər. Çarizmin yaratdığı imkanlar hesabına onlar qısa müddətdə varlanmış, terror-siyasi təşkilatlarını yaratmış, 1918-ci ildə Ararat Respublikasını qurmuş, Azərbaycan tərəfi isə qədim tarixi şəhəri olan İrəvanı paytaxt olaraq vermişdir.[53]

Azərbaycan ərazisində mərkəzi sovet hakimiyyətinin təzyiqləri altında 1923-cü ildə süni surətdə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Sovet dövründə müxtəlif illərdə xarici ölkələrdən ermənilər Ermənistan SSR-ə gətirilib yerləşdirilmiş, azərbaycanlılar deportasiya edilmiş, onların evləri və təsərrüfatlarına gəlmələr yiyələnmiş, yaşayış məntəqələrinin adları dəyişdirilmiş, Ermənistan tədricən türksüz, azərbaycanlılarsız respublikaya çevrilmiş və erməniləşdirilmişdi. Xarici ölkələrdən gələn ermənilər özləri ilə kin, küdurət, düşmənçilik gətirirdilər. Bütün bunlarla yanaşı olaraq Ermənistan SSR müxtə-

53 *Daha ətraflı bax:* Qasımlı M.C. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920). Bakı, 2014.

lif illərdə, o cümlədən İkinci Dünya müharibəsindən sonra Azərbaycana qarşı əsassız ərazi iddialarını irəli sürmüşdü.[54] Həmin iddialar Azərbaycan rəhbərliyi tərəfindən rədd edilmişdi. Buna baxmayaraq, xaricdən ermənilərin gətirilib yerləşdirilməsindən ötrü Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlılar planlı şəkildə deportasiya edilmişdilər.

Qeyd etmək lazımdır ki, hələ XX əsrin 70-ci illərində də Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunda milli münaqişəni qızışdırmağa cəhd etsə də qarşısı alınmışdı. O zaman Ermənistandakı müəyyən dairələr sovet rəhbərliyinə müraciətlər edir və əsassız iddialar irəli sürürdülər. Ermənistanda millətçi qrup və təşkilatların antitürk əhval-ruhiyyəsi güclənirdi. SSRİ DTK-nın 1975-ci il üçün fəaliyyətinə dair hesabatında yazılırdı ki, Ermənistanda millətçi qruplar mövcuddur.[55] Eyni vəziyyət DTK-nın 1976-cı il[56], 1977[57] və 1978-ci illərə[58] dair hesabatında da yazılmışdı. Həmin sənədlərdən aydın olur ki, erməni radikal millətçi qrup və təşkilatların fəaliyyət istiqamətlərindən biri Azərbaycan xalqının tarixi ərazisi olan Dağlıq Qarabağ bölgəsinə olan əsassız iddialar idi.

70-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətini özünə doğma hesab etməsi və SSRİ-də vahid sovet xalqının yaradılması niyyətlərini güdən güclü təbliğatın təsiri altında bir çox erməni köçərək ölkənin iri şəhərlərində məskunlaşmağa can atırdı. Amma bu prosesi bəzi erməni alim, yazıçı, şair və publisistləri yanlış qiymətləndirir, anti-Azərbaycan baxışlarından heç cür əl çəkmirdilər. Onlar Dağlıq Qarabağ regionunda həyata keçirilən təsərrüfat, mədəni quruculuq işlərini qısqanaraq daha məkrlə əsassız iddialarını davam etdirirdilər. Bəzi erməni "ziyalıları" Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın

---

54 *Daha ətraflı bax:* Qasımlı M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). Bakı, 2016.

55 Отчет о работе Комитета государственной безопасности за 1975 год от 30 марта 1976 года. №709-А/ОВ, с.8-9. // The National Security Archive of the USA. The George Washington University in Washington.

56 Отчет о работе Комитета государственной безопасности за 1976 год от 28 февраля 1977 года. №414-А/ОВ, с.8. // The National Security Archive of the USA. The George Washington University in Washington.

57 Отчет о работе Комитета государственной безопасности за 1977 год от 27 марта 1978 года. №577-А/ОВ, с.11. // The National Security Archive of the USA. The George Washington University in Washington.

58 Отчет о работе Комитета государственной безопасности за 1978 год от 2 апреля 1979 года. №646-А/ОВ, с.6-7. // The National Security Archive of the USA. The George Washington University in Washington.

birinci katibi Heydər Əliyevin[59] rəhbərliyi altında Azərbaycanın sosial-iqtisadi, mədəni sahələrdə qazandığı uğurları qısqanır və DQMV-də aparılan quruculuq işlərindən narahat olurdular. Erməni dairələrinin müxtəlif mərkəzi orqanlara göndərdikləri şər və böhtan dolu şikayət məktubları və teleqramlarının ardı-arası kəsilmirdi.[60] Məsələn, DQMV-dən olan iki nəfər qocaman erməni bolşevikinin xahişi ilə müxbir İ.Y.Mesxinin "Oqonyok" jurnalının 1979-cu il 34-cü nömrəsində vilayətin sosial-iqtisadi, mədəni həyatında qazanılan uğurlardan və millətlərarası dostluqdan söhbət açılan "Biz Qarabağdanıq" adlı oçerki dərc edildikdən az sonra əslən Dağlıq Qarabağdan olan, atası Bakıda fəhlə işləyərək ailəsi üçün çörək pulu qazanmış Yerevan şəhər sakini, İkinci Dünya müharibəsinin iştirakçısı, istefada olan zabit, həkim Georgi Karapetoviç Ter-Akopov 1980-ci ilin mart ayında redaksiyaya beş səhifəlik məktub göndərərək oçerkə etirazını bildirdi.[61] Onun fikrincə, guya müharibə illərində SSRİ-nin əhalisi azalsa da, müharibədən sonrakı dövrdə ölkə əhalisi təxminən iki dəfə, çarizm zülmü altında inləyən xalqlar isə daha çox artmışdı. Yazırdı ki, Azərbaycanın əhalisi 1920-1978-ci illərdə 3.1, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının əhalisi 2.7, Ermənistanın

59 Heydər Əliyev (1923-2003) – Azərbaycanın xalqının Ümummilli lideri. Görkəmli siyasi və dövlət xadimi. Müasir Azərbaycan Respublikası dövlətinin qurucusu. Azərbaycan Respublikasının 3-cü Prezidenti (1993-2003). 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri təyin edilmişdir. 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda MK-nın Büro üzvü və Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında Siyasi Büronun üzvü seçilmişdir. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir. Dünyanın fövqəlgüc dövlətlərindən olan SSRİ-ni idarə edən şəxslərdən biri olmuşdur. 1987-ci ildə vəzifələrindən çıxarılmışdır. 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı cinayəti Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirdiyi mətbuat konfransında bəyanat verərək ittiham etmişdir. 1990-cı ilin iyulunda Azərbaycana qayıtmışdır. Bəyanat verərək Kommunist Partiyası üzvlüyündən çıxmışdır. Əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuşdur. 1993-cü ilin may-iyununda Azərbaycan vətəndaş müharibəsi və dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında qaldıqda xalqın tələbi ilə ölkə rəhbərləri onu Bakıya dəvət etməyə məcbur olmuşlar. İyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir. İyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır. Azərbaycanı parçalanmaqdan və vətəndaş müharibəsindən xilas etmişdir. 1993 və 1998-ci illərdə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Bir çox beynəlxalq mükafatlara layiq görülmüşdür. 2003-cü il dekabrın 12-də ABŞ-da Klivlend xəstəxanasında vəfat etmişdir. Bakıda Fəxri xiyabanda dəfn edilmişdir.

60 *Daha ətraflı bax:* Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006, s.344-359.

61 Тер-Акопов Г.К. – главному редактору журнала "Огонек" А.Сафронову // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.1, siy.67, iş 196, v.131-135.

əhalisi isə 4.2 dəfə artmış, Dağlıq Qarabağda tam tərsinə olan vəziyyət yaranmışdır, burada əhali heç 1913-cü il səviyyəsinə çatmamışdır. Qeyd etmək lazımdır ki, müqayisənin 1913-cü il ilə aparılması tamamilə səhv idi. Çünki həmin ildə nəinki DQMV, hətta "Dağlıq Qarabağ" ifadəsi mövcud deyildi.

Georgi Karapetoviç Ter-Akopov Ağdam-Stepanakert (Xankəndi) dəmiryolunun tikintisinin, şair Molla Pənah Vaqifə 18 metrlik məqbərə ucaldılmasının, xan qızı şairə Xurşidbanu Natəvanın yaradıcılığının təbliğ edilməsinin əleyhinə çıxırdı. Yazırdı ki, guya yerli ermənilər sıxışdırılır, Azərbaycan xalqının mədəni sərvətləri isə dirçəldilir. Məktub müəllifi Dağlıq Qarabağın Azərbaycan tərkibinə guya ədalətsiz qatıldığını əsassız yerə iddia edirdi.

Uydurmalarla dolu olan həmin məktubu jurnalın baş redaktoru Anatoli Safronov[62] 1980-ci il martın 28-də Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə. Əliyevə göndərərək redaksiyanın müəllifə cavab verərkən istifadə etməsi üçün imkan olarsa, öz mülahizələrini bildirməsini xahiş etdi.[63] Heydər Əliyevin tapşırığına əsasən, Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin katibi B.S.Gevorkov[64] vilayətin sosial-iqtisadi və mədəni inkişafına dair kifayət qədər əsaslandırılmış və Ter-Akopovun məktubunda irəli sürülən iddiaların əsassızlığının mötəbər fakt və materiallarla sübut olunduğu 11 may tarixli 59 s №-li məxfi arayış hazırladı.[65] Heydər Əliyev iyunun 23-də A.V.Safronova ünvanlanan 252 №-li məktubu imzaladı və 7 səhifəlik müvafiq arayış da əlavə edildi.[66] Məktubda yazılırdı ki, Ter-Akopovun söylədikləri əsassız və saxta olduğundan onları təkzib etməyin heç mənası da yoxdur, bununla belə, redaksiyanın məktub müəllifinə müvafiq cavab verməsi üçün Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağın sovet hakimiyyəti illərində keçdiyi inkişaf yolu barədə kifayət qədər faktiki material olan arayışı göndəririk.

Arayışda Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına və statusuna dair hüquqi-siyasi məsələlər Kommunist Partiyasının, dövlətin sənədləri və arxiv materialları əsasında tutarlı şəkildə izah olunurdu. Yazılırdı ki, Azərbaycan ilə iqtisadi əlaqəsini, azərbaycanlılarla ermənilər arasında daimi sülhün zəruriliyini nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılmışdır. 1923-

62 Anatoli Safronov (1911-1990) – rus sovet yazıçısı, şairi, publisisti, ssenaristi, dramaturqu.
63 А.Сафронов – кандидату в члены Политбюро ЦК КПСС, первому секретарю ЦК КП Азербайджана тов. Г.А.Алиеву. 28 марта 1980 года // ARPİİSSA, f.1, siy. 67, iş 196, v.130.
64 B.S.Gevorkov (1932-1998) – Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi (1973-1988).
65 Секретарь Нагорно-Карабахского обкома КП Азербайджана Б.Кеворков – ЦК КП Азербайджана. 11 мая 1980 года // ARPİİSSA, f.1, siy. 67, iş 196, v.119-129.
66 Первый секретарь ЦК КП Азербайджана Г. Алиев – главному редактору журнала "Огонек" тов. Сафронову А. В. 23 июня 1980 года // ARPİİSSA, f.1, siy.67, iş 196, v.137-144; Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər), s.344-359.

cü ildə partiyanın qərarı ilə muxtar vilayət yaradılmış və bu qərar yekdilliklə qəbul edilmişdir.

Sənəddə yazılırdı ki, Dağlıq Qarabağda əhalinin azalmasının 1913-cü illə müqayisə edilməsinin heç bir əsası yoxdur, çünki həmin vaxt muxtar vilayət mövcud deyildi, vilayətin ərazisinə Yelizavetpol quberniyasından Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur qəzaları və respublikanın indiki rayonlarının bəzisi də daxil olduğundan müqayisənin istinad nöqtəsi kimi vilayətin yaradılması ili götürülməlidir. 1923-cü ildə vilayətin əhalisi 158 min nəfər idi. Müharibə illərində o, təbii olaraq azalmışdı. 1980-ci il aprelin 1-nə olan məlumata görə, əhali 163,1 min nəfər olmuşdu ki, bu da vilayət əhalisinin azalmadığını göstərirdi. Vilayətdə obyektiv miqrasiya, əhalinin və ölkənin həyatında beynəlmiləlləşmə prosesləri baş verdiyindən 49 millətin nümayəndəsi yaşayırdı.

Arayışda DQMV-nin iqtisadi inkişafı məsələlərinə aydınlıq gətirilərək yazılırdı ki, inqilabadək burada sənaye kiçik yarımkustar emalatxanalardan ibarət idi. 70-ci illərdə isə vilayətdə yüzlərlə məhsul istehsal edən və nəinki ölkənin müxtəlif yerlərinə göndərilən, eyni zamanda xaricə malları ixrac olunan 45 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Sovet hakimiyyəti illərində vilayətdə sənaye məhsulu istehsalı 724 dəfə artmış, Xankəndidə ildə 6 min maşın təmir edən zavod tikilmişdi və aqrar-sənaye kompleksi inkişaf edirdi. DQMV bütün bu sahələr üzrə inkişaf baxımından Cənubi Qafqazda yaradılmış muxtar vilayətlərin hamısını geridə qoyurdu.

Dəmiryol xəttinin tikintisinə dair tutarlı fakt və materialların verildiyi sənəddə yazılırdı ki, bu, Azərbaycanın digər rayonları ilə vilayətin əlaqəsini gücləndirir, nəqliyyatın inkişafına və vilayətdə istehsal olunan məhsulların ölkənin müxtəlif şəhərlərinə daşınmasına müsbət təsir edir.

Arayışda vilayətin mədəni inkişafı haqqında məlumat verilərək yazılırdı ki, inqilabadək həmin ərazidə şəxsi adamlara məxsus olan yalnız üç mədəni-maarif müəssisəsi fəaliyyət göstərmişdir. Əhalinin 90%-dən çoxu savadsız idi. 70-ci illərdə isə vilayətin əhalisi başdan-başa savadlı olmuşdu. Burada 193 ümumtəhsil məktəbi, o cümlədən, 147 erməni məktəbi fəaliyyət göstərirdi. Stepanakert Pedaqoji İnstitutunda dərslər Azərbaycan, rus və erməni dillərində keçirilirdi. Vilayətdəki 5 texnikumdan və 5 texniki-peşə məktəbindən 4-də dərslər erməni dilində keçirilirdi. Kitab fondu 1,5 mln. olan 196 kütləvi kitabxana, 202 klub, mədəniyyət evi, 195 kinoteatr və kinoqurğusu, M.Qorki adına Stepanakert şəhər dram teatrı, mahnı və rəqs ansamblı, erməni dilində və rus dilində dublyajı nəşr olunan "Sovetakan Karabax" qəzeti, 5 rayon qəzeti (4-ü erməni dilində, 1-i Azərbaycan dilində) var idi. Vilayətdə 2,5 saat yayımlanan radio verilişlərindən 2 saatdan çoxu erməni dilində idi.

Vilayətdə abidələrin qoyulması sahəsində həyata keçirilən tədbirlərə də aydınlıq gətirilirdi. Erməni xadimlərinə abidələr qoyulduğuna dair faktlar sadalandıqdan sonra yazılırdı ki, əhalisi əsasən azərbaycanlılardan ibarət olan Şuşada Azərbaycan ədəbiyyatının klassiki Vaqifə abidə qoyulur. Vaqifin Qarabağ xanının vəziri – xarici işlər naziri vəzifəsinə uyğun gələn vəzifədə işlədiyi, onun xarici siyasət fəaliyyətinin Zaqafqaziya hakimlərinin İran şahına qarşı mübarizəsində mühüm rol oynadığı vurğulanırdı. Bu cavab erməni millətçilərinin iddialarının əsassız olduğunu bir daha göstərirdi.

Erməni millətçilərinin xalqlar arasında düşmənçilik hisslərini qızışdırmaq cəhdlərinə baxmayaraq, Azərbaycan hökuməti regionun sosial-iqtisadi və mədəni inkişafına daim qayğı göstərir, erməni və Azərbaycan xalqları arasında dostluğa çalışırdı.[67] 1989-cu il yanvarın 12-də keçirilən əhalinin siyahıya alınmasına əsasən inzibati ərazisi 4 min 388 kv. km olan muxtar vilayətdə təqribən 189 min nəfər yaşayırdı. Onlardan təqribən 139 mini (73,5 faiz) erməni, təqribən 48 mini (25,3 faiz) azərbaycanlı və təqribən 2 mini (1,2%) digər millətlərin nümayəndələri idi. Özünüidarəetmənin bütün əsas elementlərinə sahib olan DQMV-nin Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu 1936 və 1977-ci illər SSRİ konstitusiyalarında təsbit olunmuşdu. SSRİ və Azərbaycan SSR konstitusiyalarına əsasən DQMV-nin hüquqi statusu DQMV Xalq Deputatları Soveti tərəfindən Azərbaycan SSR Ali Sovetinə təqdim edilmiş və 1981-ci il iyunun 16-da qəbul edilmiş “Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında” qanunla tənzimlənirdi.[68] DQMV inzibati muxtariyyət formasına və əhalinin xüsusi tələbatlarının həyata keçirilməsini təmin edən bir sıra hüquqlara malik idi. SSRİ konstitusiyasına uyğun olaraq DQMV SSRİ Ali Sovetinin Millətlər Sovetində 5, Azərbaycan SSR Ali Sovetində isə 12 deputatla təmsil olunurdu. DQMV-nin hakimiyyət orqanı olan Xalq Deputatları Soveti geniş səlahiyyətlərə malik idi, milli və digər xüsusiyyətləri nəzərə alaraq vilayətdə yaşayan vətəndaşların maraqları əsasında bütün yerli məsələləri həll edirdi.

Vilayətdə maarif sistemi də inkişaf etmişdi.[69] DQMV məktəbəqədər müəssisələrdə yerlərin sayına görə, respublikanın rayonları arasında nisbətən yüksək yer tuturdu.

Erməni dilindən bütün hökumət, inzibati və məhkəmə orqanları, həmçinin prokurorluğun işində, eyni zamanda dil tələbatını əks etdirən təhsildə də istifadə edilirdi. Bu dildə yerli televiziya və radio verilişləri yayımlanır, qəzet və jur-

67 Секретарь Нагорно-Карабахского обкома КП Азербайджана Б.Кеворков – ЦК КП Азербайджана. 11 мая 1980 г. // ARPİİSSA, f.1, siy. 67, iş 196, v.119-130.
68 О Нагорно-Карабахской Автономной Области. Закон Азербайджанской ССР. Баку, 1987.
69 События вокруг НКАО в кривом зеркале фальсификаторов (сборник материалов). Баку, 1989, с.12.

nallar nəşr olunurdu. Respublikanın dağlıq rayonlarında və paytaxtdan uzaqda yerləşən Azərbaycanın digər inzibati ərazi vahidlərindən fərqli olaraq DQMV televiziya və radio proqramlarının qəbulu üçün texniki infrastruktur ilə təchiz edilmişdi. Muxtariyyət forması əhalinin özünəməxsus iqtisadi, sosial, mədəni, milli xüsusiyyətlərini və muxtar regionda həyat tərzini tam şəkildə əks etdirirdi.

Ermənistan SSR Azərbaycanın digər ərazilərinə də əsassız iddialarını davam etdirirdi. 1984-cü ildə Ermənistan rəhbərliyi Qazax rayonunun Kəmərli kəndinin 1675 ha ərazisinə iddia irəli sürdü.[70] Bu ərazi Kəmərli kəndi ilə Ermənistan SSR Barana (Noyemberyan) rayonunun Dovex kəndi arasında yerləşirdi. Kəmərli kənd əhalisi əsassız iddiaya etiraz edərək erməni iddialarını dayandırmaq üçün rayon rəhbərliyinə və Azərbaycan hökumətinə dəfələrlə müraciət etmiş, hətta həmin ilin oktyabr ayının birinci yarısında Moskvaya üç nəfərdən ibarət nümayəndə heyəti də göndərmişdi. Nümayəndələr Sov.İKP MK-da qəbul edilsələr də, müraciətin nəticəsi olmamış, onlara aydın cavab verilməmişdi. Mərkəz torpaqların Azərbaycandan qopardılması göstərişini vermişdi.

Oktyabrın 24-də Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Ş.Rasizadə, Azərbaycan KP MK Qazax rayon partiya komitəsinin birinci katibi A.Süleymanov, rayon İcraiyyə Komitəsinin sədri B.Eyyubov və digər rəsmi şəxslər, Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini V.Movsesyan, Ermənistan KP MK Noyemberyan rayon partiya komitəsinin katibi P.Mamyan və b. Kəmərli kəndindən 6 km aralıda yerləşən Bataqlı bulaq deyilən yerə gəldilər.[71] Onların Ermənistana veriləcək meşə massivinə yerində baxmaq istəmələri azərbaycanlıları hiddətləndirdi. Həyati mənafelərinə toxunan məsələnin qoyuluşundan narazı olan Kəmərli kəndinin 150 nəfər sakini, əsasən qadınlar, gənclər və uşaqlar kənddən təxminən 3,5 km aralıda yolu kəsib etiraz bildirdi. Sakinlər torpaqların verilməsinin səbəblərini soruşduqda Ş.Rasizadə bu ərazi barədə iki respublika nümayəndələrindən ibarət yaradılacaq komissiya tərəfindən son qərar veriləcəyini dedi.[72] Kəndin rəhbərləri ərazinin Ermənistana verilməsinin nəzərdə tutulduğunu söyləyirdilər. Əhali Rasizadə, Movsesyan, Süleymanov, Mamyan və Mehrabyanın oturduqları iki maşını zorla Kəmərli kənd klubuna gətirərək məcbur etdilər ki, belə bir rəsmi akt imzalasınlar:

*"Torpaq Kəmərli kəndinə məxsusdur və ondan qoparılmayacaqdır".*

Əhali imzalanmış sənədi aldıqdan sonra dövlət adamlarını kənddən qovdu.

70 Qasımlı M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix olduğu kimi (1920-1994-cü illər), s. 384-398.

71 ЦК КП Азербайджана. Справка об инциденте в селении Кемерли Казахского района // ARPİİSSA, f.1, siy.73, iş 17, v.55-59.

72 Председатель КГБ Азербайджанской ССР. Юсифзаде З.М., прокурор Азербайджанской ССР Заманов А.Т., министр внутренних дел Азербайджанской ССР Велиев Д.Д. – ЦК КП Азербайджана. Секретно // ARPİİSSA, f.1, siy.73, iş 17, v. 60-62.

Məsələ Azərbaycan KP MK Bürosunun 1984-cü il 12 noyabr tarixli iclasında "Qazax rayonunun Kəmərli kəndində münaqişə haqqında" adı altında müzakirə edildi.[73] İclası MK-nın birinci katibi Kamran Bağırov[74] açaraq bildirdi ki, baş verən münaqişə yerli əhali arasında qeyri-sağlam millətlərarası münasibətlərin, uzun müddət yığılıb qalmış qarşılıqlı ərazi iddialarının nəticəsidir. O, baş vermiş hadisə üçün yerli rayon rəhbərliyini və Ş.Rasizadəni təqsirləndirdi və məsələyə dair Moskvadan göstəriş verildiyini aşağıdakı kimi ifadə etdi:

*"... Sov.İKP MK bizim qarşımızda məsələni həll etmək və geniş planda həll etmək vəzifəsini qoymuşdur".*[75]

Gərgin keçən müzakirələrdən sonra MK Bürosu müvafiq qərar qəbul etdi.[76] Ş.Rasizadəyə töhmət verildi, bəzi azərbaycanlı rəsmi şəxslər cəzalandırıldılar və partiya sıralarından çıxarıldılar. Ərazi Azərbaycandan qoparılaraq Ermənistana verildi.

Qeyd etmək lazımdır ki, Ermənistanın rəsmi dairələri, ziyalıları və xaricdəki erməni təşkilatları aralarındakı ideoloji fərqlərə baxmayaraq, əlbir hərəkət edirdilər. Ermənistanda türk düşmənçiliyi bir neçə istiqamətdə genişləndirilirdi. İlk növbədə, Ermənistanın millətçi alim, yazıçı, şair və jurnalistlərinin Azərbaycan və Türkiyə əleyhinə yazdıqları kitabların nəşri çoxalırdı.

Ermənistan hakimiyyəti tarixdə heç bir zaman olmayan uydurma "erməni soyqırımı"nın tanıdılmasını sovet rəhbərliyindən xahiş etsə də, uğursuz oldu. İddialarını reallaşdıra bilməyən Ermənistan rəhbərliyi 80-ci illərin ortalarında xarici ölkələrdəki ermənilərin Ermənistana köçürülməsi məsələsini yenidən gündəliyə gətirdi. Bu dəfə SSRİ Nazirlər Soveti həmin təklifləri bəyənərək 1985-ci il iyunun 20-də "1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında" qərar qəbul etdi.[77]

Qeyd etmək lazımdır ki, qərarda "vətənə qayıtmaq" mənasını verən "repatriasiya" ifadəsinin işlədilməsi yanlış idi. Çünki SSRİ-yə gətirilməsi istənilən şəxslər Ermənistanda doğulmamış və oranı heç görməmişdilər. Həmin qərarın yerinə yetirilməsi nəticəsində Ermənistana xarici ölkələrdən çoxlu erməni gətirildi. Özləri ilə qatı millətçiliyi gətirən bu şəxslər azərbaycanlılara qarşı düşmənçiliyi qızışdırırdılar.

---

73 Материалы к протоколу № 150 заседания бюро ЦК КП Азербайджана. 12 ноября 1984 года. Секретно // ARPİİSSA, f.1, siy.73, iş 157, v. 59-87.

74 Kamran Bağırov (1933-2000) – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 12-ci birinci katibi (1982-1988).

75 Заседание бюро ЦК КП Азербайджана от 12 ноября 1984 года. Об инциденте в с. Кемерли Казахского района. Секретно // ARPİİSSA, f.1, siy.73, iş 157, v.61.

76 Об инциденте в с. Кемерли Казахского района. Протокол №150 заседания бюро ЦК КП Азербайджана. 12 ноября 1984 года. Секретно // ARPİİSSA, f.1, siy.73, iş 157, v. 10-15.

77 Секретарь ЦК КП Армении К.Демирчиян – ЦК КПСС. Ноябрь 1986 года. Совершенно секретно. Особая папка // РГАНИ, ф.89, оп.11, д.40, л.1.

Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan[78] 1986-cı ilin noyabr ayında Sov.İKP MK-ya məxfi bir məktub yazaraq Ermənistanda sovet hakimiyyəti qurulduğu ilk illərdən Sov.İKP MK-nın qərarları ilə müxtəlif xarici ölkələrdən ermənilərin "repatriasiyası"nın həyata keçirildiyini, guya onların Birinci Dünya müharibəsi illərində qaçqın olduqlarını vurğuladı.[79] Məktubda sovet hakimiyyəti illərində Ermənistan SSR-ə xaricdən 230 min nəfərdən çox erməninin gətirildiyini yazan K.Dəmirçiyan Yaxın və Orta Şərq ölkələrində (İran, Suriya, Livan, İraq, İordaniya) yaşayan ermənilər arasından Ermənistan SSR-ə daimi yaşamaq üçün gəlmək istəyənlərin olduğunu qeyd edirdi. Məktubun sonunda o, "repatriasiyanın mühüm siyasi əhəmiyyətini nəzərə alaraq SSRİ Nazirlər Sovetinin 1985-ci il 20 iyun tarixli "1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında" qərarının fəaliyyət müddətinin 1990-cı ilin sonunadək uzadılmasını[80] xahiş edirdi.

Məktub tarixi gerçəklikləri əks etdirmirdi. Çünki Birinci Dünya müharibəsi illərində Cənubi Qafqazda Ermənistan adlı coğrafi və inzibati ərazi mövcud deyildi. "Repatriasiya" ifadəsi də tamamilə səhv idi. Digər tərəfdən, xaricdən ermənilər könüllü deyil, şirin vədlər verilərək gətirilirdi. K.Dəmirçiyanın müraciəti bir neçə il sonra Azərbaycana qarşı irəli sürüləcək əsassız ərazi iddialarının həyata keçirilməsinə hesablanmışdı.

Sov.İKP MK katibi Y.Liqaçov[81]1986-cı il 22 noyabr tarixdə məktubu "MK-ya təklif hazırlayın" dərkənarı yazaraq MK-nın şöbə müdirləri N.İ.Savinkinə və Y.Z.Razumovskiyə göndərdi. Tapşırığı yerinə yetirən Sov.İKP MK-nın İnzibati orqanlar şöbəsinin müdiri N.Savinkin və MK-nın Partiya-təşkilat işi şöbəsinin müdir müavini N.Zolotaryev 1987-ci il mayın 7-də MK-ya müvafiq məxfi məktubla müraciət etdilər.[82] Məktubda yazılırdı ki, Sov.İKP MK-nın şöbələri tərəfindən sovet əhalisi içərisində mühacirət əhval-ruhiyyəsinin olması barədə təkliflər hazırlanmışdır, bu materiallarda ermənilərin SSRİ-yə "repatriasiya" edilməsi barədə məsələyə də toxunulur və qeyd edilənləri nəzərə alaraq Ermənistan KP MK-nın müraciətinə yuxarıda göstərilən bütün materialın müzakirəsi zamanı son olaraq baxılması mümkündür. Məktubla tanış olan Y.Liqaçov, A.Lukyanov[83], A.Dobrının və b. "razılaşdırılsın" dərkənarını yazdılar.

78 Karen Dəmirçiyan (1932-1999) – Ermənistan KP MK-nın birinci katibi (1974-1988).
79 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 101.
80 Секретарь ЦК КП Армении К.Демирчиян – ЦК КПСС. Ноябрь 1986 года. Совершенно секретно. Особая папка // РГАНИ, ф.89, оп.11, д.40, л.3.
81 Yeqor Liqaçov (1920) – Sov. İKP MK katibi (1983-1990). Sov. İKP MK Siyasi Bürosunun üzvü (1985-1990).
82 Н. Савинкин, Н. Золотарев – ЦК КПСС. 8 мая 1987 года. Совершенно секретно. Особая папка // РГАНИ, ф.89, оп.11, д.40, л.1.
83 Anatoli Lukyanov (1930) – SSRİ Ali Sovetinin sədri (1990-1991).

Qeyd etmək lazımdır ki, SSRİ-yə guya könüllü köçmək istəyən ermənilər kommunist və ya sosialist deyil, daşnaklar, sovet hakimiyyətinə düşmən olanlar idi. Onların bir çoxu SSRİ-ni dağıtmağa çalışan xarici ölkələrin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edirdilər. Həmin müraciətin yerinə yetirilməsi təxirə salınsa da, bundan sonra erməni dairələrinin əl-qolu daha geniş açıldı. Xarici ölkələrdən ermənilər Ermənistan SSR-ə gəlməyə başladılar. Onlar özləri ilə SSRİ-nin milli münasibətlər baxımından ən zəif yeri olan Cənubi Qafqaza qatı millətçilik, düşmənçilik, kin-küdurət gətirir və DQMV-də separatçılığı qızışdırırdılar. Sovet rəhbərliyi isə belə fəaliyyətlərə çox vaxt seyrçi qalırdı.

## *2.2. Əsgəranda ilk qanın tökülməsi*

Qarabağ bölgəsinin heç bir zaman Ermənistan tərkibində və erməni kütləsinin təsiri altında olmamasına baxmayaraq, Ermənistan SSR qeyd edildiyi kimi, XX əsrin 80-ci illərinin ortalarından etibarən Azərbaycana qarşı əsassız ərazi iddialarını irəli sürdü.[84] Erməni dairələri məqsədlərinə çatmaq üçün ilk növbədə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin üzərinə kütləvi böhtan dolu hücuma keçdilər. Heydər Əliyev 1987-ci il oktyabrın 21-də keçirilən Sov.İKP MK plenumunda vəzifəsindən azad edildikdən[85] bir neçə gün sonra M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyanın[86] Parisdə "İnterkontinental" oteldə yerli erməni nümayəndələri qarşısında etdiyi və noyabrın 18-də "Humanite" qəzetində çap olunmuş çıxışı gərginlik yaratdı.[87] O, Azərbaycanın Dağlıq Qarabağ regionunun guya əlaqəsini nəzərə alaraq Ermənistana birləşdirilməsi barədə sovet rəhbəri M.Qorbaçovun razılığını aldığını bildirirdi.[88] Tezliklə xarici ölkələrdəki erməni mətbuatı və radiostansiyalarının başlıca mövzusuna çevrilən bu bəyanatın ardınca Ermənistanın əsassız ərazi iddiaları genişləndi.

Erməni nümayəndələri 1987-ci ilin noyabrında Moskvaya gedərək mərkəzi orqanlar qarşısında əsassız tələblərini irəli sürdülər. Elə həmin ayda Ermənistanın Qafan və Meğri rayonlarında azərbaycanlılara qarşı edilən hücum-

84 Musayev T.F. From territorial clams to belligerent occupation legal appraisal // "Diplomatiya aləmi" jurnalı, Bakı, 2008, № 18-19, s.30-49.
85 XXVII созыв Октябрский Пленум ЦК КПСС (21 октября 1987 г.). // РГАНИ, ф.2, оп. 5, д. 83, л. 4 – 6, 74 -75, 92-93, 98-112, 118-120.
86 Abel Aqanbekyan (1932) – M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri. Rusiya Federasiyası hökuməti yanında Milli İqtisadiyyat Akademiyasının rektoru (1989-2002).
87 Помпеев Ю. Кровавый омут Карабаха. Баку, 1992, с.20.
88 Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild. Bakı, 2018, s.587-588.

lar nəticəsində yüzlərlə azərbaycanlı qaçqına çevrilərək Azərbaycana gəldi. 1988-ci ilin yanvarında artıq Azərbaycanda Ermənistandan qovulan 4 min azərbaycanlı var idi.

Ermənistandan nümayəndələr 1988-ci ilin fevralında da Moskvaya səfər edərək sovet orqanları qarşısında tələblərini irəli sürdülər. Bundan sonra, 1988-ci il fevralın 11-də Xankəndidə mitinqlər və konstitusiya quruluşu əleyhinə hərəkətlər başladı. Həmin hərəkətlər Ermənistanda və Dağlıq Qarabağ Muxtar Vilayətində azərbaycanlılara qarşı zorakılıq, hücumlar, bir müddət sonra isə azərbaycanlı qaçqın və məcburi köçkünlərin axını ilə müşayiət olundu. Ermənistandan gələrək Azərbaycanın Dağlıq Qarabağ regionunda təbliğat aparan "Qarabağ" və "Krunk" təşkilatlarının fəalları, Z.Balayan və İ.Muradyan kimi şəxslər iki xalq arasında düşmənçilik toxumları səpir, separatçılığı qızışdırırdılar. Təşkilatların fəalları Sov.İKP MK-nın məsul işçiləri olan V.A.Mixaylova və A.V.Krıçinə istinadla Dağlıq Qarabağ məsələsinə Mərkəzdə müəyyən dairələrdə baxıldığını deyirdilər.[89]

Dağlıq Qarabağ münaqişəsini Azərbaycan cəmiyyəti doğurmamışdı.[90] Bu, Ermənistanın Azərbaycanın daxili işlərinə bilavasitə kobud müdaxiləsinin nəticəsi idi. Hələ 80-ci illərin ortalarından etibarən Ermənistanda bir çox müəssisə və kooperativlər rəhbərliyin himayəsi altında yarımleqal şəraitdə odlu silah, partlayıcı maddələr istehsal edərək Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə göndərir, qanunsuz silahlı birləşmələri silah və sursatla, rabitə vasitələri, o cümlədən nəqliyyatla təmin edirdilər.

Münaqişənin başlanmasına SSRİ-də gedən bir sıra daxili amillər təsir etmişdi. M.Qorbaçov ətrafındakı erməni xadimlərinin təsiri altında idi. Yenidənqurma, aşkarlıq və demokratikləşdirmə siyasəti həyata keçirilmədiyinə görə o, diqqəti yayındırmaq üçün münaqişələr yaradaraq yerlərdə günahkarlar axtarmağa və onları cəzalandırmağa cəhdlər edirdi.

Heç şübhəsiz, Sovet İttifaqını demokratik və güclü bir dövlət kimi görməkdə maraqlı olmayan, dağılmasını istəyən Qərb dövlətləri də milli münasibətləri qızışdırırdılar. Bu isə vəziyyəti mürəkkəbləşdirirdi.

Dağlıq Qarabağ münaqişəsinin kökləri bəzi tədqiqatçıların yazdığı kimi, "etnik amilin üstünlüyündə"[91] deyil, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarında idi. Uzun illər boyu anti-Azərbaycan, anti-türk xətti Ermənistanda rəsmi dövlət siyasəti səviyyəsinə qaldırılmış, azərbaycanlıların

89 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 103.
90 *Münaqişənin tarixi kökləri haqqında ətraflı bax:* İsmayılov F. Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri və müasir dövr. Bakı, 2009.
91 Jack F. Matlock J. The former Soviet Union Etnonationalism and US interest and values // Washington: Ethnic conflict and regional instability: implications for missions. Edited by Robert L.Pfaltzgraff, Jr.Richard, H.Shultz, Jr., U.S.Government printing office, 1994, p.181.

sıxışdırılması, yaşayış yerlərinin adlarının dəyişdirilməsi, tarix və mədəniyyət abidələrinin dağıdılması davam etdirilmişdi. M.Qorbaçovun hakimiyyətə gəlməsi ilə həmin proseslər daha da genişlənmişdi. 1988-ci il fevralın 18-də etdiyi çıxışında M.Qorbaçov SSRİ-də milli münasibətlər məsələsinə baxılmasının vacibliyini söylədi. Belə yanaşma müttəfiq respublikaların ittifaqdan ayrılması cəhdlərinə mane olmaq və Sov.İKP MK Siyasi Bürosundan uzaqlaşdırdığı rəqiblərinə qarşı təzyiq vasitələrindən biri idi. M.Qorbaçovun çıxışından ruhlanan ermənilər fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin iclasını keçirdilər. Sovetin tərkibindəki 140 deputatdan 110-u erməni, qalanları isə azərbaycanlılar idi. Azərbaycanlı deputatların buraxılmadığı yığıncaqda erməni deputatlar birtərəfli qaydada DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetinə müraciət etmək haqqında qərar qəbul etdilər.[92] Bundan sonra vilayətdə azərbaycanlılara qarşı təzyiqlər daha da gücləndi.[93]

Ermənistandan azərbaycanlıların qovulması daha da artdı. Qafandan qovulan 70 nəfər fevralın 21-də Azərbaycan KP MK-nın qəbul otağına gələrək Ermənistanda yaşamağın mümkün olmadığını söylədilər. Onları qəbul edən məsul işçilər bu barədə Ermənistan rəhbərliyinə müraciət etməyi məsləhət bildilər.[94]

Sov.İKP MK fevralın 21-də "Dağlıq Qarabağda hadisələr haqqında" qərar qəbul etdi.[95] Vilayətdə yaranmış şəraitin siyasi cəhətdən ciddi qiymətləndirildiyi qərarda qeyd edilirdi ki, bu regionda milli-ərazi quruluşunun dəyişdirilməsi hərəkətləri və tələbləri Azərbaycan və Ermənistan zəhmətkeşlərinin maraqlarına ziddir, millətlərarası münasibətlərə ziyan vurur, məsuliyyətli qərarlar qəbul edilməsə, çətin düzələn nəticələrə gətirə bilər. Qərarda bütün bunların hamısının ekstremist əhval-ruhiyyəli şəxslərin məsuliyyətsiz çağırışlarına yerli partiya və sovet orqanlarının tutduqları gözləmə mövqeyinin nəticəsi olduğu yazılır, vəziyyəti normallaşdırmaq üçün bütün məsuliyyət Azərbaycan və Ermənistan KP MK-nın, şəxsən MK-nın birinci katiblərinin üzərinə qoyulur, vilayətin sosial-iqtisadi inkişafına dair tədbirləri işləyib hazırlamaq tapşırılırdı.

92 События вокруг НКАО в кривом зеркале фальсификаторов (сборник материалов), с. 8-9; Нагорный Карабах: Разум победит. Документы и материалы. Баку, 1989, с.81-82.
93 Crossant M. P. The Armenian – Azerbaijan conflict, causes and implications /M.Crossant, London: Praeger, 1998, p. 10.
94 Меморандум по информации КГБ республики (1987-1989) об обстановке в Армении, Азербайджане и Нагорном Карабахе // Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi (ARDTXA), № PF-872, v. 4.
95 Постановление ЦК КПСС от 21 февраля 1988 года о событиях в Нагорном Карабахе. Совершенно секретно // ARPİİSSA, f.1, siy.83, qovluq 5, iş 83, v.9-10.

Azərbaycan KP MK Bürosu fevralın 22-də bu qərarı bəyənərək müvafiq qərar qəbul etdi.[96] Qərarda Sov.İKP MK-nın qərarı vacib əhəmiyyətli siyasi sənəd kimi qiymətləndirilir, şəraiti normallaşdırmaq Vilayət Partiya Komitəsinə tapşırılırdı. Vilayətin sosial-iqtisadi inkişafı üçün tədbirləri hazırlayıb Azərbaycan KP MK-ya təqdim etmək göstərişi verilir, əhali arasında təbliğat işləri aparmaq tövsiyə edilir, mətbuat, radio və televiziyanın imkanlarından istifadə edərək erməni və Azərbaycan xalqları arasında dostluğun təbliği vacib sayılırdı.

Bu qərarlar yerinə yetirilməmiş ilk qan töküldü. Xankəndi – Ağdam avtomobil yolu üstündə yerləşən Əsgəran qəsəbəsi yaxınlığında erməni silahlıların DQMV Xalq Deputatları Sovetinin ayrılma barədə qərarına qarşı etiraz edən dinc azərbaycanlılara fevralın 22-də atəş açması nəticəsində iki azərbaycanlı gənc – Əli və Bəxtiyar həlak oldu. Onlar münaqişənin ilk qurbanları idi. SSRİ prokurorluğu təqsirli bilinən şəxsləri həbs etdi, bəzi adamlar saxlanıldı.[97] Lakin həmin hadisəyə xarici ölkələrin kütləvi informasiya vasitələri kifayət qədər diqqət yetirmədilər.

Beləliklə, Azərbaycanın daxili işlərinə Ermənistanın kobud müdaxiləsinin ilk qanlı nəticəsi Əsgəranda iki azərbaycanlının öldürülməsi oldu. Münaqişənin ilk qurbanları da məhz azərbaycanlılar oldu.

İşdə yol verdiyi nöqsanlara görə fevralın 25-də Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsindən azad edilən Boris Gevorkovun yerinə Vilayət Xalq Deputatları Soveti sədrinin birinci müavini, Vilayət Aqrar-Sənaye Kombinatının sədri Nikolay Poqosyan gətirildi.[98]

Həmin gün Sov.İKP MK Baş katibi Mixail Qorbaçov Azərbaycan və Ermənistan zəhmətkeşlərinə müraciət etdi.[99] Müraciətdən irəli gələn vəzifələrin yerinə yetirilməsi tədbirləri barədə Sov.İKP MK qərar qəbul etdi.[100] Fevralın 26-da həmin qərarı bəyənən Azərbaycan KP MK Bürosu respublikada əhali arasında geniş iş aparmaq tədbirlərini müəyyənləşdirdi.

Bütün bunlara baxmayaraq, Ermənistan Azərbaycan ərazilərini işğal etmək məqsədi ilə hərbi bazalar yaratmaq üçün əraziyə hərbi birləşmələr, böyük miq-

96 Заседание бюро ЦК КП Азербайджана. О событиях в Нагорном Карабахе. 22 февраля 1988 года. Совершенно секретно // ARPİİSSA, f.1, siy.83, qovluq 5, iş 83, v.10-12.

97 Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде. К обстановке в Нагорном Карабахе. 22 апреля 1988 года. Секретно // ARDTXA, 10/407, v.131.

98 Заседание бюро ЦК КП Азербайджана. О т.т. Погосяне Г.А. и Кеворкове Б.С. 25 февраля 1988 года. //ARPİİSSA, f.1, siy.83, qovluq 5, iş 83, v.13.

99 Обращения Генерального секретаря ЦК КПСС т. Горбачева М.С. К трудяшимся, народам Азербайджана и Армении. 25 февраля 1988 года // Нагорный Карабах: разум победит. Документы и материалы, с.11-13.

100 О первоочередних мерах по реализации задач, вытекающих из обращения Генерального секретаря ЦК КПСС т. Горбачева М.С. К трудяшимся, народам Азербайджана и Армении. 25 февраля 1988 года // ARPİİSSA, f.1, siy. 83, qovluq 5, iş 32, v.14.

darda silah-sursat göndərməyə, azərbaycanlı əhaliyə qarşı terror hərəkətlərini həyata keçirməyə, onları öldürməyə, evlərini yandırmağa və sərhəd kəndlərini atəşə tutmağa başladı. Ermənistan rəhbərliyi özünün kobud müdaxiləsini ört-basdır etmək üçün Azərbaycanın Dağlıq Qarabağ bölgəsində guya erməni xalqının öz müqəddəratını təyin etməsi, ermənilərin hüquqlarının pozulması, sosial-iqtisadi inkişafının geriliyi barədə uydurma mülahizələr irəli sürdü və azərbaycanlıların tarixi torpaqlarından vəhşicəsinə qovulmasını genişləndirdi.

### *2.3. Sumqayıt təxribatı və Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsinin genişlənməsi*

Ermənistandan kütləvi şəkildə qovulan azərbaycanlı qaçqınlar Azərbaycanın müxtəlif rayonlarına, xüsusən Bakı və Sumqayıt şəhərlərinə üz tuturdular. Evsiz-eşiksiz qalan və yaşamaq üçün imkanları olmayan bu insanlar dövlət orqanlarından hüquqlarının qorunmasını tələb edirdilər. Onlardan fərqli olaraq ermənilər Azərbaycanda rahat yaşayır və işləyirdilər. Əsgəranda iki nəfər azərbaycanlının öldürülməsi əhalini daha da hiddətləndirmişdi.

Yaranmış gərgin vəziyyətdə 1988-ci il fevralın 26-28-də Sumqayıtda iğtişaş baş verdi. O vaxtadək Ermənistanın 20 rayonundan təkcə Sumqayıta 18 min 330 nəfər qaçqın və ya 3030 ailə gəlmişdi. İğtişaşlar nəticəsində 32 nəfər öldü. Onların 24 nəfəri erməni, 5 nəfəri azərbaycanlı, qalanları isə digər xalqların nümayəndələri idi. Bədən xəsarəti alan 198 nəfərin 87-si xəstəxanaya yerləşdirildi. 60 mənzil qarət edildi,14 avtomaşın yandırıldı, 8 maşın zədələndi, 16 ticarət obyektinin şüşələri sındırıldı. Azərbaycan SSR Daxili İşlər Nazirliyinin 17 avtomaşını əzildi.[101]

Hücum ediləcək mənzillər əvvəlcədən müəyyənləşdirilmişdi.[102] Öldürülənlər erməni təşkilatlarına pul ödəməyən şəxslər idi. Onların siyahısı əvvəlcədən hazırlanmışdı. Hadisələrdə şəhərin qeyri-yerli əhalisindən ibarət olan cinayətkar ünsürlər iştirak etmişdilər. Təşkilatçılardan biri ermənilərin qətli və erməni qadınlarının zorlanmasında bilavasitə iştirak edən Eduard Qriqoryan idi. O, bu iğtişaşa qədər müxtəlif cinayət əməlləri üstündə bir neçə dəfə həbs edilmişdi. Azərbaycan SSR Ali Məhkəməsi sonralar, 1989-cu il 22 dekabr tarixli qərarı ilə Qriqoryanın iğtişaş və qırğınların təşkilatçılarından biri olması barədə hökm

101 Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде – ЦК КП Азербайджана. 7 марта 1988 года. Секретно // ARDTXA, 10/192, v.22-24.

102 Qasımlı M.C. Sumqayıt hadisələri sovet rəhbərliyinin və erməni dairələrinin Azərbaycan xalqına qarşı təxribatı idi // "Azərbaycan" qəzeti, 2011, 2 mart.

çıxararaq 12 il həbs cəzasına məhkum etdi. Şahidlərin və zərərçəkənlərin məhkəməyə verdikləri ifadələrindən Qriqoryanda ermənilərin yaşadıqları mənzillərin siyahısının olduğu və intiqam aktlarına çağırdığı aydın olurdu. Onun qurbanlarının hamısı ermənilər idi. Əsasən erməni millətindən olan şahidlər məhkəmə prosesində Qriqoryanı zorakılığın təşkilatçılarından və fəal iştirakçılarından biri kimi tanıdılar.

Ermənistan rəhbərliyinə geniş anti-Azərbaycan kampaniyasına başlamaq və Azərbaycana qarşı təcavüzkarlıq siyasətinə bəraət qazandırmaq üçün vasitə kimi lazım olan bu hadisə əvvəlcədən planlaşdırılmışdı. Sumqayıt hadisəsi respublikaya təzyiq etmək, onu nüfuzdan salmaq, DQMV-nin Azərbaycan tərkibində saxlanılmasının, ermənilərin azərbaycanlılarla bir yerdə yaşamasının qeyri-mümkünlüyünü dünyaya göstərmək üçün erməni qrupları və mərkəzi hakimiyyət tərəfindən törədilmişdi. Bununla belə, hadisə zamanı bir çox azərbaycanlı erməniləri mənzillərində gizlədərək ölümdən xilas etdi.

Sumqayıt hadisəsi Sov.İKP MK Siyasi Bürosunun 1988-ci il 29 fevral tarixli iclasında müzakirə edildi.[103] İclasa sədrlik edən M.Qorbaçov Yerevanda vərəqələrin yayıldığını diqqətə çatdırdı. Həmin vərəqələrdə ermənilərdən mitinq etməyi dayandırmaq, silaha sarılmaq və türklərə qarşı hücuma keçmək çağırışları edilirdi. M.Qorbaçov onları ekstremist adlandırılaraq bildirdi ki, mitinqlərdə bütün çıxışlarda əsas mövzu Qarabağ və onun Ermənistana birləşdirilməsidir.

İclasda baş verən hadisəyə görə Azərbaycan rəhbərliyi təqsirləndirildi. Həm Ermənistanda, həm də Azərbaycanda rəhbərliyin dəyişdirilməsi barədə fikirləşmək haqqında razılaşdırıldı.[104]

Sumqayıt hadisəsi sonralar, mayın 7-də Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırovun sədrliyi ilə MK Bürosunun iclasında geniş müzakirə edildi.[105] Müzakirə nəticəsində iki qərar qəbul edildi: Birincisi, "Sumqayıt şəhərində vəziyyətin normallaşdırılması üzrə hökumət komissiyasının hesabatı haqqında"[106], ikincisi isə "1988-ci il fevralın 27-29-da Sumqayıt şəhərində faciəvi hadisələrə gətirən səbəblər haqqında".[107] Büro iclasında şəhərdə vəziyyəti

103 Заседание Политбюро ЦК КПСС. 29 февраля 1988 года. О дополнительных мерах в связи с событиями в Азербайджанской и Армянской ССР. Совершенно секретно // РГАНИ, ф. 89, оп.42, д. 18, л. 1-11.

104 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 110-111.

105 Протокол №74 заседания бюро ЦК КП Азербайджана. 7 мая 1988 года. Совершенно секретно // ARPİİSSA, f.1, siy.83, iş 56.

106 Решение бюро ЦК КП Азербайджана об отчете правительственной комиссии по нормализации обстановки в г. Сумгаите. Протокол №74 заседания бюро ЦК КП Азербайджана. 7 мая 1988 года. Совершенно секретно // ARPİİSSA, f.1, siy.83, iş 56, v.2.

107 Решение бюро ЦК КП Азербайджана о принципах, повлекщих за собой трагические события в г. Сумгаите 27-29 февраля 1988 года. Протокол №74 заседания бюро ЦК КП Азербайджана. 7 мая 1988 года. Совершенно секретно. // ARPİİSSA, f.1, siy. 83, iş 56, v.3.

normallaşdırmaq və milli münasibətləri sabitləşdirmək üçün konkret tədbirlər müəyyənləşdirildi.

Qeyd etmək lazımdır ki, iki xalq arasında münasibətlərin qızışdırılmasında erməni din xadimləri özünəməxsus rol oynayırdılar. Bakıdakı erməni kilsəsinin dyakonu *(aşağı rütbəli keşiş – M.Q.)* S.S.Davityan 1988-ci il martın 8-10-da Eçmiədzinə gedərək bütün ermənilərin katolikosu I Vazgenin[108] qəbulunda olmuş, ieoromonaxlar İsaxanyan, Mkrtıçyan və dyakon Matevosyan ilə görüşmüşdü. Matevosyan Bakı və Sumqayıtdakı vəziyyətə dair suallar vermiş, Bakı ermənilərinin Dağlıq Qarabağ məsələsində bitərəf mövqe tutmasının səbəbləri ilə maraqlanarkən bildirmişdi ki, Bakı erməniləri böyük işlər görməyə qadir deyillər, böyük işlər böyük qurbanlar tələb edir, onlar isə qorxaqdırlar. S.Davityan cavabında demişdi ki, Ermənistan əhalisinin çıxışları Bakı ermənilərinin vəziyyətinə mənfi təsir edə bilər. Bu zaman Eçmiədzin kilsə xadimləri belə söyləmişdilər:

*"Burada qorxulu heç nə yoxdur, onları* (Bakı erməniləri nəzərdə tutulur – M.Q.) *qurban vermək olar".*[109]

Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxiləsi və iki respublika arasında yaranmış münaqişə Sov.İKP MK-da 1988-ci il martın 9-da keçirilən müşavirədə geniş müzakirə edildi.[110] Müşavirədə Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırovun və Ermənistan KP MK-nın birinci katibi Karen Dəmirçiyanın məlumatları dinlənildi. Çıxış edən M.Qorbaçov bəzi mürəkkəbliklərə baxmayaraq, respublikalarda şəraitin normal məcraya düşdüyünü, müəssisələrin və təhsil ocaqlarının işlədiyini, ictimai qayda-qanuna riayət edildiyini bildirdi.

Azərbaycan KP qarşısında dayanan vəzifələr 1988-ci il martın 13-də Azərbaycan KP MK Bürosunun iclasında müzakirə edildi və geniş bir qərar qəbul olundu.[111] Qərarda Sov.İKP MK-nın 9 mart tarixli müşavirəsinin nəticələri bəyənilir, erməni və Azərbaycan xalqları arasında dostluğu möhkəmləndirmək xəttinə qəti əməl etmək yerli partiya, sovet və təsərrüfat orqanlarından tələb edilirdi. Dağlıq Qarabağ regionunun sosial-iqtisadi inkişafı layihəsini hazırlamaq üçün Vilayət Partiya Komitəsinə iki həftə vaxt verilirdi. Vilayətdə vəziyyəti normallaşdırmağa dair təşkilati-siyasi tədbirlər planı təsdiq edildi. Eyni zamanda Sumqayıtda da vəziyyəti normallaşdırmaq üçün tədbirlər müəyyənləşdirildi.

108 I Vazgen (Levon Karapet Baljian) (1908-1994) – bütün ermənilərin katolikosu (1955-1994).
109 Меморандум по информации КГБ республики (1987-1989) об обстановке в Армении, Азербайджане и Нагорном Карабахе // ARDTXA, № PF-872, v. 3-4.
110 Совещание в ЦК КПСС. 9 марта 1988 г. // ARPİİSSA, f. 1, siy.83, qutu 5, iş 32, v.1-2.
111 Протокол № 67 заседания бюро Центрального Комитета Коммунистической партии Азербайджана от 13 марта 1988 года. Совершенно секретно // ARPİİSSA, f. 1, siy. 83, qovluq 5, iş 32, v.1-5.

Bütün bunlara baxmayaraq, Ermənistan Azərbaycanın daxili işlərinə kobud müdaxilələrini davam etdirirdi. Ermənistanda çap edilən məqalələrin bir çoxunda müəlliflər bu və ya başqa şəkildə Azərbaycan SSR-in bəzi rayonlarının guya Ermənistana məxsus əzəli torpaqlar olduğunu saxtakarlıqla əsaslandırmağa cəhd edir, erməni əhalisinin müəyyən hissəsində uydurma "tarixi ədalət"in bərpasının zəruriliyi fikrini formalaşdırırdılar.[112]

Ermənistandakı təşkilatlar martın 26-da Yerevanda böyük mitinq keçirməyə hazırlaşırdılar. Yaranmış vəziyyət Sov.İKP MK Siyasi Bürosunun 1988-ci il martın 21-də keçirilən iclasında müzakirə edildi.[113] İclasdan əvvəl "Qarabağ" adlandırılan komitənin iclası haqqında Yerevandan alınan teleqram bütün Siyasi Büro üzvlərinə paylanmışdı. İclası açan M.Qorbaçovun sözlərinə görə, Dağlıq Qarabağda deyirdilər ki, döyüşü indi udmasaq, heç bir zaman udmayacağıq. O, aşkarlıq şəraitində buna müəyyən qədər səbr etdiklərini deyərək əlavə etdi:

*"Dağlıq Qarabağda hesab edirlər ki, onlar erməni xalqını daxildə və xaricdə ayağa qaldıraraq, eyni zamanda xarici mərkəzlərin diqqətini problemə yönəldə bilmişlər. Onlar daxili şərait və xalqın bu ideya ilə silahlanması, xaricdəki həmrəylik baxımından xoşbəxt anın gəldiyi qənaətindədirlər".*

M.Qorbaçov K.Dəmirçiyanın "rezini uzatmaqla məşğul olduğunu", Dağlıq Qarabağın Azərbaycandan alınaraq Ermənistana verilməsindən başqa heç bir siyasi qərar istəmədiyini vurğuladı.

İclasda müttəfiq respublikaların rəyasət heyətlərinin iclaslarının keçirilməsi və müvafiq müraciət etmələri təklif olundu. Ermənistana və Azərbaycana ilk olaraq Rusiya müraciət etməli idi. Bir müddət sonra Rusiya, Ukrayna, Gürcüstan, Belarus, Özbəkistan, Qazaxıstan, Litva, Moldova, Latviya, Qırğızıstan, Tacikistan, Türkmənistan və Estoniya SSR Ali Soveti Rəyasət heyətləri münaqişəni dayandırmaq barədə Azərbaycana və Ermənistana müraciət etdilər.[114] SSRİ Ali Sovetinin Rəyasət Heyəti martın 23-də Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də vəziyyətə dair müttəfiq respublikaların müraciəti barədə tədbirlər haqqında qərar qəbul etdi.[115] Qərarda mürəkkəb milli-ərazi məsələlərinin dövlət hakimiyyət orqanlarına təzyiq yolu ilə həlli cəhdləri pislənilirdi.

112 Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде – ЦК КП Азербайджана. 7 марта 1988 года. Секретно // ARDTXA, 10/192 ,v. 22-24.

113 Заседание Политбюро ЦК КПСС. 21 марта 1988 года. О некоторых неотложных мерах по нормализации обстановки в Азербайджане и Армении в связи с событиями вокруг Нагорного Карабаха. Совершенно секретно // РГАНИ, ф. 89, оп.42, д.19, л. 1-8.

114 Заседание Президиумов Верховных Советов Союзных Республик. Нагорный Карабах: разум победит. Документы и материалы, с. 23-40.

115 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 119.

Lakin bu müraciətin nəticəsi olmadı, Ermənistandan azərbaycanlıların qovulması daha da artdı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Kamran Bağırov 1988-ci il mayın 21-də vəzifəsindən azad edildi. Mərkəz tərəfindən həmin vəzifəyə uzun illər boyu Azərbaycandan kənarda yaşamış, milli ruha yad olan, kosmopolit Əbdürrəhman Vəzirov[116], Ermənistanda isə Karen Dəmirçiyanın əvəzinə Suren Arutunyan[117] gətirildi. Hakimiyyət dəyişikliyi Azərbaycanda vəziyyəti nəinki düzəltmədi, əksinə daha da ağırlaşdırdı və böhran dərinləşdi. Dövlət idarəçilik qabiliyyəti olmayan, münaqişənin mahiyyətini dərindən bilməyən Əbdürrəhman Vəzirov problemi həll etməyi bacarmadığından diqqəti özündən yayındırmağa və səbəblərini respublikanın əvvəlki rəhbərlərində axtarmağa başladı. Bu isə Azərbaycanın daxilində gərginliyi daha da artırır, xalq və hakimiyyət, hakimiyyətin qanadları arasında uçurumu, ziddiyyətləri dərinləşdirirdi.

Ermənistandan azərbaycanlıların qovulması daha da artdı. Qovulmanın motivləri aşağıdakılar idi: azərbaycanlı əhali ətrafında yaradılmış qeyri-sağlam mənəvi-psixoloji mühit; "Ermənistandan rədd olun" şüarı; silahla hədələnmələri və həyatları üçün təhlükənin olması; ticarət obyektlərində azərbaycanlılara xidmət göstərilməməsi və təhqir olunmaları; Ermənistanın partiya və sovet orqanlarının azərbaycanlıların şikayətlərinə baxmaması.[118] Sovet hökumətinin və Sov.İKP MK-nın da azərbaycanlılara qarşı edilən qeyri-insani hərəkətlərə göz yumması vəziyyəti ağırlaşdırırdı.

Ermənistan SSR Ali Sovetinin1988-ci il iyunun 15-də keçirilən sessiya iclası DQMV Sovetinin yuxarıda göstərilən müraciətinə baxaraq DQMV-nin Ermənistan tərkibinə keçməsinə razılıq verdi.[119] Cavab olaraq Azərbaycan SSR Ali Soveti və onun Rəyasət Heyəti 1988-ci il iyunun 13 və 17-də qəbul etdiyi qərarlarda SSRİ konstitusiyasının 78-ci və Azərbaycan konstitusiyasının 70-ci maddələrini əsas gətirərək DQMV-nin Azərbaycan SSR-dən alınaraq Ermənistan SSR-ə birləşdiril-

116 Əbdürrəhman Vəzirov (1930) – Azərbaycan KP MK-nın 13-cü birinci katibi (1988-1990).

117 Suren Arutunyan (1939-2019) – Ermənistan KP MK-nın 12-ci birinci katibi (1988-1990).

118 Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде – ЦК КП Азербайджана. О некоторых элементах обстановки в республике. 28 мая 1988 года. Секретно // ARDTXA, 10/509, v.195.

119 Верховный Совет Армянской ССР. Созыв 11-й. Сессия 7. Стенографический отчет. 15 июня 1988 г. Ереван, 1988.

məsinin qəbuledilməz və qeyri-mümkün olduğunu bildirdi.[120] Buna baxmayaraq, 1988-ci il iyulun 12-də DQMV Xalq Deputatları Soveti bölgənin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair qərar qəbul etdi.[121] Cavab olaraq iyulun 13-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti SSRİ və Azərbaycan SSR konstitusiyalarına, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Azərbaycan SSR Ali Sovetinin 1981-ci il 16 iyun tarixli qanununa əsaslanaraq DQMV Xalq Deputatları Sovetinin vilayətin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair müvafiq qərarının qanunsuz olduğu və heç bir hüquqi qüvvəsi olmadığı haqqında qərar qəbul etdi.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1988-ci il iyulun 18-də Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ haqqında məsələyə dair qərarları barədə qəbul etdiyi qərarda Ermənistan ilə Azərbaycan arasında konstitusiya əsasında müəyyənləşdirilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsinin yolverilməzliyi bildirilir, vurğulanırdı ki, SSRİ konstitusiyasının 78-ci maddəsinə əsasən müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz. Müttəfiq respublikalar arasında sərhədlər müvafiq respublikaların qarşılıqlı razılığı və SSRİ-nin ali orqanlarının təsdiqi nəticəsində mümkün ola bilərdi.[122] Bu müddəa Ermənistan SSR və Azərbaycan SSR konstitusiyalarında da əksini tapmışdı.

Beləliklə, Ermənistan SSR-in bölgəni Azərbaycan SSR-dən qopararaq tərkibinə qatmaq məqsədilə başladığı açıq müdaxilə SSRİ konstitusiyasının kobud şəkildə pozulması ilə müşayiət olunduğundan hüquqi nəticə doğurmadı. SSRİ Ali Sovetinin Rəyasət Heyəti həmin əsassız iddiaları rədd etdi.

Buna baxmayaraq, vilayətdə milli zəmində toqquşmalar baş verdi.[123] Qanlı toqquşmaların qarşısını almaq üçün 1988-ci il iyulun 28-də DQMV-də fövqəladə vəziyyət elan edildi.

Ermənistanda isə azərbaycanlıların hüquqlarının pozulması və qovulması daha da artdı. Azərbaycan hakimiyyəti Ermənistandakı azərbaycanlıların

120 Постановление Президиума Верховного Совета Азербайджанской ССР о ходатайстве депутатов Совета Народных Депутатов Нагорно-Карабахской Автономной области о передаче области из Азербайджанской ССР в состав Армянской ССР. 13.06.1988 // Нагорный Карабах: разум победит, с.81-82; Постановление Верховного Совета Азербайджанской ССР о ходатайстве депутатов Совета Народных Депутатов Нагорно-Карабахской Автономной области о передаче НКАО из состава Азербайджанской ССР в состав Армянской ССР. 17.06.1988 // Нагорный Карабах: разум победит, 96-97.

121 Qasımlı M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix - olduğu kimi (1920-1994-cü illər), s. 440.

122 Постановление Президиума Верховного СССР о решениях Верховных Советов Азербайджанской ССР и Армянской ССР по вопросу о Нагорном Карабахе. 18 июля 1988 г. // Нагорный Карабах: разум победит. Документы и материалы, с.153-155.

123 Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана. Об обстановке в республике. 7 июля 1988 года. Секретно // ARDTXA, 10/681, v.4.

hüquqlarını qorumaq iqtidarında deyildi. Respublika böyük bir fəlakətlə üz-üzə qalmışdı. 1988-ci il avqustun 1-nə olan məlumata görə, Ermənistandan qovulan qaçqınlar Azərbaycanın 45 şəhər və rayonuna toplanmışdı. Onların bəziləri zorla Ermənistana qaytarılsa da, orada yaşamağa imkan verilmədiyindən həmin tədbirlərin nəticəsi olmadı.

1988-ci il dekabrın 7-də Ermənistanda 25 min adamın ölümünə və 500 min adamın evsiz-eşiksiz qalmasına səbəb olan zəlzələ baş verdi. Əsassız ərazi iddiaları irəli sürməsinə və tarixi torpaqlarında yaşayan azərbaycanlıları zorla qovaraq qaçqına çevirməsinə baxmayaraq, Azərbaycanda Ermənistan üçün humanitar yardım toplandı. Qəribə idi: humanitar yardım toplayanların arasında Ermənistanda tarixi torpaqlarından vəhşicəsinə qovulan və ev-eşiklərini itirən azərbaycanlılar da var idi. Azərbaycan dekabrın 12-də Ermənistana kömək üçün humanitar yardımla dolu İL-76 təyyarəsində 77 xilasedici də göndərdi. Lakin təyyarə Ermənistan səmasında vuruldu.[124] Bir nəfərdən başqa təyyarədəki bütün şəxslər həlak oldular. Ermənistan rəhbərliyi və kütləvi informasiya vasitələri həmin hadisəyə münasibət bildirmədilər.

Zəlzələnin nəticələrini aradan qaldırmaq üçün çalışan xarici ölkə xilasedicilərinin rastlaşdığı fakt təyyarə qəzasından da dəhşətli idi. Onlar ermənilər tərəfindən diri-diri doldurularaq qaynaqlanmış qaz borularından 30 nəfərədək azərbaycanlı uşağın meyitini tapdılar.[125] Bu, Ermənistanda azərbaycanlılara qarşı düşmənçilik və nifrət hisslərinin həddinin olmadığını göstərirdi. Zəlzələdən ziyan çəkən əhaliyə yardım adı altında Ermənistana xarici ölkələrdəki erməni diasporu çoxlu silah və sursat göndərdi.

Sovet rəhbərliyi bu zaman Azərbaycanın hüquqlarını kobudcasına pozan bir addım atdı. SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də Azərbaycan konstitusiyasına zidd olaraq 10025 №-li qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Komitəsi yaratdı. Komitənin tərkibinə 8 nəfər daxil edildi. Onların 5 nəfəri Sov.İKP MK, mərkəzi nazirlik və idarələrin nümayəndələri idi. Komitənin tərkibində SSRİ DTK-nın iki nəfər əməkdaşı çalışırdı. Sov.İKP MK Siyasi Bürosunun 13 yanvar tarixli P146/41№-li qərarı ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Komitəsi yaradılmasına dair qərar qəbul olundu. Komitənin sədri Arkadiy Volski[126] təyin edildi.

124 Из войны и хаоса Азербайджан: рождение республики. Торун, 2009. с.69.
125 Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 126.
126 Arkadiy Volski (1923-2007) – 1988-ci ildə Sov.İKP MK Siyasi Bürosunun və SSRİ Ali Sovetinin DQMV-də nümayəndəsi. 1989-cu ildə DQMV-də Xüsusi İdarə Komitəsinin sədri. Vilayətin Azərbaycanın nəzarətindən çıxmasında və Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalında rol oynamışdır.

Xüsusi İdarə Komitəsinin yaradılması regionun Azərbaycanın nəzarətindən çıxmasında başlıca rol oynadı. Ermənilər Xüsusi İdarə Komitəsinin fəaliyyətini sabotaj edərək Azərbaycan dəmiryolları və avtomobil yollarına qarşı təxribatlar törətməyə, kütləvi talanlar etməyə, təbii sərvətləri dağıtmağa və meşələri qırmağa başladılar.

Buna cavab olaraq, 1989-cu il avqustun 12-də Bakıda kütləvi mitinqlər başladı. Əhali Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxiləsinin dayandırılmasını tələb edirdi.

Müdaxilələri dayandırmayan Ermənistanın təhriki ilə qondarma "Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin səlahiyyətli nümayəndələrinin konqresi" 1989-cu il avqustun 16-da keçirilən iclasında Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtariyyətini tanımaqdan imtina etdiyini bildirdi. "Konqres" eyni zamanda DQMV-ni Azərbaycan SSR konstitusiyası və respublikanın digər qanunlarının işləmədiyi "müstəqil ittifaq ərazisi" elan etdi, DQMV-də müstəsna xalq hakimiyyətini bəyan edən qondarma "milli şura" yaratdı. Bütün bunlar Xüsusi İdarə Komitəsinin fəaliyyət göstərdiyi müddətdə baş verdi. Konstitusiyaya zidd olan bu hərəkətə cavab reaksiyasını gecikdirməyən Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti avqustun 26-da "Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin səlahiyyətli nümayəndələrinin konqresi"nin qərarını qanunsuz elan etdi.[127]

Azərbaycan SSR Ali Soveti az sonra, 1989-cu il sentyabrın 23-də Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında Azərbaycan SSR-in konstitusiya qanununu qəbul etdi. Azərbaycan SSR-i öz statusuna görə SSRİ tərkibində suveren respublika (dövlət) kimi müəyyən edən qanunun 5-ci maddəsində yazılırdı:

*"Azərbaycan SSR-in suverenliyi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla respublikanın bütün ərazisinə şamil edilir" və "Azərbaycan SSR-in digər müttəfiq respublikalarla sərhədləri yalnız müvafiq respublikaların qarşılıqlı sazişi üzrə dəyişdirilə bilər".*[128]

Azərbaycan tərəfinin etirazları qarşısında geri çəkilən sovet rəhbərliyi noyabrın 28-də Xüsusi İdarə Komitəsini ləğv etdi. Onun əvəzində SSRİ Ali Soveti Xüsusi Komissiyasının nəzarəti altında Dağlıq Qarabağ üzrə Azərbaycan SSR-in Təşkilat Komitəsini yaratdı.

Ermənistan rəhbərliyi SSRİ Ali Sovetinin bu qərarını qəbul etmədi. Ermənistanda qurulan Erməni Milli Hərəkatının rəhbərliyinə şərqşünas Levon

127 Постановление Президиума Верховного Совета Азербайджанской ССР о неконституционной акции в НКАО от 26 августа 1989 г. // Нагорный Карабах: разум победит. Документы и материалы, с.384-385.
128 *Bax:* Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında konstitusiya qanunu. 1989-cu il 23 sentyabr. Bakı, 2009.

Ter-Petrosyan[129] gətirildi. O, 1988-ci ilin dekabrında kütləvi iğtişaşların təşkilində və milli ayrı-seçkiliyin təbliğində ittiham olunaraq həbs edilsə də, may ayında azadlığa çıxmış, 1989-cu ilin avqustunda isə Ermənistan SSR Ali Sovetinin deputatı seçilmişdi.

Hərəkatın başlıca məqsədi Azərbaycanın Dağlıq Qarabağ regionunu Ermənistana birləşdirmək idi. Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında qərar qəbul etdi və Xankəndidə Ermənistan SSR bayrağı qaldırıldı. Heç şübhəsiz, Ermənistan parlamentinin bir müttəfiq respublikanın ərazisinin müəyyən hissəsinin digərinin xeyrinə birtərəfli qaydada ələ keçirilməsini qanuniləşdirməyə və digərinin ərazisində konstitusiyaya zidd qurumun yaradılmasına yönəldilmiş bu və bir çox digər qərarları beynəlxalq hüquqa zidd olduğu üçün Azərbaycan tərəfi dekabrın 2-də həmin qərarın hüquqi əsası olmadığını bəyan etdi.

Azərbaycanda Xalq Cəbhəsi quruldu. Onun rəhbəri şərqşünas alim Əbülfəz Əliyev (Elçibəy)[130] oldu. Xalq Cəbhəsinin başlıca məqsədi Ermənistanın müdaxilələrini dayandırmaq, Dağlıq Qarabağ regionunun qopardılmasına mane olmaq və azərbaycanlıların hüquqlarını qorumaq idi.

Bu zaman Ermənistandan azərbaycanlıların davam edən vəhşicəsinə kütləvi qovulması ölüm və zorakılıq halları ilə müşayiət olunurdu. Azərbaycan SSR prokurorluğunun məlumatına əsasən 1988-1989-cu illərdə münaqişə zəminində 216 nəfər azərbaycanlı öldürülmüşdü.[131] Öldürülənlərin əksəriyyəti uşaqlar, qadınlar və yaşlı adamlar idi. Kütləvi zorakılıq və talanlar dövründə erməni hərbiləşdirilmiş qruplaşmaları xüsusi qəddarlığı ilə seçilirdilər. Münaqişənin gedişində azərbaycanlılar yaşadıqları 172 kənddən qovuldular. Bu zaman Ermənistan ərazisindən qovulan 185 min 519 nəfər və ya 40897 azərbaycanlı ailənin hamısı əmlaksız və evsiz-eşiksiz qalmışdı.

Azərbaycanlıları zorla deportasiya etməklə yanaşı, Ermənistanda azərbaycanlılara məxsus bütün tarixi yer adları dəyişdirilərək erməniləşdirildi. Sonralar, 1991-ci il aprelin 9-da Ermənistan Respublikası Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi qərara əsasən azərbaycanlılara məxsus 94 kəndin də adı dəyişdirildi.[132] Ermənistanda azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələri, məzarlar və məscidlər tamamilə dağıdıldı, yerlə yeksan edildi.

129 Levon Ter-Petrosyan (1945) – filologiya elmləri doktoru, Ermənistan Respublikasının 1-ci Prezidenti (1991-1998). Azərbaycan ərazisində separatçılığın təşkilatçılarından biri.
130 Əbülfəz Əliyev (Elçibəy) (1938-2000) – şərqşünas alim, Azərbaycan Respublikasının 2-ci Prezidenti (1992-1993).
131 Qasımlı M. C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 128.
132 Yenə orada, s. 129.

Azərbaycanlıların qovulmasından sonra Ermənistan iqtisadiyyatı daha da ağır vəziyyətə düşdü. Bunu SSRİ Nazirlər Sovetinin sədri Nikolay Rıjkov da Yerevandakı çıxışında etiraf etmişdi.[133]

Azərbaycanın daxili işlərinə müdaxiləni davam etdirən Ermənistan SSR Ali Soveti yanvarın 9-da DQMV-ni 1990-cı il iqtisadi planına daxil etdi. SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1990-cı il yanvarın 10-da "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989-cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların SSRİ konstitusiyasına uyğun olmaması haqqında" qərar qəbul etdi. Qərarda Azərbaycan SSR-in razılığı olmadan Ermənistan SSR ilə Dağlıq Qarabağın yenidən birləşdirilməsinin qanunsuz olduğu bildirilirdi.

SSRİ və Azərbaycan SSR orqanlarının qərarlarına baxmayaraq, Ermənistan rəhbərliyi Azərbaycan ərazilərinə qanunsuz silahlı dəstələr göndərməyi, hakimiyyət orqanlarına qarşı silah tətbiq etməyi, Azərbaycanın daxili işlərinə kobud surətdə müdaxilələrini və təcavüzünü davam etdirirdi.

## *2.4. 1990-cı il 20 yanvar hadisəsi*

Azərbaycanlıların etirazlarına Mərkəzi hökumətin məhəl qoymaması və hüquqlarını qorumaması nəticəsində Azərbaycanda şərait daha da pisləşdi, daxili siyasi sabitsizlik artdı və böhran dərinləşdi. Bakıda ara verməyən mitinqlərdə iştirakçılar Ermənistanın müdaxiləsinin dayandırılmasını, Topxana meşəsinin vəhşicəsinə qırılıb talan edilməsinin qarşısının alınmasını, regionda vəziyyətin normallaşdırılmasını, Ermənistandan qovulan insanların problemlərinin həllini tələb edirdi. Meydan hərəkatı getdikcə güclənirdi. Xalqdan ayrı düşmüş Azərbaycan hakimiyyəti isə bunları yerinə yetirməyə qadir deyildi. Respublikanın paytaxtında vəziyyət nəzarətdən çıxır, bölgələrdə də gərginləşirdi. Azərbaycan Xalq Cəbhəsinin fəalları bir neçə rayonda hakimiyyət orqanlarını ələ keçirdilər. Yanvarın 11-12-də Lənkəranda mitinqçilər Azərbaycan KP şəhər partiya komitəsinin və yerli radiostansiyanın binalarını tutdular. Bəzi digər rayonlarda da buna bənzər hallar təkrar olundu.

Yaranmış ağır şəraitdən istifadə edən Ermənistan silahlı qüvvələri Naxçıvan üzərinə hücum edərək Sədərək rayonunun Kərki kəndini yanvarın 15-də işğal etdi və əhali məcburi köçkünə çevrildi.

133 Выступления председателя Совета Министров СССР Н.И.Рыжкова на собрании руководящего состава Армянской ССР // Газ. "Правда", 1989, 18 января.

Bakıda erməni kilsəsinin təxribatçılığı ilə ermənilərə qarşı zorakılıq hərəkətləri edildi. Bununla erməni kilsəsi azərbaycanlıların və ermənilərin bir yerdə yaşaya bilməsinin mümkünsüz olduğunu göstərmək istəyirdi.

Baş verən proseslərin qarşısını almaq məqsədi ilə yanvarın 17-dən etibarən Azərbaycana əlavə sovet hərbi hissələri göndərildi. Yeridilən sovet əsgərlərinin sayı yanvarın 19-da 24 min nəfərə çatmışdı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan televiziyasının enerji bloku sovet xüsusi xidmət orqanları tərəfindən partladıldı. Enerji blokunun partladılmasında başlıca məqsəd qoşun hissələri şəhərə daxil olduqdan sonra televiziya ilə xalqa birbaşa müraciət edilməsinin qarşısını almaq idi. Nəticədə əhali baş verən hadisələr barədə heç bir informasiya ala bilmədi.

M.Qorbaçov Bakıda fövqəladə vəziyyətin elan edilməsi haqqında dekret imzaladı. Rostov, Krasnodar və Stavropoldan gətirilmiş ehtiyatda olan erməni əsgər və zabitlərdən komplektləşdirilmiş ordu hissələrinə etirazları yatırmaq üçün Bakıda dinc əhaliyə qarşı silah işlətmək əmri verildi. Ordunun Bakıda və Azərbaycanın digər ərazilərində görünməmiş vəhşiliyi nəticəsində 130 nəfərdən çox dinc azərbaycanlı öldürüldü, 700 nəfər yaralandı, 12 nəfər itkin düşdü.

20 Yanvar hadisəsi nəticəsində Əbdürrəhman Vəzirov respublikadan qaçdı. Yanvarın 25-də Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsində işləyən Ayaz Mütəllibov[134] gətirildi.

Bu zaman sərt nəzarət altında olan Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında bəyanat verib sovet və respublika rəhbərliyinin qanlı hərəkətlərini ittiham etdi, baş verən hadisəni hüquqa, demokratiyaya zidd və humanizm prinsiplərinin əleyhinə olan hal kimi qiymətləndirdi.

20 Yanvar hadisəsi sovet hakimiyyətinin vətəndaşlarına qarşı törətdiyi ağır cinayət və SSRİ-nin mövcudluğuna son qoyan amillərdən biri oldu. Bu, M.Qorbaçovun yenidənqurma, aşkarlıq və demokratikləşdirmə siyasətinin iflasa uğradığını göstərdi. Həlak olanların xatirəsinə ehtiram olaraq Azərbaycanda fabrik və zavodlar 40 gün işləmədi. Bu isə vahid zəncirdə bir-birinə bağlanmış sovet iqtisadiyyatının dağılmasına böyük təsir etdi. Ölkəni xarici hərbi müdaxilələrdən, təhdid və təhlükələrdən qorumalı olan ordu və təhlükəsizlik qüvvələrinin

134 Ayaz Mütəllibov (1938) – Azərbaycan SSR Nazirlər Sovetinin sədri (1989-1990). Azərbaycan KP MK-nın 14-cü birinci katibi. Sov.İKP MK Siyasi Bürosunun üzvü (1990-1991). Azərbaycan Respublikasının 1-ci Prezidenti (1990-1992). Ermənistan tərəfindən Xocalıda törədilən soyqırımı hadisəsindən sonra 1992-ci il martın 6-da vəzifəsindən uzaqlaşdırılmışdır. Şuşa şəhərinin işğalından sonra, 1992-ci ilin may ayında hakimiyyətə qayıtmaq istəsə də, Azərbaycan Xalq Cəbhəsinin silahlı çevriliş yolu ilə hakimiyyətə gəlməsindən sonra Moskvaya getmişdir. Siyasətdən uzaqlaşmışdır. 2012-ci ildə “Eks-prezidentlər haqqında qanun” qəbul edildikdən sonra Azərbaycana qayıtmışdır.

xalqa qarşı silah işlətməsi ilə onlara olan inam sarsıldı. 20 Yanvar hadisəsindən sonra üzvlərinin Kommunist Partiyası sıralarını tərk etməsi SSRİ-nin ideoloji əsasının dağılmasında mühüm rol oynadı. Azərbaycan xalqının həyatında dönüş nöqtəsi olan 20 Yanvar hadisəsindən sonra xalq Mərkəz ilə yolunun bir olmayacağını, keçmişə qayıdışın mümkünsüzlüyünü dərk etdi və yerli hakimiyyətə də etimad bəsləmədi. Azərbaycan xalqı nicat yolunu yalnız dövlət müstəqilliyində gördü.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, 1985-ci ildə M.Qorbaçov sovet rəhbərliyinə gətirildikdən sonra ermənilər daha da fəallaşmışlar. SSRİ-nin türk, müsəlman respublikalarının L.İ.Brejnevin hakimiyyəti illərində xeyli irəli getdikləri qənaətində olan yeni sovet rəhbəri onları sıxışdırmağa başlamışdır. Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev vəzifəsindən uzaqlaşdırılmışdır. Bundan sonra M.Qorbaçovun ətrafında olan erməni xadimlərinə arxalanan Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və daxili işlərinə qarışması nəticəsində DQMV-də separatçılıq artmış və milli qarşıdurma yaranmışdır. Keçirilən qanunsuz mitinqlərdə vilayətin Azərbaycandan qopardılaraq Ermənistana verilməsinə dair səsləndirilən tələblərin qarşısını Mərkəz almamışdır. Bu qarşıdurmadan istifadə edən M.Qorbaçov respublikaların rəhbərlərinə təzyiqlər etmişdir.

DQMV-də qəbul edilən qanunsuz qərarlara etiraz edən azərbaycanlılarla erməni silahlıları arasında Əsgəran rayonu ərazisində baş verən toqquşmada iki azərbaycanlı gənc öldürülmüşdür. Onlar Dağlıq Qarabağ münaqişəsinin ilk qurbanları olmuşlar.

Ermənistanda öz tarixi torpaqlarında yaşayan azərbaycanlıların vəhşicəsinə deportasiyası başlanmışdır. Monoetniklik, ayrı-seçkilik və terror siyasətini yeridən Ermənistandan fərqli olaraq Azərbaycanda ermənilər rahat şəkildə yaşamaqda davam etmişlər. Belə bir şəraitdə Mərkəzin, Ermənistan xüsusi xidmət orqanlarının və erməni kilsəsinin təxribatı nəticəsində Sumqayıt hadisəsi baş vermişdir. Öldürülən şəxslərin qatili əvvəllər müxtəlif cinayətlər üstündə həbsxanada yatmış erməni E. Qriqoryan olmuşdur. Öldürülənlər erməni təşkilatlarına pul ödəməyən şəxslər olmuşlar. Mərkəzdəki müəyyən qruplar və Ermənistan xüsusi xidmət orqanları tərəfindən törədilən Sumqayıt hadisəsi azərbaycanlılarla ermənilərin birlikdə yaşamasının mümkün olmadığını göstərmək və Azərbaycana təzyiq etmək məqsədi güdmüşdür.

Ermənistandan azərbaycanlıların vəhşicəsinə qovulması, DQMV-də baş verən qanunazidd hərəkətlər Azərbaycan xalqının hiddətini coşdurmuşdur. Azərbaycan Xalq Cəbhəsi bir sıra rayonlarda hakimiyyət binalarını ələ keçirmiş, təxribata gedərək SSRİ – İran sərhədində məftilləri sökmüşdür. Sərhəddə törədilənlərə görə respublikada baş verən hadisələrə sovet xüsusi xidmət orqanları tərəfindən “islam fundamentalizmi” damğası vurulmuşdur.

Erməni kilsəsinin bilavasitə iştirakı ilə Bakıdakı ermənilərə qarşı təxribat törədilmişdir. Hakimiyyət orqanları iflic hala düşmüşdür.

Sovet ordu hissələri Bakıya yeridilmişdir. Ordunun şəhərə girməsindən sonra törədiləcək hadisələr barədə əhalinin informasiya ala bilməməsi və televiziya ilə xalqa müraciətlər edilməsinin qarşısını almaq məqsədi ilə sovet xüsusi xidmət orqanları tərəfindən televiziyanın enerji bloku partladılmışdır.

Ölkəni xarici müdaxilədən qorumalı olan ordunun Bakıda törətdiyi qanlı əməllər nəticəsində mülki əhali amansızlıqla qətlə yetirilmiş, yaralanmış və itkin düşmüşdür. Bu hərəkəti ilə ordu, təhlükəsizlik qüvvələri və Kommunist Partiyası xalq arasında nüfuzunu itirmişdir.

Azərbaycan xalqı şəhidlərinin xatirəsinə ehtiram olaraq 40 gün matəm saxlamış, fabrik və zavodlar işləməmişdir. Bununla da bir-biri ilə sıx bağlı olan sovet iqtisadiyyatı dağılmağa başlamışdır. 20 Yanvar hadisəsi Azərbaycan xalqının həyatında dönüş nöqtəsi olmuş və o, bundan sonra öz yolunu dövlət müstəqilliyində görmüşdür.

# 3-cü FƏSİL

## AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI İSTİQAMƏTİNDƏ İLK ADDIMLAR: NAXÇIVANDA QƏBUL EDİLƏN QƏRARLAR

### *3.1. Heydər Əliyevin rəhbərliyi altında Naxçıvanda qəbul edilən qərarlar*

1990-cı il 20 yanvar hadisəsindən sonra Azərbaycan KP MK-nın birinci katibi A.Mütəllibovun sədrliyi ilə Azərbaycan KP MK-nın fevralın 9-da keçirilən Büro iclasında Həsən Həsənov[135] Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsinə təsdiq edildi. O, Azərbaycan SSR-in sonuncu, Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa ediləndən sonra ilk Baş naziri oldu.[136]

Bu zaman bütün SSRİ-də mürəkkəb proseslər cərəyan edirdi. M.Qorbaçov 1990-cı il martın 15-də SSRİ Xalq Deputatlarının növbədənkənar üçüncü qurultayında prezident seçilsə də, problemlərin həllində irəliləyişlər olmadı.

Ermənistan təkcə Dağlıq Qarabağ bölgəsində deyil, Azərbaycan ilə sərhəd rayonlarda da azərbaycanlı əhaliyə qarşı silahlı hücumlarını genişləndirmişdi. Azərbaycanın Qazax rayonunun sərhəd kəndlərinə hücum edən Ermənistan silahlı dəstələri 1990-cı il martın 23-24-də 9 nəfəri öldürdülər, Bağanıs Ayrım kəndində isə 7 nəfər dinc sakini diri-diri yandırmaqla və doğramaqla vəhşicəsinə qətlə yetirdilər, 1 nəfəri yaraladılar, əmlaklarını talan etməklə 13 yaşayış evini yandırdılar.[137]

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1990-cı il 3 aprel tarixli qərarı ilə Azərbaycan SSR və Ermənistan SSR arasındakı sərhədlərin və konstitusiya ilə müəyyən edilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsinin yolverilməz olduğu-

135 Həsən Həsənov (1940) – Azərbaycan SSR Nazirlər Sovetinin sədri (1990-1991). Azərbaycan Respublikasının Baş naziri (1991-1992). Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi (1992-1993). Xarici işlər naziri (1993-1998). Macarıstan Respublikasında (2004-2010), Polşa Respublikasında (2010-2021) fövqəladə və səlahiyyətli səfir.
136 Qasımlı M., Hüseynov C. Azərbaycanın baş nazirləri. Bakı, 2005, s. 105-110.
137 Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər). Bakı, 2005, s.11.

nu bəyan etdi.[138] Qərarda Azərbaycan SSR-in razılığı olmadan Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsinin SSRİ konstitusiyasının 78-ci maddəsinə zidd olduğu birmənalı yazılırdı.

1990-cı il mayın 18-də Ayaz Mütəllibov Azərbaycan parlamenti tərəfindən prezident seçildi.[139] Bir tərəfdən, Ermənistanın hərbi təcavüzünün qarşısının alınmaması, digər tərəfdən isə iqtidar-müxalifət münasibətlərinin kəskinləşməsi Azərbaycanda vəziyyəti daha da gərginləşdirdi.

Azərbaycana Ermənistandan qaçqınlar gəlməkdə davam edirdi. 1990-cı ilin sentyabrında Azərbaycanda Ermənistandan qovulan 201 min azərbaycanlı, 2,5 min kürd, 1,5 minə qədər rus, Özbəkistandan qovulan 29 min Ahıska türkü var idi. Az sonra Ermənistandan qovulan qaçqınların sayı 250 min nəfərə çatdı.

Belə bir ağır böhran içində olan Azərbaycanda hakimiyyət uğrunda mübarizə getdikcə şiddətlənirdi. Mərkəzdə qəbul edilən qərarların yerinə yetirilməməsi vəziyyəti daha da pisləşdirirdi. Ölkədə ordu əleyhinə təbliğat kampaniyası getdikcə artırdı.

Qərarların qəbul edilməsinə baxmayaraq, Sovet İttifaqında şərait normallaşmırdı. Kommunist Partiyası hakim partiya olsa da, ölkəni idarə edə bilmirdi. Sosial problemlər getdikcə artır, ərzaq malları çatışmır, hakimiyyətdən narazı olan əhali baş verən hadisələrin nə ilə sona çatacağını bilmirdi.

Respublikada baş verən mürəkkəb proseslərin gedişində, 1990-cı il sentyabrın 30-da XII çağırış Azərbaycan SSR Ali Sovetinə seçkilər keçirildi. 340 deputat Ali Sovetə seçildi. Təkrar seçkilər oktyabrın 14-də, dekabrın 16 və 30-da keçirildi. Seçkilərdə sovet Azərbaycanı tarixində ilk dəfə olaraq müxalifətin nümayəndələri olan 43 nəfər deputat seçildi. Onlar özlərini Demokratik Azərbaycan bloku adlandırırdılar.[140]

Seçkilərdə fərdi təqaüdçü Heydər Əliyev 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR Ali Sovetinin deputatı, 2 nömrəli M.F.Axundov seçki dairəsindən isə Naxçıvan MSSR xalq deputatı seçildi.

Naxçıvan MSSR Ali Sovetinin ağsaqqal deputatı kimi Heydər Əliyevin sədrliyi altında 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiya iclasında Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsinə dair mühüm məsələlər müzakirə olundu və vacib tarixi qərarlar qəbul edildi. Hələ SSRİ-nin, sovet siste-

138 О несоответствии Конституции СССР актов по Нагорному Карабаху. Постановление Президиума Верховного Совета СССР от 10 января 1990 г. // Ведомости Верховного Совета СССР. М., 1990, № 3, с.38; О введении в действие закона СССР о порядке решения вопросов, связанных с выходом союзной республики из СССР от 3 апреля 1990 г. // Ведомости Верховного Совета СССР. М., 1990, № 15, с.308.

139 Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992 – Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü. Ankara, 2001, s.27.

140 Azərbaycan Respublikası xalq deputatlarının siyahısı. Bakı, 1991, s.1-32.

minin və kommunist ideologiyasının mövcud olmasına baxmayaraq, sessiya iclasında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" ifadələri çıxarıldı, Naxçıvan MSSR-in Naxçıvan Muxtar Respublikası adlandırılması haqqında qərar qəbul edildi. Ali Sovetin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı.

İclasda Azərbaycan Xalq Cümhuriyyətinin aypara və səkkizguşəli ulduz şəkilli, üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında məsələ müzakirə olundu. Heydər Əliyevin təklifi əsasında milli dövlət bayrağı məsələsi ilə əlaqədar olaraq qəbul edilən qərarda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, Azərbaycan Respublikasının ali qanunverici orqanından Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxılması və milli-tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin – bayraq, gerb və himnin qəbul olunması xahiş edilirdi.[141]

Böyük tarixi-siyasi əhəmiyyət daşıyan bu qərar Azərbaycanda milli dövlətin bərpası ideyasının həyata keçirilməsi sahəsində atılan ilk addım idi. Bununla da Naxçıvan müasir müstəqil Azərbaycan dövlətinin atributlarından birinin rəsmi şəkildə qəbul edildiyi yer oldu.

Heydər Əliyev tərəfindən hazırlanan "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərarda ilk dəfə olaraq qanlı yanvar hadisələrinə düzgün siyasi qiymət verilir, Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi, dinc əhaliyə - silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız insanlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocalara, qadınlara, uşaqlara olunmuş təcavüz kimi qiymətləndirilir, SSRİ rəhbərliyi ilə yanaşı, respublika rəhbərliyinin də böyük günahı olduğu vurğulanır və cinayət məsuliyyətinə cəlb edilmələri tələb edilirdi. Qərarda 20 yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli matəm günü kimi elan edilir və bu günün hər il Azərbaycan SSR-də də Milli matəm günü kimi qeyd edilməsi respublika Ali Sovetindən xahiş olunurdu.

Naxçıvanda qəbul edilən və böyük tarixi əhəmiyyət daşıyan bu qərarların qəbulundan sonra Azərbaycan SSR rəhbərliyi bəzi addımlar atdı. Azərbaycan SSR Prezidenti Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında 1990-cı il 29 noyabr tarixində fərman imzaladı.

141 Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild, s.627-628.

## *3.2. Azərbaycan SSR-in adının dəyişdirilməsi və yeni dövlət bayrağının qəbul edilməsi*

XII çağırış Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də keçirilən birinci sessiya iclasında çıxış edən Prezident A.Mütəllibov yaranmış şəraitə dair mülahizələrini bildirdi və deputatların arasında 43 nəfər müxalifətin olmasını demokratik təmayüllü seçkinin nəticəsi kimi qiymətləndirdi.[142]

Sessiyanın gündəliyinə respublikanın adının dəyişdirilməsi haqqında, respublikanın dövlət bayrağı, gerbi, himninin mətni və fərqlənmə nişanları haqqında, Naxçıvan Muxtar Respublikasının adının dəyişdirilməsi haqqında, Azərbaycanın dövlət quruluşunun dirçəliş günü 28 mayın istirahət günü elan edilməsi haqqında Azərbaycan SSR Prezidentinin fərmanının təsdiqi, 1990-cı ilin yanvarında Bakıda baş vermiş hadisələr üzrə Azərbaycan SSR Ali Soveti komissiyalarının işi barəsində, SSRİ-nin qorunub saxlanılması məsələsinə dair SSRİ referendumunda respublikanın iştirakı haqqında, Azərbaycan SSR-in yeni konstitusiyası layihəsinin hazırlanması üzrə Ali Sovetin komissiyasının yaradılması haqqında, yeni Azərbaycan əlifbasının layihəsinin hazırlanması haqqında və b. məsələlər daxil edilmişdi.[143]

Konstitusiyaya edilən dəyişikliyə əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəyə görə Azərbaycan SSR Ali Soveti sədrinin müavini vəzifəsini tuturdu.

Azərbaycan SSR Prezidentinin Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında 1990-cı il 29 noyabr tarixli fərmanın təsdiq edilməsi haqqında Ali Sovetin iki bənddən ibarət qəbul etdiyi qərarında yazılırdı:

*"1. Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında Azərbaycan SSR Prezidentinin fərmanı bəyənilsin;*

*2. Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında qanunlar qəbul edilsin".*[144]

Azərbaycan SSR-in adında dəyişiklik edilməsi haqqında qəbul edilən qanunda yazılırdı:

*"Azərbaycan SSR Ali Soveti qərara alır:*

*Azərbaycan dövləti – Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycan Respublikası adlandırılsın".*[145]

142 Yenə orada, s. 629.
143 Azərbaycan SSR Ali Soveti birinci sessiyasının gündəliyi haqqında Azərbaycan SSR Ali Sovetinin qərarı. 05.02.1991 // Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinin Arxivi (ASSRASA), f.2941, siy.1a, iş 226, v. 6-9.
144 Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild, s.630.
145 Yenə orada.

Sessiya iclasında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı Azərbaycan Respublikasının dövlət bayrağı olaraq qəbul edildi. Salondan Azərbaycan SSR-in bayrağı aparıldı və Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı gətirildi. Azərbaycan Respublikasının dövlət bayrağı haqqında üç maddədən ibarət qanun qəbul edildi. Dövlət bayrağının təsviri təsdiq olundu. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1956-cı il 5 may tarixli fərmanı qüvvədən düşmüş hesab edildi. Azərbaycan Respublikasının dövlət bayrağı haqqında 7 maddədən ibarət təsdiq olunmuş əsasnamədə yazılırdı ki, dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyi rəmzidir. Azərbaycan Respublikasının əvvəlki dövlət bayrağı haqqında da qərar qəbul edildi. Qərarda yazılırdı:

*"Azərbaycan Respublikasının əvvəlki dövlət bayrağının bir çox onilliklər ərzində Azərbaycan xalqının milli dövlət quruluşunun rəmzi olduğunu, bu bayraq altında xalqın böyük və mürəkkəb təşəkkül və inkişaf yolu keçdiyini nəzərə alaraq, öz tarixinə, əvvəlki nəsillərin keçdiyi yola ehtiram əlaməti olaraq Azərbaycan Respublikasının Ali Soveti qərara alır:*

*Azərbaycan Respublikasının əvvəlki dövlət bayrağı respublikanın milli sərvəti kimi saxlanılsın; bu bayraqdan ümumxalq bayramları, mitinqlər və nümayişlər zamanı istifadə edilə bilər".*[146]

Naxçıvan MSSR-in adında dəyişiklik edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 17 noyabr tarixli qərarı nəzərə alındı və üç bənddən ibarət müvafiq qərar qəbul olundu.[147]

Azərbaycan dövlət quruluşunun dirçəliş günü olan 28 mayın istirahət günü elan edilməsi haqqında Azərbaycan SSR Prezidentinin 1990-cı il 29 noyabr tarixli fərmanı təsdiq edildi.[148]

Qanunda dövlətin adı Azərbaycan Respublikası adlandırılsa da, Azərbaycan dövlətinin adının nə üçün dəyişdirilməsinə dair izahat verilməmiş, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və varisi olduğu yazılmamışdı. Dövlət bayrağı dəyişdirilsə də, qəbul edilən bayrağın haradan götürüldüyü yazılmamış və izah edilməmişdi. Bu isə respublika rəhbərliyinin hələ də mərkəzi hakimiyyət qarşısında zəif olduğunu və çəkindiyini göstərirdi.

Martın 5-də XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasının davamında A.Mütəllibov çıxış edərək SSRİ-nin saxlanılmasına dair referen-

146 Azərbaycan Respublikasının əvvəlki dövlət bayrağı haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 05.02.1991 // ASSRASA, f.2941, siy.1a, iş 226, v. 166.
147 Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild, s. 632.
148 Azərbaycan dövlət quruluşunun dirçəliş günü olan 28 mayın istirahət günü elan edilməsi haqqında Azərbaycan SSR Prezidenti fərmanının təsdiq olunması barəsində Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 05.02.1991 // ASSRASA, f. 2941, siy.1a, iş 226, v. 176.

dumun keçirilməsinin vacibliyini və əhəmiyyətli olacağını bildirdi. Onun inandırıcı olmayan dəlilləri çoxlu mübahisələr yaratdı.

Demokratik blok nümayəndələri referendumun keçirilməsinin əleyhinə çıxdılar. Xalqın böyük əksəriyyətinin onun hüquqlarını qorumayan, 20 Yanvar qırğınını törədən və Ermənistanın müdaxilələrini dayandırmayan Mərkəzi hakimiyyətə inamı qalmamışdı.

### *3.3. SSRİ-nin mövcudluğu məsələsinə münasibət*

Martın 7-də işini davam etdirən sessiya iclasında yeni ittifaq müqaviləsində iştirak edib-etməmək haqqında məsələyə dair mülahizələrini bildirən deputat Heydər Əliyev birmənalı olaraq dedi:

*"Yeni ittifaq müqavilələri ilə əlaqədar olaraq təyin olunmuş referendumda iştirak etmək və ya etməmək çox mühüm məsələdir. Azərbaycan xalqının gələcək taleyi həll olunur. Ona görə də münasibətimi... bildirmək istəyirəm".*[149]

1922-ci ildən sonra SSRİ tərkibində Azərbaycanın keçdiyi yola diqqəti yönəldən Heydər Əliyev bildirdi ki, xalqımızın səadəti, xoşbəxtliyi üçün hamımız, tam əksəriyyətimiz bu ittifaqa həddindən artıq sədaqətlə xidmət etmişik, xalqımızın xoşbəxtliyini bu ittifaqın daxilində görmüşük, fəqət, son illərdə dünyada, ölkədə gedən ictimai-siyasi proseslər keçmişimizə münasibəti və ümumi dünyagörüşü dəyişmişdir. Sovet İttifaqında Mərkəzlə respublikalar arasında olan iqtisadi-siyasi əlaqələr açılmış, çılpaqlaşmış, hansı tərəfin daha çox xeyir götürdüyü və zərər çəkdiyi aydınlaşmışdır. Respublikada son vaxtlarda baş verən proseslər və yaranmış şərait üzərində dayanan, Mərkəzin siyasətini və yeni ittifaq müqaviləsinin yararsız olduğunu söyləyən Heydər Əliyev vurğuladı:

*"Bir neçə respublikada baş vermiş milli demokratik hərəkatların ittifaq dövləti tərəfindən zorakılıqla hərbi hissələrin vasitəsilə boğulması tədbirləri ittifaqın imperiya siyasəti apardığını tam aşkar etmişdir, ittifaq dağılmağa başlamışdır. Ölkənin rəhbərliyi 70 il mövcud olan ittifaqın yararsız olduğunu bəyan edərək respublikaları yeni ittifaq yaratmağa dəvət edir. Qorbaçov bir neçə dəfə çıxışlarında və hətta belə demişdir ki, guya əvvəldə ölkədə indiyə qədər həqiqi ittifaq olmayıb, respublikalar heç ittifaqda da yaşamayıb, əsl ittifaq bundan sonra yaranacaq, həqiqəti götürsək isə yeni ittifaq müqaviləsinin layihəsi əvvəlkindən də yararsızdır".*[150]

149 XII çağırış Azərbaycan Respublikası Ali Soveti I sessiyasında deputat H.Ə.Əliyevin çıxışı. 07.03.1991. Stenoqrafik hesabat // ASSRASA, f. 2941, siy.1a, iş 245, v. 266-273.

150 Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild, s.633.

Çıxışına davam edən Heydər Əliyev yeni ittifaq müqaviləsinə qoşulmağın qəti şəkildə əleyhinə və Azərbaycanın tam müstəqilliyinə tərəfdar olduğunu aşağıdakı kimi ifadə etdi:

*"...bizim xalqımız üçün 70 illik imtahan bəsdir, yeni bir ittifaqa girməyi Azərbaycan xalqına rəva bilmirəm... Bir sözlə, mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Bu, bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır".*[151]

Daha sonra Ali Sovetin fevralın 5-də keçirilən sessiya iclasında Azərbaycan Respublikasının adının, dövlət bayrağının dəyişdirilməsi, 28 May günü haqqındakı qərarlarını nəzərdə tutan Heydər Əliyev dedi ki, təəssüf, bu qərarlar müzakirə, onların qəbuledilmə səbəbləri izah olunmadı, qərarların özündə də onların məna və mahiyyəti göstərilmədi. Heydər Əliyev xüsusi olaraq vurğuladı:

*"Şübhəsiz ki, bu qərarlar forma naminə qəbul olunmayıb. Bəs belə olan halda nə üçün onların siyasi, tarixi əhəmiyyəti Ali Sovetin sənədlərində öz əksini tapmayıb. 70 il respublikamız Sovet Sosialist məzmunu daşıyıb. İndi biz respublikamızın adını bu sözlərdən azad edirik. Məlum deyil. 70 il bizim respublikamız Oktyabr inqilabı bayrağı altında yaşayıb. Biz o bayraqdan imtina etdik. Yeni bayraq qəbul etdik. Fəqət, bu, heç yeni bayraq deyil. O, 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının milli dövlət bayrağıdır. Bu mühüm siyasi əhəmiyyət kəsb edən fakt nə üçün qeyd olunmadı. Məmməd Əmin Rəsulzadə partiyasının ideyasını təmsil edən bayraqla ona zidd olan ideyanın banisinin büstünün sessiya keçən salonda yan-yana durması da təəccüb doğurur. Sadəcə desək, bu uyğunsuzluğu anlamaq çətindir. Bəlkə buna bir izahat vermək lazımdır. 28 May Azərbaycan dövlət quruluşunun dirçəlişi günü kimi – istirahət günü elan olundu. Məlumdur ki, 28 may 1918-ci ildə Azərbaycan Demokratik Respublikası yaranmışdır. Elə olan halda bu hadisəyə və 28 aprel 1920-ci il hadisəsinə siyasi qiymət vermək lazımdır. Bu məsələlər gərək Ali Sovetin sessiyasında müzakirə olunsun. İkitərəfli, daha açıq desək, ikiüzlü Qorbaçov siyasəti xalqda inam doğura bilməz... Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət etmək üçün bütün imkanlara malikdir".*[152]

Heydər Əliyev Azərbaycanın gələcəyi ilə bağlı öz fikirlərini aydın və konkret şəkildə belə ifadə etdi:

*"Fikrimcə, əgər Azərbaycan tam müstəqil dövlət olarsa, o, indi ittifaqda olan respublikaların hər biri ilə, hətta ittifaq qalarsa, onunla da bərabərhüquqlu,*

151 Yenə orada, s. 634.
152 Yenə orada.

*ikitərəfli faydalı iqtisadi əlaqələr yarada bilər və bu isə müstəqil Azərbaycanın gələcək inkişafı üçün daha səmərəli olar. Azərbaycan xalqının başqa xalqlarla dostluq əlaqələri müstəqil xarakter daşıyar, daha səmimi, daha möhkəm olar".*[153]

Azərbaycanın ittifaq müqaviləsindən imtina etməsinin əsasları üzərində dayanan Heydər Əliyev dedi:

*"...Azərbaycan xalqının başqa xalqlara nisbətən yeni ittifaq müqaviləsinə imtina etməsinə daha çox əsası var. Üç ildir Azərbaycanın ərazi bütövlüyü itirilib, suverenliyi pozulub, lakin ittifaq dövləti bu vəziyyətin aradan qaldırılması üçün səmərəli tədbirlər görməyib. 1990-cı il yanvarın 20-də ittifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən dövlət qoşunları qanunları kobudcasına pozaraq Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür. Təəssüf ki, təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı matəm saxlayır. Respublikanın şəhərlərində və kəndlərində, qəsəbələrində şəhidlərin xatirəsinə abidələr ucalır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası qiymət verməlidir. Onun günahkarlarını müəyyən etməlidir... Məsələnin müzakirəsinin təxirə salınması, uzadılması 20 Yanvar faciəsini ört-basdır etməyin niyyəti kimi qəbul oluna bilər... Ali Sovetin qarşısında çox böyük və mürəkkəb vəzifələr durur. Lakin ən vacib vəzifə respublikanın ərazi bütövlüyünü bərpa etmək və xalqı erməni təcavüzündən qorumaqdır... Respublikanın müstəqil müdafiəsini təmin etmək üçün təxirəsalınmaz tədbirlər görülməlidir. Bunun üçün respublikada ümumxalq birliyinə nail olmaq lazımdır".*[154]

Heydər Əliyev daha sonra söylədi:

*"Azərbaycan xalqının birliyi yeni demokratik, heç kəsdən asılı olmayan dövlət quruluşu yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər az olmayacaq, fəqət, nəyin bahasına olursa-olsun biz buna nail olmalıyıq. Bu yola düşməsək əgər biz, bunu gələcək nəsillər edəcək, tarix, onlar bizi bağışlamayacaqdır... Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır. Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpağını göz bəbəyi kimi qorumalıdır".*[155]

Çıxış edən A.Mütəllibov hər tərəfdən böyük təzyiqlər altında olduğunu, "məni istəyirsinizsə referenduma getməyə dair qərara səs verməyinizi xahiş

153 Yenə orada, s. 635.
154 Yenə orada.
155 Yenə orada, s. 635-636.

edirəm" söylədi. Heydər Əliyev və Demokratik Azərbaycan bloku referendumda iştirakın əleyhinə səs versələr də, qərar səs çoxluğu ilə qəbul edildi və referendumu martın 17-də keçirmək qərara alındı.[156]

Sessiyada ümumxalq səsverməsi (Azərbaycan Respublikasının referendumu) haqqında dörd bənddən ibarət qərar qəbul edildi.[157] Ali Sovetin qərarının əksinə olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il martın 14-də keçirilən sessiya iclasında SSRİ-nin saxlanılmasına dair ümumittifaq referendumunda iştirak etməmək barəsində qərar qəbul edildi.

SSRİ-nin saxlanılması haqqında 1991-ci il martın 17-də keçirilən referendum 15 sovet respublikasından yalnız 9-da baş tutdu. Latviya, Litva, Estoniya, Moldova, Ermənistan və Gürcüstan rəsmi olaraq referendumu keçirməkdən imtina etdilər. Azərbaycanda referendum keçirilsə də, Naxçıvan Muxtar Respublikasında referendum keçirilmədi. Sadə səs çoxluğu nəticəsində Azərbaycan xalqının guya SSRİ-nin saxlanılmasına tərəfdar olduğu bildirildi.

1991-ci il iyunun 26-da parlamentin iclasında Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında 18 maddədən ibarət qanun, prezident seçkilərinin keçirilməsi haqqında Ali Sovetin 6 maddədən ibarət qərarı qəbul olundu. Prezident seçkiləri 1991-ci il sentyabrın 8-nə - bazar gününə təyin edildi.[158]

Suveren Dövlətlər İttifaqı haqqında müqavilənin layihəsi barədə məruzə dinlənildi.[159] Məruzə Azərbaycan rəhbərliyinin ölkədə və dünyada gedən prosesləri dərindən dərk etmədiyini, onların hələ də İttifaq rəhbərliyinə inandığını göstərirdi. Çünki müqavilədə guya suveren dövlət olmaq, müqaviləyə könüllü qoşulmaq məsələləri əksini tapsa da, real deyildi. Layihədə respublikalar yeraltı və yerüstü sərvətlərinin sahibi deyildilər. Layihə başdan-başa quru və ziddiyyətli idi. İttifaq bir tərəfdən respublikaların suveren olduğunu deyir, bunun əksinə olaraq Azərbaycanın əleyhinə qərarlar qəbul edir və ərazisini parçalayırdı. Respublikaların müstəqil surətdə beynəlxalq əməkdaşlığın tam hüquqlu subyekti olduğu deyilir, digər tərəfdən isə bütün xarici əlaqələr Mərkəzin əlində cəmlənirdi. Bir tərəfdən, iqtisadi müstəqillik elan edilir, digər bir tərəfdən isə İttifaq mülkiyyəti ifadəsi yazılırdı. Müqaviləni imzalamaqla Azərbaycanın öz ərazisində yerləşən sənaye müəssisələri üzərində mülkiyyət hüququ olmayacaqdı.

156 Sovet Sosialist Respublikaları İttifaqının saxlanması məsələsi üzrə SSRİ referendumunun Azərbaycan Respublikasında keçirilməsinin təşkili haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 07.03.1991 // ASSRASA, f.2941, siy.1a, iş 242, v. 72-73.

157 Ümumxalq səsverməsi (Azərbaycan Respublikasının referendumu) haqqında Azərbaycan Respublikasının qanunu. 07.031991 // ASSRASA, f.2941, siy.1a, iş 242, v. 36-50.

158 Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 26.06.1991 // ASSRASA, f.2941, siy.1a, iş 254, v. 71-72.

159 Suveren Dövlətlər İttifaqı haqqında müqavilənin layihəsi barəsində məruzə. 28.06.1991 // ASSRASA, f.2941, siy.1a, iş 254, v. 104-123.

Sovet hakimiyyəti illərində Azərbaycan torpağının damarlarından sorulan 1 mlrd. ton neftin dəyəri 73 mlrd. dollar edirdi. Həmin məbləğlə Azərbaycanın 4,2 mlrd. manat dəyərində olan və İttifaq mülkiyyəti hesab edilən əsas neft sənaye fondunu bir neçə dəfə satın almaq olardı. Layihədə bir tərəfdən yazılırdı ki, İttifaq müqaviləsi çiçəklənməyə şərait yaradacaq, digər yandan isə müttəfiq respublikaların xammal mənbəyi olaraq qalması nəzərdə tutulurdu. Bir yandan yazılırdı ki, respublikalar arasında sərhədlər onların razılığı olmadan dəyişdirilə bilməz, digər yandan Azərbaycanın ərazilərinə qəsd edilirdi. Bir tərəfdən yazılırdı ki, İttifaq ölkənin müdafiəsini respublikalarla birlikdə həyata keçirir, digər bir tərəfdən isə respublikanın öz ərazisindəki hərbi hissələrə rəhbərlik etmək hüququ yox idi. Buna baxmayaraq, Ali Sovet Suveren Dövlətlər İttifaqı müqaviləsinin layihəsini bəyəndi və 3 bənddən ibarət müvafiq qərar qəbul etdi.[160]

Bu zaman bütün ölkədə şərait gərginləşirdi. 1991-ci il iyulun 19-da Heydər Əliyevin ərizə yazaraq Kommunist Partiyasının üzvlüyündən istefa verdiyini bəyan etməsi Azərbaycanda kommunist ideologiyasının iflasa uğramasında müstəsna rol oynadı.

1991-ci ilin yayında SSRİ-də ictimai-siyasi böhran daha da dərinləşdi. M.S.Qorbaçov ölkəni idarə edə bilmirdi, proseslər dalana dirənmişdi. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarının qarşısını almadığına, Dağlıq Qarabağ məsələsindəki ermənipərəst mövqeyinə, 20 Yanvarda törədilən qanlı hadisəyə görə sovet rəhbərliyinin nüfuzu qalmamış və Azərbaycanda SSRİ-dən çıxmaq məsələsi gündəmə gəlmişdi.

Ölkədəki qarışıq şəraitdə mühafizəkar qüvvələr hərəkətə keçərək dövlət çevrilişi etdilər. 1991-ci il avqustun 19-da radio və televiziya ilə oxunan “Sovet rəhbərliyinin bəyanatı”nda bildirilirdi ki, M.S.Qorbaçovun xəstəliyi ucbatından onun səlahiyyətləri vitse-prezident və yeni yaradılmış Dövlət Fövqəladə Vəziyyət Komitəsinin (DFVK, rusca QKÇP) sədri Gennadi Yanayevə[161] ötürülür. DFVK-ə G.Yanayevdən başqa SSRİ Müdafiə Şurası sədrinin birinci müavini Oleq Baklanov[162], Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vladimir Kryuçkov[163], Baş nazir Valentin Pavlov[164], daxili işlər naziri Boris Puqo[165], Kəndlilər İttifaqının sədri Vasili Starodubsev[166], Dövlət Müəssisələri Assosiasiyasının prezidenti Aleksandr

160 Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild, s. 642.
161 Gennadi Yanayev (1937 - 2010) – SSRİ-nin birinci vitse-prezidenti. 1991-ci ilin avqust qiyamının ideoloqlarından biri.
162 Oleq Baklanov (1932) – sovet dövlət və təsərrüfat xadimi.
163 Vladimir Kryuçkov (1924) – SSRİ DTK sədri (1988-1991).
164 Valentin Pavlov (1937-2003) – SSRİ-nin Baş naziri ( yanvar-avqust 1991).
165 Boris Puqo (1937-1991) – SSRİ daxili işlər naziri ( 1990-1991).
166 Vasili Starodubsev (1931-2011) – SSRİ xalq deputatı (1989-1992).

Tizyakov[167] və müdafiə naziri Dmitri Yazov[168] daxil idilər. SSRİ Ali Sovetinin sədri Anatoli Lukyanov da qiyamçıları dəstəklədiyini bəyan etdi. Rəsmi bəyanata görə, bu zaman Krımda dincələn M.S.Qorbaçov əslində ev dustağı idi.

Sovet rəhbərliyinin bəyanatında vurğulanırdı ki, yenidənqurma dalana dirənmiş, SSRİ-ni dağıtmaq və hakimiyyəti ələ keçirmək istəyən ekstremist qüvvələr ortaya çıxmışlar, DFVK ölkəni böhrandan çıxarmaq əzmindədir, sovet vətəndaşları qısa müddətdə əmək nizam-intizamını bərpa etməli, istehsal səviyyəsini qaldırmalı və ölkənin böhrandan çıxarılması səylərinə hərtərəfli yardım göstərməlidirlər.

DFVK 1 nömrəli qərarında yazılırdı ki, SSRİ konstitusiyasına zidd olaraq fəaliyyət göstərən hakimiyyət və idarəetmə strukturları, hərbi birləşmələr buraxılır, vəziyyətin normallaşmasına mane olan partiya və ictimai birliklərin fəaliyyəti dayandırılır, nümayiş və tətillər qadağan edilir və kütləvi informasiya vasitələrində senzura tətbiq olunur. Lakin qiyamçılar istəklərinə nail ola bilmədilər. Moskva şəhərinə qoşun hissələri yeridilsə də, xalq onların əleyhinə çıxdı. Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinin[169] tərəfdarları Moskvada izdihamlı mitinq təşkil etdilər. Xarici dövlətlər də DFMK-nın əleyhinə çıxdılar. Üç gün davam edən mitinqdən sonra, avqustun 21-də qiyam iflasa uğradı və təşkilatçıları həbs edildi. Bununla da SSRİ-nin dağılması sürətləndi.

### *3.4. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə*

Qiyam iflasa uğradıqdan sonra Azərbaycanda da şərait dəyişdi. Rəsmi hakimiyyətin mövqeyi tamamilə zəiflədi. Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etmək istiqamətində irəliyə doğru daha bir addım atdı. Azərbaycan Respublikası Ali Sovetinin 1991-cı il avqustun 30-da keçirilən növbədənkənar sessiyasında Azərbaycan Respublikası Ali Soveti 1989-cu il 23 sentyabr tarixli konstitusiya qanununu əsas götürərək 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən bəyan olunmuş dövlət müstəqilliyinin bərpasını Azərbaycan SSR hüdud-

167 Aleksandr Tizyakov (1926-2019) – Dövlət Müəssisələri Assosiasiyasının prezidenti (1990-1991).
168 Dmitri Yazov (1924-2020) – SSRİ müdafiə naziri (1987-1991).
169 Boris Yeltsin (1931-2007) – RSFSR Ali Sovetinin sədri (1990-1991). Rusiya Federasiyasının 1-ci Prezidenti (1991-1999).

larında elan etdi.[170] Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında aktın layihəsini hazırlamağa dair qərar qəbul olundu.

Sessiya iclasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə müzakirə edilərkən çıxış edən deputat Heydər Əliyev dedi:

*"Mən hesab edirəm ki, bu məsələ bu günləri çox tarixi məsələdir və bu məsələni belə tələm-tələsik keçirmək Azərbaycan xalqı qarşısında parlament tərəfindən öz üzərinə böyük məsuliyyət götürmək deməkdir... Mən hesab edirəm ki, bu məsələ müzakirə olunmalıdır və yenə deyirəm belə tələm-tələsik keçirtmək olmaz və bu barədə 2-3 kəlmə demək istəyirəm. Çox qəribə haldır ki, mart ayının 7-dən 10-a qədər bu salonda keçirilən sessiyada bir çox deputatlar, o cümlədən mən Azərbaycanın müstəqilliyini təklif edərkən bizim əleyhimizə cürbəcür hücumlar başlandı və Ayaz Mütəllibovun o qədər də dərin, mənalı əsası olmayan çıxışından sonra hamı hay-küylə səs verdi ki, Azərbaycanın müstəqilliyi ola bilməz və biz referendum keçirməliyik... Tələm-tələsik referendum keçirildi və Azərbaycanın İttifaq müqaviləsinə getməsi haqqında qərar qəbul olundu. Belə olan halda indi xalqın iradəsi olmadan belə bir qərarın, yaxud bəyanatın qəbul olunması qanunu pozmaq deməkdir. Mən bu bəyanatın qəbul olunmasının əleyhinə deyiləm, ancaq bu bəyanatı indi qəbul edib, xalqa müraciət etmək lazımdır və qısa müddətdə 3-4 günün içərisində referendum keçirmək lazımdır və referendumun nəticəsinə görə sessiya yığışıb bu qərarı qəbul etməlidir... Bu, birinci. İkinci, mən mart ayında da demişdim. İkiüzlü siyasət aparmaq olmaz. Bu qərar bu günləri konyuktur xarakter daşıyır, başqa yerlərdə qərar qəbul olunur, biz də qərar qəbul eləyək, biz gecikmişik, ancaq bu bəyanatın mətninə... mütləq əlavə olunmalıdır ki, 1920-ci ildə Azərbaycan işğal olunub, 28 apreldə. Mən Azərbaycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm, 28 inqilabını ömrüm boyu tərənnüm etmişəm, mən tam qətiyyətlə deyirəm, Azərbaycan 27-28 apreldə işğal olunub, Azərbaycan Demokratik Respublikası ləğv olunub, əgər biz bunu burda qeyd etməsək, onda biz yenə də xalqın yanında ikiüzlü olarıq".*[171]

Çıxışlardan sonra məsələ səsə qoyuldu və Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyannamə qəbul olundu. Bəyannamədə yazılırdı:

*"Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan xalqının ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək..., 1918-ci ildən 1920-ci ilə-*

170 Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild, s.644-646.

171 XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında deputat H.Ə.Əliyevin çıxışı. 30.08.1991. Stenoqrafik hesabat // ASSRASA, f. 2941, siy.1a, iş 262, v. 50-51.

*dək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək..., Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir".*[172]

Sənəddə müstəqilliyin bərpa olunduğu və beynəlxalq aləm tərəfindən tanınmaq hədəfi elan edilirdi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında konstitusiya aktının layihəsini hazırlamaq barəsində qərar qəbul edildi. Qərarda yazılırdı ki, Rəyasət Heyəti Ali Sovetin daimi komissiyaları ilə birlikdə xalq deputatlarının təklif və qeydlərini nəzərə alaraq müstəqilliyi bərpa etsin, onun həyata keçirilməsi haqqında qərar layihəsini iki həftə müddətinə hazırlasın və Ali Sovetin müzakirəsinə versin.[173]

Parlamentin elə həmin gün qəbul etdiyi bəyanatda Azərbaycanın artıq müstəqilliyini elan etmiş bəzi dövlətləri tanıdığı bildirildi və onlara da Azərbaycanın müstəqilliyini tanımaqla bağlı aşağıdakı məzmunda çağırış etdi:

*"Azərbaycan Respublikasının Ali Soveti SSR İttifaqının suveren respublikalarının öz müqəddəratını və dövlət quruluşunu kənardan müdaxilə olmadan sərbəst təyin etmək, onların siyasi, iqtisadi, sosial və mədəni inkişafını öz arzusu ilə həyata keçirmək hüququnu təsdiq edərək, öz müstəqilliyini elan etmiş Latviya, Litva, Estoniya, Moldova, Gürcüstan, Ukrayna və Belarusiya respublikalarının bu bəyannamələrinə tərəfdar olduğunu bildirir və onların müstəqilliyini tanıyır.*

*Azərbaycan Respublikası Ali Soveti respublikalarımız arasında səmərəli iqtisadi və mədəni əlaqələrin uzun illər toplanmış təcrübəsini, bu respublikaların dost xalqlarına rəğbət hissini əsas tutaraq Azərbaycanla müstəqil Latviya, Litva, Estoniya, Moldova, Gürcüstan, Ukrayna və Belarusiya respublikaları arasında qarşılıqlı faydaya əsaslanan əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əmin olduğunu bildirir.*

*Ali Sovet öz dövlət müstəqilliyini elan etmiş respublikaları müstəqil Azərbaycan Respublikasını tanımağa və onunla hərtərəfli əlaqələr yaratmağa çağırır. Müstəqil Azərbaycan Respublikası indiyədək SSRİ-nin tərkibində olan bütün respublikalarla bir-birinin suverenliyini tanımaq, qarşılıqlı hörmət və bir-birinin işlərinə qarışmamaq şərti ilə iqtisadi əlaqələri bərpa etmək və özünün bütün öhdəliklərini ardıcıl*

172 Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild, s. 645.
173 Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında aktın layihəsini hazırlamaq barəsində Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 30.08.1991 // ASSRASA, f. 2941, siy.1a, iş 254, v. 96.

*surətdə yerinə yetirmək əzmində olduğunu və bu istiqamətdə danışıqlar aparmağa hazır olduğunu bildirir".*[174]

Azərbaycan Respublikasının Ali Soveti irticaçı qüvvələrin avqustun 19-da konstitusiyaya zidd dövlət çevrilişi haqqında bəyanat qəbul etdi.[175] Bəyanatda yazılırdı ki, avqustun 19-dakı konstitusiyaya zidd dövlət çevrilişinin iflasa uğraması Rusiya parlamentinin, RSFSR Prezidentinin, Moskva şəhəri zəhmətkeşlərinin fədakar səylərinin nəticəsi və demokratiyanın qələbəsidir, qiyam iştirakçılarının istifadə etmək istədikləri üsullar ilk dəfə 1990-cı il yanvarın 19-20-də Azərbaycan Respublikasının paytaxtında sınaqdan çıxarılmışdır.

Qiyam iflasa uğradıqdan bir neçə gün sonra, sentyabrın 2-də Dağlıq Qarabağ Muxtar Vilayəti və Şaumyan Rayon Xalq Deputatları Sovetlərinin birgə iclasında Azərbaycanın DQMV və Şaumyan rayonunun inzibati əraziləri çərçivəsində qondarma "Dağlıq Qarabağ Respublikası"nın yaradıldığı bəyan edildi. Bu, Ermənistanın təcavüzünü pərdələmək üçün atılmış bir addım idi. Bununla Ermənistan Azərbaycan ərazilərində baş verənlərdə guya özünün iştirakının olmadığını göstərmək istəyirdi.

Qondarma qurumun elan edilməsi Azərbaycan və SSRİ qanunlarına tamamilə zidd olub, heç bir hüquqi əsasa malik deyildi. Ermənistanın mövqeyinə görə, bu addımın hüquqi əsasını guya müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında 1990-cı il 3 aprel tarixli SSRİ qanunu təşkil edirdi.[176] Guya Azərbaycan Respublikası müstəqilliyini əldə etdiyi tarixdə qondarma "Dağlıq Qarabağ Respublikası" onun tərkib hissəsi olmamışdı. Bu yanaşma uydurmadan başqa bir şey olmayıb, heç bir tarixi-siyasi əsası yox idi. Belə ki, 1990-cı il 3 aprel tarixli məlum qanun müttəfiq respublikaların SSRİ-dən ayrılacağı təqdirdə riayət etməli olduqları xüsusi qaydalar yaratmaqla SSRİ daxilində qarşılıqlı əlaqələri tənzimləyirdi. Müttəfiq respublikanın ayrılma barədə müvafiq qərarı respublika əhalisinin referendum yolu ilə azad şəkildə ifadə olunmuş iradəsinə əsaslanmalı idi. Qərar müttəfiq respublikanın ali qanunverici orqanı tərəfindən təsdiq olunmalı idi. Müttəfiq respublikanın SSRİ-dən ayrılması mürəkkəb və çoxmərhələli prosedurun yerinə yetirilməsindən, nəhayət, yalnız SSRİ Xalq Deputatları Sovetinin müvafiq qərarının qəbulundan sonra qanuni hesab edilə bilərdi. Bununla belə, Sovet İttifaqı beynəlxalq hüququn subyekti olaraq mövcudluğunu dayandıranadək sözügedən qanunun hüquqi qüvvəsi yox idi. Çünki heç bir müttəfiq respublika, o cümlədən Azərbaycan və Ermənistan

174 Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild, s. 646
175 Azərbaycan Respublikasının bəyanatı. 30.08.1991 // ASSRASA, f. 2941, siy.1a, iş 254, v. 111.
176 О введении в действие Закона СССР о порядке решения вопросов, связанных с выходом союзной республики из СССР от 3 апреля 1990 года. Постановление Верховного Совета СССР // Ведомости Верховного Совета СССР. М., 1990, №15, ст. 308.

SSRİ-dən ayrılmaq üçün orada təsbit olunmuş qaydalardan istifadə etməmişdi. Digər tərəfdən, artıq qeyd edildiyi kimi, yalnız Azərbaycanın dövlət müstəqilliyi haqqında məlum qanunlar qəbul edildikdən sonra Dağlıq Qarabağ regionunda qondarma qurum elan olunmuşdu.

Ali Sovetin sessiyasından bir neçə gün sonra, 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Ali Məclisin sədri haqqında məsələ müzakirə edildi. Keçirilən çoxminli mitinqin və deputatların böyük əksəriyyətinin tələbi ilə Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi məsələsi iclasın gündəliyinə daxil edildi. Kürsüyə qalxaraq razı olmadığını bildirsə də, sessiya iştirakçıları əksər səslə (1 nəfər əleyhinə, 4 nəfər bitərəf olmaqla) Heydər Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçdi.

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi Azərbaycanın mürəkkəb və ağır dövrünə təsadüf edirdi. Məhz Heydər Əliyev şəxsiyyəti və bacarığı Naxçıvanı gözlənilən fəlakətlərdən qorudu və bu qədim diyarı düşmən əlinə keçmək təhlükəsindən xilas etdi.

Azərbaycanın digər bölgələrində sovet ordusundan qalan silah-sursat dağıdıldığı, talan edildiyi bir vaxtda Heydər Əliyev Naxçıvandakı sovet qoşunlarının cəbbəxanasının bütünlükdə Muxtar Respublikanın dövlət orqanlarının nəzarəti altında təhvil-təslimini təmin etdi. Beləliklə, Naxçıvanda Azərbaycan Ordusunun ilk birləşmələri formalaşdı və Ermənistanın hərbi təcavüzünə qətiyyətli cavab verildi.

## *3.5. Azərbaycan Respublikasında ilk prezident seçkiləri*

Artıq qeyd edildiyi kimi, 1991-ci il iyunun 26-da Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Respublikasında prezident seçkilərinin keçirilməsi haqqında qərar qəbul etmişdi. Qərarda yazılırdı:

*"1. Azərbaycan Respublikası Konstitusiyasının (Əsas Qanununun) 121-2 maddəsi rəhbər tutularaq, respublikanın bütün ərazisində ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə beş il müddətinə Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilsin.*

*Azərbaycan Respublikası Prezidenti seçkiləri 1991-ci il sentyabrın 8-nə, bazar gününə təyin edilsin.*

*2. Müəyyən edilsin ki, "Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasının səlahiyyətlərini Azərbaycan*

*Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası həyata keçirir.*

*3. Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasına tapşırılsın ki, Azərbaycan Respublikasında rayonların, rayon bölgüsü olmayan respublika tabeli şəhərlərin və vilayət (DQMV) tabeli şəhərlərin, şəhərlərdə rayonların sərhədləri daxilində Azərbaycan Respublikası Prezidenti seçkilərinin təşkili və keçirilməsi üçün seçki dairələri yaratsın.*

*4. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə dairə seçki komissiyalarının səlahiyyətlərini Azərbaycan Respublikası yerli xalq deputatları Sovetləri deputatları seçkiləri üzrə ötən seçki kampaniyası dövründə 5 il müddətinə yaradılmış rayon və şəhər (respublika və vilayət tabeli şəhərlər; Bakı və Gəncə şəhərlərindən savayı) seçki komissiyaları həyata keçirirlər.*

*5. Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Rəyasət heyəti, rayon və şəhər xalq deputatları Sovetləri və onların rəyasət heyətləri Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə seçki məntəqələrinin təşkilini və məntəqə seçki komissiyalarının formalaşmasını 1991-ci il avqustun 1-dən gec olmayaraq təmin etsinlər.*

*6. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Ali Soveti Rəyasət heyətinin təqdimatı ilə Azərbaycan Respublikası Prezidenti seçkilərinin maddi və maliyyə təminatı, seçkilərə nəqliyyat və rabitə müəssisələri və təşkilatları tərəfindən xidmət göstərilməsi məsələlərini həll etsin".*[177]

Ölkədə ilk prezident seçkiləri 1991-ci il sentyabrın 8-də keçirildi. "Azərbaycanın dövlət müstəqilliyi haqqında" konstitusiya bəyannaməsinin qəbul edilməsindən 10 gün sonra keçirilən seçkidə bir namizəd var idi. Bu, Azərbaycan KP-nin namizədi Ayaz Mütəllibov idi. Əslində o, 1990-cı ilin mayında Ali Sovet tərəfindən prezident seçilmişdi.

Seçkilərdən əvvəl Azərbaycan Respublikası Ali Sovetinin deputatı Heydər Əliyev Ali Sovetin Rəyasət Heyətinə 24 avqust 1991-ci il tarixdə müraciət edərək Azərbaycan KP və onun birinci katibi Ayaz Mütəllibovun keçmiş ittifaq miqyasında bir çox qeyri-qanuni proseslərə qarışması ilə əlaqədar olaraq, məsələlər aydınlaşana kimi sentyabrın 8-nə təyin olunmuş seçkilərin dayandırılmasını tələb etdi.[178] Müxalifət də seçkini boykot etdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 4 sentyabr tarixli qərarı ilə prezident seçkiləri Muxtar Respublikanın ərazisində dayandırıldı. Bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarında yazılırdı:

*"Prezident seçkiləri Azərbaycanda demokratiya və xalqın səsinin boğulması şəraitində keçirildiyindən, bütün demokratik qüvvələr həmin seçkilərin təxirə*

177 Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı. // http://www.e-qanun.az/framework/6616.

178 Qayıdış (1990-1993): Təkmilləşdirilmiş və yenidən işlənilmiş ikinci nəşri. Bakı, 2008, s. 180.

*salınmasını tələb etsə də, nəyin bahasına olursa - olsun hakimiyyəti əlində saxlamağa çalışan A.Mütəllibov Ali Sovetə seçkilərin təxirə salınmasına bütün vasitələrlə mane olur.*

*1990-cı il 19 yanvar Bakı qırğınlarından il yarımdan artıq müddət keçməsinə baxmayaraq, həmin hadisələrə siyasi və hüquqi qiymət verilməmiş, bir sıra rəsmi orqanlar və informasiya vasitələrinin məlumatlarında A.Mütəllibovun Bakıya qoşun yeridilib dinc əhalinin güllələbaran edilməsi, tankların və zirehli transportyorların altına salınmasında təqsirli olması bildirilsə də, hətta özü belə bunu təkzib etməmişdir.*

*Təsadüfi deyildir ki, Bakıya qoşun yeridilməsi və Naxçıvan torpağına ermənilərin hücumu eyni vaxta düşür. Naxçıvan torpağında günahsız qanların axıdılması, hətta uşaqların belə erməni güllələrindən tələf edilməsi xalqımızın gələcəyi haqqında daha ciddi düşünməyə bizi vadar edir.*

*1991-ci il 19-21 avqust dövlət çevrilişinə və Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinə münasibətdə də A.Mütəllibov özünün irticaçı niyyətini gizlətməmiş, qiyamçıları açıq-aşkar müdafiə etmişdir. A.Mütəllibovun alternativsiz namizədliyi, Azərbaycanda faktiki olaraq çoxpartiyalılığın mövcud olmaması, yeganə müxalifət qüvvəsi olan Xalq Cəbhəsinin zorakılıq və qanunsuzluqlara görə seçkilərdə iştirakdan imtina etməsi, seçki komissiyası və məntəqəsi üzvlərinin partokratiya nümayəndələrinin sifarişi ilə təyin edilməsi, nəhayət, A.Mütəllibovun əsas dəstəkləyicisi olan Kommunist Partiyasının süqutu prezident seçkilərinin dayandırılmasını zəruri etmişdir.*

*Bütün bunlarla yanaşı nəzərə alınmalıdır ki, prezident seçkiləri Azərbaycan xalqının qərinələrlə sürən azadlıq arzusu ilə bağlıdır və bütün xalqın istəyi və iştirakı təmin olunmalıdır. Bu seçkilər kiminsə hakimiyyət hərisliyindən doğan arzusunun təmin olunmasına yönəldilə bilməz. Nəhayət, prezident seçkilərinin təxirə salınmasında qanunsuzluq yoxdur, bu yalnız ədalətin və xalq istəyinin yerinə yetirilməsinə xidmət edir".*[179]

Xalqı yolundan döndərmək üçün iqtidar Naxçıvana ciddi təzyiqlər göstərərək silahlı qüvvələr yeritdi. Bir qrup zabit və deputatlardan ibarət böyük bir dəstə Naxçıvana göndərildi ki, yerli hakimiyyət orqanının qərarını dəyişməyə məcbur etsin. Lakin Ali Məclisin sədri Heydər Əliyev yerli televiziya vasitəsi ilə bəyanat verib xəbərdarlıq etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr muxtar respublikanı tərk etməlidirlər, əks-təqdirdə bütün əhali ayağa qalxacaqdır. Nəticədə iqtidar geri çəkilməyə məcbur oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci il 1 oktyabr tarixli qərarı ilə keçid dövrü ittifaq orqanlarında Azərbaycan

179 Yenə orada, s.199.

Respublikasının iştirakını mümkünsüz saydı, respublika rəhbərliyinin müstəqillik məsələsində qeyri-ardıcıl mövqeyini ittiham etdi.

Alternativ namizədlərin olmadığı şəraitdə demokratik seçki gözləmək yersiz idi. Proses daha çox A.Mütəllibovun statusunun rəsmiləşdirilməsi məqsədi daşıyırdı. Açıqlanan rəsmi nəticələrə görə, seçkidə səsvermə hüququndan ölkədə olan seçicilərin 85,70%-i istifadə etmişdi. Ayaz Mütəllibov səslərin 98.50%-ni toplamışdı.

Beləliklə, A.Mütəllibov Azərbaycan Respublikasının birinci prezidenti oldu. O, yaranmış şəraiti başa düşərək xalqın rəğbətini qazanmaq üçün bəzi addımlar atmağa məcbur oldu. Sentyabrın 14-də keçirilən XXXIII fövqəladə qurultayda Azərbaycan Kommunist Partiyası buraxıldı. Bununla da respublikada kommunist ideologiyasının bir sistem olaraq varlığına son qoyuldu.

***

Fəsildə tədqiq edilən məsələlərdən bəlli olur ki, Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxiləsi davam etmişdir. Bununla paralel olaraq Ermənistandakı tarixi torpaqlarında yaşayan azərbaycanlıların vəhşicəsinə qovulması nəticəsində Azərbaycanda sosial-iqtisadi və siyasi böhran dərinləşmişdir. Belə gərgin şəraitdə, 1990-cı ilin sentyabrında A.Mütəllibov Azərbaycan SSR Ali Soveti tərəfindən prezident seçilmişdir.

Azərbaycan SSR Ali Sovetinə seçkilər keçirilmişdir. Parlamentə ilk dəfə olaraq müxalifətin nümayəndələri daxil edilmişdir.

Azərbaycan hakimiyyətinin bütün təzyiqlərinə və törətdiyi maneələrə baxmayaraq, xalqın qəti iradəsi nəticəsində Heydər Əliyev Naxçıvan MSSR Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. 1990-cı il noyabrın 17-də keçirilən sessiya iclasında ağsaqqal deputat olaraq Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan MSSR-in adından "Sovet Sosialist" ifadələri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilmiş və Bakıya həmin rəmzləri qəbul etmək təklif olunmuşdur. Sovet sisteminin, kommunist ideologiyasının və sovet dövlətinin mövcud olduğu bir şəraitdə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağının qəbul edilməsi böyük tarixi əhəmiyyətli hadisə, müstəqil Azərbaycan dövlətinin təməllərinin rəsmi olaraq atılması demək idi.

Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də keçirilən iclasında dövlət Azərbaycan Respublikası adlandırılmış və Cümhuriyyətin bayrağı dövlət bayrağı olaraq qəbul edilmişdir. Azərbaycan İttifaq müqaviləsinin əleyhinə çıxmışdır.

SSRİ-də vəziyyət getdikcə ağırlaşdığından bir qrup şəxs 1991-ci il avqustun 19-da dövlət çevrilişi cəhdi etmişdir. Çevriliş cəhdi iflasa uğradıqdan sonra Sovet İttifaqının dağılması prosesi sürətlənmişdir.

1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə qəbul edilmişdir. Dövlət müstəqilliyinin bərpası haqqında konstitusiya aktının hazırlanmasına başlanılmışdır. Bundan bir neçə gün sonra, sentyabrın 8-də Azərbaycan Respublikasında ilk prezident seçkiləri keçirilmişdir. A.Mütəllibov Azərbaycan Respublikasının birinci prezidenti olmuşdur. Onun prezident seçilməsi respublikada mövcud olan vəziyyəti daha da ağırlaşdırmışdır.

# 4-cü FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPA EDİLMƏSİ VƏ ERMƏNİSTANIN AÇIQ HƏRBİ TƏCAVÜZÜNÜ DAYANDIRMAQ CƏHDLƏRİ

### *4.1. Dövlət müstəqilliyi haqqında Konstitusiya aktının qəbul edilməsi*

1991-ci il oktyabr ayının 18-də XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasının növbəti iclası keçirildi.[180] Deputat Hacıbaba Əzimov[181] Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktının layihəsini təqdim etdi. Layihə 258 səs lehinə olmaqla qəbul olundu.[182] 6 bölmə, 32 maddədən ibarət olan konstitusiya aktında yazılırdı ki, 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal bəyannaməsini qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi. Azərbaycan Respublikasının Ali Soveti 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının qəbul etdiyi İstiqlal bəyannaməsini, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli bəyannaməsini rəhbər tutaraq konstitusiya aktını qəbul etdi və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis etmək barədə qərar verdi.

Konstitusiya aktının 1-ci bölməsində ümumi müddəalar verilmişdi. Nəinki Azərbaycan Respublikasının müstəqil gələcəyi, eləcə də Azərbaycanın keçmişinə verilən tarixi-hüquqi qiymət kimi böyük əhəmiyyət daşıyan ümumi müddəalar hissəsində yazılırdı ki, 1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğalıdır. Sənəddə Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən

180 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild. Bakı, 2018, s. 19.
181 Hacıbaba Əzimov (1938) – tarix elmləri doktoru, professor. Parlamentin deputatı (1990 - 1995). Lənkəran Dövlət Universitetinin ilk rektoru (1991-1992).
182 Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktı. 18.10.1991 // Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (ARMMA), f.2941, siy.1a, iş 264, v. 29-38.

1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi hesab edilir, SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid olan hissəsi qüvvədən düşmüş sayılırdı. Azərbaycan SSR-in 1978-ci il konstitusiyasının bu konstitusiya aktının müddəalarına zidd gəlməyən maddələri müvəqqəti olaraq qüvvədə qalmış hesab edilirdi. SSRİ-nin borclarına aid olan məsələnin həlli qaydasının əks olunduğu akta görə, SSRİ-nin dövlət borcunun yalnız o hissəsi Azərbaycan Respublikasına keçə bilərdi ki, respublika ərazisində təsərrüfat fəaliyyəti nəticəsində və Azərbaycan Respublikasının ixtiyarına keçən SSRİ əmlakı ilə əlaqədar yaranmış olsun. SSRİ-nin Azərbaycan SSR-in ərazisindəki bütün daşınar və daşınmaz mülkiyyəti Azərbaycan Respublikasının mülkiyyəti hesab edilirdi.

Konstitusiya aktının "Azərbaycan xalqı" adlanan 2-ci bölməsində yazılırdı ki, Azərbaycan xalqı Azərbaycan Respublikasının ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan bütün Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir, bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir. Sənəddə Azərbaycan Respublikasında suveren hakimiyyətin Azərbaycan xalqına məxsus olduğu təsbit edilirdi.

Konstitusiya aktına əsasən öz idarəetmə formasını seçmək, başqa xalqlarla münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının ayrılmaz hüququ kimi bəyan edilir, Azərbaycan Respublikasında suveren hakimiyyətin Azərbaycan xalqına məxsusluğu ifadə olunurdu. Aktda həmçinin yazılırdı ki, Azərbaycan xalqı öz iradəsinin ifadəsi kimi Azərbaycan Respublikasının demokratik quruluşuna və qanunun aliliyinə təminat verir.

Konstitusiya aktının 3-cü bölməsi "Azərbaycan dövləti" adlanırdı. Burada qeyd olunurdu ki, Azərbaycan xalqı müstəqil, dünyəvi, demokratik, unitar dövlət yaradır, bu dövlətin suveren hakimiyyəti daxili məsələlərdə ancaq hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan xalqının azad surətdə razılıq verdiyi müqavilələrdən və sazişlərdən irəli gələn müddəalarla məhdudlaşdırılır. Sənəddə Azərbaycan Respublikasının suverenliyinin şəriksiz və onun bütün ərazisinə şamil olması təsbit edilirdi. Dövlət hakimiyyətinin hakimiyyətin bölünməsi prinsipinə əsaslandığı yazılırdı. Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının parlamentinin həyata keçirməsi müəyyənləşdirilirdi. Konstitusiya aktında ali icra hakimiyyətinin Azərbaycan dövlətinin başçısı olan Azərbaycan Respublikası Prezidentinə məxsusluğu müəyyən edilirdi. Məhkəmə hakimiyyəti müstəqil məhkəmələr tərəfindən və ali instansiyada hər birinin səlahiyyətləri daxilində Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və Ali Arbitraj Məhkəməsi tərəfindən həyata keçirilirdi. Azərbaycan Respublikasının ərazisinin vahidliyi,

bölünməzliyi və özgəninkiləşdirilə bilməzliyi təsbit edilirdi. Qeyd olunurdu ki, Azərbaycan Respublikası öz ərazisinin hər hansı bir hissəsini, hər hansı bir formada kimsəyə vermir, yalnız Azərbaycan Respublikası parlamentinin qərarı ilə respublikanın bütün əhalisi arasında xalq səsverməsi (referendum) keçirmək yolu ilə Azərbaycan xalqının razılığı əsasında sərhədlərdə dəqiqləşdirmə aparıla bilər. Azərbaycan Respublikası ərazisinin heç bir hissəsi başqa dövlətə və ya başqa dövlətin hüquqi şəxsinə satıla və verilə bilməzdi. Konstitusiya aktı ilə Azərbaycan Respublikasının ərazisində yalnız Azərbaycan qanunlarının qüvvədə olması təsbit edilirdi. Azərbaycan Respublikasında vahid vətəndaşlıq müəyyənləşdirilirdi. Heç kəs vətəndaşlıqdan və ya vətəndaşlığını dəyişdirmək hüququndan məhrum edilə bilməzdi. Bütün vətəndaşların qanun qarşısında bərabərliyi məsələsi də aktda öz əksini tapmışdı. Azərbaycan Respublikasının İnsan hüquqlarının ümumi bəyannaməsinə, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Məsələlərinə dair 1975-ci il 1 avqust tarixli Helsinki Müşavirəsinin Yekun aktına və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq sənədlərinə qoşularaq, onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsini təmin edəcəyi elan olunurdu.

İqtisadi münasibətlərin tənzimlənməsi məsələlərinin öz əksini tapdığı konstitusiya aktının 4-cü bölməsində yazılırdı ki, bütün təbii ehtiyatlar hər hansı şəxslərin və ya təşkilatların mülkiyyət hüquqlarına və mənafeyinə xələl gətirilmədən Azərbaycan Respublikasına məxsusdur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və kollektiv mülkiyyət şəklində ola bilərdi. Xüsusi və kollektiv mülkiyyətə qanunla icazə və təminat verilirdi, onlar məcburi şəkildə özgəninkiləşdirilə bilməzdi. Daşınar və daşınmaz əmlakın tam müsadirəsinə yol verilmirdi. Qanunda nəzərdə tutulmuş hallarda xüsusi və kollektiv mülkiyyət zərərin ödənilməsi şərti ilə Azərbaycan Respublikasının xeyrinə özgəninkiləşdirilə bilərdi. Qanunla müəyyənləşdirilmiş hallardan başqa, məcburi əmək qadağan edilirdi. Əmək qabiliyyəti olmayan və lazımi dolanışıq imkanlarından məhrum olan hər bir vətəndaşın dövlətdən kömək və yardım almaq hüququ var idi.

Konstitusiya aktının 5-ci bölməsi “Siyasi münasibətlər” adlanırdı. Yetkinlik yaşına çatmış vətəndaşlara seçki hüququ verilirdi. Səsvermə şəxsi, bərabər, azad və gizli idi. Səsvermə hüququ yalnız vətəndaşın hüquq qabiliyyətsizliyi nəticəsində və ya qüvvəyə minmiş məhkəmə hökmü əsasında məhdudlaşdırıla bilərdi. Vətəndaşların azad surətdə siyasi partiyalar və ictimai təşkilatlar yaratmaq hüququ var idi. Azərbaycan Respublikasını müdafiə etmək Azərbaycan Respublikası vətəndaşlarının müqəddəs borcu hesab olunurdu. Vətəndaşlar

Azərbaycan Respublikasına sadiq olmalı, konstitusiyaya və qanunlara riayət etməli idilər.

6-cı bölmə yekun müddəaları özündə əks etdirirdi. Yazılırdı ki, bu konstitusiya aktı Azərbaycan Respublikasının konstitusiyasının hazırlanması üçün əsasdır.[183]

SSRİ-nin hələ mövcud olmasına baxmayaraq, dövlət müstəqilliyi haqqında konstitusiya aktının qəbul edilməsinin böyük tarixi əhəmiyyəti var idi. Bununla Azərbaycan xalqı 1920-ci ilin aprel ayında bolşevik Rusiyasının işğalı nəticəsində son qoyulmuş müstəqil dövlətini bərpa edirdi. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan olunurdu.

### *4.2. İlk addımlar və problemlər*

Dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının qarşısında dayanan başlıca vəzifələrdən biri Ermənistanın kobud müdaxilələrinin qarşısını almaq, beynəlxalq birlik tərəfindən de-yure tanınmağa nail olmaq, dünya dövlətlərinin sülhü və təhlükəsizliyi qorumaq üçün formalaşdırdıqları universal tipli təşkilat olan Birləşmiş Millətlər Təşkilatına[184] üzv olmaqdan ibarət idi.

Ermənistanın kobud müdaxiləsi və təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün ilk addımları atan RSFSR Prezidenti Boris Yeltsin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev 1991-ci il 20 sentyabrda regiona səfər etdilər. Şəraitlə tanış olduqdan sonra onlar Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün keçirilməsi barəsində razılaşdılar.

1991-ci il sentyabrın 23-də Jeleznovodskda Rusiya Prezidenti Boris Yeltsin, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Azərbaycan Prezidenti Ayaz Mütəllibov və Ermənistan Prezidenti Levon Ter-Petrosyan görüşərək münaqişənin tənzimlənməsi yollarını müzakirə etdilər. Müzakirələrin yekununda RSFSR, Qazaxıstan, Ermənistan və Azərbaycan prezidentləri bəyannamə imzaladılar. Bəyannaməyə görə, Azərbaycanın Dağlıq Qarabağ regionunda silahlı dəstələr tərksilah edilməli, yerli hökumət yenidən təşkil olunmalı, Ermənistan ilə Azərbaycan arasında yüksək səviyyəli görüşlərin keçirilməsi davam etdirilməli, atəşkəs elan edilməli, SSRİ Daxili İşlər Nazirliyinin bölmələri və SSRİ ordu hissələri döyüş bölgəsindən çəkilməli idi. Ayrıca imzalanan protokola görə,

183 Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktı. 18.10.1991 // Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (ARMMA), f.2941, siy.1a, iş 264, v. 29-38.
184 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. II hissə. Bakı, 2015, s. 369.

Ermənistan parlamenti Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni ərazisi olduğunu elan edən qərarını, bunun müqabilində də SSRİ Ali Soveti Dağlıq Qarabağa dair qəbul etdiyi qərarları ləğv etməli, Ermənistan və Azərbaycan qarşılıqlı olaraq girovları azad etməli idilər.

B.Yeltsin və N.Nazarbayevin səfərinin yekunları barədə birgə rəsmi məlumat qəbul edildi. Jeleznovodsk görüşündən sonra Ermənistan prezidenti imzalanan sənədləri "həll deyil, bu yolda atılmış addım", Rusiya Prezidenti Boris Yeltsin isə "tarixi bir addım" olaraq qiymətləndirdi. Lakin razılaşmanı pozan Ermənistan azərbaycanlı mülki əhaliyə qarşı qanlı əməllərini davam etdirdi.

Azərbaycan dövləti Birləşmiş Millətlər Təşkilatına üzv olmaq üçün bəzi addımlar atdı. Ali Sovetin oktyabrın 29-da keçirilən növbədənkənar sessiya iclasında Birləşmiş Millətlər Təşkilatına müraciət qəbul edildi.[185] Müraciətdə Azərbaycan Respublikasının BMT nizamnaməsinə sadiqliyi və ondan irəli gələn öhdəlikləri yerinə yetirməyə hazır olduğu bildirilir və nizamnamənin 4-cü maddəsinə müvafiq surətdə BMT üzvlərindən xahiş edilirdi ki, Azərbaycan Respublikasının təşkilatın üzvlüyünə qəbul edilməsi məsələsini nəzərdən keçirsinlər.[186]

Hələ SSRİ-nin mövcud olmasına və NATO üzrə müttəfiqlərinin təzyiqlərinə baxmayaraq, Türkiyə Cümhuriyyəti 1991-ci il noyabrın 9-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı.[187] Beləliklə, Türkiyə Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlət oldu.

BMT Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının müraciətini dörd ay sonra – 1992-ci il fevralın 14-də müzakirə edərək bəyəndi.[188] Martın 2-də BMT Baş Məclisinin 46-cı sessiyasında Azərbaycan təşkilata üzv qəbul edildi.[189] Azərbaycan Respublikası təşkilatın 181-ci üzvü oldu. Bu, Azərbaycan xalqının müstəqil və suveren dövlətə sahib olmasının dünya tərəfindən hüquqi olaraq tanınması demək idi.[190]

Müstəqil Azərbaycan Respublikasının tanınması haqqında dünya birliyinin üzvü olan dövlətlərin parlamentlərinə və hökumətlərinə müraciət qəbul edildi. Müraciətdə 1920-ci il aprelin 28-də RSFSR silahlı qüvvələrinin açıq təcavüzü və Azərbaycanı işğal etməsi nəticəsində itirilmiş müstəqilliyin bərpa edildiyi, yenidən dünya birliyinin bərabərhüquqlu üzvü olmaq istəyən Azərbaycan dövlətinin hamılıqla qəbul edilmiş beynəlxalq hüquq prinsiplərinə tərəfdar olduğu

185 Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı,1996, s.11-12.
186 Birləşmiş Millətlər Təşkilatına müraciət. 29.10.1991 // ARMMA, f.2941, siy.1a, iş 265, v. 14.
187 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 427.
188 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. II hissə, s. 370.
189 Qasımlı M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997, s. 82-83.
190 Üçüncü minillikdə geosiyasətin üfüqləri (məqalələr toplusu). Bakı, 2018, s. 33.

qeyd olunur, bütün dövlətlər, onların parlamentləri və hökumətləri Azərbaycan Respublikasını müstəqil suveren dövlət kimi tanımağa çağırılırdı.[191]

Azərbaycan Respublikası Sovet İttifaqının üzvü olmuş digər dövlətlərlə də münasibətlərin qorunub saxlanılmasında və yalnız bərabərhüquqlu əməkdaşlıqda maraqlı idi. Çünki 70 il ərzində siyasi, iqtisadi və mədəni əlaqələrin formalaşdığı bu respublikalarla Azərbaycanı qarşılıqlı iqtisadi bağlılıq və müstəqil dövlət kimi yeni ictimai-iqtisadi sistemə keçid birləşdirirdi. Həmin məqsədlə oktyabrın 29-da Azərbaycan Respublikasının Ali Soveti RSFSR, Ukrayna, Belarus, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Litva, Moldova, Latviya, Qırğızıstan, Tacikistan, Ermənistan, Türkmənistan və Estoniya respublikalarına müraciət etdi. Müraciətdə dövlət müstəqilliyinin bərpası haqqında məlumat verilir və keçmiş SSRİ respublikaları ilə sıx qarşılıqlı əlaqə saxlamağa və əməkdaşlıq etməyə, qarşılıqlı münasibətlərin və iş birliyinin bütün formalarını dərinləşdirməyə və zənginləşdirməyə maraq göstərildiyi vurğulanırdı.[192]

Dövlət müstəqilliyinin bərpası qarşıya yeni vəzifələr qoyurdu. Məlum olduğu kimi, hələ 1990-cı il 20 yanvar hadisəsindən sonra hakimiyyətdə olanlarla müxalifəti təmsil edən Azərbaycan Xalq Cəbhəsi arasında mübarizə kəskinləşmişdi. Hakimiyyət boşluğundan, dövlət məmurlarının səriştəsizliyindən, ölkənin idarə edilməməsindən, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsindən istifadə edən Azərbaycan Xalq Cəbhəsi siyasi proseslərdə önə çıxmışdı.

Münaqişənin həll edilməsində acizlik, sosial-iqtisadi çətinliklərin hər keçən gün artması hakimiyyətdə olanların üzərinə siyasi və hüquqi məsuliyyət qoyurdu. SSRİ-də gedən siyasi və hüquqi dəyişikliklərə hazır olmayan hakimiyyət həm ölkədə cərəyan edən proseslərin nəbzini tuta bilmirdi, həm də gələcək planının nələrdən ibarət olması, hansı strategiya və taktika ilə hərəkət edəcəyi və dövlətin gələcəyinin necə olacağı haqqında təsəvvürə malik deyildi.

AXC isə heç bir hüquqi məsuliyyət daşımadığı üçün ölkədə cərəyan edən hadisələrdən maksimum təzyiq vasitəsi kimi istifadə edərək hakimiyyətə gəlməyə çalışırdı. Siyasi mübarizənin əsas hadisələri Ali Sovetdə cərəyan edirdi. Müxalif deputatlardan ibarət olan Demokratik blok Ali Sovetdə təmsil olunsa da, 360 nəfər üzvü olan bu qurumda rahat hərəkət edə bilmir və tələblərini qəbul etdirməkdə çətinlik çəkirdi. Ona görə də blok Ali Sovetin bu mexanizminin dəyişdirilməsi, daha uyğun və əlverişli şəraitdə mübarizə aparmaq üçün deputatların daha kiçik bir qrupunun təmsil edildiyi Milli Şura yaradılması təklifi ilə çıxış etdi. Həmin məsələ 1991-ci il oktyabrın 30-da keçirilən iclasda bir daha

191 Müstəqil Azərbaycan Respublikasının tanınması haqqında dünya birliyinin üzvü olan dövlətlərin parlamentlərinə və hökumətlərinə müraciət. 29.10.1991 // ARMMA, f.2941, siy.1a, iş 265, v. 21.

192 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 25.

müzakirə edildi və Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası haqqında Azərbaycan Respublikasının konstitusiya qanunu qəbul olundu. 7 maddədən ibarət olan qanunda yazılırdı ki, Azərbaycan Respublikasının tam dövlət müstəqilliyi əldə etməsi üçün zəmin yaratmaq məqsədi ilə keçid dövrü elan olunur və Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası yaradılır. Milli Şura Ali Sovetin deputatlarının 50 nəfərindən ibarət təşkil edilirdi. Onun fəaliyyətinə Ali Sovetin sədri və müavinləri rəhbərlik edirdi. Milli Şuranın üzvləri daimi fəaliyyət göstərir və onların əvvəlki iş yerlərinə bərpa olunmaq hüququ saxlanılırdı. Azərbaycan Respublikası konstitusiyasını qəbul etmək, Prezidentin səlahiyyətlərini müəyyən etmək, onu vəzifəsindən azad etmək, Prezident və xalq deputatları seçkilərinin vaxtını müəyyən etmək, Konstitusiya Məhkəməsinin hakimlərini seçmək, Prezidentin təqdimatı ilə Nazirlər Kabinetini təşkil etmək səlahiyyətləri Milli Şuraya verilirdi. Milli Şuranın tərkibinə daxil olmayan xalq deputatları yeni qanunvericilik orqanı seçilənədək bütün səlahiyyətlərini saxlayırdılar.[193]

İclasda çıxış edən Prezident Ayaz Mütəllibov respublikada gərginliyin artdığını, Moskvada Azərbaycana qarşı müəyyən münasibət başlandiyini, Ermənistan Respublikası Ali Sovet sədrinin birinci müavini, Nazirlər Sovetinin sədri vəzifələrini müvəqqəti icra edən şəxslərin, bu ölkənin müdafiə nazirinin, daxili işlər nazirinin, Azərbaycandan isə Baş nazir Həsən Həsənovun və özünün M. Qorbaçovla görüşdüyünü, görüşün 7 saat sürdüyünü və gərgin keçdiyini dedi. Daha sonra Ermənistanda yaranan çörək qıtlığı üzərində dayanaraq bildirdi ki, 1992-ci il dəhşətli olacaqdır, Dağlıq Qarabağa lazımınca diqqət yetirilmir. Ermənistan parlamenti isə orada müəyyən işlər aparır. Əlavə etdi ki, Azərbaycan müstəqilliyini elan etdikdən sonra o, SSRİ rəhbərliyi üçün yad adamdır.[194]

Ali Sovet DQMV-də və Ermənistan ilə sərhədyanı rayonlarda şəraitin kəskin surətdə pisləşməsi ilə əlaqədar olaraq suveren dövlətlərin parlamentlərinə müraciət etdi. Müraciətdə Ermənistan silahlı dəstələrinin elan olunmamış müharibədə Azərbaycan ərazisində yüzlərlə azərbaycanlını, rusu, ukraynalını, belarusu, digər millət və xalqların nümayəndələrini qətlə yetirdiyi, yaraladığı, şikəst etdiyi, kəndləri yandırdığı və talan etdiyi, Azərbaycan Respublikasına qarşı Ermənistanın rəsmi hakimiyyət orqanları tərəfindən idarə olunan və əlaqələndirilən geniş miqyaslı silahlı təcavüz edildiyi, Mərkəzin Azərbaycana hər cür təzyiq etdiyi, kütləvi informasiya vasitələrinin də gərginliyin artırılması vasitəsinə çevrildiyi, ölkə əhalisinə və dünya ictimaiyyətinə yalan xəbərlər verməklə Azərbaycan haqqında mənfi fikir yaratmağa çalışdığı qeyd olunurdu.[195]

193 Yenə orada, s. 27.
194 XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin ikinci sessiyası. 09.11.1991. Stenoqram // ARMMA, f.2941, siy. 1a, iş 279, v. 2, 12, 20.
195 Suveren dövlətlərin parlamentlərinə Azərbaycan Respublikası Ali Sovetinin müraciəti haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 09.11.1991 // ARMMA, f.2941, siy.1a, iş 271, v. 286-288.

Bu zaman DQMV-də vəziyyət xeyli gərginləşmiş, Xocavənd rayonunda atışma olmuşdu. Qaradağlıda və Hadrutda da vəziyyət pisləşirdi. DQMV-də 3 minə yaxın erməni terrorçusu var idi. Eyni zamanda Goranboy rayonunun Todan kəndinə də hücum edilmişdi. Bütün bunları dayandırmaq üçün M. Qorbaçovla danışıqlar aparılırdı.[196]

1991-ci il noyabrın 15-də Ali Sovetin iclasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi məsələsi üzrə Azərbaycan Respublikası referendumunun keçirilməsi haqqında" 7 maddədən ibarət qərar qəbul edildi. Qərara görə, dekabrın 29-da dövlət müstəqilliyi haqqında referendum keçirilməli idi.[197]

## *4.3. Azərbaycan dövlət xadimlərinin öldürülməsi və DQMV-nin ləğv edilməsi*

Təcavüzünü daha da genişləndirən Ermənistan yeni bir qanlı hadisə törətdi. Noyabrın 20-də saat 16.30 radələrində Xocavənd rayonunun Qarakənd kəndinin səmasında Azərbaycan Respublikasının rəhbər vəzifəli şəxslərinin, Rusiya və Qazaxıstan müşahidəçilərinin olduğu Mİ-8 hərbi helikopteri ermənilər tərəfindən vurularaq partladıldı. Hadisə nəticəsində 22 nəfər – Azərbaycan Respublikasının dövlət katibi Tofiq İsmayılov[198], Azərbaycan Respublikasının baş prokuroru İsmət Qayıbov[199], Azərbaycan Respublikası Baş nazirinin müavini Zülfi Hacıyev[200], Azərbaycan Respublikasının dövlət müşaviri Məhəmməd Əsədov[201], SSRİ xalq deputatı Vəli Məmmədov[202], Azərbaycan Respublikası dövlət katibinin köməkçisi Rafiq Məmmədov, Azərbaycan Respublikası meliorasiya nazirinin müavini Qurban Namazəliyev[203], Azərbaycan Respublikası Prezident

196 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 30.
197 Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikasının referendumunun keçirilməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 15.11.1991 // ARMMA, f.2941, siy.1a, iş 271, v. 106-108.
198 Tofiq İsmayılov (1933-1991) – Azərbaycan Respublikasının ilk dövlət katibi (1991, oktyabr – noyabr).
199 İsmət Qayıbov (1942-1991) – Azərbaycan Respublikasının baş prokuroru (1991, oktyabr – noyabr).
200 Zülfi Hacıyev (1935-1991) – Azərbaycan SSR Nazirlər Soveti sədrinin, Azərbaycan Respublikası Baş nazirinin müavini (1989-1991).
201 Məhəmməd Əsədov (1941-1991) – general-mayor, Azərbaycan Respublikasının daxili işlər naziri (1990-1991), Azərbaycan Respublikasının müdafiə və dövlət təhlükəsizliyi məsələləri üzrə dövlət müşaviri (1991, noyabr).
202 Vəli Məmmədov (1931-1991) – SSRİ xalq deputatı.
203 Qurban Namazəliyev (1947-1991) – Azərbaycan Respublikası meliorasiya və su təsərrüfatı nazirinin birinci müavini (1991, avqust – noyabr).

Aparatının şöbə müdiri Osman Mirzəyev[204], Azərbaycan Respublikası tikinti nazirinin müavini Vaqif Cəfərov[205], Azərbaycan Dövlət Teleradio Şirkətinin operatoru Fəxrəddin Şahbazov, Azərbaycan Dövlət Teleradio Şirkətinin operatoru Arif Hüseynzadə, Azərbaycan Dövlət Teleradio Şirkətinin əməkdaşı Alı Mustafayev, Azərbaycan Respublikası DQMV-nin prokuroru İqor Plavski, Azərbaycan Respublikası DQMV Daxili İşlər İdarəsinin rəisi Vladimir Kovalyov, Azərbaycan Respublikası DQMV DTK-nın sədri Sergey İvanov, Qazaxıstan Respublikası daxili işlər nazirinin müavini Seilau Serikov, RSFSR-in nümayəndəsi general-mayor Mixail Lukaşov, Azərbaycan Respublikası DQMV xüsusi rayonunun komendantı Nikolay Jinkin, polkovnik-leytenant Oleq Koçarov, helikopterin komandiri Vyaçeslav Kotov, heyət üzvləri Gennadi Dolqov və Dmitriy Yalovenko faciəli surətdə həlak oldular.[206]

Azərbaycan xalqının qəzəbini coşduran bu qanlı hadisədən sonra insanlar qəti qərarların qəbul edilməsini gözləyirdilər. Əhali şəhər və kəndləri qorumağı və torpaqları terrorçulardan təmizləməyi tələb edirdi.

Prezident Ayaz Mütəllibov bildirdi ki, Qarakənd kəndi yaxınlığında baş vermiş faciənin təqsiri bütünlükdə Ermənistandan göndərilən muzdlu qatillərin üzərinə düşür. O, qarşıda dayanan vəzifələrdən danışsa da, xalqın istəklərinin yerinə yetirilməsi – müharibəyə son qoymaq, şəhər və kəndləri qorumaq və torpaqları terrorçulardan təmizləmək üçün mexanizmin olmadığını bildirdi. Əlavə etdi ki, hökumətin müzakirə etdiyi təkliflər arasında Ermənistan ilə nəqliyyat əlaqələrini kəsmək, qaz blokadasını davam etdirmək, hərbi vəziyyət elan etmək, hansı vasitələrlə olursa-olsun silah ələ keçirib silahlanmaq, sovet ordusunda xidmət edən azərbaycanlıları geri çağırmaq və DQMV-nin statusuna yenidən baxmaq və s. vardır.

Azərbaycanda yaranmış qarışıq şəraitdən istifadə edən Ermənistan hərbi müdaxiləni daha da genişləndirdi. 1991-ci il noyabrın sonlarında Xankəndi ətrafında azərbaycanlılar yaşayan 19 kənd yandırıldı, əhalisi məcburi köçkünə çevrildi.

1991-ci il noyabrın 26-da Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğvi haqqında 5 maddədən ibarət qanun qəbul edildi.[207] Qanunda yazılırdı ki, Azərbaycan Respublikasının öz milli dövlət quruluşu məsələlərini həll etməyə dair suveren hüququnu əsas tutaraq 1923-cü ildə Azərbaycan xalqı-

204 Osman Mirzəyev (1937-1991) – Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi, şöbə müdiri (1990-1991).

205 Vaqif Cəfərov (1949-1991) – Azərbaycan KP Şuşa rayon Komitəsinin birinci katibi (1988-1991), DQMV üzrə Respublika Təşkilat Komitəsinin sədr müavini, Azərbaycan Respublikası sənaye-tikinti nazirinin müavini (1991, oktyabr-noyabr).

206 Terror: hadisələr, faktlar, sübutlar. Bakı, 2016, s. 43-44.

207 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 33.

nın milli mənafeyinə zidd olan, Azərbaycan xalqı ilə erməni xalqı arasında milli ədavətin dərinləşməsinə şərait yaradan, Azərbaycanın ən böyük təbii-iqtisadi bölgəsi olan Qarabağın infrastrukturunun dağıdılmasına və təsərrüfat əlaqələrinin qırılmasına yönəldilən, Dağlıq Qarabağın Azərbaycanın əzəli tərkib hissəsi olduğuna dair etnik, tarixi, siyasi, iqtisadi və mənəvi əlamətləri bu ərazidə yox etmək üçün erməni millətçilərinin istifadə etdikləri amilin – Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasını qeyri-qanuni hesab edir. Qanunda həmçinin vurğulanırdı ki, vilayətin yaradıldığı dövrdə Ermənistan SSR-də yaşayan yarım milyonluq azərbaycanlı əhali üçün heç bir milli-mədəni muxtariyyət yaradılmamış, sonrakı illərdə isə azərbaycanlı əhali Ermənistandan zorla köçürülmüş, orada bir nəfər də azərbaycanlı qalmamışdır. Ali Sovet bunları nəzərə alaraq, Azərbaycanın əzəli tarixi ərazisini qoparıb almaq üçün Ermənistan rəhbərliyinin yeritdiyi siyasətin və bu siyasətdə DQMV-nin bir alətə çevrilməsinin Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü üçün real təhlükə törətdiyini qeyd edərək, Azərbaycan Respublikasında ermənilərin kiçik bir qrupu üçün milli-ərazi qurumunun bundan sonra da saxlanılmasının azərbaycanlı əhaliyə qarşı zorakılığın artmasına, genişmiqyaslı terrorçuluq əməlləri törətmək – öz dövləti ərazisində yaşayan azərbaycanlıları qırmaq, soyub talamaq, onların evlərinə od vurmaq, əmlakını məhv etmək üçün yerli ermənilərdən təşkil edilən quldur dəstələrinin və Ermənistan ərazisindən göndərilən silahlı ekstremistlərin cinayətkarlıq hərəkətlərinin güclənməsinə səbəb olduğunu dərk edərək, suveren Azərbaycan dövlətini və onun bütövlüyünü qoruyub saxlamaq və inkişaf etdirmək üçün Azərbaycan xalqının indiki və gələcək nəsilləri qarşısında tarixi məsuliyyəti başa düşərək, Qarabağın dağlıq hissəsində Azərbaycan Respublikasının suveren hüquqlarını tamamilə bərpa etmək, qanunsuz yaradılmış silahlı dəstələri tərksilah etmək, Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarını, azadlığını və ləyaqətini qorumaq, millətlərarası münasibətləri nizama salmaq zərurətini əsas götürərək və Azərbaycan xalqının iradəsini rəhbər tutaraq, konstitusiyanın 68-ci maddəsinin üçüncü hissəsini, 104-cü maddəsinin 2-ci bəndini, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktının 4-cü maddəsini əsas tutaraq Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini milli ərazi qurumu kimi ləğv edirdi. Bununla da Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında Azərbaycan SSR MİK-in 1923-cü il 7 iyul tarixli dekreti və Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli qanunu qüvvədən düşmüş hesab edilirdi. Stepanakert, Mardakert, Martuni şəhərlərinin tarixi adları bərpa olunurdu. Stepanakert şəhəri Xankəndi şəhəri, Mardakert şəhəri Ağdərə şəhəri, Mardakert rayonu Ağdərə rayonu, Martuni şəhəri Xocavənd şəhəri, Martuni

rayonu Xocavənd rayonu adlandırılırdı. Əsgəran və Hadrut rayonları ləğv edilirdi. Xocalı şəhəri mərkəz olmaqla Xocalı rayonu yaradılırdı. Ləğv edilmiş Əsgəran rayonunun ərazisi Xocalı rayonunun tərkibinə, Hadrut rayonunun ərazisi isə Xocavənd rayonunun tərkibinə verilirdi. Xankəndi və Şuşa şəhərləri respublika tabeli şəhərlərin, Ağdərə, Xocavənd, Xocalı və Şuşa rayonları isə respublika tabeli rayonların sırasına daxil edilirdi.[208]

Ali Sovet həmin gün bu qanunun qüvvəyə minməsi haqqında 2 maddədən ibarət qərar qəbul etdi. Qərara görə, DQMV-nin ləğvi haqqında qanun qəbul edildiyi andan qüvvəyə minirdi. Dövlət və hakimiyyət orqanları DQMV-nin ləğvinə dair zəruri tədbirləri həyata keçirməli idilər. DQMV-nin ləğvinə uyğun olaraq konstitusiyada əlavə və dəyişikliklər edilməsinə dair qanun qəbul olundu.[209]

Noyabrın 26-da Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının təşkili haqqında qərar qəbul etdi.[210]

Azərbaycan Respublikası Ali Sovetinin DQMV-nin ləğvinə dair qərarı SSRİ rəhbərliyinin etirazına səbəb oldu. Noyabrın 27-də SSRİ Dövlət Şurası DQMV-də, Azərbaycan və Ermənistan respublikalarının sərhədyanı rayonlarında vəziyyəti sabitləşdirmək tədbirləri haqqında qərar qəbul etdi. Qərarda Azərbaycan və Ermənistan Ali Sovetlərinə təklif olunurdu ki, DQMV-nin hüquqi statusunun dəyişdirilməsinə yönələn bütün qərarları ləğv etsin, münaqişənin siyasi yolla nizamlanmasına şərait yaratmaq üçün dövlət başçıları səviyyəsində birbaşa danışıqları davam etdirsinlər. Qərarın sonunda SSRİ Dövlət Şurası Azərbaycan Respublikası Ali Sovetinə müraciət edərək vəziyyətin bütün kəskinliyinə baxmayaraq, Ermənistana gedən dəmiryolunun açılması və qaz verilişinin davam etdirilməsini tələb edirdi.[211]

Azərbaycanın dövlət müstəqilliyini elan etməsinə baxmayaraq, sənəddə Mərkəzin ermənipərəst siyasəti və hələ də “ali arbitraj” roluna iddia etməsi özünü açıq-aşkar göstərirdi. Ən qəribəsi o idi ki, Ermənistan tərəfinin qəbul etdiyi 1989-cu il 1 dekabr tarixli DQMV-nin Ermənistana birləşdirilməsi haqqında SSRİ konstitusiyasına zidd qərarla, Azərbaycan parlamentinin DQMV-nin statusunu ləğv etməsi haqqında qərarı bərabər tutulurdu.

Dekabrın 5-də keçirilən sessiya iclasında Qarabağın dağlıq hissəsində qanunçuluğun və hüquq qaydasının təmin edilməsi tədbirləri haqqında Ali Sovetin

208 Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında Azərbaycan Respublikası qanununun qüvvəyə minməsi qaydası barəsində Azərbaycan Respublikası Ali Sovetinin qərarı // Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31.12.1991. Bakı, 1991, № 24 (853), s.17-18.
209 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 35.
210 Yenə orada.
211 Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti. III kitab. Bakı, 2015, s. 18-19.

Milli Şurası 4 maddədən ibarət qərar qəbul etdi. Qərarda ləğv edilmiş DQMV-nin 1991-ci ilin noyabr ayında sessiyasının keçirilməsi fitnəkarlıq, qeyri-qanuni və hüquqa zidd olaraq qiymətləndirilir və qüvvədən düşmüş hesab edilirdi.[212]

Sessiyanın dekabrın 6-da keçirilən davamında Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası SSRİ Dövlət Şurasının DQMV-nin ləğvinə etiraz edən 1991-ci il 27 noyabr tarixli qərarını müzakirə etdi. Qəbul olunan qərarda yazılırdı ki, keçmiş SSR İttifaqı Dövlət Şurasının 1991-ci il 27 noyabr tarixli qərarı müstəqil Azərbaycan Respublikasında hüquqi qüvvədə deyildir. Azərbaycan və Ermənistan respublikalarının müstəqilliyi yolunda maneə olan Ermənistan – Azərbaycan münaqişəsinin dinc yolla və tezliklə həll edilməsinin zəruriliyini nəzərə alaraq Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında danışıqlar aparılması məqsədəuyğun hesab olunurdu. Həmçinin Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktına əsasən artıq Azərbaycan Respublikası Ali Soveti sədrinin, Prezidentinin, Baş nazirinin və digər dövlət orqanları rəhbərlərinin keçmiş SSRİ-ni təmsil edən orqanlarda (Dövlət Şurası, Respublikalararası İqtisadi Şura və s.) üzv kimi iştirakı məqsədəuyğun hesab edilmirdi. Yalnız zərurət olduqda Azərbaycan Respublikasının nümayəndələri həmin orqanların işində müşahidəçi kimi iştirak edə bilərdilər.[213]

## *4.4. SSRİ-nin dağılması və Müstəqil Dövlətlər Birliyinin yaradılması*

Bu zaman hələ mövcud olan SSRİ-də qanunlar işləmir, xaos və anarxiya hökm sürürdü. Belə bir şəraitdə 1991-ci il dekabrın 8-də Minsk yaxınlığında Viskuli məntəqəsində (Belovejskaya Puşa) Rusiya, Ukrayna və Belarus rəhbərləri görüşərək SSRİ-nin taleyini həll etdilər. Onlar Belovejsk sazişini imzalamaqla 1922-ci il İttifaq müqaviləsinin fəaliyyətinin dayandırıldığını bildirdilər.

Beləliklə, uzun illər boyu dünyanı lərzəyə salan sovet dövləti süqut etdi. Bu, sadəcə bir dövlətin süqutu deyil, qlobal hakimiyyəti ələ keçirməyə çalışan kommunist ideologiyasının son nəfəsi idi. Çürüyən bir ideologiyanın hakim olduğu sovet sistemi tarix səhnəsindən silindi.

SSRİ dağıldıqdan sonra "uti possidetis juris ("necə əldə edibsinizsə, eləcə də əldə saxlayın" və ya "oldu bitdi") beynəlxalq hüquq prinsipi yeni müstəqil döv-

212 Qarabağın Dağlıq hissəsində qanunçuluğun və hüquq qaydasının təmin edilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. 05.12.1991 // ARMMA, f.2941, siy.1, iş 1, v. 35-37.

213 SSRİ Dövlət Şurasında Azərbaycan-Ermənistan münasibətlərinə dair 1991-ci il 27 noyabr tarixli qərar haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı // ARMMA, f. 2941, siy. 1, iş 1, v. 45.

lətlərin sərhədlərinin milli, regional və beynəlxalq legitimliyinin əsasını təşkil etdi. Bu prinsipə əsasən Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra DQMV-nin də daxil olduğu keçmiş Azərbaycan SSR-in inzibati sərhədləri beynəlxalq sərhədlər olaraq tanındı, Azərbaycan Respublikası beynəlxalq və regional təşkilatların üzvü oldu və beynəlxalq hüququn mühafizəsi altına alındı.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yaşayan ermənilər dekabrın 10-da “Dağlıq Qarabağın SSRİ tərkibində müstəqil bir respublika olması” üçün saxta referendum keçirdilər. Bölgənin azərbaycanlı əhalisinin iştirak etmədiyi həmin referendumun heç bir hüquqi əsası yox idi. Digər tərəfdən, referendum keçirilən zaman SSRİ adlı bir dövlət artıq mövcud deyildi. Olmayan bir dövlətin tərkibinə necə daxil olmaq olardı?

Belə bir şəraitdə keçmiş SSRİ Prezidenti mövcud olmayan SSRİ xalq deputatlarının növbədənkənar qurultayını çağırmağa cəhd etdi. Lakin həmin təşəbbüs geriyə qayıdış olduğundan uğursuzluqla nəticələndi.

M.Qorbaçovun bu hərəkəti Azərbaycanda etirazla qarşılandı. Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının dekabrın 11-də keçirilən iclasında SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılması məsələsinə dair iki maddədən ibarət qəbul etdiyi qərarında yazılırdı ki, keçmiş SSRİ Prezidentinin SSRİ xalq deputatlarının qurultayını çağırmaq təşəbbüsünün hüquqi əsası yoxdur və bu addım siyasi reallığa uyğun gəlmir. Bu təşəbbüs keçmiş ittifaqa daxil olan müstəqil dövlətlərə təzyiq göstərmək və onların daxili işlərinə qarışmaq cəhdi kimi qiymətləndirilirdi. İkinci maddəyə görə, dövlət müstəqilliyi haqqında konstitusiya aktının 12-ci maddəsinə əsasən, Azərbaycan Respublikasından seçilmiş SSRİ xalq deputatlarının səlahiyyətlərinə bu qərar qəbul edildiyi andan xitam verilirdi.[214]

Bu zaman Müstəqil Dövlətlər Birliyinin yaradılması məsələsi müzakirə edilirdi. Milli Şura dekabrın 11-də keçirilən iclasında həmin qurumun yaradılmasına münasibət haqqında iki maddədən ibarət qərar qəbul etdi. Qərarda SSRİ-nin mövcudluğuna xitam verilməsinə dair Belarus, RSFSR və Ukrayna dövlət başçılarının bəyanatı bəyənilir, Milli Şuranın müvafiq komissiyalarına tapşırılırdı ki, respublika hökuməti ilə birlikdə Azərbaycan Respublikası ərazisində yerləşən silahlı qüvvələrin statusunun dövlət müstəqilliyi haqqında konstitusiya aktının normalarına uyğunlaşdırılmasına, keçmiş SSRİ-nin respublikaları ilə qarşılıqlı maliyyə və əmlak münasibətlərinin nizama salınmasına dair məsləhətləşmələr həyata keçirsinlər, Azərbaycan Respublikasının MDB-yə münasibətini müəyyən

214 SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılması məsələsinə dair Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. 11.12.1991 // ARMMA, f. 2941, siy. 1, iş 2, v. 3.

etmək üçün müzakirələr keçirib təkliflərini Ali Sovetin Milli Şurasına təqdim etsinlər.[215]

Müstəqil Dövlətlər Birliyinin yaradılmasına hazırlıq işləri barədə məsələ Milli Şuranın dekabrın 20-də keçirilən iclasında müzakirə edildi. Qızğın müzakirələrdən sonra Azərbaycan Respublikasının MDB-yə qoşulmasının məqsədəuyğun olmadığına dair qərar qəbul edildi.[216]

1991-ci il dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan və Ukrayna prezidentləri ilə birlikdə Alma-Atada Müstəqil Dövlətlər Birliyinin yaradılması barədə bəyannaməni imzaladı. Uzun illər boyu dünyanı qorxu altında saxlayan sovet imperiyasının xarabalıqlarında yaranan yeni müstəqil dövlətlərin bəziləri yaranmış şəraiti gələcəklərini qurmaq üçün imkan kimi qiymətləndirir, milli və iqtisadi potensiallarından daha az itki ilə çıxmağa çalışır, bəziləri isə MDB-yə SSRİ-ni başqa ad altında bərpa etməkdə bir vasitə kimi baxırdılar.

M.Qorbaçov dağılmış ölkənin rəsmi prezidenti olsa da, əslində heç bir səlahiyyət sahibi deyildi. Rusiya ordusu respublika rəhbərliyinin hakimiyyəti altına keçmişdi. Ona görə də M.Qorbaçov dekabrın 25-də prezident vəzifəsindən istefa verməyə məcbur oldu.

Yeni yaradılan Müstəqil Dövlətlər Birliyinin mahiyyətinin isə hələ tam aydın olmaması keçmiş sovet məkanında onsuz da gərgin olan şəraitin normallaşmasına müsbət təsir edə, o cümlədən Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsini və hərbi təcavüzünü dayandıra bilmədi. MDB-nin qurulması tamamilə yeni ictimai-siyasi şərait yaratsa da, Rusiyadakı müəyyən dairələrin imperiya təfəkküründən imtina etməsinə gətirmədi. Ermənistanda yerləşən keçmiş sovet ordusunun komandirləri silah və sursatları erməni qoşunlarına verərək onları Azərbaycan əleyhinə silahlandırdılar. 1991-ci il dekabrın 26-da Xankəndidən sonuncu azərbaycanlı ailəsi də qovuldu. Şəhər işğal altına düşdü. Azərbaycan artıq Ermənistanın açıq hərbi təcavüzü ilə üzbəüz idi.

215 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 clddə. II cild, s. 43.
216 Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının Müstəqil Dövlətlər Birliyinə münasibəti haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. 20.12.1991 // ARMMA, f.2941, siy.1, iş 2, v. 158.

## *4.5. Ermənistanın açıq hərbi təcavüzünün başlanması və onu dayandırmaq səyləri*

SSRİ-nin dağılmasından sonra Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxiləsi iki müstəqil dövlət arasında müharibəyə çevrildi. 1992-ci ilin əvvəllərindən etibarən Ermənistanın Azərbaycana qarşı açıq hərbi təcavüzü mərhələsi başlandı. Əgər Ermənistan əvvəllər Azərbaycanın Dağlıq Qarabağ regionuna gizli olaraq silah və sursat göndərirdisə, bundan sonra açıq şəkildə helikopterlərlə göndərməyə başladı. Sovet İttifaqının parçalanmasından və Azərbaycanda daxili çəkişmələr nəticəsində yaranmış ictimai-siyasi qeyri-sabitlikdən istifadə edərək xaricdən çoxlu hərbi yardımlar alan Ermənistan Dağlıq Qarabağ regionunda qanlı hərbi əməliyyatlara başladı. Ermənistanın hərbi müdaxiləsinin gedişində azərbaycanlıların tarixən yaşadıqları ərazilər bir-birinin ardınca işğal edilir, yaşayış məntəqələri yandırılır və dinc əhaliyə qarşı amansız terror aktları həyata keçirilirdi.[217]

Azərbaycan dövləti Ermənistanın hərbi təcavüzünü dayandırmaq məqsədi ilə beynəlxalq təşkilatlara üz tutdu. 1992-ci il yanvarın 13-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının yaranmış vəziyyət haqqında BMT Təhlükəsizlik Şurasına etdiyi müraciətində Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının dörd ildən bəri davam edən və cəzasız qalan təcavüzünün pislənilməsi xahiş edilirdi.[218] Yazılırdı ki, Azərbaycan Respublikasının Qarabağ bölgəsinin dağlıq hissəsində vəziyyəti sabitləşdirmək, mövcud problemləri Azərbaycan Respublikasının konstitusiyasına, beynəlxalq hüquq normalarına və BMT-nin müvafiq sənədlərinə uyğun surətdə həll etmək üçün Azərbaycan Respublikasının tədbirlər görməsinə baxmayaraq, Ermənistan Azərbaycan ərazisinin bir hissəsini qoparmaq kimi cinayətkar məqsədlə ona qarşı təcavüzü gücləndirməkdə davam edir. Müraciətdə Azərbaycan Respublikasının bəzi ərazilərinin işğal edildiyi, Dağlıq Qarabağın ərazi mənsubiyyəti və bu ərazidə yaşayan ermənilərin öz müqəddəratını təyinetmə hüququ barəsində Ermənistan təbliğatının və beynəlxalq erməni diasporunun yaydığı uydurmaların tarixi reallıqlara və beynəlxalq birliyin prinsiplərinə uyğun gəlmədiyi qeyd edilirdi. Ermənistan rəhbərliyinin silahlı quldur birləşmələrinin Azərbaycan ərazisinə soxulmasına, millətçi ünsürlərin qızışdırılmasına və əhalinin qanuni hakimiyyət orqanlarına tabe olmamağa məcbur edilməsinə, dinc azərbaycanlı əhaliyə qarşı kütləvi terrorçuluq əməlləri törədilməsinə, onun əmlakının məhv edilmə-

217 *Ermənistanın Azərbaycana qarşı törətdiyi terror aktları üçün bax:* Chronology of terrorist acts commited the course of the Armenia – Azerbaijan conflict // "Diplomatiya aləmi" jurnalı, Bakı, 2008, № 18-19, s. 95-97.
218 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 150.

sinə, yüzlərlə kişi, qadın və uşağın öldürülməsinə gətirib çıxarmış hüquqa zidd hərəkətləri ilə erməni – azərbaycanlı münaqişəsini qəsdən genişləndirməyə, bu münaqişəni nəinki Yaxın və Orta Şərq bölgəsində, həm də Avropanın cənubunda sülh üçün real təhlükəyə çevirməyə çalışdığı vurğulanırdı. Azərbaycan dövlətinin humanizmə əsaslanaraq və dövlətlərarası ünsiyyətin əsl demokratik prinsiplərinə sadiq qalaraq dəfələrlə Ermənistan rəhbərliyini terror siyasətindən və qonşu dövlətin daxili işlərinə qarışmaqdan əl çəkməyə, danışıqlar prosesinə başlamağa və bütün problemləri dinc yollarla həll etməyə dair çağırışlarına cavabında Ermənistanın Azərbaycan şəhərləri və kəndlərinə qarşı genişmiqyaslı yeni hərbi əməliyyatlar keçirdiyi, mülki əhalini qırdığı, əsir götürdüyü və terror aktları törətdiyi qeyd edilirdi. Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində Ermənistanın qanunsuz hakimiyyət strukturları yaratmaq və ərazisinin bir hissəsini qoparmağa yönəlmiş fəaliyyətinin təcavüz və dövlət terrorizmi xarakteri daşıdığı vurğulanırdı. Müraciətdə Ermənistanın təcavüzkarlıq siyasətinin törətdiyi təhlükəni dərk edərək, təcavüzün və terrorun qarşısını almaq zərurətini əsas götürərək BMT Təhlükəsizlik Şurası yaranmış vəziyyəti obyektiv qiymətləndirməyə və BMT-nin sənədlərinə uyğun gələn qərar qəbul etməyə çağırılırdı.[219]

Azərbaycan Respublikası təkcə BMT-yə müraciət etməklə kifayətlənmədi. ATƏM-in Nazirlər Şurasının yanvarın 31-də keçirilən birinci iclasında Azərbaycan Respublikasının xarici işlər naziri Hüseynağa Sadıqov[220] Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başladığı hərbi əməliyyatlar barədə məlumat verərək Azərbaycan hökumətinin münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirdi və ATƏM ölkələrini Ermənistanın təcavüzünü dayandırmağa səslədi.[221]

ATƏM çərçivəsində Ermənistan – Azərbaycan münaqişəsinin tənzimlənməsinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında başladı. Bu təşəbbüs keçmiş sovet məkanını öz nüfuz dairəsi kimi görən Rusiyanı da müəyyən addımlar atmağa sövq etdi. Rusiya 1992-ci il fevralın 20-də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada görüşünü təşkil etdi. Müzakirələrin yekununda tərəflər dərhal atəşkəs elan edəcəklərini, blokadaları aradan qaldıracaqlarını, münaqişənin tənzimlənməsi məsələsində ATƏM prinsiplərinə sadiq qalacaqlarını, münaqişənin tənzimlənməsini axtarıb tapmaq, atəşkəs haqqında razılaşma mexanizmlərini və təminatı işləyib hazırlamaq üçün sabit danışıqlar prosesini

219 Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 fevral 1992-ci il. Bakı,1992, № 3(856), s. 7-8.

220 Hüseynağa Sadıqov (1940) – Azərbaycan SSR-in 6-cı xarici işlər naziri (1988-1991). Azərbaycan Respublikasının 1-ci xarici işlər naziri (1991-1992). Azərbaycan Respublikasının AFR-dəki fövqəladə və səlahiyyətli səfiri (1992-2005).

221 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s.153.

təmin edəcəklərini bildirdilər.[222] Lakin Ermənistan razılaşmanı pozdu. Xarici işlər naziri Raffi Ovanesyan[223] "Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Ermənistanın deyil, Azərbaycan ilə Dağlıq Qarabağın daxili işləri" olduğunu söyləyərək, bundan sonrakı müzakirələrə Dağlıq Qarabağ nümayəndələrinin də qatılmasını tələb etdi. Belə mövqe Ermənistanın təcavüzkarlığını ört-basdır etmək və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ermənilərini danışıqların subyekti kimi tanıtmaq məqsədi güdürdü.

Azərbaycanın Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün etdiyi səylərə baxmayaraq, Dağlıq Qarabağ regionundakı azərbaycanlılar yaşayan kəndlər bir-birinin ardınca işğal edilərək yandırılır, əhalisi öldürülür, didərgin salınır və girov götürülürdü.[224] Ermənistan müxtəlif silah növlərindən və ağır hərbi texnikadan istifadə edərək işğalı qəddarlıqla genişləndirirdi. Ordusu hələ formalaşmayan Azərbaycan isə Ermənistanın hərbi təcavüzünə qarşı əsasən vətənpərvər insanların yaratdığı dəstələrin köməyi ilə mübarizə aparırdı. Belə bir şəraitdə Rusiya hərbçiləri tərəfindən silahlandırılan təcavüzkar Ermənistanın qarşısında əraziləri və əhalini qorumaq xeyli çətin idi.

Ermənistanın Azərbaycan ərazilərinin işğalını davam etdirdiyi bir zamanda İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayəti[225] vasitəçilik missiyası ilə regiona səfər etdi. O, fevralın 25-də Bakıda Azərbaycan rəhbərliyi ilə görüşərək münaqişənin tənzimlənməsi yollarını müzakirə etdi. İran hökuməti ölkə sərhədlərinin yaxınlığında hərbi əməliyyatların aparılmasından narahat idi.

Əli Əkbər Vilayətinin Yerevana səfəri də planlaşdırılmışdı. Səfər davam edərkən Ermənistan silahlı qüvvələri uzun müddət mühasirədə saxladıqları Xocalı şəhərində azərbaycanlılara qarşı soyqırım törətdilər.

## *4.6. Ermənistanın bəşəriyyətə və sivilizasiyaya qarşı törətdiyi ağır cinayət – Xocalı soyqırımı*

Qədim yaşayış məskənlərindən biri olan, böyük strateji əhəmiyyət daşıyan Xocalı şəhəri Ağdam – Şuşa, Əsgəran – Xankəndi yolunun üstündə yerləşir. Burada Azərbaycanın Dağlıq Qarabağ regionunda yeganə hava limanı var idi. 1991-ci ilin oktyabrından Xocalı Ermənistan silahlı qüvvələri tərəfindən blokadaya alınmışdı. Şəhərə gedən bütün avtomobil yolları bağlanmışdı. Əlaqə yalnız

222 Yenə orada.
223 Raffi Ovanesyan (1959) – Ermənistanın xarici işlər naziri (1991-1992).
224 In Armenian captivity (Tortures, Murders, Terror, Vandalism, Genocide). Bakı, 2008.
225 Əli Əkbər Vilayəti (1945) – İİR İslam Şurası Məclisinin deputatı (1980-1981). Xarici işlər naziri (1981-1997). Ali rəhbərin müşaviri (1997-ci ildən).

helikopterlə saxlanılırdı. 1992-ci ilin yanvar ayından etibarən şəhər ilə helikopter əlaqəsi də kəsildi və ağır vəziyyət yarandı. Nəhayət, Ermənistan silahlı birləşmələri və Xankəndidə yerləşən 366-cı keçmiş sovet hərbi alayı 7 min nəfər əhalisi olan Xocalı şəhərində mühasirədə olan azərbaycanlı əhaliyə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə hücum etdi. Şəhər əhalisinə qarşı soyqırım həyata keçirildi.[226] 613 nəfər öldürüldü, 1275 nəfər əsir götürüldü, 487 nəfər şikəst edildi. Öldürülənlərin 63 nəfəri azyaşlı uşaq idi. 8 ailə tamamilə məhv edildi. Bu, azərbaycanlılara qarşı əsl soyqırım aktı idi. Xocalıda insanlar yalnız milli və dini mənsubiyyətinə görə, azərbaycanlı olduqları üçün məhv edilmişdilər. Öldürülənlər xüsusi amansızlıqla qətlə yetirilmişdilər.[227]

Xocalı soyqırımını törətməklə Ermənistan azərbaycanlıları qorxutmaq, işğalçılıq niyyətini həyata keçirmək üçün ən qəddar üsullara əl atmağa hazır olduğunu göstərdi. Ermənistanın müdafiə naziri və sonralar prezidenti olan Serj Sarkisyan[228] Böyük Britaniya jurnalisti Tomas de Vola verdiyi müsahibəsində etiraf edirdi:

*"Xocalıya qədər azərbaycanlılar belə düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldırmağa qadir deyillər. Biz bunu (stereotipi) qırdıq".*[229]

Erməni terrorçuları M.Melkonyan və S.Melkonyan isə yazırdılar ki, Xocalı sakinləri altı mil qət edərək, demək olar, təhlükəsiz yerə çatmışdılar, lakin əsgərlər onlara çatdılar. Sonra çəkmələrinə bərkidilmiş bıçaqları qablarından çıxarıb adamları doğramağa başladılar.[230]

Xocalının məhv edilməsi ilə hava limanı Azərbaycanın nəzarətindən çıxdı.[231] Ermənistandan silah və silahlı dəstələrin gətirilməsi daha da intensivləşdi. Ermənistanı belə cəsarətləndirən Rusiya rəhbərliyində və ordusundakı müəyyən qrupların hərbi, siyasi və mənəvi yardımları idi.

226 Historical facts vs. The Armenian Myths. Baku, 2010, s.14.
227 *Bax:* Чаладзе Т. Карабахский геноцид: обреченный Ходжалы. Документальная хроника. Баку, 2009.
228 Serj Sarkisyan (1954) – Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda azərbaycanlılara qarşı soyqırımın təşkilatçılarından biri. Ermənistanın müdafiə naziri (1993-1995). Milli təhlükəsizlik naziri (1995-1996). Daxili işlər naziri (1996-1999). Müdafiə naziri (2000-2007). Baş nazir (2007-2008). Prezident (2008-2018).
229 Tomas de Wall. Black Garden. Armenia and Azerbaijan through Peace and War. New York and London, New York University Press, 2003, p.172.
230 Markar Melkonian with Seta Melkonian. My Brother's Road: An American's Fateful Journey to Armenia. London and New York. I.B.Tauris, 2007, p.213.
231 Michael P.Crossant. The Armenian-Azerbaijan conflict, causes and implications. London, Praeger, 1998, p. 78; Svente E. Cornell. Turkey ant the conflict in Nagorno Karabakh: A delicate balance // "Middle East Studies", 1999, January, №1, vol. 34, p. 59-60; Kamer Kasım. The Nagorno Karabakh conflict from its inception to the peace process // "Armenian Studies", Ankara, 2001, June-July-August, №2, s. 172-174.

Xocalı soyqırımı Ermənistanın bəşəriyyətə və sivilizasiyaya qarşı törətdiyi ağır cinayətdir. Bu soyqırım haqqında ABŞ[232], Türkiyə[233] və digər ölkələrin mətbuat orqanlarında dərc edilən çoxlu məqalələrdə azərbaycanlıların kütləvi surətdə məhv edilməsi təsvir olunmuş, fotoşəkillər verilmişdi.

Azərbaycan hakimiyyətinin Xocalıda baş verənlərin miqyasını xalqdan gizlətmək cəhdləri respublikada ictimai-siyasi vəziyyəti gərginləşdirdi. Vətəndaşların hiddətinin həddi-hüdudu yox idi. Onlar Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün qəti addımların atılmasını tələb edirdilər. Azərbaycan hakimiyyəti isə zəif və gücsüz idi.

Belə ağır şəraitdə Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibovun 1992-ci il fevralın 27-də Moskvada MDB-nin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qatılmaq barədə sənədi imzalaması Azərbaycanda gərginliyi son həddə çatdırdı. Bakıda davam edən və getdikcə güclənən mitinqlərdə insanlar hakimiyyətin istefasını tələb edirdilər. Artan təzyiqlər qarşısında Azərbaycan Respublikası Ali Sovetinin Sədri Elmira Qafarova[234] istefa verdi. Bu vəzifəyə Yaqub Məmmədov[235] seçildi.

Azərbaycan dövləti beynəlxalq birliyin bərabərhüquqlu iştirakçısı olmaq, Ermənistanın hərbi təcavüzünü dayandırmaq və dövlət müstəqilliyini möhkəmləndirmək məqsədilə universal tipli beynəlxalq təşkilat olan BMT-yə üzv olmaq üçün səylərini artırdı.

232 Thomas Golts. Armenian Solidiers Massacre Hunderds of Fleeing families // "The Sanday Times", 1992, 1 March; Massacre by Armenians. // "The New York Times", 1992, 3 March; Killings Rife in Nagorno Karabakh // "The Washington Post", 1992, 3 March; Anatol Lieven. Massacre Uncovered // "The Times", 1992, 3 March; Brian Killen. Attrocity Reports Horrify Azerbaijan // "The Washington Times", 1992, 3 March; Paul Quinn- Judge. Armenians Killed 1000, Azeris Charge. // "The Boston Globe", 1992, 3 March; Jill Smolowe. Massacre in Khojaly // "Time", 1992, 16 March.

233 Dünya, bu katliama dur demeli. // "Hürriyet" gazetesi, İstanbul, 1992, 26 Şubat; Ermeni öldürüyör, dünya susuyor // "Tercüman" gazetesi, İstanbul, 1992, 29 Şubat; Ermeni subaylar ve erler katliama katıldılar // "Türkiye" gazetesi, İstanbul, 1992, 6 Mart; Ermeni vahşeti lanetleniyor. // "Türkiye" gazetesi, İstanbul, 1992, 8 Mart; Ermeni vahşetine lanet mitingi // "Zaman" gazetesi, İstanbul, 1992, 6 Mart; Ermeni Dağlık Karabağ'da katliam yapıyor: dünya vahşete seyrçi kalıyor // "Milli Gazete" gazetesi, İstanbul, 1992, 5 Mart; Ermeniler bir azeri kasabasını ele keçirdi // "Hürriyet" gazetesi, İstanbul, 1992, 27 Şubat; Hocalı tepeleri ceset dolu // "Güneş" gazetesi, İstanbul, 1992, 5 Mart; Hocalı'da vahşet // "Cumhuriyet" gazetesi, İstanbul, 1992, 2 Mart; İşte, ermeni vahşetinin belgeleri // "Zaman" gazetesi, İstanbul, 1992, 14 Mart; Soykırımçı ermeni // "Zaman" gazetesi, İstanbul, 1992, 5 Mart.

234 Elmira Qafarova (1934-1993) – Azərbaycan SSR Ali Sovetinin sədri (1990-1992).

235 Yaqub Məmmədov (1941) – tibb elmləri doktoru, professor. Azərbaycan Respublikası Ali Sovetinin sədri (1992-ci il fevral – may). Ölkə prezidentinin səlahiyyətlərini icra etmişdir (1992-ci il mart – may).

### *4.7. Azərbaycan Respublikasının BMT-yə üzv qəbul edilməsi və sülh təşəbbüsləri. Minsk qrupunun yaradılması*

Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-yə üzv qəbul edildi. Baş nazir Həsən Həsənov Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi vəzifəsinə təyin edildi. Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Firuz Mustafayev[236] bundan sonra Baş nazir vəzifəsini müvəqqəti icra etməyə başladı.

Azərbaycan Respublikasının parlamenti martın 3-də dünya parlamentlərinə müraciət edərək Azərbaycanın ərazi bütövlüyünə qəsd edən, Dağlıq Qarabağ regionunda azərbaycanlıları soyqırıma məruz qoyan Ermənistanın təcavüzünü pisləməyə çağırdı.[237] Müraciətdə Azərbaycanın Ermənistanın açıq təcavüzünə məruz qaldığı, Azərbaycan torpağında günahsız insanların qanının töküldüyü, Dağlıq Qarabağ bölgəsində azərbaycanlıların yaşadığı Xocalı şəhərində baş vermiş soyqırım orta əsrlərin dəhşətlərini kölgədə qoyduğu, azərbaycanlıların daha bir yaşayış məntəqəsinin yerlə-yeksan edildiyi, şəhərə hücum zamanı dinc sakinlərin, qadın, qoca və uşaqların öldürüldüyü, Azərbaycan xalqına qarşı terror və açıq nifrət hissinin Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırıldığı vurğulanırdı.

Bu zaman Ermənistan silahlı dəstələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində azərbaycanlılar yaşayan 30-dan çox kəndi yandırmış, 25 mindən çox adamı ölkəsində zorla qovaraq məcburi köçkünə çevirmiş, həmçinin Azərbaycan – Ermənistan sərhədi boyunca irimiqyaslı hərbi əməliyyatları da genişləndirmişdi. Ermənistanın ümumi təcavüz siyasətinin tərkib hissəsi olan bu hərəkətlərinin başlıca məqsədi Azərbaycan ərazilərini zorakılıqla işğal və ilhaq etmək idi.

Xocalıda törədilən soyqırımdan sonra hiddətlənən xalqın qəti etirazları qarşısında Prezident Ayaz Mütəllibov martın 6-da istefa verdi.[238] Bundan sonra Yaqub Məmmədov həm də prezident səlahiyyətlərini həyata keçirməyə başladı. Lakin o da Azərbaycana qarşı Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün səmərəli tədbirlər həyata keçirə bilmədi. Azərbaycanlıların Dağlıq Qarabağ bölgəsindən – tarixi torpaqlarından, beynəlxalq birlik tərəfindən tanınmış ərazilərindən qovularaq məcburi köçkünə çevrilmələri daha da artdı.

Ermənistan təkcə Dağlıq Qarabağ bölgəsində deyil, digər yerlərdə də amansız qırğınlar törətdi. Ermənistan – Azərbaycan dövlət sərhədində yerləşən Qazax

236 Firuz Mustafayev (1933-2018) – Azərbaycan Respublikasının Baş naziri vəzifəsini müvəqqəti icra edən (1992, aprel – may).

237 Dünya birliyi dövlətlərinin parlamentlərinə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının müraciəti. 3 mart 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 mart 1992-ci il. Bakı, 1992, № 5 (858), s. 8-9.

238 Bakü yönetimi çöktü. // "Cumhuriyet" gazetesi, İstanbul, 1992, 7 mart.

rayonunun Xeyrimli kəndi martın 8-də, Aşağı Əskipara kəndi isə martın 12-də işğal edilərək erməni silahlı birləşmələri tərəfindən yandırıldı.

Azərbaycan tərəfi 1992-ci il martın 13-də BMT Təhlükəsizlik Şurasına Ermənistanın təcavüzü haqqında müraciət etdi.[239] Müraciətdə Ermənistanın təcavüzü və nəticələri, Xocalıda törətdiyi soyqırım, BMT nizamnaməsini pozması diqqətə çatdırılır, təcavüzkarı dayandırmaq üçün təcili tədbirlərin həyata keçirilməsi xahiş olunurdu.

Bununla kifayətlənməyən Azərbaycan həmin tarixdə dünya birliyi dövlətlərinin parlamentlərinə eyni məzmunlu məktubla müraciət etdi.[240]

Azərbaycan Respublikası Ermənistanın təcavüzü məsələsini ATƏM-in müzakirəsinə çıxardı. ATƏM Nazirlər Şurasının martın 24-də Helsinkidə keçirilən əlavə iclasında Minskdə ATƏM-in himayəsi altında mümkün qədər tez bir zamanda münaqişənin ATƏM prinsip, öhdəlik və müddəaları əsasında sülh yolu ilə tənzimlənməsi istiqamətində danışıqlar üçün forumu təmin edəcək ABŞ, Rusiya, Türkiyə, Fransa, İtaliya, Almaniya, Belarus, İsveç, Finlandiya, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə konfrans çağırmaq qərara alındı.[241]

Yenicə yaradılmış MDB-nin İcraiyyə Komitəsi Minskdə yerləşdiyi və Belarus hökuməti ölkənin paytaxtını çağırılması nəzərdə tutulan həmin toplantıya verdiyi üçün ona Minsk konfransı deyilir. Belarus Respublikasının xarici işlər naziri Pyotr Kravçenko[242] aprelin 3-də müvafiq ölkələrə məktub göndərərək onları Minskə dəvət etdi və konfransı keçirmək üçün şərait yaratmağa ölkəsinin hazır olduğunu bildirdi.[243]

Sülh səyləri davam edərkən Ermənistan silahlı birləşmələri aprelin 7-dən 8-nə keçən gecə Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndinə hücum edərək tamamilə dağıtdılar, 67 nəfəri qətlə yetirdilər, 8 nəfər 90-100 yaşlı qocanı, 2 azyaşlı uşağı və 7 qadını diri-diri odda yandırdılar. 2 nəfər itkin düşdü, 12 nəfərə ağır bədən xəsarəti yetirildi. Tarix, memarlıq və mədəniyyət abidələri dağıdıldı, müqəddəs ziyarətgah və məzarlıqlar təhqir olundu və məhv edildi. Aşıq Şəmşirin evi, zəngin arxivi və əlyazmaları yandırıldı və talan olundu.

Qonşu İran İslam Respublikası da bəzi sülh təşəbbüsləri ilə çıxış etdi. 1992-ci ilin aprel ayının əvvəllərində İranın təşəbbüsü ilə Rusiya, İran, Azərbaycan

239 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 160.
240 Dünya birliyi dövlətlərinin parlamentlərinə müraciət haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. 13 mart 1992-ci il; Dünya birliyi dövlətlərinin parlamentlərinə müraciət. 13 mart 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 mart 1992-ci il. Bakı, 1992, № 5 (858), s.17-19.
241 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s.162.
242 Pyotr Kravçenko (1950) – Belarusun siyasi xadimi və diplomatı. Xarici işlər naziri (1990-1994).
243 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s.163.

və Ermənistan nümayəndələrinin İrəvanda keçirilən görüşündə atəşkəsin elan edilməsi haqqında məsələ müzakirə olundu. Tərəflər Tehranda görüş keçirmək barədə razılığa gəldilər. Razılaşmanı pozan işğalçı Ermənistan qüvvələri aprelin 27-də Qazax rayonunun Barxudarlı və Sofulu kəndlərini işğal edərək yandırdı, əhalisini məcburi köçkünə çevirdi.

ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin 1992-ci il mayın 1-də Helsinkidə keçirilən 10-cu iclasında Minsk konfransının təşkili, iclasların keçirilmə şərtləri, sədrin səlahiyyətləri və s. haqqında qərar qəbul edildi.[244] Qərara əsasən Minsk konfransının reallaşdırılması üçün yaradılan eyniadlı qrup münaqişənin nizamlanması istiqamətində fəaliyyət göstərməli, münaqişə tənzimləndikdən sonra isə məsələnin həllində bitərəf dövlət olduğunu nəzərə alaraq Belarusun paytaxtı Minsk şəhərində konfransa üzv olan dövlətləri toplamalı və yekun sənədi qəbul etməli idi. Minsk qrupunun əsas vəzifəsi müvafiq sənədləri hazırlamaq və xüsusi olaraq Minsk konfransını çağırmaqla münaqişəni aradan qaldırmaq idi. Konfransa hazırlıq məqsədi ilə İtaliya Xarici İşlər Nazirliyinin yüksək vəzifəli rəsmisi, professor Mario Rafaelliyə[245] sədr mandatı verildi.

Mario Rafaellinin regiona səfərinə hazırlıqlar aparılan zaman Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ bölgəsi ilə yanaşı, Azərbaycanın Ermənistan ilə sərhəd rayonlarına da hücumlarını davam etdirdi. May ayının 6-da Naxçıvan Muxtar Respublikası üzərinə şiddətli hücuma keçərək sərhədboyu yaşayış məntəqələrini top atəşinə tutdu.[246]

### *4.8. Tehran görüşü. Şuşa şəhərinin işğal edilməsi və nəticələri*

Artıq qeyd edildiyi kimi, yaranmış ağır şəraitdə qonşu İran İslam Respublikası da vasitəçilik səylərini davam etdirirdi. Əvvəlcədən əldə edilmiş razılaşmaya uyğun olaraq, 1992-ci il mayın 7-də İran İslam Respublikasının Prezidenti Əkbər Haşimi Rəfsəncaninin[247] vasitəçiliyi ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Yaqub Məmmədov və Ermənistan Respublikasının Prezidenti Levon Ter-Petrosyan arasında Tehranda keçirilən görüşün yekununda atəşin dayandırılması, münaqişənin dinc yollarla tənzimlənməsi məsələlərini nəzərdə tutan bəyannamə imzalandı. Bəyannamədə beynəlxalq hüquq normalarına əsaslan-

244 Yenə orada.
245 Mario Rafaelli (1946) – ATƏM-in Minsk konfransının ilk sədri (1992-1993).
246 Казимиров В.Н. Мир Карабаху. Посредничество России в урегулировании нагорно-карабахского конфликта. М., 2009, с. 49-50.
247 Əkbər Haşemi Rəfsəncani (1934-2017) – İran İslam Respublikasının Prezidenti (1989-1997).

maqla sərhədlərin sabitliyi və qaçqın böhranı ilə bağlı məsələlərin tənzimlənməsi də öz əksini tapmışdı.

Bəyannamənin mürəkkəbi qurumamış Ermənistan silahlı qüvvələri Azərbaycan musiqi mədəniyyətinin beşiklərindən biri, ərazisi 290 kv. km, əhalisi 50 min nəfərədək olan Şuşa şəhərini mayın 8-də işğal etdi. Şuşanın işğalı planı ermənilərin özlərinin də etiraf etdikləri kimi, 1992-ci ilin aprelin sonu – mayın əvvəllərində Fransanın Lion və İranın paytaxtı Tehran şəhərində işlənilmişdi.[248]

Şuşanın işğalı zamanı 480 günahsız vətəndaş qətlə yetirildi, 600 nəfər yaralandı, 22 min nəfər öz yurdundan didərgin düşdü, 68 nəfər əsir götürüldü. Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri, Şuşa qalası da daxil olmaqla, bütövlükdə 279 dini, tarixi və mədəni abidə düşmən tərəfindən talan edildi. Şəhərdəki 7 məktəbəqədər təhsil müəssisəsi, 22 ümumtəhsil məktəbi, mədəni-maarif, kənd təsərrüfatı texnikumları, 8 mədəniyyət evi, 14 klub, 20 kitabxana, 2 kino-teatr, 3 muzey, Şərq musiqi alətləri fabriki dağıdıldı.

Bununla da təcavüzkar Ermənistan Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin işğalını başa çatdırdı və bütün azərbaycanlıları öz yurdlarından çıxardaraq məcburi köçkünə çevirdi.[249]

Qarabağın tacı hesab edilən Şuşanı işğal edən Ermənistan qanlı fəaliyyətini daha da genişləndirdi. İşğalçı ölkə dövlət sərhədinin keçdiyi ərazilərdə də təcavüzünü davam etdirdi. Mayın 11-də Qazax rayonunun Qızılhacılı kəndi işğal edilərək yandırıldı, əhalisi məcburi köçkünə çevrildi.

Şuşa şəhərinin işğalı Azərbaycanda daxili ictimai-siyasi şəraiti daha da kəskinləşdirdi. Xalq artıq mövcud hakimiyyətə olan inamını tamamilə itirmiş, daxili çəkişmələrdən və sonu görünməyən qeyri-sabit şəraitdən bezmişdi. Milli Şuranın mayın 12-də keçirilən iclasında Şuşanın işğal edilməsi məsələsi müzakirə ediləcəyi üçün deputatlar iclasın qapalı keçirilməsini, müdafiə nazirinin və müdafiə məsələlərinə məsul olan digər nazirlik rəhbərlərinin də iclasda iştirak etməsini tələb etdilər. Müzakirələrdə tərəflər bir-birini ittiham etdilər. Şuşanın müdafiəsində hərbi baxımdan lazımi qədər silah-sursat və canlı qüvvənin mövcudluğu, lakin siyasi baxımdan ciddi problemlərin olduğu bildirildi.

Prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədov Milli Şura qarşısında uzun bir çıxış edərək ölkədaxili vəziyyət, xarici siyasət, MDB-nin Daşkənddə keçiriləcək iclasında iştirak, İranda olarkən dövlət çevrilişi cəhdi haqqında məlumat

248 Kəlbizadə E.H. Baxşıyeva Y.U., Əzimov Ə.D. Ermənistan İran İslam Respublikasının Qafqaz siyasətində. Bakı, 2019, s. 100.

249 Этнополитические конфликты в Закавказье: их истоки и пути решения. Центр международного развития и конфликтологии. Мэрилендский университет. Kolledj Park Merilend. США, 1996, s. 87; Aslanlı A. Qarabağ problemi: tarixi, mahiyyəti, həll prosesi. Bakı, 2009, s.28.

alması və digər məsələlər barədə məlumat verdi. Gərgin müzakirələr ölkədəki vəziyyətin sabitləşməsinə kömək etmədi, əksinə onu daha da kəskinləşdirdi.

***

Fəsildə araşdırılan məsələlər göstərir ki, Ermənistanın davam edən kobud müdaxiləsinin gedişində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında konstitusiya aktı qəbul edilmişdir. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan olunmuşdur.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan ilk ölkə Türkiyə Cümhuriyyəti olmuşdur. Hələ SSRİ-nin mövcud olmasına və NATO üzrə müttəfiqlərinin təzyiqlərinə baxmayaraq, Türkiyə cəsarətli addım ataraq Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımışdır.

Azərbaycan dövləti ilk addım olaraq BMT-yə üzv olmaq və Ermənistanın hərəkətlərini dayandırmaq üçün suveren dövlətlərin parlamentlərinə müraciət etmişdir. Bunda başlıca məqsəd dövlət müstəqilliyini tanıtmaq, möhkəmləndirmək və Ermənistanın kobud müdaxiləsinin qarşısını almaq olmuşdur.

Azərbaycan ərazilərinə silahlı quldur dəstələri göndərən Ermənistanın Qarakənd kəndinin səmasında Azərbaycan dövlət xadimlərinin olduğu helikopteri vurması nəticəsində onlar qətlə yetirilmiş, erməni terrorunun qurbanı olmuşlar. Azərbaycan dövləti DQMV-ni ləğv etmişdir. Həmin qərara etiraz edən sovet rəhbərliyinin hərəkətləri Azərbaycan tərəfindən rədd olunmuşdur.

Mürəkkəb proseslərin gedişində Rusiya, Ukrayna və Belarus respublikalarının rəhbərləri SSRİ-nin varlığına son qoyan sənədi imzalamışlar. Bununla da uzun illər boyu dünyanı lərzəyə salan Sovet İttifaqı dağılmışdır.

SSRİ-nin dağılmasından az sonra Müstəqil Dövlətlər Birliyi yaradılmışdır. Lakin MDB-nin məqsəd və vəzifələrinin hələ tam aydın olmaması bir sıra mürəkkəbliklər meydana çıxarmışdır.

Sovet İttifaqının süquta uğraması ilə Ermənistanın Azərbaycana qarşı açıq hərbi təcavüzü başlanmışdır. İşğalçı ölkə uzun müddət mühasirədə saxladığı Xocalı şəhərində mülki azərbaycanlı əhalini kütləvi şəkildə öldürməklə soyqırım törədərək bəşəriyyətə və sivilizasiyaya qarşı ağır cinayət etmişdir.

Azərbaycan Respublikası BMT-yə üzv qəbul edilmişdir. Bu üzvlükdə başlıca məqsəd dövlət müstəqilliyini möhkəmləndirmək, beynəlxalq məsələlərdə bərabərhüquqlu iştirak etmək və Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün təminatlar əldə etmək olmuşdur.

Xocalıda törədilən soyqırımdan sonra ölkədə vəziyyət pisləşmiş və parlamentin sədri istefa vermişdir. Az sonra Prezident A.Mütəllibov da istefaya getməyə məcbur olmuşdur.

Ermənistanın Azərbaycanın daxili işlərinə qarışması və hərbi müdaxiləsi nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini dinc yollarla tənzimləmək üçün ATƏM-in Minsk konfransını çağırmaq barədə razılıq əldə edilmişdir. Minsk qrupu yaradılmışdır.

Bununla paralel olaraq digər sülh təşəbbüsləri də olmuşdur. İran İslam Respublikasının təklifi ilə Tehranda Azərbaycan və Ermənistan rəhbərlərinin görüşü keçirilmiş və müvafiq sənəd imzalanmışdır. Lakin işğalçı Ermənistan Qafqazın konservatoriyası və Azərbaycan musiqi mədəniyyətinin beşiklərindən biri olan Şuşa şəhərini işğal edərək dağıtmışdır. Şuşanın işğalı Azərbaycanda şəraiti daha da gərginləşdirmişdir.

# 5-ci FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASI ANARXİYA VƏ XAOS İLLƏRİNDƏ

### *5.1. Azərbaycanda silahlı çevriliş*

Azərbaycanda mürəkkəb proseslərin getdiyi bir zamanda, hələ 1992-ci il aprelin 25-də keçirilmiş mitinqdə prezident seçkilərində namizədlərin yaş həddinə qoyulmuş süni məhdudiyyəti ləğv etmək tələb olunmuşdu. Etirazçılar Azərbaycan konstitusiyasının 121-ci maddəsinin 2-ci bəndində dəyişiklik edilməsini, prezidentliyə namizədin 65 yaş həddinin ləğv olunmasını, Heydər Əliyevin prezidentliyə namizəd kimi qeydə alınmasını tələb edirdilər. Naxçıvanda da eyni tələblərlə mitinqlər keçirilmişdi.

Hakimiyyət tərəfindən dəstəklənən digər bir qrup isə Ali Sovetin binası qarşısında çadır qurmuş, keçirdiyi mitinqdə nümayişkaranə şəkildə silahla təhdid edirdi. Ali Sovetin həyətində 11 gün davam edən fasiləsiz mitinqin təzyiqi altında Ayaz Mütəllibovun yenidən hakimiyyətə gətirilməsinin planı hazırlanmışdı. Etirazçıların məqsədi Ali Sovetin sessiyasını çağırmağa nail olmaq və çevrilişi həyata keçirmək idi. Ona görə də Yaqub Məmmədov sessiyanın təcili çağırılması məsələsini Milli Şuranın müzakirəsinə çıxarmışdı. Milli Şuranın mayın 12-də qəbul etdiyi tövsiyə qərarı ilə Azərbaycan Respublikası Ali Sovetinin sessiyası mayın 27-nə təyin olunsa da, təxirə salınmış növbədənkənar sessiyanın mayın 14-də çağırılması qərara alınmışdı.

Ali Sovetin 253 deputatın iştirakı ilə mayın 14-də keçirilən fövqəladə sessiyasının gündəliyinə iki məsələ daxil edilmişdi: Birincisi, respublikada yaranmış vəziyyət haqqında, ikincisi, Xocalı hadisəsini təhqiq edən komissiyanın məlumatı haqqında.[250]

İclasda Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin 1992-ci il 25 mart tarixli qərarının qüvvədən düşməsi haqqında qərar qəbul olundu.[251]

250 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 71.
251 Yenə orada.

Daha sonra Ali Sovetin Milli Şurasının tərkibinin buraxılması və bu məsələyə növbəti sessiyada baxmaq haqqında qərar qəbul edildi. Qərarda yazılırdı ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyini, təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etməyə yönəldilən qanunvericilik tədbirlərinin və başqa tədbirlərin təxirə salınmadan həyata keçirilməsi üçün keçid dövründə yaratdığı Milli Şura Azərbaycan Respublikası Ali Sovetinin daimi fəaliyyət göstərən orqanı kimi indiki tərkibdə öz işini respublikada yaranmış mürəkkəb şəraitin tələblərinə müvafiq surətdə qura bilməmişdir. Milli Şuranın iclasları müntəzəm keçirilmir, çox vaxt yetərsay olmadığına görə pozulurdu. Milli Şuranın 3-4 xalq deputatından ibarət tərkibdə yaradılmış daimi komissiyaları səmərəli işləməyə qadir deyildi.[252]

Xocalıda törədilən soyqırım haqqında məsələ barəsində yaradılmış deputat-istintaq komissiyasının sədri Ramiz Fətəliyev məlumat verərək bildirdi ki, komissiya həqiqəti üzə çıxarmaq üçün işləyəcəyinə and içmişdir. Əlavə etdi ki, Prezident Ayaz Mütəllibovun səhlənkarlığı, düşünülməmiş və qarışıq kadr siyasəti olmuşdur, lakin Xocalıdakı faciəyə gətirən cinayətkar niyyəti və xəyanətkarlığı olmamışdır.[253]

Çıxışlardan sonra Ayaz Mütəllibov sessiya keçirilən salona dəvət edildi. O, etdiyi çıxışında mart ayından ötən müddət ərzində fəaliyyətini tənqidi təhlil etdiyini və qiymətləndirdiyini, kadrları seçməkdə çətinlik çəkdiyini, ölkədə qayda-qanun yaradacağını və heç kimə kin, nifrət bəsləməyəcəyini desə də, müxalifətə qarşı hədələyici fikirlər işlətdi.

Sessiyada Rəhim Hüseynov[254] Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edildi. Azərbaycan Respublikasının sayca ikinci Baş naziri olan R.Hüseynov buna qədər müxtəlif vəzifələrdə, o cümlədən Maddi-Texniki Təchizat Komitəsinin sədri, Dövlət Plan Komitəsinin sədri, Nazirlər Soveti sədrinin birinci müavini işləmişdi.[255]

Beləliklə, hazırlanmış plana uyğun olaraq Ayaz Mütəllibov yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə qaytarıldı. Bu hadisədən hiddətlənən Azərbaycan Xalq Cəbhəsi Milli Məclisə silahlı hücum etdi. Ayaz Mütəllibov devrildi və Moskvaya qaçdı. Parlamentin binasının ətrafına zirehli maşınlar və tanklar yerləşdirildi.

252 Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 14.05.1992 // ARMMA, f.2941, siy. 1a, iş 294, v. 19-20.
253 Yenə orada, v. 4-6.
254 Rəhim Hüseynov (1936) – Azərbaycan Respublikasının 2-ci baş naziri (1992, may-1993, yanvar).
255 Qasımlı M., Hüseynov C. Azərbaycanın baş nazirləri, s. 110-115.

Ali Sovetin mayın 18-də keçirilən növbədənkənar sessiyasında Ali Sovetin sədri Yaqub Məmmədovun öz ərizəsi əsasında vəzifəsindən azad olunması haqqında qərar qəbul edildi.[256]

Ziyad Səmədzadə[257] Ali Sovetin sədri vəzifəsinə İsa Qəmbərovun[258] namizədliyini irəli sürdü. Çıxış edən şair, deputat Bəxtiyar Vahabzadə[259] onun namizədliyini müdafiə edərək səsə qoyulmasını təklif etsə də, yetərsay yox idi. Buna baxmayaraq, Bəxtiyar Vahabzadə bildirdi ki, bu məsələdə yetərsayın olub-olmaması əhəmiyyətli deyildir.

İdarəçilik təcrübəsi olmayan bir şəxsin mürəkkəb şəraitdə parlamentin sədri vəzifəsinə namizədliyinin irəli sürülməsini yanlış eksperiment hesab edən deputat Eldar İbrahimov[260] çıxışında birmənalı olaraq dedi:

*"...bir halda ki, demokratiyadan danışırıqsa, bu günkü demokratiyada, bu günkü ağır gündə də bu vəzifələri gəlin eksperimentə çevirməyək. Biz çalışaq elə bir adam da alternativ olsun ki, təcrübəli, öz dünya səviyyəsinə görə tanınmış siyasi xadimlərdən bir nəfəri tapaq. Mən alternativ olaraq Heydər Əliyevin namizədliyini irəli sürürəm".*[261]

Deputat Arif Rəhimzadə[262] isə Heydər Əliyevin namizədliyini daha qətiyyətlə aşağıdakı şəkildə müdafiə etdi:

*"...Əliyev Heydər Əlirza oğlunun namizədliyi mütləq verilsin və səsverməyə qoyulsun. Burada deyirlər ki, Əliyevin burada olmamağı maneçilik eləyə bilər, mən hesab eləyirəm 10 dəqiqəlik tənəffüs elan eləmək olar, telefonla onunla əlaqə saxlamaq olar və onun fikrini bilmək olar. Əliyevin Ali Sovetə sədr gətirilməsi tamamilə təbii bir məsələdir, o, Ali Sovetin sədrinin müavinidir və təəccüblü olardı ki, müavinlər ola-ola heç birinin namizədliyinə baxılmasın".*[263]

Azərbaycan Xalq Cəbhəsinin nümayəndələrindən biri çıxışında dedi:

---

256 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 74-75.

257 Ziyad Səmədzadə (1940) – akademik, Dövlət Plan-İqtisad Komitəsinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin birinci müavini, Baş nazirin birinci müavini. Azərbaycan Respublikası Milli Məclisinin deputatı (2005-ci ildən).

258 İsa Qəmbərov (1957) – Azərbaycan Xalq Cəbhəsinin rəhbərlərindən biri (1989 -1992). Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinin XII çağırış deputatı, Azərbaycan Respublikası Ali Sovetinin 3-cü sədri (18 may 1992 -13 iyun 1993), Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icraçısı (may, 1992 - iyun, 1992).

259 Bəxtiyar Vahabzadə (1925-2009) – Azərbaycan SSR xalq şairi (1984). Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü (2000). Azərbaycan Respublikası parlamentinin deputatı (1990-1995, 1995-2000, 2000-2005).

260 Eldar İbrahimov (1945) – Naxçıvan MSSR Nazirlər Soveti sədrinin birinci müavini (1988-1991). Azərbaycan Respublikası Ali Sovetinin (1990-1995), Azərbaycan Respublikası Milli Məclisinin I, II, III, IV, V və VI çağırış deputatı (1995-ci ildən).

261 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 75.

262 Arif Rəhimzadə (1941) – Azərbaycan Respublikası Milli Məclisinin I, II, III, IV, V çağırış deputatı (1995-2020). Milli Məclis sədrinin birinci müavini (1994-2005).

263 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.75.

*"...hüquq qaydalarına görə, hər hansı bir yığıncaqda iştirak etməyən və proqramını bildirməyən adamın, ümumiyyətlə, namizədliyinin səsə qoyulması qeyri-mümkündür... Pis olmaz ki, Heydər Əliyevlə telefonla danışılsın, bunun ziyanı yoxdur".*[264]

Özlərini Azərbaycan Xalq Cümhuriyyətinin və Məhəmməd Əmin Rəsulzadə yolunun davamçıları elan edən bu şəxslər Azərbaycanın tarixində buna bənzər hadisələrin olduğunu ya bilmirdilər, ya da bilməməzlikdən gəlirdilər. Məlum olduğu kimi, Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Milli Şurasına 1918-ci ilin mayında qiyabi sədr seçiləndə Batum konfransında iştirak edirdi. Əlimərdan bəy Topçubaşov isə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri seçilərkən və parlamentin fəaliyyət göstərdiyi bütün dövr ərzində Azərbaycanda olmamışdı.

Ziyad Səmədzadə öz platformasını təqdim etmək üçün İ.Qəmbərova söz verdi. O, xüsusi bir platformasının olmadığını, platformasının Əbülfəz Elçibəyin platforması olduğunu deyərək məsələyə münasibətini belə bildirdi:

*"Azərbaycanın rəhbərliyində indiki və keçmiş böyük təcrübəyə, iş bacarığına malik olan şəxslər az deyil, onlardan biri də Heydər Əliyevdir. Sözsüz ki, Heydər Əliyevin də təcrübəsindən istifadə olunmalıdır. Ancaq indiki məqamda bir daha dərk etmək lazımdır ki, Azərbaycanın ən nüfuzlu təşkilatı olan Xalq Cəbhəsinin etimad mandatı ilə işləməyən adamın Azərbaycanda vəzifə tutması çətin olacaq. Digər tərəfdən, gözəl bilirsiniz ki, Heydər Əliyevin namizədliyi bu ağır vəziyyətdə parçalanma amili rolunu da oynaya bilər".*[265]

Əslində müxalifət nümayəndələrinin bütün çıxışları onların Heydər Əliyevin böyüklüyünü, zəngin siyasi və dövlətçilik təcrübəsini qəbul etdiklərini, lakin hakimiyyət hərisliyi səbəbindən bu məsələdə geri çəkilmək istəmədiklərini göstərirdi. Bir daha aydın olurdu ki, həmin şəxsləri ölkənin və millətin taleyi deyil, yalnız hakimiyyətə gəlmək düşündürür.

Tənəffüs zamanı Ziyad Səmədzadə və Eldar İbrahimov Naxçıvana zəng edib Heydər Əliyev ilə əlaqə yaratmağa çalışdılar. Lakin hansı səbəblərdənsə danışıq baş tutmadı.

Sədrin seçilməsi üçün səsverməni keçirmək barədə qərar qəbul edildi. Seçki bülleteninə alternativ olmadan təkcə İsa Yunis oğlu Qəmbərovun adı daxil edildi. Gizli səsvermə keçirildi. İsa Qəmbərov Ali Sovetin sədri seçildi.[266] O, eyni zamanda Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini icra etməyə başladı. İ.Qəmbərov Ali Sovetin sədri vəzifəsində 1993-cü il iyunun 13-dək işlədi.

264 Yenə orada, s.75.
265 Yenə orada.
266 İ.Y.Qəmbərovun Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 18.05.1992 // ARMMA, f.2941, siy. 1a, iş 295, v. 22.

Ziyad Səmədzadə başqa işə keçməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Ali Soveti sədrinin birinci müavini vəzifəsindən azad edildi. Tamerlan Qarayev[267] Ali Sovet sədrinin müavini vəzifəsindən azad edildi və Ali Sovet sədrinin birinci müavini oldu. Afiyəddin Cəlilov[268] isə Ali Sovet sədrinin müavini seçildi.[269]

Rəhim Hüseynov Baş nazir vəzifəsinə təsdiq edildi. Nazirlər Kabinetinin tərkibində dəyişikliklər edildi.

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası haqqında iki maddədən ibarət qanun qəbul edildi. Qanunda yazılırdı ki, Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası Azərbaycan Respublikasının Milli Məclisi adlandırılsın və Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası haqqında Azərbaycan Respublikasının 1991-ci il 30 oktyabr tarixli konstitusiya qanununda "Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası" sözləri "Azərbaycan Respublikasının Milli Məclisi" sözləri ilə əvəz edilsin; həmin qanunun 3-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

*"3. Keçid dövründə Azərbaycan Respublikası Ali Sovetinin səlahiyyətləri Azərbaycan Respublikasının Milli Məclisinə verilir".*[270]

Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının tərkibinin buraxılması haqqında Azərbaycan Respublikası Ali Sovetinin 1992-ci il 14 may tarixli qərarı barədə qərar qəbul edildi. Qərarda yazılırdı ki, Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının tərkibinin buraxılması haqqında Azərbaycan Respublikası Ali Sovetinin 14 may 1992-ci il tarixli qərarı səlahiyyəti olmayan sessiya iclası tərəfindən Azərbaycan Respublikası konstitusiyasının, Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası haqqında Azərbaycan Respublikasının 30 oktyabr 1992-ci il tarixli konstitusiya qanununun, Azərbaycan Respublikası Ali Sovetinin Müvəqqəti reqlamentinin tələbləri pozulmaqla qəbul edildiyinə görə qəbul olunduğu andan etibarsız hesab edilsin.

Digər bir qərara əsasən, Ayaz Mütəllibovun istefa verməsi barəsində Azərbaycan Respublikası Ali Sovetinin 1992-ci il 6 mart tarixli qərarının etibarsız hesab edilməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin 1992-ci il 14 may tarixli qərarı qəbul edildiyi andan hüquqi qüvvəsi olmayan sayıldı.[271] Daha sonra Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqın-

267 Tamerlan Qarayev (1952) – Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini (1992 –1993).

268 Afiyəddin Cəlilov (1946-1994) – Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri (1990-1991). Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini (1992-1994).

269 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 77-78.

270 Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası haqqında Azərbaycan Respublikasının konstitusiya qanununa dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının qanunu. 19.05.1992 // ARMMA, f.2941, siy. 1a, iş 295, v. 326.

271 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 79.

da Azərbaycan Respublikası Ali Sovetinin 1992-ci il 25 mart tarixli qərarı barədə Azərbaycan Respublikası Ali Sovetinin 1992-ci il 14 may tarixli qərarına dair Ali Sovetin qərarı qəbul edildi. 14 may tarixli qərar qüvvədən düşmüş hesab edildi.[272]

### *5.2. Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi*

Azərbaycanda yaranmış qarışıqlıqdan istifadə edən Ermənistan hərbi təcavüzünü daha da genişləndirərək Laçın rayonu üzərinə hucum etdi. Təcavüzün dayandırılmasından ötrü Azərbaycan Respublikasının diplomatik-siyasi səyləri nəticə vermədi. Dağlıq Qarabağ regionundan kənarda yerləşən və 123 yaşayış məntəqəsi, 1840 kv. km ərazisi olan Laçın rayonu mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Rayonun təqribən 60 min nəfər əhalisi məcburi köçkünə çevrildi.[273]

İşğal nəticəsində Laçın rayonunda 264 nəfər şəhid oldu, 65 nəfər girov götürüldü. Rayonda 1 yaşdan 16 yaşadək 24 min 374 uşaqdan 18-i şəhid, 225 nəfəri əlil oldu, 31-i hər iki valideynini itirdi, 64 min nəfər məcburi köçkünə çevrildi. Rayon ərazisindəki 133 iri və orta müəssisə, 20 tibb müəssisəsi, 217 mədəniyyət ocağı, 40-dək mədəni və tarixi abidə, onlarla təhsil müəssisəsi işğalçıların əlinə keçdi.

Qeyd etmək lazımdır ki, işğala qədər Laçın rayonunda dünya əhəmiyyətli 54 və 200-dən çox yerli əhəmiyyətli qədim tarixi abidə var idi. Rayon ərazisindəki Ağoğlan qəsri, Dəmrovlu Pir məbədi, Malik-Əjdər türbəsi, Uşaq qalası, Kar günbəz, orta əsrlərin yadigarları olan birtağlı və ikitağlı körpülər, su dəyirmanları və sair kimi tarixi abidələr memarlıq üslubu ilə qədim dövrlərdən ərazidə türk tayfalarının məskən saldığını göstərirdi.

İşğaldan dərhal sonra rayondakı tarixi abidələr ermənilər tərəfindən məhv edildi. Məlik Əjdər türbəsi, Sultan Baba piri və digər ziyarətgahlar dağıdıldı. Rayon ərazisində geniş yayılmış daş heykəlləri, xüsusən qoç və at fiqurlarının bir qismi ermənilər tərəfindən oğurlandı, bir qismi isə məhv edildi. Laçın Dövlət Tarix-Diyarşünaslıq muzeyinin binası, 10 mindən artıq eksponatı məhv edildi

272 Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin 25 mart 1992-ci il tarixli qərarı barədə Azərbaycan Respublikası Ali Sovetinin 14 may 1992-ci il tarixli qərarına dair Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 19.05.1992 // ARMMA, f.2941, siy.1a, iş 295, v. 335.

273 Qasımlı M. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix-olduğu kimi (1920-1994-cü illər), s.470.

və aparılması mümkün olanlar isə Ermənistana daşındı. İşğalın sonrakı illərində Laçında alban xristian memarlığının ən möhtəşəm incilərindən olan Ağoğlan məbədinin üzərində alban dövrünə aid ornamentlər silindi, abidənin üzərində erməni dilində 26 ədəd saxta "tarixi" lövhə yerləşdirildi.[274]

Laçın rayonunun işğalı nəticəsində Azərbaycanın Dağlıq Qarabağ regionu ilə Ermənistan arasında quru əlaqəsi yaradıldı.

### *5.3. Prezident seçkiləri*

Hakimiyyətə gələn Azərbaycan Xalq Cəbhəsinin qarşısında dayanan başlıca vəzifə ölkədə, ilk növbədə Bakıda sabitlik yaratmaq, bütün xalqı birləşdirib ölkəni böhrandan çıxarmaq, Ermənistanın hərbi təcavüzünü dayandırmaq, işğalın nəticələrini aradan qaldırmaq, qaçqın və məcburi köçkünlərin problemlərini həll etmək, müstəqil dövlət quruculuğu üçün zəruri olan qanunları qəbul etmək və həyata keçirmək idi.

Həmin problemlərin həllinə kadr məsələlərindən başlayan yeni hakimiyyət vəzifələrə öz adamlarını təyin etdi. Xarici işlər naziri Hüseynağa Sadıqovun yerinə Azərbaycan Xalq Cəbhəsinin rəhbərlərindən biri olan Tofiq Qasımov[275] təyin edildi.

Milli Məclisin 1992-ci il mayın 21-də keçirilən iclasında bir sıra vəzifələrə təyinatlar oldu, əvvəllər Azərbaycan Xalq Cəbhəsinin əleyhinə çıxmış bəzi deputatların həbsinə icazə verildi. Onların boşalmış yerlərinə yeni üzvlərin seçilməsi qaydası haqqında qərar və 9 maddədən ibarət müvafiq qanun qəbul edildi.[276]

Azərbaycan Respublikasının dövlət himninin qəbul edilməsi məsələsi Milli Məclisin mayın 27-də keçirilən iclasında müzakirə olundu.[277] Musiqisi Üzeyir Hacıbəylinin, mətni Əhməd Cavadın olan "Azərbaycan marşı"nın Azərbaycan Respublikasının dövlət himni kimi qəbul edilməsi haqqında qərar qəbul olundu.[278]

Bu zaman ölkədə partiyalar yaradılsa və fəaliyyət göstərsə də, müvafiq qanunvericilik bazası mövcud deyildi. Ona görə də ölkədə çoxpartiyalılığa keçid

274 Laçında Ağoğlan məbədinin üzərində erməni dilində 26 saxta "tarixi" lövhə yerləşdirilib // http://www.science.gov.az/news/open/15254. 03.12.2020.
275 Tofiq Qasımov (1938-2020) – Deputat (1990-1994). Xarici işlər naziri (1992-ci il may – 1993-cü il 26 iyun).
276 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 82.
277 Azərbaycan Respublikası Milli Məclisinin iclası. 27.05.1992. Stenoqram // ARMMA, f.2941, siy. 1, iş 71, v. 1-64.
278 Azərbaycan Respublikasının dövlət himni haqqında Azərbaycan Respublikasının qanunu. 27.05.1992 // ARMMA, f.2941, siy. 1, iş 48, v. 88.

üçün addımlar atıldı. İyunun 3-də Milli Məclisdə siyasi partiyalar haqqında 4 fəsil, 21 maddədən ibarət qanun qəbul edildi. Ölkənin demokratikləşdirilməsi yolunda mühüm addımlardan biri olan bu qanunda siyasi partiyaların yaradılması şərtləri, fəaliyyət formaları, nizamnaməsi, dövlət orqanları ilə münasibətləri, ləğv edilməsi, maliyyələşdirilməsi, mədaxili və məxarici, mülkiyyəti, hesabatı, ləğv edilməsi və s. məsələlər öz əksini tapmışdı.[279]

1992-ci il iyunun 7-də Azərbaycanda ikinci dəfə prezident seçkiləri keçirildi. Bu, həm də müstəqillik tarixində ilk növbədənkənar prezident seçkiləri idi. Bir il əvvəl prezident olmuş A.Mütəllibovun fəaliyyət müddəti başa çatmasa da, ölkədə və cəbhədə baş verən hadisələr onun siyasi sonunu gətirmişdi. Artıq qeyd edildiyi kimi, Xocalıda törədilən soyqırımın doğurduğu etirazlardan sonra, 1992-ci ilin martında Prezident Ayaz Mütəllibov təzyiq altında istefa vermişdi. Şuşa şəhərinin işğal edilməsindən sonra yenidən hakmiyyətə qayıtmaq istəsə də, ölkəni tərk etməyə məcbur qalmışdı.

Prezident seçkilərində beş namizəd mübarizə aparırdı. Qeydiyyatdan keçmək üçün hər bir namizəd ən azı 20.000 imza toplayaraq Mərkəzi Seçki Komissiyasına təqdim etməli idi. Çoxsaylı siyasi qüvvələrin toplaşdığı və faktiki olaraq meydan hərəkatına öncüllük edən Azərbaycan Xalq Cəbhəsinin namizədi Əbülfəz Qədirqulu oğlu Əliyev idi. Xalq arasında Əbülfəz Elçibəy kimi tanınan bu şəxsin əsas vədləri Qərbə inteqrasiya, türk dünyası ilə əlaqələrin inkişaf etdirilməsi, demokratikləşmə və s. idi.

Əbülfəz Elçibəyin əsas rəqiblərindən hesab edilən Etibar Məmmədov seçkidən bir neçə gün əvvəl koalisiyalı hökumət yaratmağa və səsverməni müharibənin sonuna qədər təxirə salmağa çağırdı, daha sonra isə seçkidə iştirakdan çəkildi.

AXC-dən daha iki namizəd seçkidə iştirakdan imtina etdi.

Azərbaycan Demokratik Ziyalılar İttifaqı Nizami Süleymanovun namizədliyini irəli sürdü. O, seçki platformasında seçicilərə yüksək sosial-iqtisadi rifah və münaqişənin tənzimlənməsini vəd edirdi.[280]

Parlamentin sədri olmuş və bir müddət prezident səlahiyyətlərini icra etmiş Yaqub Məmmədov müstəqil olaraq seçkiyə qatıldı.

Azərbaycan Demokratik İslahat Uğrunda ictimai hərəkatı İlyas İsmayılovun namizədliyini irəli sürdü.

Azərbaycan Xalq-Demokrat Qrupunun namizədi isə Rafiq Abdullayev Turabxanoğlu idi.

Beynəlxalq müşahidəçilərə seçkiləri izləməyə icazə verildi.

279 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 82.
280 Yenə orada.

Seçkidə 3099480 nəfər seçici səsvermə hüququndan istifadə etdi. Seçici fəallığı 97,60 faiz oldu.

Rəsmi məlumatlara görə, Əbülfəz Əliyev 1 milyon 830 min 448 seçicinin səsini toplaya bilmişdi. Bu, səsvermədə iştirak edənlərin 60,9 faizi demək idi. Seçkilərdə Nizami Süleymanova 1018218 nəfər (33,8 faiz), Yaqub Məmmədova 52 min 144 nəfər (1,7 faiz), İlyas İsmayılova 20 min 216 nəfər (0,7 faiz), Rafiq Abdullayevə (Turabxanoğlu) 15 min 646 nəfər (0,5 faiz) səs vermişdi. 72 min 100 (2,4 faiz) nəfər seçici isə bütün namizədlərin əleyhinə səs vermişdi.

Seçkidən sonrakı gün, iyunun 8-də isə təcavüzkar Ermənistan ordu hissələri Azərbaycanın Ermənistan ilə sərhəddə yerləşən Qazax rayonunun Yuxarı Əskipara kəndini işğal edərək yandırdı. Kəndin sakinlərinin bir qismi öldürüldü, bir qismi isə məcburi köçkün oldu.

Milli Məclisin iyunun 16-da keçirilən iclasında Azərbaycan Respublikası Prezidentinin andiçmə qaydası barədə iki maddədən ibarət qanun qəbul edildi.[281] Qanuna görə, seçkilərin rəsmi nəticəsi elan edildikdən sonra beş gündən gec olmayaraq Azərbaycan Respublikası Prezidentinin and içməsi üçün Ali Sovetin sessiyası çağırılırdı. Prezident sağ əlini Azərbaycan Respublikasının konstitusiyasına, sol əlini isə "Quran"a basaraq and içirdi. Andın məzmunu da təsdiq edildi.[282] Həmin iclasda Əbülfəz Elçibəy Azərbaycan Respublikasının Prezidenti kimi and içdi.[283] Beləliklə, Azərbaycan Respublikasında AXC-Müsavat iqtidarının hakimiyyəti rəsmiləşdirildi.

Azərbaycan rəhbərliyi ölkənin ərazi bütövlüyünün bərpası üçün səylər etdi. İyunun 16-da Goranboy rayonu üzərində nəzarət bərpa edildi. Lakin bu iş davamlı olmadı və az sonra Azərbaycan hərbi uğursuzluqlara doğru sürüklənməyə başladı.

## *5.4. Azərbaycanda böhranın dərinləşməsi*

Bu zaman Avropanın siyasi həyatında mühüm bir hadisə baş verdi. 1992-ci il iyulun 9-10-da Finlandiyanın paytaxtı Helsinkidə ATƏM üzvü olan ölkələrin dövlət və hökumət başçılarının birinci zirvə görüşü keçirildi.[284] Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy təşkilatın

281 Yenə orada, s.84.
282 Azərbaycan Respublikası Prezidentinin andiçmə qaydası haqqında Azərbaycan Respublikasının qanunu. 16.06.1992. // ARMMA, f.2941, siy. 1, iş 76, v. 77.
283 Ə.Elçibəyin andiçmə mərasimində çıxışı. 16.06.1992 // ARMMA, f. 2941, siy. 1, iş 76, v. 15
284 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s.171.

yekun sənədini imzaladı. Azərbaycan dövləti münaqişənin tənzimlənməsində təşkilatın dəstəyinə ümid edirdi.

Ermənistan Respublikasının Ali Soveti isə Dağlıq Qarabağ bölgəsinin Azərbaycan tərkibində göstərildiyi heç bir qərarı qəbul etməyəcəyi barədə sənəd qəbul etdi. Cavab olaraq Azərbaycan Respublikasının Milli Məclisi iyulun 15-də dövlətlərarası münasibətlərin hamılıqla qəbul olunmuş prinsip və normalarının Ermənistan Respublikasının Ali Soveti tərəfindən kobudcasına pozulması haqqında iki bənddən ibarət qərar qəbul etdi. Qərarda Ermənistan Respublikası Ali Sovetinin növbədənkənar iclasında qəbul etdiyi mövcud olmayan qondarma "Dağlıq Qarabağ Respublikası"nı və onun əhalisini müdafiə edən qərarına etiraz olunur, belə aktlar qanunsuz hesab edilir, bu addımlar düşmənçilik hərəkətləri kimi qiymətləndirilirdi.[285]

Qeyd etmək lazımdır ki, Ermənistanın hərbi təcavüzünə qarşı səyləri birləşdirmək əvəzinə, ölkədə müxtəlif siyasi və hərbiləşmiş siyasi qüvvələr arasında çəkişmələr dərinləşirdi. Bu isə respublikadakı şəraitə və əhalinin mənəvi-psixoloji vəziyyətinə mənfi təsir edirdi.

Ölkədə dövlət və hakimiyyət orqanlarının qanunsuz fəaliyyətindən də narazılıq artırdı. Bəzi nazirlər özlərini nəzarətdən və qanundankənar hesab edirdilər. Hakimiyyət orqanları öz işlərini yarıtmaz yerinə yetirirdilər. Məsələn, 1992-ci il iyulun 16-da Astara şəhərində ağır cinayət törədildi. Silahları toplamaq adı altında rayonda keçirilən əməliyyat sakinlərdə vahimə yaratdı. Bir neçə adamdan silahı almaq üçün Şahağacı kəndi üzərinə helikopter qaldırıldı, atəş açıldı, desant çıxarıldı və kəndə basqın edildi. Hadisə nəticəsində günahı olmayan bir ailə, 13 yaşlı məktəbli uşaq, onun atası və anası, İran İslam Respublikasının bir vətəndaşı öldürüldü və ev tamamilə yandırıldı.

Başqa bir problem də vətəndaşları narahat edirdi. İnsanların Müdafiə Nazirliyinin hesabına müdafiə məqsədləri üçün könüllü köçürdükləri vəsait düzgün xərclənmirdi, kimlərsə ondan şəxsi mənafeyi üçün istifadə edirdi.

Təsərrüfat və dövlət quruculuğunda buraxılan kobud səhvlər əhalinin ərzaq məhsulları, xüsusən çörək məmulatları ilə təmin edilməsində problemlər yaratmışdı. Ölkədə un çatışmırdı. Əhali çörək qıtlığından əziyyət çəkir, dükanların qarşısında saatlarla növbələr yaranırdı. Növbələrdə dayanmağa fiziki imkanı olmayan şəxslər – qocalar, əlillər və xəstələr daha çox çətinlik çəkirdilər. İnsanlar aldıqları çörəyin keyfiyyətinin aşağı olmasından narazılıq edirdilər. Respublikada ərzaq böhranı yaranmışdı. Ölkədə ərzaq və taxıl 1 mln. 100 min

285 Dövlətlərarası münasibətlərin hamılıqla qəbul olunmuş prinsiplərinin və normalarının Ermənistan Respublikasının Ali Soveti tərəfindən kobudcasına pozulması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 15.07.1992 // ARMMA, f.2941, siy. 1, iş 51, v.49-51; Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15.07.1992. Bakı, 1992, №13 (866), s.17-18.

ton idi. Taxıla olan tələbat 1 mln. 200 min ton olsa da, 100 min ton taxıl çatışmırdı. Kənd təsərrüfatında, taxılçılıqda ağır vəziyyət yaranmışdı. Taxıl sahələri əkilməmiş və boş qalmışdı. Xaricdən taxıl alınmasında da problemlər yaranmışdı. Naxçıvanda və döyüş bölgəsinə yaxın olan rayonlarda dəyirmanlar işləmirdi. Taxıl məhsullarının qənaətlə istifadə olunması, əhalinin çörək məmulatına olan tələbatının ödənilməsi və onun keyfiyyətinin yaxşılaşdırılması üçün qərarlar qəbul edilir, tədbirlər görülürdü.[286] Buna baxmayaraq, əhalinin çörəklə təminatı getdikcə pisləşirdi. Xalqın narazılığı və hakimiyyətə olan inamsızlığı artırdı.

Sərhədlərin qorunması məsələsində bəzi qonşu dövlətlərlə münasibətlərdə problemlər meydana çıxırdı. İran İslam Respublikası ilə sərhədin pozulması, qaçaqmalçılıq və narkotiklərin keçirilməsi halları artmışdı. Belə vəziyyət həm vətəndaşların sağlamlığı, həm də dövlət təhlükəsizliyi üçün təhdid idi.

Ermənistan tərəfindən blokadada saxlanan Naxçıvan Muxtar Respublikasında ağır vəziyyət hökm sürürdü. Əhali ərzaq, elektrik enerjisi, yanacaq və b. problemlərin məngənəsində boğulurdu.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 38 tikinti, 44 sənaye müəssisəsinin əksəriyyəti işini dayandırmışdı. Muxtar Respublikanın elektrik enerjisinə olan tələbatı yay mövsümündə 110-120, qış mövsümündə isə 140-150 meqavat idi. Daxili ehtiyat mənbəyi olan Araz su elektrik stansiyasının istehsal gücü isə 20 meqavat idi. Muxtar Respublikanın gündəlik tələbatı benzinə 160 ton, dizel yanacağına 260 ton, yay mövsümündə mazuta 110 ton idi. Bir ay ərzində Naxçıvana 80 ton benzin, 95 ton mazut, maye qaz isə il ərzində 20 ton göndərilmişdi.

Ölkədə nizam-intizamın olmaması Naxçıvan Muxtar Respublikasındakı işlərə də mane olurdu. Siyasi böhranın davam etməsi hərbi böhran yaradırdı. Muxtar Respublikada əhali ağır vəziyyətdə yaşayırdı. Buna son qoymaq, dəmiryolunu açmaq məqsədilə Azərbaycan tərəfi danışıqlara təşəbbüs etdi və erməni tərəfi ilə ümumi razılığa gəlindi. Lakin son anda Ermənistan gərginlik yaradaraq danışıqları pozdu.

Bu zaman Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində Qubadlı rayonu ətrafında da ağır vəziyyət yaranmışdı.

Alma-Ata şəhərində Azərbaycan Respublikası adından 1991-ci il dekabrın 21-də imzalanmış Müstəqil Dövlətlər Birliyinə daxil olmaq haqqında sazişin təsdiq edilməməsi barədə qərar qəbul edildikdən sonra Rusiyanın yardımlarını daha da artırması nəticəsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü daha da genişləndi. Mülki əhalinin amansızlıqla qətlə yetirilməsi davam etdirilirdi. Belə faciələrdən biri Laçın rayonundan məcburi köçkün düşərək Goranboy

286 Əhalinin çörək məmulatı ilə təminatı haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 18.08.1992 // ARMMA, f.2941, siy. 1, iş 54, v. 91-92.

rayonunun Ballıqaya yaylağında məskunlaşan 24 nəfər dinc sakinin 1992-ci il avqustun 28-də işğalçı Ermənistan silahlı qüvvələrinin yaratdığı təxribat qrupu tərəfindən vəhşicəsinə öldürülməsi oldu. Bu qanlı hadisə nəticəsində həmcinin 5 nəfər ağır yaralandı, 4 nəfər isə yüngül xəsarətlər aldı.

Mülki əhalinin öldürülməsi müharibə cinayəti olub, Xocalıda və digər yerlərdə törədilən soyqırımların davam etdirildiyini, onun Ermənistanda dövlət siyasətinə çevrildiyini göstərirdi.

Belə bir şəraitdə Azərbaycan hakimiyyəti ölkənin müdafiəsini və xalqın təhlükəsizliyini təmin edə bilmir, böhran getdikcə dərinləşirdi. Vətəndaşlarda dövlət hakimiyyətinə olan inam sürətlə aşağı düşür və ölkə çıxılmaz vəziyyətə sürüklənirdi.

## *5.5. Yeni Azərbaycan Partiyasının yaradılması*

Hakimiyyətin verdiyi vədləri yerinə yetirə bilməməsi, ölkənin daha da ağır vəziyyətə düşməsi, Ermənistanın hərbi təcavüzünün güclənməsi, hakimiyyətin müxtəlif strukturlarına yerləşdirilmiş şəxslərin hərbiləşmiş dəstələr yaradaraq özbaşınalıqlar törətməsi xalqın inamını azaltmışdı. Hərəkatın tərkibindən ayrılan siyasi partiyalar da özünü doğrultmurdu. Belə bir şəraitdə ölkə ziyalıları yeni bir siyasi qüvvənin meydana çıxması zərurətini başa düşür, ona rəhbərlik edəcək və Azərbaycanı yaranmış çətin vəziyyətdən çıxara biləcək liderin Heydər Əliyev ola biləcəyini dərk edirdilər. Ona görə də bir qrup ziyalı, Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış edərək, uzun müddət Azərbaycana rəhbərlik etmiş, Sovet İttifaqında yüksək vəzifələr tutmuş, bütün fəaliyyəti boyunca Azərbaycanın tərəqqisi və inkişafı naminə çalışmış Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. 91 nəfər Naxçıvana, Heydər Əliyevə müraciət göndərdi. Bu, Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuşdur. Müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etməsi xahiş olunurdu. "Azərbaycan Sizin sözünüzü gözləyir" başlıqlı müraciətdə yazılırdı:

*"Möhtərəm Heydər bəy! Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan, sözün əsl mənasında, siyasi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali hakimiyyət və idarəetmə orqanları konstitusiyaya zidd, "real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində, iflic vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir.*

*Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur. Ən dəhşətlisi odur ki, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktında təsbit olunmuş hakimiyyət bölgüsü havadan asılı qalmış, hüquqi dövlətin yaradılması yolunda real addımlar atılmamışdır. İqtidarın idarəetmə səriştəsi, təcrübəsi, bacarığı olmayanda zora əl atması təbiidir. Qəribə burasındadır ki, prezidentdən tutmuş respublikanın müxtəlif vəzifəli şəxsləri dəfələrlə öz müsahibələrində bildiriblər ki, artıq hakimiyyəti bizim əlimizdən heç kəs ala bilməz, çünki ordu və polis bizə xidmət edir...".*[287]

Müraciətdə yazılırdı ki, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Ona görə də Azərbaycanın, demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik edən Heydər Əliyev "91-lər"ə cavabında yazırdı:

*"Sizin müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatlığı haqlıdır və təqdirəlayiqdir. Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını hədsiz dərəcədə sevindirir.*

*Eyni zamanda, bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər layiqli töhfəsini verməlidir".*[288]

Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat rəhbərliyi Bakı şəhərində partiyanın təsis konfransının keçirilməsinə icazə vermədiyi üçün 50 nəfər təyyarə ilə Naxçıvan Muxtar Respublikasına getdi. 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Konfrans

287 Azərbaycan Sizin sözünüzü gözləyir // "Səs" qəzeti, 1992, 16 oktyabr.
288 Yeni, müstəqil Azərbaycan uğrunda // "Səs" qəzeti, 1992, 6 noyabr.

Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərarı, partiyanın proqram və nizamnaməsini qəbul etdi. Heydər Əliyev yekdilliklə partiyanın sədri, habelə, partiyanın Siyasi Şurası, İdarə Heyəti və sədrin müavinləri seçildi.

Yeni Azərbaycan Partiyası 1992-ci il dekabr ayının 18-də Ədliyyə Nazirliyində qeydiyyata alındı və Azərbaycanın bütün rayonlarında qısa müddətdə rayon təşkilatları və özəkləri yaradıldı. Xalq Heydər Əliyevin sədr olduğu partiyaya inanır və ölkənin gələcəyini onda görürdü.

Hakimiyyətin bərbad idarəçiliyi nəticəsində Azərbaycan beynəlxalq aləmdə də təklənir, əleyhinə qərarlar qəbul olunurdu.

### *5.6. Ermənistanın hərbi təcavüzünün genişlənməsi və Kəlbəcərin işğalı*

ABŞ senatı 1992-ci ilin payızında Azərbaycan Respublikasının guya Ermənistanı blokadada saxladığını əsas gətirib Azadlığa dəstək aktına olan 907-ci düzəlişi qəbul edərək Azərbaycana yardımları dayandıran qanun qəbul etdi. Məsələnin qoyuluşu tamamilə qeyri-obyektiv idi. Çünki məhz Ermənistan əsassız ərazi iddiaları ilə Azərbaycana qarşı hərbi təcavüzə başlamış, 200 mindən çox azərbaycanlını vəhşicəsinə qovmuş, əraziləri işğal etmiş, yaşayış məntəqələrini yandırmış və Xocalıda soyqırım törətmişdi. İşğalçı ölkə Naxçıvanı blokadada saxlayırdı.

Ermənistan ilə sərhəddə yerləşən rayonlarda, xüsusən Qazaxda da ağır vəziyyət yaranmışdı. İşğalçı Ermənistan silahlı qüvvələri ağır toplardan, iri çaplı silahlardan kəndləri atəşə tutur və dağıdırdı. 1993-cü il yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy tərəfindən Qazax və Qubadlı rayonlarının ərazisində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında fərmanlar verildi.

1993-cü ilin əvvəllərindən etibarən cəbhədə, xüsusən Ağdam rayonunda vəziyyət daha da pisləşdi. Rayonun kəndlərinə işğalçı Ermənistan silahlı qüvvələrinin hücumları ara vermirdi. Fevralın 6-da Ağdərənin iki böyük kəndi olan Sırxavənd və Çaldıran, bir müddət sonra isə daha 6 kənd işğal edildi.

Yaranmış şəraitdə Azərbaycan Respublikasının Prezidentinə ərizə yazan Baş nazir Rəhim Hüseynov vəzifəsindən azad edildi. Baş nazirin səlahiyyətlərinin icrası Əli Məsimova[289] tapşırıldı. O, Nazirlər Kabinetinin strukturunun bazar münasibətlərinin tələblərinə uyğun surətdə təkmilləşdirilməsi, idarəetmədə sahə prinsipindən funksional prinsipə keçid, çalışanların orta yaş dərəcəsinin əsaslı surətdə aşağı salınması, elmi dərəcəsi olan kadrların irəli çəkilməsi və s.

289 Əli Məsimov (1953) – Baş nazirin səlahiyyətlərini icra edən (1993, yanvar - aprel). Azərbaycan Respublikası Milli Məclisinin deputatı (2005-ci ildən)

tədbirlərin köməyi ilə hökumətin fəaliyyətinin yenidən qurulması, şəffaflığının artırılması istiqamətində səylər göstərsə də, bunları reallaşdırmaq mümkün olmadı.[290]

Bu zaman Qubadlı, Zəngilan və Cəbrayıl rayonları ərazisində gərgin vəziyyət yarandığı üçün fövqəladə vəziyyət tətbiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 1993-cü il 2 mart tarixində fərman imzaladı. Ağdam rayonu ərazisində fövqəladə vəziyyətin müddətinin uzadılması, Qazax rayonu ərazisində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında isə Azərbaycan Respublikası Prezidenti 1993-cü il 6 mart tarixində fərman imzaladı.

Ölkənin şimalında dövlət əleyhinə baş verən təhlükəli separatçılıq fəaliyyətləri genişlənirdi. Eyni xarakterli proseslər cənubda da mövcud idi.

Cəbhədəki hərbi uğursuzluqlar ölkədəki vəziyyəti getdikcə ağırlaşdırırdı. Ermənistanın hərbi təcavüzü nəticəsində məcburi köçkünlərin sayı artır, problemləri isə həll edilmirdi. Müdafiə Nazirliyinin fəaliyyəti aşağı düşmüş, döyüş bölgəsində təxribatlar artmış və orduda nizam-intizam pozulmuşdu. Münaqişə daha da dərinləşirdi.

Belə bir şəraitdə Rusiya Federasiyası və Fransa Respublikasının prezidentləri 1993-cü il martın 16-da birgə bəyanatla çıxış etdilər.[291] Onlar milyonlarla erməni və azərbaycanlıya bədbəxtliklər gətirmiş münaqişənin tezliklə həllinə səylər etdiklərini, hərbi əməliyyatlardan narahatlıq hissi keçirdiklərini, sülh, xalqların qanuni hüquq və azadlıqlarına hörmət edilməsinə, münaqişələrin dinc siyasi vasitələrlə tənzimlənməsinə tərəfdar çıxdıqlarını bildirərək tərəfləri dialoqa çağırdılar. Bəyanatda Minsk qrupunun səyləri müdafiə olunur və tərəflərə hərbi əməliyyatları dayandırmaq təklif edilirdi.

Atəşi dayandırmaq haqqında çağırışlara məhəl qoymayan Ermənistan Azərbaycan ərazilərinin işğalını davam etdirirdi. Belə bir vaxtda Azərbaycan dərin sosial-iqtisadi, siyasi və mənəvi-psixoloji böhran məngənəsində boğulurdu. Hakimiyyət ölkəni idarə edə bilmirdi. Kəlbəcər rayonu ətrafında vəziyyət ağırlaşırdı. Yaranmış şəraitdən istifadə edən Ermənistan silahlı qüvvələri Basarkeçər (Vardenis) rayonu ərazisindən Kəlbəcər rayonuna zərbələr endirərək hücuma keçdi.

Hücumu dayandırmaq məqsədi ilə Azərbaycan Respublikası martın 31-də BMT Təhlükəsizlik Şurasının sədrinə Kəlbəcər rayonunda yaranmış faciəli vəziyyətlə bağlı məktub göndərdi.[292]

290 Qasımlı M., Hüseynov C. Azərbaycanın baş nazirləri, s. 115-119.
291 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s.179.
292 Письмо постоянного представителя Азербайджана при Организации Объединенных Наций от 31 марта 1993 года на имя председателя Совета Безопасности // Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993, с.73-74.

Bununla kifayətlənməyən Azərbaycan Respublikası aprelin 1-də dünya ölkələrinin parlamentlərinə, Avropa Parlamentinə, ATƏM və BMT-yə göndərdiyi müraciətdə Ermənistanın Azərbaycana qarşı apardığı müharibənin yeni mərhələyə - açıq işğalçılıq mərhələsinə keçdiyini göstərir və təcavüzkara münasibətin bildirilməsini xahiş edirdi.[293] Müraciətdə Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonunun mərkəzini və ətraf kəndləri atəşə tutduğu, 12 kəndi işğal etdiyi, Laçın və Kəlbəcər rayonları ərazisində qanlı döyüşlərin getdiyi yazılırdı.

Təcavüzünü davam etdirən Ermənistan aprelin 2-də Kəlbəcər rayonunu işğal etdi. Rayon ərazisində kütləvi qırğın törədildi. 511 nəfər həlak oldu, 321 nəfər itkin düşdü və girov götürüldü. 3050 kv. km ərazisi və 150 yaşayış məntəqəsi olan Kəlbəcərin işğalı ilə təqribən 60 min adam məcburi köçkünə çevrildi.[294] Onların arasında azərbaycanlılarla yanaşı ruslar, yəhudilər və b. xalqların da nümayəndələri var idi. Rayon ərazisindəki tarix və memarlıq abidələri, klub və kitabxanalar, tarix-diyarşünaslıq muzeyi yerlə yeksan edildi. İşğal nəticəsində rayon mərkəzi, kəndlər, həmçinin onlarla tarixi-mədəniyyət abidəsi, bir muzey, İstisu sanatoriyası dağıdıldı.

Kəlbəcərin işğalından sonra Azərbaycan Respublikasının ərazisində fövqəladə vəziyyət elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti 1993-cü il 2 aprel tarixində fərman imzaladı. Aprelin 3-də isə BMT Təhlükəsizlik Şurasının sədrinə müvafiq məktub göndərildi. Aprelin 4-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ermənistanın təcavüzünün davam etməsi və Kəlbəcərin işğalı haqqında bəyanat verdi. BMT yanında Azərbaycanın daimi nümayəndəsi Təhlükəsizlik Şurasının sədrinə aprelin 5-də Prezident Əbülfəz Elçibəyin 3 aprel tarixli müraciətini və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 4 aprel tarixli bəyanatını göndərdi.[295] BMT Baş katibinə Ermənistanın hərbi təcavüzünə dair əlavə materiallar da təqdim olundu. Azərbaycanın təşəbbüsü ilə aprelin 6-da BMT Təhlükəsizlik Şurasının iclası keçirildi. Müzakirələrdən sonra məsələyə dair BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatı qəbul edildi.[296]

Avropa İttifaqı da Dağlıq Qarabağ münaqişəsinə dair 1993-cü il aprelin 7-də bəyanatla çıxış etdi.[297] Bəyanatda təşkilat Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq münasibətlərin pisləşməsindən

293 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, s.180.
294 Yenə orada.
295 Идентичные письма президента Азербайджана на имя генерального секретаря и председателя Совета Безопасности. 3 апреля 1993 года; Заявление Министерства иностранных дел Азербайджанской Республики. 4 апреля 1993 года. // Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993, с.78, 82.
296 Təhlükəsizlik Şurası sədrinin bəyanatı. // Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993, с. 89.
297 Avropa İttifaqının Dağlıq Qarabağa dair bəyanatı. 7 aprel 1993-cü il. // "Diplomatiya aləmi" jurnalı, Bakı, 2004, yanvar-mart, №6, s.136.

ciddi təşviş keçirdiyini, Kəlbəcər və Füzuli rayonlarında döyüş əməliyyatlarının genişlənməsindən təəssüfləndiyini bildirir, Azərbaycan ərazilərini dərhal boşaltmağa, Minsk qrupu çərçivəsində danışıqları davam etdirməyə çağırırdı.

BMT Təhlükəsizilik Şurası sədrinin bəyanatından sonra Rusiya da hərbi əməliyyatları dayandırmaq üçün münaqişə tərəfləri arasında görüşün keçirilməsi təşəbbüsü ilə çıxış etdi.[298] Azərbaycan tərəfi Rusiyanın təklifinə müsbət cavab verdi. Aprelin 8-də Soçidə Rusiya, Azərbaycan və Ermənistan nümayəndələrinin görüşü keçirildi.

Görüş zamanı Azərbaycan nümayəndələri Ermənistanın hərbi təcavüzünə, Kəlbəcərin işğalına diqqəti yönəltdilər, təcavüzkarın dayandırılmasını tələb etdilər, yaranmış vəziyyətə dair dövlətin mövqeyini bildirdilər. Bu mövqeyə görə, işğalçı qüvvələr işğal edilmiş ərazilərdən çıxarılmalı idi. Əgər tərəflər arasında etimad olmazdısa, müşahidəçilər, o cümlədən rusiyalı müşahidəçilər də həmin prosesdə iştirak edə bilərdilər. Azərbaycan yalnız bundan sonra atəşi dayandıra bilərdi.

Erməni tərəfi Ermənistanın guya blokadada saxlandığını bildirərək ordu hissələrinin çıxarılmasını Meğri yolunun açılması ilə əlaqələndirdi.

Azərbaycan nümayəndələri Kəlbəcərin işğalının Dağlıq Qarabağ münaqişəsi ilə heç bir əlaqəsi olmadığını, bu işğalın münaqişəyə açıq müharibə xarakteri verdiyini, Ermənistan Kəlbəcərdən ordu hissələrini çıxardıqdan sonra Azərbaycanın Meğri yolunu aça biləcəyini, blokadanı Azərbaycanın yaratmadığını, Ermənistanın Meğri yolunu açdıqdan sonra yüklərin maneəsiz daşınacağını qeyd etdilər. Azərbaycan tərəfi yolun açılması problemini Kəlbəcərlə əlaqələndirməyin məqbul olmadığını bildirərək, əvvəlcə Ermənistan silahlı qüvvələrinin Kəlbəcərdən çıxarılmasını, yolların açılmasını, sonra isə münaqişənin dondurulmasını və Azərbaycanın Dağlıq Qarabağ regionunun statusunun müzakirəsini təklif etdi. Azərbaycan atəşkəsə etiraz etməyərək Ermənistan silahlı qüvvələrinin Kəlbəcəri boşaltmasını arxa plana keçirməyin mümkünsüzlüyünü bildirdi.

Soçi görüşü nəticəsiz başa çatdı. Ermənistan Kəlbəcəri azad etmədi, Ermənistana gedən dəmiryolu da açılmadı.

Azərbaycan Respublikası 1993-cü il aprelin 11-də yenidən BMT Baş katibinə müraciət edərək Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulmasını yeni dünya düzəninə təhdid kimi qiymətləndirdi və təcavüzün qarşısının alınması üçün tədbirlərin həyata keçirilməsini xahiş etdi.[299] Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi aprelin 12-də

298 *Ətraflı bax:* Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s.182-184.

299 Письмо президента Азербайджанской Республики от 11 апреля 1993 года на имя Генерального секретаря // Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993, с. 100.

Təhlükəsizlik Şurasının sədrinə Ermənistanın təcavüzkar hərəkətləri haqqında konkret fakt və materialları təqdim etdi.[300] O, məsələyə dair BMT Baş katibinin məruzəsi hazırlanarkən müvafiq məlumatların nəzərə alınması, "Dağlıq Qarabağın özünümüdafiə qüvvələri" silahlarının mənbəyinin müəyyənləşdirilməsi üçün komissiyanın yaradılması, Ermənistanın təcavüzünün dayandırılması, problemin siyasi yolla həllinə mane olan əngəllərin aradan qaldırılması, Azərbaycanın işğal edilmiş ərazilərinin BMT Təhlükəsizlik Şurasının tələbləri əsasında boşaldılması, regionun bütün dövlətlərinin ərazi bütövlüyü və suverenliyi prinsipinə hörmət edilməsinə əməl olunması təkliflərini irəli sürdü.

Aprelin 15-də Azərbaycan Respublikası BMT Baş katibinə təkrarən müraciət edərək Ermənistan silahlı qüvvələrinin hücumları faktını təsdiq etmək üçün Kəlbəcərə BMT missiyası göndərməyi xahiş etdi.[301]

## *5.7. BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi*

BMT Təhlükəsizlik Şurasının 1993-cü il aprelin 30-da keçirilən 3205 saylı iclasında Azərbaycanın Kəlbəcər rayonundan və digər işğal olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb edən 822 saylı (S/RES822 (1993), qətnamə qəbul edildi.[302] Qətnamədə yazılırdı:

*"Təhlükəsizlik Şurası, Dağlıq Qarabağ münaqişəsinə dair Təhlükəsizlik Şurasının Sədri tərəfindən edilən 1993-cü il 29 yanvar (S/25199) və 6 apre1 (S/25539) tarixli bəyanatlarına əsaslanaraq, Baş katibin 14 aprel 1993-cü il tarixli (S/26600) məruzəsini nəzərə alaraq, Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlığını ifadə edərək, silahlı hərbi əməliyyatların genişlənməsini və xüsusilə "yerli erməni qüvvələrinin" Azərbaycan Respublikasının Kəlbəcər rayonuna sonuncu hücumunu həyəcanla qeyd edərək, belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratması ilə əlaqədar narahat olaraq, çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda, xüsusilə Kəlbəcər rayonunda fövqəladə humani-*

300 Письмо постоянного представителя Азербайджана при Организации Объединенных Наций от 12 апреля 1993 года на имя председателя Совета Безопасности // Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993, с.91-94.

301 Письмо президента Азербайджанской Республики от 15 апреля 1993 года на имя Генерального секретаря // Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993, с. 102.

302 Резолюция 822 (1993), принята Советом Безопасности на его 3205-м заседании 30 апреля 1993 года // ARXİNA. 1993; Resolution 822 (1993) Adopted by the Security Council at its 3205th Meeting on 30 Aprel 1993 // Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. 1994. The Ministry of Foreign Affairs of the Azerbaijan Republic. Baku, 1994, p. 13-14.

*tar vəziyyətlə bağlı ciddi narahatçılığını ifadə edərək, regionda bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bəyan edərək və silahlı hərbi əməliyyatların genişlənməsinin bu proses üçün dağıdıcı nəticə verə biləcəyindən dərindən narahat olaraq, möhkəm atəşkəsin əldə edilməsi məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın digər bu yaxınlarda işğal olunmuş rayonlarından dərhal çıxarılmasını tələb edir; münaqişənin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Minsk qrupunun sülh prosesi çərçivəsində həll edilməsi məqsədilə maraqlı tərəfləri danışıqları dərhal bərpa etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirən hər hansı hərəkətlərdən çəkinməyə çağırır; mülki əhalinin əzablarını yüngülləşdirmək üçün regionda, xüsusilə münaqişəyə məruz qalmış rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinə çağırır, bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını yenidən təsdiq edir; Baş katibdən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Fəaliyyətdə olan sədri, həmçinin Müşavirənin Minsk qrupunun sədri ilə məsləhətləşmədə regionda, xüsusilə Azərbaycanın Kəlbəcər rayonunda, vəziyyətin qiymətləndirilməsini aparmağı və Şuraya növbəti məruzəni təqdim etməyi xahiş edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır".*

Qətnamədə Azərbaycan ərazilərinin işğal edilməsi faktı etiraf, düşmənçilik hərəkətlərinin və hərbi əməliyyatların dərhal dayandırılması, işğal edilmiş ərazilərin dərhal boşaldılması tələb, bölgədəki bütün dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi, zor gücünə ərazilərin tutulmasının yolverilməzliyi təsdiq edilirdi. Bunlar qətnamənin müsbət tərəfləri idi.

Qətnamə qüsursuz da deyildi. Sənəddə Azərbaycan və Ermənistan arasında münasibətlərin pisləşməsinin səbəbləri göstərilmirdi. Fransa və Rusiyanın təklifi ilə sənədə daxıl edilmiş "yerli erməni qüvvələri" tərəfindən Kəlbəcərin işğal edilməsi ifadəsinin yazılması real vəziyyəti əks etdirmirdi, tamamilə səhv idi və Ermənistanın hərbi təcavüzünü ört-basdır etmək niyyətini güdürdü. Belə mövqe təcavüzkarı müdafiə etmək və şirnikləşdirmək demək idi. Məlum olduğu kimi, Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərin Kəlbəcər rayonunu işğal etməyə hərbi, iqtisadi və maliyyə gücü yox idi. İşğal edilmiş ərazilərin konkret olaraq nə zaman boşaldılacağı və təcavüzkar dövlətə qarşı sanksiyalar tətbiq ediləcəyi də yazılmırdı.

1993-cü il mayın 3-də ABŞ, Rusiya, Türkiyə sülh təşəbbüsü ilə çıxış edərək təkliflər planını işləyib hazırladılar.[303] Üçtərəfli təxirəsalınmaz tədbirlərin dəqiqləşdirilməsi cədvəli Azərbaycan və Ermənistana göndərildi. Cədvələ görə, silahlı qüvvələr martın 27-nə olan vəziyyətə gətirilməli, 60 günlük atəşkəs elan olunmalı, müşahidəçilər Kəlbəcərdən erməni qoşunlarının çıxarılmasını təsdiq etməli və Minsk qrupunun məsləhətləşmələri davam etdirilməli idi. Azərbaycan həmin təkliflərlə razılaşsa da, Ermənistan ondan imtina etdi.

Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin yerinə yetirilməsindən ötrü səylərini artırdı. BMT yanında Azərbaycanın daimi nümayəndəsi Minsk qrupunun üzvü olan ölkələrin BMT yanındakı daimi nümayəndələri ilə bir sıra ikitərəfli görüşlər keçirərək Ermənistanın beynəlxalq hüquq normalarını pozması, işğalçılıq hərəkətləri barədə məlumat verdi, Azərbaycandakı qaçqın və məcburi köçkünlər üçün BMT-nin humanitar yardımlarının ayrılmasına səylər etdi.

Rusiya, ABŞ və Türkiyə nümayəndələri mayın 14-15-də Moskvada görüşərək hazırladıqları təklifləri müzakirə etdilər. Görüşdə təxirəsalınmaz tədbirlər cədvəlində bəzi məsələlər aydınlaşdırıldı. Onlar münaqişə tərəflərini BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinə riayət etməyə çağırdılar.

Ermənistan isə başqa bir addım atdı. Prezident Levon Ter Petrosyan mayın 26-da bəyanat verərək “Dağlıq Qarabağ əhalisi”nin təhlükəsizliyi və hüquqları üçün təminat istədi, “Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həll etməyə yönələn siyasətindən imtina etdiyinə tam əmin olmadığını” bildirdi. Belə yanaşma Ermənistanın təcavüzkalıq və işğalçılıq siyasətindən diqqəti yayındırmaq, qurduğu separatçı rejimi tərəf kimi tanıtmaq niyyəti güdürdü.

Buna baxmayaraq, ATƏM təmsilçiləri iyunun 3-4-də Romada görüşüb münaqişənin tənzimlənməsi üçün təcili bir sənəd hazırlayaraq tərəflərə göndərdilər. Həmin sənədə görə, Ermənistan silahlı qüvvələri iyunun 15-dən etibarən Kəlbəcəri boşaltmağa başlamalı və iyunun 20-də bunu başa çatdırmalı, bölgəyə 50 nəfər ATƏM müşahidəçisi gəlməli və avqustun 7-dən gec olmayaraq Minsk konfransı işinə başlamalı idi. Azərbaycan tərəfi həmin planı qəbul etdi. Ermənistan isə bir ay vaxt istədi. Bu müddət ərzində regionda mürəkkəb proseslər cərəyan etməyə başladı.

303 U.S. Hopes for Acceptance of Nagorno Karabakh plan. State Depatment Report. 3 May 1993 // United States Information Service. 1993.

### *5.8. Ölkə parçalanmaq və vətəndaş müharibəsi astanasında*

Ermənistanın hərbi təcavüzünün gedişində Azərbaycan ərazilərinin işğal edilməsi, hərbi-siyasi uğursuzluqlar ölkənin daxili ictimai-siyasi, iqtisadi həyatına, xalqın psixologiyasına ağır təsir edirdi. Səmərəsiz xarici siyasət Azərbaycanı təcrid edilmiş vəziyyətə salmışdı. Ermənistanın təbliğatının aparılması Azərbaycan tərəfindən adekvat addımlarla müşayiət olunmurdu. Ölkə həmin təbliğatın qarşısında aciz siyasət aparır və beynəlxalq aləmdə sözünü deyə bilmirdi.

Belə bir vəziyyətdə, 1993-cü il aprelin 28-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Pənah Hüseynov[304] Baş nazir vəzifəsinə təsdiq edildi.[305] Bu təyinata qədər o, 1992-ci il 20 may tarixindən etibarən Azərbaycan Respublikasının dövlət katibi işləmişdi.

Yaranmış çətin şərait, sosial-iqtisadi, siyasi, hərbi və digər çoxlu problemlər Azərbaycanı məngənədə sıxır, böhran dərinləşir, iqtisadiyyat dağılırdı. Belə ki, 1993-cü ildə ölkədə ümumi daxili məhsulun həcmi 1988-ci il səviyyəsinin yalnız 60%-ni təşkil edirdi. Büdcə kəsiri 23,8 milyon manat və ya ümumi daxili məhsulun 14,4%-i qədər idi. 1990-cı illə müqayisədə 1993-cü ildə sənaye məhsulu istehsalı 63%, kənd təsərrüfatı istehsalı 47%, 1800%-ə çatan inflyasiya nəticəsində əhalinin həyat səviyyəsi 3,6 dəfə aşağı düşmüşdü.[306]

Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi, hərbi-siyasi uğursuzluqlar və hakimiyyətin ölkəni idarə edə bilməməsi, xaos, anarxiya, çətin ictimai-siyasi, iqtisadi həyat, insanların mənəvi-psixoloji vəziyyətini daha da ağırlaşdırırdı. Yaranmış mürəkkəb şərait, sosial-iqtisadi, siyasi, hərbi və b. problemlər Azərbaycanı məngənədə sıxır, böhran dərinləşirdi.

Ölkə idarəolunmaz həddə gəlib çatmışdı. Hakimiyyətdaxili ziddiyyətlər və ayrı-ayrı qrupların hakimiyyət uğrunda mübarizəsi kəskinləşmişdi. Hakimiyyətin qanadları arasında qarşıdurma yaranmışdı. Xalq və hakimiyyət arasında uçurum dərinləşmiş, hakimiyyətə olan inam sarsılmışdı. Ölkədə anarxiya tüğyan edirdi. Cinayətkar elementlər fəallaşmışdılar. Vətəndaşların təhlükəsizliyi təhdid altına düşmüşdü. Xarici dövlətlərin dəstəyi ilə şimalda və cənubda baş qaldıran separatçılıq ölkəni parçalayır və dövlət dağılırdı. Ümumi böhran yaranmışdı.

Ölkəni xarici təcavüzdən qorumalı olan ordu daxili siyasi çəkişmələrin girovuna çevrilmişdi. Orduda ruh düşkünlüyü hökm sürürdü. Hərbi və mülki haki-

304 Pənah Hüseynov (1957) – Baş nazir (1993, aprel-iyun).
305 Qasımlı M., Hüseynov C. Azərbaycanın baş nazirləri, s. 119-120.
306 Novruzov V. Yeni Azərbaycan quruculuğunun etibarlı sabahına təminat // "İqtisadiyyat və audit" jurnalı, Bakı, 2003, №9, s. 8.

miyyət arasında ziddiyyətlər dərinləşmişdi. Bəzi siyasi qüvvələr özlərinin silahlı dəstələrini yaratmışdılar.

Kəlbəcərin işğal edilməsi xalqın qəzəbini coşdurmuşdu. Belə şəraitdə mülki və hərbi hakimiyyət arasında yaranmış qarşıdurma Gəncə hadisələrinə gətirib çıxardı.

Hələ 1993-cü ilin əvvəllərində bir qrup zabit Gəncədə müşavirə keçirərək qanunazidd, qondarma "Hərbi birlik" yaratmışdı. Bu birlik Azərbaycandakı mövcud dövlət hakimiyyətini tanımırdı.

Hakimiyyət hərbi hissədə yaranmış qanunsuzluğa son qoymaq qərarına gəldi. Bundan ötrü xarici düşmənə qarşı vətəni müdafiə etməli olan ordudan yanlış məqsədlər üçün istifadə etdi. Dövlətə tabe olmaq tələbləri yerinə yetirilmədiyindən iyunun 4-də Gəncədə yerləşən 130 nömrəli hərbi hissəsinin ərazisindən istifadə etməklə polkovnik Surət Hüseynovun[307] komandiri olduğu 709 nömrəli hərbi hissəyə hücum edilsə də, əməliyyat uğursuz oldu. Hücum zamanı qardaş qanı töküldü. Hücum edənlərdən əsir alındı. Qiyamçı polkovnik Surət Hüseynov Gəncəyə gedən respublikanın baş prokurorunu, bəzi dövlət və hökumət nümayəndələrini girov götürdü.

Belə bir şəraitdə qanunlar işləmir, əlində silah olan bacardığını edirdi. Azərbaycan xalqı vətəndaş müharibəsi, ölkə parçalanmaq astanasında idi. Vəziyyətdən çıxış yolu tapa bilməyən hakimiyyət rəzil vəziyyətə düşmüşdü.

***

Fəsildə tədqiq edilən məsələlər göstərir ki, təcavüzkar Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhəri işğal edildikdən sonra A.Mütəllibovun hakimiyyətə qayıtmaq cəhdi ölkədə ağır olan şəraiti daha da pisləşdirmişdir. Buna etiraz edən Azərbaycan Xalq Cəbhəsi dövlət və hökumət binalarını tutaraq silahlı çevriliş etmişdir. A.Mütəllibov Moskvaya qaçmağa məcbur olmuşdur. Parlament sədri istefa vermişdir. Parlamentdə sədrin seçilməsi məsələsi müzakirə edilərkən bəzi deputatlar tərəfindən görkəmli dövlət və siyasi xadim, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin namizədliyi barədə fikirlər səsləndirilsə də, nəzərə alınmamışdır. Beləliklə, AXC-nin namizədi parlament sədri seçilmişdir.

307 Surət Hüseynov (1959) – Yevlax Yunun ilkin emalı fabrikinin direktoru (1989-1992). XII çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı (1990-1994). Korpus komandiri. Baş nazirin müavini (1992, iyul-1993, fevral). Azərbaycan Respublikası Prezidentinin Qarabağ üzrə fövqəladə səlahiyyətli nümayəndəsi. Azəryunsənaye Dövlət Şirkətinin prezidenti (1993, mart). Azərbaycan Respublikasının 4-cü baş naziri (1993, iyun - 1994, oktyabr). Cinayət məsuliyyətinə cəlb edilərək həbs olunmuşdur. Prezident İlham Əliyevin 2004-cü il 17 mart tarixli əfv fərmanı ilə həbsdən azad edilmişdir. Bundan sonra siyasətlə məşğul olmamışdır.

Azərbaycanda yaranmış mürəkkəb şəraitdən istifadə edən təcavüzkar Ermənistan Laçın rayonunu işğal etmişdir. Rayon sakinləri məcburi köçkünə çevrilmiş, tarix və mədəniyyət abidələri dağıdılmışdır. Bununla da Dağlıq Qarabağ regionu ilə Ermənistan arasında quru əlaqəsi yaradılmışdır.

Mürəkkəb şəraitdə keçirilən prezident seçkilərində AXC nümayəndəsi Əbülfəz Elçibəy Prezident seçilmişdir. O, Azərbaycan Respublikasının sayca ikinci prezidenti olmuşdur. Azərbaycanda hakimiyyətə gələn qüvvələr şəraiti yaxşılaşdıra bilməmişlər. Ölkədə qaçqın və məcburi köçkünlərin problemlərinin həll edilməməsi, Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınması vəziyyəti daha da ağırlaşdırmışdır.

Bir qrup Azərbaycan ziyalısı ölkəni düşmüş olduğu ağır şəraitdən çıxarmağın yolunu Naxçıvanda yaşayan Heydər Əliyev şəxsiyyətində görmüşdür. 91 nəfər Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını və ona sədr seçilməsini xahiş etmişdir. Müraciətə müsbət cavab verən Heydər Əliyevin sədrliyi ilə zərurətdən yaradılmış YAP yeni siyasi qüvvə olaraq meydana çıxmışdır.

Ermənistanın hərbi təcavüzünü dayandırmaq və daxildəki problemləri həll etmək üçün Azərbaycan hakimiyyətinin qəbul etdiyi qərarlar səmərəsiz olmuşdur. Cəbhədə uğursuzluqlar başlamışdır. Ölkədə vəziyyət getdikcə daha da ağırlaşmışdır. Bundan istifadə edən təcavüzkar Ermənistan Azərbaycana qarşı hücumlarını genişləndirərək Kəlbəcər rayonunu işğal etmişdir. Rayon əhalisi məcburi köçkünə çevrilmiş, tarix və mədəniyyət abidələri yerlə-yeksan edilmişdir. Azərbaycan dövlətinin müraciətləri əsasında BMT Təhlükəsizlik Şurasının sədri bəyanatlar vermişdir. BMT Təhlükəsizlik Şurası işğalçı qüvvələrin Kəlbəcərdən dərhal çıxarılmasını nəzərdə tutan 822 saylı qətnaməsini qəbul etmişdir. Lakin Ermənistan qətnaməni yerinə yetirmək üçün möhlət istəmişdir. Bu zaman Azərbaycanda hərbi və mülki hakimiyyət arasında mövcud olan ixtilaflar daha da dərinləşmişdir. Gəncə şəhərində hərbi hissədə qiyam baş vermişdir. Azərbaycan Respublikası dövləti dağılmaq, ölkə parçalanmaq, xalq isə vətəndaş müharibəsi təhlükəsi qarşısında dayanmışdır.

# 6-cı FƏSİL

## ÖLKƏNİN PARÇALANMAQ TƏHLÜKƏSİNDƏN QURTARILMASI

### *6.1. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi*

Ermənistanın hərbi təcavüzünə məruz qalan Azərbaycanda bərbad idarəçilik ucbatından hakimiyyətin qanadları arasında ziddiyyətlər və hakimiyyətlə xalq arasında dərin uçurum yaranmışdı. Bununla yanaşı, ölkənin şimalı və cənubunda xaricdən dəstəklənən separatçılıq və parçalanma meyillərinin baş qaldırması Azərbaycanın müstəqil bir dövlət kimi varlığına son qoyulması planını tam gücü ilə işə salmışdı. İki il müstəqil olmasına baxmayaraq, ölkə siyasi sarsıntılardan hələ də xilas ola bilməmiş, dərin sosial-iqtisadi və xalqın mənəvi-psixoloji böhranı yaranmışdı. Bütün bunlar hamısı birlikdə ümumi böhrana gətirmişdi.

Mülki və hərbi hakimiyyət arasında ziddiyyətlər getdikcə dərinləşirdi. Polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin dövlət hakimiyyətinə tabe olmaması ölkəni tamamilə xaosa sürükləmişdi. Qeyd edildiyi kimi, vəziyyəti nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar müsbət nəticə verməmişdi. Gəncəyə gedən dövlət nümayəndələri girov götürülmüşdü. Qiyamçı hərbi hissənin rəhbərliyi əvvəlcə Baş nazirin və Milli Məclis sədrinin, sonra isə Prezidentin istefasını tələb edirdi. Vəziyyət nəzarətdən çıxır, ətraf rayonların icra başçıları zorla dəyişdirilir və qiyamçılar Bakıya doğru hərəkət edirdilər.

Ölkə parçalanmaq və dövlət dağılmaq astanasında olduğu bir şəraitdə Azərbaycan xalqı vəziyyətdən çıxmaqdan ötrü xilaskar axtarırdı. Belə bir şəxs yalnız Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev idi. Azərbaycan xalqının gözləri Naxçıvana dikilmişdi. Xalq Heydər Əliyevə inanır və ona ümid yeri kimi baxırdı. Bu da səbəbsiz deyildi. Çünki xalq hələ 70-ci illərdə Azərbaycana rəhbərlik etdiyi zaman Heydər Əliyevin bacarığını görmüş, mövcud şəraitdə isə Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvan üçün həyata keçirdiyi tədbirləri bilirdi.

Bakıda belə təlatümlü proseslərin baş verdiyi bir zamanda Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olaraq nəinki muxtar respublika, ümumilikdə Azərbaycan xalqının və dövlətinin taleyi üçün müdrik qərarlar qəbul etmişdi. Hələ 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi İran və Türkiyə ilə sərhəddə tikanlı məftillərin söküldüyü günü – 31 dekabrı Dünya azərbaycanlılarının həmrəylik və birlik günü elan etmişdi. Bir müddətdən sonra isə bu bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikasının Ali Sovetində də qərar qəbul olunmuşdu. 1991-ci il yanvarın 13-də Ali Məclis Heydər Əliyevin işləyib hazırladığı 1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında bəyanat qəbul etmişdi. Heydər Əliyevin Naxçıvanda yerləşən sovet ordusunun hərbi hissə rəhbərliyi və Rusiya dövləti ilə apardığı danışıqlar nəticəsində 75-ci motoatıcı diviziya və 441-ci sərhəd dəstəsi öz əmlaklarını Azərbaycan Respublikasının silahlı qüvvələrinə təhvil verərək Naxçıvan ərazisini tərk etmişdi. Heydər Əliyev Ermənistan tərəfindən blokadada saxlanılan Naxçıvanın vəziyyətini yüngülləşdirmək üçün Türkiyə və İranla əlaqələr yaratmışdı. 1992-ci il martın 24-də Ankarada "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasıda əməkdaşlıq protokolu" imzalanmışdı. 13 maddəlik bu protokolda muxtar respublikaya maliyyə, iqtisadi, texniki yardım göstərilməsi regionun zəruri ehtiyaclarını ödəmək üçün 100 milyon ABŞ dolları həcmində kreditin verilməsi nəzərdə tutulurdu.[308]

İran İslam Respublikası rəhbərliyinin dəvəti ilə Heydər Əliyev 1992-ci il avqust ayının 22-də bu ölkəyə səfər etmişdi. Böyük ehtiram əlaməti olaraq Prezident Əkbər Haşimi Rəfsəncani şəxsi "Boinq-727" təyyarəsini onun üçün Naxçıvana göndərmişdi. Tehranda aparılan danışıqlar nəticəsində əhalinin qarşılıqlı gediş-gəliş məsələləri həll edilmiş və müştərək bazar açılmışdı. Avqustun 24-də "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında" protokol imzalanmışdı. Tehran protokolunda Culfa keçid məntəqəsinin təkmilləşdirilməsi ilə yanaşı, iki ölkə arasında Şahtaxtı-Poldəşt körpüsünün tikintisi ilə bağlı razılaşma da əldə olunmuşdu. Körpü 1992-ci il dekabr ayının 3-də istifadəyə verilmişdi.[309]

Ermənistan tərəfindən blokadada saxlanılan Muxtar Respublika üçün həyati əhəmiyyət kəsb edən və xalq arasında "Ümid körpüsü" adlandırılan Sədərək kör-

308 Kəlbizadə E. XX əsrin son onilliyində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələrin inkişafı tarixindən // "Tarix və onun problemləri" jurnalı, Bakı, 2012, xüsusi buraxılış, s. 332.

309 Kəlbizadə E.H. Baxşıyeva Y.U., Əzimov Ə.D. Ermənistan İran İslam Respublikasının Qafqaz siyasətində, s. 273-274.

püsü qısa müddətdə tikilib istifadəyə verilmişdi. Bu körpü Türkiyə ilə əlaqələrdə və bölgənin blokadadan çıxarılmasında mühüm rol oynamışdı.

1993-cü il fevralın 5-də Naxçıvanda Türkiyə Cümhuriyyətinin, martın 8-də isə İran İslam Respublikasının konsulluqları fəaliyyətə başlamışdı. Heydər Əliyev ABŞ, Türkiyə, İngiltərə və Fransa səfirləri ilə keçirdiyi görüşlərdə dünya dövlətlərinin diqqətini Azərbaycandakı vəziyyətə cəlb edə bilmişdi.[310] Türkiyə, ABŞ və bəzi digər ölkələr Naxçıvana yardımlar göndərmişdi.

Bütün bunlara görə, xalq yalnız Heydər Əliyevə nicat gözü ilə baxır, özünü gözdən salmış siyasi partiyalara etibar etmirdi. Heydər Əliyev həm Yeni Azərbaycan Partiyasının sədri, həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi vəzifəsinə görə Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini idi.

Yaranmış mürəkkəb və ağır vəziyyətdən çıxış yolu tapa bilməyən və çarəsiz qalan Azərbaycan hakimiyyəti xalqın tələbi ilə Heydər Əliyevi Bakıya dəvət etdi. Milli Məclisin iyunun 13-də keçirilən iclasının gündəliyinə Ali Sovetin sədri İsa Qəmbərin istefası və Ali Sovetin sədrinin seçilməsi məsələsi daxil edilmişdi. Hakimiyyətin dəvəti ilə Heydər Əliyevin də iştirak etdiyi iclasda Gəncədə baş verən hadisələr müzakirə edildi. İsa Qəmbər parlamentin sədri vəzifəsindən azad edildi.

Parlamentə yeni sədr seçmək lazım idi. Bəzi deputatlar ölkənin böhranda olduğunu vurğulayır və Heydər Əliyevi nəzərdə tutaraq belə bir şəxsiyyətin olduğunu deyirdilər. Yaranmış ağır şəraitdən çıxış yolu barəsində danışan deputat Yaşar Əliyev[311] dedi:

*"Bu gün müstəqil dövlətin ali qanunverici orqanının sədri seçilməlidir. Burada üstüörtülü deyirlər, nəzərdə tutulan, bu böhrandan çıxmaq yolunu bilən şəxsiyyət deyilir, amma ad çəkilmir".*[312]

İclasda iştirak edən Prezident Əbülfəz Elçibəy çıxışında ölkədə yaranmış şəraitin ağır olduğunu və hakimiyyətin bu vəziyyətdən çıxmaq üçün gücsüz olduğunu açıq şəkildə etiraf etdi.

Heydər Əliyev nitqində ölkədə yaranmış şəraiti təhlil edərək bildirdi:

*"...ümumən bütün Azərbaycan Respublikasında böyük gərginlik yaranmış, mürəkkəb vəziyyət mövcuddur. Bu hadisələrlə əlaqədar mən vicdanımın tələbi ilə, Azərbaycan Respublikasının əhalisinin cürbəcür təbəqələrindən olan adamların xahişi ilə, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin xahişi ilə*

310 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 125.

311 Yaşar Əliyev (1948) — Azərbaycan Respublikası Milli Məclisinin I və II çağırış deputatı, Milli Məclisin sədr müavini (1995-2002). Azərbaycan Respublikasının Çin Xalq Respublikasında (2002-2011), Vyetnam, Cənubi Koreya, Şimali Koreya və Monqolustanda (2004-2011) fövqəladə və səlahiyyətli səfiri.

312 Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə iclası. 13.06.1993. Stenoqram // ARMMA, f.2941, siy.1, iş 204, v. 14.

*Bakıya gəlmişəm və bu mürəkkəb vəziyyətdən, ağır vəziyyətdən çıxış yollarının axtarılması, milli barışıq, milli həmrəylik təmin olunması prosesinə qatılmışam... Qan tökülüb, cinayət yapılıb, böyük faciə baş verib, ancaq bunun dərinləşməsinə heç vəchlə yol vermək olmaz və Azərbaycanın bütün vətənpərvər insanlarının hamısı birləşib bu ağır vəziyyətdən uğurla çıxmaq üçün çalışmalıdır və çıxış yolu da ancaq danışıqlar vasitəsilə, qarşılıqlı anlaşma vasitəsilə, sülh və barışıq vasitəsi ilə ola bilər... Güc işlənilməməlidir, bir daha silah işə salınmamalıdır... Mənim bu günlərdə Azərbaycan Prezidenti Əbülfəz Elçibəylə görüşümüz olubdur, söhbətlərimiz olubdur, ancaq bu barədə fəaliyyətimin şəxsən nə qədər səmərəli ola biləcəyini müəyyən etmək üçün Gəncə şəhərinə getmək qərarına gəlmişəm. Ona görə də məni bu gün bura, Milli Məclisə dəvət edərkən mən Əbülfəz Elçibəydən xahiş etdim ki, mən Gəncə şəhərinə gedib vəziyyətlə tanış olandan sonra gəlib təkliflərimi verə bilərəm. Bundan artıq bir şey deyə bilmərəm... bir saatdan sonra mən Gəncəyə yola düşürəm və xahiş edirəm ki, burada iştirak edən müxbirlər, yaxud da ki, başqa müxbirlər, televiziya, qəzet işçiləri mənimlə getmək arzusunda olsalar, bir saatdan sonra Ali Sovetin binasının ətrafına toplaşsınlar, mən buradan yola düşəcəyəm".*[313]

Parlamentin sədrinin seçilməsi məsələsini təxirə salmağı xahiş edən Heydər Əliyev ilk növbədə Gəncəyə getmək istədiyini bildirdi. İndiyə qədər Gəncəyə getməkdən qorxan deputatların bir neçəsi Heydər Əliyevə qoşulmaq istədikdə o, dedi:

*"Mən bir halda ki, dediyim kimi, bura dəvət olunmuşam və bu prosesdə iştirak edirəm, mən özüm tək gedib bu işlərlə məşğul olmaq istəyirəm. Deputat qrupu göndərmək istəyirdiniz, əvvəl göndərəydiniz, ya bundan sonra göndərin, xahiş edirəm, bu işlərə qarışmayın. Və mənim ora getməyim heç də Ali Sovetin sədri seçilməyimlə əlaqədar deyil. Xahiş edirəm, məsələləri təhrif etməyin".*[314]

Milli Məclisin iclası yarımçıq saxlanıldı və Heydər Əliyev ona qoşulan jurnalistlərlə birlikdə helikopterlə Gəncəyə getdi. Gəncə şəhərində Heydər Əliyev vəziyyətlə yaxından tanış oldu və sakinlərlə görüşdü. Hücum zamanı Gəncə şəhərindəki hərbi hissə dağıdılmış, insanlar həlak olmuş və yaralanmış, hava limanına böyük ziyan dəymişdi. Qəzəbinin həddi-hüdudu olmayan sakinlər iqtidarın hakimiyyətdən getməsini tələb edirdilər. Qiyamçı polkovnik Surət Hüseynov isə öz hissələrini Bakıya doğru göndərmişdi. Ölkə paytaxtı da qanlı hadisələrin ərəfəsində idi. Silahlıların Bakıya daxil olması çoxlu qanların axıdılması ilə nəticələnə bilərdi. Gəncədəki şəraitlə tanış olduqdan sonra Heydər Əliyev Bakıya qayıtdı.

313 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 125-126.
314 Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə iclası. 13.06.1993. Stenoqram // ARMMA, f.2941, siy.1, iş 204, v. 20.

Milli Məclisin iyunun 15-də keçirilən iclasında respublikada yaranmış vəziyyət müzakirə edildi. Azərbaycan Xalq Cəbhəsi və Müsavat Partiyasından olan deputatlar yenidən qarışıqlıq yaradaraq prosesləri uzatmaq və diqqəti başqa məsələlərə yönəltməyə çalışdılar.[315] Bu hərəkətlərə qarşı çıxan deputat Arif Rəhimzadə dedi:

*"... Heydər Əliyev Gəncədə olub, onun məsləhətini biləydik, ondan sonra bu məsələnin müzakirəsinə keçəydik".*[316]

Deputat Yaşar Əliyev isə birmənalı şəkildə bildirdi:

*"...bu günkü bizim Milli Məclis keçən dəfə yarımçıq qalan Milli Məclisin ardıdır. Yarımçıq qaldı, ona görə ki, burada oturan Heydər bəyin Gəncə səfəri ilə əlaqədar oldu. Biz ardıcıl oluruqsa, söz verək ona, onun səfəri barədə məlumatı eşidək, ondan sonra işimiz barədə fikirləşək, necə qurtaracağıq işimizi".*[317]

Bəzi deputatlar müzakirələri yenidən başqa istiqamətə yönəltmək istədilər. Gəncəyə səfəri barədə məlumat verən Heydər Əliyev dedi:

*"Əgər siz Ali Sovetin sədri vəzifəsini, sədri məsələsini həll etmək istəyirsinizsə, mən bu işdə iştirak edərəm. Əgər istəmirsinizsə, başqa məsələləri edirsinizsə, mən bu işdə iştirak etmirəm. Mən hər şeyi aydın deyirəm və məsələləri qarışdırmaq lazım deyil burada".*[318]

İclasa sədrlik edən Tamerlan Qarayev Heydər Əliyevin parlamentin rəhbəri vəzifəsinə seçilməsinə mane olmaq üçün müzakirələri başqa istiqamətə yönəltməyə başladı. Deputatların bəzilərinin istəklərinə cavab olaraq Heydər Əliyev vəziyyətdən çıxış yollarına dair fikirlərini belə ifadə etdi:

*"Siz hamınız burada oturmusunuz, Gəncədən xəbəriniz yoxdur, heç biriniz ora getməmisiniz, burada oturub yenə də məsələ müzakirə etmək istəyirsiniz. Və istəyirsiniz ki, mən gedib bir gün orada qalmışam, gəlmişəm burada sizə, bütün dünyaya elan edim ki, bunun çıxış yolları nədir. Mən keçən dəfə də dedim, mən Naxçıvandan bura mənim vicdanımın tələbi ilə gəlmişəm, Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin xahişi ilə gəlmişəm və gələn gündən də gecə-gündüz bu işlə məşğulam. Əgər Milli Məclis üzvləri, Ali Sovetin deputatları, başqa şəxslər mənim bu işdə iştirak edib bu işdə kömək etməyimi etibar edirlərsə, mən bunu edirəm, eləmirlərsə, mən eləməyəcəyəm bunu, ona görə də mən indi sizin qarşınızda hansı yolları deyə bilərəm, bu yollar çoxdur. Vəziyyət həddindən artıq mürəkkəbdir. Surətin qoşunları gəlib Nəvaidə durubdur... Tədbirləri... müəyyən səlahiyyətli adamlar görməlidir, ona görə də mən yenə də təəccüb edirəm sizin məsələni bu istiqamətə*

315 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 clilddə. II cild, s.127.
316 Yenə orada.
317 Azərbaycan Respublikası Milli Məclisinin iclası. 15.06.1993. Stenoqram // ARMMA, f.2941, siy.1, iş 205, v. 5-6.
318 Yenə orada, v. 11.

*çevirməyinizə. Siz yəqin ki, vəziyyətdən çıxış yolu axtarmırsınız, başqa işlərlə məşğul olmaq istəyirsiniz".*[319]

Sədrlik edən məsələləri yenidən fərqli istiqamətə yönəltmək istədikdə Ali Sovetin sədr müavini Afiyəddin Cəlilov dedi:

*"...respublikada idarəetmə iflic vəziyyətindədir və bunu da ehtiyac yoxdur demək ki, Ali Sovetin sədri yoxdur, respublikanın Baş naziri yoxdur, belə bir ağır şəraitdə də müzakirələr respublikanı ağır şəraitdən çıxarmayacaqdır".*[320]

Deputat Yaşar Əliyev qətiyyətlə dedi:

*"...mən istəmirəm ki, Milli Məclisin üzvləri fikirləşsin ki, Heydər bəyin namizədliyi nəzərdə tutulub. Mən rəsmi onun namizədliyini Ali Sovetin sədri kimi təklif eləyirəm. İkincisi, qanunda ziddiyyət varsa, mən xahiş eləyirəm, Milli Məclisin sayı 51 nəfər olsun, bu qanun keçməsə, mən xahiş eləyirəm, mənim səlahiyyətlərimə xitam verilsin".*[321]

Azərbaycanın xilası naminə özünün deputat mandatından imtina etməyə hazır olan Yaşar Əliyevin bu cəsarətli təklifi səsə qoyuldu. Milli Məclis üzvlərinin sayının 50 deyil, 51 nəfərdən ibarət olmasına dair qərar qəbul edildi.[322] Buna müvafiq olaraq Milli Məclis haqqında konstitusiya qanununda da dəyişiklik edildi.

Heydər Əliyev bir daha çıxış edərək aşağıdakı həlli vacib olan məsələlərə diqqəti yönəltdi:

*"Məni bura dəvət eləyiblər, mənə dəfələrlə İsa Qəmbər, Pənah Hüseynov və Azərbaycan Prezidenti Əbülfəz Elçibəy xahiş eləyiblər ki, gəlim burada vəzifə tutum... Mən bu vəzifələrdən imtina etmişəm. Bu gün də imtina edirəm... 10 gündür ki, Azərbaycan bərbad vəziyyətdədir. Barmaq-barmağa vurmayıblar... Mən heç bir vəzifə tutmaq iddiasında deyiləm... Fəqət, bu ağır vəziyyətdə bundan çıxmaq üçün mənə vətəndaş kimi, Ali Sovetin deputatı kimi, Ali Sovetin sədrinin müavini kimi, əgər lazım olsa Ali Sovetin sədri seçsəniz, etimad göstərsəniz, baxmayaraq ki, mən bunu istəmirəm, mən bunu dəfələrlə deyirəm. Mən bu yolla gedirəm, ancaq xalqın ağır vəziyyətdən çıxmasında müəyyən fəaliyyət göstərmək üçün, başqa məqsədim yoxdur... mən heç bir qarantiya vermirəm, ancaq hesab edirəm ki, Azərbaycan xalqı müdrik xalqdır. Millətimizin böyük potensialı var, hamını birləşdirib bu vəziyyətdən çıxarmaq olar".*[323]

319 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.127-128.
320 Yenə orada, s. 128.
321 Yenə orada.
322 Azərbaycan Respublikası Ali Soveti. 15.06.1993. Səsvermənin nəticələri // ARMMA, f.2941, siy.1, iş 153, v. 98.
323 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.129.

Etiraz olaraq salonu tərk edən Tamerlan Qarayevin əvəzində iclası Afiyəddin Cəlilov aparmağa başladı. Heydər Əliyevin namizədliyi səsə qoyuldu və o, Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.

Vəziyyətdən çıxış yolları barədə fikirlərini bildirən Heydər Əliyev Azərbaycan xalqının həm tarixi, həm də müasir potensialı olduğunu deyərək vurğuladı:

*"Azərbaycan həm tam müstəqil, demokratik bir dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaqdır".*[324]

Daha sonra əlavə etdi:

*"Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geri qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır".*[325]

Heydər Əliyevin parlamentin sədri seçilməsi ilə Azərbaycanın müstəqillik tarixində yeni bir səhifə başladı. Qarşıda dayanan vəzifələr barədə o, dedi:

*"Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni öz üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək".*[326]

Heydər Əliyevin ali qanunvericilik orqanına sədr seçilməsi ölkənin həyatında böyük tarixi hadisə oldu. Sabaha ümidi yaranan və rahat nəfəs alan Azərbaycan xalqı üçün 15 iyun qurtuluş, onun özü üçün isə çətin xilaskarlıq missiyasının başlanması günü idi.

---

324 Əliyev H.Ə. Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış. 15.06.1993 // Müstəqilliyimiz əbədidir. I kitab, s.10-11.
325 Yenə orada, s.15.
326 Yenə orada, s. 9.

Ölkədə ağır və mürəkkəb şəraitin hökm sürdüyü bir zamanda parlamentin sədri seçilən Heydər Əliyevin qarşısında dövlətçilik təfəkkürü olan insanları və xalqı birləşdirib Azərbaycanı parçalanmaqdan, dövləti dağılmaqdan, xalqı vətəndaş müharibəsindən qurtarmaq və Ermənistanın hərbi təcavüzünü dayandırmaq kimi ən təxirəsalınmaz məsələlər dayanırdı. O, xilaskarlıq missiyasını yerinə yetirməli idi.

### *6.2. Ə. Elçibəyin Bakını tərk etməsi və ölkədə şərait*

Bu zaman dünya ölkələrinin dövlətçilik tarixində nadir rast gəlinən qəribə bir hadisə baş verdi. Azərbaycan Respublikası konstitusiyasına görə, ali icra hakimiyyətini həyata keçirən, Silahlı Qüvvələrin Ali Baş Komandanı olan, vətəndaşların hüquq və azadlıqlarının, konstitusiyaya və qanunlara riayət olunmasının təminatçısı kimi çıxış edən, Azərbaycan Respublikasının suverenliyinin qorunmasına, müdafiəsinə, dövlət təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin edilməsinə dair tədbirlər görməli olan, dövlət idarəetmə orqanlarına rəhbərlik edən Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy dövlət orqanlarına xəbər vermədən iyunun 17-dən 18-nə keçən gecə Bakı şəhərindəki iş yerindən doğulduğu Naxçıvan Muxtar Respublikasının Kələki kəndinə getdi. Bu hərəkət ölkədə ağır olan vəziyyəti daha da ağırlaşdırdı. Dövlət orqanlarının ölkə başçısı ilə əlaqə qurması çətinləşdi. Ucqar və rabitənin zəif olduğu bir kənddə Prezident öz fəaliyyətini lazımi səviyyədə həyata keçirə bilmirdi. Dövlətçilik ənənələrinə sığmayan bu qəribə hərəkəti ilə Əbülfəz Elçibəy ölkədə yaranmış ağır, gərgin ictimai-siyasi və hərbi məsələlərin həll olunmasını həddindən artıq mürəkkəbləşdirdi.

Yaranmış vəziyyətlə əlaqədar olaraq Heydər Əliyev iyunun 18-də xalqa müraciət etdi. O, hamını təmkinli olmağa, milli birliyə və vətəndaş həmrəyliyinə çağırdı.

Mövcud şərait Heydər Əliyevin sədrliyi ilə Milli Məclisin iyunun 21-də keçirilən iclasında geniş müzakirə edildi. Heydər Əliyev ölkədə əsas gərginlik yaradan məsələnin Gəncə hadisələri və onun nəticələri ilə əlaqədar olduğunu bildirərək, Əbülfəz Elçibəylə danışdığını və gəlib öz işlərini davam etdirməsinin vacibliyini ona dediyini deputatların diqqətinə çatdırdı.[327]

Çıxış edən Afiyəddin Cəlilov dedi:

327 Azərbaycan Respublikası Ali Soveti Milli Məclisinin iclası. 21.06.1993. Stenoqram // ARMMA, f.2941, siy.1, iş 207, v. 1-59.

*"...Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin 1993-cü il iyun ayının 17-dən 18-nə keçən gecə təcili olaraq Bakı şəhərindən – öz iş yerindən Naxçıvan Muxtar Respublikasına, Kələki kəndinə getməsi konstitusiya və qanunlarda nəzərdə tutulmuş bir çox məsələlərin əməli həll edilməsinə maneçilik törədir, o gündən Kələki kəndində yaşayaraq Əbülfəz Elçibəy Azərbaycan Prezidenti kimi respublikanın dövlət orqanları ilə əlaqəni itirib və Prezident fəaliyyətini həyata keçirə bilmir".*[328]

Müzakirələrin nəticəsində qərara alındı ki, gəlib öz vəzifə səlahiyyətlərini həyata keçirmək üçün Əbülfəz Elçibəyə parlament adından müraciət edilsin. Milli Məclisin sədri Heydər Əliyevin imzası ilə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə müraciət edilməsi barədə qərar qəbul olundu. Qərarda yazılırdı ki, respublikanın bu dərin və dözülməz böhrandan çıxarılması üçün Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy respublikanın paytaxtı Bakı şəhərində, öz iş yerində olmalı və dövlət başçısı kimi öz konstitusiya səlahiyyətlərini icra edib tam şəkildə yerinə yetirməlidir.

Gəncə hadisələri və ondan sonra respublikada yaranmış gərgin vəziyyətlə əlaqədar olaraq xalq deputatı, Azərbaycanın Milli Qəhrəmanı Surət Hüseynova Milli Məclisin adından müraciət edildi. Müraciətdə yazılırdı ki, Gəncə hadisələri respublikada siyasi qarşıdurmanı son dərəcə gərginləşdirmiş, ciddi hakimiyyət böhranı yaranmış, nəticədə bir sıra bölgələrdə hakimiyyətsizlik yaranmış, bəzi hallarda dövlətin mənafeyinə xidmət etməyən qüvvələr fəallaşmış, əhalidə çaşqınlıq əmələ gəlmiş və Gəncədə tökülən qanın bütün Azərbaycanı bürümək təhlükəsi yaranmışdır. Qarışıqlıqdan istifadə edən düşmənin Ağdam, Füzuli, Ağdərə rayonlarına hücumlarının miqyasını genişləndirdiyinin və kəndləri yandırdığının qeyd edildiyi və şəxsi münasibətləri bir kənara qoyub vətənin müdafiəsi üçün səylərin göstərilməsinin zəruri olduğunun yazıldığı müraciətdə vurğulanırdı:

*"...Bu gün söhbət daha ciddi faciədən, torpaqlarımızın işğalından və Azərbaycanın taleyindən gedir. Biz öz aramızda mübahisələri həll etməyə sabah da imkan taparıq. Ancaq bu gün Qarabağda qırılan günahsız körpələri, cavanları və ağsaqqalları sabah yenidən həyata qaytara bilmərik... Biz bütün qüvvələrimizi vətənin müdafiəsinə yönəltməliyik. Bir daha bildiririk ki, Sizin də, bizim də ümumi taleyimiz bu gün Qarabağda həll olunur".*[329]

Müraciətlər ölkədə milli birliyə çağırış idi. Prezidentin Bakını tərk etməsi ağır olan vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Bu zaman AXC İdarə Heyətinin keçmiş üzvü, 1992-1993-cü illərdə müdafiə nazirinin müavini vəzifəsində işlə-

328 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.133.
329 Yenə orada, s.134.

miş Əlikram Hümbətov[330] Lənkəranda ölkənin cənub rayonlarında – Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarından ibarət heç bir təməli olmayan, üzdəniraq, qondarma "Talış-Muğan Respublikası"nın qurulduğunu elan etdi. Bütün qüvvələrin Qarabağın düşməndən müdafiəsinə yönəldilməli olduğu bir vaxtda xeyli sayda hərbi qüvvənin dövlət əleyhinə olan fəaliyyətə cəlb edilməsinin sadəcə bir adı var idi – Vətənə xəyanət! Eyni zamanda ölkənin şimalında "Sadval" terrorçu- separatçı təşkilatı fəallığını artırmışdı. Ona da bəzi xarici ölkələr dəstək verirdi.

Ermənistanın təcavüzünün genişləndirdiyi və yeni-yeni kəndləri işğal etdiyi bir zamanda Azərbaycan Xalq Cəbhəsinin üzvləri təxribatlar törədir, Heydər Əliyevin ölkəni parçalanmaqdan və dövləti dağılmaqdan xilas etmək istiqamətində həyata keçirdiyi tədbirlərinə mane olurdular. Bu isə çətin olan vəziyyəti daha da ağırlaşdırırdı.

Belə bir şəraitdə ölkədəki problemlərin həllinin bütün ağırlığı Heydər Əliyevin çiyinlərinə düşmüşdü. Onun sədrliyi ilə Milli Məclisin iyunun 24-də keçirilən iclasında respublikada yaranmış vəziyyət müzakirə edildi.[331] Heydər Əliyevin çıxışından sonra danışan deputat Etibar Məmmədov dedi:

*"...bu cür vəziyyət Əbülfəz Elçibəyin indiyə qədər apardığı siyasətin nəticəsidir və ayın 18-dən sonra Azərbaycanda yaranmış hakimiyyətsizliyin nəticəsidir... Azərbaycanda baş alıb gedən hakimiyyətsizlik çox ağır nəticələrə gətirib çıxara bilər və Azərbaycanın bir dövlət kimi mövcud olması üçün çox böyük təhlükə yaradar. Biz vəzifəsini icra etməkdən, məsuliyyətdən qaçan Prezidenti oturub gözləməməliyik ki, nə vaxt cavab verəcək və cavabından asılı olaraq biz hərəkət edəcəyik. Prezident vəzifələrini icra etməkdən imtina etməklə mənim fikrimcə, konstitusiyanı pozub, özü də kobud surətdə pozub və Milli Məclisin hüququ var ki, həmin pozuntuya görə qərarını çıxarsın və Azərbaycandakı hakimiyyət boşluğunu aradan qaldırsın".*[332]

Hakimiyyət boşluğunun aradan qaldırılması zəruri idi. Amma Milli Məclisin iyunun 21-də Əbülfəz Elçibəyə etdiyi müraciətə alınan cavab qəribə idi. Nə qədər təəccüblü olsa da o, Kələki kəndindən dövlət orqanlarına göstərişlər verdiyini, cəbhə ilə əlaqə saxladığını və Prezident vəzifəsini yaxşı yerinə yetirdiyini yazırdı.[333] Bu, Azərbaycan dövlətçiliyi tarixində utancverici, xoşagəlməz və gələcəkdə xatırlanması istənilməyəcək bir hadisə idi.

---

330 Əlikrəm Hümbətov (1948) – Azərbaycan Respublikası müdafiə nazirinin müavini (1992-1993). Azərbaycan Respublikasının ərazi bütövlüyü əleyhinə, milli maraqlarına zidd olan mövqeyinə və Ermənistan Respublikası ilə sıx əlaqələrinə görə Azərbaycan Respublikasının vətəndaşlığından çıxarılmışdır.

331 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 clddə. II cild, s.134.

332 Yenə orada, s. 135.

333 Yenə orada.

İclasda müdafiə, daxili işlər və milli təhlükəsizlik nazirlərinin vəzifələrini icra edən şəxslər çıxış edərək ölkədə yaranmış vəziyyətin ağır olduğunu, Kələki kəndi ilə əlaqə saxlamağın mümkün olmadığını və hakimiyyət boşluğunun aradan qaldırılmasının zəruriliyini bildirdilər. Daha sonra Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Qədirqulu oğlu Elçibəyin öz vəzifələrini daha icra edə bilməməsi və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevə keçməsi haqqında qərar qəbul edildi. Ölkədə yaranmış vəziyyətin dərindən təhlil edildiyi və Prezidentin vəzifəsindən özünü uzaqlaşdırdığının vurğulandığı qərarda yazılırdı:

*"...Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Kələki kəndində qalan Əbülfəz Elçibəy Azərbaycan dövlətinin başçısı kimi fəaliyyətini həlledici dərəcədə məhdudlaşdırmış, respublikanın dövlət idarəetmə orqanları ilə faktiki olaraq əlaqəsini itirmiş və ali icra hakimiyyəti funksiyalarının yerinə yetirilməsindən özünü kənarlaşdırmışdır. Bu səbəbdən o, Azərbaycan Respublikası Prezidenti vəzifələrini daha icra edə bilmir".*[334]

Beləliklə, 1992-ci ilin may ayında silahlı çevriliş yolu ilə hakimiyyəti ələ keçirərkən qarşısına qoyduğu vəzifələri yerinə yetirə bilməyən Azərbaycan Xalq Cəbhəsi – Müsavat iqtidarı hakimiyyətdən getdi. Lakin ölkədə şərait hələ də ağır olaraq qalırdı. Ən acınacaqlısı o idi ki, silahlı qüvvələr parçalanmışdı və belə bir şəraitdə təcavüzkar Ermənistan Azərbaycan ərazilərinin işğalını genişləndirirdi.

Heydər Əliyevin sədrliyi ilə iyunun 30-da keçirilən iclasda ölkədəki vəziyyət müzakirə edildi. Yaranmış şəraitdən danışan Heydər Əliyev dedi:

*"...Azərbaycan Prezidenti Əbülfəz Elçibəy özü vəziyyətin belə gərginləşməsinə səbəb olubdur və tək özü yox, onun ətrafında olan adamlar, ona ağılsız məsləhət verən adamlar onu bu yola salıblar... Heç kəs Əbülfəz Elçibəyi öz vəzifəsindən kənar etməyibdir, o, özünü Azərbaycan xalqından ayırıb, gedib kənddə oturubdur...".*[335]

İclasda Pənah Hüseynov Baş nazir vəzifəsindən azad edildi. Müvafiq fərmanı Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev imzaladı.

Surət Hüseynovun Baş nazir vəzifəsinə namizədliyinin təsdiq edilməsi haqqında Milli Məclis qərar qəbul etdi. Müvafiq fərman verildi.[336] O, müstəqil Azərbaycan Respublikasının sayca dördüncü baş naziri oldu və bu vəzifədə 1994-cü ilin oktyabr ayınadək işlədi. S.Hüseynovun baş nazir vəzifəsinə təyin

334 Azərbaycan Respublikası Prezidenti Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikası Prezidenti vəzifələrini daha icra edə bilməməsi və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevə keçməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 24.06.1993 //ARMMA, f.2941, siy.1, iş 152, v.116-120.

335 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.136.

336 Qasımlı M., Hüseynov C. Azərbaycanın baş nazirləri, s. 120-122.

edilməsi ölkədə yaranmış real şəraitdən və bütün qüvvələri birləşdirmək istəyindən irəli gəlirdi.

Yaranmış qarışıqlıqdan və hakimiyyət boşluğundan istifadə edən Ermənistan Azərbaycan ərazilərinin işğalını daha da genişləndirdi. Bununla əlaqədar olaraq iyulun 2-də verdiyi bəyanatında Heydər Əliyev ölkədə yaranmış şəraiti təhlil etdi, dövlət böhranının mövcud olduğunu vurğuladı, bu səbəbdən silahlı qüvvələrin parçalandığı və həmin məsələlərə dövlət orqanları tərəfindən lazımi nəzarətin olmadığı bir şəraitdə Ermənistanın fürsətdən istifadə edərək Azərbaycan ərazilərinə yeni hücumlar etdiyini dedi. Bəyanatda Ağdam, Ağdərə, Füzuli və Cəbrayıl istiqamətlərində düşmənin hücumlar etdiyi, bir neçə yaşayış məntəqəsini ələ keçirdiyi, münaqişəyə sülh yolu ilə son qoymaq üçün edilən təşəbbüslərin nəticə vermədiyi qeyd edilir, dünya dövlətlərinin rəhbərlərinə, BMT, ATƏM və digər nüfuzlu beynəlxalq təşkilatlara Ermənistanın beş ildən artıq davam edən və son günlər daha da şiddətlənən təcavüzünü qətiyyətlə pisləməyə, təcavüzkarı cilovlamaq məqsədilə təcili, təsirli və qəti tədbirlər görməyə çağırış edilir, Azərbaycana zəruri humanitar yardım göstərmək xahiş edilir, Ermənistanın BMT sənədlərinə münasibətinə diqqət yönəldilirdi: Bəyanatda yazılırdı:

*"ABŞ, Rusiya və Türkiyənin münaqişəyə dinc vasitələrlə son qoyulmasına dair təşəbbüsünün, BMT Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsinin elan olunduğu və ümumiyyətlə, bu qanlı savaşın qarşısının alınmasına müəyyən ümidlər yarandığı bir vaxtda Ermənistanın bu təcavüzkar hərəkətləri vəziyyətin xeyli kəskinləşməsinə səbəb olmuşdur. Güman edirəm ki, beynəlxalq ictimaiyyət və bütün dövlətlər bu təcavüzü qətiyyətlə pisləməlidir. Azərbaycan dövləti adından bir daha bəyan etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Türkiyənin təşəbbüsü ilə ATƏM çərçivəsində göstərilən bütün cəhdlərin və qəbul olunmuş qərarların tərəfdarıyıq. Azərbaycan Respublikası ATƏM Minsk konfransının sədri cənab M. Rafaellinin başçılığı ilə göstərilən sülhməramlı cəhdləri alqışlayır və bunun həyata keçirilməsi üçün hər cür şərait yaradılacağına təminat verir, ümid edir ki, cənab Rafaellinin iyulun 5-də regiona səfəri "doqquzların" təşəbbüsünün reallaşmasına təkan verəcəkdir".*[337]

Heydər Əliyev bildirdi ki, o, AXC hökuməti zamanı neft sahəsindəki bütün danışıqları müvəqqəti olaraq dayandırır və hesab edir ki, məsələ mütəxəssislər tərəfindən ətraflı öyrənilməli, yalnız onların rəyindən sonra hər hansı bir qərar qəbul edilməli və Azərbaycan xalqının mənafeyi əsas götürülməlidir.

Gəncə şəhərində baş vermiş hadisələrlə əlaqədar olaraq deputat-istintaq komissiyası bu zaman öz işini tamamlamışdı. Milli Məclisin iyulun 15-də keçi-

337 Əliyev H.Ə. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin bəyanatı // Müstəqilliyimiz əbədidir. I kitab, s. 16.

rilən iclasının gündəliyində deputat-istintaq komissiyasının məlumatı, regiona səfər etmiş ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının sədri Mario Rafaelli ilə aparılan danışıqlar, onların yekunları və digər məsələlər dayanırdı.[338]

İlk olaraq Gəncə şəhərində baş vermiş hadisələri təhqiq edən deputat-istintaq komissiyasının arayışı dinlənildi. Arayışdan məlum olurdu ki, komissiyaya 700 sənəd göndərilmiş, 125 şahid və ya iştirakçı dindirilmişdi. Ümumi vaxtı 57 saat olan 19 video və 7 audio kassetlə şahidlərin, iştirakçıların və məsul şəxslərin izahatı lentə alınmışdı. Yazılırdı ki, 15 may hakimiyyət dəyişikliyindən sonra xalq çox şey gözləyirdi. Lakin iqtidar daxili və xarici siyasət məsələlərinin həlli təşəbbüsünü öz əlinə ala bilmədi. Belə təsəvvür yaranmışdı ki, iqtidar Azərbaycan xalqının kollektiv zəkasının, istedad və bacarığının şəriksiz varisidir. Əslində isə bu, bolşevizmin yeni təzahürü idi. Arayışda Hərbi Prokurorluğun 20 yanvar hadisəsinin istintaqını hələ də başa çatdırmadığı yazılırdı. Yaranmış vəziyyətin səbəblərinin göstərildiyi arayışda vurğulanırdı ki, hərbi uğursuzluqlar və Kəlbəcərin düşmənə müqavimətsiz təslim edilməsi xalqın qəzəbini coşdurmuşdu. 1993-cü ilin əvvəllərində bir qrup zabit Gəncədə müşavirə keçirərək "Hərbi birlik" yaratmışdı. Bu birlik erməni təcavüzünə qarşı mübarizənin vacibliyini bildirsə də, dövlət hakimiyyətini tanımırdı. Belə bir qurumun yaradılması dövlətin qanunlarına tamamilə zidd idi. Ona görə də hakimiyyət Gəncədə yerləşən 130 nömrəli hərbi hissəsinin ərazisindən istifadə etməklə dövlətə tabe olmayan 709 nömrəli hərbi hissəni tərksilah etmək üçün hücum təşkil etmişdi. Lakin bu hücum uğursuz olmuş, qan tökülmüş, hərbi hissəyə, hava limanına və şəhərə böyük ziyan dəymişdi.

İyulun 16-də keçirilən iclasda həmin məsələyə dair müzakirələrdən sonra komissiyanın işinin yekunu barədə 9 ənddən ibarət qəbul edilən qərarda yazılırdı ki, Gəncədə baş vermiş faciə əvvəlcədən hazırlanmış, cinayət törətmiş hərbi əməliyyatların ağır nəticəsidir. Gəncə hadisələri Azərbaycan Respublikası Prezidentinin, onun ətrafındakıların savadsız siyasətinin nəticələridir və axırıncı bir il iqtidarda olan şəxslərin fəaliyyətinin məntiqi yekunudur. Vurğulanırdı ki, kadr siyasətinin yarıtmaz təşkilinə görə Əbülfəz Elçibəy, İsa Qəmbər, Pənah Hüseynov və Arif Hacıyev xalq qarşısında şəxsi məsuliyyət daşıyırlar. İlkin məlumatlardan aydın olurdu ki, hadisələr zamanı 35 nəfər həlak olmuş, 130 nəfər yaralanmış, hərbi şəhərciyə və hava limanına təxminən 23 milyard manat ziyan dəymişdi.[339]

338 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi.2 clddə. II cild, s.139.
339 Yenə orada, s. 139-140.

Gəncə hadisələri zamanı qanunsuzluq etmiş bir sıra vəzifəli şəxslərin deputat mandatından məhrum edilərək və cinayət məsuliyyətinə cəlb olunmaları haqqında qərar qəbul olundu.

### *6.3. Ağdam rayonunun işğal edilməsi*

Azərbaycanda yaranmış ağır şəraitdən istifadə edən Ermənistan hərbi təcavüzünü daha da genişləndirərək ərazisi 1150 kv. km olan Ağdam rayonunu 1993-cü il iyulun 23-də işğal etdi. Təqribən 133 min nəfər məcburi köçkünə çevrildi, şəhər yandırıldı, tarix və mədəniyyət abidələri, təhsil və mədəni-maarif müəssisələri, sənaye obyektləri yerlə yeksan edildi. İşğal nəticəsində rayon mərkəzi ilə birlikdə Ağdamın 90 kəndi, 38 kolxozu, 12 sənaye mərkəzi, 74 məktəbi, 271 mədəniyyət evi, 67 idarə və 99 klubu düşmən əlinə keçdi. İşğal nəticəsində rayona ümumilikdə 6 milyard 179 milyon dollar məbləğində ziyan dəydi.

Ağdam şəhərinin işğalından dərhal sonra Bərdə və Ağcabədiyə səfər edən Heydər Əliyev rayon sakinləri ilə görüşdü, köçkünlərin yerləşdirilməsinə dair konkret tədbirləri müəyyənləşdirdi və müvafiq orqanlara göstərişlər verdi.

İyulun 24-də Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə məktubla müraciət etdi.[340] Məktubda Ermənistanın işğalçılıq siyasətinə dair konkret fakt və materiallar göstərilir, Azərbaycanın yaşayış məntəqələrini işğal etdiyi, ölkədə qaçqın və məcburi köçkünlərin sayının artdığı qeyd olunur, Ermənistanın dünya birliyi qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmədiyi diqqətə çatdırılır, BMT Təhlükəsizlik Şurasının sədrindən təcavüzkarın dayandırılması, işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması üçün təxirəsalınmaz tədbirlərin görülməsi tələb edilirdi.

Milli Məclisin iyulun 28-də Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasında Ağdamın işğalı ilə əlaqədar olaraq BMT-yə edilən müraciət barəsində məlumat verildi.[341] Daha sonra Minsk konfransının sədri Mario Rafaelli ilə iyul ayının ortalarında aparılan danışıqların yekunları, döyüş bölgələrində yaranmış vəziyyət və Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam şəhərinin işğalı ilə əlaqədar görülən tədbirlər haqqında məsələ müzakirə edildi. Həmin məsələlər barəsində Heydər Əliyev məlumat verdikdən və müzakirələrdən sonra dörd bənddən ibarət qərar qəbul edildi. Qərarda məlumat nəzərə alınır və yazılırdı ki, Heydər Əliyevin diplomatik, siyasi və hərbi quruculuq sahəsindəki, BMT və ATƏT çər-

340 Əliyev H.Ə. BMT Təhlükəsizlik Şurasının sədrinə. Surəti BMT-nin Baş katibinə. 24.07.1993 // Müstəqilliyimiz əbədidir. I kitab, s.44-45.
341 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.141.

çivəsində və beynəlxalq aləmdə apardığı işlər təqdirəlayiq və məqsədəuyğun hesab edilsin. Bərdə və Ağcabədidə məcburi köçkünlərlə keçirilən görüşlər bəyənildi və Ağdam şəhərinin işğalı ilə bağlı olaraq cinayət işinə başlanması üçün tədbirlər görülməsi tapşırıldı.

İclasda Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə münasibətdə referendum keçirmək barədə qərar qəbul edildi.

## *6.4. BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi*

Azərbaycan Respublikasının tələbinə əsasən toplaşan BMT Təhlükəsizlik Şurası iyulun 29-da keçirilən 3259 saylı iclasında Azərbaycanın Ağdam rayonu və digər işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin tamamilə, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 853 saylı (S/RRES/853 (1993)) qətnaməni qəbul etdi.[342] Qətnamədə yazılırdı:

*"Təhlükəsizlik Şurası, 30 aprel 1993-cü il tarixli 822 (1993) saylı qətnaməsini təsdiq edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Minsk qrupunun sədrinin 27 iyul 1993-cü il tarixində dərc olunmuş məruzəsini nəzərdən keçirərək, Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onlar arasındakı gərginliklə əlaqədar ciddi narahatçılığını ifadə edərək, maraqlı tərəflərin 822 (1993) saylı qətnamənin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlər planını qəbul etməsini alqışlayaraq, hərbi əməliyyatların genişlənməsini və xüsusilə Azərbaycan Respublikasının Ağdam rayonunun işğal edilməsini həyəcanla qeyd edərək, belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratmasının davam etməsi ilə əlaqədar narahat olaraq, Azərbaycan Respublikasında çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda fövqəladə humanitar vəziyyətlə əlaqədar yenidən ciddi narahatçılığını ifadə edərək, Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək, Ağdam rayonunun və Azərbaycan Respublikasının bu yaxınlarda işğal olunmuş digər rayonlarının işğalını pisləyir; bundan başqa regionda bütün düşmənçilik hərəkətlərini, xüsusilə mülki şəxslərə hücumları və məskunlaşmış rayonların bombardman edilməsini pisləyir; bütün hərbi əməliyyatların dərhal*

342 U.N.Resolution 853 (1993) Regarding the Armenia Azerbaijani Conflict United Nations Security Council July 29, 1993 // Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. 1994. The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, p.15-19.

*dayandırılmasını, münaqişədə iştirak edən işğalçı qüvvələrin Ağdam rayonundan və Azərbaycan Respublikasının digər bu yaxınlarda işğal edilmiş rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir; maraqlı tərəfləri atəşkəsə dair möhkəm razılaşmalar əldə etməyə və onlara riayət etməyə çağırır; yuxarıdakı 3 və 4-cü maddələr kontekstində regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə dair özünün əvvəlki çağırışlarını yenidən təsdiq edir; 822 saylı (1993) qətnamənin həyata keçirilməsi səyləri də daxil olmaqla, ATƏM-in Minsk qrupunun münaqişənin sülh yolu ilə həllinə nail olmaq üzrə davam edən səylərini bəyənir və hərbi əməliyyatların genişlənməsinin bu cəhdlər üçün doğurmuş dağıdıcı nəticələri ilə bağlı ciddi narahatçılığını ifadə edir; yerləşdirilməsi cədvəli ilə ATƏM-in müşahidə missiyasının hazırlanmasını, həmçinin Müşavirənin regionda iştirakının təmin edilməsi təklifinin Müşavirə çərçivəsində nəzərdən keçirilməsini alqışlayır; maraqlı tərəfləri münaqişənin sülh yolu ilə həllinə mane olan hər cür hərəkətlərdən çəkinməyə və ATƏM-in Minsk qrupu çərçivəsində, həmçinin birbaşa əlaqələr vasitəsilə məsələnin qəti həllinin əldə edilməsi məqsədilə onlar arasında danışıqları davam etdirməyə təkidlə çağırır; Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 saylı (1993) qətnamənin və hazırkı qətnamənin müddəalarına riayət edilməsi və bu tərəfin ATƏM-in Minsk qrupunun təkliflərini qəbul etməsi məqsədilə Ermənistan Respublikasının hökumətini öz təsirini göstərməkdə davam etməyi təkidlə çağırır; dövlətləri münaqişənin intensivləşməsinə və ya ərazi işğalının davam etdirilməsinə apara biləcək hər hansı silahın və hərbi sursatın təchiz edilməsindən çəkinməyə təkidlə çağırır; mülki əhalinin artan əzablarını yüngülləşdirmək məqsədilə regionda, xüsusilə münaqişəyə məruz qalmış bütün rayonlarda, humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz təmin edilməsinə bir də çağırır və bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını bir daha təsdiq edir; Baş katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərməyi və qaçqın düşmüş şəxslərin öz evlərinə qayıtmalarına kömək göstərməyi xahiş edir; Baş katibdən ATƏM-in fəaliyyətdə olan sədri, həmçinin Minsk qrupunun sədri ilə məsləhətləşmədə vəziyyət barədə Şuraya məruzələr təqdim etməsinin davam etdirilməsini xahiş edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır".*

Qətnamədə Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam rayonunun işğal edilməsi təsdiqlənir, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət ifadə edilir, Ağdam rayonundan və Azərbaycan Respublikasının digər bu yaxınlarda işğal edilmiş rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilirdi.

## *6.5. Azərbaycanı parçalamaq cəhdlərinin iflasa uğraması*

Artıq qeyd edildiyi kimi, xaricdən idarə olunan Əlikram Hümbətov Lənkəranda üzdəniraq "Talış-Muğan Respublikası" qurulduğunu elan etmişdi. Həmin hadisə ilə əlaqədar olaraq Milli Məclisin binasında Heydər Əliyev Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla avqustun 13-də görüş keçirdi. Görüşdə Heydər Əliyev baş verən xoşagəlməz proseslərin siyasi yolla həlli üçün atılan addımlardan və xarici ölkələrin əlində oyuncağa çevrilmiş separatçı Əlikram Hümbətovun pozuculuq fəaliyyətini təkidlə davam etdirməsindən danışdı.

26 nəfər çıxış edərək bölgə ziyalılarının və əhalisinin mövqeyini bildirdilər, bu məsələlərin ortaya atılmasını xalqa və dövlətə xəyanət kimi qiymətləndirdilər.

Görüşdən sonra Lənkəran şəhərinin sakinləri, xüsusən qadınlar ayağa qalxaraq Əlikram Hümbətovu qovdu. Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarının əhalisi dövlətin mövcudluğunun təminatçısı yükünü öz üzərinə götürmüş Heydər Əliyevi qətiyyətlə müdafiə etdi.

Bu və digər məsələlər Milli Məclisin avqustun 17-də keçirilən iclasında müzakirə edildi.[343] İclasda keçmiş daxili işlər naziri İsgəndər Həmidovun[344] və keçmiş müdafiə naziri Rəhim Qazıyevin silahlı dəstələr saxladıqlarına dair məlumatlar təqdim edildi. Söhbətlərin birində İsgəndər Həmidov demişdi ki, özünün ya 100, ya da 1000 silahlı dəstəsi vardır. Dövlət orqanları həmin silahlıları tutmuş, lakin sonradan əsassız olaraq azad etmişdi. Heydər Əliyev belə hala qarşı qəti şəkildə etiraz edərək dedi:

*"...indiyə qədər burada bir bandit dəstəsi nə istəyir onu da eləyir, siz* (daxili işlər naziri vəzifəsini icra edən Vaqif Novruzov nəzərdə tutulur – M.Q.) *nə zəmanət verirsiniz ki, onlar sabah, indi, bu günləri bir dənə silah götürüb gəlib burada bir terrorçuluq etməyəcəklər, onda nə cavab verəcəksiniz? Yaramaz belə şeylər".*[345]

Heydər Əliyev hər bir vəzifəli şəxsi öz vəzifəsini layiqincə yerinə yetirməyə səslədi və qəti tapşırıqlar verərək bildirdi ki, dövlətdə ciddi qayda-qanun yaradılmalıdır.

Qusarda yaranmış gərgin vəziyyət də müzakirə edildi. Heydər Əliyev etnik məsələləri qızışdıran bəzi şəxslərin adını çəkdi, onların Rəhim Qazıyevlə əlaqədar olduğunu bildirdi. Deputatlar keçmiş müdafiə naziri Rəhim Qazıyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qəsd edən digər şəxslərin Milli Məclis üzvü qalmasını parlament üçün təhqir hesab edərək çıxarılmala-

343 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.145.
344 İsgəndər Həmidov (1949-2020) – daxili işlər naziri (1992-1993).
345 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.145.

rını və onların barəsində cinayət işi açılmasını tələb etdilər. Çıxışlardan sonra Azərbaycan Respublikasının Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında Milli Məclisin qərar layihəsi qəbul olundu. Qərarda baş verən hadisələr Azərbaycan dövlətçiliyinə qarşı ağır qəsd kimi qiymətləndirilir və belə halların qarşısının bundan sonra da qətiyyətlə alınacağı vurğulanırdı.

### *6.6. Füzuli və Cəbrayıl rayonlarının işğal edilməsi*

Daxildə yaranmış qarışıqlıqdan istifadə edərək təcavüzünü artıran Ermənistan ərazi işğallarını daha da genişləndirdiyi üçün Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının sədrinə 1993-cü il avqustun 18-də yenidən müraciət etdi.[346] Müraciətdə Ermənistanın BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrini yerinə yetirmədiyi, işğal altında saxladığı Azərbaycan ərazilərini boşaltmadığı, əksinə digərlərini də işğal etdiyi, azərbaycanlılar yaşayan kəndləri tutub yandırdığı, Füzuli, Cəbrayıl, Qubadlı istiqamətlərində hücumu genişləndirdiyi yazılır, təcavüzün təcili dayandırılması üçün Təhlükəsizlik Şurasının iclasının çağırılması xahiş edilirdi.[347]

Azərbaycan Respublikasının müraciətinə baxan BMT Təhlükəsizlik Şurasının adından onun sədri 1993-cü il avqustun 18-də keçirilən 3264-cü iclasında bəyanat verdi.[348] Bəyanatda Ermənistan və Azərbaycan arasında münasibətlərin pisləşməsindən narahatlıq ifadə edilir, Füzuli rayonu istiqamətində hücumlar pislənilir, hərbi əməliyyatların dayandırılması, işğal olunmuş ərazilərin dərhal boşaldılması tələb edilirdi. Sənəddə Azərbaycan Respublikasının və regionun digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyü bir daha təsdiq edilir, BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair Minsk qrupunun təqdim etdiyi təxirəsalınmaz tədbirlər cədvəlinin dəqiqləşdirilmiş variantına müsbət cavab verməyə, məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırılır, münaqişə bölgəsinə silah göndərməkdən çəkinməyə, Ermənistan Respublikasının hökumətini cəlb olunmuş qüvvələrin gələcəkdə hərbi əməliyyatı genişləndirmək üçün vəsait almamalarını təmin etməyə, mülki əhalinin getdikcə artan iztirablarını yüngülləşdirmək məqsədi ilə bölgəyə, münaqişədən zərər çəkmiş bütün zonalara bey-

346 Əliyev H.Ə. BMT Təhlükəsizlik Şurasının sədrinə. Surəti BMT-nin Baş katibinə. 18.08.1993 // Müstəqilliyimiz əbədidir. I kitab, s.89.
347 Yenə orada, s. 89-90.
348 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 196.

nəlxalq humanitar yardımın maneəsiz çatdırılmasını təmin etməyə dair əvvəlki çağırışlar təkrar edilir, beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borclu olduqları xatırladılırdı.

BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatına məhəl qoymayan Ermənistan 1993-cü il avqustun 20-23-də ərazisi 1390 kv. km olan Füzuli və ərazisi 1050 kv. km olan Cəbrayıl rayonlarını işğal etdi. Nəticədə Füzulidən təqribən 90 min, Cəbrayıldan isə təqribən 50 min nəfər məcburi köçkünə çevrildi. Bu rayonların ərazilərindəki kənd və qəsəbələr tamamilə yandırıldı, tarix və mədəniyyət abidələri, mədəni-maarif müəssisələri dağıdıldı.

Yaranmış vəziyyət barəsində Azərbaycan dövləti 1993-cü il avqustun 23 və 30-da BMT Təhlükəsizlik Şurasının sədrinə müraciətlər etdi.[349] Müraciətlərə cavab verilməmiş Ermənistan silahlı qüvvələri 801 kv. km ərazisi, 95 yaşayış məntəqəsi olan Qubadlı rayonunu avqustun 31-də işğal etdi. Rayonun 30 min nəfər sakini məcburi köçkünə çevrildi.[350] Tarix və mədəniyyət abidələri dağıdıldı.

***

Fəsildə araşdırılan məsələlərdən məlum olur ki, hakimiyyətin dövlət idarəçiliyində səriştəsizliyi və təcavükar Ermənistanın Azərbaycanın ərazilərinin işğalını dayandıra bilməməsi ölkədə ümumi böhran yaratmışdır. Çıxış yolunu tapa bilməyən hakimiyyət xalqın tələbləri qarşısında çarəsiz qalaraq Naxçıvandan Heydər Əliyevi Bakıya dəvət etmişdir. Milli Məclisin iclasında çıxış edən Heydər Əliyev silahlı qarşıdurmanın baş verdiyi Gəncə şəhərinə jurnalistlərin iştirakı ilə gedərək vəziyyətlə yerində tanış olmuşdur. Bakıya qayıtdıqdan sonra parlamentin iclasında çıxış etmiş və Milli Məclisin sədri seçilmişdir. Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqı vətəndaş müharibəsindən, ölkəni parçalanmaqdan, dövləti dağılmaqdan qurtarmaq naminə xilaskarlıq missiyası olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin heç bir xəbər vermədən Bakını tərk edərək doğulduğu Naxçıvan Muxtar Respublikasının Kələki kəndinə getməsi vəziyyəti daha da mürəkkəbləşdirmişdir. Geri dönmək barəsində ona edilən müraciətlər nəticə verməmişdir.

Azərbaycanda yaranmış anarxiyadan istifadə edən Ermənistan Ağdam rayonunu işğal etmişdir. Rayon əhalisi məcburi köçkünə çevrilmiş, tarix və mədəniyyət abidələri dağıdılmışdır. Azərbaycan dövlətinin tələbinə əsasən toplanan

349 Письмо постоянного представителя Азербайджанана имя председателя Совета Безопасности. 23.08.1993; Письмо постоянного представителя Азербайджана на имя председателя Совета Безопасности. 30.08.1993 // Гасанов Г. Письма в Совет Безопасности ООН 1992-1993, с.267-269.

350 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 197.

BMT Təhlükəsizlik Şurası işğalçı qüvvələrin tezliklə, tamamilə və qeyd-şərtsiz çıxarılmasına dair 853 saylı qətnaməni qəbul etmişdir. Lakin təcavüzkar ölkə qətnamənin tələblərini yerinə yetirməmiş və Füzuli, Cəbrayıl və Qubadlı rayonlarını işğal etmişdir, əhali məcburi köçkünə çevrilmiş, tarix və mədəniyyət abidələri yerlə-yeksan edilmişdir.

Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi bir sıra digər amillərlə yanaşı regiona başqa dövlətləri buraxmaq istəməyən, Azərbaycanın müstəqil dövlət olaraq inkişaf etməsini və güclənməsini qısqanan, enerji diplomatiyasının həyata keçirilməsinə mane olmağa çalışan dövlətlərin də siyasətini özündə əks etdirmişdir. Əslində Dağlıq Qarabağ münaqişəsi həm də regionda gedən amansız geosiyasi, neft uğrunda mübarizənin təzahürlərindən və Azərbaycana təzyiq vasitələrindən biri olmuşdur.

Belə bir şəraitdə xaricdən dəstək alan qüvvələrin Azərbaycanı parçalamaq cəhdləri artsa da, Heydər Əliyevin qətiyyətli səyləri nəticəsində iflasa uğramışdır. Azərbaycan xalqının birliyi, dövlətin müstəqilliyi və ölkənin bütövlüyü qorunmuşdur.

# 7-ci FƏSİL

## 1993-cü İLİN OKTYABR PREZİDENT SEÇKİLƏRİ: DAXİLİ VƏ XARİCİ SİYASƏTDƏ DƏYİŞİKLİKLƏR

### *7.1. Prezidentə münasibət ilə əlaqədar olaraq referendum*

Qəbul edilmiş qərara uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə münasibət ilə əlaqədar 1993-cü il avqustun 29-da referendum keçirildi. Referendumun keçirilməsini bir sıra amillər zəruri edirdi. Hər şeydən əvvəl, o, öz vəzifəsini uzun müddət idi icra etmirdi və iş yerindən kənarda qalmışdı. Təcavüzkar dövlət işğallarını genişləndirsə, ölkə ağır böhrana düşsə də, Əbülfəz Elçibəy vəzifə səlahiyyətlərini yerinə yetirə bilmirdi. Çoxlu müraciətlər edilsə də, o, iş yerinə qayıtmaq istəməmişdi. Ona görə də referendumun keçirilməsinə qərar verilmişdi.

Xalqın Əbülfəz Elçibəyə etimadsızlıq göstərdiyi referendumun nəticələri mətbuatda dərc edildi.

Milli Məclisin sentyabrın 1-də keçirilən iclasında referendumun nəticələri müzakirə edildi.[351] Mərkəzi Seçki Komissiyasının sədri Cəfər Vəliyev referendumun nəticələri barədə məlumat verdi. Məlumatdan aydın olurdu ki, ölkə ərazisində 84, o cümlədən Naxçıvan Muxtar Respublikasında 7 referendum dairəsi yaradılmış, dairələrdə 3134 məntəqə qurulmuşdu. Seçicilərin 92,02%-i referendumda iştirak etmişdi. Onların 97,5%-i Ə.Elçibəyə etimad göstərməmişdi. Naxçıvan Muxtar Respublikasında səs verənlərin 97%-i, doğulduğu Ordubad rayonunda isə 100%-i Əbülfəz Elçibəyə "yox" demişdi.

İclasda növbədənkənar prezident seçkilərinin keçirilməsinə dair qərar layihəsi səsə qoyuldu və qəbul edildi.

351 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 clddə. II cild, s.149.

### *7.2. Azərbaycan Respublikasının MDB-yə qoşulması*

Milli Məclisin sentyabrın 3-də keçirilən iclasında MDB iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının 1993-cü ilin sentyabrında Moskvada keçiriləcək görüşündə Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikası nümayəndə heyətinin iştirak etməsinə, danışıqlar aparmasına və zəruri sənədləri imzalamasına razılıq verilməsi haqqında qərar qəbul edildi.[352]

Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti sentyabrın 5-dən 8-dək Moskvada səfərdə oldu. Səfər zamanı Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin,  Ali Sovetin sədri Ruslan Xasbulatov[353], Nazirlər Sovetinin Sədri Viktor Çernomırdin[354], xarici işlər naziri Andrey Kozırev[355], müdafiə naziri Pavel Qraçov[356] və digər rəsmi şəxslərlə görüşlər keçirildi və əməli xarakterli söhbətlər aparıldı. Tərəflər Azərbaycan – Rusiya münasibətlərinin yaxşılaşdırılmasının, bölgədə və beynəlxalq aləmdə birgə fəaliyyət göstərilməsinin faydalı olacağını vurğuladılar. Razılaşdırıldı ki, iki dövlət arasında dostluq münasibətlərini və əməkdaşlığı təsbit edən müvafiq sənəd imzalansın. Səfər zamanı tərəflər arasında keçmiş SSRİ-nin xarici borcunun və aktivlərinin tənzimlənməsi haqqında saziş imzalandı. Tərəflər Azərbaycan ərazisində hərbi əməliyyatların genişlənməsindən, bu əməliyyatların Azərbaycanın cənub sərhədlərinə yaxınlaşmasından, yeni-yeni ərazilərin işğal olunmasından, qaçqınların sayının son dərəcə artmasından dərin təşviş hissi keçirdiklərini bildirdilər. Qeyd etdilər ki, döyüş əməliyyatları zonasında yaranmış vəziyyət bölgədə sülh və təhlükəsizlik üçün yeni qorxu törədir. Tərəflər bölgədə sülhün bərqərar edilməsinə səy göstərdiklərini və BMT Təhlükəsizlik Şurasının 822 və 853 nömrəli qətnamələrinə uyğun olaraq silahlı münaqişənin, ilk növbədə atəşin və qan tökülməsinin dərhal dayandırılmasında, qəsb edilmiş bütün torpaqlardan işğalçı qüvvələrin tamamilə çıxarılmasına nail olmaqda, habelə hərbi əməliyyatlara yenidən başlamasına yol verməyən möhkəm təminatların hazırlanmasında sıx əməkdaşlıq etməyə hazır olduqlarını təsdiq etdilər.

Səfər iki ölkə arasında münasibətlərin yenidən qurulması və inkişaf perspektivlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli oldu.

Moskva şəhərinə səfər barədə məlumatların əsasında Milli Məclisin sentyabrın 14-də keçirilən iclasında üç bənddən ibarət qərar qəbul edildi.[357] Milli Məclisin Rusiya ilə əlaqələr qrupunun təşkili zəruri hesab edildi və Rusiya,

352 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. II hissə, s. 507.
353 Ruslan Xasbulatov (1942) – Rusiya Federasiyası Ali Sovetinin sədri (1991-1993).
354 Viktor Çernomırdin (1938) – Rusiya Federasiyası Nazirlər Şurasının sədri (1992-1993).
355 Andrey Kozırev ( 1951) – Rusiya Federasiyasının xarici işlər naziri (1991-1996).
356 Pavel Qraçov (1948-2012) – Rusiya Federasiyasının müdafiə naziri (1992-1996).
357 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 hissədə. II cild, s.152.

Azərbaycan, Gürcüstan və Ermənistan rəhbərlərinin görüşünün keçirilməsinə dair təklif qəbul olundu.

Azərbaycan Respublikasının MDB-yə qoşulması məsələsi Milli Məclisin sentyabrın 20-də keçirilən iclasında müzakirə edildi.[358] Azərbaycan xalqının ali mənafeləri rəhbər tutularaq, MDB iştirakçısı olan dövlətlərlə tarixi əlaqələri nəzərə alaraq, həmin dövlətlərlə siyasi, iqtisadi, elmi-texniki, mədəni və digər münasibətləri inkişaf etdirmək məqsədi ilə Azərbaycan Respublikasının MDB-yə və MDB-nin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qoşulmasına və bundan irəli gələn tədbirlərin həyata keçirilməsinə dair qərar qəbul olundu. Eyni zamanda MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasına qoşulmaq barəsində iki bənddən ibarət qərar qəbul edildi.

Bir neçə gün sonra, sentyabrın 24-də Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikasının nümayəndə heyəti Moskva şəhərində keçirilən MDB iclaslarında iştirak etdi. Səfər zamanı imzalanan sənədlər Azərbaycan dövlətinin birtərəfli, təkistiqamətli xarici siyasətdən imtina etdiyini və maraqların qorunmasını nəzərdə tutan tarazlaşdırılmış xəttin götürüldüyünü göstərirdi.

Azərbaycan rəhbəri sentyabrın 25-də Ermənistan Respublikasının Prezidenti Levon Ter-Petrosyan ilə görüşərək Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələlərini müzakirə etdi.[359] Lakin Ermənistan hərbi təcavüzünü dayandırmadı.

Milli Məclisin sentyabrın 29-da keçirilən iclasında Heydər Əliyevin sentyabrın 24-də MDB iştirakçısı olan dövlətlərin Dövlət Başçıları Şurasının iclasında iştirakının nəticələrinin bəyənilməsi, Azərbaycan Respublikasının MDB-nin nizamnaməsinə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qoşulmasının təsdiqi, İqtisadi İttifaq yaradılması haqqında müqavilənin təsdiqi, Heydər Əliyevin Ermənistan Prezidenti Levon Ter-Petrosyan ilə Moskvada görüşü haqqında qərarlar qəbul edildi.[360]

Bu zaman ölkə Prezident seçiklərinə hazırlaşırdı. Azərbaycan xalqı prezident seçkilərinin nəticələrini ağır vəziyyətdən çıxış yolu və inkişafın başlanğıcı üçün imkan kimi qiymətləndirirdi.

358 Yenə orada, s. 153.
359 Yenə orada, s. 154.
360 Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyanla Moskva şəhərində görüşü haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 29.09.1993 // ARMMA, f. 2941, siy.1, iş 156, v. 41-42.

## *7.3. Prezident seçkiləri və nəticələri*

Prezident seçkilərində üç namizəd mübarizə aparırdı. Heydər Əliyev Yeni Azərbaycan Partiyasını, Kərrar Əbilov Vahid Azərbaycan Partiyasını, Zakir Tağıyev isə Hümmət Partiyasını təmsil edirdi. Namizədlər üçün bərabər təbliğat və təşviqat imkanları yaradılmışdı.

1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərində seçicilərin 97,7%-i iştirak etmişdi. Onların 98,8%-i Heydər Əliyevin lehinə səs vermişdi. Xalq Azərbaycan dövlətinin nicatını və inkişafını Heydər Əliyev şəxsiyyətində və siyasətində görürdü.

Beləliklə, Heydər Əliyev Azərbaycan Respublikasının sayca üçüncü prezidenti oldu.

Azərbaycan Respublikası Prezidentinin and içməsi qaydası haqqında 1992-ci il 16 iyun tarixli Azərbaycan Respublikasının qanununun qüvvədən düşməsi haqqında oktyabrın 9-da qanun qəbul edildi.[361]

1993-cü il oktyabrın 10-da Respublika Sarayında (indiki Heydər Əliyev sarayı – M.Q.) andiçmə mərasimi keçirildi. Prezident seçilən Heydər Əliyev nitqində ölkənin gələcək inkişaf yolunu aşağıdakı kimi müəyyənləşdirərək dedi:

*"Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir və bu müstəqilliyin əldə olunmasında hər hansı qrupun, hərəkatın, qüvvənin müstəsna xidmətləri olduğunu heç vəchlə qəbul etmək olmaz. Eyni zamanda Azərbaycanın müstəqilliyi respublika qarşısında, onun vətəndaşları qarşısında çox böyük və mürəkkəb vəzifələr qoyubdur. Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq – bu vəzifələr mənim prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır və mən bunların həyata keçirilməsinə çalışacağam.*

*...Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli isti-*

361 Azərbaycan Respublikası Prezidentinin and içməsi qaydası haqqında Azərbaycan Respublikası qanununun qüvvədən düşməsi haqqında Azərbaycan Respublikasının qanunu. 09.10.1993 // ARMMA, f. 2941, siy.1, iş 156, v. 84.

*fadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik".*[362]

Bununla da Azərbaycan xalqının və dövlətçiliyinin tarixində yeni bir mərhələ başladı. Bu, dövlət quruculuğunun təşkil edilməsi, müasir dövlətin qurulması, Ermənistanın hərbi təcavüzünün dayandırılması, ölkə həyatının bütün sahələrində islahatların aparılması və inkişafı mərhələsi idi.

## *7.4. BMT Təhlükəsizlik Şurasının 874 saylı qətnaməsi*

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin bir-birinin ardınca işğal edilməsi və insanların məcburi köçkün olması ölkədəki şəraiti ağırlaşdırmışdı. İşğalın dayandırılması üçün səylərini davam etdirən Azərbaycanın tələbi üzrə toplanan BMT Təhlükəsizlik Şurası 1993-cü il oktyabrın 14-də keçirilən 3292-ci iclasında Ermənistan – Azərbaycan münaqişəsinə dair 874 saylı (S/RES/874 (1993)) qətnaməni qəbul etdi.[363] Qətnamədə yazılırdı:

*"Təhlükəsizlik Şurası, 30 aprel 1993-cü il tarixli 822 saylı (1993) və 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) qətnamələrini təsdiq edərək və 18 avqust 1993-cü ildə Təhlükəsizlik Şurası sədrinin Şuranın adından oxuduğu bəyanata əsaslanaraq, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Dağlıq Qarabağ üzrə Minsk konfransının sədrinin Təhlükəsizlik Şurası sədrinin adına ünvanlanmış 1 oktyabr 1993-cü il tarixli məktubunu nəzərdən keçirərək, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin regionda sülh və təhlükəsizliyə təhlükə yarada biləcəyi ilə əlaqədar dərin narahatçılığını ifadə edərək, 8 oktyabr 1993-cü ildə Moskvada yüksək səviyyədə keçirilən görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə həll edilməsinə töhfə verəcəyinə dair ümidlərini ifadə edərək, Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək, münaqişə səbəbindən insanların məruz qaldığı əzablar və regionda ciddi fövqəladə humanitar vəziyyətlə əlaqədar və xüsusilə Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi ilə əlaqədar özünün ciddi nara-*

362 Əliyev H.Ə. Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitq. 10.10.1993 // Müstəqilliyimiz əbədidir. I kitab, s. 201, 204.

363 Resolution 874 (1993) Adopted by the Security Council at its 3292nd Meeting on 14 October 1993 // Aggression of the Republic of Armenia Against the Azerbaijan Republic. Information Bulletin. Baku, The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, 1994, p. 20-22.

*hatçılığını bir daha ifadə edərək, maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi səmərəli və daimi etməyə çağırır; ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini və Minsk qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini yenidən bəyan edir; 28 sentyabr 1993-cü il tarixində ATƏM-in Minsk qrupunun iclasında üzə çıxarılan və Minsk qrupunun doqquz digər üzvünün hərtərəfli dəstəyi ilə Qrupun sədri tərəfindən maraqlı tərəflərə təqdim olunan "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların Yeniləşdirilmiş cədvəli"-ni alqışlayır və tərəflərin diqqətinə çatdırır və tərəfləri onu qəbul etməyə çağırır; münaqişədən irəli gələn və Yeniləşdirilmiş cədvəldə bilavasitə nəzərdən keçirilməyən bütün başqa həll olunmamış məsələlərin Minsk prosesi kontekstində sülh danışıqları vasitəsilə tezliklə həll edilməsi vacibliyinə əmin olduğunu ifadə edir; bu yaxınlarda işğal edilmiş ərazilərdən qoşunların çıxarılması və rabitə və nəqliyyat üçün bütün maneələrin aradan qaldırılması da daxil olmaqla, ATƏM-in Minsk qrupunun Yeniləşdirilmiş cədvəlində nəzərdə tutulan qarşılıqlı və təcili addımların dərhal həyata keçirilməsinə çağırır; ATƏM-in Nazirlər Şurasının 24 mart 1992-ci il tarixli mandatına uyğun olaraq, Yeniləşdirilmiş cədvəldə nəzərdə tutulduğu kimi münaqişənin danışıqlar yolu ilə həll edilməsinə nail olmaq məqsədilə tezliklə Minsk konfransının keçirilməsinə çağırır; Baş katibdən ATƏM-in Minsk konfransında iştirak etmək üçün nümayəndə göndərmək dəvətinə müsbət cavab verməyi və konfransın açılmasından sonra məsələyə dair başlanan danışıqlara bütün mümkün köməyi göstərməyi xahiş edir; ATƏM tərəfindən yaradılmış müşahidəçilər missiyasını dəstəkləyir; bütün tərəfləri beynəlxalq humanitar hüququ pozmaqdan çəkinməyə çağırır və münaqişəyə məruz qalmış bütün rayonlara humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinin təmin edilməsinə dair 822 (1993) və 853 (1993) saylı qətnamələrindəki çağırışlarını təkrar edir; regionda bütün dövlətləri münaqişənin genişlənməsinə gətirib çıxaran və regionda sülh və təhlükəsizliyi pozan hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə təkidlə çağırır; Baş katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardımın göstərilməsini və qaçqınlara və məcburi köçkünlərə təhlükəsiz şəraitdə və ləyaqətlə öz evlərinə qayıtmağa köməklik edilməsini xahiş edir; Baş katibdən, ATƏM-in fəaliyyətdə olan sədrindən və ATƏM-in Minsk konfransının sədrindən Minsk prosesinin gedişi və yerdə vəziyyətin bütün aspektləri və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrini verməyi davam etdirməyi xahiş edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır".*

Qətnamədə Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə hörmət ifadə edilir, sərhədlərin pozulmazlığı və zor gücünə ərazilər tutmaq yolverilməz hesab olunurdu. İnsanların məruz qaldığı əzablardan narahatlıq keçirilir, işğal edilmiş ərazilərdən qoşunların çıxarılması tələb edilirdi.

Bundan bir neçə gün sonra, oktyabrın 16-da Azərbaycan Respublikası Minsk konfransının sədrinə məktub göndərərək ölkələri Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin pozulmasının qarşısının alınması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi üçün daha səmərəli səylər göstərməyə çağırdı.[364]

## *7.5. Zəngilan rayonunun işğal edilməsi. BMT Təhlükəsizlik Şurasının 884 saylı qətnaməsi*

Çağırışlara baxmayaraq, Ermənistan oktyabrın 29-da 710 kv. km ərazisi və 83 yaşayış məntəqəsi olan Zəngilan rayonunu işğal etdi.[365] Rayonun təqribən 35 min nəfər əhalisi məcburi köçkünə çevrildi. İnsanlar İran ərazisindən keçərək canlarını qurtara bildilər. Rayon ərazisində sənaye, səhiyyə müəssisələri, mədəni-maarif ocaqları, tarix və mədəniyyət abidələri dağıdıldı.

Zəngilanın işğal edilməsi ilə təcavüzkar Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunun ətrafındakı rayonların işğalını başa çatdırdı. Azğınlaşan işğalçı ölkə hərəkətlərini davam etdirdi.

Ərazilərinin işğalı ilə barışmayan Azərbaycan Respublikası BMT Baş katibinə və Təhlükəsizlik Şurasının sədrinə müraciət edərək beynəlxalq birliyin diqqətini Ermənistanın Azərbaycana qarşı birbaşa hərbi təcavüzünə yönəltdi və təcavüzkara qarşı zəruri tədbirləri görməyə çağırdı. Azərbaycanın tələbinə əsasən toplaşan BMT Təhlükəsizlik Şurası noyabrın 12-də 884 (S/RES/884 (1993)) saylı qətnaməni qəbul etdi.[366] Qətnamədə yazılırdı:

*"Təhlükəsizlik Şurası, 30 aprel 1993-cü il tarixli 822 (1993), 29 iyul 1993-cü il tarixli 853 (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 (1993) saylı qətnamələrini təsdiq edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində həyata keçirilən sülh prosesi və ATƏM-in Minsk qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini təsdiq edərək, ATƏM-in Dağlıq Qarabağ üzrə*

364 Letter by the Minister of Foreign Affairs of Azerbaijan to the chairman of the CSCE Minsk Conference. 16 October, 1993 // OSCE Archive in Prague. Minsk Conference. File No:809.
365 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 202.
366 Security Council. Resolution 884 // Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. Baku, The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, 1994, p.23-25.

*Minsk konfransının fəaliyyətdə olan sədrinin Təhlükəsizlik Şurası sədrinin adına ünvanlanmış 9 noyabr 1993-cü il tarixli məktubunu və ona əlavələri nəzərə alaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı gərginliyin regionda sülh və təhlükəsizliyi təhlükə altına atması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək, atəşkəsin pozulması və buna cavab olaraq gücün həddindən artıq tətbiq edilməsi, xüsusilə Azərbaycan Respublikasında Zəngilan rayonunun və Horadiz şəhərinin işğalı nəticəsində hərbi əməliyyatların genişlənməsini həyəcanla qeyd edərək, Azərbaycan Respublikasının və regionda digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığı və ərazi əldə etmək məqsədilə gücün tətbiqinin yolverilməzliyini bir daha təsdiq edərək, son zamanda çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar vəziyyətin yaranması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək, hərbi əməliyyatların yenidən başlanması ilə nəticələnən tərəflər arasında əldə edilmiş atəşkəsin pozulmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə qarşı hücumları və Azərbaycan Respublikasının ərazisinin bombardman edilməsini pisləyir; Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə və hərbi kampaniyanı genişləndirmək üçün lazımi vasitələrin münaqişəyə cəlb olunan qüvvələrə verilməməsini təmin etməyə çağırır; ATƏM-in Minsk qrupunun doqquz üzvünün 4 noyabr 1993-cü il tarixli bəyannaməsini alqışlayır və onun tərkibində atəşin dayandırılması haqqında olan birtərəfli bəyanatlarla bağlı təklifləri yüksək qiymətləndirir; maraqlı tərəflərdən ATƏM-in Minsk qrupunun 2-8 noyabr 1993-cü il tarixində Vyanada keçirilən iclasında edilən düzəlişlərlə "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların Yeniləşdirilmiş cədvəli"nə uyğun olaraq hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, Zəngilan rayonundan və Horadiz şəhərindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını və Azərbaycan Respublikasının bu yaxınlarda işğal edilmiş digər rayonlarından işğalçı qüvvələrin çıxarılmasını tələb edir; maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi təcili bərpa, onu səmərəli və daimi etməyə və ATƏM-in Minsk prosesi və Minsk qrupunun 2-8 noyabr 1993-cü il tarixli iclasında edilmiş düzəlişlərlə birlikdə "Yeniləşdirilmiş cədvəl" kontekstində münaqişənin danışıqlar vasitəsilə həllinin axtarılmasına təkidlə çağırır; regionda*

*olan bütün dövlətləri münaqişənin genişlənməsinə və regionda sülh və təhlükəsizliyin pozulmasına gətirib çıxara biləcək hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə bir daha çağırır; Baş katibdən və müvafiq beynəlxalq qurumlardan Zəngilan rayonunun, Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədinin əhalisi də daxil olmaqla zərər çəkmiş əhaliyə təcili humanitar yardım göstərməyi, qaçqın və məcburi köçkünlərə təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmaqda köməklik etməyi xahiş edir; Baş katibə, ATƏM-in fəaliyyətdə olan sədrinə və ATƏM-in Minsk konfransının sədrinə Minsk prosesinin gedişi və yerlərdə vəziyyətin bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi, bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrini verməyi davam etdirmək barədə xahişini təkrar edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır".*

Müsbət tərəfləri ilə yanaşı, qətnamə qüsursuz da deyildi. Sənəddə "Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə və hərbi kampaniyanı genişləndirmək üçün lazımi vasitələrin münaqişəyə cəlb olunan qüvvələrə verilməməsini təmin etməyə çağırır" fikirlərinin yazılması gerçəkliyi qətiyyən doğru əks etdirmirdi. Çünki Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf rayonları məhz xaricdən yardımlar alan təcavüzkar Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Dağlıq Qarabağ regionuna silah və sursat Ermənistandan daşınırdı. Qondarma qurumun əraziləri işğal etmək üçün insan potensialı, maliyyə-iqtisadi gücü və hərbi-sənaye kompleksi mövcud deyildi. Əslində Ermənistanın özü də bu baxımdan Azərbaycandan çox geri qalırdı. Ermənistan xaricdən aldığı hərbi və siyasi yardımlarla Azərbaycan ərazilərini işğal etmişdi. Qətnamədə bu ifadələrin yazılması Ermənistanı təcavüzkar dövlət kimi göstərməmək, üzdəniraq separatçı qurumu legitimləşdirmək məqsədini güdürdü.

Beləliklə, Ermənistanın kobud müdaxiləsi və hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün 1993-cü ilin sonunadək beynəlxalq hüquqi və siyasi əsaslar yaradıldı. Bu əsaslar beynəlxalq hüququn norma və prinsiplərindən, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrindən, ATƏM və digər beynəlxalq təşkilatların müvafiq sənədlərindən doğurdu. BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul etdiyi qətnamələrində Azərbaycan Respublikasının və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunmasını bir daha

təsdiqləyirdi. Təhlükəsizlik Şurası həmin sənədlərdə düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının işğal edilmiş bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir, qaçqın və məcburi köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına, ATƏM-in Minsk qrupunun səylərini bəyənərək Minsk prosesi çərçivəsində münaqişənin tənzimlənməsi yollarının axtarılmasına çağırırdı. Lakin Ermənistan bu qətnamələrin heç birini yerinə yetirmədi və təcavüzkarlıq siyasətindən imtina etmədi. Azərbaycan ərazilərini işğal edərkən Ermənistan daha çox Rusiyadakı erməni lobbisi və diasporunun təsiri altında olan bəzi şəxslərin və qrupların anti-Azərbaycan mövqeyinə güvənirdi.

### *7.6. Horadiz əməliyyatı*

Əraziləri işğal edən Ermənistan yenidən hərbi qruplaşmağa ehtiyac duyduğundan atəşkəsə razı oldu, əlavə silah və sursat aldıqdan sonra oktyabr ayının axırlarında Azərbaycan – İran sərhədində yerləşən Horadizi ələ keçirdi. Bu azmış kimi, işğalçı Ermənistan qoşunları 1993-cü ilin dekabr ayında Füzuli şəhərinin şərqinə doğru hərəkət etmək üçün cəhd göstərdi.

Azərbaycanda əvvəlki illərin mirası kimi ordu quruculuğu bərbad halda olsa da, bəzi tədbirlər görüldü. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin sədrliyi altında keçirilən hərbi müşavirədə düşmənə cavab zərbəsi endirmək məsələsi müzakirə edildi. Qəbul edilən qərara uyğun olaraq dekabrın 15-də Azərbaycan Ordusu 5 istiqamətdə – Füzuli, Xocavənd, Ağdam, Ağdərə və Kəlbəcər istiqamətlərində əks-hücuma keçdi.

Horadizə əsas zərbələri Beyləqan rayonundan vuran Azərbaycan Ordusu düşmənin müdafiəsini dağıtdı, top atəşi və raket artilleriyasının altında Füzuli rayonunun daxilinə doğru irəliləməyə başladı. 1994-cü ilin yanvar ayının əvvəllərində Azərbaycan Ordusu 11 qəsəbə və Azərbaycan – İran sərhədinin 40 kilometr uzunluğunda olan ərazisini azad etdi. Yanvarın 5-də verilən məlumata görə, Horadiz əməliyyatında iştirak edən 702-ci briqada yalnız bir gün ərzində 3 tank, 1 ədəd "Şturm-S", 6 ədəd top, 6 ədəd top qoşqusu, 10-a yaxın nəqliyyat vasitəsi, çoxlu sayda silah və sursat ələ keçirmişdi. Düşmən ağır itkilər verərək və hərbçilərinin cəsədlərini döyüş meydanında qoyaraq geri çəkilməyə məcbur oldu.[367]

367 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.167.

Horadiz qəsəbəsinin azad edilməsinin böyük əhəmiyyəti oldu. Hər şeydən əvvəl, orduda və xalqda ruh yüksəkliyi yarandı. Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarına və şimalda Füzuliyə gedən yolların mühüm kəsişməsində yerləşən Horadizin azad edilməsi nəticəsində Azərbaycan Ordusu Araz çayı üzərində Horadiz dəmiryoluna və Füzuliyə doğru irəliləyə bildi. Azərbaycan Ordusu 21 min hektar ərazini düşməndən azad etdi. Yanvarın 5-də Azərbaycan Ordusunun əsgərləri Azərbaycan Respublikasının Dövlət Bayrağını Horadiz qəsəbəsinə sancdı.

## *7.7. Prezident Heydər Əliyevin ilk xarici səfəri*

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikası dövlətinin xarici siyasət fəaliyyətində də yeni bir mərhələ başladı. İndiyədək yürüdülən xarici siyasət təkqütblü, təkistiqamətli olub, dövləti dalana dirəmişdi.

Azərbaycan tərəfi Fransa Respublikası ilə münasibətləri yaxşılaşdırmaq xəttini seçdi. İki ölkə arasındakı münasibətlərin müsbət istiqamətdə inkişafı üçün addımlar atıldı.

Prezident Heydər Əliyev ilk rəsmi səfərini 1993-cü il dekabrın 19-22-də Fransaya etdi. İlk səfərin Fransaya edilməsi səbəbsiz deyildi. Məlum olduğu kimi, hələ orta əsrlərdən Azərbaycan və fransız xalqları arasında müəyyən əlaqələr mövcud olmuşdu, onları bir sıra tellər bağlayırdı. Qarşılıqlı əlaqələrdə səyyahlar mühüm rol oynamışdılar. Çarizm dövründə bir sıra fransız şirkətləri Bakı neft sənayesində çalışmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi ilk dəfə olaraq 1920-ci il yanvarında məhz Parisdə – dünya demokratiyasına böyük töhfələr vermiş bir ölkənin paytaxtında tanınmış, Azərbaycan Avropa dövlətləri ailəsinin üzvlüyünə qəbul edilmişdi. Prezident Heydər Əliyevin Fransaya rəsmi səfəri Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əbədi olacağına, ölkəsinin azadlıq, demokratiya yolu ilə irəliləyəcəyinə bir işarə idi.

Azərbaycan 1920-ci ilin aprelində işğal edildikdən sonra bəzi azərbaycanlı siyasi mühacirlər Fransada sığınacaq tapmışdılar. Fransa hökuməti bolşevik işğalına qarşı çıxaraq Azərbaycanın dövlət müstəqilliyinin bərpası məqsədi ilə hətta konkret planlar da hazırlamışdı.[368] Fransanın Baş naziri Raymond Puankare[369] bolşevik hakmiyyətinin qurulmasına baxmayaraq, Azərbaycan ilə yaxşı münа-

368 Qasımlı M. Azerbaycan türklerinin milli mücadele tarihi. 1920-1945. İstanbul, 2006, s.79-82.
369 Raymond Puankare (1860-1934) – Fransada III Respublikanın Prezidenti (1913-1920). Baş nazir (1912-1913,1922-1924, 1926-1929).

sibətlər saxlanılmasının vacibliyini 20-ci illərin əvvəllərində parlamentdə nitqi zamanı bildirsə də, həmin planları reallaşdırmaq mümkün olmamışdı.

Azərbaycanlılar İkinci Dünya müharibəsi illərində Fransada anti-faşist müqavimət hərəkatında fəal iştirak etmiş və bu ölkənin faşizm əsarətindən azad edilməsində qəhrəmanlıqlar göstərmişdilər. Fransanın görkəmli dövlət və siyasi xadimi Şarl de Qoll[370] müharibə illərində Moskvaya gedərkən Bakıda olmuş və xoş xatirələrlə Azərbaycandan ayrılmışdı.

SSRİ-nin tərkibində olduğu müddət ərzində Azərbaycan SSR mərkəzi hökumətin vasitəsilə Fransa ilə mədəni əlaqələrdə iştirak etmişdi.

Azərbaycan Respublikası Prezidentinin səfəri iki ölkə arasında münasibətləri yaxşılaşdırmaq və başqa ölkənin təsirindən asılı etməyə son qoymaq niyyəti güdürdü. Azərbaycanın Fransa üçün əhəmiyyətli bir ölkə olduğu fransız rəsmi dairələrinə göstərilməli idi.

Erməni lobbisi və diasporunun təsirinin güclü olduğu Fransaya Azərbaycan dövlət başçısının səfərinin dərin mənası var idi. Fransa inqilabı Avropaya və dünyaya demokratik ideallar, azadlıq, bərabərlik və qardaşlıq ideyalarını vermişdi. Azərbaycan Respublikası dövləti də demokratik inkişaf yolunu qəbul etmişdi.

Fransa Respublikası BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri və NATO üzvü kimi dünya siyasətində mühüm yer tuturdu. Nüvə dövləti, dünyanın bütün qitələrində geniş əlaqələri olan Fransa Avropa inteqrasiyasının fəal tərəfdarlarından və Avropa İttifaqının aparıcı dövlətlərindən biri idi. Bütün bu amillər iki ölkə arasında münasibətlərin inkişafını zəruri edirdi.

Azərbaycan Respublikası Prezidentinin Fransa Prezidenti Fransua Mitteran ilə danışıqlarında fransız tərəfinə iki ölkə arasında iqtisadi əməkdaşlığa dair təkliflər paketi təqdim olundu və Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi yolları müzakirə edildi. Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən F.Mitteran dedi:

*"Biz sülh və təhlükəsizlik prinsiplərinə əsasən sərhədlərin silah və zor gücünə dəyişdirilməsinə yol verməzik. Biz müstəqillik və suverenliyin qanunla qorunmasını istəyirik".*[371]

Dekabrın 20-də iki dövlət arasında 20 maddədən ibarət dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə imzalandı.[372] Müqavilədə tərəflər iki xalq arasında anlaşma və dostluğa imkan yaradan bütün sahələrdə əməkdaşlıq münasibətlərini inkişaf etdirmək, zəruri hallarda bu müqavilənin müddəa-

370 Şarl de Qoll (1890-1970) – Fransada V Respublikanın Prezidenti (1959-1969).
371 Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı, 1994, s.39.
372 Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə. 20 dekabr 1993-cü il // Müqavilələr toplusu. I cild. Bakı, 2008, s.17-23.

larını həyata keçirmək üçün digər sazişlər bağlamaq, siyasi əməkdaşlıqdan həm ikitərəfli, həm də çoxtərəfli istqamətlərdə istifadə etmək; azadlıq və demokratiya kimi ümumi məqbul dəyərləri bəyənərək həmin sahələrdə əməkdaşlıq etmək; Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə həm ikitərəfli, həm də beynəlxalq problemlər üzrə fikir mübadiləsi üçün müvafiq səviyyələrdə müntəzəm məşvərətlər, işgüzar görüşlər keçirmək barədə öhdəlik götürürdülər.

Fransa dövləti Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafına kömək etməyə söz verdi. İki ölkə ATƏM çərçivəsində əməkdaşlıq edəcəkdilər. Azərbaycan və Fransa hərbi sahədə əlaqələri inkişaf etdirib dərinləşdirəcəkdilər. Digər sahələrdə də əməkdaşlıq nəzərdə tutulmuşdu. Müqavilə üçüncü ölkələr qarşısındakı öhdəliklərə toxunmur və onlardan hər hansı birinə qarşı yönəlməmişdi.

Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti hələ 1990-cı ildə qəbul edilmiş Avropa üçün Paris xartiyasını imzaladı.[373] Həmin sənədə qoşulmaqla Azərbaycan rəsmi şəkildə BMT nizamnaməsinə, təhlükəsizlik və əməkdaşlıq haqqında beynəlxalq normalara və prinsiplərə əməl edəcəyini təsdiqləməklə bərabər, təhlükəsizliyini beynəlxalq təhlükəsizlik ilə əlaqələndirirdi. Bu, Azərbaycan Respublikasının Avropa təhlükəsizlik sisteminə doğru atdığı ciddi bir addım idi.

Azərbaycan dövlət başçısının Fransa Respublikasına rəsmi səfərinin böyük əhəmiyyəti var idi. Keçirilən danışıqlar ölkə rəhbərlərinin müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək istəklərini göstərdi. İki ölkə arasında münasibətlərdə şübhələr və etimadsızlıq aradan qalxmağa başladı. Fransa Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini müdafiə etdiyini bəyan etdi, zor yolu ilə ərazilərin işğal edilməsini pislədi, dövlətlərarası münasibətlərdə ümumi qəbul olunmuş normaların üstünlüyünü bildirdi. Bu səfərə qədər Fransanın Ermənistan – Azərbaycan münaqişəsində mövqeyi birmənalı olaraq ermənipərəst idisə, bundan sonra rəsmi mövqedə tarazlaşdırılmış elementlər, sülhə riayət etmək, ərazi bütövlüyü, insan hüquqları, dialoq və razılıq elementləri meydana gəldi. Azərbaycan haqqında həqiqətlər Fransada tədricən yayılmağa başladı. Fransa ATƏM-in Minsk qrupunun fəaliyyətini qətiyyətlə müdafiə etdi, tərəfləri atəşi təcili dayandırmağa və dialoqa başlamağa çağırdı. Fransa Azərbaycanın Dağlıq Qarabağ regionundan məcburi köçkünə çevrilmiş azərbaycanlı əhaliyə və blokada şəraitində olan Naxçıvana humanitar yardım göstərən ilk ölkələrdən biri oldu. Fransız hökuməti, həmçinin Ermənistanda tarixi torpaqlarından qovulan azərbaycanlı qaçqınlara da yardım etdi.

373 Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır, s.39.

Aparılan danışıqlar münasibətlərin səviyyəsinin tərəflərin imkanlarından aşağı olduğunu və onun geniş perspektivlərinin mövcudluğunu göstərdi. Azərbaycanın fransız kapitalı üçün cəlbedici ölkə olduğu və qarşılıqlı münasibətlərin inkişafında yeni imkanlar açdığı barədə Heydər Əliyev deyirdi:

*"Biz Azərbaycan ilə Fransa arasında çoxsahəli əməkdaşlığın inkişafı üçün, Azərbaycanın Fransada daha yaxşı təmsil olunması üçün indi yaradılmış imkanlardan maksimum səmərə ilə istifadə olunmasından ötrü gələcəkdə də hər şeyi edəcəyik".*[374]

## *7.8. Azərbaycan – Türkiyə münasibətlərində yeni mərhələnin başlanması*

Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə Azərbaycan – Türkiyə ikitərəfli münasibətlərdə yeni bir mərhələ başlandı. Qeyd etmək lazımdır ki, Türkiyə hökuməti Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan dövlətinin xarici siyasət xəttinin dəyişəcəyindən narahat idi. Yeni şəraitdə Türkiyə Azərbaycanın daxili işlərinə qarışmasa da, baş verən proseslərə, xarici siyasətdə atılan addımlara, xüsusən Ermənistanın davam edən təcavüzünə seyrçi də qalmadı.[375]

1994-cü ilin yanvar ayında Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl[376] Prezident Heydər Əliyevə məktub göndərərək iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi istəyini çatdırdı və ölkəsinə rəsmi səfərə dəvət etdi. Həmin il fevralın 8-11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə dörd günlük rəsmi səfər etdi. Səfərə xüsusi əhəmiyyət verən Azərbaycan dövlət başçısı deyirdi:

*"Türkiyə Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkədir. Xalqlarımız arasında böyük tarixə malik dostluq, qardaşlıq əlaqələri var... Azərbaycan müstəqillik əldə etdikdən sonra bu əlaqələr daha da möhkəmlənmişdir. Lakin görüləsi işlər hələ çoxdur".*[377]

Səfər zamanı keçirilən danışıqlarda iki ölkə arasında münasibətlərin inkişaf perspektivləri, regional problemlər, Ermənistanın Azərbaycana qarşı davam

374 Əliyev H.Ə. Fransaya rəsmi səfər zamanı Parisdə mətbuat konfransında bəyanat. 21 dekabr 1993-cü il // Müstəqilliyimiz əbədidir. I kitab, s.292.

375 Heydər Əliyev: "Uzun-uzadı diplomatik danışıqlardan konkret işlərə" // "Xalq qəzeti", 1993, 22 iyul.

376 Süleyman Dəmirəl (1924-2015) – Türkiyə Cümhuriyyətinin 9-cu Prezidenti (1993-2000). 5 dəfə Baş nazir olmuşdur.

377 Əliyev H.Ə. Türkiyə Cümhuriyyətinə rəsmi səfərə yola düşərkən Binə hava limanında jurnalistlərə müsahibə. 8 fevral 1994-cü il // Müstəqilliyimiz əbədidir. I kitab, s.358.

edən hərbi təcavüzü məsələləri müzakirə edildi. Azərbaycan tərəfi münaqişənin dinc yollarla tənzimlənməsini, bu məsələdə böyük dövlətlərdən və Minsk qrupundan dəstək istəyirdi. Azərbaycanın başlıca problemi Ermənistan tərəfindən ərazilərinin işğalı idi. Prezident Heydər Əliyevin fikrincə, ötən illərdə Azərbaycanın daxilində baş verən siyasi çəkişmələr Ermənistanın işinə yaramış, ölkənin 20% ərazisi işğal edilmiş və təsərrüfat həyatı pozulmuşdu. Türkiyə tərəfi danışıqlar zamanı Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə tam dəstək verdi.

Türkiyə Böyük Millət Məclisində fevralın 9-da söylədiyi nitqində ölkəsinin keçdiyi yol üzərində dayanan, iki xalq arasında əlaqələrin tarixinə diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti dedi:

*"Türkiyə və Azərbaycan arasında əlaqələrin böyük tarixi var. Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir... Əsrlər boyu xalqlarımız bir olmuş, çiyin-çiyinə vermişlər. Azərbaycan ilə Türkiyə arasında əlaqələri dostluq, qardaşlıq əlaqələri adlandırmışlar. Bu əlaqələr bir xalqdan, bir kökdən gələn xalqların əlaqələridir".*[378]

Ermənistanın təcavüzü və nəticələri üzərində dayanan dövlət başçısı münaqişənin tənzimlənməsində Azərbaycanın mövqeyini geniş izah etdi.

Fevralın 9-da iki ölkə arasında müxtəlif sahələri əhatə edən 16 sənəd imzalandı.[379] Azərbaycan ilə Türkiyə arasında 19 maddədən ibarət dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilədə[380] tərəflərin bir çox sahələrdə əməkdaşlığı nəzərdə tutulmuşdu.

İmzalanan sənədlər əhəmiyyətli idi. İki ölkə arasında münasibətlərin hüquq-müqavilə bazasını möhkəmləndirən bu sənədlərin imzalanma mərasimində etdiyi nitqində Prezident Heydər Əliyev bildirdi:

*"...Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir. Bu mərhələ əvvəldən indiyədək görülmüş işlərin üzərində qurulur"*[381], *"hazırlanmış sazişlər, müqavilələr, anlaşmalar tarixi sənədlərdir və bizim gələcək əlaqələrimiz üçün yeni yollar, yeni cığırlar açır".*[382]

Böyük əhəmiyyət daşıyan səfər zamanı, hər şeydən əvvəl, iki ölkə arasında münasibətlərdə olan bəzi anlaşmazlıqlar aradan qaldırıldı, Türkiyədə

378 Əliyev H.Ə. Türkiyə Böyük Millət Məclisində nitq. 9 fevral 1994-cü il // Müstəqilliyimiz əbədidir. I kitab, s. 366.
379 Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır, s. 82.
380 Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə // Müqavilələr toplusu. I cild. Bakı, 2008, s.24-28.
381 Əliyev H.Ə. Türkiyə – Azərbaycan sənədlərinin imzalanması mərasimində nitq. 9 fevral 1994-cü il // Müstəqilliyimiz əbədidir. I kitab, s.374.
382 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə birinci rəsmi səfəri // Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab. Bakı, 2005, s.58.

Azərbaycanın inkişaf yolu barədə aydın təsəvvür yarandı. İmzalanan sənədlər qarşılıqlı münasibətlərin daha da inkişaf etdirilməsinə əsas verirdi. Türkiyə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündə birmənalı mövqeyini bir daha bəyan edərək işğala son qoyulmasına çağırdı.

### *7.9. Bişkek protokolu*

Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üstündə Rusiya və ATƏM arasında rəqabət mövcud idi. ATƏM-in, yoxsa Rusiyanın sülhməramlı qüvvələrinin münaqişə zonasına göndərilməsi məsələsində fikir ümumiliyi yox idi və mübahisələr gedirdi.[383] Keçmiş sovet məkanını özünün maraq dairəsi hesab edən və digər dövlətləri bu əraziyə buraxmaq istəməyən Rusiya dövləti sülhməramlı qüvvələr adı altında hərbçilərini göndərərək hərbi bazasını qurmağa çalışırdı.[384]

1993-cü ilin sonlarında Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi planını təqdim etdi. Həmin plana görə, bir sıra məsələlərlə yanaşı, Azərbaycan-İran sərhədi Rusiyanın nəzarətinə keçməli, Azərbaycanda Rusiya hərbi bazaları qurulmalı və Azərbaycanın Xəzər dənizində iqtisadi maraqları 10 mil məsafəlik zona ilə məhdudlaşdırılmalı idi.[385]

Xeyli mübahisəli olan bu planda bir sıra məsələlər açıq qalırdı. Hər şeydən əvvəl, sülhməramlı qüvvələrin yerləşdirilməsi üçün münaqişədə iştirak edən tərəflərin razılığı tələb olunurdu. Lakin bu məsələdə fikir birliyi mövcud deyildi. İkincisi, münaqişənin tənzimlənməsi üçün mandat ATƏM-in Minsk qrupuna verilmişdi. ATƏM isə çoxtərəfli fəaliyyəti müdafiə edirdi.

Azərbaycan-İran sərhədinin Rusiyanın nəzarətinə keçməsi məsələsinə gəlincə, İranla quru, su və hava sərhədlərini etibarlı qoruyan Azərbaycanın xarici yardıma ehtiyacı yox idi. Rusiyanın bu məsələdə guya terrorçuların Azərbaycan-İran sərhədini keçərək Şimali Qafqaza daxil olmaları barədə iddiaları gerçəkliyi əks etdirmirdi, strateji məqsədinə çatmaqda yalnız bir vasitə idi. Birincisi, erməni terrorundan əziyyət çəkən Azərbaycan öz sərhədlərini yaxşı qoruyurdu. İkincisi, Azərbaycan ərazisinə daxil ola bilən terrorçu Azərbaycan-Rusiya sər-

383 Milanova N.K. The conflict over Nagorno Karabakh 1992-2002: Ten years of missed conflict resolution opportunities. Two volumes. Second volumes. To the University of Excter as a thesis for the degree of doctor of philosophy in politics. November 2002, p. 296.
384 Yeltsin Kafkasları zorluyor // "Zaman" gazetesi, İstanbul, 1994, 17 Nisan.
385 Федоров Ю. Каспийская нефть и международная безопаность. Выпуск 1. Аналитический доклад по материалам международной конференции. М., 1996, с. 106-107.

hədini keçərək Şimali Qafqaza girə bilərdi. Bu sərhədi isə hər iki dövlətin sərhədçiləri qoruyurdu. Deməli, terrorçuların Şimali Qafqaza daxil olmaları yalnız Rusiya sərhədçilərinin yoxlamasından sonra mümkün idi. Rusiyanın heç bir əsası olmayan bu iddialarının arxasında ilk növbədə, yeni müstəqil dövlətləri özünə sıx bağlamaq və SSRİ-ni başqa formalarla bərpa etmək niyyətləri dayanırdı. Ona görə də Azərbaycan-İran sərhədinin Rusiya hərbçilərinin nəzarətinə keçməsinə dair təklif rədd edildi.

Xəzər dənizində mövcud olan problemlər isə ikitərəfli və sahilyanı ölkələrin razılığı ilə həll edilə bilərdi. Bu məsələlər isə Xəzər dənizinin hüquqi statusuna dair aparılan danışıqlarda müzakirə edilirdi.

Münaqişənin tənzimlənməsində öncül rola sahib olmaq məqsədilə Rusiya səylərini artırdı. Xarici işlər naziri Andrey Kozırev 1994-cü il yanvarın 18-də Moskvada Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov, yanvarın 20-də isə Ermənistanın xarici işlər naziri Raffi Ovanesyan ilə görüşərək Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi yollarını müzakirə etdi. Bundan bir müddət sonra, fevralın 18-də Moskvada Rusiya, Azərbaycan və Ermənistan nümayəndələrinin görüşündə Rusiyanın hazırladığı və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsinə köməyi nəzərdə tutan 16 maddədən ibarət plan müzakirə edildi.[386] Ziddiyyətlərlə dolu olan həmin plana əsasən Ermənistan tərəfi Azərbaycan torpaqlarında olan əsgərlərini Dağlıq Qarabağa *(sanki Dağlıq Qarabağ regionu Azərbaycana məxsus deyilmiş – M.Q.)* toplamalı; Dağlıq Qarabağ bölgəsi ilə Azərbaycan arasındakı bufer zonaya sülhməramlı qüvvələr gətirilməli *(sülhməramlı qüvvələr dedikdə, Rusiya hərbi qüvvələri nəzərdə tutulurdu – M.Q.)*; Laçın rayonu dəhliz olaraq elan edilməli və erməni hərbi qüvvələrinin nəzarətində olmalı; Azərbaycan tərəfi Kəlbəcər və Laçında olan hərbi və texniki avadanlığı tələb etməməli *(Azərbaycana məxsus olan işğaldan əvvəlki hərbi avadanlıq nəzərdə tutulurdu – M.Q.)*; Şuşaya əvvəlcə erməni əsgərləri yerləşdirilməli, sonra isə 60 min azərbaycanlı köçkün qaytarılmalı; sülh danışıqlarında Azərbaycanın Dağlıq Qarabağ bölgəsi erməniləri tərəf kimi qəbul edilməli; Azərbaycan–Ermənistan–Naxçıvan arasında kommunikasiyalar açılmalı; Azərbaycan–Ermənistan sərhədinə Azərbaycan Ordusu tərəfindən nəzarət edilməməli; işğal edilmiş rayonlar azad edildikdən sonra oraya Azərbaycan ordu hissələri yeridilməməli; Dağlıq Qarabağın respublika statusu tanınmalı; Kür və Araz çayları arasındakı ərazi təhlükəsizlik bölgəsi elan edilməli idi və s.

386 Rus planı ölüm fermanı // "Zaman" gazetesi, İstanbul, 1994, 24 Nisan.

Təklif edilən layihədə işğal olunmuş ərazilərin boşaldılmasından söz gedəndə Şuşa və Laçının adı çəkilmir, Azərbaycanın Dağlıq Qarabağ regionunun statusunun sonralar güzəştli zəmində müəyyən ediləcəyi, boşaldılmış ərazilərə hərbi qüvvələrin yerləşdirilməsinin MDB Birləşmiş Qərargahına həvalə olunacağı nəzərdə tutulurdu.[387]

1994-cü il fevralın 18-də Moskvada Azərbaycan, Ermənistan və Rusiya müdafiə nazirləri arasında mayın 8-9-dan etibarən atəşkəs elan ediləcəyi haqqında saziş imzalandı. Az sonra Rusiya müdafiə nazirinin müavini və digər şəxslər Bakıya və Yerevana səfər edərək atəşkəsə dair müzakirələr apardılar.

Bu zaman cəbhədə döyüşlər davam edirdi. Aprelin 10-da Heydər Əliyev cəbhə bölgəsinə səfər etdi. Milli Məclisin aprelin 22-də keçirilən iclasında Qarabağda atəşi dayandırmaq haqqında Rusiya layihəsinin olduğuna dair məlumat verildi. Bildirildi ki, Ermənistan Prezidenti L.Ter-Petrosyan həmin sənədə imza atmağa hazırdır.[388]

Müdafiə naziri Məmmədrəfi Məmmədov[389] və xarici işlər naziri Həsən Həsənov atəşkəs layihəsi barədə məlumat verdilər. Xarici işlər naziri dedi ki, Azərbaycan tərəfi əgər layihəni qəbul etsə, onda işğalçı qüvvələr Dağlıq Qarabağ regionunda və Laçın rayonunda cəmlənir, lakin Azərbaycan Respublikasının hüdudlarından çıxarılmır. Azərbaycan Dağlıq Qarabağ regionundakı hərbi potensiala nəzarət edə bilmirdi. Dağlıq Qarabağ regionunun ətrafına beynəlxalq müşahidəçilər yerləşdirilirdi. Laçından işğalçı qüvvələr çıxarılmır, bu rayon dəhliz olaraq Ermənistanın nəzarətində qalırdı. Ermənistanın icazəsi ilə xarici müşahidəçilər həmin əraziyə buraxıla bilərdilər. Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarından erməni qoşunları çıxarılsa da, həmin rayonlara Azərbaycanın ağır texnikası daxil ola biməzdi. 50 mindən artıq azərbaycanlı məcburi köçkün geri qayıtmırdı. Bu məsələ sonrakı müzakirələrin mövzusu olurdu. Köçkünlər yalnız Şuşaya qayıda bilərdilər, bu da real deyildi. Şuşa şəhəri Ermənistanın nəzarətində olurdu, yalnız bu şərtlə mülki əhali oraya qayıda bilərdi. Ağdərənin erməni yaşayış məntəqələri geri verilməli idi. Sazişdə bu, "digər tərəfə verilir" ifadələri kimi yazılmışdı. Tərəf deyildikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış qondarma qurum nəzərdə tutulurdu. Keçmiş Şaumyan rayonu ərazisindən Azərbaycan orduları

387 Martin Sieff. Armenia Armed by Russia for battles with Azerbaijan // "The Washington Times", 1997, 10 April.

388 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 clddə. II cild, s.177.

389 Məmmədrəfi Məmmədov (1942) – general-leytenant, SSRİ ordusunun Mərkəzi Asiyada korpuslarından birinin komandir müavini (1982–1983), SSRİ Müdafiə Nazirliyinin Baş Qərargah Akademiyasının rəis müavini (1989), Azərbaycan Respublikasının müdafiə naziri (1993-1995).

çıxarılırdı və həmin ərazi qondarma qurumun nəzarətinə keçirdi. Layihəyə görə, Dağlıq Qarabağ danışıqlarda tərəf olmalı idi. Dağlıq Qarabağ regionunun azərbaycanlı əhalisi üçün belə bir hüquq tanınmırdı. Azərbaycandan Ermənistana gedən bütün kommunikasiyaların açılması nəzərdə tutulsa da, bu, yüklərin hələ Naxçıvana gedib çıxması demək deyildi. Müşahidəçilərin yerləşdirilməsi üçün olan beynəlxalq mandata Ermənistan və qondarma qurum razılıq verməli idi. Bu isə Azərbaycan ərazisinin bir hissəsinin onların nəzarətində qalması və qondarma qurumun tərəf kimi tanınması demək idi. Layihədə nəzərdə tutulan 10 kilometrlik bufer zonaya Ağdam, Füzuli, Cəbrayıl və Tərtər daxil olurdu. Saziş layihəsi əslində Dağlıq Qarabağ regionunun beynəlxalq-hüquqi statusunu müəyyənləşdirirdi. Belə ki, artıq qeyd edildiyi kimi, layihədə "digər tərəf" ifadəsi işlədilirdi, yəni həmin ərazilərin Azərbaycana aid olduğu qəbul edilmirdi. Bu isə o demək idi ki, Dağlıq Qarabağ regionunda yaşayan 50 min nəfərlik azərbaycanlı əhali yaşayış yerinə qayıda bilmirdi, 100 min erməni isə təhlükəsiz şəraitdə yaşayırdı, hətta digərləri də gəlib həmin ərazidə yaşaya bilərdilər.

Rusiya və Ermənistanın bu layihəni birgə işlədiklərini qeyd edən Həsən Həsənov onun bütün tərəfləri haqqında məlumat verdikdən sonra müzakirələr başladı. Çıxış edən deputatlar layihəyə etiraz edərək onun qəbulolunmazlığını vurğuladılar.

Mayın 3-4-də Prezident Heydər Əliyev Belçikaya səfər edərək NATO və Avropa İttifaqı rəhbərləri ilə görüşüb əməkdaşlıq məsələlərini və Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi yollarını müzakirə etdi. Bu təşkilatların rəhbərləri münaqişənin dinc siyasi vasitələrlə tənzimlənməsinə tərəfdar olduqlarını bəyan etdilər.

Rusiyanın təklifi və Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının təşəbbüsü ilə 1994-cü il mayın 5-də Qırğızıstanın paytaxtı Bişkekdə Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair Azərbaycan, Ermənistan və Dağlıq Qarabağın erməni icmasının nümayəndələrinin görüşü keçirildi.[390]

Azərbaycan tərəfini bu görüşdə Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini Afiyəddin Cəlilov başda olmaqla nümayəndə heyəti təmsil edirdi. Masa arxasında Afiyəddin Cəlilov, Ermənistan Respublikası parlamentinin sədri Babken Arakçyan, qondarma "Dağlıq Qarabağ parlamenti"nin spikeri kimi təqdim edilən hansısa Karen Baburyan, MDB iştirakçısı olan ölkələrin Parlamentlərarası Assambleyasının sədri, Rusiya Federasiyası Federasiya

390 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.178.

Şurasının sədri Vladimir Şumeyko[391], Qırğızıstan Respublikası Ali Sovetinin sədri Medetkan Şerimkulov[392], Rusiya Federasiyası Prezidentinin səlahiyyətli nümayəndəsi, Rusiya vasitəçilik missiyasının rəhbəri Vladimir Kazimirov[393], MDB iştirakçısı olan ölkələrin Parlamentlərarası Assambleya Şurasının katibliyinin rəhbəri Mixail Krotov üçün yer ayrılmışdı. Dağlıq Qarabağın azərbaycanlı əhalisinin nümayəndəsi üçün yer nəzərdə tutulmamışdı.[394]

Atəşkəsi nəzərdə tutan Bişkek protokolunun layihəsi təqdim edildi. Hazırlanmış protokolda Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətrafında silahlı münaqişənin dayandırılmasına hər vəchlə kömək edilməsi, tezliklə müvafiq saziş bağlanması, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsi üçün MDB və Parlamentlərarası Assambleyanın fəal rol oynaması qəbul edilir, atəşi dayandırmağa və müşahidəçiləri yerləşdirməyə, işğal edilmiş ərazilərdən orduları çıxarmağa, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıtmalarına dair çağırış edilirdi. Protokola görə, təmas xəttinə müşahidəçilər yerləşdirilməli idi. Müşahidəçilər dedikdə, Rusiya qüvvələri nəzərdə tutulurdu.

Sənədi imzalayanların arasında Dağlıq Qarabağ regionunun azərbaycanlı icmasının nümayəndəsi nəzərdə tutulmadığı üçün Afiyəddin Cəlilov onu imzalamaqdan imtina etdi. Sonradan, mayın 8-də Vladimir Kazimirov həmin protokolu imzalatmaq üçün Bakıya gətirdi. Milli Məclisin sədri Rəsul Quliyev[395] Bişkek protokolunun mətninə Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun azərbaycanlı əhalisinin nümayəndəsi Nizami Bəhmənovun adını əlavə edərək iki qeydlə imza atdı. Protokolun 5-ci abzasında "tutulmuş ərazilər" ifadələri "işğal edilmiş ərazilər" sözləri ilə əvəz edildi və atəşkəsdən sonra cəbhə xəttində yerləşdiriləcək "müşahidəçilər" ifadəsinin əvəzində isə "beynəlxalq müşahidəçilər missiyası" sözləri yazıldı. Sənədə əsasən tərəflər tezliklə beynəlxalq vasitəçilik sayəsində Böyük siyasi sazişi imzalamalı idilər.

Bişkek protokolu Azərbaycanda birmənalı qarşılanmadı. Milli Məclisdə bəzi deputatlar onun əleyhinə çıxış etdilər.

Vladimir Kazimirova görə, Rusiya planının üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdu. Birinci mərhələdə altı gün ərzində atəşkəs elan edilməli idi. İkinci mərhələdə Azərbaycanın Dağlıq Qarabağ regionundan kənarda işğal edil-

391 Vladimir Şumeyko (1945) – Rusiya Federasiyası Federal Məclisi Federasiyası Şurasının sədri (1994-1996).
392 Medetkan Şerimkulov (1939) – Qırğızıstan Respublikası Ali Sovetinin sədri (1990-1994).
393 Vladimir Kazimirov (1929) – Rusiya Prezidentinin Dağlıq Qarabağ münaqişəsini tənzimləməkdə xüsusi nümayəndəsi, Minsk qrupunun həmsədri (1992-1996).
394 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 210-212.
395 Rəsul Quliyev (1947) – Azərbaycan Respublikası Milli Məclisinin sədri (1993-1996).

miş 6 rayon 34 gün ərzində boşaldılmalı idi. Üçüncü mərhələdə Dağlıq Qarabağ regionunun statusuna dair müzakirələrə başlanılmalı idi. Onun fikrincə, həmin planı qəbul etməklə Azərbaycan Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcər rayonlarını geri qaytarır, Şuşa və Laçının taleyi ilə bağlı müzakirələr etmək imkanı qazanırdı. Vladimir Kazimirov Şuşa üçün Qüds (Yerusəlim) kimi ortaq şəhər statusu düşünürdü. Lakin həmin plan beynəlxalq hüquq normalarına uyğun olmadığından, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyinə zidd olduğundan rəsmi Bakı tərəfindən rədd edildi. Bununla belə, Rusiya və ATƏM-in səyləri ilə 1994-cü il mayın 9-da Ermənistan və Azərbaycan mayın 12-dən etibarən atəşkəs elan edəcəklərini bildirdilər.

Atəşkəsin elan edilməsinin ardınca mayın 16-17-də Moskvada Rusiya, Ermənistan və Azərbaycan müdafiə nazirlərinin görüşündə atəşin tamamilə dayandırılmasını və Böyük siyasi sazişinin imzalanmasını nəzərdə tutan sənəd layihəsi müzakirə edildi. Azərbaycan tərəfi həmin görüşə ATƏM nümayəndəsinin də çağırılmasını təklif etdi. Vladimir Kazimirov münaqişəni nizamlamanın birinci mərhələsinin, yəni atəşin dayandırılmasının və atəşkəsin möhkəmləndirilməsinin əsas məsələ olduğunu bildirdi. İkinci mərhələyə qədəm qoymaq üçün Böyük siyasi saziş imzalanmalı, bundan sonra işğal edilmiş ərazilərdən qoşunlar çıxarılmalı idi. Görüşdə Vladimir Kazimirov Azərbaycanın Dağlıq Qarabağ regionunda sülhməramlı qüvvələrin tərkibində Rusiya tərəfinin fəal olması təklifini irəli sürdü. Lakin sonralar onun yazdığına görə, Azərbaycanın müdafiə naziri ölkə rəhbərliyinin göstərişi ilə həmin sənədi imzalamadan görüşü tərk etdi.[396]

Beləliklə, "nə sülh, nə də hərb" vəziyyəti yarandı. Münaqişə bölgəsinə sülhməramlı qüvvələr yerləşdirilmədi. Çünki bu məsələdə təkcə Azərbaycan etiraz etmirdi, eyni zamanda ABŞ və Rusiya arasında da ciddi fikir ayrılıqları var idi.

Azərbaycan tərəfinin atəşkəsə razılıq verməsi yaranmış real şəraitdən doğurdu. Azərbaycan ya əlverişsiz beynəlxalq şəraitdə ölkəyə böyük maddi və mənəvi ziyanlar vuran, nə zaman bitəcəyi bilinməyən qanlı müharibəni davam etdirməli, ya da atəşkəsin elan edilməsinə razı olaraq ölkənin inkişafı üçün mənbələri tapmalı, neft strategiyasını həyata keçirməklə daha çox xarici sərmayə cəlb etməli, xalqın həyat səviyyəsini yüksəltməli, sosial-iqtisadi və digər sahələrdə islahatlar aparmalı, təbii sabitliyə nail olmalı, ordusunu gücləndirməli, beynəlxalq mövqelərini möhkəmləndirməli və qüdrətli dövlətə çevrilməli idi. Azərbaycan dövləti yaranmış şəraitə praqmatik yanaşdı və atəşkəsə razılıq verdi. Azərbaycan tərəfi üçün atəşkəs torpaqlarını işğaldan azad etməyə hazırlaş-

396 Казимиров В.Н. Мир Карабаху. Посредничество России в урегулировании нагорно-карабахского конфликта, с. 190.

maqda və güclənməkdə vaxt qazanmaq vasitəsi idi. Məhz bu zamandan etibarən Azərbaycan Respublikasında güclü ordu və dövlət quruculuğu prosesi başladı

Ermənistanın atəşkəsə razılıq verməsinə Azərbaycanın uğurlu Horadiz əməliyyatı təsir göstərdi. Atəşkəsə getməkdə təcavüzkar ölkənin başlıca məqsədi işğal edilən əraziləri "oldu-bitdi" kimi qələmə vermək və münaqişənin tənzimlənməsinə dair aparılan danışıqlar prosesini uzatmaq idi.

***

Fəsildə tədqiq edilən məsələlər göstərir ki, Prezident Əbülfəz Elçibəy Kələki kəndinə getdikdən sonra ölkədəki şərait daha da ağırlaşmışdır. Vəziyyətdən çıxmaqdan ötrü ona etimad referendumu keçirilmişdir. Referendumda iştirak edənlərin mütləq əksəriyyəti prezidentə etimad göstərməmişdir. Bundan sonra prezident səlahiyyətləri parlamentin sədri Heydər Əliyevə keçmişdir. Hakimiyyətin qarşısında dayanan başlıca vəzifə Ermənistanın davam edən hərbi təcavüzünü dayandırmaq olmuşdur. Azərbaycan Respublikası MDB-yə üzv qəbul edilmişdir. 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasında prezident seçkiləri keçirilmişdir. Müxtəlif siyasi partiyaların nümayəndələrinin iştirak etdiyi seçkidə seçicilərin mütləq əksəriyyəti Heydər Əliyevə səs vermişdir. Beləliklə, Heydər Əliyev Azərbaycan Respublikasının sayca üçüncü prezidenti seçilmişdir.

Ermənistan isə ərazi işğallarını davam etdirmişdir. Azərbaycan Respublikasının tələblərinə əsasən toplaşan BMT Təhlükəsizlik Şurası qəbul etdiyi 874 saylı qətnaməsində işğalçı qüvvələrin işğal etdiyi ərazilərdən çıxmasını tələb etmişdir. Buna məhəl qoymayan təcavüzkar Ermənistan Zəngilan rayonunu işğal etmişdir. Azərbaycan Respublikasının tələbi ilə toplanan BMT Təhülkəsizlik Şurası 884 saylı qətnaməsini qəbul etmişdir.

Ölkədə yaranmış ağır vəziyyətə baxmayaraq, Heydər Əliyevin Ali Baş Komandanlığı altında Azərbaycan Ordusu uğurlu Horadiz əməliyyatını həyata keçirmiş və bir sıra əraziləri işğalçılardan azad etmişdir. Milli ruhu və qələbə əzmini yüksəldən bu hadisə atəşkəsin əldə edilməsinə təsir edən amillərdən biri olmuşdur.

Fəal xarici siyasət xətti yürüdən Heydər Əliyev ilk rəsmi səfərini Fransa Respublikasına etmişdir. Səfər zamanı keçirilən danışıqlar və imzalanan sənədlər qarşılıqlı münasibətlərin hüquq-müqavilə bazasının yaradılması və inkişafı baxımından əhəmiyyətli olmuşdur.

Prezident Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə ilk rəsmi səfəri həm ikitərəfli, həm də regional əməkdaşlıq baxımından müstəsna rol oynamışdır.

Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün müxtəlif cəhdlər edilmişdir. MDB Parlamentlərarası Assambleyasının təşəbbüsü ilə Qırğızıstanın paytaxtı Bişkekdə müvafiq protokol imzalanmışdır. Dağlıq Qarabağ regionunun azərbaycanlı əhalisi nəzərdə tutulmadığı üçün Azərbaycan tərəfi həmin protokolu imzalamamış, lakin sonradan bəzi qeydlərlə imza atmışdır. Münaqişə zonasına sülhməramlılar yerləşdirilməsə də, atəşkəs rejimi qurulmuşdur.

Atəşkəsin elan edilməsi Azərbaycan dövlətinin qarşısında yeni imkanlar açmışdır. Bundan sonra başlıca diqqət ölkənin sosial-iqtisadi inkişafına, güclü ordu quruculuğuna və neft strategiyasının reallaşdırılmasına yönəldilmişdir.

# 8-ci FƏSİL

## "ƏSRİN MÜQAVİLƏSİ" VƏ ONA QARŞI FƏALİYYƏTLƏR

### *8.1. Azərbaycanın enerji diplomatiyasının çətin yolu*

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının qarşısında dayanan vacib vəzifələrdən biri, artıq qeyd edildiyi kimi, ölkə iqtisadiyyatını azad bazar şərtlərinə uyğun qurmaq, sosial-iqtisadi inkişafın açarı kimi təbii sərvət olan nefti xarici şirkətlərlə əməkdaşlıq yolu ilə milli sərvətə çevirmək idi. Bütün bunları həyata keçirmək üçün ölkənin maliyyə-iqtisadi gücü Ermənistanın hərbi təcavüzünün davam etdiyi şəraitdə olmadığından beynəlxalq əməkdaşlığa ehtiyac duyulurdu. Neft şirkətləri ilə əməkdaşlıqda ilk addımlar hələ SSRİ-nin mövcudluğunun son illərində atılsa da, Azərbaycanda baş verən mürəkkəb ictimai-siyasi proseslər səbəbindən onu sona çatdırmaq mümkün olmamışdı.

1992-ci ilin may ayında Azərbaycanda baş verən hakimiyyət dəyişikliyindən sonra həmin ilin sentyabrın 7-də "BP/Statoyl" alyansı ilə "Çıraq" yatağı və perspektiv "Şahdəniz" sahəsi üzrə saziş imzalandı. İmzalanma mərasimində iştirak etmək üçün Böyük Britaniya və Şimali İrlandiya Krallığının keçmiş Baş naziri Marqaret Tetçer[397] Bakıya səfər etdi.[398] Aparılan danışıqların nəticəsində enerji sahəsində əməkdaşlıq sürətləndirildi.

1992-ci il sentyabrın 13-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) yaradıldı. Oktyabrın 1-də Penzoyl/Remko alyansı ilə "Günəşli" yatağı üzrə bir neçə saziş bağlandı. Noyabr ayında isə ARDNŞ ilə xarici neft şirkətləri arasında 5 memorandum imzalandı.

397 Marqaret Tetçer (1925-2013) – Mühafizəkarlar Partiyasının lideri (1975-1990). Böyük Britaniyanın Baş naziri (1979-1990).

398 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, s. 288; Мусаева Г. Нефтяные интересы Великобритании на Южном Кавказе (1991-2013 гг.) // Qafqazşünasların Birinci Beynəlxalq Forumunun materialları. 17-18 aprel 2017-ci il. Bakı, 2017, s. 225.

Xarici neft şirkətləri ilə başlanan iş 1993-cü il mayın 6-da 6-cı memorandumun imzalanması ilə başa çatdı. Beləliklə, ARDNŞ ilə xarici neft şirkətləri arasında “Günəşli”, “Azəri” və “Çıraq” yataqlarının işlənilməsinə dair müqavilələr imzalanmaq üçün hazırlandı. Sənədlərin Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin yay aylarında Londona səfəri zamanı imzalanması nəzərdə tutulsa da, ölkədə yaranmış ümumi böhran səbəbindən həm səfər, həm də sənədlərin imzalanması baş tutmadı.

1993-cü ilin iyun ayında Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev təkcə dövləti dağılmaqdan xilas etmədi, eyni zamanda ölkənin neft strategiyasını müəyyənləşdirdi. Bu strategiyanın ana xəttini təbii sərvət olan nefti milli sərvətə çevirmək, ölkənin bütün sahələrdə inkişafına nail omaq, iqtisadi müstəqilliyi təmin etməklə dövlət müstəqilliyini möhkəm təməllər üzərində oturtmaq üçün beynəlxalq təminatlar yaratmaq təşkil edirdi. Bununla əlaqədar olaraq sonralar İlham Əliyev[399] yazırdı:

*“Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı vəziyyəti kökündən dəyişdirdi. Azərbaycanın dəqiq iqtisadi konsepsiyası formalaşdırıldı və neft sənayesinin inkişaf etdirilməsi həmin konsepsiyada üzvi surətdə öz yerini tutdu”.*[400]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il iyunun 23-də verdiyi qərara uyğun olaraq xarici neft şirkətləri ilə imzalanmağa hazır olan müqavilələr müvəqqəti olaraq dayandırıldı. Bu qərar əməkdaşlıqdan imtina etmək olmayıb, neftə dair sənədləri və məsələni daha dərindən araşdırmaqla bağlı idi. Yaranmış vəziyyəti müzakirə etmək üçün Heydər Əliyev avqustun 17-də aparıcı neft şirkətlərinin və korporasiyalarının nümayəndələri ilə görüşərək müqavilələrin imzalanmasının dayandırılmasının məqsədini və Azərbaycanın neft strategiyasının mahiyyətini geniş izah etdi. Xarici neft şirkətləri ilə bağlanan istənilən müqavilənin Azərbaycan xalqının maraqlarına, tərəqqisinə xidmət və dövlətin möhkəmləndirməsi üçün beynəlxalq təminatlara kömək etmək qənaətində olan Heydər Əliyev şirkətlərin nümayəndələrinə birmənalı olaraq dedi:

399 İlham Əliyev (1961) – görkəmli siyasi və dövlət xadimi. Diplomat, siyasi elmlər doktoru. 2003, 2008, 2013 və 2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti (1994-1996), birinci vitse-prezidenti (1996-2003). “Əsrin müqaviləsi”nin işlənib hazırlanmasında müstəsna xidmətləri olmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin deputatı (1995-2000, 2000-2003). Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti (1997-ci ildən). Avropa Şurası Parlament Assambleyasının sədr müavini (2003, yanvar – noyabr). Azərbaycan Respublikasının Baş naziri (2003, avqust – noyabr). Bir sıra nüfuzlu xarici universitetlərin fəxri doktoru. Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə 2021-ci ildə “Türk Dünyasının Ali Ordeni” ilə təltif edilmişdir.

400 Алиев И. Каспийская нефть Азербайджана, с. 252.

*“Əgər dünyanın böyük ölkələrinin neft şirkətləri Azərbaycanın neft yataqlarına maraq göstərirlərsə, güman edirəm ki, o ölkələrin dövlət dairələrini Azərbaycan Respublikasının bugünkü ictimai-siyasi vəziyyəti də maraqlandırmalıdır”.*[401]

Bununla da Heydər Əliyev Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Azərbaycanın enerji strategiyası vasitəsi ilə beynəlxalq dəstək qazanmağa çalışırdı. Neft strategiyası Azərbaycanın beynəlxalq mövqelərini gücləndirəcək, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində əlavə imkanlar verəcək, tərəfdaşlar, sərmayədarlar, təchizatçılar, alıcılar ehtiyatla və məsuliyyətlə hərəkət edəcəkdilər. Heydər Əliyev açıq şəkildə bildirdi ki, neftdən ilk növbədə Azərbaycan Respublikasının inkişafı, xalqının sosial-iqtisadi şəraitinin yaxşılaşdırılması, maddi rifah halının yüksəldilməsi üçün istifadə edilməli, bu işlər qarşılıqlı fayda və anlaşma zəminində təşkil olunmalıdır, ona görə də Azərbaycan tərəfi bu məsələləri daha dərindən araşdırmaq istəyir. Heydər Əliyev dedi ki, Azərbaycan xarici ölkələrin təmsil olunan şirkətləri ilə iqtisadi əlaqələri davam etdirməyə tərəfdardır.[402] Qərbin iri neft şirkətləri ilə əməkdaşlıq Azərbaycan Respublikasında sosial-iqtisadi inkişaf, xalqın rifahının yüksəldilməsi üçün real və uzunmüddətli zəmin yaratmalı, xarici sərmayələrin qoyuluşuna geniş imkanlar açmalı, Azərbaycanı dünya iqtisadiyyatı üçün açıq ölkə kimi göstərməli, dünya iqtisadiyyatına inteqrasiyasını reallaşdırmalı, demokratik ölkə kimi dünyaya tanıtmalı, Azərbaycana olan etimadı möhkəmləndirməli, xalqın öz sərvətlərinə sahib olduğunu dünyaya bəyan etməli, sabitliyin bərqərar edilməsinə və dövlət müstəqilliyinin möhkəmləndirilməsinə kömək etməli idi.

1993-cü ilin avqust ayının sonlarında Londonda Azərbaycan və yeddi iri neft şirkəti ekspertlərinin üç neft yatağına dair danışıqları başlandı. Qeyri-rəsmi səviyyədə aparılan danışıqlar heç də asan getmirdi. Bəzi xarici ölkələrdə onun qatı əleyhdarları var idi. Məsələn, Xəzər dənizinin Azərbaycan sektorunda xarici neft şirkətləri ilə aparılan danışıqlara Prezident Boris Yeltsinin rəhbərlik etdiyi Rusiyada birmənalı münasibət mövcud deyildi. Bu ölkənin Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi və neft şirkətləri arasında məsələyə yanaşmada fikir ayrılıqları mövcud idi. Xarici İşlər Nazirliyi imzalanacaq neft müqavilələrinin əleyhinə çıxırdı. Nazir Andrey Kozırev hətta Azərbaycana məktub göndərərək Rusiyanın Xəzər dənizində sovet zamanında inşa edilən neft platformaları üzərində hüquqi haqqı olduğuna dair iddia da irəli sürdü.[403] Ondan fərqli olaraq, Rusiya

401 Əliyev H.Ə. Aparıcı neft şirkətlərinin və korporasiyalarının nümayəndələri ilə görüşdə çıxış. 17 avqust 1993-cü il // Müstəqilliyimiz əbədidir. I kitab, s. 87.
402 Yenə orada.
403 Aliyev: Moskovo’dan izin almayız // “Milliyet” gazetesi, İstanbul, 1994, 19 Ekim.

Federasiyasının Baş naziri Viktor Çernomırdin əməkdaşlığın əleyhinə olan bəyanatlar verməmişdi.[404]

Belə vəziyyət bir tərəfdən, mürəkkəblik yaradır, digər tərəfdən isə Azərbaycanın manevr imkanlarını artırırdı. Bu zaman məsələyə dair Azərbaycan və Rusiya hökumətləri arasında danışıqlar gedirdi. Heydər Əliyevin dəvəti ilə 1993-cü il noyabrın 19-da Rusiyanın yanacaq və energetika naziri Yuri Şafrannik[405] və "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərov[406] Azərbaycana səfər etdilər. Görüşdə imzalanacaq müqavilədə "LUKoyl"un iştirakı məsələsi müzakirə olundu.[407] Heydər Əliyev əməkdaşlıqda Rusiyanın da iştirak etməsinə, Azərbaycanın böyük dövlətləri və iri neft şirkətlərini əməkdaşlığa cəlb edən bir ölkəyə çevrilməsinə çalışırdı. Rusiya tərəfi gələcək konsorsiumda 20 %-lik pay və iki yatağın işlənilməsini istəyirdi.

Nəhayət, danışıqlar uğurla başa çatdı. Azərbaycan və Rusiya arasında iki saziş bağlandı. Noyabrın 20-də Bakıda Azərbaycan Respublikası ərazisində neft və qaz yataqlarının kəşfiyyatı və işlənməsi, neft boru kəmərləri və neft-qaz maşınqayırması sahəsində əməkdaşlıq haqqında ARDNŞ ilə Rusiya Federasiyasının Yanacaq və Energetika Nazirliyi arasında saziş imzalandı. Elə həmin gün ARDNŞ ilə "LUKoyl" arasında dənizdəki "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının mənimsənilməsi üzrə qurulmuş konsorsiumda iştiraka dair saziş bağlandı. Sazişə əsasən Rusiya kompaniyası 10 %-lik sərmayə hüququ aldı. Bundan başqa "LUKoyl"a quruda yerləşən "Siyəzən" yatağının modernləşdirilməsində iştirak etmək hüququ da verildi.

Belə qərarları qəbul edərkən Azərbaycan tərəfi məsələnin hərbi-siyasi tərəflərini də düşünür və Rusiya ilə münasibətləri yaxşılaşdırmaq niyyətini güdürdü. Amma heç şübhəsiz, bu, Azərbaycanın Qərb şirkətləri ilə danışıqlardan imtina etməsi demək deyildi.

Azərbaycanın qonşusu olan Türkmənistan hələ 1959-cu ildə Azərbaycan neftçiləri tərəfindən kəşf edilmiş "Azəri" yatağını "Xəzər" adlandırırdı. Qeyd etmək lazımdır ki, 1987-ci ilədək həmin yataqda Azərbaycan neftçiləri intensiv şəkildə iş aparmışdılar. "Azəri" yatağından qərbdə yerləşən "Çıraq" yatağı isə

---

404 John Roberts. Caspian Pipelines. London, The Royal Institute of International Affairs, 1996, s.51; Kamer Kasım. Azerbaycan'ın dış politikası // Emine Gürsoy-Naskali ve Erdal Şahin (Der.). Bağımsızlıklarının 10 Yılında Türk Cumhuriyetleri. Haarlam, Hollanda, 2001, s. 436-437.

405 Yuri Şafrannik (1952) – Rusiyanın yanacaq və energetika naziri (1933-1996). Rusiya Neft-Qaz Sənayeçiləri İttifaqı Şurasının sədri (2002-ci ildən).

406 Vahid Ələkbərov (1950) – SSRİ neft-qaz sənayesi nazirinin birinci müavini (1991-1992). "LUKoyl" neft kompaniyasının prezidenti (1993-cü ildən).

407 Terry D. Adams. Baku Oil diplomacy and "Early oil" 1994-1998: an external perspective. // Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku, 2009, p.239; Каспийская интрига // Газ. "Известия", М., 1994, 19 октября.

1991-ci il yanvarın 18-də elan olunmuş tender layihəsinə daxil edilmişdi. Türkmənistan tərəfi bu yatağı "Osman" adlandırırdı.

Neft danışıqları çətinləşsə də, Azərbaycan bu məsələni də həll etdi. Artıq qeyd edildiyi kimi, 1993-cü ilin dekabr ayında Fransaya rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti məsələni geniş müzakirə etmişdi. Həmin səfər enerji diplomatiyasının uğurla inkişaf etdirilməsində xüsusi rol oynamışdı. Danışıqlar zamanı Fransa neft sahəsində əməkdaşlığa tamamilə tərəfdar çıxaraq Azərbaycanın səylərini müdafiə etmişdi. Bu, Azərbaycanın mövqelərinin möhkəmlənməsinə kömək edən amillərdən biri olmuşdu. Fransaya səfər başa çatdıqdan bir müddət sonra, 1994-cü il yanvarın 30-da Heydər Əliyev "Amoko" şirkətinin rəhbərlərini qəbul edərkən bildirdi ki, dünyanın aparıcı neft şirkətləri ilə əməkdaşlığı davam etdirmək neft sənayesi sahəsində ölkəsinin strateji xəttidir və burada heç bir dəyişiklik ola bilməz.[408] Bu görüşdən bir neçə gün keçmiş, fevralın 4-də Azərbaycan Respublikasının Prezidenti "Azərbaycanda dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" sərəncam imzaladı. Sərəncama uyğun olaraq  Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "Amoko Kaspian Si Petroleum Ltd", "BP Eksploreyşn (Kaspian Si) Ltd", "Den Norske Stats Olyeselskap a. s.", "LUKoyl Səhmdar Cəmiyyəti", "MakDermott Azərbaycan ink", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerji Ltd", "Türkiyə Petrolları a. s.", "Yunokal Xəzər Ltd" şirkətlərinin daxil olduqları xarici neft şirkətləri konsorsiumu ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Çıraq", "Azəri" yataqlarının, habelə "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi haqqında sazişin bağlanmasına dair danışıqlara başladı. Danışıqları ARDNŞ-in prezidenti Natiq Əliyev[409], vitse-prezidenti İlham Əliyev və digər şəxslər aparırdılar. Lakin danışıqlar heç də asan getmir, fikir ayrılıqları səbəbindən tez-tez dayanırdı. Bəzi şirkətlər beynəlxalq siyasi şəraitin necə olacağından, qonşu dövlətlərin, xüsusən Rusiya və İranın məsələdə tutduqları mövqedən narahat idilər.

Narahatlıqların aradan qaldırılmasında 1994-cü ilin fevral ayında Heydər Əliyevin Türkiyə və Böyük Britaniyaya rəsmi səfərləri zamanı apardığı danışıqlar, xüsusən fevralın 23-də Londonda "Energetika sahəsində əməkdaşlıq haqqında memorandum"un imzalanması xüsusi rol oynadı.[410] BP "Çıraq" və "Azəri" yataqlarının işlənilməsi üzrə beynəlxalq konsorsiumda üstün yer aldı.

408 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 292.

409 Natiq Əliyev (1947-2017) – neft sənayesi təşkilatçısı. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti (1993-2006). Azərbaycan Respublikasının sənaye və energetika naziri (2006-2017).

410 Мусаева Г. Политические и экономические аспекты нефтяных договоров, подписанных между Азербайджаном и Великобританией (1991-2013) // Azərbaycan Milli Elmlər Akademiyasının Sosial Elmlər jurnalı. Bakı, 2019, № 2, s. 126.

Azərbaycan Respublikasının Prezidenti Ankarada bildirdi ki, ölkəsi neft boru kəmərinin Türkiyə ərazisindən keçməsinə etiraz etmir.

Rusiya Federasiyası danışıqlardan və imzalanan sənəddən narahatlığını bildirərək məsələni beynəlxalq səviyyədə qaldırdı. Xəzər dənizində Azərbaycan Respublikasının təktərəfli işlər aparmasına etiraz olaraq Rusiya hökuməti 1994-cü il aprelin 5-də BMT-yə müraciət edərək vəziyyətin belə davam edəcəyi təqdirdə lazımi tədbirlər görəcəyini bildirdi. Rusiya hökuməti bununla da kifayətlənməyərək aprel ayının sonlarında Böyük Britaniya hökumətinə etiraz notası verdi.[411] Lakin bu təzyiqlərə baxmayaraq, Azərbaycan tərəfi xarici şirkətlərlə danışıqlarını davam etdirdi.

Azərbaycan ilə Ermənistan arasında 1994-cü il may ayının əvvəllərində atəşkəs elan edilməsi və hərbi əməliyyatların dayandırılması neft strategiyasının həyata keçirilməsinə müsbət təsir edən amillərdən biri oldu. Atəşkəsin elan olunması Azərbaycana sərmayə qoymaqda maraqlı olan xarici neft şirkətləri tərəfindən rəğbətlə qarşılandı.

1994-cü ilin may və iyun aylarında İstanbulda iri neft şirkətləri ilə danışıqların ikinci mərhələsi keçirildi. Həmin danışıqlarda yataqlarda neft hasilatının optimal səviyyəsi, maliyyələşmə mexanizmi, xərclərin ödənilməsi, şərtləri və gəlirlərin bölünməsi prinsipləri müzakirə edildi.

Danışıqların sonuncu mərhələsi iyulun 22-dən sentyabrın 10-dək Hyustonda oldu və uğurla başa çatdı. Qeyd etmək lazımdır ki, danışıqların uğurla başa çatmasına Heydər Əliyevin 1994-cü il sentyabrın 6-da Misir Ərəb Respublikasına səfəri zamanı ABŞ-ın vitse-prezidenti Albert Qor[412] ilə görüşü ciddi təsir etdi.[413] ABŞ tərəfi Azərbaycan dövlətinin neft strategiyasını müdafiə etdi.

Beləliklə, təqribən 7 aylıq gərgin fəaliyyətdən sonra müqavilə layihəsi hazırlandı. Layihə dörd elementi özündə ehtiva edirdi: Birincisi, sərmayədarların və dövlətin maraqlarını təmin edən ədalətli, lakin sərt kommersiya şərtləri. Müqavilələrdə erkən mərhələdə şərtlərin yenidən nəzərdən keçirilməsi istəyini doğuran müddəalar olmamalıdır. İkincisi, bütün neft müqavilələri maksimum dərəcədə müfəssəl olmalıdır, müqavilə öhdəlikləri ilə bağlı tərəflərin heç birində şübhə olmamalıdır. Üçüncüsü, hər bir müqavilə Azərbaycan parlamentində təsdiq edilməlidir. Dördüncüsü, müqavilələr ölkə iqtisadiyyatının dirçəlişinə kömək etməlidir.

411 Aslanlı A., Hesenov İ. Haydar Aliyev dönemi Azerbaycan dış politikası. Ankara, 2005, s.123.
412 Albert Qor (1948) – ABŞ-ın 45-ci vitse-prezidenti (1993-2001). Nobel mükafatı laureatı (2007).
413 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 294.

Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi sentyabrın 12-də Azərbaycana nota verərək neft yataqlarının guya “birtərəfli tutulmasına etiraz etdi”.[414] Rusiya tərəfi mövqeyini Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməməsi ilə əlaqələndirsə də, Azərbaycan əsassız etirazlara məhəl qoymayaraq başladığı işi davam etdirdi.

ARDNŞ hazırlanmış saziş layihəsinə dair Azərbaycan Respublikasının Prezidentinə məruzə təqdim etdi. Həmin məruzənin əsasında 1994-cü il sentyabrın 14-də Prezident Heydər Əliyev Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barədə 206 saylı fərman imzaladı.[415] Fərmanda “Azərbaycanda dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 4 fevral tarixli sərəncamında ifadə edilmiş prinsiplərə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, “Amoko Kaspian Si Petroleum Ltd”, “BP Eksploreyşn (Kaspian Si) Ltd”, “Den Norske Stats Olyeselskap a. s.”, “LUKoyl Səhmdar Cəmiyyəti”, “MakDermott Azərbaycan ink”, “Pennzoyl Kaspian Korporeyşn”, “Remko Xəzər Enerji Ltd”, “Türkiyə Petrolları a. s.”, “Yunokal Xəzər Ltd” şirkətlərinin daxil olduqları xarici neft şirkətləri konsorsiumu ilə Xəzər dənizinin Azərbaycan sektorunda “Çıraq”, “Azəri” yataqlarının, habelə “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi haqqında sazişin bağlanması barəsində üç ildən artıq davam edən danışıqların başa çatdığı və həmin yataqlardakı neft ehtiyatının 500 milyon tondan artıq qiymətləndirildiyi vurğulanırdı.

ARDNŞ-in ölkə rəhbərinə təqdim etdiyi məruzədə saziş layihəsi Azərbaycan Respublikası üçün iqtisadi cəhətdən səmərəli və münasib variant kimi səciyyələndirilirdi. Qeyd edilirdi ki, yataqların işlənilməsi üçün lazım olan sərmayələrin 80 %-i konsorsium tərəfindən qoyulacaq, saziş qüvvəyə mindikdən sonra ilk neft 18 ay ərzində çıxarılacaq, neft hasilatına əsas yataqlarda 48 aydan gec olmayaraq başlanacaq və Azərbaycan neftinin beynəlxalq bazara səmərəli yolla çıxışını təmin edən neft kəmərinin tikintisi isə 54 ay ərzində başa çatdırılacaqdır. Sazişə görə, Azərbaycan neft yataqlarının istismarına nəzarət və istismarın idarə edilməsi hüquqlarını özündə saxlayırdı.

Bu prosesdə Azərbaycanın gəlirlərinin üç mənbədən alınması nəzərdə tutulurdu: təbii ehtiyatların mülkiyyətçisi hüququndan irəli gələn gəlirlər; yataqların işlənilməsinə sərmayə qoyuluşlarında iştirakdan gələn gəlirlər; respublika büdcəsinə konsorsiumun gəlirinin dörddə bir hissəsi məbləğində vergi ayırmaları. Bunların hamısı mənfəət neftinin 80%-nin Azərbaycana çatmasını təmin

414 Федоров Ю. Каспийская нефть и международная безопасность. Выпуск 1, с.108.
415 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 295.

edəcəkdi. Əlavə olaraq, neft ilə birgə çıxan və ehtiyatları 55 milyard kubmetr həcmində qiymətləndirilən səmt qazı da Azərbaycanın mülkiyyəti olacaqdı. Sazişin əhatə etdiyi sahədə 90 milyard kubmetr həcmində qiymətləndirilən qaz yataqlarının istismarı Azərbaycanın müstəsna səlahiyyətində saxlanılması onun iqtisadi səmərəsini daha da artırırdı.

Neft yataqlarının birgə işlənilməsi 30 il müddətinə nəzərdə tutulurdu. Bu, ölkənin inkişafının, Azərbaycan xalqının iqtisadi və sosial rifahının təməlini qoyacaq, bazar iqtisadiyyatına keçid şəraitində on milyardlarla valyuta mədaxili iqtisadiyyatın hər şeydən əvvəl, neft sənayesinin elmi və istehsal-texniki bazasının keyfiyyətcə yenilənməsini təmin edəcəkdi. Uzun müddət durğunluq vəziyyətində olmuş neft maşınqayırma, neft emalı və neft kimyası sənayesinə yeni təkan veriləcəkdi. Bu da ümumi iqtisadi göstəricilərin artımı ilə yanaşı, kadr potensialının möhkəmləndirilməsinə kömək edəcək və yeni iş yerlərinin açılmasına şərait yaradacaqdı. Azərbaycan sənayesi suyun dərinliklərində olan karbohidrogen yataqlarının istismarı sahəsində qabaqcıl xarici təcrübəyə yiyələnəcəkdi. Bu da gələcəkdə belə yataqlardan müstəqil istifadə etməyə imkan verəcəkdi. Əldə edilən mənfəət Azərbaycan iqtisadiyyatının bir çox sahələrində yüksək texnologiyalara keçməsini təmin edəcək, eyni zamanda infrastrukturun yeniləşdirilməsinə şərait yaradacaqdı. İri neft şirkətləri ilə uğurlu əməkdaşlıq beynəlxalq aləmdə Azərbaycan Respublikasına etimadı möhkəmləndirəcək və yeni xarici sərmayələrin cəlb edilməsinə zəmin yaradacaqdı.

Fərmanda ARDNŞ-in təqdim etdiyi məruzə və Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında ARDNŞ ilə "Amoko Kaspian Si Petroleum Ltd", "BP Eksploreyşn (Kaspian) Ltd", "Den Norske Stats Olyeselskap a.s.", "LUKoyl Səhmdar Cəmiyyəti", "MakDermott Azərbaycan ink", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerji Ltd", "Türkiyə Petrolları a. o.", "Yunokal Xəzər Ltd" şirkətləri arasında sazişin layihəsi bəyənilirdi.

Azərbaycan Respublikasının Prezidenti sentyabrın 16-da neft müqaviləsinin imzalanmağa hazır olması haqqında bəyanat verdi.[416] Bəyanatda üç ildən artıq neft şirkətləri ilə danışıqların aparıldığı qeyd edilir və onların təfərrüatları açıqlanırdı.

Bundan bir neçə gün sonra, sentyabrın 19-da Bakıda I Azərbaycan beynəlxalq "Xəzərneftqaz-94" konfransı keçirildi. İştirakçılara göndərdiyi təbrik məktubunda Azərbaycan Respublikasının Prezidenti konfransın ölkənin neft və

416 Əliyev H.Ə. Neft müqavilələrinin imzalanmağa hazırlanması ilə bağlı brifinqdə bəyanat. 16 sentyabr 1994-cü il // Müstəqilliyimiz əbədidir. II kitab. Bakı, 1997, s. 226-233.

qaz sənayesi problemlərinin həllini təmin etməyə xidmət göstərəcəyinə ümidini bildirdi.[417] Konfrans Azərbaycanın həm enerji sahəsində beynəlxalq əməkdaşlığa olan niyyətini, həm də xarici şirkətlərin neft və qaz sənayesinə artan marağını göstərdi. Əməkdaşlıq üçün Azərbaycanın böyük potensialının olduğu artıq heç kimdə şübhə doğurmurdu.

Azərbaycan dövləti ölkə qarşısında yeni perspektivlər açan və inkişafının açarı olan neft strategiyasının rəsmiləşdirilməsinin astanasında dayanmışdı. Xəzər dənizinin Azərbaycan sektorundakı neft sahəsində əməkdaşlığı nəzərdə tutan müqavilə imzalanmağa hazır idi.

### *8.2. "Əsrin müqaviləsi"nin imzalanması və tarixi əhəmiyyəti*

Sentyabrın 20-də müstəqil Azərbaycan Respublikasının tarixində mühüm bir hadisə baş verdi. Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq və dərinsulu "Günəşli" yatağında neftin birgə işlənməsi və pay bölgüsü haqqında Bakıda 8 ölkənin – Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanının 13 neft şirkəti arasında 30 il müddətinə müqavilə imzalandı. Təqribən 400 səhifə olan müqaviləyə görə, kapital qoyuluşunun həcmi 7,4 milyard dollar, istismar xərcləri 5,9 milyard dollar təşkil edirdi. Müqaviləyə daxil olan ərazi 432,4 kv. km idi. Bu müddət ərzində 510 milyon ton neft hasil etmək nəzərdə tutulurdu. Mənfəət neftinin 80%-i Azərbaycanın, 20%-i digər tərəflərin payına düşürdü.

Paylar şirkətlər arasında aşağıdakı kimi bölüşdürülmüşdü: BP (Böyük Britaniya) – 17,12%, "Amoko" (ABŞ) – 17%, "Yunokal" (ABŞ) –10%, "LUKoyl" (Rusiya) – 10%, "ARDNŞ" (Azərbaycan) – 10%, "Statoyl" (Norveç) – 8,5%, "Ekson" (ABŞ) – 8%, "TPAO" (Türkiyə) payı sonralar – 6,75%, "Pennzoyl" (ABŞ) – 4,8%, "İtoçi" (Yaponiya) – 3,92%, "Ramko" (Böyük Britaniya) – 2%, "Delta" (Səudiyyə Ərəbistanı) – 1,6% idi. Qeyd etmək lazımdır ki, imzalanmış müqavilədə ARDNŞ-in ilkin payı 20% idi. Lakin sonralar 1995-ci ildə onun 5%-i o vaxtadək müqavilədə iştirak etməyən Eksona, 5%-i isə TPAO-ya verildi.

İmzalanma mərasiminin açılışında Prezident Heydər Əliyev ölkə neft sənayesinin inkişaf yolundan danışarkən dedi:

*"Azərbaycanda neftin sənaye üsulu ilə istehsalına başlandığı vaxtdan indiyədək ölkəmizin ərazisində yerin təkindən – quruda və suda 1 milyard 325 milyon*

417 Əliyev H.Ə.Birinci Azərbaycan Beynəlxalq Xəzərneftqaz-94 konfransının iştirakçılarına. 19 sentyabr 1994-cü il // Müstəqilliyimiz əbədidir. II kitab,s. 253.

*ton neft çıxarılmışdır. Xəzərin Azərbaycana aid hissəsində 45 ildə 400 milyon ton neft hasil edilmişdir".*[418]

İmzalanma mərasimindəki yekun nitqində müqavilənin əhəmiyyətini Heydər Əliyev belə ifadə etdi:

*"...bu müqavilə Azərbaycan Respublikasının dünya birliyində layiqli yer tutmasına kömək edəcək, ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı, sərbəst bazar iqtisadiyyatı ilə sıx bağalayacaqdır. Ən ümdəsi ondan ibarətdir ki, bu müqavilə Azərbaycan xaqlının bu gününə, gələcəyinə böyük mənfəətlər verəcək, onun rifah halının yüksəlməsi üçün zəmin yaradacaqdır".*[419]

Dünyanın iri neft şirkətləri ilə imzalanan bu müqavilənin böyük tarixi əhəmiyyəti var idi. "Əsrin müqaviləsi" adını alan müqavilənin imzalanması Azərbaycanın neft strategiyasının başlanğıcı oldu. Müqavilə Azərbaycanın daxili ictimai-siyasi, iqtisadi, mədəni, mənəvi-psixoloji həyatında ciddi rol oynamaqla bərabər ölkənin beynəlxalq mövqelərini möhəmləndirir, xüsusən neft sənayesinin inkişafında yeni bir mərhələ açır, ölkəyə xarici sərmayə axını güclənirdi. "Əsrin müqaviləsi"nin imzalanması ilə neft siyasəti ölkənin ümumi inkişaf strategiyasının tərkib hissəsinə çevrildi. O daha çox iqtisadi səciyyə daşısa da, iqtisadi və siyasi amillər daim vəhdət təşkil edərək biri-birilərini üzvi surətdə tamamladı, dövlət müstəqilliyinin qorunub saxlanılmasında və möhkəmləndirilməsində, sosial-iqtisadi, hərbi-siyasi təhlükəsizliyinin təmin edilməsində, Azərbaycan xalqının mənəvi-psixoloji ruhunun yüksəlməsində mühüm rol oynadı.

Müqavilənin imzalanması ilə Azərbaycan xalqının təbii sərvəti olan neftin milli sərvətə çevrilməsi istiqamətində tarixdə ilk dəfə olaraq hüquq-müqavilə əsası yaradılırdı. Azərbaycanın məqsədi nefti təkcə hasil, nəql etmək və satmaq deyildi. Onun daha geniş məqsədləri var idi. İlham Əliyev bununla bağlı olaraq deyirdi ki, məqsəd təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Məqsəd neftdən gələn bütün mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir.[420]

Müqavilənin imzalanması ilə Xəzər dənizi dünyada mühüm geosiyasi mərkəzlərdən birinə çevrilirdi. Böyük ölkələrin neft şirkətləri siyasət və iqtisadiyyatın çulğalaşdığı Xəzər regionuna maraq göstərərək işləməyə başladılar. Xəzər dənizi dünya geosiyasətinin güzgüsü oldu.

418 Əliyev H.Ə. Xəzər şelfində yataqların birgə işlənilməsi haqqında Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilə imzalanması mərasimində Azərbyacan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. 20 sentyabr 1994-cü il // Müstəqilliyimiz əbədidir. II kitab, s. 254-261.

419 Əliyev H.Ə. Müqavilənin imzalanması mərasimində yekun nitqi // Müstəqilliyimiz əbədidir. II kitab, s.261-262.

420 Əsrin müqaviləsi // "Azərbaycan" qəzeti, 2001,30 mart; Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003).2 hissədə.I hissə, s. 299.

Qeyd etmək lazımdır ki, müqavilə iştirakçısı olan şirkətlər həmin vaxtadək dünyanın müxtəlif yerlərində işləmişdilər və işləyirdilər. Lakin onlar ilk dəfə olaraq Azərbaycanda konsorsium yaradaraq birlikdə işləməyə başlayırdılar. Bununla da Azərbaycan Respublikası bəzi ölkələrdən ərazisinin kiçik, əhalisinin sayca az olmasına baxmayaraq, dövlətləri, transmilli neft şirkətlərini ayıran deyil, onları birləşdirən, əməkdaşlığa cəlb edən gücə, mərkəzə çevrildi. Bu, beynəlxalq münasibətlər tarixində nadir rast gəlinən bir hadisə idi.

### *8.3. 1994-1995-ci illərdə sui-qəsdlər və dövlət çevrilişi cəhdləri*

"Əsrin müqaviləsi"nin imzalanması Qərb ölkələrini Xəzər dənizinə buraxmaq istəməyən dövlətlərin kəskin müqavimətinə rast gəldi. "LUKoyl"a 10% pay verilməsinə baxmayaraq, Rusiya tərəfi Xəzər dənizinin hüquqi rejiminin guya pozulmasını əsas gətirərək neft müqaviləsini tanımayacağını bəyan etdi. Xarici işlər naziri Andrey Kozırev neft şirkətlərinə xəbərdarlıq edərək Xəzər dənizinin hüquqi statusu müəyyənləşənədək işə başlamağın mümkün olmayacağını bildirdi. O, Xəzər dənizində hər hansı bir iş görülərkən Rusiyanın maraqlarının nəzərə alınmasının vacibliyini, Rusiyanın təcrid edilməsinin acı nəticələrə gətirəcəyini vurğuladı.[421] Bundan sonra Azərbaycana edilən təzyiqlər daha da artdı.

Qeyd etmək lazımdır ki, bu məsələdə Rusiyada fikir birliyi mövcud deyildi. Xarici işlər nazirindən fərqli olaraq, Rusiyanın sənaye dairələri müqavilənin əleyhinə çıxmırdılar. Məsələn, Rusiyanın enerji naziri Yuri Şafrannik müqaviləni dəstəkləyir, Baş nazir Viktor Çernomırdin isə bütün məsələlərin yoluna qoyula biləcəyini söyləyirdi.

"Əsrin müqaviləsi"ndən narazı qalan təkcə Rusiyadakı müəyyən dairələr deyildi. ABŞ-ın yürütdüyü siyasət nəticəsində müqavilədə iştirak etməyən İran da təzyiqlərini artırırdı. Qeyd etmək lazımdır ki, Xəzər dənizində Azərbaycan və İran arasında əməkdaşlıq hələ 60-cı illərin ikinci yarısından başlamışdı. Azərbaycan geoloqları 1966-1968-ci illərdə İran şelfində 44 struktur müəyyənləşdirmişdilər. 1986-cı ildə Azərbaycan neftçiləri müqavilə əsasında Xəzər dənizinin İrana aid sektorunda quyular qazmağa başlasalar da, alınan neftin sənaye üçün əhəmiyyətinin böyük olmadığı aydınlaşmışdı.

Neft müqaviləsinin imzalanmasından sonra Azərbaycanda qarışıqlıq yaratmaq, dövlət çevrilişi cəhdləri və Prezident Heydər Əliyevə qarşı sui-qəsd planları işə salındı. 1994-cü il sentyabrın 21-dən 22-nə keçən gecə Azərbaycan

421 Aleskerov V. Achieving Azerbaijan's Strategic Vision: Negotiating the "Contract of the Century" // Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p. 222.

Respublikası Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından bir neçə dustaq qaçırıldı. Bu, Azərbaycan dövlətinə meydan oxumaq cəhdlərinin tərkib hissəsi idi.

Heydər Əliyev sentyabrın 22-də Azərbaycan televiziyası və radiosu ilə xalqa müraciət edərək ölkədə həyata keçirilən irimiqyaslı işlər, iqtisadi, siyasi inkişafı üçün atılan addımlardan bəhs etdikdən sonra baş verən hadisənin əsl mahiyyətini açaraq dedi:

*“Keçən gecə bir cinayət hadisəsi baş vermişdir. Bu barədə televiziya ilə məlumat oxunub. Hüquq-mühafizə orqanlarının rəhbərləri televiziya ilə çıxış edərək bu cinayətin baş verməsi və onun məzmunu haqqında məlumat veriblər. Dəhşətli hadisədir. Ola bilər ki, tarixdə görünməmiş bir hadisədir. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından gecə və yaxud da axşamdan xeyli keçmiş dörd nəfər məhbus – Rəhim Qazıyev, Əlikram Hümbətov, Baba Nəzərli, Arif Paşayev əvvəlcədən hazırlanmış, planlaşdırılmış aksiya nəticəsində çıxarılıb naməlum istiqamətə aparılmışlar.*

*Bu, Azərbaycanın müstəqilliyinə xəyanətdir, təcavüzdür, bugünkü həyatımızda olan ictimai-siyasi sabitliyi pozmağa yönəldilmiş təxribat hərəkətidir. Aydındır ki, bu, sadə bir hal deyil. Belə bir əməliyyatı həyata keçirmək üçün şübhəsiz ki, çox hazırlıq aparılıb, işlər görülüb. Ayrı-ayrı satqınlar, xalqımıza xəyanət edən adamlar bu işə qoşulublar və nəhayət, bu hadisə baş veribdir.*

*...Mən belə fikirdəyəm ki, bu işi görənlər ölkəmizin daxilində olan, dövlətimizə düşmən qruplardır, eyni zamanda Azərbaycanın xaricində olan düşmən qruplardır. Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı təcavüzünü dəstəkləyən qüvvələr, bu təcavüzü ardıcıl surətdə aparmaqda ona kömək edən qüvvələr və eyni zamanda Azərbaycanın müstəqil mövqe tutduğuna görə və beynəlxalq aləmdə öz sözünü prinsipial şəkildə dediyinə görə bizə düşmən mövqeyində duran qüvvələr var.*

*...Bu hadisə bizim üçün nə qədər ağır olsa da, mən istəyirəm ki, xalqımız bilsin. Heç kəs sarsılmamalıdır, heç kəs sınmamalıdır, heç kəs narahat olmamalıdır. Dediyim kimi, Azərbaycan xalqı, müstəqil respublikamız çox sınaqlardan çıxmışdır, bu sınaqdan da keçəcəkdir. Əminəm ki, bu təxribatı törədən qüvvələr öz payını alacaqlar”.*[422]

Azərbaycan dövləti qəti iradəsini ortaya qoyaraq müəyyənləşdirdiyi yoldan geri çəkilməyəcəyini bir daha bəyan etdi. Lakin az sonra Azərbaycan başqa faciələrlə üzləşdi. Heydər Əliyev Nyu Yorkda BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak edərkən Azərbaycanda terror aktları törədildi. Sentyabrın 29-da Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini Afiyəddin Cəlilov və sürü-

422 Əliyev H.Ə. Azərbaycan milli televiziyası və radiosu ilə çıxış. 22 sentyabr 1994-cü il // Müstəqilliyimiz əbədidir. II kitab, s. 280-281.

cüsü, daha sonra isə Azərbaycan Respublikasının Prezidenti yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov[423] qətlə yetirildilər.

Baş verən hadisələr Azərbaycan dövlətinin müstəqil siyasət yürütməsinin qarşısını almağa və neft müqaviləsinin həyata keçirilməsini dayandırmağa yönəlmişdi. Heydər Əliyev xəbəri eşidən kimi Nyu Yorkda bəyanat verərək terroru törədənləri qəti şəkildə ittiham etdi, belə hərəkətlərlə Azərbaycanı yolundan döndərməyin mümkün olmayacağını bildirdi və tezliklə ölkəyə qayıtdı.

Az sonra Azərbaycan yeni bir təhlükə ilə üz-üzə qaldı. Ölkədə dövlət çevrilişi cəhdi baş verdi. Xüsusi təyinatlı polis dəstəsi oktyabrın 2-də axşamdan qanunsuz hərəkətlərə başladı və respublika prokurorluğunun binasına hücum etdi.

Baş nazir Surət Hüseynovun rəhbərliyi altında Bakıda və ölkənin bir sıra digər bölgələrində dövlət çevrilişi cəhdi edildi. Oktyabrın 4-də Gəncədə dövlət əleyhinə qiyam baş verdi. Qiyamçılar, qanunsuz dəstələr Gəncə Şəhər İcra Hakimiyyətinin binasını, Milli Təhlükəsizlik Nazirliyinin şöbəsini, şəhər və rayon polis şöbələrini və digər dövlət orqanlarını, hava limanını, dəmiryol vağzalını, televiziya studiyasını tutdular, şəhərin giriş və çıxış yollarını bağladılar və şəhərlə rabitəni pozdular.

Dövlət çevrilişinə, silahlı qiyama Baş nazir Surət Hüseynov tərəfindən ezam edilmiş Nazirlər Kabinetinin məsul işçisi Vahid Tacibov, İnterpolun Azərbaycandakı mərkəzi bürosunun rəisi, polis polkovnik-leytenant İlqar Səfixanov, Gəncə şəhər hərbi polisinin rəisi, polkovnik Eldar Əliyev, Surət Hüseynovun yaxın qohumları - qanunsuz silahlı dəstələrin başçıları Kəramət Kərimov və Aytəkin Qoşqarov rəhbərlik edirdilər.

Qiyam davam edərkən Heydər Əliyev telefonla bir neçə dəfə Surət Hüseynov ilə əlaqə saxlamaq istəsə də, bu, mümkün olmamışdı. Televiziya və radio ilə çıxış edərək yaranmış vəziyyəti izah edən Azərbaycan Respublikasının Prezidenti xalqı birliyə çağıraraq dedi:

*"Bu gün biz hamımız birləşib Azərbaycanın müstəqilliyini qoruyub saxlamalıyıq və qoymamalıyıq ki, bəzi qüvvələr Azərbaycan Respublikasını dağıtsınlar".*[424]

Heydər Əliyev yaranmış ağır vəziyyətdə Azərbaycan xalqını dövləti müdafiə etməyə çağırdı.[425] Çağırışa səs verən əhali Prezident sarayının qarşısına toplaşdı. Azərbaycan rəhbəri izdihamlı mitinqdə çıxış etdi.[426] Mitinq xalq və dövlət

423 Şəmsi Rəhimov (1924-1994) – polkovnik, Azərbaycan Respublikasının Prezidenti yanında Xüsusi İdarənin rəisi (1994, 8 yanvar -29 sentyabr).
424 Əliyev H.Ə. Respublika milli televiziyası və radiosu ilə çıxış. 3 oktyabr 1994-cü il // Müstəqilliyimiz əbədidir. II kitab, s.345.
425 Əliyev H.Ə. Respublika milli televiziyası və radiosu ilə xalqa müraciət. 4 oktyabr 1994-cü il // Müstəqilliyimiz əbədidir. II kitab, s.355-360.
426 Əliyev H.Ə. Prezident sarayı qarşısında Bakı zəhmətkeşlərinin mitinqində çıxış. 4 oktyabr 1994-cü il // Müstəqilliyimiz əbədidir. II kitab, s. 361-364.

hakimiyyəti arasında sıx birliyin və xalqın Prezident Heydər Əliyevi qəti şəkildə müdafiə etməsinin nümayişi oldu.

Baş nazir Surət Hüseynov silahlı qiyamın yatırılması zamanı nəinki fəaliyyətsizlik göstərmiş, hətta Azərbaycan Respublikasının Prezidentinə tabe olmamışdı. Bütün bunlar Surət Hüseynovun Gəncədə baş verən qiyamla bilavasitə bağlı olduğunu təsdiqləyirdi. O, həmçinin Nazirlər Kabinetinə rəhbərlik etdiyi dövrdə də işində ciddi nöqsanlar buraxmışdı.

Sabitliyi pozmaq cəhdlərinin qarşısı alınan zaman cinayətkar ünsürlər tərəfindən 3 hərbi qulluqçu öldürülmüş və 4 nəfər yaralanmışdı.

Hakimiyyət qəti tədbirlər gördü. Azərbaycan Respublikasının Prezidenti Bakı şəhərində fövqəladə vəziyyət elan olunması haqqında 1994-cü il 4 oktyabr tarixdə fərman verdi.[427] Fərmanda yazılırdı ki, Azərbaycan dövlətinin son vaxtlar yürütdüyü xarici və daxili siyasət nəticəsində yaranmış sabitliyi pozmaq üçün vətənin düşmənlərinə xidmət edən şəxslərin və terrorçu qrupların cinayətkar fəaliyyətləri xeyli artmışdır. Qeyd edilirdi ki, bu qüvvələr nəyin bahasına olursa-olsun respublikada ictimai-siyasi vəziyyətin gərginləşməsinə, xaos və anarxiyanın yaranmasına, Azərbaycanın böhran keçirən iqtisadiyyatının daha da dağıdılmasına çalışırlar. Terror aktları, Azərbaycanın görkəmli dövlət xadimlərinin qətlə yetirilməsi, konstitusiya dövlət quruluşuna qarşı zor işlədilməsi və hətta silahlı qiyamlara cəhd edilməsi bu qanlı yolda bir vasitə kimi seçilmişdi. Bütün bu çirkin əməllər Azərbaycan Respublikasının müstəqilliyinə qarşı yönəldilmiş cəhd idi. Sonda yazılırdı ki, bir il bundan əvvəl vətəndaş müharibəsinin astanasında dayanmış Azərbaycan xalqı heç kimə və heç vaxt bu hadisələrin yenidən təkrar olunmasına yol verməz.

Gəncədə baş vermiş dövlət çevrilişi cəhdi bütün Azərbaycan vətəndaşlarının qəzəbinə səbəb oldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Baş nazir Surət Hüseynovun vəzifəsindən azad edilməsinə razılıq verilməsi barədə Milli Məclisə müraciət etdi.[428]

Milli Məclisin oktyabrın 6-da keçirilən iclasında Surət Hüseynovun Baş nazir vəzifəsindən azad edilməsinə razılıq verilməsi haqqında üç bənddən ibarət qərar qəbul edildi. Qərarda yazılırdı ki, Azərbaycanda sabitliyi pozmaq cəhdləri Azərbaycan dövlətçiliyinə, onun müstəqilliyinə qəsd kimi qiymətləndirilib pislənilsin. Azərbaycan Respublikası Prokurorluğuna, Milli Təhlükəsizlik və Daxili

427 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 190.
428 Yenə orada, s. 191-192.

İşlər nazirliklərinə tapşırılırdı ki, mərkəzi və yerli dövlət hakimiyyət orqanları ilə birlikdə ictimai asayişi bərqərar edib, qanunun aliliyini təmin etsinlər.[429]

Baş nazir vəzifəsini Fuad Quliyev[430] icra etməyə başladı. O, müstəqil Azərbaycan Respublikasının sayca beşinci baş naziri oldu.[431]

İclasda Arif Rəhimzadə Ali Sovet sədrinin birinci müavini, Yaşar Əliyev isə müavin seçildilər.

Azərbaycan Respublikasının xalq deputatı Surət Hüseynovun cinayət məsuliyyətinə cəlb olunması, barəsində həbs qətimkan tədbiri seçilməsinə razılıq verilməsi və onun "Azərbaycanın Milli Qəhrəmanı" adından məhrum edilməsinin tövsiyə olunması haqqında qərar qəbul edildi.

Gəncədə baş verən qiyam yatırılsa da, onda iştirak etmiş bir sıra cinayətkarlar dövlətçiliyin əleyhinə fəaliyyətlərini davam etdirir və ictimai asayişin pozulmasına cəhdlər edirdilər. Bu da ölkədə müəyyən gərginliyin qalmasına və əhalinin haqlı narahatlığına səbəb olurdu. Fəaliyyətləri pozulmuş dövlət orqanlarının normal işinin təmin edilməsi, şəhərdə qanunçuluğun bərpa edilməsi, baş qaldırmış cinayətkar ünsürlərə qarşı mübarizənin gücləndirilməsi qəti tədbirlərin görülməsini tələb edirdi. Ona görə də Azərbaycan Respublikasının Prezidenti oktyabrın 10-da Gəncə şəhərində fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı.

Dövlət çevrilişi cəhdi xarici ölkələrdə əsasən aşağıdakı kimi qiymətləndirilirdi: Azərbaycanın Qərbə yaxınlaşma siyasəti apardığını və imzalanmış neft müqaviləsindən sonra Bakının onun maraq dairəsindən çıxdığını görən Moskva Prezident Heydər Əliyevə qarşı olan çıxışların əsas ruhlandırıcısı və himayədarıdır; neft müqaviləsi imzalandıqdan sonra baş verən hadisələr Heydər Əliyev üçün gözlənilməz deyildi, çünki Azərbaycan rəhbərliyi ölkədə sabitlik yarandıqdan sonra hakimiyyət uğrunda mübarizədə sosial bazasını itirməkdən qorxan qüvvələrin hərəkətə gələcəyini gözləyirdi; xalq birmənalı olaraq Heydər Əliyevi dəstəkləyirdi; son hadisələr onu göstərdi ki, Cənubi Qafqazın gələcəyi üçün Qərb, Rusiya və regionun başlıca dövlətlərinin tərtib edəcəkləri hər hansı siyasi kombinasiyada Heydər Əliyevin şəxsiyyəti amili get-gedə aparıcı rol oynayacaqdır.

Baş verən hadisələr Xəzər nefti məsələsinin nə qədər çətin və mürəkkəb olduğunu, kəskin müqavimətə rast gəldiyini göstərirdi. Lakin Heydər Əliyevin

429 S. D. Hüseynovun Azərbaycan Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 7 oktyabr 1994-cü il // "Azərbaycan" qəzeti, 1994, 8 oktyabr; S.D.Hüseynovun Azərbaycan Respublikası Baş naziri vəzifəsindən azad edilməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 06.10.1994 // ARMMA, f.2491, siy.1, iş 244, v. 216-218.

430 Fuad Quliyev (1941) – Baş nazirin birinci müavini, Baş nazir vəzifəsini icra edən (1994-1995). Baş nazir (1995, may-1996, iyul).

431 Qasımlı M., Hüseynov C. Azərbaycanın baş nazirləri, s. 122-124.

liderliyində Azərbaycan dövləti xarici təzyiqlərə tab gətirərək və daxildəki qanunsuz hərəkətləri dayandıraraq neft strategiyasını davam etdirdi.

Gəncə qiyamı yatırılsa da, Azərbaycanın daxilində digər qruplaşmalar yenidən dövlət əleyhinə baş qaldırdılar. 1995-ci il martın 12-13-də Qazax və Ağstafada, martın 16-17-də Bakının 8-ci kilometr qəsəbəsində Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvü silahlı qiyama başladı və yerlərdə hakimiyyət orqanlarına qarşı qanunsuz hərəkətlər etdi.

Heç şübhəsiz, qiyam birdən-birə yaranmamışdı, onun bir sıra səbəbləri var idi. Məlum olduğu kimi, dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan xalqı çoxlu əzab-əziyyətlərlə qarşılaşmış, torpaqlarının işğalçılardan azad edilməsi, ərazi bütövlüyünün təmin olunması uğrunda mübarizədə çoxlu qurbanlar vermiş, məhrumiyyətlərə düçar olmuş və çətinliklə qazandığı müstəqilliyin müdafiəsində mətanətlə dayanmışdı. Lakin xalqın inamından istifadə edib hakimiyyəti ələ keçirmiş Azərbaycan Xalq Cəbhəsinin səriştəsiz, bacarıqsız və dayaz siyasəti həm ictimaiyyətin dərin etirazına səbəb olmuş, həm də həll edilməsi çətin olan çoxlu problemlər yaratmışdı. Bunun nəticəsində xaricdən dəstək alan dövlət əleyhinə olan qüvvələr vaxtaşırı fəallaşmış, siyasi hakimiyyəti qanunsuz yolla ələ almaq iddiasına düşmüşdülər. Həmin qüvvələrlə üzləşən, ölkəni idarə etməkdə aciz olan və xalqın inamını itirən AXC rəhbərliyi 1993-cü ilin iyununda hakimiyyətdən getmişdi.

Belə bir şəraitdə dövlətçiliyinin itirilməsi təhlükəsi qarşısında qalmış Azərbaycan xalqı zəngin dövlət rəhbərliyi təcrübəsinə və siyasi nüfuza malik olan Heydər Əliyevi özünə rəhbər tələb etmişdi. Ölkədə yaranmış son dərəcədə gərgin vəziyyətin normallaşdırılması və sabitləşdirilməsi üçün Heydər Əliyev xalqın təkidli tələblərilə sağlam qüvvələrin köməyi ilə qardaş qırğınının, Azərbaycan dövlətinin dağılmasının və ölkənin parçalanmasının qarşısını almış, milli birliyə aparan siyasətini həyata keçirməyə başlamış, demokratik yolla, alternativ əsasla Azərbaycan Respublikasının dövlət başçısı – Prezidenti seçilmişdi. Bununla Azərbaycan cəmiyyəti demokratik inkişaf yolunda bir addım da irəliləmiş və möhkəmlənmişdi.

Bundan sonra xalqın qəti iradəsi əsasında Azərbaycan Respublikası dünya birliyinin tamhüquqlu üzvü kimi ardıcıl daxili və xarici siyasət yürütməyə başlamışdı. Yüksək hərbi intizama və döyüş hazırlığına əsaslanan nizami ordu yaradılmasına başlanılmışdı. Ordu quruculuğu üçün xüsusi əhəmiyyətə malik parlament nəzarətini, səlahiyyətlərin dəqiq bölgüsünü, silahlı qüvvələrin təyinatını, statusunu təsbit edən qanunlar qəbul edilmişdi. 1993-cü ilin sonları – 1994-cü ilin əvvəllərində erməni işğalçılarına qarşı mübarizədə ilk hərbi uğurlar qazanılmışdı. Dövlət əleyhinə olan bəzi daxili və onları dəstəkləyən xarici qüvvələrin

təsirinə baxmayaraq, geriləmənin qarşısı alınmışdı. 1994-cü ilin may ayından etibarən atəşkəsə riayət edilirdi.

Cəmiyyət həyatının bütün sahələrində yeni münasibətlərə yol açmaq, islahatların əsaslarını yaratmaq üçün tədbirlər görülür və davam etdirilirdi. Ölkə böhrandan tədricən çıxaraq inkişaf yoluna keçirdi.

Azərbaycan Respublikasının yürütdüyü müstəqil, ardıcıl və tarazlaşdırılmış xarici siyasət xətti nəticəsində dövlətin beynəlxalq nüfuzu daha da artırdı. Xarici dövlətlərin, iri maliyyə, biznes təşkilatlarının Azərbaycan Respublikası ilə bərabər, mənafelərin qarşılıqlı gözlənilməsi əsasları ilə əməkdaşlıq meyilləri güclənirdi.

Xarici şirkətlərlə "Əsrin müqaviləsi" imzalanmışdı. Digər tədbirlərlə yanaşı, həmin müqavilənin Azərbaycan cəmiyyətinin inkişafına, iqtisadiyyatının dirçəlməsinə, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə, xalqın vəziyyətinin yaxşılaşdırılmasına, Ermənistan tərəfindən işğal edilmiş torpaqların azad olunmasına real təsirindən xoflanan cinayətkar ünsürlər, xarici hərbi-sənaye kompleksinin marağını güdən və Azərbaycanın müstəqilliyini öz çirkin məqsədlərinə qurban verməyə hazır olan, Azərbaycanı başqa dövlətlərin himayəsində görmək, hətta quberniyalara belə bölmək istəyən qüvvələr dərhal təşvişə düşərək məkrli niyyətlərini həyata keçirməyə başlamışdılar. Xüsusilə ağır cinayətlər üstündə məhkəmə istintaqı altında olan sabiq müdafiə naziri Rəhim Qazıyevi, sabiq müdafiə nazirinin müavini Baba Nəzərlini, Əlikram Hümbətovu, Arif Paşayevi Milli Təhlükəsizlik Nazirliyinin istintaq təcridxanasından, ölüm cəzasına məhkum olunmuş digər şəxsləri həbsxanadan qaçırmış, yüksək dövlət vəzifəli şəxsləri terror aktları ilə qətlə yetirmişdilər. Cəmiyyətdə gərginliyə nail olduqdan sonra Azərbaycan dövlətçiliyinə daha ağır zərbə vurmaqla, qanunsuz yolla zorakılıq etməklə, xalqın iradəsinə zidd surətdə siyasi hakimiyyəti ələ keçirməyə cəhd etmişdilər.

Sabiq Baş nazir Surət Hüseynov, daxili işlər nazirinin sabiq müavini Rövşən Cavadov və başqaları xaricdən idarə olunan Ayaz Mütəllibovun, Rəhim Qazıyevin, Əlikram Hümbətovun, Vaqif Hüseynovun, onların havadarlarının əlində alətə çevrilmişdilər. Vəzifədə olduğu dövrdə öz süstlüyü, səriştəsizliyi ilə seçilən və bu qüsurları aradan qaldırmaq istəməyən, idarəçilik vərdişlərinə yiyələnməyən Surət Hüseynov nəinki üzərinə düşən dövlət vəzifələrini yerinə yetirməyə cəhd göstərməmiş, həm də qanunsuz silahlı dəstələr saxlayaraq, onları maliyyələşdirmiş, qanuna zidd hərəkətlərə təhrik etmişdi. Bununla yanaşı, Rövşən Cavadov qardaşı, Bakı şəhəri Xətai rayonunun sabiq prokuroru Mahir Cavadovla birlikdə tabeliyində olan Xüsusi Təyinatlı Polis Dəstəsinin şəxsi heyətini, döyüş texnikasını və bazasını nəzarətində saxlayıb, onlardan qeyri-qanuni surətdə isti-

fadə edib, tamahkar niyyətlərini həyata keçirməkdə vasitəyə çevirmişdi. Bütün bunlar dövlət orqanlarının normal işini pozur, onların nüfuzuna xələl gətirir, əhalini qorxuya salırdı. Həmin qüvvələr birləşərək hakimiyyətə qarşı sui-qəsd törətməyə, qanuni hakimiyyəti sarsıtmağa və devirməyə çalışırdılar. Dövlət rəhbərliyinin milli birlik, vəziyyətin nizamlanması üçün atdığı addımlar, gördüyü tədbirlər həmin qüvvələri müəyyən qədər cilovlasa da, onlar əvvəlcədən düşünülmüş məkrli planlarından əl çəkə bilmirdilər.

Artıq qeyd edildiyi kimi, 1994-cü il oktyabrında Surət Hüseynov və Rövşən Cavadovun başçılığı ilə dövlət çevrilişinə silahlı cəhd göstərilmişdi. Mahir Cavadovun rəhbərliyi ilə XTPD-nin və cinayətkar ünsürlərin qüvvələri Respublika Prokurorluğunun binasına basqın etmiş, vəzifəli şəxslərə qarşı zorakılıq tətbiq etmiş, prokurorluğun işini pozmuş və dövlət əmlakına ziyan vurmuşdular. Mahir Cavadov əvvəlcədən düşünülmüş plan üzrə vəzifələrinin həyata keçirilməsini davam etdirmək üçün Surət Hüseynova və Rövşən Cavadova məlumat vermişdi. Surət Hüseynovun qanunsuz yaratdığı və Gəncədə yerləşən dəstələr onun göstərişi əsasında silahlı basqın yolu ilə Gəncə şəhərində qanuni icra hakimiyyətini, hüquq-mühafizə orqanlarını, dövlət əhəmiyyətli obyektləri ələ keçirmiş və öz hərəkətlərini digər rayonlarda davam etdirməyə çalışmışdılar. Rövşən Cavadov məsləkdaşları ilə birlikdə hakimiyyət orqanlarını qanunsuz güzəştlərə və vəzifəli şəxsləri istefa verməyə məcbur etmək üçün bəyanatlar, tələblər irəli sürməyə başlamışdı.[432]

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin vəziyyəti sabitləşdirmək üçün gördüyü tədbirlər və xalqın əzmi çevriliş etməyə çalışan qüvvələri taqətdən salmış və prezidentin çağırışı ilə qısa vaxt ərzində Prezident sarayı qarşısında yüz minlərlə insan toplaşmışdı. Xalq qanunçuluğu, demokratiyanı, qanuni seçilmiş prezidenti və dövlətçiliyi müdafiə etmişdi. Xalqın qəzəb dalğasından qorxan Surət Hüseynov, Rövşən Cavadov öz cinayətkar əməllərinin həyata keçirilməsini dayandırmağa məcbur olmuşdular. Rövşən Cavadov məsuliyyətdən yaxa qurtarmaq üçün xalq qarşısında, sonradan aşkar olduğu kimi, səmimi olmayan peşmançılığını bildirmişdi.

Surət Hüseynovun silahlı qüvvələri tərksilah edilmiş, onun cinayətkar yoldaşları və müxtəlif dövlət vəzifələrində oturan məsləkdaşları həbs edilmiş, özü isə havadarlarının köməyi ilə qaçaraq xaricdə sığınacaq tapmışdı. Rövşən Cavadov və onun havadarları isə xalqa və qanuni hakimiyyətə sadiq olacaqlarını və doğru yola qayıdacaqlarını bildirmişdilər.

Həmin vaxt bəzi qüvvələr dövlətçiliyin mənafeyinə zidd mövqe tutmaqla bilvasitə və ya bilavasitə sui-qəsdçiləri müdafiə etmiş, onlara mənəvi, fiziki

432 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 209.

və maddi kömək göstərmişdilər. Dövlət rəhbərliyi milli birlik naminə qanuni yoldan çıxanları, səhv edənləri doğru yola qaytarmaq üçün onlara xəbərdarlıq etməklə yanaşı, şərait yaratmış və düşünüb-daşınmaq, pis əməllərindən çəkinmək üçün daha bir imkan vermişdi.

Heydər Əliyevin qətiyyəti və xalqın dövlət hakmiyyətini müdafiə etməsi nəticəsində dövlət çevrilişi planı puça çıxmış, Azərbaycan dövlətçiliyi daha bir çətin sınaqdan keçmişdi. Bütün zərərli təsirlərə baxmayaraq, dövlət möhkəmlənməkdə və nüfuzunu artırmaqda davam edirdi.

Azərbaycanın müstəqilliyinə qarşı yönəldilən qəsdlərin qarşısını almaq məqsədilə dövlət orqanlarının və ictimai təşkilatların, vətəndaşların qəti tədbirlər görülməsi haqqında müraciətlərini nəzərə alaraq, konstitusiyaya uyğun olaraq Bakı şəhərində fövqəladə vəziyyət elan olunması və fövqəladə vəziyyət rejiminin təmin edilməsinin müdafiə, daxili işlər və milli təhlükəsizlik qüvvələrinə tapşırılması barədə Azərbaycan Respublikasının Prezidenti 1994-cü il oktyabrın 4-də fərman vermişdi. Həmin fərman Milli Məclisdə təsdiq edilmişdi. Fövqəladə vəziyyətin müddətinin uzadılması haqqında Prezidentin sonrakı fərmanları da Milli Məclis tərəfindən təsdiq olunmuşdu.

Qanunsuz saxlanılan odlu silahların könüllü təhvil verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin və Milli Məclisin müraciətləri, hüquq-mühafizə orqanlarının səyi nəticəsində xeyli odlu silah, döyüş sursatı təhvil verilmiş və ya aşkar edilib götürülmüşdü. Bununla belə, bəzi şəxslərdə odlu silahlar hələ də qalırdı.

"Əsrin müqaviləsi"nin icrası üçün vacib işlər həyata keçirilmişdi. Azərbaycan Beynəlxalq Əməkdaşlıq Şirkəti (ABƏŞ) yaradılmış, rəhbər komitənin yüksək səviyyədə ilk iclası keçirilmiş, müqaviləyə uyğun olaraq 1995-ci ilin büdcəsi təsdiq olunmuş, Azərbaycanın investisiya payının müəyyənləşdirilməsi, neft kəmərinin çəkilməsi marşrutu, digər neft-qaz yataqlarının xarici investorların iştirakı ilə işlənməsi istiqamətində danışıqlar aparılmışdı.

Fəal və tarazlaşdırılmış daxili və xarici siyasət aparılması nəticəsində iqtisadiyyatın tənəzzülünün, inflyasiyanın artmasının, manatın dəyərdən düşməsinin qarşısının alınması meyilləri yaranmışdı.

Ölkədə iqtisadi, torpaq, dövlət quruculuğu, məhkəmə-hüquq islahatlarının aparılması üçün əhəmiyyətli tədbirlər həyata keçirilirdi. Özəlləşdirməyə başlamaq üçün sonuncu hazırlıq işləri başa çatırdı. Azərbaycan Respublikası vətəndaşının pasportlarının və şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanılması üçün zəruri işlər yekunlaşdırılırdı. Dövlət müstəqilliyi bərpa edildikdən sonra ilk dəfə demokratik parlament seçkiləri keçirilməsi üçün lazımi işlər görülür, qanun layihələri işlənilir, beynəlxalq konfrans və seminarların keçirilməsi davam etdi-

rilirdi. Həmin qanunların və Azərbaycan Respublikasının ilk milli konstitusiyasının hazırlanmasının başa çatdırılması və müzakirəsi nəzərdə tutulurdu.

Beynəlxalq maliyyə təşkilatları ilə uğurlu danışıqlar sona yaxınlaşırdı. Yenikənd su elektrik stansiyasının tikintisini başa çatdırmaq üçün Avropa Yenidənqurma və İnkişaf Bankında kredit alınması barədə saziş təsdiq edilmiş və həmin vəsaitin qoyuluşu gözlənilirdi. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu ilə Azərbaycana böyük məbləğdə güzəştli kredit ayrılması barədə razılıqlar əldə edilmişdi və həmin kreditin bir hissəsinin verilməsi məsələsi 1995-ci ilin aprel ayında həll ediləcəkdi.

Azərbaycan dövlətçiliyinin daha da möhkəmlənəcəyindən narahat olan bədxah qüvvələr qanuni yolla hakimiyyətə gəlmək üçün səriştə, bacarıq, mənəvi və siyasi keyfiyyətlərinin olmadığını, xalqın onlara inanmadığını və arxa durmadığını başa düşərək konstitusiyaya zidd yollarla, zorakılıqla hakimiyyətin ələ alınmasını sonuncu şans kimi görürdülər. Dövlət rəhbərliyinin milli birlik naminə gördüyü tədbirlərdən nəticə çıxarmayan Rövşən və Mahir Cavadov qardaşları və onların ətrafında olan adamlar yenə də hakimiyyətin zorakılıqla ələ alınmasının icraçıları oldular. Qeyd etmək lazımdır ki, belə qanunsuz hərəkətlərin əsası hələ AXC dövründə qoyulmuşdu. AXC həm öz hakimiyyətinə, həm sonrakı dövrdə nəinki özünə qanuni status əldə edə bilməmiş, həm də tərəfdaşlarından qanunsuz yollarla silahlı dəstələr yaratmışdı. Əvvəllər erməni silahlı quldur dəstələrinə qarşı mübarizə aparmış və müəyyən xidmətlər göstərmiş Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsi 1992-ci ildə və 1993-cü ilin birinci yarısında tədricən təyinatı üzrə istifadə olunmamış, ayrı-ayrı bədniyyətli adamların, cinayətkarların mənafeyinə xidmət etməyə başlamış, onun bir çox üzvləri qanunsuz ticarət əməliyyatlarına, narkotik maddələr, silah alverinə, qaçaqmalçılığa və digər cinayətlərə qurşanmış, vəzifəli şəxslərdən və vətəndaşlardan pul qoparmaqla məşğul olmuşdular. Sabiq daxili işlər naziri İsgəndər Həmidov XTPD-nin daha da azğınlaşması, cinayətkar qruplarla birləşməsi üçün şərait yaratmış, həmin dəstəyə rəhbərlik edən XTPD-nin komandiri Rövşən Cavadovun əməllərinin qarşısını almaq əvəzində onu daxili işlər nazirinin müavini vəzifəsinə təqdim etmiş və prezident Əbülfəz Elçibəyin sərəncamı ilə o, bu vəzifəyə təyin olunmuşdu. Bundan sonra Rövşən Cavadov XTPD-ni öz məqsədləri üçün daha çox tabeliyinə cəlb etmiş, digər maliyyə, ticarət təşkilatları ilə qanunsuz əlaqələrə girmiş və bu işdə onun qardaşı, Bakı şəhəri Xətai rayonunun sabiq prokuroru Mahir Cavadov xüsusi rol oynamışdı. Onların qanunsuz hərəkətlərinə DİN və respublikanın sabiq rəhbərliyi göz yummuş və qarşısında acizlik göstərmişdilər. Nəticədə onlar idarəolunmaz bir qüvvə, cəmiyyət üçün təhlükə mənbəyi olmuşdular. Qanunsuz yollarla əldə edilmiş külli miqdarda

var-dövlət, bahalı xarici avtomaşınlar, xalqın və dövlətin mənafeyinə biganəlik, mənəvi-əxlaqi dəyərlərin itirilməsi Cavadov qardaşlarını uçuruma yuvarlamışdı. Onlar tədricən yüksək dövlət vəzifələri tutmaq, nəhayət, dövlət çevrilişinə cəhd edərək dövlət hakimiyyətini zorakılıqla ələ keçirmək niyyətinə düşmüşdülər. Həm ölkədəki havadarlarının təsiri altında, həm də xaricdə olan ayrı-ayrı dairələrin, qüvvələrin göstərişi əsasında Azərbaycanda ictimai-siyasi sabitliyi yenidən pozmağa cəhd etmişdilər. Onlara rəvac verənlər, qızışdıranlar, havadarlıq edənlər, onları maliyyələşdirənlərlə yanaşı bu işlərə ayrı-ayrı siyasi partiyaların, ictimai təşkilatların nümayəndələri də qoşulmuşdu. Respublikaya qarşı düşmənçilik mövqeyi tutan Ayaz Mütəllibov, Surət Hüseynov, Rəhim Qazıyev və b. öz çirkin mənafeləri üçün bu vəziyyətdən müxtəlif yollarla istifadə etməyə çalışmışdılar. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xaricdə rəsmi səfərdə olmasından istifadə edən qüvvələr dövlət çevrilişi cəhdi etmişdilər.

Artıq qeyd edildiyi kimi, uzun müddət benzin, narkotik maddələr, silah alveri və qaçaqmalçılıqla məşğul olan, qanuni tabeçilikdən çıxmış XTPD-nin Qazax rayonunda yerləşən bölməsi 1995-ci il martın 12-dən 13-nə keçən gecə əvvəlcə Qazax rayon hakimiyyət orqanlarını ələ keçirdi. Daha sonra hərbi hissələrin birinə basqın edərək 5 ədəd zirehli döyüş maşınını ələ keçirərək Ağstafa rayonunun hakimiyyət orqanlarını da devirdi. Onlar 300 ədəd qanuni saxlanılan silahı, 3 ədəd avtotexnikanı ələ keçirdilər, Ağstafa rayon Daxili İşlər Şöbəsinin təcridxanasında saxlanılan və sonradan onlara qoşulan 14 şəxsi azad edərək dövlətə böyük miqdarda ziyan vurdular. Əvvəlcədən hazırlanmış plana görə, onlar digər rayonları da tutmalı, fövqəladə vəziyyət rejiminin son vaxtlar lazımınca təmin edilmədiyi Bakı şəhərində də çevriliş həyata keçirməli idilər.

Hadisələri dinc məcraya qaytarmaq məqsədi ilə dövlət rəhbərliyi tərəfindən DİN-in yüksək vəzifəli şəxsləri ilə birlikdə Rövşən Cavadov da bölgəyə ezam olundu. Lakin o, tapşırılan işi yerinə yetirmək əvəzinə qızışdırıcı mövqe tutdu və özbaşına geri qayıtdı.

Martın 13-dən 14-ə keçən gecə həmin silahlı dəstə Tovuz, Gəncə bölgələrini zəbt etmək üçün Tovuz rayonunda yerləşən hərbi hissəyə basqın etsə də, darmadağın edildi. Basqında iştirak edən şəxslər həbs olundular. Onlardan 242 avtomat, xeyli tüfəng, qumbara, qumbaratan və digər qurğular, döyüş sursatı, 2 tank, 3 zirehli maşın, sursat yüklənmiş 3 avtomaşın və b. texnika, 1 minik avtomaşını götürüldü.

Qazaxdan qayıtdıqdan sonra Rövşən Cavadov Bakı şəhərinin 8-ci kilometr qəsəbəsində yerləşən XTPD-nin bazasına gəldi, həmin dəstəni silahlı dövlət çevrilişi cəhdinə hazırlamağa başladı. Paytaxtda da qanunsuz hərəkətlərə yol verildi. XTPD-nin əməkdaşları Əli Əliyev və İlqar Məmmədov martın 14-də

Ali Sovetin binası yaxınlığında Azərbaycan Respublikası ali dövlət hakimiyyət və idarəetmə orqanlarının Baş Mühafizə İdarəsinin bölmə rəisinin müavini Fəxrəddin Quliyevə xəsarət yetirdilər. Onlar yaxalandılar və tərksilah edildilər. Həm bu şəxslərdən, həm də İlqar Məmmədovun qohumundan qanunsuz saxlanılan avtomat silahlar, qumbaralar və güllələr tapılıb götürüldü.

XTPD qanuni tabelikdən çıxdığından görə həmin gün daxili işlər nazirinin əmri ilə ləğv edildi. İşində ciddi qüsurlara yol verdiyinə və qanunu pozduğuna görə Rövşən Cavadov vəzifəsindən azad edildi.

Martın 15-də XTPD-nin və Cavadov qardaşlarının qanunsuz hərəkətlərinin davamı olaraq XTPD-nin əmrə tabe olmayan 50-dək üzvü Bakı şəhəri Nizami rayonunun polis idarəsinə silahlı basqın etdi. Basqının qarşısı alınarkən idarənin 2 nəfər əməkdaşı yaralandı.[433]

Törətdiyi cinayətlərə görə Daxili İşlər Nazirliyinin qüvvələri tərəfindən yaxalanması üçün əməliyyat keçirilərkən Mahir Cavadov yaşadığı mənzildə ətrafında olan XTPD-nin əmrə tabe olmayan 40-dək üzvü ilə birlikdə müqavimət göstərdi. Onunla bir blokda yaşayan adamları girov saxladı və 7-ci mərtəbədən qumbaraatanla atəş açaraq qanuni fəaliyyət göstərən 8 polis əməkdaşını, o cümlədən 2 nəfər mülki şəxsi ağır yaraladı, sonra isə ətrafında olanlarla mənzili tərk etdi. Mahir Cavadovun yaşadığı binadan və qarajından 2 Mersedes, 1 Cip avtomaşını, 4 qumbaraatan, 8 avtomat, hərbi ləvazimat aşkar edilib götürüldü.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev martın 15-də televiziya və radio ilə çıxışında Rövşən Cavadovu, onun dəstəsini, daxildən və xaricdən ona havadarlıq edən, güc verən, onu istiqamətləndirən, bu işlərə sövq edən qüvvələri Azərbaycanı dağıtmaqdan, qan tökməkdən çəkinməyə çağırdı, Azərbaycan dövlətçiliyini qorumağın vacibliyi barədə müraciət etdi, ictimaiyyətin təsirindən istifadə etməyə çalışdı, XTPD-nin əmrə tabe olmayan üzvlərinin çirkin əməllərindən əl çəkəcəkləri, silahları təhvil verəcəkləri təqdirdə əfv olunacağına, işlə təmin ediləcəyinə, onlara qayğı göstəriləcəyinə təminat verdi və bütün bu söylədiklərini martın 16-da verdiyi fərmanla təsdiq etdi. Azərbaycan Respublikasının Prezidenti martın 16-da keçmiş XTPD-nin komandiri Şahmuradovu və onun müavini Cəfərovu qəbul etdi, bir daha silahı yerə qoymağın, cinayət yolundan qayıtmağın vacibliyini onlara izah etdi. Lakin bu xoş münasibət müsbət nəticə vermədi. Azərbaycan dövlət başçısının məsələnin dinc yolla həllinə dair bütün bu səylərini yanlış olaraq zəiflik kimi qiymətləndirən Rövşən Cavadov açıq-aşkar dövlət çevrilişi etmək üçün hazırlıqlarını genişləndirdi, müxtəlif cinayətkar qruplar və adamlarla, siyasətbazlarla danışıqlar apardı. Azərbaycanda yeganə real qüvvə olduğunu, Azərbaycan rəhbərliyini zorakılıqla dəyişdirmək istədi-

433 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 clddə. II cild, s. 213.

yini, bu yolda vətəndaş müharibəsindən də çəkinməyəcəyini, hakimiyyəti ələ keçirdikdən sonra konstitusiyaya zidd olan hansısa siyasi şura yaradıb ona rəhbərlik edəcəyini və ayrı-ayrı partiyaların nümayəndələrini həmin quruma daxil edəcəyini bəyan etdi. Bu məlumatlar xarici və daxili informasiya vasitələri tərəfindən bütün dünyaya yayıldı.

Yaranmış vəziyyətdən çıxmaqdan ötrü Rövşən Cavadovun atası Bəxtiyar Cavadov öz oğluna müraciət edərək dedi ki, ziyanın yarısından qayıtmaq böyük işdir.[434] B.Cavadovun Fərman bəylərin *(Milli Məclisin əməkdaşı olan Türkiyə vətəndaşı Fərman Dəmirqol – M.Q.)*, Tofiq bəylərin *(Tofiq Qasımov – M.Q.)* şəxsi mənafelərinə uymamaq, silahı yerə qoymaq, dövlətə tabe olmaq çağırışları da cavabsız qaldı. Bu isə Rövşən Cavadovun ata sözünü yerə saldığını, azərbaycanlı kimi ən vacib mənəvi, əxlaqi keyfiyyətləri itirdiyini bir daha təsdiq edirdi.

Rövşən Cavadov və havadarları martın 16-da axşam dövlət çevrilişini həyata keçirmək üçün öz dəstələrini 4 qrupa bölərək onlara: 1. Prezident sarayını tutmaq, Azərbaycan Respublikası Prezidentini fiziki məhv etmək və ya həbs etmək; 2. Ali Sovetin binasını tutmaq; 3. Daxili İşlər Nazirliyini tutmaq; 4. Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətini tutmaq və xalqa müraciət etmək vəzifələrini tapşırdı. Keçmiş XTPD-nin qüvvələri eyni zamanda pusqular qurmuş, iriçaplı pulemyotlarla və başqa növ silahlarla silahlanmış 15-20 nəfərdən ibarət qruplarla ətrafdakı yaşayış evlərinin, məktəbin, uşaq bağçasının damlarında yerləşərək bütün ətrafı nəzarətdə saxlayırdılar.[435]

Belə bir şəraitdə Azərbaycan Respublikasının suverenliyi, toxunulmazlığı və mənafeyi, əhalinin təhlükəsizliyini, ictimai qaydanın qorunması silahlı müdafiəni, silahlı hücumun qarşısını almaq üçün tədbirlər görülməsini tələb edirdi. Qanunlara müvafiq olaraq keçmiş XTPD-nin qüvvələrinin yerləşdiyi ərazinin kiçik kontingentlə mühasirəyə alınması və silahlı hücum olduqda qarşısının alınması üçün müdafiə və daxili işlər nazirlikləri tərəfindən zəruri tədbirlər görüldü. Martın 17-də keçmiş XTPD hücuma keçərək birinci atəşlə hərbi qulluqçulardan 4 nəfəri öldürdü, 5 nəfəri yaraladı və əllərində olan bütün vasitələrlə atəşi davam etdirdi. Hökumət qüvvələri yalnız səhər saat 4 radələrində əks tədbirlər görməyə məcbur oldu, saat 8 radələrində qadınlara və uşaqlara xətər yetirdiklərinə görə keçmiş XTPD qüvvələrini bazaya sıxışdırmağa və onların atəş nöqtələrini sıradan çıxarmağa başladılar. Saat 9 radələrində keçmiş XTPD-nin bazasından "ağ bayraq" qaldırıldı və hökumət qüvvələri atəşi dayandırdılar. Buna baxmayaraq, keçmiş XTPD-nin üzvləri danışıqlar aparmaq üçün bazaya yaxınla-

434 Əliyev H.Ə. Respublikada dövlət çevrilişi cəhdi və onun qarşısının alınması ilə bağlı keçirilən müşavirədə giriş və yekun sözü. 19 mart 1995 // Müstəqilliyimiz əbədidir. III kitab. Bakı, 1997, s. 302.

435 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 214.

şan 2 hərbi qulluqçunu öldürdülər. Keçmiş XTPD-nin üzvləri bu vəziyyətdən istifadə edərək qüvvələrini yaxınlıqda yerləşən məktəbə topladılar. Hökumət qüvvələrinin qanuni tədbirləri davam etdirməsi nəticəsində keçmiş XTPD-nin sağ qalan qüvvələri saat 11.40 radələrində təslim olmağa və qaçmağa başladılar.[436]

Keçirilmiş əməliyyatlar nəticəsində Bakı şəhərindən, o cümlədən XTPD-nin bazasından 208 avtomat, 27 növ pulemyot, 13 qumbaraatan, 2 minaatan, 4 idarə olunmayan reaktiv qurğu, 5 tank əleyhinə idarə olunan raket, 10 Strela zenit raket kompleksi, 30 mm çaplı top, 1 QŞ top qurğusu, döyüş sursatı yüklənmiş 2 KAMAZ avtomaşını, 30 müxtəlif tipli radiostansiya, 4 qərargah avtomaşını, 59 hərbi lazer cihazı, 36 hərbi maşın, digər döyüş sursatı, hərbi ləvazimat, habelə keçmiş XTPD-nin bazasından Mersedes, Audi, Pejo, Opel və digər markalı 20 minik maşını, böyük ərzaq ehtiyatı, xeyli patron aşkar edilib götürüldü.

Rövşən Cavadovu və onun cinayətkar məqsədlərini AXC, Azərbaycan Bozqurd Partiyası və digər təşkilatların nümayəndələri dəstəkləmiş və yardımlar etmişdilər. Martın 16-da axşam XTPD-nin bazasında təxminən 400 nəfər silahlı adam, o cümlədən Azərbaycan Bozqurd Partiyasının və digər təşkilatların nümayəndələri müşahidə olunmuşdu.

Məlum olmuşdu ki, Surət Hüseynovun tərəfdarı, qohumu, 1994-cü il 2-4 oktyabr tarixlərindəki çevriliş cəhdlərinin fəal iştirakçısı olan Kəramət Kərimovun başçılığı altında olan silahlı qüvvələr Gürcüstan ərazisində cəmləşmiş və Rövşən Cavadovdan işarə gözləyir. Hadisələr ərəfəsində Ayaz Mütəllibov və Surət Hüseynov müntəzəm olaraq Cavadov qardaşları ilə əlaqə saxlamış, Azərbaycana gələcəklərini, dövlətə rəhbərliyi öz üzərlərinə götürəcəklərini bəyan etmişdilər.

Bütün bunlara baxmayaraq, dövlət konstitusiya quruluşuna qarşı sui-qəsdin, digər ağır cinayət əməllərinin və çevriliş cəhdinin qarşısını aldı. Törədilən dövlət cinayətləri Azərbaycana müəyyən zərbələr vursa, qan tökülsə də, müstəqil Azərbaycan dövlətini bir daha sınaqdan çıxardı, onun möhkəm, qüdrətli olduğunu göstərdi, qanunsuz zor işlətməyin mənasızlığını sübut etdi. Bütün bunlar xalqın müdrikliyinin, milli həmrəyliyinin, inamının, dövlətçiliyə hörmət və ehtiramının güclü olduğunu, Azərbaycan Respublikasının demokratik əsaslarının möhkəmliyini, konstitusiya və qanundankənar fəaliyyətin yolverilməzliyini nümayiş etdirdi.[437]

Çevriliş cəhdi Azərbaycanı seçdiyi yoldan döndərə bilmədi. Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində çevriliş cəhdinin qarşısı alındı.[438] Rövşən

436 Yenə orada, s. 215.
437 Azərbaycan Respublikasında dövlət çevrilişi cəhdinin qarşısının alınması və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 22.03.1995 // ARMMA, f.2941, siy.1, iş 313, v.87-101.
438 Qətiyyətin təntənəsi (Sənədli xronika). Bakı, 1995, s. 780-809.

Cavadov və qiyamçıların bəziləri atışma zamanı öldürüldü, bir qismi isə həbs edildi. Çevrilişin boşa çıxması xalq və dövlətin tam həmrəyliyi nəticəsində mümkün oldu.[439] Xalq qanuni hakimiyyəti müdafiə etdi. Bununla Azərbaycanda dövlət çevrilişi cəhdlərinə və qanunsuz yollarla hakimiyyətə gəlmək istəklərini həyata keçirmək üçün törədilən hərəkətlərə birdəfəlik son qoyuldu. Çevriliş cəhdinin iflasa uğraması müstəqil dövlət quruculuğu və xalqın hakimiyyətə inamının artmasında müstəsna rol oynadı.

Dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasının ciddi beynəlxalq əhəmiyyəti oldu. Azərbaycan hakimiyyətinin xarici və daxili qüvvələrin təzyiqlərinə tab gətirməsi, qətiyyətli addımları sayəsində ölkədə sabitliyin bərqərar edilməsi xarici neft şirkətlərində əməkdaşlığa və sərmayə qoyuluşuna əminlik və etimad qazandırdı, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə təsir edən güclü amillərdən biri oldu. Bundan sonra xarici neft şirkətləri ilə əməkdaşlıq daha da genişləndi.

***

Fəsildə öyrənilən məsələlərdən aydın olur ki, dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının qarşısında dayanan başlıca vəzifələrdən biri təbii sərvət olan nefti milli sərvətə çevirmək, ölkədəki vacib sosial-iqtisadi problemləri həll etmək, dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün beynəlxalq təminatlar əldə etmək olmuşdur. Hələ SSRİ-nin mövcud olduğu son illərdə bir sıra iri xarici şirkətlər Azərbaycan neftinə maraq göstərmişdilər. Əməkdaşlıq üçün ilkin məsləhətləşmələr başlamışdı. Lakin ölkə daxilində baş verən mürəkkəb proseslərin və belə əməkdaşlığın əleyhdarlarının fəaliyyətlərinin təsiri altında danışıqlar çətinliklərlə üzləşmişdi.

Heydər Əliyev ikinci dəfə hakimiyyət başına gəldikdən sonra neft sahəsində əməkdaşlıqda yeni bir mərhələ başlanmışdır. Azərbaycanın neft sahəsində əməkdaşlığına mane olan xarici qüvvələr təzyiqlərini artırmışlar. Buna baxmayaraq, Heydər Əliyevin gərgin səyləri ilə "Əsrin müqaviləsi" imzalanmışdır. Beləliklə, təbii sərvət olan neftin milli sərvətə çevrilməsi istiqamətində hüquq-müqavilə bazası yaradılmışdır. Böyük tarixi əhəmiyyət daşıyan bu müqavilənin imzalanması ilə Azərbaycan dövləti və xalqının tarixində yeni bir səhifə açılmışdır. Lakin düşmən olan qüvvələr fəaliyyətlərini daha da genişləndirmişlər. Bir neçə dövlət xadimi qətlə yetirilmiş, bəzi məhbuslar təcridxanadan qaçırılmış, 1994-cü ilin

439 Əliyev H.Ə. 1994-cü il oktyabr, 1995-ci il mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyətə həsr olunmuş ümumxalq nümayəndələrinin toplantısında giriş sözü. 5-6 aprel 1996-cı il // Müstəqilliyimiz əbədidir. VI kitab. Bakı, 1998, s.85.

oktyabrında dövlət çevrilişi cəhdi baş vermişdir. Bütün bu qanunsuz hərəkətlərin qarşısı Heydər Əliyevin yenilməz iradəsi sayəsində alınmışdır. Azərbaycan xalqı prezidentin çağırışına səs verərək dövlət hakimiyyətini qətiyyətlə müdafiə etmişdir. Baş nazir Surət Hüseynov vəzifəsindən azad edilmiş, Milli Məclisin deputatı səlahiyyətlərinə xitam verilmiş və həbs edilmişdir.

1995-ci ilin martında dövlət əleyhinə qaldırılan qiyam yatırılmış, cinayətkarların bir qismi atışma zamanı öldürülmüş və həbs edilmişdir. Bununla da Azərbaycan Respublikasında sui-qəsdlər, çevrilişlər və dövlət əleyhinə qiyam qaldırmaq yolları ilə hakimiyyətə gəlmək istəklərinə son qoyulmuşdur. Dövlət əleyhinə baş verən bütün qanunsuz hərəkətlərin qarşısının alınmasında Heydər Əliyev şəxsiyyəti, yenilməz iradəsi və qətiyyəti, xalqın rəhbərinə olan inam və etimadı müstəsna rol oynamışdır.

Dövlətin xarici siyasəti daxili siyasətinin davamı olsa da, Heydər Əliyev böyük məharət və ustalıqla dünya tarixində nadir rast gəlinən geniş beynəlxalq fəaliyyət həyata keçirərək ölkə daxilindəki bir sıra problemləri uğurla həll etmişdir. “Əsrin müqaviləsi” Azərbaycan Respublikasının bütün sahələrdə inkişafının açarı olmuşdur. Bundan sonra geniş islahatlara başlamaq üçün imkanlar yaranmışdır. Ölkə qarşısında dayanan başlıca vəzifələrdən biri Azərbaycan Respublikasının konstitusiyasının qəbul edilməsi və Milli Məclisə seçkilərin keçirilməsi olmuşdur. Azərbaycan hakimiyyəti və cəmiyyəti konstitusiyanın qəbuluna və parlament seçkilərinə hazırlaşırdı.

# 9-cu FƏSİL

## MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ İLK KONSTİTUSİYASININ QƏBUL EDİLMƏSİ VƏ PARLAMENTƏ SEÇKİLƏR

### *9.1. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbuluna hazırlıq*

Azərbaycan Respublikası 1991-ci ildən müstəqil dövlət olsa və çoxlu qanunlar qəbul edilsə də, əsas qanun olan konstitusiya hələ qəbul edilməmişdi. Edilən bəzi təşəbbüslər ölkə daxilində yaranmış şərait səbəbindən dayandırılmışdı.

Bu zaman ölkədə sabitlik yarandığından Gəncə şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 10 oktyabr tarixli fərmanı ilə tətbiq edilmiş fövqəladə vəziyyətin müddəti başa çatdığı üçün ləğv edildi. Milli Məclisin 1995-ci il aprelin 11-də keçirilən iclasında bu barədə qərar qəbul edildi.

Bakı şəhərində də vəziyyət normallaşdı. Ona görə də Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 4 oktyabr tarixli fərmanının 1995-ci il iyunun 2-dən ləğv edilməsi haqqında Milli Məclisin iyunun 2-də keçirilən iclasında qərar qəbul olundu.[440]

İclasda, həmçinin Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi haqqında məsələ müzakirə edildi. Məlum olduğu kimi, hələ 1993-cü il dekabrın 6-da Heydər Əliyevin sədrliyi altında formalaşdırılan 35 nəfərdən ibarət komissiyanın tərkibinə daxil edilmiş bir sıra şəxslər vəzifələrindən azad edilmişdilər. Ona görə də komissiyaya yeni üzvlərin daxil edilməsi zərurəti yaranmışdı. İclasda bu barədə müvafiq qərar qəbul edildi.[441]

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra parlament seçkilərinin ilk dəfə keçirilməsini, bu seçkilərin ictimai-siyasi əhəmiyyətini nəzərə alaraq Milli Məclisin iyunun 13-də keçirilən iclasında Azərbaycan Respublikasının ali qanunvericilik orqanına seçkilərin keçirilməsi haqqında

440 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 219.
441 Yenə orada, 219-220.

dörd maddədən ibarət qərar qəbul edildi. Seçkilər 1995-ci il noyabrın 12-nə bazar gününə təyin edildi.

Azərbaycan Respublikasının yeni konstitusiyasını hazırlayan komissiyanın iyulun 26-da keçirilən iclasında Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında qanun layihəsi bəyənildi. Milli Məclisin avqustun 12-də keçirilən iclasında Milli Məclisə seçkilər haqqında 5 bölmə, 86 maddədən ibarət qanun qəbul edildi.[442]

Qanunda seçkilərin əsas prinsipləri, Milli Məclisin tərkibinin 125 deputatdan ibarət olması və səlahiyyət müddətinin 5 il olması, 18 yaşı olan vətəndaşların seçmək hüququnun olması, seçkilərin Milli Məclisin səlahiyyətlərinin başa çatmasına ən geci 80 gün qalmış təyin edilməsi, 100 deputatın birmandatlı seçki dairələri üzrə, 25 deputatın isə vahid çoxmandatlı seçki dairəsi üzrə siyasi partiyaların (siyasi partiya bloklarının) göstərdikləri deputatlığa namizədlərin siyahılarına seçicilərin verdikləri səslərin nisbəti əsasında seçilməsi, deputatlığa namizəd göstərmək hüququ, seçkilərin hazırlanması və keçirilməsi zamanı aşkarlıq, seçkilərin hazırlanması, birmandatlı, çoxmandatlı seçki dairələrinin, seçki məntəqələrinin yaradılması, seçki hazırlığının təmin edilməsi, Mərkəzi Seçki Komissiyası, bu komissiyanın səlahiyyətləri, dairə seçki komissiyaları, onun səlahiyyətləri, məntəqə seçki komissiyaları, onların səlahiyyətləri, komissiya üzvlərinin hüquqi vəziyyəti, komissiyaların işinin təşkili, təkrar seçkilər, seçkilərin etibarsız sayılması, deputat mandatından məhrumetmə və s. məsələlər öz əksini tapmışdı. Qanuna görə, din xadimləri və müddətli həqiqi hərbi və ya alternativ xidmətdə olanlar Milli Məclisə deputat seçilə bilməzdilər.

Milli Məclisə seçkilər haqqında Azərbaycan Respublikası qanununa uyğun olaraq majoritar seçki sistemi əsasında seçkilərin təşkili və keçirilməsi üçün birmandatlı seçki dairələrinin yaradılması haqqında Milli Məclisə seçkilər üzrə MSK-nın təklifini nəzərə alaraq Milli Məclisin avqustun 22-də keçirilən iclasında birmandatlı seçki dairələrinin yaradılması haqqında üç maddədən ibarət qərar qəbul edildi.[443] Qərara görə, birmandatlı seçki dairəsində vahid təmsilçilik norması 74 min 200 nəfər müəyyənləşdirildi. Vahid təmsilçilik normasının yuxarı həddi 81 min 620, aşağı həddi isə 66 min 780 nəfər müəyyən edilirdi. Azərbaycan Respublikasının ərazisi 100 majoritar seçki dairəsinə bölünür və bu qərara olan əlavədə onların hüdudları dəqiqləşdirilirdi.

Seçkilərdə ən böyük problemlərdən biri Ermənistanın hərbi təcavüzü nəticəsində ev-eşiklərini itirmiş məcburi köçkünlərin seçki hüququnun təmin edilməsi idi. Həmin şəxslər Azərbaycanın müxtəlif rayonlarında müvəqqəti yerləş-

442 Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında Azərbaycan Respublikasının qanunu. 12.08.1995 // ARMMA, f.2941, siy.1, iş 318, v. 21-56.
443 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 clddə. II cild, s. 225.

mişdilər. Milli Məclisin sentyabrın 29-da keçirilən iclasında məcburi köçkün olan Azərbaycan vətəndaşlarının seçki hüququnun həyata keçirilməsinin təmin edilməsi haqqında qərar qəbul edildi.[444]

Konstitusiya komissiyasının oktyabrın 3-də keçirilən iclasında noyabrın 12-də konstitusiyanın qəbul edilməsi haqqında ümumxalq səsverməsi (referendumu) keçirilməsi haqqında qərar qəbul olundu.

Yeni şərait müstəqil Azərbaycan Respublikasının dövlət quruluşu, vətəndaşların hüquq və azadlıqları, iqtisadi münasibətlər, hakimiyyətin bölünməsi, siyasi sistem və başqa məsələlərin ümumi şəkildə həlli üçün bütün sivilizasiyalı dövlətlərdə olduğu kimi, dövlətin əsas qanununun – Azərbaycan Respublikası konstitusiyasının qəbul edilməsini şərtləndirirdi. Belə konstitusiya Azərbaycan xalqının milli dövlətçilik tarixində ilk dəfə qəbul ediləcəyinə görə onun layihəsinin hazırlanması yüksək səviyyədə təşkilatçılıq işi və ciddi məsuliyyət tələb edirdi.

Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən yaradılmış işçi qrupu xeyli iş görmüşdü. Konstitusiya komissiyasında aparılan müzakirələr, irəli sürülmüş təkliflər və müddəalar əsasında işçi qrupu konstitusiyanın layihəsini hazırlamışdı. Konstitusiya layihəsini hazırlayan komissiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev komissiyanın 12 oktyabr tarixli iclasında yeni konstitusiyanı hazırlamağın nə qədər məsuliyyətli olduğuna diqqəti çəkərək dedi:

*"Qəbul edəcəyimiz konstitusiya müstəqil Azərbaycan dövlətinin ilk konstitusiyası, eyni zamanda uzunömürlü olmalıdır. Demək istəmirəm elə bir konstitusiya olmalıdır ki, bu, daim yaşasın, - bu, çox yaxşı olardı, şəxsən mən bunu arzu edərdim - ancaq elə edək ki, uzunömürlü olsun. Ona görə bu layihənin giriş hissəsində və konstitusiyanın maddələrində bir neçə fikri daha da dəqiqləşdirmək, genişləndirmək lazımdır.*

*Konstitusiyada insan hüquqları, azadlıqları haqqında maddələr çoxdur. Onlar da müəyyən qədər dəqiqləşdirilməli, təkmilləşdirilməlidir. Eyni zamanda layihədə vətəndaşların vəzifələri barədə də lazımi qədər maddələr var. Amma güman edirəm ki, layihədə bu vəzifələr daha dəqiq ifadə olunmalı və bu maddələr daha da təkmilləşdirilməli, genişləndirilməlidir".*[445]

Konstitusiyada Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının statusunun təsbit olunması zərurətini Heydər Əliyev aşağıdakı kimi əsaslandırdı:

444 Məcburi köçkün olan Azərbaycan Respublikası vətəndaşlarının seçki hüququnun həyata keçirilməsinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 29.09.1995 // ARMMA, f.2941, siy.1, iş 321, v. 167-169.

445 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 351-352.

*"Respublikamızda Naxçıvan Muxtar Respublikası var. Layihədə Naxçıvan Muxtar Respublikasına həsr edilən, Naxçıvan Muxtar Respublikasının statusu, muxtar respublikadakı dövlət qurumu haqqında maddələr olmalıdır. Bunlar işlənilməli və layihəyə əlavə edilməlidir".*[446]

Bu məsələlər layihədə dərindən işlənildi. Müstəqil Azərbaycan Respublikasının ana qanunu – konstitusiyası aparılan gərgin iş və demokratik müzakirələr nəticəsində meydana çıxdı.

Beləliklə, 1991-ci ildə dövlət müstəqilliyi bərpa edildikdən sonra qanunvericilik sahəsində olan boşluqların aradan qaldırılması istiqamətində böyük işlər görüldü. Heydər Əliyevin bilavasitə rəhbərliyi altında ölkənin əsas qanunu olan konstitusiya layihəsi və seçki məcəlləsi hazırlandı. Ölkə mühüm siyasi və ictimai əhəmiyyət daşıyan hadisələrin astanasında dayanmışdı.

## *9.2. Azərbaycan Respublikası Konstitusiyasının qəbulu*

1995-ci il noyabrın 12-də I çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilərlə eyni gündə ilk konstitusiya da referendum yolu ilə qəbul edildi. Konstitusiyanın qəbulu ilə – referendumla əlaqədar səsvermə fəallıq şəraitində keçdi. Vətəndaşların 86%-i referendumda iştirak etmişdi. 3 milyon 556 min 277 nəfərdən 3 milyon 267 min 538 nəfəri, yəni 91,9%-i səsə qoyulmuş təklifə "hə" cavabı vermişdi. 99 dairədən 65-də yeni konstitusiyanı bəyənənlərin sayı səsvermədə iştirak edən vətəndaşların orta hesabla 94,8%-ni təşkil edirdi.

Azərbaycan Respublikasının yeni konstitusiyası 5 bölmə, 12 fəsil və 158 maddədən ibarət idi. Konstitusiyanın preambula hissəsində qeyd edilirdi ki, Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir: Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat

446 Yenə orada, s. 352.

səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.[447]

Konstitusiyanın "Ümumi bölmələr" adlanan birinci bölməsinin birinci fəslində Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqı olduğu qeyd olunurdu. Hakimiyyətin mənbəyi, xalqın suverenliyi, ümumxalq səsverməsi-referendum yolu ilə həll edilən məsələlər, xalqı təmsil etmək hüququ, xalqın vahidliyi, hakimiyyətin mənimsənilməsinə yol verilməməsi ilə bağlı məsələlər birinci fəsildə öz əksini tapmışdı. Konstitusiyanın ikinci fəsli dövlətin əsaslarından bəhs edirdi. Azərbaycan Respublikası dövləti, Azərbaycan dövlətinin başçısı, silahlı qüvvələr, beynəlxalq münasibətlərin prinsipləri, dövlətin ali məqsədi, ərazi, mülkiyyət, təbii ehtiyatlar, iqtisadi inkişaf və dövlət, sosial inkişaf və dövlət, ailə, uşaqlar və dövlət, din və dövlət münasibətləri, pul vahidi, dövlətin borclarına qoyulan məhdudiyyətlər, dövlət dili, ölkənin paytaxtı, Azərbaycan Respublikasının dövlət rəmzləri ilə bağlı əsas məsələlər konstitusiyanın bu fəslində təsbit edilmişdi.

Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını fərqləndirən ən əsas cəhət ondan ibarət idi ki, konstitusiyadakı maddələrin üçdə bir hissəsi insan hüquq və azadlıqlarına həsr edilmişdi. Bu isə qəbul edilən konstitusiyanın və Azərbaycan dövlətinin demokratizm, insan hüquq və azadlıqlarının prinsiplərinə nə qədər böyük önəm verdiyini göstərirdi.

Konstitusiyanın ikinci bölməsi "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" adlanırdı. Burada insan və vətəndaş hüquq və azadlıqlarının əsas prinsipi, bərabərlik hüququ, insan və vətəndaş hüquqları və azadlıqlarının müdafiəsi, yaşamaq, azadlıq, mülkiyyət, əqli mülkiyyət, təhlükəsiz yaşamaq, şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı, nikah, əmək, tətil, istirahət, sosial təminat, sağlam ətraf mühitdə yaşamaq, mədəniyyət, sağlamlığın qorunması, təhsil, mənzil, milli mənsubiyyət, şərəf və ləyaqətin müdafiəsi, vətəndaşlıq, cəmiyyətin və dövlətin siyasi həyatında, dövlətin idarə olunmasında iştirak etmək, seçki, müraciət etmək, birləşmək, azad sahibkarlıq, hüquqi yardım almaq, məhkəməyə təkrar müraciət, siyasi sığınacaq hüquqları, tutulan, həbsə alınan və cinayət törədilməsində təqsirləndirilən şəxslərin, özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüquqları, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları, fikir və söz, vicdan, sərbəst toplaşmaq, məlumat, yaradıcılıq azadlıqları, vətəndaşlıq hüququnun təminatı, hüquq və azadlıqların inzibati və məhkəmə təminatı, məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi, bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsi, qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol veril-

447 *Bax:* Azərbaycan Respublikasının Konstitusiyası (əsas qanun). Bakı, 1995.

məməsi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı məsələləri ilə əlaqədar əksini tapmış müddəalar dünyanın ən demokratik ölkələrinin konstitusiyalarının müddəalarından bir çox hallarda irəlidə idi.

Konstitusiyanın dördüncü fəsli vətəndaşların əsas vəzifələrindən bəhs edirdi. Burada vətəndaşların vəzifələrinin əsası müəyyənləşdirilmiş, vergilər və başqa dövlət ödənişləri, vətənə sədaqət, dövlət rəmzlərinə hörmət, vətəni müdafiə, tarix və mədəniyyət abidələrinin mühafizəsi, ətraf mühitin qorunması, qanuna zidd vəzifələrin icrasına yol verilməməsi, məsuliyyətlə bağlı maddələr təsbit edilmişdi.

“Dövlət hakimiyyəti” adlandırılan üçüncü bölməyə daxil olan V fəsil qanunvericilik hakimiyyəti məsələlərini əks etdirirdi. Yazılırdı ki, Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir. Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir. Azərbaycan Respublikası Milli Məclisinin deputatları ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir.

Konstitusiyada Azərbaycan Respublikasının seçkilərdə iştirak etmək hüququna malik olan hər bir vətəndaşının qanunla müəyyən edilmiş qaydada Milli Məclisin deputatı seçilə biləcəyi qeyd olunurdu. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər deputat seçilə bilməzdilər. Yazılırdı ki, Azərbaycan Respublikasının Milli Məclisi 83 deputatının səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir. Milli Məclis hər il iki növbəti yaz və payız sessiyalarına toplanırdı. 83 deputatın səlahiyyətləri təsdiq edildikdən sonra Milli Məclisin ilk iclası həmin gündən başlayaraq bir həftədən gec olmayaraq çağırılırdı. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdən sonra martın 10-dək onun 83 deputatının səlahiyyətləri təsdiq edilməzdisə, Milli Məclisin ilk iclasının keçirilmə vaxtını Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müəyyən edirdi. Milli Məclisin növbədənkənar sessiyalarının Azərbaycan Respublikası Prezidenti və ya Azərbaycan Respublikası Milli Məclisinin sədri tərəfindən 42 deputatın tələbi əsasında çağırılması məsələsi konstitusiyada təsbit olunmuşdu.

Azərbaycan Respublikası Milli Məclisi deputatlığından məhrumetmə və deputatların səlahiyyətlərinin itirilməsi, toxunulmazlığı, məsuliyyətə cəlb olunmasına qoyulan qadağalar, Milli Məclisin işinin təşkili, aktları, müəyyən etdiyi ümumi qaydalar, həll etdiyi məsələlər, qanunvericilik təşəbbüsü hüququ, qanunların imzalanmaq üçün təqdim olunması müddəti, Milli Məclisin aktlarının qüvvəyə minməsi, Milli Məclisin buraxılması məsələləri bu fəsildə təsbit edilmişdi.

Konstitusiyanın VI fəsli icra hakimiyyəti məsələlərini təsbit edirdi. Burada yazılırdı ki, ölkədə icra hakmiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur. Daha sonra prezidentliyə namizədlərə aid tələblər, prezident seçkilərinin əsasları, seçkilərin yekunları, prezident seçilmiş şəxsin andı, prezidentin toxunulmazılığı, səlahiyyətləri, Nazirlər Kabinetinin statusu, təyin edilməsi qaydası, səlahiyyətləri, Baş nazirin toxunulmazılığı, yerlərdə icra hakimiyyəti və digər məsələlər əksini tapmışdı.

VII fəsildə məhkəmə hakimiyyəti məsələləri tənzimlənirdi. Burada məhkəmə hakimiyyətinin həyata keçirilməsi, hakimliyə namizədlərə verilən tələblər, hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri, hakimlərin toxunulmazlığı, məhkəmə qərarları və onların icrası, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, apellyasiya məhkəmləri, prokurorluq məsələləri təsbit edilmişdi.

Konstitusiyanın VIII fəsli Naxçıvan Muxtar Respublikasına həsr edilmişdi. Yazılırdı ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Burada Muxtar Respublikada hakimiyyətin bölünməsi, ali vəzifəli şəxsi, Ali Məclisi, Nazirlər Kabineti, yerli icra hakimiyyəti məsələləri tənzimlənirdi.

Konstitusiyanın bir fəsildən ibarət olan IV bölməsi "Yerli özünüidarəetmə" adlanırdı. IX fəsildə bələdiyyələrin fəaliyyətini tənzimləyən maddələr yer almışdı.

"Hüquq və qanun" adlanan sonuncu – V bölməyə "Qanunvericilik sistemi", "Azərbaycan Respublikasının konstitusiyasında dəyişikliklər", "Azərbaycan Respublikasının konstitusiyasına əlavələr" adlanan fəsillər daxil edilmişdi.

Konstitusiyanın keçid müddəalar hissəsi ana qanuna keçid prosesində yarana biləcək məsələləri tənzimləyirdi və xüsusi hallara həsr olunmuşdu.

Konstitusiyaya görə, Azərbaycan Respublikasının ərazisi yalnız ümumxalq referendumu nəticəsində dəyişdirilə bilərdi.

Konstitusiyanın qəbul edilməsi böyük tarixi əhəmiyyət daşıyırdı. Bu, müstəqil Azərbaycan dövləti tarixində ilk konstitusiya idi. Müstəqil Azərbaycan Respublikasının əsas qanunu olan konstitusiyada dövlətin quruluşu, təməlləri, idarəçiliyi, əsas insan və vətəndaş hüquq və azadlıqları təsbit edilmişdi.

### *9.3. Müstəqil Azərbaycan Respublikasında ilk parlament seçkiləri*

Noyabrın 12-də parlamentə seçkilər majoritar və proporsional seçki sistemləri üzrə keçirildi. Ölkədə yaradılmış birmandatlı 100 seçki dairəsindən 99-da dairə seçki komissiyaları təşkil edilmişdi. 42 saylı Xankəndi-Xocavənd-Xocalı seçki dairəsində məlum səbəblərə görə seçki keçirilməsi üçün dairə seçki komissiyası yaradılmamışdı. Dairə seçki komissiyalarının tərkibində 1287 nəfər üzv var idi.

Proporsional seçki sistemi əsasında seçkilərin hazırlanması və keçirilməsi üçün ümumrespublika vahid çoxmandatlı seçki dairəsi yaradılmışdı. 4591 seçki məntəqəsi təşkil edilmişdi. Əvvəlki parlament seçkilərindən fərqli olaraq bu seçkilərdə seçki məntəqəsi 3 min seçicini deyil, azı 50, çoxu isə 1500-dək seçicinin yaşadığı ərazini əhatə edirdi.[448] Qaçqın və köçkün vətəndaşların seçki hüququnu təmin etmək üçün onların yığcam yaşadıqları şəhərlərdə və kəndlərdə ayrıca seçki məntəqələri yaradılmışdı. Bütün məntəqə seçki komissiyalarının tərkibinə 35 mindən artıq üzv seçilmişdi. Bunların yarısını siyasi partiyaların və deputatlığa namizdələrin nümayəndələri təşkil edirdi. Bu, seçki komissiyalarının demokratik prinsiplər əsasında təşkilini göstərirdi.

Ölkə üzrə seçici siyahılarında 4 milyon 262 min 326 Azərbaycan vətəndaşının adı var idi.

Qanuna görə, majoritar seçki sistemi ilə 100, proporsional seçki sistemi üzrə isə 25 deputat seçilməli idi.

Toplanmış seçici imzalarının həqiqiliyini yoxlamaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə Mərkəzi Seçki Komissiyasında xüsusi ekspertlər qrupu işləyirdi.

Milli Məclis deputatlığına namizədlərin irəli sürülməsi prosesində birmandatlı seçki dairələri üzrə 1094 nəfər namizəd göstərilmişdi. Mərkəzi Seçki Komissiyası daxil olmuş ərizə və şikayətlərin araşdırılmasının nəticələrinə görə, 175 nəfəri deputatlığa namizəd kimi qeydə almaqdan imtina etmək barədə 66 dairə seçki komissiyasının qərarlarını qüvvədə saxlamış, 98 nəfərin isə namizədlər siyahısına salınmasına dair həmin komissiyaların qərarlarını ləğv etmişdi.

Majoritar seçki dairələri üzrə deputatlığa namizədlər siyahısına bitərəflərlə yanaşı 19 siyasi partiyanı təmsil edən vətəndaşlar da daxil edilmişdi. Majoritar seçki sistemi üzrə 1 deputat mandatı üçün orta hesabla 4 namizəd mübarizə aparırdı. Ölkədəki birmandatlı seçki dairələrinin 93-də seçki namizədlərin alternativliyi qaydasında keçirdi. 30 seçki dairəsi üzrə seçki bülletenlərindəki deputatlığa namizədlərin sayı 5–9 nəfər, 2 seçki dairəsində isə hətta 11–12 nəfər idi.

448 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 229.

Səsvermə bülletenlərinə daxil edilən 378 namizədin 165 nəfəri müxtəlif siyasi partiyaların üzvləri idi.

Ölkədə qeydiyyyata alınmış 32 siyasi partiyadan 18-i seçkilərdə iştirak etmək üçün müraciət etmişdi. Onlardan 12-si qanunla müyyən edilmiş müddətdə bildiriş sənədlərini təqdim etmişdi. MSK 8 siyasi partiyanı seçkilərə buraxmışdı. Çoxmandatlı, proporsional seçki dairəsi üzrə seçki bülleteninə Yeni Azərbaycan, Azərbaycan Demokratik İstiqlal, Azərbaycan Demokratik Sahibkarlar, Azərbaycan Milli Dövlətçilik, Azərbaycan Milli İstiqlal, Azərbaycan Naminə Alyans, Azərbaycan Xalq Cəbhəsi, Ana Vətən partiyalarının adları daxil edilmişdi. Proporsional sistem üzrə seçkilərdə iştirak edən 8 siyasi partiyanın hər birinin əsas namizdələr siyahısında 25 nəfərin adı göstərilməklə 200 namizədin siyahısı səsvermə bülleteninə daxil edilmişdi.

Seçki qanununun şərtlərini pozduqlarına, seçici imza vərəqələrində pozuntulara yol verdiklərinə görə 4 siyasi partiya (Müsavat Partiyası, Azərbaycan Xalq Demokratik Partiyası, Azərbaycan Kommunist Partiyası və Ümid Partiyası) Mərkəzi Seçki Komissiyası tərəfindən seçkilərə buraxılmadı. Onlar Azərbaycan Respublikasının Ali Məhkəməsinə şikayətlə müraciət etdilər. Ali Məhkəmə şikayətlərə baxaraq, Mərkəzi Seçki Komissiyasının qərarlarını qüvvədə saxladı.

Oktyabrın 21-dən etibarən birmandatlı seçki dairələri üzrə deputatlığa namizədlərin, noybarın 1-dən isə siyasi partiyaların siyahılarında irəli sürülmüş namizədlərin təşviqatı başlandı. Milli televiziya ilə hər bir fərdi namizədə 9 dəqiqə, hər bir siyasi partiyaya isə 2 dəfə çıxış etməklə 60 dəqiqə efir vaxtı ayrılmışdı. Namizədlərin televiziya debatları qızğın və demokratik keçirdi.

Seçkidə şəffaflığa geniş yer verilmişdi. MSK deputatlığa müstəqil namizədlərin və siyasi partiyaların nümayəndələrini, həmçinin nüfuzlu beynəlxalq təşkilatları, xarici dövlətləri təmsil edən 214 müşahidəçini seçki tədbirlərində sərbəst iştirak etmək üçün lazımi buraxılış sənədləri ilə təmin etdi. Təkcə siyasi partiyalar MSK-dan 22 minə yaxın buraxılış vəsiqəsi almışdılar.

Seçki günü seçki məntəqələrində səsvermənin gedişini deputatlığa 378 namizədin, 8 siyasi partiyanın nümayəndələri və vəkil edilmiş şəxslər izlədilər.

Beynəlxalq müşahidəçilərin seçkiyə marağı böyük idi. Seçkinin gedişini 20 xarici ölkənin, BMT, ATƏT, Avropa İttifaqı və digər xarici təşkilatların müşahidəçiləri də izlədilər. Hələ oktyabrın 17-də Azərbaycanda parlament seçkiləri ilə əlaqədar Bakıya gəlmiş beynəlxalq müşahidəçilər qrupu ilə görüşdə ölkə başçısı Heydər Əliyev demişdi:

*"...Azərbaycanda demokratik parlamentin yaranması üçün qəbul etdiyimiz qanunu biz tamamilə həyata keçirməyə çalışırıq və çalışacağıq. Ümumiyyətlə, son illər Azərbaycan Respublikasının həyatında baş vermiş hadisələri nəzərə alaraq və*

*onların təkrar olunmasına yol verməmək məqsədi ilə biz qanunun aliliyini təmin etməyə çalışırıq. Bu məqsədlə biz parlament seçkiləri ilə bərabər, eyni zamanda Azərbaycanın yeni konstitusiyasını qəbul etmək üçün bu konstitusiyanın layihəsini artıq ümumxalq müzakirəsinə vermişik. Ancaq bir şeyi dərk edirik və rica edirəm siz də bunu nəzərə alasınız. Bu da ondan ibarətdir ki, biz ilk dəfə demokratik seçkilər keçirmək istəyirik".*[449]

Azərbaycan seçki tarixi barədə beynəlxalq müşahidəçilərə məlumat verən Heydər Əliyev daha sonra bildirmişdi:

*"Bildiyiniz kimi, 1990-cı ildə keçirilmiş parlament seçkiləri kommunist rejimi çərçivəsində olub və heç də demokratik olmayıbdır. Məsələn, o vaxt partiyalar seçkilərdə iştirak etmirdi. Bir hakim Kommunist Partiyası var idi və o da partiya kimi seçkilərdə iştirak etmirdi... Sovet hakimiyyəti dövründə keçirilən seçkilərdə heç bir namizəd gedib imza yığmırdı, sadəcə olaraq, ayrı-ayrı kollektivlər onun namizədliyini irəli sürürdülər. Amma indi partiya seçki hüququ almaq üçün 50 min imza yığmalıdır. Hər bir vətəndaş seçkilərdə namizəd kimi qeydə alınmaq üçün 2 min imza yığmalıdır. Şübhəsiz ki, bu, vətəndaşlarımız, siyasi partiyalar, Mərkəzi Seçki Komissiyası, seçki dairələri üçün də yeni bir hadisədir. Yəni bu barədə təcrübə yoxdur. Ona görə də burada səhvlər də təbiidir. Ola bilər, ayrı-ayrı əyintilər də, qanun pozuntuları da təbiidir. Şübhəsiz, bizim məqsədimiz ondan ibarətdir ki, bunlara yol verilməsin.*

*Ancaq vətəndaş ilk dəfə gedib 2 min imza yığırsa, bəlkə o, bunun nə qədər ciddi olduğunu indiyədək bilmir. Ona görə də bu imzaları bəlkə düzgün yığa bilmir. İndi müəyyən etmək lazımdır, – həmin vətəndaşın buraxdığı səhvlərə güzəşt etmək, yaxud onu qanuna riayət etməyə yönəltmək lazımdır. Belə münasibət partiyalara da aiddir. Ona görə də mən belə hesab edirəm ki, qəbul etdiyimiz qanun hamı üçün qanundur. Bu qanuna hamı riayət etməlidir: Mərkəzi Seçki Komissiyası da, dairə seçki komissiyaları da, məntəqə seçki komissiyaları da, hər bir siyasi partiya, hər bir vətəndaş da".*[450]

Nəhayət, seçkilərin nəticələri elan edildi. Seçkinin ilk turunda ölkə üzrə 99 seçki dairəsindən 91-də seçkilər baş tutdu. 20 seçki dairəsində təkrar səsvermə təyin edildi, 4 seçki dairəsində isə 1996-cı il fevralın 4-də təkrar seçkilər keçirilməsi qərara alındı.

Milli Məclisin noyabrın 24-də keçirilən ilk iclasını Azərbaycan Respublikası MSK-nın sədri Cəfər Vəliyev açdı. İclasda xarici ölkələrin Azərbaycan Respublikasında akkreditasiyadan keçmiş səfirləri və qonaqlar iştirak edirdilər. O, seçkilərin nəticələri barədə məlumatla çıxış etdi.

---

449 Əliyev H. Ə. Azərbaycanda parlament seçkiləri ilə əlaqədar Bakıya gəlmiş beynəlxalq müşahidəçilər qrupu ilə görüşdə çıxış. 17.10.1995 // Müstəqilliyimiz əbədidir. IV kitab, s. 360.
450 Yenə orada, s. 361.

Mandat komissiyasının sədri seçilmiş deputatlar haqqında məlumat verdi və majoritar və proporsional seçki sistemləri əsasında Milli Məclisə seçilmiş 96 deputatın mandatı təsdiq edildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev parlamentin ilk iclasında nitq söylədi.[451] Yeni seçilmiş Milli Məclis deputatlarını təbrik edən Prezident dövlət müstəqilliyinin bərpa edildiyi son dörd ilə nəzər yetirərək bildirdi ki, respublikanın dövlət müstəqilliyi möhkəmlənmiş, dönməz olmuş, ictimai-siyasi vəziyyət sabitləşmiş, ilk konstitusiyanı qəbul etmək imkanı yaranmış, ilk parlamentini – Milli Məclisini seçmişdir. Heydər Əliyev müstəqil Azərbaycanın ilk parlamentinin fəaliyyətə başlanmasını aşağıdakı kimi qiymətləndirdi:

*"Biz tarixi hadisələrin şahidiyik, tarixi proseslərin iştirakçısıyıq. Azərbaycan dörd il bundan öncə dövlət müstəqilliyini əldə edib, xalqımız milli azadlığa nail olubdur. Ötən dörd il ərzində Azərbaycan xalqının, Azərbaycan Respublikasının həyatında ağır, çətin ictimai-siyasi proseslər gedib və nəhayət, respublikamızın dövlət müstəqilliyi möhkəmlənib, dönməz olubdur, ictimai-siyasi vəziyyət sabitləşibdir və müstəqil Azərbaycan Respublikası özünün ali qanununu – konstitusiyasını qəbul etməyə imkan əldə edib, ilk parlamentini – Milli Məclisini seçibdir.*

*Bunlar böyük nailiyyətdir, tarixi nailiyyətdir. Bunlar onu sübut edir ki, artıq Azərbaycan xalqı müstəqillik yolu ilə cəsarətlə, əzmlə, uğurla irəliləyir və dövlət hakimiyyətinin bütün təşkilini təmin etmək üçün lazımi sənədlər qəbul edir".*[452]

Azərbaycan Respublikasının Prezidenti respublikada konstitusiya quruculuğu tarixinə diqqəti cəlb edərək dedi:

*"...bu konstitusiya keçmiş konstitusiyalardan tamamilə fərqli konstitusiyadır, yeni konstitusiyadır, müstəqil Azərbaycan Respublikasının konstitusiyasıdır. Azərbaycanın hər bir vətəndaşının doğma konstitusiyasıdır...*

*Yeni qəbul olunmuş konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən konstitusiyadır və əminəm ki, bu, daimi olacaqdır, xalqımız bu konstitusiyanın müddəalarından daim istifadə edərək Azərbaycanın dövlət müstəqilliyini əbədi edəcəkdir".*[453]

Konstitusiyanın çox hissəsinin, demək olar ki, üçdə bir hissəsinin insan, vətəndaş hüquqlarının, azadlıqlarının qorunmasına həsr edildiyini, Azərbaycanın totalitarizmdən yeni sistemə keçdiyini deyən Prezident vurğuladı:

451 Əliyev H. Ə. Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitq. 24.11.1995 // Müstəqilliyimiz əbədidir. V kitab. Bakı, 1998, s. 5.
452 Yenə orada.
453 Yenə orada, s. 5-6.

*"Biz demokratiyanı inkişaf etdirməliyik, xalqımızı demokratiya yolu ilə aparmalıyıq, insan hüquqlarının qorunmasının hər yerdə, hər sahədə təmin olunması üçün əsaslar yaratmalıyıq".*[454]

Bildirdi ki, Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və hakimiyyət, ancaq xalqın iradəsi ilə formalaşa bilər. Azərbaycan Respublikasının Prezidenti konstitusiyanı hazırlayan komissiyanın işi üzərində də dayanaraq dedi ki, komissiya 1995-ci ilin iyun ayından noyabra qədər ardıcıl surətdə, çox səmərəli, məhsuldar işləmişdir. Konstitusiya komissiyasına 3 mindən artıq təklif daxil olmuşdu.

Heydər Əliyev Milli Məclisə seçkilər üzərində dayandı. Seçkinin keçirildiyi şəraiti təhlil edərək, ölkədə qaçqın və məcburi köçkünlərin olduğunu vurğulayaraq bəyan etdi:

*"...qəbul olunmuş qanun əsasında respublikamızda ilk parlament seçkiləri demokratik prinsiplərə əsaslanaraq keçirilibdir, demokratik prinsiplərə riayət olunubdur..."*[455]

Dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkədə yaranmış ictimai-siyasi şəraiti və parlamentin fəaliyyətinin mənfi və müsbət tərəfləri üzərində dayanan Prezident dedi:

*"Müsbət cəhətlər ondan ibarətdir ki, qarma-qarışıqlığa baxmayaraq, bu parlament fəaliyyət göstərmiş və bu günə qədər ölkəmizdə qanunvericilik fəaliyyəti funksiyasını həyata keçirmişdir... Azərbaycanın dövlət müstəqilliyini elan edilməsinə xalqın istəyi nəticəsində parlament də qərar vermiş və 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi haqqında konstitusiya aktı qəbul olunmuşdur".*[456]

Parlamentin fəaliyyətinin mənfi cəhətlərinin çox olduğunu vurğulayan Heydər Əliyev dedi:

*"Bu müddətdə respublikada üç dəfə hakimiyyət dəyişikliyi baş vermişdir. Parlament burada gücsüzlük göstərmiş və bəzi hallarda, hətta xalqa xəyanətkar mövqedə durmuşdur... Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bilməmişdir".*[457]

Daha sonra Heydər Əliyev bildirdi:

*"Ona görə də fəaliyyətində olan qüsurları, mənfi cəhətləri də qeyd edərək, fəaliyyətindəki nailiyyətləri, müsbət cəhətləri də qeyd edərək, mən hesab edirəm ki, biz öz tariximizə daim hörmət etməliyik və beş il fəaliyyət göstərən parlamentə, onun üzvlərinə bu gün öz təşəkkürümüzü və minnətdarlığımızı bildirməliyik".*[458]

454 Yenə orada, s. 7.
455 Yenə orada, s. 10.
456 Yenə orada, s. 13.
457 Yenə orada, s. 14.
458 Yenə orada.

Parlamentin qarşısında dayanan vəzifələrdən danışan Heydər Əliyev vurğuladı:

*“Bizim hamımız birlikdə ən yüksək amala xidmət etməliyik. Bu da Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, Azərbaycanın müstəqilliyini təmin etmək, ölkəmizin düşdüyü müharibə vəziyyətindən çıxarılması üçün lazımi tədbirlər görmək, respublikanın hər yerində və ətrafında sülh münasibətləri yaratmaqdan ibarətdir...Parlamentin qarşısında çox böyük işlər durur”.*[459]

Milli Məclisin ilk iclasında Rəsul Quliyev Milli Məclisin sədri seçildi.

Noyabrın 25-də Milli Məclisə təkrar seçkilər keçirildi. 13 nəfər deputat seçildi.[460]

Milli Məclisin dekabrın 12-də keçirilən iclasında A.Rəhimzadə Milli Məclis sədrinin birinci müavini, Y.Əliyev isə yenidən müavin seçildi.

Parlamentin aşağıdakı daimi komissiyaları təşkil edildi: Hüquq siyasəti və dövlət quruculuğu məsələləri, Büdcə məsələləri, İqtisadi siyasət, Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri, Aqrar siyasət, Sosial siyasət, Yerli özünüidarə məsələləri, Elm, təhsil və mədəniyyət məsələləri, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr.

Daimi komissiyaların fəaliyyət istiqamətləri müəyyənləşdirildi. Bəzi daimi komissiyaların sədrləri və sədr müavinləri seçildi. Milli Məclis deputatının döş nişanı və vəsiqəsi haqqında əsasnamələr təsdiq edildi. Əsasnamələrə görə, deputatın döş nişanı və vəsiqəsinin nömrəsi olurdu. Birmandatlı seçki dairəsindən seçilmiş deputatların vəsiqələrinin və döş nişanlarının nömrələri seçildikləri dairənin nömrəsinə uyğun olur, həmçinin seriya – BD (birmandatlı dairə) göstərilirdi. Çoxmandatlı seçki dairəsindən seçilmiş deputatların vəsiqələrinin və döş nişanlarının nömrələri isə bu deputatların əlifba qaydasında verilmiş soyadlarının sıra nömrəsinə uyğun olur, həmçinin seriya – ÇD (çoxmandatlı dairə) göstərilirdi.

Bütövlükdə birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin tərkibi ümumən 124 deputatdan ibarət idi. Bunlardan 99-u birmandatlı seçki dairələri, 25-i isə çoxmandatlı seçki dairələri üzrə seçilmişdi. Seçilənlərdən 69 nəfəri siyasi partiya mənsubları idi. Yeni Azərbaycan Partiyasından 53, Azərbaycan Milli İstiqlal Partiyasından 4, Azərbaycan Xalq Cəbhəsi Partiyasından 4, Azərbaycan Demokratik İstiqlal Partiyasından 2, Azərbaycan Demokratik Sahibkarlar Partiyasından 2, Azərbaycan Demokratik Maarifçilik, Ana Vətən və digər partiyaların hər birindən müvafiq olaraq 1 nəfər parlamentdə təmsil olunurdu. Mandat əldə edənlərin 55 nəfəri və ya bütün deputatların 44,35 faizi müstəqillər idi. I

459 Yenə orada, s. 16.
460 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 239.

çağırış parlamentin deputatlarından 15 nəfəri qadınlar idi. Bu isə parlamentdəki deputatların 12,1 faizini təşkil edirdi.[461]

Seçkilərdə proporsional seçki sistemi üzrə iştirak edən 8 siyasi partiyadan yalnız 3-nün namizədləri parlamentdə mandat bölgüsündə iştirak etmək hüququ qazanmışdı. YAP səsvermədə iştirak edən seçicilərin 62,66%-inin səsini toplayaraq Milli Məclisdə 19 mandat almışdı. Azərbaycan Xalq Cəbhəsi Partiyası 9,97% səs yığaraq 3 mandat, Azərbaycan Milli İstiqlal Partiyası isə 9,33% səsə toplayaraq 3 mandat əldə etmişdi.[462]

Seçkidə Azərbaycan Müstəqil Demokratlar Partiyası, Vahid Azərbaycan Partiyası və Ana Vətən Partiyası Yeni Azərbaycan Partiyasının müttəfiqi kimi seçkilərə qatılmışdılar. Onlardan sadəcə Ana Vətən Partiyası 1 mandat qazana bilmişdi.

Parlamentin sonralar, 1996-cı il fevralın 6-da keçirilən iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti əsasında 12 noyabr tarixinin Azərbaycan Respublikasının Konstitusiya Günü kimi təyin edilməsi haqqında Milli Məclis qanunu qəbul etdi. Bu tarixi hadisənin hər bir Azərbaycan vətəndaşının, Azərbaycan cəmiyyətinin və dövlətinin həyatında mühüm hadisə olduğunu vurğulayan Prezident məktubunda yazırdı:

*"Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək müstəqil Azərbaycan dövlətini bərpa etmişdir, öz iradəsini, ümid və nailiyyətlərini əks etdirən, insan və vətəndaş hüquq və azadlıqlarının aliliyini təmin edən, siyasi sabitliyin və vətəndaş cəmiyyətinin əsaslarını quran, Azərbaycanın mütərəqqi demokratik prinsiplər əsasında inkişafını təmin edən ilk konstitusiyanı ümumxalq səsverməsi yolu ilə qəbul etmişdir".*[463]

***

Fəsildə araşdırılan məsələlər göstərir ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etsə də, 1995-ci ilədək konstitusiya qəbul edilməmiş, 1990-cı ildə formalaşdırılmış parlament fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə Konstitusiya layihəsini hazırlayan komissiya təşkil edilmişdir. Komissiya dünya təcrübəsinə və ölkə ənənəsinə uyğun olaraq konstitusiya layihəsini hazırlamışdır. Yeni seçki qanunu da işlənilmişdir.

461 Azərbaycan Respublikası Milli Məclisinə seçkilər. 07 noyabr 2010-cu il. Seçkilərin nəticələri ilə bağlı yerli və beynəlxalq təşkilatların mövqeyi / Tərt. ed. M. Zülfüqarlı. Bakı, 2010, s.8.
462 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 230-231.
463 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikasının Milli Məclisinə məktubu. 30.01.1996 // ARMMA, f.2941, siy.1, iş 381, v. 5.

Noyabrın 12-də Azərbaycan Respublikasında majoritar və proporsional sistem əsasında həm ilk parlament seçkiləri keçirilmiş, həm də ilk konstitusiya ümumxalq səsverməsi ilə qəbul edilmişdir. Müstəqil Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə qəbul edilən bu konstitusiya böyük tarixi əhəmiyyət daşımışdır. Parlamentə müxtəlif siyasi partiyaların nümayəndələri və müstəqil şəxslər seçilmişlər.

Milli Məclisin ilk iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev geniş nitq söyləyərək ölkədə aparılan islahatlar və parlamentin qarşısında dayanan vəzifələr barədə danışmışdır. Milli Məclisin formalaşdırılmasının və konstitusiyanın qəbul edilməsinin böyük tarixi əhəmiyyəti olduğunu vurğulamışdır. Ölkə yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Geniş islahatlar aparmaq üçün hüquqi zəmin formalaşmışdır.

Azərbaycan Respublikası konstitusiyasının qəbul edilməsi və I çağırış Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilər nəticəsində parlamentin formalaşmasından sonra ölkənin beynəlxalq əməkdaşlığının daha da genişlənməsi üçün yeni imkanlar yaranmışdır. Qarşıda dayanan vəzifələrdən biri strateji məqsədlər naminə Azərbaycan Respublikasının dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevrilməsi üçün səmərəli əməkdaşlığın qurulması və təhlükəsiziliyin təmin edilməsi olmuşdur.

# 10-cu FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT-KOMMUNİKASİYA MƏRKƏZİNƏ ÇEVRİLMƏSİ SİYASƏTİ VƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ

### *10.1. Azərbaycanın nəqliyyat-kommunikasiya mərkəzinə çevrilməsi istiqamətində diplomatik-siyasi fəaliyyət*

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətinin başlıca istiqamətlərindən biri ölkəni beynəlxalq nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevirmək idi. Bu məsələdə Avropa İttifaqı ilə əməkdaşlıq mühüm rol oynadı. Qeyd etmək lazımdır ki, təşkilatın Mərkəzi və Şərqi Avropa ölkələri ilə əməkdaşlığı hələ 1989-cu ildə müvafiq müqavilələrin imzalanması ilə başlamışdı. 1991-ci ildən etibarən bu ölkələrin bir neçəsi ilə assosiativ üzvlük haqqında sazişlər imzalanmışdı.

Təşkilatın əməkdaşlıq qurduğu ölkələrdən biri Azərbaycan Respublikası idi. Azərbaycanın Avropa və Asiyanın qovşağında əlverişli strateji mövqedə yerləşməsi Avropa İttifaqının üzv dövlətlərinin siyasi və iqtisadi münasibətləri inkişaf etdirməkdə marağını artırırdı.

Azərbaycan Respublikası Avropa Komissiyasının 1993-cü ilin may ayında Brüssel şəhərində keçirilmiş konfransında Böyük İpək yolunun bərpası sahəsində TRASEKA (Transport Corridor Europe – Caucasus – Asia) proqramının yaradılmasının təşəbbüskarlarından biri oldu. Bu təşəbbüsdə daha 7 yeni müstəqil dövlət – Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan da iştirak edirdilər. Regional nəqliyyat və ticarət sistemlərində mövcud olan problemlərin müzakirə edildiyi və çıxış yollarının axtarıldığı konfransın yekunlarına əsasən TRASEKA regionlararası proqramın fəaliyyətinin bünövrəsini qoyan Brüssel bəyannaməsi qəbul edildi. Yüklərin Rusiya və İran istiqamətində Avropa ilə Asiya arasında daşınmasına alternativ olan TRASEKA proqramı dəmiryolları, avtomobil, hava, dəniz yollarının, boru kəmərlərinin geniş şəbəkəsinin qurulmasını nəzərdə tuturdu.

Azərbaycan dövlətinin bu proqramda iştirakı Avropa ilə iqtisadi əlaqələrin möhkəmləndirilməsi və genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün imkanlar yaradır və böyük strateji əhəmiyyət kəsb edirdi. Azərbaycan tərəfi səmərəli nəqliyyat-keçid sisteminin yaradılması məqsədilə aşağıdakıları ilkin şərt hesab edirdi: BMT nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq mehriban qonşuluq münasibətlərinin qurulması; subregional və regional əməkdaşlıq və tərəfdaşlığın gücləndirilməsi; sərhədlərin keçilməsinin sadələşdirilməsi, çevik tarif siyasətinin tətbiq edilməsi, milli nəqliyyat qanunvericiliyinin uzlaşdırılması; çoxtərəfli ticarət sisteminin səmərəli inteqrasiyasının təmin edilməsi.

Avropa İttifaqı rəhbərləri ilə bu və digər məsələləri müzakirə etmək üçün 1995-ci ilin aprel ayında Heydər Əliyev Brüsselə səfəri zamanı deyirdi:

*"...Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmləndirilməsi və qarşımızda duran bütün məsələlərin, siyasi məsələlərin, o cümlədən Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılması və Avropa Birliyinin, onun iqtisadi komissiyasının ölkəmizə köməyinin daha da artırılması üçün bu səfər çox əhəmiyyətlidir".*[464]

Səfər zamanı əməkdaşlığa dair aparılan müzakirələr və imzalanan sənədlər Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığında yeni səhifə açırdı.

Münasibətlərin daha da inkişaf etdirilməsi məqsədilə Avropa İttifaqı komissiyasının komissarının 1995-ci ilin oktyabr ayında Bakıya səfəri zamanı Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında yeni memorandum imzalandı.[465]

1995-ci ildə yaradılan TRASEKA proqramının əlaqələndirmə qrupunun başlıca vəzifəsi ölkələrin ticarət və nəqliyyat sistemlərində mövcud olan problem və çatışmazlıqları üzə çıxarmaq, dəhlizin inkişafı üçün lazım olan proqramları müəyyənləşdirmək və əlaqələndirmək, TRASEKA-nın fəaliyyəti haqqında beynəlxalq maliyyə qurumlarına məlumat vermək idi. Əlaqələndirmə qrupunun baş ofisləri Brüssel, Tbilisi və Daşkənddə, subofisləri isə Bakı, Aşqabad, Almatı, Bişkek, Odessa və Yerevanda yerləşirdi.

Xəzər neftinin ixracını artırmaq məqsədi ilə Azərbaycan – Gürcüstan TRASEKA dəmiryol xətti 1995-ci ildə istismara verildi. Bakı–Böyük Kəsik xətti tikildi və Almatı – Aktau – Bakı – Poti – Ukrayna limanları nəqliyyat marşrutu işə salındı.

464 Əliyev H.Ə. Avropa Birliyi rəhbərləri ilə görüşmək üçün Belçikaya yola düşərkən Binə hava limanında jurnalistlərə müsahibə. 17 aprel 1995-ci il // Müstəqilliyimiz əbədidir. III kitab, s.370.

465 Əliyev H.Ə. Avropa Birliyi komissiyasının komissarı Hans Van Den Brukla birgə mətbuat konfransında bəyanat. 4 oktyabr 1995-ci il // Müstəqilliyimiz əbədidir. III kitab, s.326-327.

Azərbaycan Respublikasının Avropa İttifaqı ilə qarşılıqlı münasibətlərdə yeni mərhələ 1996-cı ildə başlandı. Həmin ilin aprel ayında Azərbaycan Respublikası Prezidentinin Lüksemburqa səfərində başlıca məqsəd Avropa İttifaqına üzv olan dövlətlərin xarici işlər nazirlərinin toplantısında məsələyə dair geniş müzakirələrin aparılması, Tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin imzalanması idi.[466]

Aprelin 22-də Lüksemburqda Avropa İttifaqına üzv olan dövlətlər ilə Azərbaycan Respublikası arasında tərəfdaşlıq və əməkdaşlıq sazişi imzalandı. Sazişin məqsədləri müvafiq siyasi dialoq çərçivəsində tərəflər arasında siyasi münasibətlərin inkişafının təmin edilməsi; Azərbaycanda demokratiyanın möhkəmləndirilməsi, iqtisadi inkişaf və bazar iqtisadiyyatına keçid cəhdlərinin dəstəklənməsi; ticarət və investisiyanın inkişafı, iqtisadi, sosial, maliyyə, elmi, texniki və mədəni əməkdaşlıq idi.

Sənədin imzalanması mərasimində etdiyi çıxışında Heydər Əliyev dedi:

*"Saziş hərtərəfli əməkdaşlığı genişləndirmək və dərinləşdirmək, beynəlxalq sülhü və təhlükəsizliyi, inteqrasiya prinsiplərini möhkəmləndirmək, insan hüquqlarını qorumaq, bütün Avropa qitəsində tərəqqiyə və səmərəli əməkdaşlığa nail olmaq üçün geniş üfüqlər açır".*[467]

Azərbaycan Respublikası və Avropa İttifaqı arasında yüksək səviyyəli əməkdaşlığın təşəkkül tapmasını təsdiqləyən bu sənəd 1999-cu il iyunun 22-də qüvvəyə mindi.

Danışıqların və imzalanan sənədlərin böyük əhəmiyyəti var idi. Bu, Azərbaycan dövlətinin mövqelərini möhkəmləndirir, ölkənin daxili, ictimai-siyasi həyatı, iqtisadiyyatı və başqa sahələrdə Avropa demokratiyasına uyğun tədbirlərin həyata keçirilməsini zəruri edirdi.

Sazişin imzalanmasından sonra Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq genişləndi. Bu qurum ilə əməkdaşlıq TRASEKA (nəqliyyat) ilə yanaşı TASİS (texniki yardım), İNOGATE (enerji) və TEMPUS (təhsil) sahələrində quruldu.

Avropa İttifaqının mövqeyinə görə, regionda iqtisadi əlaqələrin qurulması və inkişafı ilə siyasi əməkdaşlığın möhkəmləndirilməsi nəticəsində siyasi münaqişələr və ziddiyyətlər aradan qaldırılardı. Siyasi sabitlik bu regiona birbaşa və uzunmüddətli sərmayələr qoyulmasını təşviq etməklə iqtisadi mənfəətlər gətirərdi. Həmin strategiya çərçivəsində Avropa İttifaqı region dövlətləri arasında qırılmış nəqliyyat əlaqələrinin, o cümlədən işğal edilmiş ərazilərdən

466 Əliyev H.Ə. Qərbi Avropa ölkələrinə işgüzar səfərə yola düşməzdən əvvəl Binə hava limanında müxbirlərin suallarına cavab. 21 aprel 1996-cı il // Müstəqilliyimiz əbədidir. VI kitab, s.140.

467 Əliyev H.Ə. Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin imzalanması mərasimində çıxış. 22 aprel 1996-cı il // Müstəqilliyimiz əbədidir. VI kitab, s.145.

keçən Bakı – Naxçıvan dəmiryol xəttinin bərpası layihəsi ilə çıxış edirdi. Lakin Ermənistan işğal edilmiş əraziləri boşaltmadığından, daşınacaq yüklərin təhlükəsizliyinə təminat vermədiyindən və Avropa İttifaqı ona qarşı heç bir tədbir görmədiyindən həmin layihə də həyata keçirilmədi.

Regional əməkdaşlığın perspektivlərinə yanaşmada Azərbaycan Respublikasının və Avropa İttifaqının mövqeləri bir-birindən fərqlənirdi. Azərbaycan tərəfi ilk növbədə münaqişələrin tezliklə və tam həllinə, daha sonra isə iqtisadi əlaqələrin qurulmasına tərəfdar idi.

Avropa İttifaqının mövqeyinə görə isə iki ölkə əvvəlcə əməkdaşlıq etməli, Dağlıq Qarabağ münaqişəsi ATƏT-in Minsk qrupu çərçivəsində həll edilməli, yalnız tərəflər razılığa gəldikdən sonra bu təşkilat vasitəçilik səyləri göstərə bilərdi. Belə yanaşma səhv olub, təcavüzkarı şirnikləşdirər və münaqişə də həll olunmazdı.

1996-cı ilin may ayının 12-13-də Sərəxs (İran) – Tecən (Türkmənistan) dəmiryolunun açılış mərasimi zamanı Azərbaycan, Özbəkistan, Gürcüstan və Türkmənistan prezidentləri TRASEKA dəhlizi ilə tranzit yüklərin daşınmasının tənzimlənməsi sahəsində əməkdaşlığa dair ilk regional sazişi imzaladılar. Saziş yüklərin daşınması üçün gömrük qaydalarının sadələşdirilməsini və tariflərin 50% azaldılmasını nəzərdə tuturdu.

Tbilisidə 1996-cı ilin payızında keçirilən ikinci regional konfransda MDB-nin iştirakçısı olan 8 Qafqaz və Asiya ölkəsi Avrasiya nəqliyyat dəhlizinin yaradılması üçün qanunvericiliyin uzlaşdırılmasına dair razılığa gəldilər. Bakı – Tbilisi – Poti – Kiyev və Daşkənd – Çarcou – Türkmənbaşı – Bakı – Tbilisi – Poti – Batumi dəmiryol nəqliyyat dəhlizi quruldu. Ümumi uzunluğu təqribən 2917 km olan Azərbaycan dəmiryollarının yenidən qurulmasına başlandı. TRASEKA proqramı çərçivəsində 1996-cı ilin noyabrında Bakı – Tbilisi – Batumi – Poti logistika ekspres qatarı xəttə buraxıldı.

Böyük İpək yolunun bərpası istiqamətində mühüm addımlardan biri 1998-ci il sentyabrın 7-8-də Bakıda 9 ölkənin – Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukrayna dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 ölkənin nümayəndə heyətinin iştirakı ilə keçirilən beynəlxalq konfrans oldu.[468] Konfransda giriş sözü ilə çıxış edən Prezident

468 Əliyev H.Ə. Bakının Binə hava limanında tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransda iştirak etmək üçün Azərbaycana səfər gələn dövlət başçılarının və nümayəndə heyətlərinin qarşılanmasından əvvəl ölkəmizin və xarici ölkələrin kütləvi informasiya vasitələri müxbirlərinin suallarına cavab. 7 sentyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVII kitab. Bakı, 2006, s.245.

Heydər Əliyev Avropa İttifaqı komissiyası ilə birlikdə keçirilən belə bir toplantının əhəmiyyətini vurğuladı.[469]

Məlum olduğu kimi, Azərbaycan əzəldən Böyük İpək yolunda mühüm məntəqə olmuş, Avropa ilə Asiya arasında özünəməxsus körpü rolunu oynamışdır. Qafqaz, Xəzər dənizi və Qara dəniz hövzələri ölkələri inkişaf etmiş ticarət, qarşılıqlı mədəni zənginləşmə, dini dözümlülük zonasını təşkil edərək Böyük İpək yolunun tərkib hissələrindən biri olmuşdur. Tarix boyu Böyük İpək yolu yüksəliş və tənəzzül dövrlərini keçmişdi. Müharibələr, ideoloji və coğrafi-siyasi qarşıdurmalar, ayırıcı xətlər dövrləri başladıqdan sonra bu yol yox olmuş və bir əfsanəyə çevrilmişdi. Soyuq müharibənin başa çatması, xalqların müstəqillik əldə etməsi və inteqrasiya proseslərinin dünya siyasətində yer tutması Böyük İpək yolunun bərpasını zəruri etmişdi. Bu yolun fəaliyyət göstərməsi bütün ölkələr üçün faydalı idi.

Konfransda çıxış edən Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Bolqarıstan Respublikasının Prezidenti Petru Stoyanov[470], Ukrayna Prezidenti Leonid Kuçma[471] və başqaları tarixi İpək yolunun bərpası barədə yekdil mövqe nümayiş etdirdilər.

Konfransın yekununda üç sənəd – Avropa – Qafqaz – Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş və onun texniki əlavələri; Bakı bəyannaməsi; Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın yekun rəsmi məlumatı imzalandı. Birinci sənədi 12 dövlət – Azərbaycan, Gürcüstan, Ermənistan, Bolqarıstan, Rumıniya, Moldova, Ukrayna, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkiyənin dövlət və hökumət başçıları, yekun bəyannaməsini isə bu dövlətlərlə yanaşı, Avstriya, Belçika, Yunanıstan, Almaniya, Macarıstan, İran, Norveç, Böyük Britaniya, ABŞ, Fransa, Yaponiya, Çin, İspaniya, İtaliya, Niderland, Finlandiya, İsveç və Avropa İttifaqının komissiyası imzaladı.

Konfransdan dərhal sonra əməkdaşlıq istiqamətində yeni tədbirlər görüldü. Çindən başlayan Lyan Yun Qan – Almatı – Aşqabad – Türkmənbaşı – Bakı – Gəncə – Tbilisi – Ərdəhan – Ərzurum – Ankara – İstanbul avtomagistralının Avropa yolları sisteminə qoşulması layihəsinin hazırlanmasına başlanıldı. Bu avtomagistralın uzunluğu təqribən 9 min km idi. Böyük İpək yolunun bərpası üçün Beynəlxalq Yollar Federasiyası layihənin iki mərhələli sxemini təqdim etmişdi. Birinci mərhələ 2000-ci ilə qədər idi. Bu mərhələdə beynəlxalq komissiya yaradılmalı, beynəlxalq standartlar razılaşdırılmalı, ticarət sahəsində fikir ayrılıqla-

469 Əliyev H.Ə. Tarixi İpək yolunun bərpası üzrə Bakıda beynəlxalq konfransda giriş sözü. 8 sentyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVII kitab, s. 255-259.
470 Petru Stoyanov (1952) – Bolqarıstan Respublikasının Prezidenti (1997-2002).
471 Leonid Kuçma (1938) – Ukrayna Prezidenti (1994-2005).

rı tənzimlənməli, başlanmış işlərin maliyyələşdirilməsi həyata keçirilməli idi. 2000-2010-cu illəri əhatə edən ikinci mərhələdə transkontinental magistralın birləşdirici hissələri tikilməli, Bakı – Ələt – Qazıməmməd – Kürdəmir – Yevlax – Qazax – Gürcüstan sərhədinə qədər olan avtomobil yolları yenidən qurulmalı idi. Bununla da Azərbaycan, Gürcüstan, Qırğızıstan, Özbəkistan və Qazaxıstanın avtomobil yolları Avropa, Çin və Cənub-Şərqi Asiyanın avtomobil yolları ilə birləşdirilməli idi.

Toplantı başa çatdıqdan sonra tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın yekunları ilə əlaqədar olaraq müşavirə keçirən Azərbaycan Respublikasının Prezidenti onun əhəmiyyəti və həyata keçiriləcək tədbirlər haqqında danışdı.[472] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi sazişin depozitoru təyin edildi. TRASEKA hökumətlərarası komissiyanın daimi katibliyi yaradıldı. Daimi katiblik Bakıda yerləşirdi.

Şərq-Qərb-Avrasiya nəqliyyat dəhlizinin yaradılmasının böyük tarixi əhəmiyyəti var idi. Əslində kommersiya gəlirləri çərçivəsini aşaraq böyük geosiyasi əhəmiyyət daşıyan bu dəhliz Qafqaz və Orta Asiya ölkələrinin dövlət müstəqilliyini və suverenliyini möhkəmləndirirdi. Özlərinin yaxşı gələcəyini qurmaq istəyən ölkələr aralarındakı siyasi, etnik, dini və geosiyasi fikir müxtəlifliyinə son qoymalı idilər. Şərq-Qərb dəhlizi ölkələr arasında qarşılıqlı əlaqələr yolu ilə həmin məqsədə nail olmağa, Xəzər dənizinin ehtiyatlarından istifadə isə regiona xarici sərmayələrin gətirilməsi və azad bazar iqtisadiyyatının formalaşmasına kömək edirdi.

Konfransın Azərbaycanda keçirilməsi tarixi əhəmiyyət daşıyırdı. Bu, dövlət müstəqilliyinin möhkəmləndirilməsini, beynəlxalq aləmdə daha geniş tanınmasını, dünya birliyində tutduğu yeri və oynadığı vacib rolu göstərir, ölkənin geosiyasi mövqeyini gücləndirir, dünya siyasətində rolunu artırırdı. ABŞ-ın Con Hopkins Universitetinin Mərkəzi Asiya – Qafqaz İnstitutunun direktoru Frederik Starrın[473] yazdığı kimi, BTC və Avropa İttifaqının TRASEKA yol təşəbbüsünə qoşulmaqla Azərbaycan Avropadan Çinə qədər uzanan Şərq-Qərb dəhlizində "at üstündə açar gəzdirən" ölkə imicini formalaşdırdı.[474]

Azərbaycan Respublikasının Prezidenti 1998-ci il oktyabrın 26-da tarixi İpək yolunun bərpası üzrə beynəlxalq Bakı konfransının qərarlarının yerinə

472 Əliyev H.Ə. Bakıda keçirilmiş Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın yekunları ilə əlaqədar geniş müşavirədə nitq. 10 sentyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVII kitab, s.265-292.
473 Frederik Starr (1940) – Rusiya və Avrasiya üzrə amerikan eksperti. Con Hopkins Universitetinin Mərkəzi Asiya - Qafqaz İnstitutunun direktoru.
474 Starr F. Emerging directions of Azerbaijan's Foreign Policy // Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p. 366.

yetirilməsi ilə əlaqədar tədbirlər haqqında fərman imzaladı.[475] Fərmanda yazılırdı ki, müfaviq icra hakimiyyəti orqanları və digər dövlət təşkilatları Avropa – Qafqaz – Asiya dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas sazişi və onun beynəlxalq avtomobil, dəmiryolu nəqliyyatı, beynəlxalq ticarət gəmiçiliyi, gömrük proseduru və sənədlərin işləməsi üzrə texniki əlavələrini işdə rəhbər tutmalı və icrasını təmin etməlidirlər. Fərmanda Xarici İşlər Nazirliyi, Nəqliyyat Nazirliyi və digər qurumlar qarşısında konkret vəzifələr qoyulurdu.

Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində və alınan kreditlər hesabına bir sıra kommunikasiya xətləri, dəmiryolları, körpülər bərpa edildi. Dəmiryolunda müəyyən işlər görüldü. Füzuli rayonunun işğaldan azad edilmiş qəsəbə və kəndlərində bərpa işlərinə yardım göstərildi. Avropa İttifaqı tərəfindən 1998-ci ilədək Azərbaycan Respublikasına 225 milyon dollar yardım edilmişdi. Həmin məbləğə qaytarılan kredit aid deyildi. Ölkənin təkcə aqrar sektoruna 16 milyon dollar yardım göstərildi. TRASEKA proqramı çərçivəsində Azərbaycana qrant şəklində 7 milyon 650 min ekyu məbləğində sərmayə qoyuldu.[476]

Avropa İttifaqı ilə əməkdaşlıqda başlıca məqsəd ölkənin sosial-iqtisadi problemlərini həll etmək, Azərbaycanı nəqliyyat-kommunikasiya mərkəzinə çevirməklə dünya siyasətində mövqelərini və dövlət müstəqilliyini möhkəmləndirmək idi. Azərbaycan Respublikası həm də birləşdirici və tranzit rolu oynayırdı. Mərkəzi Asiyanın yeni müstəqil dövlətləri Azərbaycan Respublikası vasitəsilə dünya bazarlarına çıxırdılar. Digər ölkələrlə və beynəlxalq təşkilatlarla münasibətdə yürütdüyü uğurlu əməkdaşlıq siyasəti ilə Heydər Əliyev Qafqazın və Mərkəzi Asiyanın geosiyasətini dəyişməyi bacaran görkəmli dünya lideri oldu.

## *10.2. NATO ilə əməkdaşlıq*

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətinin istiqamətlərindən biri beynəlxalq təhlükəsizliyini etibarlı təmin etmək və hərb sistemini müasir tələblərə uyğun qurmaq üçün geniş əməkdaşlığı həyata keçirmək idi. Bu məqsədlə NATO ilə əlaqələrə xüsusi yer verilirdi. Məlum olduğu kimi, soyuq müharibənin başa çatmasından, Varşava Müqaviləsi

475 Əliyev H.Ə. Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq Bakı konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 26 oktyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVIII kitab. Bakı, 2006, s. 89-92.

476 Əliyev H.Ə. Bakıda keçirilmiş tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın yekunları ilə əlaqədar geniş müşavirədə nitq. 10 sentyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVII kitab, s. 271-272.

Təşkilatının və SSRİ-nin dağılmasından sonra dünyada tamamilə yeni bir şərait yaranmışdı. Uzun illər boyu bir-birinə qarşı dayanan blokların, iki sistemin qarşıdurması və mübarizəsi aradan qalxmışdı. Nüvə müharibəsi təhlükəsi azalsa da, yaranmış yeni şəraitdə NATO nəinki buraxılmadı, əksinə onun rolu daha da artdı. Bu da bir sıra amillərlə bağlı idi. Birincisi, iki sistem ölkələri arasında ideoloji qarşıdurma aradan qalxsa da, 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində dünyada, xüsusən Balkan yarımadasında baş verən proseslər təhlükəsizliyin yeni sisteminin yaradılmasını aktual edirdi. Həmin mürəkkəb proseslərin qarşısını almaq üçün fəal müdaxilələr tələb olunurdu. Onları siyasi bəyanatlarla, nitqlərlə tənzimləmək mümkün olmadığından lazımi gücə ehtiyac duyulurdu. İkincisi, soyuq müharibə dövründə dünyada böyük dövlətlər Avrasiyada nüfuz qazanmaq uğrunda kəskin rəqabət aparırdılar. Avrasiya dünya okeanına və kosmosa nəzarət üçün sanki bir açar idi. SSRİ dağıldıqdan sonra ABŞ bu ərazi üzərində nəzarət imkanı qazanmışdı. Belə bir şəraitdə NATO-nun buraxılmasının Qərb ölkələri üçün ağır nəticələri ola bilərdi. Üçüncüsü, NATO-nun buraxılması ABŞ və Kanadanı Avropadan uzaqlaşdırar, bu da qitədə və dünyada yeni təhlükələrin yaranmasına, ümumavropa inteqrasiya proseslərinə ziyan vurardı. Dördüncüsü, keçmiş SSRİ və sosialist ölkələri ərazisində gedən dövlətlərarası və etnik qarşıdurma təkcə regionda deyil, bütün dünyadakı proseslərə mənfi təsir edir, qeyri-sabit şərait yaradırdı.

Beləliklə, bu və digər amillər nəinki NATO-nun saxlanılmasını, hətta rolunun artırılmasını zəruri edirdi. Ona görə də 90-cı illərin əvvəllərindən etibarən NATO strukturlarında dəyişikliklər prosesi başladı. Yeni təhlükəsizlik mühitinə uyğunlaşmaq məqsədilə 1990-cı ilin iyul ayında keçirilən London sammitində NATO tarixinin ən geniş planlarını əhatə edən Dəyişmiş Şimali Atlantika Alyansına dair bəyannamə qəbul edildi. Bəyannamədə təhlükəsizlik sahəsində yeni şərait və Şərq – Qərb qarşıdurmasının sona çatdığı nəzərə alınaraq NATO-nun yenidən qurulacağı bəyan edilir, yeni müstəqil dövlətlər və Mərkəzi və Şərqi Avropa ölkələri ilə əlaqələr yaratmaq təklif olunurdu. Bir müddət sonra, 1990-cı ilin noyabr ayında Parisdə Avropada adi silahlı qüvvələr haqqında müqavilə imzalandı, təcavüzdən imtina haqqında birgə bəyannamə qəbul edildi və müvafiq öhdəliklər götürüldü, ATƏM iştirakçısı olan dövlətlərin Yeni Avropa üçün Paris xartiyası imzalandı. Bunlar yeni şəraitdə etimad və təhlükəsizlik mühitinin yaradılmasında atılan ilk addımlar idi.

1991-ci ildə keçirilən Roma sammitində NATO-nun yeni şəraitdə fəaliyyətinin nəzəri əsaslarını təşkil edən sülh və əməkdaşlığa dair strateji konsepsiyası qəbul edildi.[477] Təhlükəsizlik anlayışının və potensial əməliyyatların yenilən-

477 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. II hissə, s. 440.

məsini nəzərdə tutan bu konsepsiyada üzvlər üçün həm siyasi, həm də hərbi yollarla təhlükəsizlik və azadlığın təmin edilməsi kimi ənənəvi məqsəd əksini tapmışdı.[478]

SSRİ dağıldıqdan sonra 30 min nüvə başlığı yerləşən keçmiş sovet məkanına NATO biganə qala bilməzdi.[479] Ona görə də təşkilat Mərkəzi və Şərqi Avropa ölkələri ilə əməkdaşlıqda maraqlı idi. Nəzərdə tutulmuş əməkdaşlığın gələcək inkişafını istiqamətləndirmək və SSRİ dağıldıqdan sonra yaranmış boşluğu doldurmaq məqsədi ilə Şimali Atlantika Əməkdaşlıq Şurası (ŞAƏŞ) təsis edildi. ŞAƏŞ əsasən aşağıdakı istiqamətlərdə fəaliyyət göstərməyi qarşısına məqsəd qoymuşdu: informasiya, məsləhət, hərbi, iqtisadi və s.

ŞAƏŞ-in ilk görüşü 1991-ci il dekabrın 20-də NATO dövlətləri, dağılmaqda olan SSRİ, sosializm sistemindən xilas olmuş Çexiya, Macarıstan, Polşa, Rumıniya, Bolqarıstan, Latviya, Litva, Estoniya xarici işlər nazirləri və nümayəndələrinin iştirakı ilə keçirildi.

Təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə edən foruma çevrilən ŞAƏŞ soyuq müharibə dövründən qalan stereotipləri aradan qaldırmağa çalışırdı. Həmin məqsədlə adi silahlı qüvvələr üzərində nəzarət qazanmaq üçün yüksək səviyyəli işçi qrup, eyni zamanda ATƏM və BMT himayəsində sülhməramlı əməliyyatlarda NATO-nun qüvvə və vasitələrindən istifadə edilməsinin hüquqi əsaslarını yaratmaq üçün xüsusi işçi qrup təşkil edildi.

NATO yeni müstəqil dövlətlərdə demokratiyanın inkişafına yardım etmək üçün ABŞ konqresmenləri Carlz Roz və Bill Rotun təklifinə uyğun olaraq adlandırılan təşəbbüsü reallaşdırmağa başladı. Həmin təşəbbüsün məqsədi yeni dövlətlərin NATO strukturlarında tam iştirakını təmin etmək, yeni tərəfdaşları maraqlandıran mövzularda seminarlar keçirmək və parlamentlərarası təcrübə mübadiləsini genişləndirmək idi. Beləliklə, NATO yeni şəraitdə beynəlxalq təhlükəsizlik tələbləri kontekstində böhranların aradan qaldırılması və təhlükəsizlik sisteminin qurulması funksiyalarını üzərinə götürdü.

Azərbaycan Respublikası NATO ilə əlaqələrində ilk addımlarını atdı.[480] NATO ilə əməkdaşlığı bir sıra amillər zəruri edirdi. Hər şeydən əvvəl, dünyada sülhü və təhlükəsizliyi təmin edən təşkilat funksiyasını daşıyan və Avropa təhlükəsizliyində başlıca amil olan NATO ilə əməkdaşlıqdan Avropanın bir parçası olan Azərbaycan Respublikası kənarda qala bilməzdi. İkincisi, SSRİ dağıldıqdan sonra Rusiya yeni müstəqil dövlətlərin mövcudluğunu ağrılı qəbul edir, onları

478 Rodrigo Tavares. Regional security. The capacity of international organizations. London and New York, Routledge Taylor and Francic Group, 2010, p. 144.
479 Ellman M.The NATO economics colloqium on the Soviet economy // “NATO Review”, 1991, №2, p.28.
480 Jolyon Howorth. Security and Defence policy in the European Union. New York, Palgrave Macmillan, 2007, p.162.

"yaxın xaric" hesab edərək daim təhdid edir və təsir dairəsinə salmağa çalışırdı. Rusiyanın xarici siyasət konsepsiyasında özü ilə həmsərhəd olan ölkələrdə üçüncü dövlətin hərbi-siyasi iştirakına istənilən vasitə ilə mane olmaq nəzərdə tutulmuşdu.[481] Üçüncüsü, Cənubi Qafqaz regionu qeyri-sabitlik və risklərlə dolu idi. Dağlıq Qarabağ münaqişəsi həll edilmədiyindən Azərbaycan tərəfi mövqelərinin beynəlxalq səviyyədə müdafiəsinə ehtiyac duyurdu. NATO təkcə hərbi deyil, həmçinin siyasi təşkilat idi. Dünyanın qabaqcıl ölkələri bu təşkilatın üzvləri idilər. Belə bir şəraitdə NATO ilə əməkdaşlıq Azərbaycan Respublikasının dövlət müstəqilliyinə beynəlxalq təminat verilməsi baxımından əhəmiyyətli idi. Dördüncüsü, yeni şəraitdə Azərbaycan üçün mühüm olan ordu quruculuğu məsələsində NATO müəyyən rol oynaya bilərdi. NATO ölkələri elm, texnologiya və iqtisadiyyat baxımından qabaqcıl yerləri tuturdular.

Əməkdaşlıqda təkcə Azərbaycan maraqlı deyildi. Azərbaycan əlverişli coğrafi-siyasi və strateji mövqeyi, zəngin təbii sərvətləri baxımından NATO üçün cəlbedici və əhəmiyyətli idi.

Bütün bunları nəzərə alan Azərbaycan tərəfi NATO ilə ilk təmasları qurdu. 1992-ci il fevralın 19-da Brüsseldə keçirilən görüşdə NATO-nun baş katibi Manfred Verner[482] keçmiş sovet respublikaları ilə "düşmən" konsepsiyasından əməkdaşlığa keçildiyini bəyan edərək, Şimali Atlantika Əməkdaşlıq Şurasının qurulmasının məqsədlərindən danışdı.[483] Şuranın qurulmasında başlıca məqsəd təkcə Avropada deyil, Vladivostoka qədər olan ərazidə sabitlik və təhlükəsizlik naminə əməkdaşlıq və qarşılıqlı fəaliyyət üçün əsas yaratmaq idi.

ŞAƏŞ-in martın 10-da 11 yeni müstəqil dövlətin xarici işlər naziri səviyyəsində keçirilən sessiyasında çıxış edən nazir Hüseynağa Sadıqov iştirakçıları ölkədə yaranmış şəraitlə tanış etdi və Ermənistanın davam edən təcavüzü haqqında məlumat verdi.[484]

Ermənistan silahlı qüvvələri 1992-ci ilin may ayında Şuşa və Laçın şəhərlərini işğal etdikdə bəyanatla çıxış edən NATO münaqişənin zor gücünə həllinə qarşı çıxaraq ATƏM səylərini dəstəklədi.[485] ŞAƏŞ-in Osloda iyunun 2-də keçirilən Avropada adi silahların azaldılmasına həsr olunmuş sessiyasında NATO dövlətləri həmin bəyanatı bir daha təkrar etdilər.

---

481 Концепция внешней политики Российской Федерации // Внешняя политика и безопасность современной России. Т. 2. М., 1999, с. 25.

482 Manfred Verner (1934-1994) – Almaniya Federativ Respublikasının müdafiə naziri (1982-1988). NATO-nun 7-ci baş katibi (1988-1994).

483 Беседа с генеральным секретарем НАТО г-ном Манфредом Вернером. Брюссель, 19 февраля 1992 г. // Гасанов Г. Азербайджан – Европа: на пути к интеграции, с. 19-24.

484 Türkiyə Qarabağ problemini aradan qaldırmağa çalışır // "Xalq qəzeti", 1992, 11 mart.

485 NATO-nun bəyanatı // "Xalq qəzeti", 1992, 26 may

ŞAƏŞ-in 1993-cü ilin dekabr ayında keçirilən sessiyası ərəfəsində Ermənistan hərbi təcavüzünü daha da genişləndirərək Azərbaycanın Dağlıq Qarabağ regionundan kənarda yerləşən rayonlarının işğalını başa çatdırdı. İclasda çıxış edən xarici işlər naziri Həsən Həsənov Ermənistanın təcavüzkarlığına qiymət verilməsini tələb etdi və mülayim mövqe nümayiş etdirilməsinin ziyanlı olduğunu bildirdi. Lakin sənəd qəbul edilərkən Ermənistan konsensus vermədiyindən Azərbaycan üçün istənilən nəticə alınmadı.

NATO-nun Cənubi Qafqaz regionunda yaranmış şəraitlə bağlı narahatlığı 1994-cü il yanvarın 10-11-də NATO Şurasının Brüsseldə keçirilən dövlət və hökumət başçılarının sessiyasında qəbul edilmiş bəyannamədə öz əksini tapdı.[486] Sənədin 21-ci bəndində Cənubi Qafqazdakı şəraitdən narahatlıq keçirilir, ərazi tutmaq üçün güc tətbiq edilməsi pislənilir, regionda sülhü, sabitliyi və əməkdaşlığı müdafiə etmək üçün Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə hörmət ifadə edilir, bütün dövlətlər BMT və ATƏM çərçivəsində səylərə qoşulmağa çağırılırdı.

Yanvarın 11-də NATO üzvü olan dövlət və hökumət başçıları Sülh naminə tərəfdaşlıq proqramını qəbul etdilər. Başlıca məqsədlərindən biri bütün Avroatlantika məkanında təhlükəsizliyi və sabitliyi təmin etmək olan bu proqramın qəbul edilməsinin tarixi kökləri İkinci Dünya müharibəsindən sonra dünyada yaranmış iki sistemin qarşıdurmasından və böhranlardan alınan ibrət dərslərinə gedib çıxsa da, səbəbləri soyuq müharibə başa çatdıqdan sonra dünyada yaranmış yeni şəraitlə, çoxlu problemlərin hələ də həll olunmaması və təhlükəsizlik üçün təhdidlərin qalması ilə bağlı idi.

Sülh naminə tərəfdaşlıq proqramının mahiyyəti hər bir tərəfdaş dövlət və NATO arasında fərdi ehtiyaclara cavab verən və hər bir iştirakçı dövlətin seçdiyi səviyyə və sürətdə birgə həyata keçirilən tərəfdaşlıqdan ibarət idi. Bu, tərəfdaş ölkələrin NATO ilə əlaqələrini səmərəli şəkildə əks etdirən proqramlarda iştirak etmək imkanını genişləndirməklə həm ikitərəfli, həm də çoxtərəfli tədbirlər üçün çərçivə rolunu oynayırdı.[487]

Proqrama qoşulmaq üçün ŞAƏŞ-də, həmçinin ATƏM-də iştirak edən və ona töhfəsini vermək istəyən dövlətlər dəvət olunurdular. Dəvət NATO üzvü olan 27 dövlət tərəfindən qəbul edilmişdi.[488] Hər bir tərəfdaş ölkənin fəaliyyəti birgə işlənib hazırlanmış Fərdi tərəfdaşlıq proqramına əsaslanırdı. Sülh naminə tərəfdaşlıq proqramı ilə bilavasitə məşğul olan Hərbi-Siyasi Rəhbər Komitə həm üzv, həm də tərəfdaş dövlətlərlə görüşürdü. Komitənin səlahiyyətləri aşağıdakılar-

486 Декларация сессии Североатлантического Совета. Брюссель, 10-11 января 1994 г. // НАТО Ревиве. Брюссель, 1994, №1, февраль, с. 22.
487 NATO məlumat kitabı. Brüssel, 2005, s.198.
488 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. II hissə, s. 445.

dan ibarət idi: Sülh naminə tərəfdaşlıq məsələlərinə dair Şuraya tövsiyələr vermək; tərəfdaşlığın işçi proqramını əlaqələndirmək; fərdi tərəfdaşlıq proqramını hazırlamaq və bəyənilmək üçün Şuraya təqdim etmək; planlaşdırma və təhlil prosesinə dair işləri əlaqələndirmək və inkişaf etdirmək.

Sülh naminə tərəfdaşlıq proqramının hərbi aspektləri Hərbi-Siyasi Rəhbər Komitə tərəfindən təklif edilir və ŞAƏŞ-in bəyəndiyi aparıcı prinsiplər əsasında NATO hərbi qurumları tərəfindən həyata keçirilirdi. Hərbi əməkdaşlıq üzrə işçi qrupu Hərbi Komitə yanında məşvərətçi orqan kimi fəaliyyət göstərir, üzv ölkələrlə və ayrıca olaraq tərəfdaş dövlətlərlə birgə görüşürdü.

Proqramın özünəməxsus strukturu olan və ŞAƏŞ nəzdində fəaliyyət göstərən Tərəfdaşlığı əlaqələndirmə qrupu Belçikanın Mons şəhərində yerləşirdi. Qrup Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində birgə fəaliyyəti əlaqələndirir və hərbi təlimlərlə bağlı tərəfdaşlıq işçi proqramının hərbi aspektlərini həyata keçirmək üçün planlaşdırmanı hazırlayırdı. Direktorun rəhbərlik etdiyi qrupun tərkibi NATO heyətindən, 1998-ci ildən sonra isə tərəfdaş dövlətlərin nümayəndələrindən ibarət idi. Bu forma təcrübə toplamaqda və NATO-nun texniki yardımını almaqda bir vasitə idi. Belə əməkdaşlıq ölkələrin NATO tərəfindən siyasi baxımdan müdafiəsinə kömək edir və qabaqcıl hərbi konsepsiyaların hazırlanması üçün imkan yaradırdı. Proqrama uyğun olaraq əməliyyatlar planlaşdırılır və həyata keçirilir, müasir hərbi quruculuğun metodologiyası və texnologiyası işlənib hazırlanırdı.

Sülh naminə tərəfdaşlıq proqramının çərçivə sənədinə əsasən əməkdaşlıq edən dövlətlər başlıca olaraq aşağıdakı işləri yerinə yetirməli idilər: milli müdafiəni, planlaşdırma və büdcə prosesində şəffaflığı təmin etmək; silahlı qüvvələr üzərində demokratik nəzarəti təmin etmək; BMT və ya ATƏM çərçivəsində keçirilən sülhməramlı əməliyyatlara töhfəsini verməyə hazır olmaq; birgə planlaşdırma, təlim və məşqlər vasitəsilə NATO ilə kooperativ hərbi əlaqələri inkişaf etdirərək sülhü qoruma, axtarış və xilasetmə, humanitar əməliyyatlar və s. kimi missiyalarda iştirak etmək; NATO üzvləri ilə birgə əməliyyatlarda iştirak etmək üçün hərbi qüvvələrin qabiliyyətini uzun müddətli dövr ərzində inkişaf etdirmək.

Proqram müdafiə ilə bağlı əməkdaşlığa əsaslansa da, əsl tərəfdaşlığa nail olmaq üçün dialoq və əməkdaşlıqdan daha geniş sahələri əhatə edirdi. Proqram praktiki əməkdaşlığa və demokratik prinsiplərə əsaslanaraq sabitliyin möhkəmləndirilməsinə, sülh üçün hədə və təhdidlərin aradan qaldırılmasına, möhkəm təhlükəsizlik əlaqələrinin qurulmasına xidmət edirdi. Sülh naminə tərəfdaşlıq sənədinə uyğun olaraq, tərəfdaş ölkə ərazi bütövlüyünə və siyasi müstəqilliyinə birbaşa təhlükə hiss edərdisə NATO onunla məsləhətləşmələr edə bilərdi.

Sülh naminə tərəfdaşlıq proqramına qoşulmaq niyyətində olan hər bir dövlət əvvəlcə çərçivə sənədini imzalamağa dəvət edilirdi. Çərçivə sənədində tərəfdaş ölkələrin öhdəlikləri ilə bərabər, Sülh naminə tərəfdaşlıq proqramının prinsipləri də əksini tapmışdı. Sənədi imzalayan dövlətlər BMT nizamnaməsində təsbit olunmuş öhdəliklərə və insan hüquqları haqqında beynəlxalq bəyannaməyə sadiq olduqlarını; digər dövlətlərin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güc tətbiq etmək və ya güc tətbiq etməklə hədələmək prinsiplərindən çəkinmələrini; mövcud sərhədlərə hörmət etmələrini; münaqişələri sülh yolu ilə həll etmələrini bir daha təsdiq etməli; ATƏM çərçivəsində, o cümlədən tərksilah və silahlara nəzarətə dair sənədlərə sadiq olduqlarını bəyan etməli idilər.

Çərçivə sənədi imzalandıqdan sonra növbəti addım kimi hər bir tərəfdaş dövlət təqdimat sənədini NATO-ya verməli idi. Həmin sənəddə əks olunmuş müddəalara, NATO və tərəfdaş ölkə tərəfindən təqdim olunan əlavə təkliflərə əsasən iki il müddəti əhatə edən Fərdi tərəfdaşlıq proqramı razılaşdırılırdı. İşçi proqramında əks olunmuş fəaliyyət Sülh naminə tərəfdaşlığın genişləndirilməsi və NATO-nun xarici mühitə uyğunlaşmasının tərkib hissəsi idi.

Əməkdaşlığın sahələri aşağıdakılardan ibarət idi: hava hücumundan müdafiə məsələləri; hava məkanının idarə edilməsi və ya nəzarəti; mülki fövqəladə planlaşdırma; sülhməramlı əməliyyatların konseptual, operativlik və planlaşdırma aspektləri; məsləhətləşmə, rəhbərlik, nəzarət; maddi-texniki istehlak; böhranın idarə edilməsi; müdafiə planlaşdırması və büdcə; müdafiə siyasəti və strategiya; hərbi qüvvələr və müdafiə strukturu üzərində demokratik nəzarət; elektronika təminatı; tibbi xidmətlər; tərəfdaş dövlətlərin qüvvələri üçün meteoroloji yardım; hərbi coğrafiya; hərbi infrasturktur; hərbi təlimlər və bununla bağlı fəaliyyət; hərəkət və nəqliyyat; naviqasiya sistemləri; qeyri-hərbi təlimlər; standartlaşdırmanın operativ, maddi və inzibati sahələri; planlaşdırma, təşkilat və milli müdafiə tədqiqatları və texnologiyanın idarə edilməsi. Bu fəaliyyət sahələrinin sayı təxminən 2 minədək idi. Fərdi tərəfdaşlıq planı üçün fəaliyyət sahələrini tərəfdaş dövlətlər özləri seçirdilər.

Sülh naminə tərəfdaşlıq proqramına qoşulan ölkələr beynəlxalq hüquq prinsiplərinin dəstəklənməsinə tərəfdar çıxır, BMT nizamnaməsindən irəli gələn öhdəliklərin və insan hüquqlarına dair ümumi bəyannamənin prinsiplərinin, konkret olaraq güc işlətməmək, digər dövlətin ərazi bütövlüyünün, yaxud siyasi müstəqilliyinin ziyanına olaraq güc işlətməklə hədələməkdən çəkinmək, habelə mövcud sərhədlərə hörmət etmək və mübahisələrin dinc vasitələrlə nizamlanmasına nail olmaq öhdəliklərinin vicdanla yerinə yetirilməsinə tərəfdar olduqlarını təsdiq edirdilər.[489]

489 Sülh naminə tərəfdaşlıq. Çərçivə sənədi // "Xalq qəzeti", 1994, 10 may.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il mayın 3-4-də Belçikaya səfəri zamanı NATO rəsmiləri, Belçikanın Baş naziri və digər rəsmi şəxslərlə görüşdü və NATO Şurasında çıxış etdi.[490] Nitqində Prezident dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının daxili və xarici siyasəti haqqında danışdı, Ermənistanın hərbi təcavüzü, münaqişənin tənzimlənməsində ölkəsinin mövqeyi üzərində dayandı, Sülh naminə tərəfdaşlıq proqramını bəyəndiyini və bu sənədə qoşulmağa qərar verdiyini bildirdi. Azərbaycan tərəfi ərazilərinin işğaldan azad, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının təmin edilməsini, Dağlıq Qarabağ regionunda yaşayan erməni əhalisinin müdafiəsi və təhlükəsizliyinə təminat verilməsini və s. məsələlərə baxılmasını istəyirdi.[491]

Heydər Əliyev Sülh naminə tərəfdaşlıq proqramının çərçivə sənədini imzaladı. İmzalanma mərasimində bəyanat verən Azərbaycan Respublikasının Prezidenti ölkəsinin daxili və xarici siyasətinin qarşısında dayanan vəzifələri, NATO-ya verilən diqqəti vurğuladı, Ermənistanın təcavüzünün nəticələrini qeyd etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT sənədlərinin yerinə yetirilmədiyini diqqətə çatdırdı. Azərbaycan Respublikası Sülh naminə tərəfdaşlıq proqramına qoşulan 15-ci dövlət oldu.

Çərçivə sənədinin imzalanmasının böyük əhəmiyyəti var idi. Bununla Azərbaycan hərbi quruculuq və təhlükəsizlik məsələlərinin təmin edilməsində əlavə imkanlar qazanırdı. Sənəd Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığını gücləndirirdi. Bununla bağlı olaraq Heydər Əliyev deyirdi:

*“Biz ümidvarıq ki, Azərbaycan Respublikasının Sülh naminə tərəfdaşlıq proqramına qoşulması bizə Avropada kollektiv təhlükəsizliyin etibarlı sisteminin yaradılmasında iştirakımızı fəallaşdırmağa imkan verəcəkdir”.*[492]

Sülh naminə tərəfdaşlıq proqramına qoşulduqdan sonra Azərbaycan dövlətinin imkanları artdı. Azərbaycan tərəfinin də iştirak etdiyi NATO Şurası üzvü olan ölkələrin xarici işlər nazirlərinin 1994-cü il iyunun 9-da İstanbulda keçirilən görüşündə əsasən iki məsələ müzakirə edildi: Sülh naminə tərəfdaşlıq proqramının reallaşdırılma səviyyəsinin təhlili və sülhyaratma əməliyyatları.

NATO Xarici İşlər Nazirləri Şurasının qəbul edilmiş rəsmi sənədində və ŞAƏŞ xarici işlər nazirlərinin bəyanatında Dağlıq Qarabağ münaqişəsi haqqında məsələ öz əksini tapmışdı. Sənəddə Cənubi Qafqaz regionunda şəraitin xüsusi

490 Əliyev H.Ə. Brüsseldə NATO şurasının iclasında çıxış. 4 may 1994-cü il // Müstəqilliyimiz əbədidir. I kitab, s. 548-550.
491 Əliyev H.Ə. Brüsseldə beynəlxalq mətbuat mərkəzində mətbuat konfransında çıxış. 4 may 1994-cü il // Müstəqilliyimiz əbədidir. I kitab, s. 552.
492 Yenə orada, s. 561.

narahatlıq doğurduğu qeyd edilir, ərazi əldə etmək üçün qüvvə tətbiqi pislənilir və aşağıdakılar vurğulanırdı:

*"Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə hörmət edilməsi, regionda sülh, sabitlik və əməkdaşlığın bərpa edilməsi üçün əsas olmalıdır. Regionda davam edən münaqişələrin ədalətli və sülh yolu ilə həlli yalnız ATƏM və BMT-nin himayəsi altında mümkündür".*[493]

Bəyanatın Ermənistan – Azərbaycan münaqişəsinə həsr edilmiş 15-ci paraqrafı mübahisələr doğurdu. Həmin paraqrafa dair üç variant irəli sürülmüşdü: Azərbaycanın, Ermənistanın və sədrin variantları. Yekunda sədrin təqdim etdiyi variant qəbul olundu. Kompromisi nəzərdə tutan həmin paraqrafda Azərbaycan və Ermənistan arasında mehriban qonşuluq münasibətlərinin qurulması məsələsi problemi tənzimləmək üçün əsaslardan biri kimi qəbul edilir, ATƏM-in Minsk qrupunun səyləri müdafiə olunur, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq işğal edilmiş ərazilərdən orduların çıxarılması, qaçqın və məcburi köçkünlərin yerlərinə qaytarılması, ATƏM müşahidəçilərinin yerləşdirilməsi təklifi dəstəklənirdi. NATO Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmət etdiyini təsdiqləyir, zor gücünə ərazi tutulmasını pisləyir, münaqişələrin BMT və ATƏM çərçivəsində həllinə tərəfdar çıxırdı.

ŞAƏŞ-in 1994-cü ilin dekabr ayında keçirilən sessiyasında NATO-nun Şərqə doğru genişlənməsi istiqamətində fəaliyyətin başlanması qərara alındı. Bu məqsədlə yaradılmış xüsusi qrupa genişlənmənin NATO-nun əsas funksiyalarını yerinə yetirmək imkanlarına göstərəcəyi təsir, Avropa təhlükəsizliyi sisteminə uyğunluğu və s. məsələləri öyrənmək həvalə edildi.

Şərqə doğru genişlənmə Avropanın keçmiş sosialist ölkələrini NATO üzvü etməyi və inteqrasiya proseslərini genişləndirməyi nəzərdə tuturdu. Genişlənmə ilə bərabər sabitlik, təhlükəsizlik, demokratik cəmiyyət, azad bazar iqtisadiyyatı da Şərqə doğru genişlənməli, qonşularla sərhəd problemləri və etnik münaqişələr tədricən aradan qalxmalı idi. Bundan sonra Azərbaycan tərəfi NATO ilə əməkdaşlıqda bəzi tədbirləri həyata keçirdi. 1995-ci ilin aprel ayında Azərbaycan Respublikası NATO-nun Brüsseldəki mənzil-qərargahına Sülh naminə tərəfdaşlıq proqramına qoşulmasına dair təqdimat sənədini verdi.

Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində Azərbaycan Respublikası və NATO arasında əməkdaşlığa dair təqdimat sənədini müzakirə etmək məqsədi ilə 1995-ci il iyunun 6-da NATO-nun Avropadakı silahlı qüvvələrinin komandanının müavini general Ç.Makkenzinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər etdi. Əməkdaşlıq milli müdafiənin planlaşdırılmasına, büdcə-

493 Итоговое коммюнике заседания Североатлантического Совета на уровне министров. Стамбул, 9 июня 1994.

nin işlənib-hazırlanmasına, silahlı qüvvələr üzərində demokratik nəzarətin tətbiq edilməsinə yardımı nəzərdə tuturdu. İyunun 7-də Prezident Heydər Əliyev ilə görüşdə Azərbaycan – NATO əməkdaşlığına dair məsələlər müzakirə edildi.[494] Milli ordu quruculuğunda NATO təcrübəsindən faydalanmağı zəruri hesab edən Azərbaycan Prezidenti Sülh naminə tərəfdaşlıq proqramına daxil olan ölkələrin fəaliyyətinin əlaqələndirilmə mərkəzinin işi və burada Azərbaycanın da öz nümayəndələri ilə təmsil olunması məsələsini müzakirə etdi. Həmin mərkəzdə Azərbaycanın xüsusi nümayəndəsinin təyin olunması barədə razılıq əldə edildi.

Azərbaycan Respublikasının Prezidenti 1996-cı il aprelin 19-da NATO ilə əməkdaşlığa dair sərəncam imzaladı. Sərəncamda bu təşkilatla əməkdaşlığa dair götürülmüş dəqiq siyasi xətt, onun məqsəd və vəzifələri, istiqamətləri və ölçüləri müəyyənləşdirilmişdi. Heydər Əliyev aprelin 22-də NATO-nun Brüsseldəki mənzil-qərargahına növbəti səfəri zamanı Azərbaycan Respublikasının təqdimat sənədini Sülh naminə tərəfdaşlıq proqramına müvafiq olaraq baş katib Xavyer Solanaya[495] təqdim etdi. Sənəddə Azərbaycan üçün maraq doğuran, hərbi siyasət və planlaşdırma, sülhməramlı əməliyyatlar, böhranların idarə olunması, standartlaşdırma və qarşılıqlı hərbi əlaqələndirmə, məlumat mübadiləsi kimi əməkdaşlıq sahələri, tərəfdaşlığın məqsədlərinə nail olmaqdan ötrü atılacaq addımlar, Sülh naminə tərəfdaşlıq üçün ayrılan canlı qüvvə və maddi ehtiyatlar əksini tapmışdı. Sənəd təqdim olunduqdan bir müddət sonra Heydər Əliyev xarici işlər və müdafiə nazirliklərinə NATO ilə birgə fərdi tərəfdaşlıq proqramını işləyib hazırlamağa səlahiyyət verən fərmanı imzaladı.

1996-cı il iyulun 18-də Bakıya səfər edən hərbi ekspertlər Azərbaycanın Fərdi tərəfdaşlıq proqramının hazırlanması məsələsini müzakirə etdilər. Sənəd Azərbaycan Respublikası müdafiə və xarici işlər nazirliklərində müzakirə edildikdən sonra təsdiq olundu. Təqdimat sənədi əsasında 1996-cı ildən etibarən iki illik dövrü nəzərdə tutan Azərbaycan Respublikasının Fərdi tərəfdaşlıq proqramı tərtib edildi. Həmin proqramda silahlı qüvvələr üzərində demokratik nəzarət, onların NATO standartlarına uyğunlaşdırılması, sülhməramlı əməliyyatlara dair təcrübə və potensialı inkişaf etdirmək üçün konkret birgə tədbirlər nəzərdə tutulmuşdu. Proqram 1996-cı ilin noyabr ayında NATO-nun hərbi-siyasi rəhbər komitəsinin iclasında bəyənildi.

NATO-nun Şərqə doğru genişlənməsi məqsədi ilə bəzi digər tədbirlər də reallaşdırıldı. 1996-cı ilin dekabr ayında ŞAƏŞ-in növbəti sessiyasında bu quru-

494 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev NATO-nun nümayəndə heyətini qəbul etmişdir // "Azərbaycan" qəzeti, 1995, 8 iyun.

495 Xavyer Solana (1942) – NATO-nun baş katibi (1995-1999). Avropa İttifaqı Şurasının xarici siyasət və təhlükəsizlik üzrə baş katibi (1999-2009).

mun əsasında Avroatlantika Tərəfdaşlıq Şurası yaratmaq təklifi edildi. Belə bir şuranın yaradılması üçün fəaliyyətə başlanıldı.

Baş katib Xavyer Solana 1997-ci il fevralın 13-də ilk dəfə olaraq Azərbaycan Respublikasına iki günlük səfərə gəldi. Onu qəbul edən Heydər Əliyev ölkədə aparılan islahatlar, Ermənistanın Azərbaycana təcavüzü, nəticələri və münaqişənin tənzimlənməsi səyləri haqqında danışdı, başlıca məqsədin dövlət müstəqilliyini qorumaq və möhkəmləndirməkdən ibarət olduğunu bildirərək dedi:

*"...NATO Avropada təhlükəsizlik kimi olduqca vacib bir məsələ ilə məşğul olan təşkilatdır. Azərbaycan isə Avropanın bir hissəsidir. Güman edirəm ki, bölgəmizdə sabitliyi təmin etmək üçün siz də öz səylərinizi göstərəcəksiniz və apardığımız danışıqlar bu məsələnin həllinə kömək edəcəkdir".*[496]

Görüşdə Sülh naminə tərəfdaşlıq proqramının həyata keçirilməsi, regionda yaranmış şərait və təhlükəsizliyə dair ətraflı fikir mübadiləsi aparıldı.

Azərbaycan tərəfi Avropa təhlükəsizliyinin təmin olunmasında NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verir və bu çərçivədə münasibətlərin genişləndirilməsi qərarına müsbət yanaşırdı.[497] Belə mövqe NATO ölkələri tərəfindən rəğbətlə qarşılanırdı. ABŞ Prezidenti Bill Klinton[498] 1997-ci il fevralın 24-də konqresə göndərdiyi məruzəsində birmənalı şəkildə elan etdi ki, NATO-nun genişləndirilməsində mühüm strateji məqsəd Rusiya, keçmiş sovet respublikaları və Avropa ərazisində yeni demokratik ölkələr daxil olmaqla yeni Avropa, yəni diplomatiya, ticarət və Avropa qitəsində və onun hüdudlarından kənarda ABŞ üçün daha güclü və daha çiçəklənən tərəfdaş yaratmaqdır.

Üzv dövlətlərin xarici işlər və müdafiə nazirləri 1997-ci ilin yazında Sülh naminə tərəfdaşlığa yeni keyfiyyət verən və onun siyasi, hərbi, təşkilati sahələrdə fəaliyyətini gücləndirən tədbirləri qəbul etdilər. Sülh naminə tərəfdaşlıq proqramı bütün Avropa qitəsində siyasi və hərbi əməkdaşlığı genişləndirərək təhlükəsizlik sisteminin vacib elementlərindən birinə çevrildi. Genişləndirilmiş Sülh naminə tərəfdaşlıq proqramının daha operativ rola və təkmilləşdirilmiş siyasi məsləhətləşmələr mexanizminə malik siyahısına əsasən hər bir tərəfdaş dövlət tələb və prioritetlərinə uyğun olaraq fəaliyyət sahələrini seçə bilərdi. İşçi proqramında əməkdaşlığın mümkün çoxtərəfli sahələri və hər bir sahədə fəaliyyətlərin siyahısı əksini tapmışdı.

NATO, ŞAƏŞ və Sülh naminə tərəfdaşlıq proqramında iştirak edən ölkələrin xarici işlər nazirlərinin 1997-ci il may ayının 23-30-da Portuqaliyanın Sintra

496 Əliyev H.Ə. Azərbaycana rəsmi səfərə gəlmiş NATO-nun baş katibi Xavyer Solana ilə görüşdə çıxış. 13 fevral 1997-ci il // Müstəqilliyimiz əbədidir. VIII kitab. Bakı, 1998, s.404.

497 Əliyev H.Ə. NATO-nun baş katibi Xavyer Solana ilə danışıqlar başa çatdıqdan sonra mətbuat üçün bəyanat. 13 fevral 1997-ci il // Müstəqilliyimiz əbədidir. VIII kitab, s.405.

498 Bill Klinton (1946) – ABŞ-ın 42-ci Prezidenti (1993-2001). ABŞ tarixində Franklin Delano Ruzveltdən sonra Demokrat Partiyasından iki dəfə ard-arda seçilmiş ilk prezident.

şəhərində keçirilən görüşündə Şimali Atlantika Əməkdaşlıq Şurası Avroatlantika Tərəfdaşlıq Şurası ilə əvəz edildi. Onun başlıca məqsədi keçmiş Varşava Müqaviləsi Təşkilatının üzvləri ilə dialoq, məsləhətləşmələr aparmağa və birgə layihələri reallaşdırmağa imkan yaratmaq idi. Bu, silahlara nəzarət, müdafiə tədbirləri sahəsində əməkdaşlıq, böhranlı şəraitləri idarə etmək və sülhü qorumaq tədbirlərini əlaqələndirmək üçün özünəməxsus forum idi.[499] Sülh naminə tərəfdaşlıq proqramının əlaqələndirilməsini Şura öz üzərinə götürürdü.[500]

NATO-ya üzv olmaq istəyən ölkələr qarşısında bir sıra tələblər qoyulmuşdu. Onlar demokratiya, şəxsiyyət azadlığı, qanunun aliliyi, insan hüquqlarının qorunması prinsiplərinə riayət etməli, etnik və ərazi mübahisələrindən uzaq olmalı, mehriban qonşuluq münasibətləri saxlamalı, silahlı qüvvələr üzərində demokratik nəzarət qurmalı, liberal iqtisadiyyat və sosial rifahı təmin etməli, silahlı qüvvələr NATO-nun müəyyənləşdirdiyi müəyyən standartlara cavab verməli, sülhyaratma əməliyyatlarında iştirak etməli, təşkilatın müxtəlif strukturlarında təmsil olunmaq üçün maddi və maliyyə ehtiyatlarına malik olmalı, şəxsi heyət, fiziki, sənədləşmə, sənaye və informasiya təhlükəsizliyini təmin etməli idilər.[501] Lakin yeni müstəqil dövlətlər bu tələblərə cavab vermirdilər.

NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Madrid şəhərində 1997-ci il iyulun 8-9-da keçirilən zirvə görüşü Avropa təhlükəsizliyinin təmin edilməsində səmərəli əməkdaşlıq baxımından əhəmiyyətli oldu. Azərbaycan tərəfinin mövqeyinə görə, NATO-nun məqsədlərindən biri Avropa təhlükəsizliyini təmin etmək olduğu üçün rəsmi Bakı da bu proseslərdə yaxından iştirak etməli idi.[502]

Zirvə görüşündə iştirak edən Heydər Əliyevin başlıca məqsədi ikitərəfəli görüşlər keçirərək Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində imkanlardan istifadə etmək idi. Səfər çərçivəsində Azərbaycan rəhbəri bəzi üzv ölkələrin dövlət rəhbərləri, o cümlədən ABŞ Prezidenti Bill Klinton ilə görüşdə Minsk qrupunun həmsədri kimi ABŞ-ın səylərini artırmasını xahiş etdi. Bill Klinton bu barədə söz verdi.

Toplantıda nitq söyləyən Heydər Əliyev Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan, soyuq müharibə başa çatdıqdan sonra yaranmış beynəlxalq şəraitə diqqət yetirdi, Ermənistanın Azərbaycana qarşı təcavüzü və nəticələri üzərində dayan-

499 Пархалина Т. О природе Трансатлантических отношений на современном этапе развития // Jurn. "İnternationale Politik", Berlin, 2001, №6, s.51.
500 Баланчино С. Углубление партнерства – ключ к долгосрочной стабильности в Европе // "Вестник НАТО", Брюссель, 1997, №5, с.16.
501 Membership Action Plan.Washington DC. 23-24 April 1999.
502 Əliyev H.Ə. NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Madrid sammitində iştirak etmək üçün yola düşməzdən əvvəl Binə limanında jurnalistlərə müsahibə. 8 iyul 1997-ci il // Müstəqilliyimiz əbədidir. X kitab. Bakı, 2002, s.367.

dı, Minsk qrupunun fəaliyyətinə, ATƏT-in Lissabon zirvə görüşündə münaqişənin tənzimlənməsinə dair prinsipləri xatırlatdı, NATO-nun və Avroatlantika Tərəfdaşlıq Şurasının fəal roluna ümid ifadə etdi. Azərbaycan Respublikasının Prezidenti Avroatlantika Tərəfdaşdaşlıq Şurasını NATO ilə tərəfdaş ölkələr arasında siyasi məsləhətləşmələrin və fəal əməkdaşlığın mühüm elementi kimi qiymətləndirdi.[503]

Artıq qeyd edildiyi kimi, Azərbaycan Respublikası NATO ilə əməkdaşlığa dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün təminat vasitələrindən biri kimi baxırdı. Bu mövqeni 1997-ci ilin iyul-avqust aylarında ABŞ-a səfəri zamanı Heydər Əliyev yenidən ifadə etdi. O, NATO baş katibi Xavyer Solana ilə keçirdiyi görüşündə Azərbaycanın dövlət müstəqilliyinin əbədi və sarsılmaz olduğunu qeyd etdi, ölkəsinin qarşısında dayanan ən ağrılı məsələnin Dağlıq Qarabağ münaqişəsinin olduğunu bildirdi, həlli üçün NATO-nun səylər göstərməsini istədi.[504] Səfərin gedişində NATO ilə əməkdaşlığın genişləndirilməsi və Fərdi tərəfdaşlıq proqramı məsələləri müzakirə edildi. Azərbaycanın NATO ilə Fərdi tərəfdaşlıq proqramı 1997-ci il oktyabrın 14-də NATO Şurasında təsdiq olundu.

Azərbaycan Respublikasının Prezidenti 1997-ci il noyabrın 14-də Azərbaycanın NATO ilə əməkdaşlığını gücləndirmək tədbirlərinə dair sərəncam imzaladı. Sərəncama uyğun olaraq Baş nazirin sədrliyi altında komissiya təşkil edildi. Həmin ildən etibarən Azərbaycan tərəfi NATO qüvvələri ilə qarşılıqlı hərbi əlaqələndirməyə nail olmaq məqsədi daşıyan NATO-nun planlaşdırma və təhlil prosesinə qoşuldu, ilkin olaraq NATO qüvvələri ilə qarşılıqlı hərbi əlaqələndirməyə nail olmağa xidmət edən 24 tərəfdaşlıq məqsədini üzərinə götürdü. Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində NATO/SNT kafedrası təşkil edildi. Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində sülhüqoruma əməliyyatlarında iştirak etmək üçün bölük yaradıldı.

Azərbaycan Respublikası 1997-ci il iyulun 8-9-da NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Madrid görüşündə qəbul edilmiş tərəfdaş ölkələrə Brüssel şəhərində yerləşən NATO-nun mənzil-qərargahında diplomatik missiyalarını açmaq hüququ verən qərarı müsbət qarşılayaraq, NATO-da siyasi və hərbi təmsilçiliyini gücləndirmək üçün 1997-ci il 21 noyabr tarixli qanuna müvafiq olaraq Brüssel şəhərində NATO-nun mənzil-qərargahında diplomatik nümayəndəliyini açdı. Neft ixrac boru kəmərləri və bununla bağlı olaraq digər məsələlər ətrafında ARDNŞ ilə NATO-nun müvafiq komitələri arasında əlaqələr

503 Əliyev H.Ə. Avropa-Atlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iclasında nitq. 9 iyul 1997-ci il // Müstəqilliyimiz əbədidir. X kitab, s.370-372.
504 Əliyev H.Ə. NATO-nun baş katibi Xavyer Solana ilə görüşdə nitq. 27 iyul 1996-cı il // Müstəqilliyimiz əbədidir. XI kitab. Bakı, 2003, s.19-20.

quruldu. Ümumiyyətlə, 1997-ci ildə Azərbaycan Respublikası Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində 44 toplantıdan 34-də iştirak etdi.[505]

NATO rəhbərliyi yeni müstəqil dövlətləri əməkdaşlıqda fəal olmağa dəvət edir və regional təhlükəsizliyə diqqət yetirirdi. Regional təhlükəsizlik və Azərbaycan Respublikasının Sülh naminə tərəfdaşlıq proqramında iştirakı məsələləri NATO siyasi komitəsinin iclasında üzvlüyə dəvət almış üç dövlət də daxil olmaqla 16+Azərbaycan formatında 1998-ci il mayın 12-də müzakirə edildi. NATO nümayəndələri deyirdilər ki, siz fəal olsanız, NATO da fəal olacaq, Azərbaycana yardım lazım olanda edəcəkdir. NATO proqramlarında iştirak Azərbaycanın beynəlxalq siyasi nüfuzunun artmasına kömək edirdi.

NATO-nun əməkdaşlığın əlaqələndirilməsi üzrə qrupunun direktoru general T.Kolsterenin 1998-ci ilin sentyabr ayında Azərbaycana səfəri zamanı üç istiqamət üzrə işlərin aparılması məqsədəuyğun hesab edildi: döyüş qabiliyyətinin artırılması; NATO bölmələri ilə qarşılıqlı fəaliyyət; təhsil və hazırlıq.

Görüşlər zamanı NATO baş katibi Xavyer Solananın Azərbaycana səfərinə hazırlıq məsələləri də müzakirə edildi. Azərbaycan tərəfi səfərə dair tədbir və təklifləri işləyib hazırladı.

Xavyer Solana 1998-ci il sentyabrın 30-dan oktyabrın 1-dək ikinci dəfə Azərbaycana səfər etdi. Səfər zamanı Milli Məclisin sədri, Baş nazir ilə keçirdiyi görüşlərdə Avroatlantika və regional təhlükəsizlik, Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində Azərbaycan – NATO əlaqələrinin inkişafı məsələləri müzakirə edildi. Baş katib ARDNŞ rəhbəri Natiq Əliyev və ABƏŞ prezidenti Leqat ilə görüşlər keçirdi, habelə Xəzər dənizindəki "Çıraq-1" neft platformasında oldu, Bakı Ali Ümumqoşun Komandirlər Məktəbindəki NATO/SNT kafedrasına və Azərbaycan sülhməramlı bölüyünə baş çəkdi.

Baş katibin səfərinin zirvə nöqtəsi sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti ilə keçirilən görüş oldu. Buna qədər Heydər Əliyev və Xavyer Solana Lissabon, Madrid, Bakı və Nyu Yorkda görüşmüşdülər. Xavyer Solana həmin görüşləri NATO ilə Azərbaycan dövləti arasında əməkdaşlığın yaranması və inkişafında mühüm addım olaraq qiymətləndirdi.[506] Görüşdə regionda cərəyan edən hadisələr, təhlükəsizlik, o cümlədən enerji təhlükəsizliyi və bunlarda Azərbaycanın yeri məsələləri müzakirə edildi. Azərbaycan üçün təhlükəsizliyin təmin edilməsi xüsusilə vacib idi, çünki ölkə Ermənistanın hərbi təcavüzünə məruz qalmışdı. Xavyer Solana Azərbaycanın sayəsində Avropa ilə Asiya arasında körpü qurulmasını yüksək qiymətləndirirdi. Danışıqlardan sonra verilən bəyanatlarında Xavyer Solana və Heydər Əliyev NATO-nun Sülh

505 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. II hissə, s. 457.
506 Əliyev H.Ə. Bakıda səfərdə olan NATO baş katibi Xavyer Solana ilə təkbətək görüşdəki söhbətdən. 30 sentyabr 1998-ci il // Müstəqlliyimiz əbədidir. XVII kitab, s.409.

naminə tərəfdaşlıq proqramı çərçivəsində əməkdaşlığın davam etdiriləcəyini vurğuladılar.[507]

NATO ilə əlaqələrdə mühüm yerlərdən biri 1999-cu il aprelində ABŞ-da keçirilən NATO-nun yaradılmasının 50 illik yubileyinə həsr edilmiş toplantıda Azərbaycan Respublikası Prezidentinin iştirakı oldu. Aprelin 22-də keçirilən təntənəli mərasimdə çıxış edən Heydər Əliyev Azərbaycan dövlətinin NATO-ya verdiyi əhəmiyyət, Ermənistanın hərbi təcavüzünün nəticələri haqqında danışdı və ölkəsinin münaqişənin tənzimlənməsində mövqeyini bir daha bəyan etdi.[508] Sammitin gedişində Azərbaycan Respublikasının Prezidenti ABŞ Prezidenti Bill Klinton[509], Fransa Prezidenti Jak Şirak[510] ilə görüşərək ikitərəfli münasibətlərin inkişafı və Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair məsələləri müzakirə etdi.[511]

Heydər Əliyev Qafqaz və Orta Asiya ölkələri rəhbərlərinin və xarici işlər nazirlərinin görüşündə çıxış etdi. İpək yolu strategiyası haqqında qanun layihəsinin təşəbbüsçüsü senator Sem Braunbek, Gürcüstan, Qazaxıstan, Moldova, Tacikistan, Özbəkistan, Rumıniya və Türkiyə Prezidentləri, habelə Türkmənistan, Qırğızıstan və Ermənistanın xarici işlər nazirləri toplantıda iştirak edirdilər. Müzakirə olunan əsas məsələ İpək yolu layihəsinin reallaşdırılması idi.

Görüşdə təşkilatın gələcək fəaliyyətinə dair qəbul edilən vacib sənədlərdən biri NATO-nun yeni strateji konsepsiyası oldu. Bəzi yenilikləri özündə cəmləşdirən konsepsiyada Avropada strateji tarazlığı qoruyub saxlamaq məqsədindən imtina edilirdi. Qüvvələr nisbəti və nüfuz dairəsinə əsaslanan Avropa təhlükəsizlik sisteminə hüquqi cəhətdən son qoyulurdu. Yeni konsepsiyada Avroatlantika regionunda təhlükəsizliyi və sabitliyi möhkəmləndirmək məqsədi ilə böhranların tənzimlənməsi, münaqişələrin qarşısının alınması, böhranlara cavabvermə əməliyyatlarına, NATO ölkələri ilə birgə əməliyyatlara hazır olmaq məqsədi ilə Avroatlantika regionundakı digər ölkələrlə geniş tərəfdaşlıq, əməkdaşlıq və dialoqun inkişafına nail olmaq nəzərdə tutulurdu.[512]

---

507 Əliyev H.Ə. Azərbaycan Respublikasının və NATO-nun nümayəndə heyətləri arasında danışıqlar başa çatdıqdan sonra yerli və xarici kütləvi informasiya vasitələrinin nümayəndələri üçün birgə mətbuat konfransı. 30 sentyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVII kitab, s.418-421.

508 Əliyev H.Ə. NATO-nun 50 illik yubileyinə həsr olunmuş zirvə görüşündə nitq. 22 aprel 1999-cu il // Müstəqilliyimiz əbədidir. XX kitab. Bakı, 2007, s.52-54.

509 Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton ilə görüşdəki söhbətdən. 24 aprel 1999-cu il. // Müstəqilliyimiz əbədidir. XX kitab, s.77-78.

510 Jak Şirak (1932-2019) – Fransanın görkəmli siyasi və dövlət xadimi. Fransa Respublikasının Baş naziri (1974-1976; 1986-1988). Paris şəhərinin meri (1977-1995). Fransa Respublikasının Prezidenti (1995-2007).

511 Əliyev H.Ə. Fransa Prezidenti Jak Şirak ilə görüşdəki söhbətdən. 24 aprel 1999-cu il // Müstəqilliyimiz əbədidir. XX kitab, s.79-80.

512 The Alliance strategic concept. Washington DC. April 1999.

Azərbaycan Respublikası NATO-nun toplantılarını təşkil edən ölkə oldu. Belə ki, NATO-nun Cənub-Şərqi Avropada yerləşən quru qüvvələri komandanının müavini R.Klemmonsun başçılıq etdiyi nümayəndə heyəti 1999-cu il iyunun 8-də Bakıda "Kooperativ determineyşn-99" təlimlərinin keçirilməsi və planlaşdırılması üzrə konfransda iştirak etmək üçün Azərbaycana səfər etdi. İyunun 8-11-də keçirilən konfransda 20 ölkədən olan zabitlər iştirak edirdi. Azərbaycan tərəfi Sülh naminə tərəfdaşlıq proqramında iştirakını dərinləşdirmək üçün maddi-texniki yardıma ehtiyac duyduğunu diqqətə çatdırdı.[513]

NATO Kosovoda həyata keçirilən sülhməramlı əməliyyatlarda da Azərbaycanın iştirakında maraqlı idi. Ona görə də iyul ayında Xavyer Solana Kosovoda keçirilən sülhyaratma qüvvələri tərkibində iştirakdan ötrü Azərbaycan dövlətinə rəsmi müraciət etdi. İyulun 28-də Bakıda Türkiyə hökuməti ilə Azərbaycan hökuməti arasında Kosovoda türk taboru tərkibində Kosovoya gedəcək Azərbaycan tağımının fəaliyyətinə dair saziş imzalandı. Beləliklə, Azərbaycan Respublikasının sülhməramlı tağımı (34 nəfər – 1 zabit, 1 çavuş, 32 əsgər) Türkiyə taboru daxilində Kosovoda keçirilən sülhməramlı əməliyyatda iştirak etməyə başladı.

NATO Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirirdi. 2000-ci ilin sentyabr ayında Tbilisidə Azərbaycan nümayəndələrinin də iştirak etdiyi konfransda çıxış edən baş katib Corc Robertson[514] bildirdi ki, regionun əsas güc mərkəzlərinin və Rusiyanın iştirakı olmadan buradakı problemləri tam həll etmək, Avropada və Qafqazda tam təhlükəsizliyə nail olmaq mümkün deyildir.

Ümumiyyətlə, 2000-ci il NATO ilə zəngin əməkdaşlıq ilə yadda qaldı. İl ərzində Azərbaycan Vaşinqtonda silahlı qüvvələr və kütləvi informasiya vasitələrinin qarşılıqlı əlaqəsinə həsr edilmiş seminarda, Türkiyədə Balıkesirdə yanacaq standartları və yerüstü nəqliyyat vasitələri üçün yanacağın bölüşdürülməsi kurslarında, Brüsseldə quru qoşunları döyüş sursatlarının qarşılıqlı əvəz olunması üzrə işçi qrupların görüşündə və avtomatlaşdırılmış idarəetmə görüşündə, Rumıniyanın Konstansa şəhərində "Kooperativ Key", Kluj Naroka şəhərində "Kooperativ best effort" sülhməramlı təlimlərində, Brüsseldə Avroatlantika Tərəfdaşlıq Şurasının hava hücumundan müdafiə komitəsinin sessiyasında və s. iştirak etdi.

Azərbaycanda planlaşdırılan NATO-nun ilk komanda qərargah təlimlərinin keçirilməsi məsələlərini müzakirə etmək məqsədi ilə 2001-ci il yanvarın 16-17-də NATO-nun baş katibi Corc Robertson Azərbaycana səfər etdi. Bu,

513 Müdafiə Nazirliyi mətbuat xidmətinin məlumatı // "Azərbaycan" qəzeti, 1999, 12 iyun.

514 Corc Robertson (1946) – Böyük Britaniyanın siyasi və dövlət xadimi. NATO-nun 10-cu baş katibi (1999-2004).

Corc Robertsonun Azərbaycana ilk səfəri idi. Səfər müddətində o, Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisin sədri, Baş nazir, xarici işlər naziri, müdafiə naziri ilə görüşərək regiondakı şərait, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan – NATO əlaqələrinin gələcək inkişafı, Azərbaycanda keçiriləcək ilk komanda-qərargah təlimləri haqqında müzakirələr apardı[515] NATO-nun mövqeyinə görə, münaqişə tərəflərin özləri tərəfindən həll edilməli idi. Əməkdaşlıq komissiyasının tədbirlər planına uyğun olaraq Azərbaycanda işçi qrup yaradıldı.

Bakıya səfərdən bir müddət sonra, aprelin 27-də Corc Robertsonun sədrliyi altında Şimali Atlantika Şurasının Orta Asiya və Qafqaza həsr olunmuş xüsusi qapalı iclasında təşkilatın hər iki regiona münasibətdə gələcək siyasəti müzakirə edildi. NATO-nun bu regionlarda fəaliyyətinin artırılmasına dair qərar qəbul olundu.

2002-2003-cü illərdə Azərbaycan Respublikası NATO ilə əməkdaşlığını davam etdirdi. Çexiyanın paytaxtı Praqada 2002-ci il noyabrın 21-22-də keçirilən Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə nitq söyləyən Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin bütün dövlətlərin maraqlarına uyğun olduğunu bildirdi.[516] Bu nitq regionda təhlükəsizliyin təmin edilməsinin vacibliyinin dərk edilməsi baxımından əhəmiyyətli idi.

Azərbaycan dövləti NATO-nun Əfqanıstanda həyata keçirdiyi sülhməramlı əməliyyatlarda 22 nəfər hərbçi ilə Türkiyə qoşunları tərkibində iştirak etməyə başladı.

***

Fəsildə tədqiq edilən məsələlərdən aydın olur ki, Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin başlıca məqsədlərindən biri beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq quraraq təbii sərvətlərini dünya bazarlarına çıxarmaq, ölkə qarşısında dayanan bir sıra sosial-iqtisadi problemləri həll etmək, dövlətin beynəlxalq mövqelərini möhkəmləndirmək, müdafiə qüdrətini artırmaq və Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini həll etmək olmuşdur. Avropa İttifaqına üzv olan dövlətlər ilə Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və əməkdaşlıq sazişi imzalanmışdır. Sazişin

515 Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun baş katibini qəbul etmişdir // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, Bakı, 2010, s. 82-85.

516 Əliyev H.Ə. NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə çıxış. Praqa. Konqres Mərkəzi. 22 noyabr 2002-ci il // Müstəqilliyimiz əbədidir. 42-ci kitab. Bakı, 2012, s.379-384.

məqsədləri müvafiq siyasi dialoq çərçivəsində tərəflər arasında siyasi münasibətlərin inkişafının təmin edilməsi; Azərbaycanda demokratiyanın möhkəmləndirilməsi, iqtisadi inkişaf və bazar iqtisadiyyatına keçid cəhdlərinin dəstəklənməsi; ticarət və investisiyanın inkişafı, iqtisadi, sosial, maliyyə, elmi, texniki və mədəni əməkdaşlıq olmuşdur.

Avropa İttifaqı ilə geniş qarşılıqlı faydalı əməkdaşlığın qurulması və Böyük İpək Yolunun reallaşdırılması istiqamətində atılan addımlar nəticəsində Azərbaycan Respublikasının dünyanın nəhəng nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevilməsi strategiyası müəyyənləşdirilmiş və müvafiq işlərə başlanmışdır. Azərbaycan Respublikasının beynəlxalq mövqeləri möhkəmlənmiş və region siyasətində rolu artmışdır.

Azərbaycan neftinin dünya bazarlarına çıxarılması planları və ölkənin əlverişli nəqliyyat-kommunikasiya mərkəzi kimi fəaliyyət göstərməsi üçün beynəlxalq təhlükəsizilik tədbirlərinin görülməsi aktual olmuşdur. Ona görə də yuxarıda göstərilən layihələri həyata keçirməklə paralel olaraq Azərbaycan Respublikası soyuq müharibə başa çatdıqdan sonra fəaliyyətini davam etdirən NATO ilə geniş əməkdaşlıq qurmuşdur. NATO ilə əməkdaşlığı bir sıra amillər zəruri etmişdir. Dünyada sülhü və təhlükəsizliyi təmin edən təşkilat funksiyasını daşıyan və Avropa təhlükəsizliyində başlıca amil olan NATO ilə əməkdaşlıqdan Avropanın bir parçası olan Azərbaycan Respublikası kənarda qalmamışdır.

SSRİ dağıldıqdan sonra Rusiya yeni müstəqil dövlətlərin mövcudluğunu ağrılı qəbul edib, onları “yaxın xaric” hesab edərək daim təhdid etmiş və təsir dairəsinə salmağa çalışmışdır. Rusiyanın xarici siyasət konsepsiyasında özü ilə həmsərhəd olan ölkələrdə üçüncü dövlətin hərbi-siyasi iştirakına istənilən vasitə ilə mane olmaq nəzərdə tutulmuşdur. Cənubi Qafqaz regionu sabitsizliklər və risklərlə dolu olmuşdur.

Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi həll edilmədiyindən Azərbaycan tərəfi mövqelərinin beynəlxalq səviyyədə müdafiəsinə ehtiyac duymuşdur. Dünyanın ən öncül ölkələrinin təkcə hərbi deyil, həmçinin siyasi təşkilat olan NATO ilə əməkdaşlıq Azərbaycan Respublikasının dövlət müstəqilliyinə beynəlxalq təminat verilməsi baxımından əhəmiyyətli olmuşdur. Yeni şəraitdə Azərbaycan üçün vacib olan ordu quruculuğu məsələsində NATO təcrübəsindən yararlanılmışdır. Azərbaycan Respublikası bu məqsədlə NATO-nun proqramlarının fəal iştirakçısı olmuşdur. NATO qəbul etdiyi sənədlərində Azərbaycan Respublikasının ərazi bütövlüyünü və suverenliyini müdafiə etmişdir.

Əməkdaşlıqda təkcə Azərbaycan maraqlı olmamışdır. Azərbaycan Respublikasının əlverişli coğrafi-siyasi və strateji mövqeyi, zəngin təbii sərvətləri NATO üçün cəlbedici olmuşdur.

NATO-nun Kosova və Əfqanıstanda həyata keçirdiyi sülhyaratma əməliyyatlarında Azərbaycan iştirak olmuşdur. Bu, beynəlxalq təcrübənin toplanmasında və ordu quruculuğunda əhəmiyyətli olmuşdur. Azərbaycanla əməkdaşlıq təşkilatın nüfuzunun artmasına kömək etmişdir.

Azərbaycan Respublikasının dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevrilməsi və onun təhlükəsizliyinin təmin edilməsi üçün həyata keçirilən fəaliyyətlə paralel olaraq müzakirə edilən ən mühüm məsələlərdən biri Xəzər dənizinin Azərbaycan sektorundan hasil edilən neftin dünya bazarlarına hansı yollarla çıxarılması olmuşdur. Bu məsələdə iqtisadi və siyasi məsələlər çulğalaşmışdır.

# 11-ci FƏSİL

## NEFT İXRAC BORU KƏMƏRLƏRİ MƏSƏLƏSİ

### *11.1. Boru kəmərlərinin keçirilməsi problemi*

Azərbaycan Respublikasının nəqliyyat-kommunikasiya qovşağına çevrilməsi üçün görülən tədbirlərlə paralel olaraq Xəzər dənizinin Azərbaycan sektorunda hasil ediləcək neftin bazarlara çıxarılması məsələsinin həlli də gündəlikdə dayanırdı. Neftin dünya bazarlarına çıxarılması yolları üstündə qızğın müzakirələr gedirdi. Bu məsələ təkcə iqtisadi deyil, eyni zamanda böyük geosiyasi məna daşıyırdı. ABŞ-ın "Standart Oyl" şirkətinin qurucusu Con Rokfeller[517] bir zamanlar deyirdi:

*"Neftin nəqlinə kim nəzarət edirsə, o da neftin hasilatını və emalını əlində saxlayır".*[518]

Neft sənayesinin tarixi təcrübəsi göstərir ki, boru kəmərləri ən azı iki şərtə cavab verməlidir: nəqlin uzunmüddətli olması üçün təminatlı məhsul olmalıdır; nefti bazara sabit çıxarmaq üçün imkanlar olmalıdır. Bu məsələnin bir sıra texniki-iqtisadi və siyasi tərəfləri var idi. Hər şeydən əvvəl, müstəqilliklərini bərpa edərkən Xəzəryanı dövlətlərin Rusiyadan nəqliyyat-kommunikasiya asılılığında olmaları neftin sərbəst şəkildə nəqli məsələsinə mənfi təsir edirdi. Azərbaycanın coğrafi baxımdan dünya okeanına birbaşa çıxışı olmadığından neft tankerlərə yüklənmək üçün bir və ya iki xarici ölkənin sərhədini keçməli idi. Azərbaycan dövləti Ermənistanın təcavüzkarlıq siyasətinə kömək edən, Azərbaycanda güclü dövlətin qurulmasına təhlükə kimi baxan, onu qısqanan ölkələrlə, o cümlədən ərazilərini işğal edən, 1 milyon nəfər azərbaycanlını qaçqın və məcburi köçkünə çevirən Ermənistan və nəhayət, Gürcüstanla qonşu idi. Deməli, neft boru kəməri ya Rusiya, ya İran, ya Ermənistan, ya Gürcüstan, ya da Türkiyə ərazisindən keçə bilərdi. Bütün bunlar neftin ixracı məsələsinin təkcə iqtisadi deyil, eyni zamanda geosiyasi xarakter daşıdığını göstərirdi. Əsas ixrac neft boru kəməri-

517 Con Devidson Rokfeller (1839-1937) – ABŞ sahibkarı. Tarixdə ilk dollar milyarderi.
518 Бутаев А. Каспий: зачем он Западу. М., 2004, с.297.

nin Rusiya, yoxsa Şərq-Qərb dəhlizi ilə keçməsi üzərində mübahisələr getdikcə kəskinləşirdi.

Qafqaz regionunda iki münaqişənin mövcudluğu neftin nəqlinə ciddi təsir edirdi. Bu münaqişələrdən biri Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi, digəri isə Çeçenistanda aparılan müharibə idi. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün davam etməsi neftin bu ölkə ərazisindən nəqlini mümkünsüz edirdi. Şimali Qafqazda hökm sürən qeyri-sabitlik, xüsusən Çeçenistanda aparılan müharibə Azərbaycan neftinin Rusiya ərazisindən keçirilməsini təhlükə altına atırdı. Törədilən hər hansı bir terror aktı nəticəsində neftin nəqli dayanar və müəyyən qüvvələr bundan Azərbaycana qarşı siyasi təzyiq vasitəsi kimi istifadə edə bilərdilər.

Rusiya neftin ərazisindən keçərək nəql olunmasında israr edir, başqa bir variantı qəbul etməyərək, ciddi cəhdlə müqavimət göstərirdi. Lakin Rusiyanın neft boru kəmərləri sistemi Azərbaycan neftini dünya bazarlarına nəql etmək üçün köhnə, ötürücülük qabiliyyəti isə aşağı idi. Digər tərəfdən, neftin nəql olunacağı Rusiya ərazisində iqlim şərtləri sərt idi. Novorossiysk və Tuapse terminalları il ərzində 87-112 gün işləmirdi.

Rusiyanın Şimali Qafqaz regionu təhlükəsizlik baxımından etibarlı deyildi. Həmin ərazidə müharibə aparılır, terror aktları törədilirdi. Çeçenistanda aparılan müharibə Azərbaycan neftinin nəqli məsələsində problem yaradırdı. Bakı – Novorossiysk neft boru kəmərinin 80 km-i Çeçenistan ərazisindən keçirdi. Bu ərazidə sabitlik bərqərar olmadan şirkətlər nefti nəql etməkdən boyun qaçırır və risk altına girmək istəmirdilər.

Neftin Gürcüstan ərazisindən keçməsi də problemlərsiz deyildi. Burada gürcü-abxaz, Cənubi Osetiya münaqişəsi mövcud idi. Samtsxe-Cavaxeti regionunda isə erməni separatizmi güclənir və onlar təşkilatlanırdılar.

Türkiyə ərazisində boru kəmərinin keçdiyi bölgələrdə müəyyən çətinliklər mövcud idi. Həmin ərazilərdə bəzi xarici ölkələrdən alınan yardımlarla terror aktları törədilirdi.

Bütün bu amillər neftin fasiləsiz nəqlini şübhə altına alırdı.[519]

Neftin Rusiya ərazisindən keçməsinin özü hələ hər şeyin tam həll olunması demək deyildi. Rusiya ərazisindən keçən Azərbaycan nefti Novorossiysk limanında tankerlərə yüklənərək Qara dənizdəki türk boğazlarından - İstanbul (Bosfor) və Çanakkala (Dardanel) boğazlarından daşınmalı idi. Bu boğazlar üzərində Türkiyənin dünya birliyi tərəfindən qəbul edilən suveren hüquqları var idi. Türk hökuməti boğazların neft daşınması üçün yola çevrilməsinin əleyhinə çıxır, 1936-cı ildə imzalanmış Montrö konvensiyasını əsas gətirərək, boğazlardan

519 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 311.

keçən gəmilərin sayı çoxaldığından İstanbul üçün təhlükə törətdiyi qənaətində idi. Məsələn, əgər 1938-ci ildə boğazlardan 4500 gəmi keçmişdisə, 90-cı illərdə ildə 51 minə yaxın gəmi keçirdi. Boğazlardan bir ildə yalnız 70-80 mln. ton neft daşına bilərdi. Boğazlardan ən uzun 150 metrlik tankerlər keçməli olduğu halda, 250-300 metr uzunluğunda tankerlərin keçməsi qəza risklərini artırır, şəhər əhalisinin həyatını təhlükəyə atırdı. Ona görə də Türkiyə hökuməti hələ 1993-cü il noyabrın 23-də "Boğazlarda və Mərmərə bölgəsində dəniz keçidi qaydası haqqında reqlament" qəbul etmişdi. Bu reqlamentə görə, uzunluğu 200 metrdən çox olan gəmilər boğazlardan yalnız gündüz və müşayiətlə keçə bilərdilər. Əgər bir ölkənin gəmisi boğaza girib keçişini tamamlamazdısa, onun digər gəmisinə keçid üçün icazə verilmirdi. Bu qayda 1994-cü il iyulun 1-də qüvvəyə minmişdi.[520] Bütün bunlarla yanaşı, Türkiyə neftin nəqli məsələsində Rusiyanı tamamilə kənarlaşdırmağa çalışmırdı. Çünki iki ölkə arasında mehriban qonşuluq münasibətləri, ticarət-iqtisadi əlaqələr inkişaf edirdi. Türkiyəni təkcə iqtisadi deyil, təhlükəsizlik və ekologiya məsələləri də düşündürürdü. Rusiya hökuməti isə yuxarıda göstərilən tədbirlərə etiraz edərək Türkiyənin Xəzər neftinin daşınmasında Rusiyanın qarşısını kəsmək istədiyini bildirir, guya bunu Montrö konvensiyasına zidd adlandırırdı.

Türkiyə bütün bunlarla yanaşı, neft boru kəmərinin keçəcəyi Rusiya ərazilərində təhlükəsizliyin etibarlı olmadığını, Novorossiysk limanında iqlim şərtlərinin də sərt olduğunu dəlil kimi gətirirdi. Bakı – Ceyhan xəttinin keçəcəyi ərazilərin iqlim şərtləri və əlverişli coğrafi imkanları Türkiyənin mövqelərini gücləndirən əsas amillərdən idi.

Heç şübhəsiz, belə mövqeni tutarkən Türkiyə bir sıra amilləri nəzərə alırdı. Neft boru kəmərini öz ərazisindən keçirməklə Türkiyə iqtisadi baxımdan böyük gəlir əldə edər, siyasi baxımdan isə Cənubi Qafqaz və Avropa – Yaxın Şərq münasibətləri sistemində strateji əhəmiyyətini daha da artırar, təhlükələri və ekoloji riskləri aşağı salardı.

Xəzər dənizinin Azərbaycan sektorundakı neftin İran ərazisindən keçərək Fars körfəzinə, oradan da Avropaya və dünya bazarlarına çıxarılmasına dair müəyyən mülahizələr mövcud idi. İran neft boru kəmərinin ərazisindən keçərək ya qərbə – Türkiyəyə, ya da Fars körfəzinə çıxarılmasında maraqlı idi. Neft kəməri üçün Bakı – Təbriz – Naxçıvan – Ceyhan marşrutu təklif edilirdi. Bu kəmərin uzunluğu 1768 km, layihə dəyəri ilkin olaraq 2,0-2,5 milyard dollar, tikinti müddəti 2 il idi. İqtisadi baxımdan sərfəli olsa da, ABŞ və Qərb ölkələri İran ərazisindən keçməsi təklif edilən neft boru kəmərinə qəti etiraz edirdilər. İrana qarşı

520 Türk dış politikası. Kurtuluş savaşından bugüne olgular, belgeler, yorumlar. Cilt II. 1980-2001. Editör: Baskın Oran. İstanbul, 2015, s. 588.

ABŞ-ın tətbiq etdiyi sanksiyalar səbəbindən iri Amerika şirkətləri İran hökuməti ilə birgə iş görə bilməzdilər. Ona görə də neftin İran ərazisindən keçərək dünya bazarlarına çıxarılması yolu qəbul edilmirdi.

Əslində neft boru kəmərinin Ermənistandan keçərək Naxçıvana, oradan da Aralıq dənizinə çıxarılması ən ucuz və səmərəli ola bilərdi. Bununla Naxçıvanın Ermənistan tərəfindən blokadasına da son qoyular və enerji təchizatı problemi həll edilərdi. ABŞ bu variantı təklif və müdafiə edirdi.[521] Lakin onun reallaşması daha çox Ermənistandan asılı idi. Ermənistanda Levon Ter-Petrosyan hakimiyyəti neft boru kəmərinin ölkə ərazisindən keçməsi müqabilində mümkün kompromisləri müzakirə etdi. Lakin o, hakimiyyətdə qala bilmədi. ABŞ tədqiqatçısı Zeyno Baranın[522] yazdığı kimi, əgər Ermənistan Qarabağ məsələsinin həllinə razılıq versəydi, Azərbaycana qarşı işğalçılıq planlarına son qoysaydı, Azərbaycan və Türkiyə Ermənistan marşrutunu dəstəkləyəcəkdi.[523] Lakin Ermənistan işğalçılıq siyasətindən əl çəkmədiyi, Azərbaycan ərazilərinin işğalını davam etdirdiyi, Naxçıvana gedən bütün kommunikasiya xəttlərini dağıdaraq muxtar respublikanı blokadada saxladığı üçün Azərbaycan da əsas ixrac neft boru kəmərinin Ermənistan ərazisindən keçməsinə icazə vermirdi.

Belə bir şəraitdə neft boru kəmərinin daha haradan keçməsinə dair başqa mülahizələr də söylənilirdi. Məsələn, Bolqarıstan və Yunanıstan hökumətləri Qara dəniz sahilindəki Burqasdan Egey dənizi sahilindəki Aleksandropolis limanına qədər neft boru kəmərinin tikintisi, Ukrayna hökuməti isə Bakı – Supsa kəmərindən alınacaq neftin Odessadan Qərbi Avropaya daşınacaq boru kəməri layihələrini irəli sürürdülər. Rumıniya isə Supsadan Konstansa limanına qədər neftin tankerlərlə daşınması layihəsini qəbul etdirməyə çalışırdı. Lakin bu təşəbbüslərin heç biri faydalı və cəlbedici deyildi.

Boru kəmərlərinin keçirilməsi məsələsində Rusiyanın mövqeyi vəziyyəti ağırlaşdırır və xarici neft şirkətlərini qorxudurdu. Ona görə də ilk addım kimi ölkələri ayıran deyil, onları birləşdirən ən uyğun və əlverişli variant seçilməli idi.

521 John J.Mareska. A Peace Pipeline to end the Nagorno Karabakh Conflict // "Caspian Crossroads", Washington, 1995, №1, p.17-18.
522 Zeyno Baran (1972) – Strateji və Beynəlxalq Təlimlər Mərkəzinin Qafqaz layihəsinin direktoru (1999-2002).
523 Zeyno Baran. Azərbaycan – gələcəyi dərk edərək // "Azerbaijan Focus", Bakı, 2009, №1 (1), s. 126.

## *11.2. Neft strategiyasının reallaşdırılması uğrunda diplomatik-siyasi mübarizə*

Çoxlu mübahisələrin olduğunu görən Azərbaycan Respubikasının Prezidenti Heydər Əliyev böyük siyasi və diplomatik məharətlə neft boru kəməri məsələsinin həllini iki mərhələyə böldü: ilkin neftin nəqli; əsas ixrac neftinin nəqli. Belə yanaşma Azərbaycan dövlətinə manevr etməyə imkan verir və beynəlxalq mövqelərini möhkəmləndirirdi. 1995-ci il oktyabrın 9-da Bakıda konsorsiumun rəhbər əməliyyat komitəsinin iclasında ilkin neftin ixracı üçün boru kəmərinin iki marşrutu seçildi. Marşrutlardan biri şimal istiqaməti olan Bakı – Qroznı – Tixoretsk – Novorossiysk, digəri isə qərb istiqaməti olan Bakı – Supsa idi. Bakı–Supsa kəməri də Gürcüstan ərazisi ilə Qara dənizə çıxırdı. Marşrutların hər ikisi Azərbaycan üçün əhəmiyyətli idi.[524]

Bu qərar bir sıra amillər və şərait nəzərə alınaraq qəbul edilmişdi. Hər şeydən əvvəl, o, texniki məsələlərin operativ həllinə imkan verirdi. Neftin Rusiya boru kəməri ilə nəqli üçün 10 və 17 km uzunluğunda olan iki yeni magistral tikilməli idi. Bu, çox xərc aparmasa da, tikintisi uzun sürə bilərdi. Bakı – Supsa neft boru kəmərini işlək vəziyyətə gətirmək üçün də vəsait və zaman lazım gəlirdi.

Hər iki marşrutdan istifadə edilməsinin siyasi baxımdan da əhəmiyyəti var idi. Bu, həm Rusiyanın, həm də Azərbaycan və Türkiyənin maraqlarına uyğun gəlirdi. Azərbaycan neftinin nəqli bir ölkə ərazisindən keçmirdi. Deməli, mümkün ola biləcək asılılıq, təzyiqlər və siyasi risklər aradan qaldırılırdı.

Marşrutların həyata keçirilməsi üçün texniki sənədlərin hazırlanması işinə başlayan Azərbaycan xarici neft şirkətləri ilə əməkdaşlığını daha da genişləndirdi. 1995-ci il noyabrın 10-da hələ 1965-ci ildə açılmış “Qarabağ” neft strukturunda ARDNŞ ilə bir qrup xarici neft şirkəti – Rusiyanın “LUKoyl”, “İtaliyanın Acip”, ABŞ-ın “Pennzoyl Kaspian Development Korporeyşn”, Rusiya və İtaliyanın ortaq şirkəti olan “Lukacip” arasında birgə iş haqqında saziş imzalandı. Bu, Xəzərin Azərbaycan sektorunda neftin hasilatına dair ikinci müqavilə idi. 427 kv.m ərazini əhatə edən və 25 il müddətinə imzalanan müqaviləyə görə, yataqdan 100-120 milyon ton neftin hasil edilməsi proqnozlaşdırılırdı. İlkin neft 2003-cü ildə hasil edilməli idi. Müqavilənin imzalanma mərasimində çıxış edən Heydər Əliyev dedi:

*“Dünyanın bu böyük ölkələrinin tanınmış neft şirkətlərinin burada, Azərbaycanda müştərək iş görmək üçün bir araya gəlməsi, bir müqavilə ətrafında toplanması iqtisadi əhəmiyyətindən əlavə, çox böyük siyasi əhəmiyyət də daşıyır. Bu onu göstərir ki, Rusiya, Amerika Birləşmiş Ştatları, İtaliya və Azərbaycan*

524 Əliyev H.Ə. “Azərbaycanda investisiya imkanları” beynəlxalq konfransına həsr olunmuş mətbuat konfransı. 29 noyabr 1995-ci il // Müstəqilliyimiz əbədidir. V kitab, s.34.

*doğrudan da iqtisadi sahədə səmərəli əməkdaşlıq edə bilərlər və bu gün bu sahədə böyük bir addım atırlar".*[525]

Müqavilə Azərbaycan tərəfindən 1996-cı il fevralın 14-də təsdiq edildi.[526]

Beləliklə, 1995-ci ilin sonları üçün Azərbaycanın neft yataqlarının mənimsənilməsinə dair kifayət qədər inkişaf etmiş beynəlxalq əməkdaşlıq sistemi yarandı. Lakin regionda siyasi qeyri-sabitlik hələ də davam etdiyindən və neft boru kəmərləri məsələsi həll olunmadığından müqavilələrin həyata keçirilməsi yubadıla bilərdi. Ona görə də Azərbaycan tərəfi neftin nəqli məsələlərini həll etməyə başladı. İlk olaraq şimal marşrutuna dair problemlər yoluna qoyuldu. 1996-cı il fevralın 18-də Moskvada Azərbaycan neftinin Rusiya ərazisindən Novorossiysk limanına nəql edilməsi haqqında müqavilə imzalandı. Bu, əslində Xəzər dənizinin hüquqi statusu məsələsində Azərbaycan tərəfinin milli sektorlara görə bölünməsinə dair mövqeyini Rusiyanın qəbul etməsi anlamına gəlirdi. Kəmərin uzunluğu 1411 km (bəzi mənbələrə görə, 1348 km) idi. Onun 174 km-i Azərbaycan, digər hissəsi isə Rusiya ərazisindən keçirdi. Boru kəməri ilə ildə 5-7 mln. ton neft nəql etmək olardı. Nəqliyyat tarifi 1000 km üçün hər 1 tona görə 15,67 dollar təşkil edirdi.[527] Artıq qeyd edildiyi kimi, bu marşrutun normal işləməsi riskli idi. Neft kəməri şəraitin qeyri-sabit olduğu Dağıstan və Çeçenistan ərazisindən keçdiyindən etibarsız hesab edilirdi. Rusiya həmin ərazilərdə hərbi əməliyyatlar aparırdı. Şimali Qafqaz regionunda terror aktları dayanmırdı. Çeçenistan hökuməti müqavilə imzalandıqdan az sonra etiraz edərək Azərbaycan neftinin tranzitində müstəqil subyekt olmaq istəyini bəyan etdi. Bu isə həlli tələb edilən yeni bir problemin yaranması demək idi.

Bundan sonra Supsa limanına qədər uzanacaq neft kəmərinin tikintisi məsələsi daha da aktuallaşdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1996-cı il martın 8-də Gürcüstana səfəri zamanı ABƏŞ, Gürcüstan Beynəlxalq Neft Korporasiyası və ARDNŞ Bakı – Batum neft boru kəmərinin tikintisi və istismarı, Batumdan Supsa limanına neft kəmərinin tikintisinə dair saziş imzaladılar. Qeyd etmək lazımdır ki, buna qədər artıq Bakı – Batum boru kəməri fəaliyyət göstərirdi. Hələ 1896-cı ildə Azərbaycan neftini Qara dəniz sahillərinə nəql edən bu boru kəməri layihəsinin həyata keçirilməsinə başlanmışdı. Uzunluğu 867 km olan və tikintisi 1906-cı ildə başa çatdırılmış bu kəmər 1907-ci ildə istismara verilmişdi.[528] Bakı – Supsa boru kəməri daha çox

525 Əliyev H.Ə. "Qarabağ" neft strukturunda ARDNŞ ilə bir qrup xarici neft şirkəti – "LUKoyl" (Rusiya), "Acip" (İtaliya), "Pennzoyl Kaspian Development Korporeyşn" (ABŞ), "Lukacip" (Rusiya-İtaliya) arasında birgə iş haqqında sazişin imzalanma mərasimində çıxış.10 noyabr 1995-ci il // Müstəqilliyimiz əbədidir, IV kitab, s.499-503.
526 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 314.
527 Бутаев А. Каспий: зачем он Западу?, с.309.
528 Arıxov C.C. Azərbaycan – Gürcüstan iqtisadi əməkdaşlığında neft amili. Bakı, 2008, s. 6-7.

Bakı – Ceyhan neft boru kəməri üçün hazırlıq mənası da daşıyırdı. Gürcüstan və Azərbaycan Bakı–Supsa neft boru kəmərini layihələndirməyə və tikintisi üçün hazırlıq işlərinə başladılar. Kəmərin ümumi uzunluğu təqribən 926 km idi. Bu, Qərb marşrutu idi. Kəmərin illik neft ötürmə imkanı 5 mln. ton idi. ABƏŞ-in rəhbər komitəsi kəmərin tikintisinə 1997-ci fevralın 28-də 315 mln. dollar vəsait ayırdı. Dünya Bankı da kəmərin tikintisi üçün Gürcüstana 1,4 mln. dollar kredit verdi.

Bakı – Supsa neft boru kəməri yüksək keyfiyyətli Azərbaycan neftinin dünya bazarlarına təhlükəsiz və başqa keyfiyyətli neftlə qarışdırılmadan çıxarılmasına imkan verirdi. Bir müddət sonra, 1996-cı ilin payızında ABƏŞ Norveçin "Kvaerner" şirkəti ilə Bakı – Batum neft boru kəmərinin bərpası üçün müqavilə imzaladı. Bərpa işlərinin gedişində boru kəməri, demək olar ki, dəyişdirildi, Batum yaxınlığındakı Supsa dəniz terminalına 150 km uzunluğunda boru kəməri tikildi.

Bütün bu işlərlə yanaşı Bakı – Ceyhan boru kəmərinin tikintisi üçün lazım olan texniki-layihə işlərinə başlanıldı. Ceyhan terminalının illik gücü 120 mln. ton idi. Əvvəllər bu terminaldan İraq nefti Avropa ölkələrinə ixrac edilirdi. İraqa qarşı sanksiyalar tətbiq edildikdən sonra terminal, demək olar ki, işləmirdi. Kəmərin tikintisi sonralar bütün region geosiyasətinin dəyişməsinə ciddi təsir edən bir amil oldu. Neft boru kəməri Azərbaycanın iqtisadi və siyasi təhlükəsizlik maraqlarına cavab verir və neftin nəqlində bir dövlətin hegemonluğuna son qoyurdu. Amma qeyd etmək lazımdır ki, Bakı – Ceyhan neft boru kəməri kommersiya baxımından əhəmiyyət kəsb etməsəydi, onun arxasında mövcud olan istənilən siyasi məqsədlərə baxmayaraq, neft şirkətləri və beynəlxalq maliyyəçilər belə bir layihənin üzərində dayanmaz, ona vəsait ayırmazdılar.

Həyata keçirilən bütün bu tədbirlər Azərbaycanın mövqelərini möhkəmləndirir, xarici neft şirkətlərinin ölkəyə olan marağını daha da artırırdı. Həmin maraq özünü 1996-cı il iyunun 4-də Bakıda açılan "Xəzərneftqaz-96" beynəlxalq sərgisində göstərdi. 20 ölkənin 190 neft və qaz şirkətinin nümayəndələrinin iştirak etdiyi sərgidə nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xəzər nefti sahəsində imzalanmış 1994-cü il 20 sentyabr tarixli "Əsrin müqaviləsi"ndən, 1995-ci ilin noyabr ayında Xəzərin Azərbaycan sektorunda "Qarabağ" adlı neft və qaz yatağının işlənilməsinə dair imzalanmış ikinci müqavilədən danışdı, neft sahəsində müxtəlif neft şirkətləri ilə qurulan əməkdaşlığı yüksək qiymətləndirdi.[529]

529 Əliyev H.Ə. Bakıda "Xəzərneftqaz -96" üçüncü beynəlxalq sərgisinin açılış mərasimində çıxış. 4 iyun 1996-cı il // Müstəqilliyimiz əbədidir. VI kitab, s. 408-411.

Sərgi açılan gün, iyunun 4-də Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" neft yatağına dair dünyanın 5 şirkəti ilə üçüncü müqavilə imzalandı. Müqaviləni Azərbaycan Respublikası, Böyük Britaniya və Şimali İrlandiya Krallığı, Norveç, Rusiya, Türkiyə, Fransa və İran şirkətləri imzaladılar. "Şahdəniz" yatağında 500 milyard $m^3$ qaz və 190 mln. ton neft ehtiyatının olduğu proqnozlaşdırılırdı. Müqavilədə nəzərdə tutulan ərazi 88 kv. km, müddəti isə 30 il idi. Paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü: "BP/Statoyl" alyansı – 51%, ARDNŞ – 10%, "LUKoyl" – 10%, "Elf Akiten" – 10%, TPAO – 9%, İranın özəl olan şirkəti OİEC – 10%.

Beləliklə, Azərbaycan tərəfi İranı da əməkdaşlığa cəlb etdi. İran şirkətinin müqaviləyə daxil edilməsi Azərbaycanın mehriban qonşuluq niyyətini və müstəqil siyasət yürütdüyünü göstərirdi. Azərbaycan dövləti Xəzər dənizində ixtilafların olmasında maraqlı deyildi.

Müqavilənin imzalanması üçün belə bir günün seçilməsi səbəbsiz deyildi. Məlum olduğu kimi, bir neçə il əvvəl, 1993-cü il iyunun 4-də Azərbaycanın dövlət müstəqilliyi təhlükə altına düşsə də, dövlət və millət həmin ağır sınaqdan qalib çıxmışdı. Üçüncü müqavilənin imzalanması ilə Azərbaycan dövləti müqavimətlərə tab gətirdiyinə və müstəqilliyinin güclü olduğuna işarə edirdi. Mərasimdə çıxış edən Heydər Əliyev müqavilənin imzalanmasını Azərbaycan Respublikasının dünya ölkələri və şirkətləri ilə müstəqil əlaqələrini nümayiş etdirən əlamətdar hadisə kimi qiymətləndirdi.[530]

Mərasimdə çıxış edən Böyük Britaniyanın energetika və sənaye naziri Timoti Eqqar[531], Rusiyanın yanacaq və energetika nazirinin birinci müavini Vladimir Kostyunin[532], BP şirkətinin vitse-prezidenti Bayqon Qrod[533], "Türkiyə Petrolları" şirkətinin prezidenti Sitqi Səncər, Fransanın "Elf Akiten" şirkətinin prezidenti Filip Jafre, İranın OİEC neft şirkətinin prezidenti Seyid Əli Əkbər Haşemi, "LUKoyl" şirkətinin vitse-prezidenti Ravil Maqanov çıxış edərək imzalanan müqavilənin əhəmiyyətini vurğuladılar.

Müqavilənin imzalanması Azərbaycan dövlətinin dünya iqtisadiyyatına inteqrasiyasına yönəldilmiş siyasətini, ölkə iqtisadiyyatının açıq olduğunu və xarici sərmayədarlar üçün əlverişli imkan yaradıldığını göstərirdi. Bununla belə, müqavilənin imzalanmasının əleyhinə olan şəxslər nəinki xaricdə, həmçinin

530 Əliyev H.Ə. "Şahdəniz" yatağının birgə işlənilməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında müqavilə imzalanması mərasimində çıxış. 4 iyun 1996-cı il // Müstəqilliyimiz əbədidir. VI kitab, s. 412.

531 Timoti Eqqar (1951) – Böyük Britaniyanın ticarət və sənaye naziri. İcmalar Palatasının üzvü (1979-1997).

532 Vladimir Kostyunun (1934) – Rusiyanın yanacaq və energetika nazirinin birinci müavini (1996-1998).

533 Bayqon Qrod (1948) – BP şirkətinin vitse-prezidenti.

Azərbaycanın daxilində də fəaliyyət göstərirdilər. Bütün müqavimətlərə baxmayaraq, müqavilə az sonra, 1996-cı il oktyabrın 4-də Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edildi.

1996-cı il avqustun 24-də suyun dərinliyində qazma işlərinin həyata keçirilməsini və neft çıxarılmasını təmin edən "Dədə Qorqud" qazma qurğusu fəaliyyətə başladı. Elə həmin gün Bakıda Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin ofisinin açılış mərasimi oldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə çıxış edərək xarici neft şirkətləri ilə əməkdaşlığın əhəmiyyətini qeyd etdi.[534]

ARDNŞ ilə ABŞ-ın "Amoko", "Yunokal", Yaponiyanın "İtoçu" və Səudiyyə Ərəbistanının "Delta" şirkətləri arasında "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının işlənilməsinə dair dördüncü müqavilə 1996-cı il dekabrın 16-da imzalandı. Onların ümumi sahəsi 453 kv. km təşkil edirdi. Müqavilənin müddəti 25 il idi. Yataqlardan 150 milyon ton neftin hasil edilməsi proqnozlaşdırılırdı. Layihənin həyata keçirilməsinə təqribən 2 milyrad dollar sərmayə qoyulması nəzərdə tutulmuşdu. Müqavilədə paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü: "Amoko" – 30%, "Yunokal" – 25,5%, "İtoçu" – 20%, ARDNŞ – 20%, "Delta" – 4,5%. Müqavilənin reallaşdırlması üçün yaradılmış konsorsium "Şimali Abşeron" adlandırıldı.

Heydər Əliyev bu müqaviləni əvvəlki üç müqavilədən daha əlverişli hesab edirdi.[535] Böyük əhəmiyyət daşıyan müqavilə, neft yataqlarının birgə işlənilməsi, ölkənin iqtisadiyyatının inkişaf etdirilməsi və xalqın rifah halının yaxşılaşdırılması üçün bir ciddi addım idi.[536] Prezidentin fikrincə, müqavilənin imzalanması Xəzər dənizinin hüquqi statusu ilə əsla bağlı deyildi, hüquqi status məsələsini hələ çox müzakirə etmək lazım idi. O, Xəzər dənizinin hüquqi statusu haqqında hər hansı bir qərarın qəbul edilməsini son dərəcə çətin, hətta əslində qeyri-mümkün hesab edirdi.[537]

Azərbaycan dövləti Xəzər dənizində qarşıdurmaya yol verməmək üçün əməkdaşlıq yoluna davam edir və neft şirkətlərini bu prosesə cəlb edirdi. Belə ki, 1997-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Fransa Prezidenti Jak Şirakın iştirakı ilə ARDNŞ-lə Fransanın "Elf Akiten" və

534 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 318.
535 Əliyev H.Ə. ARDNŞ ilə xarici neft şirkətləri arasında müqavilənin imzalanma mərasimi başa çatdıqdan sonra birgə mətbuat konfransı // Müstəqilliyimiz əbədidir. VIII kitab, s.177.
536 Əliyev H.Ə. Xəzərin Azərbaycan sektorunda "Dan ulduzu" və "Əşrəfi" yataqlarının birgə işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında müqavilə imzalanması mərasimində nitq. 14 dekabr 1996-cı il // Müstəqilliyimiz əbədidir. VIII kitab, s.167.
537 Əliyev H.Ə. Azərbaycanın və xarici ölkələrin kütləvi informasiya vasitələrinin nümayəndələri üçün bəyanat. 6 dekabr 1996-cı il // Müstəqilliyimiz əbədidir. VIII kitab, s.140.

"Total" şirkətləri arasında "Lənkəran dəniz" və "Talış dəniz" neft yataqlarının birgə işlənilməsinə dair 25 illik müqavilə imzalandı.[538] Bu, beşinci böyük müqavilə idi. Müqavilədə paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü: "Elf Akiten" – 40%, "Total" – 10%, ARDNŞ – 25%, "Deminikes" (Almaniya) – 10%, OİEC (İran) – 10%, "Portofina" (Belçika) – 5%. Bununla da 11 ölkənin tanınmış 16 neft şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda neftin hasil olunması işində əməkdaşlığa cəlb edildi.

Müqavilənin həyata keçirilməsinin böyük sosial-iqtisadi əhəmiyyəti var idi. Bu, ölkənin inkişafına ciddi təsir edir, yeni iş yerlərinin açılmasında mühüm rol oynayırdı. Belə ki, 1997-ci ilin məlumatına görə, "Əsrin müqaviləsi"nin həyata keçirilməsində 3 min nəfər azərbaycanlı çalışırdı.[539]

Heç şübhəsiz, Azərbaycanın neft siyasəti asan getmirdi. Bu yolda çoxlu çətinlikləri aradan qaldırmaq lazım gəlirdi. Türkmənistanın "Azəri" və "Çıraq" neft yataqlarına iddia etdiyi barədə xəbərlərin yayılması ilə yeni bir problem meydana çıxdı. Lakin həmin məlumatlar Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənovun və Türkmənistanın xarici işlər naziri Boris Şıxmuradovun[540] imzaladıqları birgə bəyanatda təkzib edildi. Bəyanatda tərəflərin Xəzər dənizində neft və qaz yataqlarının axtarılması və işlənilməsinə etiraz etmədikləri bildirilirdi. Eyni zamanda Azərbaycan və Türkmənistanın Xəzər dənizinin orta xəttində perspektivli strukturların müəyyənləşdirilməsi, axtarışı və istifadəsi şərtlərinin müəyyən edilməsi üzrə ikitərəfli danışıqlara başlayacaqları göstərilirdi.

İlkin neftin nəqli məsələsini müzakirə etmək məqsədi ilə 1997-ci il martın 25-27-də Moskvada ARDNŞ, ABƏŞ və Rusiyanın "Transneft" şirkəti arasında növbəti üçtərəfli görüş keçirildi. Görüşdə 1997-ci il oktyabrın 1-dən etibarən ilin sonunadək 200 min ton Azərbaycan neftinin şimal neft boru kəməri ilə nəqlinə dair razılıq əldə edildi. 7 il ərzində bu marşrut ilə 32 milyon ton neft nəql edilməli idi.

Bütün bunlar Azərbaycan Respublikasının mövqelərini möhkəmləndirir və ona olan marağı artırırdı. Həç əbəs deyildi ki, 1997-ci ilin iyunun əvvəllərində Bakıda keçirilən IV Beynəlxalq "Xəzərneftqaz – 97" sərgisi və konfransı iştirakçıların sayına və müzakirə edilən məsələlərin əhatə dairəsinin genişliyinə görə əvvəlkilərdən fərqlənirdi. Toplantıda 25 ölkəni təmsil edən 250 şirkət iştirak

538 Əliyev H.Ə. Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın Elf Akiten və Total şirkətləri arasında neft müqaviləsinin imzalanması mərasimində nitq. 13 yanvar 1997-ci il // Müstəqilliyimiz əbədidir. VIII kitab, s.243-244.

539 Əliyev H.Ə. "Əsrin müqaviləsi" üzrə layihənin rəhbər komitəsinin üzvləri və ABƏŞ ilə görüşdə giriş sözü. 28 fevral 1997-ci il // Müstəqilliyimiz əbədidir. VIII kitab, s. 470.

540 Boris Şıxmuradov (1949) – Türkmənistanın xarici işlər naziri (1995-2000).

edirdi.[541] Bu, işgüzar bir görüş olmaqla, Xəzər dənizi hövzəsi ölkələrinin və fəaliyyət göstərən neft və qaz şirkətlərinin işini əlaqələndirmək, informasiya mübadiləsi üçün əhəmiyyətli bir vasitə idi.

Azərbaycan hökuməti neft siyasətinin fəaliyyət dairəsini daha da genişləndirdi. 1997-ci ilin iyulunda Heydər Əliyevin Rusiyaya səfəri zamanı iki ölkə prezidentlərinin iştirakı ilə ARDNŞ, "LUKoyl" və "Rosneft" şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Kəpəz" yatağının işlənilməsinə dair müqavilə imzalandı. Qeyd etmək lazımdır ki, bu müqavilənin imzalanmasınadək "LUKoyl" artıq üç müqavilədə iştirak edirdi. Türkmənistan ilə sərhəddə yerləşən "Kəpəz" yatağı hələ 1959-cu ildə Azərbaycan neftçi geoloqları tərəfindən kəşf edilmişdi. Yatağın əsas hissəsi Azərbaycan, digər bir hissəsi isə Türkmənistan sektorunda yerləşirdi. Ona görə də bu yatağa sovet dövründə rusca "Promejutoçnı" (Aralıqdakı) adı verilmişdi. Türkmənistan isə həmin yatağı "Sərdar" adlandırırdı.

Səfər zamanı Xəzər dənizinin Azərbaycan sektoruna mənsub "Yalama/D-222" perspektiv strukturu ilə bağlı ARDNŞ və "LUKoyl" arasında müqavilə bağlandı. Lakin az sonra "LUKoyl" öz maraqlarını Rusiya – ABŞ birgə şirkəti olan "LUKArko"ya güzəştə getdi. Burada "LUKArko"nun 60%, ARDNŞ-in isə 40% payı var idi.[542]

Çeçenistan ərazisindən neftin nəqli məsələsi də həll edildi. İyulun 11-də Azərbaycan – Rusiya – Çeçenistan üçtərəfli sazişi imzalandı. Çeçenistan 153 km-lik çeçen sahəsindən neft boru kəmərinin təhlükəsiz keçirilməsinə razılıq verdi. Bu, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində müstəsna əhəmiyyət daşıyırdı.

Enerji sahəsində əməkdaşlıqda növbəti addım Heydər Əliyevin ABŞ-a səfəri zamanı atıldı. Səfərin gedişində, 1997-ci il avqustun 1-də "Energetika sahəsində dövlətlərarası dialoqun yaradılmasına dair saziş" və "Şevron", "Ekson" və "Mobil" ilə ARDNŞ arasında enerji emalına dair müqavilə imzalandı. "Şevron" ilə imzalanan müqavilə "Abşeron" neft yatağının kəşfi, məhsulun emalı və bölüşdürülməsi barədə idi. Yatağın ümumi sahəsi 260 kv. km-dən artıq idi. Müqavilədə "Şevron"un payı 30%, ARDNŞ-in payı 50% təşkil edirdi. Qalan 20% isə Fransanın "Total" şirkətinə verilmişdi.

"Mobil" şirkəti ilə "Oğuz" yatağının istismarına dair müqavilə imzalandı. Yatağın sahəsi 225 kv. km idi. Burada paylar bərabər bölünmüşdü.

"Ekson" şirkəti ilə "Naxçıvan" yatağına dair müqavilə imzalandı. Yatağın sahəsi 180 kv. km idi. Bu layihədə də paylar bərabər bölüşdürülmüşdü.

541 Əliyev H.Ə. "Xəzərneftqaz-97" 4-cü Beynəlxalq sərgisinin və konfransının açılışı mərasimində nitq. 3 iyun 1997-ci il // Müstəqilliyimiz əbədidir. X kitab, s.39.

542 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 320.

Səfər amerikan hökumətinin region siyasətinin dəyişməsinə ciddi təsir etdi. ABŞ hökuməti Xəzər dənizinin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasına dair mövqeyini qəti və aydın şəkildə bəyan etdi. ABŞ çoxlu boru kəmərlərinin olması ideyasını müdafiə edirdi; kommersiya baxımından həyat qabiliyyətli olan üç marşrutun nəzərdən keçirilməsində fayda görürdü; Bakıdan başlayıb Gürcüstan ərazisi ilə Qara dəniz sahilinə və Qafqazdan keçərək Türkiyənin Ceyhan limanına gedən neft boru kəmərlərinin tikintisini müdafiə edirdi; Qazaxıstandan başlayıb Bakı – Ceyhan boru kəməri ilə birləşən yerədək uzanan Transxəzər neft boru kəmərini dəstəkləyirdi; Türkmənistanın və digər ölkələrin qazını Azərbaycan vasitəsi ilə nəql etmək üçün Transxəzər qaz boru kəmərinin tikintisini müdafiə edirdi.[543]

Bakı – Ceyhan boru kəməri Bosfor boğazı ilə daşımaların alternativi idi. Türkiyə boğazlardan neftin daşınmasının əleyhinə olub, Bakı – Ceyhan ixrac neft boru kəməri ideyasını müdafiə edir, Qara dəniz boğazlarının neft daşınan yola çevrilməsini istəmirdi. Belə mövqeyində Türkiyə haqlı idi. Çünki neftin boğazlardan davamlı daşınması həm ekoloji baxımdan təhlükəli idi, həm də hər hansı qəza baş verəcəyi təqdirdə İstanbul əhalisinin həyatının təhlükə altına düşməsinə gətirərdi. Qəzanın nəticələrini aradan qaldırmaq çətin olardı.

Azərbaycan da birmənalı olaraq bir neçə neft boru kəmərinin tikintisinə tərəfdar idi. Bununla əlaqədar olaraq Heydər Əliyev deyirdi:

*“Enerji ehtiyatlarının dünya bazarına, Qərbə ixrac edilməsi üçün bir çox neft kəmərlərinin çəkilməsi, o cümlədən Orta Asiyadan, Mərkəzi Asiyadan Xəzər vasitəsilə Qərbə neft kəmərlərinin çəkilməsi qarşıda duran vəzifələrimizdəndir”.*[544]

Beləliklə, 1997-ci ilədək Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsinə dair dünyanın neft şirkətləri ilə 9 müqavilə imzalandı. Neftin ixracı yolları barədə ölkələrin mövqeləri qəti olaraq aydınlaşdı. Azərbaycanın mövqeyi Qərbin böyük dövlətlərinin əksəriyyəti tərəfindən müdafiə edilirdi.

Mövqeləri möhkəmlənən Azərbaycan neft srtategiyasını daha qətiyyətlə davam etdirdi. 1997-ci ilin sentyabrında Heydər Əliyevin İtaliyaya səfəri zamanı 10-cu müqavilə “Acip” şirkəti ilə imzalandı. Bu müqavilədə nəzərdə tutulmuş sərmayə təqribən 30 milyard dollar təşkil edirdi.

Azərbaycan qonşu dövlətlərlə neft siyasəti sahəsində olan bəzi çətinlikləri aradan qaldırmaq üçün səylərini genişləndirdi və həmin məqsədlə ABŞ-ı məsələnin həllinə daha yaxından cəlb etdi. Heydər Əliyevin ABŞ-a səfəri zamanı bu məsələlər prinsipcə həll edildi. Gürcüstan Prezidenti Eduard Şevardnadze,

543 Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir. Bakı, 2004, s.77.
544 Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində, s. 71.

Türkiyənin Baş naziri Məsud Yılmaz[545] və Türkmənistan Prezidenti Saparmurad Niyazov[546] 1997-ci ildə ayrı-ayrılıqda ABŞ-a dəvət edildilər. Səfərlər zamanı Avrasiya enerji dəhlizinə dair məsələlər geniş müzakirə edildi. ABŞ tərəfi bir daha müxtəlif, çoxşaxəli neft boru kəmərləri ideyasını müdafiə etdi. ABŞ hökuməti İran ərazisindən boru kəmərinin keçirilməsinə dair narahatlığı barədə Türkmənistanın rəsmi nümayəndələri ilə danışıqlar apardı. Xəzər dənizi hövzəsinin enerji ehtiyatlarının tez mənimsənilməsinin Qafqaz və Orta Asiya dövlətlərinin müstəqilliyi və çiçəklənməsi üçün böyük həyati əhəmiyyət daşıdığı bildirildi.[547]

Səfərlər və keçirilən müzakirələrin nəticələri Azərbaycanın mövqelərini gücləndirdiyindən əhəmiyyət daşıyırdı. Bu, Azərbaycanın bölgədə rolunun artdığını, yerinin möhkəmləndiyini və dünya dövlətləri üçün vacibliyini göstərirdi.

1997-ci ilin noyabr ayında Azərbaycanın neft strategiyasının həyata keçirilməsində mühüm bir hadisə baş verdi. Noyabrın 12-də Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə müştərək işlənilən "Çıraq" yatağından ilkin neft çıxarıldı. Bu, Azərbaycan Respublikasında ikinci neft bumunun başlanmasından xəbər verir və enerji siyasətinin böyük perspektivlərinin olduğunu göstərirdi. Bu münasibətlə Azərbaycanda keçirilən toplantıda Gürcüstan Prezidenti Eduard Şevardnadze, Türkiyənin Baş naziri Məsud Yılmaz, Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsov[548], ABŞ-ın energetika naziri Federiko Pena[549], Böyük Britaniyanın xarici işlər naziri Derik Façet[550], Ukrayna Baş nazirinin birinci müavini Anatoli Qolubçenko, Özbəkistan Baş nazirinin müavini Kayum Xakulov, Norveçin energetika və sənaye nazirinin müavini Hokon Gil, Almaniya, Yaponiya və Qazaxıstanın, Avropa komissiyasının nümayəndələri və b. rəsmi şəxslər iştirak edirdilər.[551]

"Çıraq" yatağından çıxarılan ilkin neft şimal boru kəməri ilə Novorossiysk limanına axıdıldı. Qeyd etmək lazımdır ki, bu kəmərin yararlı hala gətirilməsi üçün 1996-1997-ci illərdə 55 mln. dollar vəsait xərclənmişdi.

Frederiko Pena neftin nəqli üçün yeni əsas boru kəmərinin – Bakı ilə Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanını birləşdirəcək boru kəmərinin tikiləcəyini bildirdi. O, Bill Klintonun adından bölgə dövlətlərinin lider-

545 Məsud Yılmaz (1947-2020) – Türkiyənin xarici işlər naziri (1987-1990). Baş nazir (1991, 1996, 1997-1999).
546 Saparmurad Niyazov (1940-2006) – Türkmənistan Prezidenti (1990-2006).
547 Госдепартамент об енергоресурсах Туркменистана и Ирана // ЮСИА, 1997, 9 сентября.
548 Boris Nemtsov (1959-2015) – Rusiya Federasiyası hökuməti sədrinin müavini (1997-1998).
549 Federiko Pena (1947) – ABŞ-ın nəqliyyat naziri (1994-1997). Energetika naziri (1997-1998).
550 Derik Façet (1945-1999) – Böyük Britaniyanın xarici işlər naziri (1997-1999).
551 Əliyev H.Ə. Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə müştərək işlənilən neft yataqlarından ilkin neftin çıxarılması münasibətilə təntənəli mərasimdə nitq. 12 noyabr 1997-ci il // Müstəqilliyimiz əbədidir. XIII kitab. Bakı, 2004, s. 181-198.

lərinə Transxəzər və Bakı – Ceyhan boru kəmərlərinə olan münasibətlərini 1998-ci ilin oktyabrına qədər dəqiqləşdirməyi təklif etdi. Bu tarixdə Türkiyədə Cümhuriyyətin qurulmasının 75 illiyinə həsr edilmiş tədbirlər zamanı müvafiq sənədlərin imzalanması nəzərdə tutulurdu.

Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlardan neftin çıxarılmasına bəzi ölkələr etirazlarını davam etdirirdilər. İlkin neftin çıxarılmasının əleyhinə olan İranın BMT-dəki daimi nümayəndəsi təşkilatın baş katibi Kofi Annana[552] məktub göndərərək Azərbaycanın enerji ehtiyatları üzərində haqq iddia etməsini və birtərəfli qaydada istismara başlamasını sahilyanı dövlətlər arasında əldə edilmiş razılaşmalara və Xəzərin statusuna zidd adlandırdı. İran hökuməti Azərbaycana qəti şəkildə etiraz etdi.[553] Azərbaycan isə həmin əsassız etirazlara məhəl qoymayaraq qanuni işlərini davam etdirdi.

Bu zaman Bakı – Supsa neft boru kəmərinin işə düşməsi üçün hazırlıq işləri aparılırdı. Bakı – Ceyhan neft boru xəttinin tikintisi haqqında qərar isə artıq qəbul edilmişdi. Bakı – Ceyhan neft boru kəməri layihəsi ABŞ və Türkiyə tərəfindən fəal müdafiə olunsa da, qatı əleyhdarları da fəaliyyət göstərir, həyata keçirilməsinə hər vəchlə mane olmağa çalışırdılar. Onlardan biri Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin idi. Boris Yeltsin neft boru kəmərinin Rusiya ərazisindən keçirilməsinə bütün vasitələrlə çalışırdı. Nəticədə, 1997-ci ilin sonları – 1998-ci ilin əvvəllərində regionda yenidən təhlükəli hadisələr cərəyan etməyə başladı. Artıq qeyd edildiyi kimi, Levon Ter-Petrosyan neft boru kəmərinin Ermənistan ərazisindən keçirilməsi ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında mümkün kompromisləri müzakirə edirdi. Lakin bu məsələ Ermənistan hakimiyyətində ixtilaflar yaratdı. Əvvəlcə Levon Ter-Petrosyanın mühafizəsinin rəisini öldürdülər, özünü isə ölümlə hədələdilər. O, istefaya getməyə məcbur oldu. Mart ayında hakimiyyətə Azərbaycanın Dağlıq Qarabağ regionunda azərbaycanlıların soyqırımında və etnik təmizləmə siyasətində xüsusi rol oynamış Robert Koçaryan[554] gəldi.

1998-ci il fevralın 9-da Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə sui-qəsd edildi. O, yalnız təsadüf nəticəsində sağ qaldı. Eduard Şevardnadzeyə qarşı sui-qəsd cəhdi ilk dəfə hələ 1995-ci ildə olmuşdu. Bu, neft məsələsində oynanılan böyük oyunda qaba bir metod idi. Sonralar Eduard Şevardnadze xatirələrində yazırdı ki, Boris Yeltsin ona sui-qəsddən sonra xəstəxanada olarkən zəng edib sağ qalması münasibəti ilə təbrik edir və birdən-birə Xəzər dənizi nefti məsələ-

552 Kofi Annan (1938-2018) – Qanalı diplomat. Birləşmiş Millətlər Təşkilatının 7-ci baş katibi (1997-2006). Nobel sülh mükafatı laureatı (2001).

553 Nəsibli N. Azərbaycanın geopolitikası və neft. Bakı, 2000, s.35.

554 Robert Koçaryan (1954) – Ermənistan Respublikasının 6-cı baş naziri (1997-1998). Ermənistanın 2-ci Prezidenti (1998-2008). I Qarabağ müharibəsində Azərbaycan xalqına qarşı törədilmiş çoxsaylı cinayətlərin, qırğınların və soyqırımlarının təşkilatçısı, terrorçu.

sini müzakirə etmək istədiyini bildirir. Gürcüstan Prezidentinə müraciətlə "siz Xəzər neftini və qazını Qərbə nəql etmək istəyirsiniz. Siz bilməlisiniz ki, neftin nəqli Gürcüstandan keçməyəcəkdir", - deyir. Eduard Şevardnadze bunun səbəbini soruşduqda Boris Yeltsin "enerji daşıyıcıları Gürcüstandan deyil, Rusiyadan nəql ediləcəkdir" cavabını verir. Eduard Şevardnadze isə "Gürcüstanın nefti və qazı yoxdur, kim Gürcüstan ərazisindən boru kəmərlərinin çəkilişini istəsə, biz etiraz etməyəcəyik", - deyərək məsələyə münasibətini bildirir.[555]

Bu hadisədən sonra Eduard Şevardnadze Heydər Əliyev ilə daha da yaxınlaşaraq ölkəsinin problemlərinin həllinə, Bakı – Ceyhan neft boru kəmərinin ölkəsinin ərazisindən keçməsinə daha ciddi səylərlə çalışdı. Baş verən proseslər enerji mənbələri və nəqli uğrunda dövlətlər arasında gərgin mübarizənin, Cənubi Qafqazda yeni müharibə təhlükəsinin artmasının getdikcə şiddətlənməsinin təzahürü olub, Bakı – Ceyhan neft boru kəmərinin reallaşdırılmasının əleyhinə çevrilmişdi.

Neft boru kəmərinin Gürcüstan ərazisindən keçməsinə mane olmağa çalışan qüvvələr digər vasitələrə də əl atdılar. "Dünyanın dostları" adlı beynəlxalq qeyri-hökumət təşkilatları Bakı – Tbilisi – Ceyhan neft boru kəmərinin əleyhinə geniş kampaniyaya başladılar. Onların fəaliyyətinin başlıca məqsədi kəmərin tikintisi üçün beynəlxalq maliyyə təsisatları tərəfindən ayrılacaq vəsaitin dondurulması və dünya ictimaiyyətinin vasitəsi ilə neft boru kəmərinin tikintisinə əngəl olmaq idi.

Azərbaycana edilən təzyiqlər nəticəsini vermədi. Azərbaycan, Türkiyə və Gürcüstan 1998-ci il mayın 15-də Bakı – Tbilisi – Ceyhan neft boru kəmərinə dair niyyət protokolu imzaladılar. İrəliyə doğru ciddi bir addım olan bu sənədin imzalanmasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müstəsna xidmətlərinin olduğunu vurğulayan ABŞ-ın energetika naziri Federiko Pena az sonra, mayın 27-də İstanbulda keçirilən beynəlxalq toplantı zamanı keçirdiyi mətbuat konfransında dedi:

*"Azərbaycan Prezidenti Heydər Əliyev boru kəmərinə münasibətdə qəti mövqe tutaraq Bakı – Ceyhan xəttini, Transxəzər boru kəmərləri tikintisi layihəsini müdafiə edir".*[556]

Niyyət protokolu imzalandıqdan sonra layihənin maliyyələşdirilməsi məsələlərinin həll edilməsi aktuallaşdı. May ayının 27-də İstanbulda 14 ölkənin 150-dən çox kompaniyasının təqribən 750 nümayəndəsinin iştirakı ilə açılan Xəzər dənizi regionunun potensial imkanlarının müzakirəsinə həsr edilmiş

555 Шеварднадзе Э. Когда рухнул железный занавес. Встречи и воспоминания / Пер. с немецкого. М., 2009, с. 397-398.
556 Выступление министра Пеньи на пресс-конференции в Стамбуле 27 мая. // ЮСИА, 1998, 3 июня.

beynəlxalq konfransın təşkilatçıları ABŞ Ticarət və İnkişaf Agentliyi, Ticarət, Energetika nazirlikləri və Dövlət Departamenti idi. Konfransın başlıca məqsədi müxtəlif layihələrin həyata keçirilməsində ABŞ ilə region ölkələri arasında qarşılıqlı faydalı əlaqələrin qurulması idi. ABŞ Ticarət və İnkişaf Agentliyinin direktoru Cozef Qrandmeyson konfransı açaraq bildirdi ki, Xəzər və Qara dənizləri rayonunda sabitlik, təhlükəsizlik və ətraf mühitin vəziyyəti regionun enerji ehtiyatlarından tam istifadədən asılı olacaqdır.[557]

Türkiyənin təbii sərvətlər və energetika naziri Cumhur Ersümer[558] isə çıxışında tarixi əlaqələri və coğrafi vəziyyətləri ilə bağlı olan dövlətlərin boru kəmərləri vasitəsilə birləşəcəklərinə ümidini ifadə etdi.

Konfransın keçirildiyi üç gün ərzində sərmayədarlar və regionun inkişafı proqramının təşkilatçıları arasında minə qədər görüş oldu.[559] Dəyəri 20 milyard dollardan çox olan 65 layihə təqdim edildi.[560] Layihə müəllifləri ABŞ-dan olan 800 sərmayədar ilə görüşdülər. ABŞ-ın energetika naziri Federiko Pena yeni Xəzər təşəbbüsünün başlanması barədə məlumat verdi. O, üç müstəqil ticarət və sərmayə təşkilatına – Xaricdə Xüsusi Sərmayələr Korporasiyasına (OPİK), ABŞ-ın İdxal-İxrac Bankına və Ticarət və İnkişaf üzrə Agentliyinə ABŞ hökuməti adından müraciət edərək Xəzər dənizi hövzəsində layihələrin həyata keçirilməsinə konkret kömək etməyə çağırdı, Bakı – Ceyhan neft boru kəməri layihəsini müdafiə etdi, İran ərazisindən boru kəmərinin keçməsinə hökumətinin etiraz etdiyini bildirdi, Xəzər dənizinin hüquqi statusunun tezliklə müəyyənləşdirilməsinin vacibliyini vurğuladı. ABŞ hökumətinin Bakı – Ceyhan neft boru kəməri layihəsini müdafiə etməsinin bir səbəbi də Qara dəniz boğazlarında yaranmış ağır vəziyyətlə əlaqədar idi. Hər il orada baş verən bir neçə qəza hadisəsi ətraf mühit üçün təhlükə törədirdi.

Federiko Pena və ABŞ Prezidentinin yeni müstəqil dövlətlərə yardım məsələləri üzrə köməkçisi Riçard Morninqstar[561], ABŞ Prezidentinin xüsusi köməkçisi və Milli Təhlükəsizlik Şurasında Rusiya, Ukrayna və Avrasiya məsələləri şöbəsinin müdiri Uilyam Kortni və Ticarət Nazirliyinin müşaviri Yan Kalitski keçirdikləri mətbuat konfransında bildirdilər ki, ABŞ tərəfi İran istisna olmaqla, Xəzər dənizi regionundan iqtisadi və ticarət əhəmiyyətli boru kəmər-

557 Джозеф Меллот. Конференция “Перекрестки мира” открывается в Стамбуле // ЮСИА, 1998, 30 мая.

558 Cumhur Ersümer (1952) – Türkiyənin enerji və təbii ehtiyatlar naziri (1999-2001). 18, 20 və 21-ci dönəmlər TBMM üzvü.

559 Джозеф Меллот. Конференция “Мировые перекрестки” завершила свою работу. Начинается претворение ее решений в жизнь // ЮСИА, 1998, 3 июня.

560 Джозеф Меллот. От громких заявлений к упорной работе – таков настрой участников конференции “Мировые перекрестки” // ЮСИА, 1998, 2 июня.

561 Riçard Morninqstar (1945) – ABŞ Prezidentinin köməkçisi. Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfir (2012-2015).

lərinin tikintisinə kömək edəcəkdir. ABŞ alternativ boru kəmərlərinin tikintisini vacib hesab edirdi. Riçard Morninqstarın fikrincə, alternativ boru kəmərləri region ölkələrinin suverenliyini və müstəqilliyini möhkəmləndirəcək, onların təbii sərvətlərinin dünya bazarlarına çıxarılmasına imkan verəcəkdi. Alternativ boru kəmərinin keçirilməsini nəzərdə tutan ölkələr siyahısında ABŞ hökuməti Türkiyəyə xüsusi yer verirdi.

Konfransın keçirilməsinin böyük əhəmiyyəti oldu. Hər şeydən əvvəl, bu konfrans Xəzər dənizi regionuna sərmayə qoyuluşunu artırmaqda təsirli rol oynadı. Xəzər regionunun enerji ehtiyatlarının nəqli məsələsində ABŞ-ın mövqeyi bir daha aydın oldu.

Toplantının gedişində OPİK Transxəzər boru kəmərinin tikintisinə yardım məqsədi ilə Cənubi Qafqaz fonduna 30 milyon dollar vəsait ayırdı.[562] Ayrılan vəsait əsasən infrastrukturun qurulması və inkişafı üçün nəzərdə tutulmuşdu.

Konfransdan az sonra, 1998-ci il iyunun 2-də Xəzər dənizinin Azərbaycan sektorundakı "Kürdaşı" dəniz blokunun və qurudakı "Cənub-Qərbi Qobustan", "Kürsəngi-Qarabağlı" bloklarının birgə işlənilməsi haqqında ARDNŞ ilə İtaliyanın "Acip", Yaponiyanın "Mitsui", Türkiyənin TPAO, Böyük Britaniya və Kanadanın "Komonvels Oyl ənd Qaz", ABŞ-ın "Frontera Resourses", "Amirada Hess", "Yunion Teksas", Səudiyyə Ərəbistanının "Delta" şirkətləri arasında müqavilələr imzalandı. "Kürdaşı" dəniz bloku üç strukturdan – Kürdaşı, Araz dəniz və Kurqan dənizdən ibarət idi. Blokun sahəsi 550 kv. km təşkil edirdi. Müqavilənin operatoru İtaliyanın "Acip" şirkəti idi. Paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü: ARDNŞ – 50%, "Acip" – 25%, "Mitsui" – 15%, TPAO – 5%, "Pennzoyl" – 5%.

Quruda yerləşən "Cənub-Qərbi Qobustan" yatağı "Şimal", "Mərkəz" və "Sahil" bloklarından ibarət idi. Burada paylar iştirakçılar arasında belə bölüşdürülmüşdü: ARDNŞ – 20%, "Komonvels Oyl ənd Qaz" – 40%, "Yunion Teksas" – 40%.

"Kürsəngi/Qarabağlı" yatağının işlənməsinə dair sazişdə paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü: ARDNŞ – 50%, "Frontera Ressourses" – 30%, "Delta/Hess" – 20%.

Azərbaycanın enerji diplomatiyasında növbəti addım 1998-ci il iyulun 19-21-də Heydər Əliyevin Böyük Britaniyaya səfəri zamanı atıldı. Səfərin gedişində 3 əhəmiyyətli sənəd imzalandı.[563] "Muradxanlı", "İnam", "Araz", "Alov", "Şərq" yataqları barədə "Remko" şirkəti ilə imzalanan müqavilələr böyük əhəmiyyətə malik

562 ОПИК выделяет 30 млн. долларов на поддержку Закавказского фонда // ЮСИА, 1998, 2 июня.

563 Мусаева Г.М. Нефтяной фактор в азербайджанской политике Великобритании: история и современность // Вопросы национальных и федеративных отношений. М., 2019. Т.9, № 10 (55), с. 1771.

idi. Quruda yerləşən “Muradxanlı” bloku üç – “Muradxanlı”, “Cəfərli” və “Zərdab” strukturlarından ibarət idi. Hər üç yatağın ümumi neft ehtiyatı 13 milyon ton qiymətləndirilirdi. Müqaviləyə əsasən “Remko” ilə ARDNŞ arasında paylar bərabər bölüşdürülmüşdü. “Muradxanlı” yatağında qazılan quyu qurudakı yataqdan Azərbaycana gəlir gətirəcək ilk quyu olacaqdı.[564]

“İnam” yatağının sahəsi 225 kv. km idi. Buraya qoyulan sərmayə 1,5 milyard dollar təşkil edirdi. Paylar iştirakçılar arasında belə bölüşdürülmüşdü: ARDNŞ – 50%, “Amoko” – 25%, “Monument Resorses” – 12%, “Sentral Fyuel” – 12,5%.

Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan 120 km məsafədə cənub-şərqdə yerləşən “Araz”, “Alov”, “Şərq” yataqları üzrə müqavilədə paylar aşağıdakı kimi idi: ARDNŞ – 40%, TPAO – 10%, BP – 15%, “Statoyl” – 15%. Qalan 20%-in sahəsi isə hələ müəyyənləşdirilməmişdi.

Bu zaman bəzi dairələr Bakı – Ceyhan neft boru kəməri layihəsinin baha olduğunu bəhanə gətirərək həyata keçirilməsinə mane olmağa çalışırdılar. Neft müqavilələrini maliyyələşdirən Beynəlxalq Əməliyyat Şirkəti, konsorsium Bakı – Ceyhan neft boru kəmərini dəstəkləmir, Bakı – Supsa kəmərinin Bakı – Ceyhandan 1 milyrad dollar ucuz olacağını deyirdilər. Onların fikrincə, neft Supsadan tankerlərlə Türkiyənin Bosfor boğazındakı Karıkgöl limanına çatdırılmalı, oradan isə 50 km uzunluğundakı neft borusu ilə Mərmərə dənizinə çıxarılmalı idi.

Konsorsiuma daxil olan şirkətlər də Bakı – Supsa neft boru kəmərinə üstünlük verdiklərini bəyan etdilər. Onlar da Bakı – Ceyhan neft boru kəmərinin bahalı olduğunu, bu kəmərə vurulacaq kifayət qədər neftin olmadığını, yalnız Qazaxıstan nefti əlavə edilərdisə boru kəmərinin tikintisinin mümkün olacağını bildirirdilər. Şirkət nümayəndələrinin fikrincə, neftin nəqli ticarət işi olduğundan xərclərini ödəməli idi.

BP şirkəti boğazların daha çox yüklənməməsi üçün iki yol təklif edirdi: birincisi, neftin Supsadan tankerlərlə İstanbul – Sakarya arasında bir bölgədən keçən boru xətti ilə İzmit körfəsindəki anbarlara vurulması, ikincisi, Qara dənizdən gələn tankerlərin yükünün Trakyadan başlayan boru xətti ilə İzmirdəki Əliağa anbarlarına daşınması.[565]

BP-nin Bakı – Ceyhan layihəsinin həyata keçirilməsinin əleyhinə çıxması vəziyyəti ağırlaşdırırdı. Konsorsium bir neçə ay əvvəl layihə üçün xərcləri əgər 2,9 milyard dollar hesablamışdısa, son olaraq 3,7 milyard dollar hesabladı. Bu hesablama Azərbaycanda etirazla qarşılandı. Qısa bir müddətdə bu qədər fərqin

564 Əliyev H.Ə. Böyük Britaniyanın Ramko şirkətinin rəhbərləri ilə görüşdə söhbət. 16 fevral 1999-cu il // Müstəqilliyimiz əbədidir. XIX kitab. Bakı, 2006, s.179-180.
565 Bakü – Ceyhan’da son oyun // “Radikal” gazetesi , İstanbul, 1998 , 24 Ekim.

əmələ gəlməsi narahatlıq doğururdu.[566] Şirkətlərin rəhbərləri öz ölkələrinin rəsmi dairələrinə Bakı – Ceyhan neft boru kəmərinin bahalı olduğunu deyirdilər.[567] Onlar daha ucuz yolların olduğu qənaətində idilər.[568] Bu zaman "The Wall Street Journal" yazırdı ki, Türkiyə nə etsə belə, şirkətlər neft və qazın başqa yollarla daşınmasına hazırlaşırlar. Azərbaycan neftinin, hətta Qara dənizdən Rumıniyaya daşınması variantı üzərində də müzakirə aparılırdı.

Şirkətlərin belə mövqeyi neftin nəqlinin Bakı – Novorossiysk neft boru kəməri ilə axıdılmasına üstünlük verilməsi demək idi. Bu isə son nəticədə Azərbaycana siyasi təzyiqlərinin artmasına gətirə, enerji diplomatiyasının həyata keçirilməsinə mane ola və dövlət müstəqilliyinə təhdidlər yarada bilərdi.

Belə bir şəraitdə, 1998-ci ilin sentyabrında Rusiya Dövlət Duması BMT Baş katibinə müraciət edərək Türkiyənin cənub-şərqində müharibənin dayandırılmasına və kürdlərin maraqlarının yerinə yetirilməsinə dair çağırış etdi.[569] Bu, təkcə Türkiyənin daxili işlərinə kobud şəkildə qarışmaq deyil, eyni zamanda neft boru kəmərinin Türkiyə ərazisindən keçirilməsinə qarşı olması demək idi.

Narahatlıq doğuran məsələlərdən biri, qeyd edildiyi kimi, BP şirkətinin mövqeyi idi. Bu isə işlərin irəli aparılması yolunda əngələ çevrilmişdi. Məsələni zamanında həll etmək lazım gəlirdi. Ona görə də Türkiyənin enerji və təbii sərvətlər naziri Cumhur Ərsümər Bakıya səfər etdi. Səfərdə başlıca məqsəd BP-nin mövqeyini dəyişmək idi.[570] Keçirilən müzakirələrdə Azərbaycanın və Türkiyənin tutduğu qəti mövqe konkret nəticəsini verdi.

Bundan az sonra, 1998-ci il oktyabrın 22-də ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Samuel Berger[571] və prezidentin Xəzər enerji məsələləri üzrə xüsusi müşaviri Riçard Morninqstar ABŞ neft şirkətlərinin rəhbərləri ilə görüşərək Bakı – Ceyhan neft boru kəmərinin tikintisinin vacibliyini onların diqqətinə çatdırdılar. ABŞ hökumətinin belə yanaşması Azərbaycanın mövqeyini möhkəmləndirirdi.

Azərbaycan tərəfi də bəzi tədbirlər gördü. Heydər Əliyev oktyabrın 27-də konsorsiumun rəhbərlərini qəbul edərək Azərbaycanın neft boru kəməri məsələsində qəti mövqe tutduğunu, Bakı – Ceyhan neft boru kəmərinə üstünlük verdiyini birmənalı olaraq bildirdi. Heydər Əliyev "bizim üçün siyasət ticarətdən öndə gəlir" – dedi.[572]

566 Bakü – Ceyhan"a BP mühalif // "Milliyet" gazetesi, İstanbul, 1998, 6 Kasım.
567 Yalçın Doğan. Petrolçülerin oyunu // "Milliyet" gazetesi, İstanbul, 1998, 11 Kasım.
568 Zafer Atay. Hazar oyunu // "Dünya" gazetesi, İstanbul, 1998, 12 Kasım.
569 Mahmut Torpakçıoğlu. Bir hain plan. // "Öncü" gazetesi, İstanbul, 1998, 14 Eylül.
570 Güntay Şimşek. Bakü – Ceyhan'da politik çukur //"Zaman" gazetesi, İstanbul, 1998, 19 Ekim.
571 Samuel Berger (1945) – ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri (1997-2001).
572 Aliyev: konsorsiyumu takmam // "Milliyet" gazetesi, İstanbul, 1998, 31 Ekim.

Azərbaycan dövlətinin mövqeyi Rusiyanın əleyhinə getmək, ABŞ-ın regiondakı strateji maraqlarını, Türkiyənin iqtisadi mənfəətlərini yerinə yetirmək deyil, ilk növbədə Azərbaycanın maraqlarının təmin edilməsinə yönəlmişdi. Çoxtərəfli beynəlxalq iqtisadi siyasət və şaxələndirilmiş neft boru kəmərləri siyasətini seçməklə Azərbaycan dövləti aşağıdakı konkret məqsədləri güdürdü: Azərbaycanın dövlət müstəqilliyini tam təmin etmək üçün əlverişli beynəlxalq şərait yaratmaq; neftin dünya bazarlarına çıxarılması məsələsində heç bir ölkədən asılı olmamaq; xarici təzyiqləri azaltmaq; Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsində ayrı-ayrı dövlətlərin təzyiqlərini zəiflətmək; Azərbaycanı eksperimentlər və qarşıdurmalar meydanına çevirməmək, əməkdaşlıq üçün cəlbedici edərək sosial-iqtisadi problemləri həll etmək; ölkəni inkişaf etdirmək; xalqın həyat şəraitini yaxşılaşdırmaq.

Beləliklə, 1998-ci ilin oktyabr ayının sonuna kimi, dövlətlərin boru kəmərinə dair mövqeləri dəqiqləşdi. Onlar Azərbaycan Respublikasının siyasətini müdafiə etdilər.

Türkiyə Cümhuriyyətinin qurulmasının 75 illiyi münasibəti ilə keçirilən toplantıda iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev oktyabrın 28-də ABŞ Prezidenti Bill Klintonun Xəzəryanı bölgə üzrə xüsusi nümayəndəsi, səfir Riçard Morninqstar ilə görüşərək Bakı – Tbilisi – Ceyhan neft boru kəməri məsələsi barədə fikir mübadiləsi etdi. Görüşdə Bill Klintonun məktubu Heydər Əliyevə təqdim edildi.[573] Riçard Morninqstar Bakı – Tbilisi – Ceyhan neft boru kəmərinin tikintisinə dair ABŞ-ın cəhdləri və səyləri barədə danışaraq "bu məsələnin həllində aparıcı rol oynayan Azərbaycandır" – dedi.[574] Azərbaycan tərəfi şirkətlərin mövqeyinin ziyanlı olduğunu bildirdi. Riçard Morninqstar şirkətlərin rəhbərləri ilə danışmaq üçün 15 gün vaxt istədi. Bu zaman ABŞ-ın vitse-prezidenti Albert Qor Süleyman Dəmirələ məktub göndərərək Bakı – Ceyhan boru kəmərinin tikintisini istədiklərini bildirdi.

Türkiyədə toplantı çərçivəsində Heydər Əliyev Türkmənistan Prezidenti Saparmurad Niyazov ilə də görüşdü. Saparmurad Niyazov Xəzər dənizini sektorlara bölməyi, özü də təkcə səthini deyil, hər şeyi bölməyi təklif etdi.[575] Bildirdi ki, Azərbaycan və Türkmənistan Xəzərin bir qarış hissəsinə görə bir-biri ilə çəkişməyəcəkdir. Prezidentlər iki ölkənin ekspertlərinin Xəzər dənizinin hüquqi statusuna dair danışıqlara yenidən başlamaq barədə razılığa gəldilər. Saparmurad

573 Bakü – Ceyhan tehlikede // "Zaman" gazetesi, İstanbul, 1998, 19 Ekim.
574 Əliyev H.Ə. ABŞ Prezidenti Bill Klintonun Xəzəryanı bölgə üzrə xüsusi nümayəndəsi, səfir Riçard Morninqstar ilə görüşdəki söhbətdən. 28 oktyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 89-115.
575 Əliyev H.Ə.Türkmənistan Prezidenti Saparmurad Niyazovla görüşdəki söhbətindən. 29 oktyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 89-118.

Niyazov hansısa qüvvələrin Azərbaycan ilə Türkmənistan arasında münasibətləri pozmaq cəhdlərinin baş tutmayacağını da vurğuladı.

Səfər zamanı Heydər Əliyev Türkiyənin Baş naziri Məsud Yılmaz ilə görüşərək Bakı – Tbilisi – Ceyhan neft boru kəmərinin tikintisi məsələsində qəti qərara gəldilər.[576] Onlar geriyə dönüşün mümkün olmadığını və növbəti mərhələyə keçdiklərini bildirdilər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov, Türkiyə Respublikasının Baş naziri Məsud Yılmaz, ABŞ-ın energetika naziri Bill Riçardson[577] 1998-ci il oktyabrın 29-da Xəzər dənizi – Aralıq dənizi (Bakı – Tbilisi – Ceyhan) boru kəməri layihəsini əsas ixrac neft boru kəmərinə çevirmək barədə qəti qərara gələrək, 6 bənddən ibarət Ankara bəyannaməsini imzaladılar.[578] Türkmənistan Prezidenti bu bəyannaməni imzalamadı. Bəyannamədə Xəzər dənizi – Aralıq dənizi (Bakı – Tbilisi – Ceyhan) boru kəməri layihəsinin əsas ixrac neft boru kəmərinə çevrildiyi vurğulanır, Qara dənizin, Aralıq dənizi sahillərinin, habelə Türkiyə boğazlarının qorunması üçün səylər göstərilməsinin əhəmiyyəti qeyd edilirdi.

Səfər çərçivəsində Türkmənistan qazını Türkiyəyə gətirəcək boru kəmərinin tikintisinə dair sazişdə imzalandı.[579] Bu, Azərbaycanın tranzit ölkəsinə çevrilməsində mühüm addım idi.

İmzalanma mərasimində nitq söyləyən Heydər Əliyev Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri ideyasının həyata keçirilməsində dövlət rəhbərlərinin siyasi iradəsinin mühüm rol oynadığını qeyd etdi.[580] O, daha sonra dedi:

*"Bakı – Ceyhan artıq var. Azərbaycan müstəqil dövlətdir. Öz qərarını özü verir".*[581]

Həmin gün Heydər Əliyev ABŞ-ın energetika naziri Bill Riçardson ilə görüşərək dövlətinin neft siyasətinin mahiyyətini geniş izah etdi. Bakı – Ceyhan əsas ixrac neft boru kəmərindən danışan Bill Riçardson Azərbaycan Respublikasının Prezidentinə xitabən dedi:

576 Bakü – Ceyhan hattına son nokta koydular // "Cumhuriyyet" gazetesi, İstanbul, 1998, 1 Kasım.
577 Bill Riçardson (1947) – ABŞ-ın energetika naziri (1998-2001). Nyu Meksika ştatının qubernatoru (2003-2011).
578 Ankara bəyannaməsi. 29 oktyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 89-125-127; Baku – Ceyhan and World Politics // "Turkish Daily News", İstanbul, 1998, 31 October.
579 75.Yılda iki büyük imza // "Hürriyet" gazetesi, İstanbul, 1998, 30 Ekim.
580 Əliyev H.Ə. Bakı – Tbilisi – Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyannaməsinin imzalanması mərasimindəki çıxış. 29 oktyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 121-124.
581 Tahir Kutsi Makal. Haydar Aliyevi dinlerken // "Ortadoğu" gazetesi, İstanbul, 1998, 3 Kasım.

*"...Bakı – Ceyhan xəttinin çəkilməsi məsələsində böyük tərrəqqi əldə etmişik. Bunların da çoxu məhz Sizin liderliyiniz sayəsində baş veribdir".*[582]

Bill Riçardson daha sonra dedi:

*"...Bu gün göstərdiyiniz təşəbbüs Bakı-Ceyhan xəttinin çəkilişinin uğurla başa çatması ilə nəticələnəcəkdir. İndi elə vaxt gəlib çatmışdır ki, Ankara bəyannaməsini həyata keçirmək lazımdır".*[583]

Ankarada imzalanan sənədlərin tarixi əhəmiyyəti var idi. Heydər Əliyevin fikrincə, bununla böyük bir tarixi işin əsası qoyulmuşdu.[584] Azərbaycan dövləti bilavasitə Heydər Əliyevin liderliyi altında ilk dəfə olaraq təbii sərvəti olan nefti milli sərvətə çevirərək müstəqil surətdə dünya bazarlarına çıxarmaq imkanı əldə edirdi.

Azərbaycan Respublikasının Prezidenti Bakıya qayıtdıqdan sonra Bill Klinton və Albert Qora məktub göndərərək əsas ixrac neft boru kəmərinin tikintisinin sürətləndirilməsini istədi. Bununla Azərbaycanın enerji diplomatiyasında yeni bir səhifə açılırdı.

ABŞ-ın Ceyhan limanını seçməsi səbəbsiz deyildi. Qeyd edildiyi kimi, Birləşmiş Ştatlar İrandan tranzit ölkə kimi istifadə edilməsinin əleyhinə idi. Türkiyə isə siyasi baxımdan sabit bir ölkə idi. Soyuq müharibə başa çatdıqdan sonra region və dünya siyasətində Türkiyənin rolunun artdığı qənaətində olan Bill Klinton layihəyə türk iqtisadiyyatını gücləndirən bir amil kimi baxır, Xəzər dənizi neftinin Qara dəniz boğazlarından keçirilməsini qəbul etmirdi. Heç şübhəsiz, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin mənfi tərəfi boğazlardan keçən neftdən daha bahalı olması idi. Bill Klintonun fikrincə, Bakı – Supsa neft boru kəmərinin işə düşməsi Bakı – Ceyhanın reallaşdırılmasına mane olmamalı idi. Bir çoxları Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin "ölü doğulduğu" qənaətində idi. Bəziləri isə Bakı – Tbilisi – Ceyhan əvəzinə Xəzər neftinin Aralıq dənizinə deyil, Bəsrə körfəzinə çıxarılmasının mənfəətli olacağını deyirdilər. ABŞ bu variantların heç birini qəbul etmədi.[585]

Rusiya tərəfi Ankarada imzalanan Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinə dəstək verən bəyannaməni soyuqqanlı qarşılayaraq bildirdi ki, son söz bu layihədə iştirak edən Qərb şirkətlərinindir. Məlum olduğu kimi, onlar da layihənin əleyhinə çıxırdılar. Rusiya bu neft boru kəmərinin mənfəətli, Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlarda kifayət qədər neftin olmadığını

582 Əliyev H.Ə. ABŞ-ın energetika naziri Bill Riçardsonla görüşdəki söhbətdən. 29 oktyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 130-131.

583 Yenə orada.

584 Əliyev H.Ə. İstanbulun Atatürk hava limanının şərəf salonunda Türkiyə Cümhuriyyətinə səfərinin yekunları barədə jurnalistlər qarşısında bəyanat. 31 oktyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 159.

585 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 333.

bildirirdi. Bu isə Türkiyə və Azərbaycanın səylərinin nəticə verməyəcəyinə bir işarə idi.

Geri çəkilərək gözləməyə başlayan Rusiya Bakı – Novorossiysk boru kəmərinin Çeçenistan ərazisindən keçməsinin təhlükəsiz olduğunu sübut etmək üçün Çeçenistanda atəşkəs elan etdi. Moskva neftin daşınması üçün Bakı – Supsa – Novorossiysk neft boru kəməri layihəsini təklif etsə də, qəbul olunmadı.

Bundan sonra Bakı – Tbilisi – Ceyhan əsas neft ixrac boru kəmərinin tikintisi ətrafında sanki bir müharibə başlandı. Layihə dövlətləri üz-üzə gətirdi.[586] Suriya dövləti PKK terroru üçün əlverişli bir şərait yaratmışdı. Azərbaycan isə PKK terroruna qarşı mübarizədə Türkiyəni dəstəkləyirdi.[587] Belə bir vaxtda PKK rəhbəri Abdulla Öcalanın[588] Suriyadan Rusiyaya qaçırılması və bu ölkədən siyasi sığınacaq istəməsi Azərbaycanda dərin narahatlıq yaratdı. Abdulla Öcalandan Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinə qarşı bir vasitə kimi istifadə edilə bilərdi. Belə təhlükəli oyunların qarşısının alınmasında Türkiyənin qəti və sərt mövqeyi mühüm rol oynadı. Türkiyənin tələbi ilə Abdulla Öcalan Rusiya ərazisindən çıxarıldı.

Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinə dair hüquqi-siyasi sənədlərin imzalanmasına baxmayaraq, iqtisadi və ideoloji baxımdan hələ xeyli iş aparmaq lazım idi. Ankarada sənədlər imzalandıqdan sonra danışıqların ikinci mərhələsi 1998-ci il noyabrın 18-də Bakıda keçirildi.[589] Burada maliyyə və ticarət məsələləri müzakirə olundu. Lakin şirkətlər kəmərin bahalı olduğuna dair mövqelərində israr edərək etirazlarını bildirirdilər. 1998-ci ilin noyabr ayında Beynəlxalq Əməliyyat Şirkəti Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin başlanmasının daha iki ay ertələndiyini bildirdi. Buna cavab olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevi şirkətlərlə danışıq aparmaq üçün ABŞ-a səfərə göndərdi. İlham Əliyev ABŞ-ın iri neft şirkətlərinin rəhbərləri ilə danışıqlar apararaq boru kəmərinin tikintisinin təkcə iqtisadi deyil, siyasi, strateji əhəmiyyətini izah etdi və Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri ilə bağlı qəti qərarın verilməsini istədi. Şirkət rəhbərlərinin fikrincə, Türkiyə güzəştlərə getməzdisə və maliyyə olmazdısa, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri baş tutmayacaqdı. İlham Əliyev neft boru kəmərinin tikintisinə dair şirkətlərin verdikləri rəqəmlərin mübahisəli olduğunu deyərək, Azərbaycan ilə

586 Yasemin Çongar, Cenk Başlamış. Yüzyılın petrol savaşı (A) // "Milliyet" gazetesi, İstanbul, 1998, 4 Kasım.
587 Aliyev: Şam'a karşı Türkiye ile biriz // "Hürriyet" gazetesi, İstanbul, 1998, 12 Ekim.
588 Abdulla Öcalan (1949) – PKK terror təşkilatının rəhbəri. 1999-cu ildə həbs edilmiş və edam cəzasına məhkum edilmişdir. Edam cəzası ömürlük həbs cəzası ilə əvəz olunmuşdur.
589 Ankara protokolünda ikinci raut Bakü'de // "Milliyet" gazetesi, İstanbul, 1998, 17 Kasım.

ABŞ-ın mövqeyinin eyni olduğunu, bu ölkənin dəstəyinə ehtiyac duyulduğunu bildirdi.[590] Müvafiq qərar dekabrın 12-də veriləcəkdi.[591]

Şirkətlərin rəhbərləri belə bir dəlil gətirirdilər ki, Azərbaycanda hər il 10-11 milyon ton neft çıxarıldığı halda, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri tam gücü ilə işə düşəndən sonra kəməri 50-60 milyon ton neftlə doldurmaq mümkün olmayacaqdır. Digər tərəfdən, Bakı – Novorossiysk neft boru kəmərinin illik nəqletmə imkanları ən yaxşı halda 17 milyon ton idi. Bakı – Supsa neft boru kəməri vasitəsi ilə 5 milyon ton neft göndərilə bilərdi. Bütün bu dəlillər Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin əleyhinə çevrilərək Azərbaycanı son nəticə etibarı ilə kəməri qeyri-sabit olan şimal regionundan keçirməyə vadar edirdi.

Bütün müqavimətlərə baxmayaraq, İlham Əliyevin ABŞ-da apardığı danışıqlar nəticəsini verdi. Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan “Mobil”, “Ekson”, “Pennzoyl”, “Amoko”, “Philips” kimi neft şirkətlərinin rəhbərləri Ağ evə dəvət edildilər. Görüş zamanı Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinə dair geniş müzakirələr keçirildi, onlara Bakı – Tbilisi – Ceyhanın son hədəf olduğu izah edildi. ABŞ rəsmiləri layihənin həyata keçirilməsi üçün tələb olunan vəsaitin tapılmasının problem olmadığı qənaətində idilər.

ABŞ Prezidenti Bill Klintonun Xəzər hövzəsi enerji siyasəti üzrə xüsusi müşaviri, səfir Riçard Morninqstar 1998-ci ilin dekabrında Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə olan ümidlərini belə ifadə etdi:

*“Şirkətlər Bakı – Ceyhan boru xətti layihəsinin regionda oynayacağı siyasi rolun əhəmiyyətini anladılar”.*[592]

ABŞ-ın mövqeyi Azərbaycanın qətiyyətini daha da artırdı. Bundan sonra Azərbaycan tərəfi neft şirkətləri ilə yeni müqavilələrin imzalanması işini davam etdirdi. 1998-ci il dekabrın 25-də Xəzər dənizinin Azərbaycan sektorundakı “Yanan tava”, “Atəşgah” və “Muğan dəniz” blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Yaponiyanın “Capan Petrolium”, “İndoneziya Petrolium”, “İtoçu oyl Eksploreyşn” və “Teykoku oyl” şirkətləri arasında müqavilə imzalandı. Ümumi sahəsi 510 kv. km olan həmin yataqdan 75-90 milyon ton neftin hasil edilməsi gözlənilirdi. Buraya təqribən 2,3 milyard dollar sərmayə qoymaq nəzərdə tutulmuşdu. Xərclərin hamısını Yaponiya şirkətləri ödəyəcəkdi. Müqaviləyə uyğun olaraq, Yaponiyanın dörd şirkəti Azərbaycana gəlməli idi.

590 Bakü – Ceyhan’da iyumserim // “Cumhuriyet” gazetesi, İstanbul, 1998, 23 Kasım.
591 Karar 12 Aralıkta // “Zaman” gazetesi, İstanbul, 1998, 23 Kasım.
592 Bakü – Ceyhan’da umut // “Zaman” gazetesi, İstanbul, 1998, 16 Aralık.

İmzalanma mərasimində çıxış edən Heydər Əliyev müqavilələrin əhəmiyyətindən danışdı.[593] Qeyd etmək lazımdır ki, "Əsrin müqaviləsi"ndən ötən müddət ərzində Azərbaycan xarici neft şirkətləri ilə 15 müqavilə imzalamışdı. Bu isə 16-cı müqavilə idi. Müqavilələrdə 14 ölkədən dünyanın 27 böyük neft şirkəti iştirak edirdi.

Problemləri aradan qaldırmaq məqsədi ilə Heydər Əliyev Türkiyənin Azərbaycandakı səfiri Qədri Ecvet Tezcanı qəbul edərək türk hökumətinin qəti qərarını öyrənmək istədiyini bildirdi. O, səfirə müraciətlə "təşviq və maliyyə olmayacaqsa, hər şey boşa çıxacaqdır" – dedi.[594] Azərbaycan tərəfi layihənin gerçəkləşməsi və ətraf mühitin təhlükəsizliyini qorumaq üçün Türkiyənin güzəştə getməsini istədi.

1998-ci il dekabr ayının sonlarında "Mobil", "Şevron" və "Şell" şirkətləri Xəzər dənizinin dibi ilə neft boru kəmərinin tikintisi və neftin Azərbaycan ərazisindən keçərək Ceyhan limanına nəqli barədə iqtisadi-texniki əsaslandırılmanın işlənilməsinə dair Qazaxıstan hökuməti ilə saziş imzaladılar. Həmin saziş neftin azlığı və Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi ətrafında bütün mübahisələrə son qoydu. Geosiyasi dəyişiklik mahiyyəti daşıyan bu sazişlə problemlər aradan qaldırıldı. Bundan sonra əsas diqqət kəmərin tikintisinə yönəldi.

Beynəlxalq konsorsiumun 1999-cu ilin mart ayında keçirilən iclasında Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi Türkiyəyə təklif edildi.[595] Bununla da Azərbaycanın neft strategiyasında yeni bir mərhələ başladı. Qazaxıstan neftinin Azərbaycan ərazisindən keçirilməklə dünya bazarlarına çıxarılması ilə regionun geosiyasəti və geoiqtisadiyyatı dəyişirdi. Azərbaycan tranzit ölkəyə çevrilirdi.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, Xəzər dənizinin Azərbaycan sektorundan hasil edilən neftin dünya bazarlarına hansı marşrutlarla çıxarılması məsələsi çoxlu mübahisələr doğurmuş və diplomatik-siyasi müzakirələrin obyekti olmuşdur. Azərbaycan Respublikasının dünya okeanına və açıq dəniz-

593 Əliyev H.Ə. Xəzərin Azərbaycan sektorundakı "Yanan tava", "Atəşgah" və "Muğan dəniz" blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə Yaponiyanın "Japan Petrolium", "İndoneziya Petrolium", "İtoçi oyl Eksploreyşn" və "Teykoku oyl" neft şirkətləri arasında müqavilənin imzalanması mərasimində nitq. 25 dekabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 462-469.

594 Bakü – Ceyhan'a 2 ay erteleme // "Zaman"gazetesi, İstanbul, 1998, 29 Kasım.

595 Bakü – Ceyhan inşaatı Türkiye'ye teklif edildi // "Milliyet" gazetesi, İstanbul, 1999, 24 Mart.

lərə birbaşa çıxışı olmadığı üçün neft ya Rusiya, ya İran, ya Gürcüstan, ya Türkiyə, ya da Ermənistan ərazisindən dünya bazarlarına çıxarıla bilərdi. Rusiya ərazisindən keçən Bakı-Novorossiysk xətti iqlim şərtləri səbəbindən ilin müəyyən hissəsini işləmədəyindən, Şimali Qafqazda terror hərəkətləri davam etdiyindən və sabitlik olmadığından neftin bu ərazidən keçirilməsi riskli idi. Rusiya istənilən zaman terror hadisələrini bəhanə gətirərək neft boru kəmərlərini bağlayar və Azərbaycan Respublikasına qarşı siyasi təzyiq vasitəsi kimi istifadə edə bilərdi. Bununla həm dövlət müstəqilliyinə, həm də bütün neft strategiyasına təhdid yaranardı.

Türkiyə tərəfi boğazların həddindən artıq yüklənməsini, neftin Rusiya ərazisindən keçərək Qara dəniz boğazlarından tankerlərlə daşınmasının təhlükəsizlik baxımından təhdid yaratdığını əsas gətirərək şimal marşrutunun əleyhinə çıxmışdır.

Neft İran ərazisindən keçərək dünya bazarlarına çıxarıla bilərdi. Lakin ABŞ-ın İrana qarşı tətbiq etdiyi sanksiyalar ucbatından bu yoldan istifadə etmək mümkün olmamışdır.

Xəzər dənizinin Azərbaycan sektorundan hasil edilən neft Türkiyə ərazisindən keçərək dünya bazarlarına çıxarıla bilərdi. Bundan ötrü boru kəməri ya Gürcüstan. ya da Ermənistan üzərindən keçməli idi. Gürcüstandan Bakı – Batum boru kəməri keçirdi. Lakin bu ölkə ərazisində mövcud olan münaqişələr səbəbindən də neftin ixracı riskli idi.

Neftin Ermənistandan, daha sonra ərazisindən Naxçıvandan keçərək Türkiyənin Ceyhan limanına çatdırılması ən münasib variant olardı. Bununla Ermənistanın blokadada saxladığı Naxçıvanın enerji problemləri də həll edilərdi. Lakin Ermənistan Azərbaycana qarşı hərbi təcavüzünü dayandırmağı və ərazilərin işğalına son qoymadığı üçün boru kəmərinin həmin ərazidən keçməsi təklifləri rədd edilmişdir.

Bütün bu problemlərlə yanaşı neft şirkətlərinin rəhbərləri Bakı – Ceyhan xəttinin bahalı olduğunu bəhanə gətirmişlər. Bəzi ölkələrin təhriki ilə bir sıra beynəlxalq qeyri-hökumət təşkilatları da boru kəmərinin əleyhinə geniş təbliğat işi aparmışlar.

Problemin həll edilməsində müstəsna tarixi missiyanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyev oynamışdır. Rusiya, Türkiyə, Böyük Britaniya və ABŞ dövlət rəhbərləri və şirkət rəhbərləri ilə onların apardıqları danışıqlar öz təsirini göstərmişdir. Şirkət rəhbərlərinə Bakı – Ceyhan neft boru kəmərinin strateji və geosiyasi əhəmiyyəti izah edilmişdir.

Xəzər neftinin dünya bazarlarına çıxarılmasına mane olmaq üçün qaba metodlar işə salınmışdır. Gürcüstan Prezidenti E.Şevardnadzeyə sui-qəsd edilmiş, Azərbaycan Respublikasına təzyiq göstərmək üçün Şimali Qafqazda anti-terror adı altında hərbi əməliyyatlar aparılmış, Azərbaycana gələn quru və dəniz yolları bağlanmışdır.

İntriqalara son qoymaq və enerji diplomatiyasını uğurla həyata keçirmək üçün bilavasitə Heydər Əliyevin təklifi ilə neftin ixracı iki mərhələyə bölünmüşdür: ilkin ixrac nefti və əsas ixrac nefti. Buna dair Rusiya və digər dövlətlərlə müvafiq sənədlər imzalanmışdır. İlkin neft şimal marşrutu olan Bakı – Novorossiysk neft kəməri ilə ixrac edilmişdir. Bu isə əslində Rusiya tərəfindən Xəzər dənizinin Azərbaycan sektorunda hüquqlarının tanınması demək olmuşdur. Qərb marşrutu kimi isə Bakı – Supsa neft kəməri qısa müddətdə tikilmişdir.

1998-ci ildə Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi günlərində dövlət rəhbərlərinin imzaladığı sənədlə Bakı – Tbilisi – Ceyhan ixrac neft boru kəməri əsas ixrac neft boru kəməri olaraq qəbul edilmişdir. Beləliklə, Azərbaycan dövlətinin enerji diplomatiyasının həyata keçirilməsində bir mərhələ arxada qalmış, yeni səhifə açılmışdır.

Qazaxıstan neftinin Azərbaycan ərazisindən keçərək bazarlara çıxarılması barədə sazişin imzalanması ilə şirkətləri narahat edən neftin azlığına dair problemlər aradan qaldırılmışdır. Bununla geosiyasi və geoiqtisadi dəyişikliklər baş vermiş, Azərbaycan tranzit ölkəyə çevrilmiş və rolu artmışdır.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsindən ötrü aparılan danışıqlar və edilən təzyiqlər neft strategiyasının həyata keçirilməsinə mane olmamışdır. Azərbaycanın mövqeyinə görə, hüquqi statusa dair danışıqlar əməkdaşlığa əngəllər törətməməli idi.

Neft strategiyasi Azərbaycan Respublikasının daxili siyasətinə təsirsiz ötüşməmiş və bütün sahələrdə geniş islahatlara başlanılmışdır.

# 12-ci FƏSİL

## DEMOKRATİK İSLAHATLAR VƏ AZƏRBAYCANIN BEYNƏLXALQ MÖVQELƏRİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ

### *12.1. İslahatlar zərurətə çevrilir*

Ölkədə siyasi və hərbi vəziyyətin sabitləşdirilməsi, sosial-iqtisadi şəraitin böhranlı həddən çıxarılması məqsədi ilə müəyyən addımların atılması və neft müqavilələrinin imzalanması Azərbaycan Respublikasının tədricən inkişaf yoluna qədəm qoyduğunu göstərirdi. Artıq ölkədə dərin islahatların hazırlanması və həyata keçirilməsi üçün şərait yaranmışdı. Demokratik inkişaf yolunu seçmiş müstəqil Azərbaycan dövlətinin başlıca məqsədlərindən biri qanunların humanistləşdirilməsi idi. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1996-cı il mayın 28-də Milli Məclisə göndərdiyi məktubunda yazırdı:

*"Konstitusiya ilə müəyyənləşdirilmişdir ki, dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.*

*Hər bir şəxsin yaşamaq hüququnun toxunulmazlığı, həmçinin onunla müəyyən edilir ki, müstəsna cəza tədbiri kimi ölüm cəzası tam ləğv edilənədək, bu cəza yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı, xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər".*[596]

Məktubda konkret maddələr göstərilməklə yazılırdı:

*"...qeyd olunan maddələrin sanksiyalarından ölüm cəzasının, habelə həmin məcəllənin ölüm cəzası nəzərdə tutulmuş 60, 65 və 191-1 maddələrinin çıxarılmasını, cinayət edənədək altmış beş yaşına çatmış kişilərə ölüm cəzasının tətbiq edilməməsi barədə müddəalarının əlavə olunmasını təklif edirəm.*

*Bu dəyişikliklərin edilməsi cinayət qanunvericiliyinin humanistləşdirilməsinə xidmət etmiş olardı".*[597]

596 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 251-252.
597 Yenə orada, s. 252.

Prezidentin məktubu əsasında cinayət məcəlləsində bəzi dəyişikliklər edildi. Bu, Şərq ölkələrinə, həmçinin bəzi Qərb ölkələrinə nümunə ola biləcək nadir humanist addım idi. Qanun ölüm hökmünün tamamilə ləğv edilməsi üçün zəmin hazırlayırdı.

İslahatlara digər sahələrdə də başlandı. Azərbaycan dövlətinin qarşısında dayanan başlıca vəzifələrdən biri xeyli mübahisəli və mürəkkəb görünən torpaq islahatının aparılması idi. Məlum olduğu kimi, sovet sosialist təsərrüfat sistemi və ümumi mülkiyyət dağılsa da, ölkədə hələ də torpaq islahatı aparılmamışdı.

Milli Məclisin 1996-cı il 16 iyul tarixli iclasında ölkə həyatı üçün böyük əhəmiyyət kəsb edən torpaq islahatı haqqında 7 fəsil, 26 maddədən ibarət qanun qəbul edildi. Qanunun məqsədi iqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüsünü inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən ərzaq təminatına nail olmaq və nəticə etibarı ilə Azərbaycan xalqının maddi rifah halını yüksəltməkdən ibarət idi. Torpaq islahatının vəzifələri Azərbaycan Respublikası ərazisində dövlət torpaqlarının müəyyən edilməsini, torpaqların bələdiyyə və xüsusi mülkiyyətə verilməsini, mülkiyyətçilərin torpağa sahiblik, istifadə və sərəncam hüquqlarını təmin etmək idi. Torpaqlar dövlət torpaqlarına, bələdiyyə torpaqlarına, xüsusi mülkiyyətə verilən torpaqlara bölünürdü. Vətəndaşlar qanuni istifadəsində olan torpaqları özəlləşdirə bilərdilər.

Qanunun qəbul edilməsinin böyük əhəmiyyəti var idi. Bununla torpaq üzərində müxtəlif mülkiyyət növləri təsdiq edilir və kəndli ilk dəfə olaraq torpaq mülkiyyətçisinə çevrilirdi.

Hakimiyyətin qarşısında dayanan başlıca vəzifələrdən biri inflyasiyanın səviyyəsini aşağı salmaq, iqtisadi inkişafa nail olmaq və vətəndaşların yaşayış şəraitini yaxşılaşdırmaq idi. Ölkədə iqtisadiyyatın digər sahələrində də görülən böyük işlər öz nəticəsini verirdi. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin gərgin səyləri hesabına ictimai-siyasi sabitliyə nail olunduqdan sonra Azərbaycanda iqtisadi islahatların aparılmasına yalnız 1995-ci ildə başlanmışdı. Makroiqtisadi sabitliyin təmin edilməsi məqsədilə 1995-ci ildə həyata keçirilən hökumət proqramı 1994-cü illə müqayisədə inflyasiya sürətinin kəskin azalaraq 17,64%-dən 5,12%-ə düşməsinə, büdcə kəsirinin ümumdaxil məcmu məhsula nisbətdə 11,5%-dən 5,3%-dək azalmasına, Milli Bankın valyuta ehtiyatının yaradılmasına, manatın ABŞ dollarına nisbətdə məzənnəsinin sabitləşməsinə, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və daxili bazarın liberallaşdırılmasına, pul dövriyyəsinin qaydaya düşməsinə, yəni banklara qaytarılan pulun xüsusi çəkisinin 62%-dən 93%-ə çatmasına, Milli Bankın uçot dərəcəsinin 200%-dən 100%-ə endirilməsinə imkan vermişdi.

1996-cı ildə də makroiqtisadi sabitlik proqramının həyata keçirilməsi təklif edilmiş və 9 ayın yekunlarına görə müsbət nəticələr əldə olunmuşdu. Belə ki, həmin ilin noyabrınadək vergilərin yığılma səviyyəsi 1,5 dəfə artmış, büdcə kəsirinin təsdiq olunmuş həddi gözlənilmiş, inflyasiya prosesi əslində dayanmış, Milli Bankın uçot dərəcəsi 20%-dək aşağı enmiş və nəticədə son illərdə ilk dəfə olaraq əhalinin pul gəlirlərinin artım sürəti qiymətlərin artım sürətini üstələmişdi.[598] 1996-cı ilin ilk 9 ayı ərzində ilk dəfə olaraq ÜDM-in aşağı düşmə sürəti (100,7) dayanmış, sənaye istehsalının həcmi 1995-ci ildəki 21%-ə qarşı yalnız 8% azalmışdı. Kimya, neft-kimya və ağac emalı sənayesində istehsalın artımı, həmçinin investisiyaların və tikinti-quraşdırma işlərinin həcminin artımı bərpa olunmuşdu. Ötən dövr ərzində xarici ticarət dövriyyəsi də artmışdı. Bu da xarici iqtisadi fəaliyyətin liberallaşdırılmasının nəticəsində baş vermişdi. Beləliklə, 1995-ci ildə və 1996-cı ilin ilk 9 ayı ərzində ölkədə iqtisadiyyatın sabitləşdirilməsi prosesinin, aparılan islahatların ardıcıllığının və sistemliliyinin təmin edilməsinin başlanğıcı qoyulmuşdu. Bununla bərabər, müəssisələrin struktur dəyişikliklərinin sürətlə aparılması, qarşılıqlı ödəmələr və iqtisadiyyatın idarəolunma səviyyəsinin yüksəldilməsi problemləri hələlik tam həll edilməmişdi.

Keçid dövrünün bu mərhələsinin başlıca vəzifəsi ümumi təsərrüfat konyukturunun yaxşılaşdırılması, islahatların dərinləşdirilməsi mexanizmlərinin hazırlanması və sürətlə hərəkətə gətirilməsi hesabına növbəti illərdə iqtisadi inkişafın artımına nail olmaq idi.

Azərbaycan dövlətinin başlıca qayğılarından biri Ermənistanın hərbi təcavüzü nəticəsində ev-eşiklərindən didərgin düşmüş məcburi köçkünlərin problemlərini həll etmək idi. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzünə məruz qalmış Azərbaycan ərazisində iqtisadiyyatı dirçəltmək, sahibkarlıq fəaliyyətini təşviq etmək və əhalinin məskunlaşmasını möhkəmləndirmək məqsədi ilə fiziki və hüquqi şəxslərin müəyyən müddətə torpaq vergisindən azad edilməsi haqqında qanunu Milli Məclis 1997-ci il iyunun 6-da keçirilən iclasında qəbul etdi.[599] Bu, məcburi köçkünlərin şəraitinin yaxşılaşdırılmasına müsbət təsir göstərdi.

598 1997-ci ildə sosial-iqtisadi inkişafın proqnozu və Azərbaycan Respublikasının büdcə layihəsi haqqında izahat // ARMMA, f.2941, siy. 1, iş 396, v. 288-190.

599 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə məktubu. 29.05.1997 // ARMMA, f. 2941, siy.1, iş 480, v. 4.

### *12.2. Avropa Şurası ilə əməkdaşlıq və demokratik islahatlar*

Məlum olduğu kimi, demokratik inkişaf yolunu seçmiş Azərbaycan Respublikası ölkə həyatının demokratikləşdirilməsindən ötrü beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi yer verirdi. Bu baxımdan dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan dövlətinin xarici siyasətində mühüm yerlərdən birini Avropa Şurası ilə əlaqələrin qurulması tutdu. Azərbaycan dövləti nizamnaməsi 1949-cu il mayın 5-də qəbul edilmiş[600] və başlıca vəzifələri üzv ölkələr arasında insan fəaliyyətinin bütün sahələrində əməkdaşlığın genişləndirilməsi yolu ilə birliyin möhkəmləndirilməsi, təşkilata daxil olmayan qitə dövlətləri ilə sosial, hüquq, səhiyyə, əməkdaşlığın qarşılıqlı arzu olunduğu digər sahələrdə əməkdaşlıq, BMT və onun orqanlarının fəaliyyətində Avropaya töhfəsini verməklə iştirak etmək, əsas fəaliyyət sahələri insan hüquqları, sosial və iqtisadi hüquqların qorunması, kütləvi informasiya vasitələri, terrorizmə qarşı mübarizə, canlı təbiətin qorunması və s. olan Avropa Şurası ilə əməkdaşlıq qurmaq üçün səylərə başladı.[601]

1992-ci il yanvarın 20-də Avropa Şurasına xüsusi dəvət olunmuş qonaq statusu almaq üçün müraciət edildi.[602] Lakin Avropa Şurasının Cənubi Qafqaz regionunda genişlənməyə hazır olmaması və təşkilatın Azərbaycana münasibəti səbəbindən bu niyyət yerinə yetirilmədi. Avropa Şurası Parlament Assambleyasının Şura üzvü olmayan ölkələrlə əlaqələr komitəsinin sədri Devid Atkinsonun[603] 1994-cü il noyabrın 14-17-də səfəri zamanı Azərbaycan Respublikasının Avropa Şurasına üzv olmaq haqqında müraciəti müzakirə edildi.[604]

Azərbaycan Respublikasının bəzi nazirliklərinin nümayəndələrinin 1995-ci il noyabrın 27-28-də Strasburqa səfəri zamanı Avropa Şurası Nazirlər Komitəsində qanunvericilik, təhsil və mədəniyyət sahələrini əhatə edən hökumətlərarası əməkdaşlıq proqramı tərtib edildi. Həmin proqrama əsasən Azərbaycan Avropa Şurasının bəzi hökumətlərarası komitələrinin işinə qoşulmaq, Avropa konvensiyası və sazişlərinin hazırlanmasında və qurumun müxtəlif mövzulara həsr etdiyi konfranslarında iştirak etmək hüququ qazanırdı.

600 Совет Европы: основные направления деятельности и результаты. М., 1995, с.1.
601 Устав Совета Европы // Международное публичное право. Сборник документов. Т.I. М., 1996, с.322.
602 Qasımlı M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri), s. 93; Rəcəbli H., İbayev V. Avropa Şurası. Bakı, 1999, s.59.
603 Devid Antoni Atkinson (1940-2012) – Böyük Britaniya parlamentinin Mühafizəkarlar Partiyasından olan üzvü.
604 Heydər Əliyev: Azərbaycan Avropa Şurası ilə əlaqələr qurmaq arzusundadır // "Azərbaycan" qəzeti, 1994, 17 noyabr.

Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyətinin 1996-cı il iyunun 2-6-da Azərbaycana səfəri zamanı Prezident Heydər Əliyev ilə görüşündə Azərbaycan Respublikasının Avropa Şurasında əvvəlcə xüsusi dəvət olunmuş qonaq, sonra isə tam hüquqlu üzv qəbul edilməsi məsələləri müzakirə edildi.[605]

Müzakirələrin konkret nəticəsi oldu. Səfərdən sonra Avropa Şurası Parlament Assambleyasının 1996-cı il iyunun 28-də keçirilən büro iclasında Azərbaycana xüsusi dəvət olunmuş qonaq statusu verilməsinə dair qərar qəbul edildi.[606]

Xüsusi dəvət olunmuş qonaq statusunun verilməsinin böyük əhəmiyyəti var idi. Bununla Azərbaycan Respublikası Avropa Şurası Parlament Assambleyasında təmsil olunmaq və şura tərəfindən qəbul edilmiş konvensiyalara qoşulmaq imkanı əldə edir, ümumavropa problemlərinin müzakirəsində birbaşa iştirak etmək hüququ qazanır, Avropa konvensiyalarının hazırlanmasına cəlb edilir, ölkənin suverenliyi və müstəqilliyi möhkəmlənir, siyasi, iqtisadi, sosial və mədəni sahələrdə inteqrasiya prosesləri genişlənirdi. Azərbaycan Avropa ailəsinə daha möhkəm daxil olur və dəyərlərindən bəhrələnirdi. Avropa Şurasında xüsusi dəvət olunmuş qonaq statusu almaq məqsəd deyil, xarici siyasətin həyata keçirilməsində bir vasitə idi. Bununla Azərbaycan dövlətinin beynəlxalq mövqeləri möhkəmlənir, dövlət sisteminin, ölkə həyatının tutduğu yolun demokratiya yolu olduğu və gedən proseslərin demokratik prinsiplər əsasında davam etdiyi təsdiq olunurdu. Xüsusi dəvət olunmuş qonaq statusu Azərbaycana yalnız imtiyazlar vermir, eyni zamanda üzərinə demokratik cəmiyyət quruculuğu, insan hüquqlarının qorunması, çoxpartiyalı sistemin formalaşdırılması, azad bazar iqtisadiyyatı sahələrində islahatların həyata keçirilməsi üçün müəyyən öhdəliklər də qoyurdu. Azərbaycan ilə əməkdaşlıq Avropa Şurasına da faydalı idi. Təşkilatın coğrafiyası genişlənir və bölgədə mövqeləri möhkəmlənirdi.

Xüsusi dəvət olunmuş qonaq statusu verildikdən sonra Avropa Şurası və Azərbaycan Respublikası arasında təşkilatın, demək olar ki, bütün fəaliyyət sahələrini əhatə edən geniş fərdi əməkdaşlıq proqramı tərtib edildi. Proqram Azərbaycanda demokratik institutların təkmilləşdirilməsi, inzibati strukturların və məhkəmə sisteminin yenidən qurulması, milli qanunvericiliyin Avropa sisteminə yaxınlaşdırılması, təhsil, elm, mədəniyyət və digər sahələrin inkişafına kömək etmək məqsədi güdürdü. Onun həyata keçirilməsi islahatların gedişinə və demokratik inkişafa, Azərbaycan Respublikasının Avropa Şurasına üzvlüyünə kömək etməli idi.

605 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyətini qəbul etmişdir // "Azərbaycan" qəzeti, 1996, 5 iyun.
606 Azərbaycana xüsusi dəvət olunan qonaq statusu verilməsi haqqında // "Azərbaycan" qəzeti, 1996, 29 iyun.

Proqramın başlıca məqsəd və vəzifələri, həyata keçirilməsinin forma və metodları Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 iyul tarixində imzaladığı "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında" sərəncamında müəyyənləşdirildi.[607] Məhz həmin sərəncamdan sonra əməkdaşlıqda yeni keyfiyyət mərhələsi başlandı. Artıq 1996-cı ilə qədər Azərbaycan Respublikası və Avropa Şurası arasında 150-dən çox beynəlxalq hüquqi sənəd imzalanmışdı.[608]

Sərəncam imzalandıqdan bir neçə gün sonra, iyulun 10-da Bakıda bu sənədə həsr edilmiş müşavirə keçirildi. Müşavirədə nitq söyləyən Prezident Heydər Əliyev müəyyənləşdirilən tədbirlərin ölkənin siyasi, ictimai, iqtisadi həyatında böyük dəyişikliklər etmək üçün lazım olduğunu vurğuladı.[609]

Azərbaycandakı şəraitlə tanış olmaq, Avropa Şurası ilə əməkdaşlıq məsələlərini müzakirə etmək, xüsusi dəvət olunmuş qonaq statusunu aldıqdan sonra demokratik dəyişikliklər prosesini müzakirə etmək məqsədilə iyulun 12-14-də Avropa Şurası Nazirlər Komitəsinin sədri, Estoniyanın xarici işlər naziri Siim Kallas və Avropa Şurasının baş katibi Daniel Tarşis Azərbaycana səfər etdilər. Nümayəndə heyəti ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkəsinin Avropa Şurasına tamhüquqlu üzv olmaq istəyi məsələsini gündəliyə gətirdi. Müzakirələr Azərbaycan və Avropa Şurası arasında əməkdaşlığı yeni inkişaf mərhələsinə qaldırır, təşkilatın bütün strukturlarına tezliklə inteqrasiya olunması və onun sıralarında tamhüquqlu üzv olması üçün perspektivlər açırdı.[610] Həmin müzakirələrdən bir gün sonra, iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti Avropa Şurasının baş katibinə məktub göndərərək Azərbaycanın bu təşkilata tam hüquqlu üzv qəbul olmaq və başqa üzv dövlətlər kimi insan hüquq və azadlıqlarının müdafiəsi haqqında Avropa konvensiyasına qoşulmaq niyyətini bildirdi.[611]

Avropa Şurası Nazirlər Komitəsi Azərbaycan Respublikası Prezidentinin müraciətini Avropa Şurasının gündəliyinə daxil etdi. Bundan sonra Avropa Şurasının baş katibi Daniel Tarşis Azərbaycana məktub göndərərək Avropa

607 Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 8 iyul 1996-cı il // "Azərbaycan" qəzeti, 1996, 9 iyul.

608 Гасанов Г. Выступление на заседании Комитета министров Совета Европы. Страсбург, 5 июня 1996 г. // Гасанов Г. Азербайджан – Европа: на пути к интеграции, с.64.

609 Əliyev H.Ə. Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında respublika Prezidentinin sərəncamının yerinə yetirilməsinə həsr olunmuş müşavirədə giriş sözü. Yekun sözü. 10 iyul 1996-cı il // Müstəqilliyimiz əbədidir. VII kitab, s.80-82.

610 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa Şurasının nümayəndə heyətini qəbul etmişdir // "Azərbaycan" qəzeti, 1996, 16 iyul.

611 Azərbaycan Respublikasının Avropa Şurasına qəbul edilməsi barədə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin müraciəti. 13 iyul 1996-cı il // İnsan hüquqları. Bakı, 2001, s. 95.

mədəniyyət konvensiyasına qoşulmaq məsələlərinə həsr olunmuş müşavirədə iştirak etmək üçün 1996-cı il sentyabrın 9-10-da 4 nəfər ekspert göndərməyi xahiş etdi. Qeyd etmək lazımdır ki, həmin konvensiyaya artıq 44 dövlət qoşulmuşdu. Konvensiyaya qoşulmaq təşkilata tamhüquqlu üzv olmaq yolunda bir addım idi. Bununla Azərbaycan Respublikası Avropa Şurasının toplantılarının üçdə birində iştirak etmək imkanı qazanırdı. Azərbaycan Respublikasının Prezidenti konvensiyanı imzalamaq haqqında göstəriş verdi və hazırlıqlara başlandı.

1996-cı ilin sentyabr ayında Avropa Şurası Parlament Assambleyasının sessiya iclasında iştirak etmək üçün Azərbaycan Respublikası Milli Məclisinin deputatlarından ibarət nümayəndə heyəti təşkil edildi. Mahmud Məmmədquliyevin rəhbərliyi altında nümayəndə heyəti ilk dəfə olaraq sessiya iclasında iştirak etdi. İclasda çıxış edən nümayəndə heyətinin rəhbəri Azərbaycandakı qaçqın və məcburi köçkünlərin vəziyyəti haqqında məsələ qaldırdı.

Azərbaycan Respublikasının təşəbbüsü ilə AŞPA-nın miqrasiya, qaçqınlar və demoqrafiya komitəsi ayrıca olaraq Azərbaycanda qaçqınların və məcburi köçkünlərin vəziyyətini öyrənmək üçün xüsusi yarımkomitə yaratdı. Qeyd etmək lazımdır ki, Avropa Şurası Parlament Assambleyasının miqrasiya, qaçqınlar və demoqrafiya komitəsi hələ 1995-ci ildə “Ermənistanda və Azərbaycanda qaçqınların və məcburi köçkünlərin humanitar vəziyyəti barədə” məruzə hazırlamış və müvafiq tövsiyələrini Nazirlər Şurasına təqdim etmişdi. Nazirlər Şurası həmin tövsiyələrə cavabı 1996-cı il oktyabrın 17-də keçirilən iclasında müzakirə edərək AŞPA-ya göndərdi.

Azərbaycandakı qaçqın və məcburi köçkünlərin vəziyyətini öyrənmək üçün yaradılan birdəfəlik komitənin tərkibinə AŞPA-nın vitse-prezidenti Tadeuş İvinski (Polşa), Ali Dinçer (Türkiyə), Ana Qirado (İspaniya), Vadim Filimonov (Rusiya), AŞPA-nın miqrasiya, qaçqınlar və demoqrafiya komitəsinin katibi Petr Sıx daxil edilmişdilər. Komitə üzvlərinin 1997-ci il fevral ayının sonlarında Azərbaycana səfərində başlıca məqsəd qaçqın və məcburi köçkünlərin vəziyyətini və Avropa Şurasının bu məsələni həll etmək üçün imkanlarını öyrənmək idi. Nümayəndə heyəti qaçqın və məcburi köçkünlərin məskunlaşdıqları Biləsuvar, Füzuli, Beyləqan rayonlarına baş çəkdi.

Fevralın 27-də xarici işlər naziri Həsən Həsənovla görüşdə Tadeuş İvinski Azərbaycan ilə Avropa Şurası arasında əlaqələrin genişlənməsindən razılığını bildirdi, Azərbaycanın tezliklə Avropa Şurasına tamhüquqlu üzv qəbul ediləcəyinə ümid ifadə etdi. Vadim Filomonov BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının, Qırmızı Xaç və Qırmızı Aypara Komitəsinin nümayəndələri ilə görüşdə işi əsasən iki istiqamətdə aparmağı vacib hesab edirdi: Azərbaycana humanitar və maddi

yardım göstərmək; qaçqın və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması üçün ictimai rəyi formalaşdırmaq.

Avropa Şurası Nazirlər Komitəsinin 1997-ci il aprelin 25-də keçirilən iclasında çıxış edən Azərbaycan Respublikasının xarici işlər naziri ölkədə siyasi və iqtisadi sabitlik, xüsusi dəvət olunmuş qonaq statusu verildikdən sonra əməkdaşlığın inkişafı, tamhüquqlu üzv olmaq istəkləri, Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylər haqqında məlumat verdi, Qafqazda sülhün bərqərar olmasının Azərbaycanın xarici siyasətinin üstün istiqaməti olduğunu, Rusiyanın Ermənistana qanunsuz silah verməsinin regionda şəraitə mənfi təsir etdiyini diqqətə çatdırdı.[612]

Səfər zamanı Azərbaycan Respublikasının Avropa mədəniyyət konvensiyasına qoşulmasına dair sənədin imzalanma mərasimi oldu. Mərasimdə çıxış edən Azərbaycanın xarici işlər naziri ölkəsinin tarixən Avropa ilə Asiyanın qovşağında yerləşərək dünya sivilizasiyasının bütün incilərindən bəhrələndiyini vurğuladı.[613]

Mədəniyyət konvensiyasına qoşulmaq böyük əhəmiyyət kəsb edirdi. Bu, Azərbaycanın Avropa Şurası ilə əlaqələrinə yeni impuls verir və əməkdaşlığın genişlənməsi üçün əlavə imkanlar açırdı.

Avropa Şurası ilə əməkdaşlıqda mühüm hadisələrdən biri 1997-ci il oktyabrın 10-11-də Strasburqda keçirilən Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının ikinci zirvə toplantısında Azərbaycan Respublikasının iştirakı oldu. Zirvə görüşündə 46 dövlətin ali nümayəndələri, o cümlədən 26 prezident, 20 Baş nazir iştirak edirdi. Qeyd etmək lazımdır ki, birinci zirvə görüşü hələ 1993-cü ilin oktyabr ayında Avstriyanın paytaxtı Vyanada keçirilmişdi.

İkinci zirvə görüşündə Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikasının nümayəndə heyəti iştirak edirdi. Nümayəndə heyətinin tərkibinə xarici işlər naziri və Azərbaycan Respublikası Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü olan 6 deputat daxil idi. Səfərin özünəməxsusluğu xüsusi dəvət olunmuş qonaq statusu verildikdən sonra Azərbaycan Respublikasının Avropa Şurasında yüksək səviyyədə ilk dəfə iştirak etməsi idi. Səfərdə başlıca məqsəd isə Avropa Şurası ilə daha sıx əlaqələr qurmaq və tam üzvlük üçün zəmin hazırlamaq idi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa Şurası Parlament Assambleyasının sədri Leni Fişer ilə görüşərək Ermənistan –

612 Выступление на заседании Комитета министров Совета Европы. Страсбург, 1997, 25 апреля // Гасанов Г. Азербайджан – Европа: на пути к интеграции, с.69-81.

613 Выступление во время процедуры подписания документа о присоединении Азербайджана к Европейской Культурной Конвенции. Страсбург,25 апреля 1997 г. // Гасанов Г. Азербайджан – Европа: на пути к интеграции, s. 81-82.

Azərbaycan münaqişəsinin tənzimlənməsinə dair səyləri müzakirə etdi[614], Avropa Şurasının baş katibi Daniel Tarşis, Avropa Şurasının üzvü olan bəzi ölkələrin dövlət və hökumət başçıları ilə görüşərək ölkəsinin Avropa Şurasına tam üzv qəbul edilməsinin zəruriliyini və qurum ilə əməkdaşlığın perspektivləri haqqında ölkəsinin strategiyasını onların diqqətinə çatdırdı.[615]

Heydər Əliyev oktyabrın 10-da Ermənistan Prezidenti Levon Ter-Petrosyan ilə görüşdü. Qeyd etmək lazımdır ki, görüş ərəfəsində Azərbaycan tərəfi ATƏT-in Minsk qrupunun həmsədrlərinin yeni təkliflərinə müsbət münasibət bildirmişdi. Həmin təkliflərdə münaqişənin iki mərhələdə həlli nəzərdə tutulurdu. Birinci mərhələdə bütün erməni silahlı qüvvələri Azərbaycanın işğal edilmiş altı rayonundan çıxarılmalı; məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtmalı; müharibə nəticəsində dağıdılmış bütün kommunikasiyalar bərpa edilməli idi. İkinci mərhələdə isə Şuşa və Laçın rayonları da azad edilməklə Dağlıq Qarabağın statusu məsələsi həll olunmalı idi. Ermənistan tərəfi də ATƏT-in Minsk qrupunun həmsədrlərinin verdikləri son təkliflərə razı olduğunu bildirmişdi.

Görüşün sonunda qəbul edilən birgə bəyanatda prezidentlərin münaqişənin siyasi vasitələrlə, ilk növbədə, danışıqlar yolu ilə həllinə sadiq olduqları vurğulanırdı. Azərbaycan və Ermənistan prezidentlərinin fikrincə, Minsk konfransı həmsədrlərinin Minsk qrupu çərçivəsində göstərdikləri fəallıq münaqişəyə cəlb olunmuş bütün tərəflərin konstruktivliyi şəraitində bu münaqişənin aradan qaldırılması işində real irəliləyişə nail olmağa imkan verə biləcək bazanın yaradılmasına yönəlmişdi. Dövlət başçıları Minsk qrupu həmsədrlərinin son təkliflərini Minsk qrupu çərçivəsində danışıqların yenidən başlanması üçün ümidverici əsas hesab edirdilər.

Oktyabrın 11-də zirvə görüşündə nitq söyləyən Heydər Əliyev ölkəsinin cəmiyyətin demokratik inkişafına dair Avropa ideallarına sadiqliyini və qitədə gələcəkdə də sülh, sabitliyə əməyini sərf etməyə hazır olduğunu, Azərbaycanın bütün tarix boyu Avropa ilə sıx bağlı və onun tərkib hissəsi olduğunu bildirdi, Avropa ölkələrinin inteqrasiyasından və bu prosesdə Azərbaycanın rolundan danışarkən vurğuladı:

*"Azadlıq, demokratiya və humanizm idealları ətrafında sıx birləşmiş yeni Avropa, həmişə olduğu kimi, bütün bəşəriyyətin tərəqqisində və çiçəklənməsində mühüm rol oynayacaqdır. Əminəm ki, çox böyük təbii sərvətlərlə, zəngin mədəni*

614 Əliyev H.Ə. Avropa Şurasının Parlament Assambleyasının prezidenti xanım Leni Fişerlə söhbətdən. 9 oktyabr 1997-ci il // Müstəqilliyimiz əbədidir. XII kitab. Bakı, 2004, s.281-282.

615 Əliyev H.Ə. Avropa Şurasının baş katibi Daniel Tarşis ilə görüşdə söhbətdən. 9 oktyabr 1997-ci il // Müstəqilliyimiz əbədidir. XII kitab, s.283-285.

*və intellektual potensiala malik olan Azərbaycan Respublikası bu nəcib prosesə öz layiqli töhfəsini verəcəkdir".*[616]

Azərbaycan Respublikası Prezidentinin nitqi böyük əhəmiyyət daşıyırdı. Hər şeydən əvvəl, ilk dəfə olaraq Azərbaycan rəhbəri Avropa Şurasının kürsüsündən nitq söyləyərək ümumavropa problemlərinə ölkəsinin münasibətini bəyan edirdi.

İkinci zirvə görüşü vahid Avropa ailəsinin qurulmasını və dövlətlərin demokratik inkişafını faktiki olaraq möhkəmləndirirdi. Bu prosesə Azərbaycan Respublikası da öz töhfəsini verdi. Zirvə görüşünün sonunda qəbul edilən demokratik sabitliyin möhkəmləndirilməsi üzrə yekun bəyannamə və fəaliyyət planında demokratiya və insan hüquqları, sosial birlik, vətəndaşların təhlükəsizliyi, demokratik dəyərlərin və mədəni müxtəlifliyin qorunması məsələləri əksini tapmışdı. Azərbaycan üçün ən əhəmiyyətli məsələ zirvə görüşünün iştirakçılarının münaqişə qurbanlarına yardım etməyə qəti şəkildə hazır olmalarını bəyan etmələri oldu.

Zirvə görüşü ötən müddət ərzində Azərbaycan Respublikasının keçdiyi yolun əhəmiyyətini bir daha göstərdi. Bu yol özündə əsasən aşağıdakı məsələləri əhatə edirdi: ölkə anarxiya və başıpozuqluqdan siyasi sabitliyə gəlmişdi; iqtisadi dağıntıdan Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan ölkələr arasında ən çox xarici kapital qoyulan bir ölkə olmuşdu; vətəndaş itaətsizliyindən xalq ilə hakimiyyət arasında birliyə gəlmişdi; nəhayət, ölkənin konkret inkişaf strategiyası müəyyənləşdirilmişdi.

Avropa Şurası ilə əməkdaşlıq islahatların dərinləşdirilməsinə kömək edirdi. Bunlardan biri ölkədə Konstitusiya Məhkəməsinin yaradılması oldu. Heydər Əliyevin məktubu əsasında Milli Məclisin 1997-ci il oktyabrın 21-də keçirilən iclasında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında qanun layihəsi müzakirə edildi. Müzakirələr nəticəsində 7 fəsil, 98 maddədən ibarət qanun qəbul edildi.[617] Qanunda Konstitusiya Məhkəməsinin təyinatı, müstəqilliyinin, təşkilinin və fəaliyyətinin hüquqi əsasları, tərkibi, təşkili və səlahiyyətləri, hakimin andı, hakimliyə namizədlərə olan tələblər, hakimlərin səlahiyyət müddəti, hakimlərin müstəqilliyi, məhkəmənin sədr və müavinlərinin təyin edilməsi, hakimlərin hüquqları, vəzifələri, sədr, hakimin səlahiyyətinə vaxtından əvvəl xitam verilməsi, icraatın prinsipləri, icraatın aparıldığı dil, məhkəmə iclaslarının aparılma qaydası, iclas protokolları və s. məsələlər əksini tapmışdı. Bu qanun hüquqi dövlət quruculuğu istiqamətində mühüm addım oldu.

616 Əliyev H.Ə. Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə nitq. 11 oktyabr 1997-ci il // Müstəqilliyimiz əbədidir. XII kitab, s. 311-315.
617 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 286.

Avropa Şurası ilə Azərbaycan Respublikası arasında münasibətləri intensivləşdirmək məqsədi ilə 1998-ci il yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi haqqında" sərəncam imzaladı.[618] Sərəncamda Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi sahəsində Azərbaycanda görüləcək işlər və Avropa Şurası ilə əməkdaşlıq məsələləri əksini tapmışdı.

Həmin işləri reallaşdırmaq üçün Azərbaycan tərəfi səylərini artırdı. Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması üzrə Avropa Şurası Parlament Assambleyasının məruzəçiləri Jak Bomel və Corc Klerfayt 1998-ci il yanvarın 21-22-də Azərbaycanda səfərdə olarkən dövlət başçısı ilə keçirilən görüşdə Azərbaycan Respublikasının Prezidenti ölkədə aparılan islahatların mahiyyətini izah etdi.[619] Jak Bomel isə Azərbaycanda görülmüş işlərdən razılıq ifadə edərək dedi:

*"...biz Bakıya Azərbaycanın Avropa Şurasına qəbul olunması prosesini hazırlamaq və bu işi tezliklə başa çatdırmaq ümidi ilə gəlmişik. Mən bu dəfəki səfərdə görürəm ki, Azərbaycanda həqiqətən böyük müsbət dəyişikliklər olmuşdur. Mən təsdiq edirəm ki, sizin respublikanızın həyatında həddindən artıq yaxşılaşma prosesi getmişdir. Mən bu müsbət dəyişiklikləri, yaxşılaşmanı birinci növbədə insanların həyatında, ikinci isə cəmiyyətin demokratik yolla inkişafında görürəm".*[620]

Səfərdən sonra Azərbaycan tərəfi insan hüquqlarının qorunması və demokratikləşdirmə sahəsində Avropa Şurası ilə əməkdaşlığını genişləndirdi.[621] Azərbaycan Respublikasının Prezidenti 1998-ci il yanvarın 22-də vətəndaşların insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında fərman verdi.

618 Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 20 yanvar 1998-ci il // "Xalq qəzeti", 1998, 22 yanvar.
619 Əliyev H.Ə. Avropa Şurası Parlament Assambleyasının (AŞPA) nümayəndə heyəti – Azərbaycan Respublikasının Avropa Şurasına daxil olmasına dair AŞPA-nın məruzəçiləri Jak Bomel və Corc Klerfayt ilə görüşdə çıxış. 22 yanvar 1998-ci il // Müstəqilliyimiz əbədidir. XIV kitab. Bakı, 2005, s. 157-163.
620 Parlament xəbərləri // "Xalq qəzeti", 1998, 22 yanvar.
621 Seyidov S. Democracy, Human Rihts and Foreign Policy: From Winston Churshill to Heydar Aliyev // Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p.299-322.

### *12.3. Ölüm hökmünün ləğvi*

Avropa Şurası ilə əməkdaşlıqla paralel ölkədə aparılan geniş demokratik islahatlardan biri ölüm hökmünün ləğv edilməsi oldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi haqqında 1998-ci il fevralın 3-də Milli Məclisə müraciət etdi.[622]

Qeyd etmək lazımdır ki, uzun müddət Azərbaycanda ölüm hökmü tətbiq edilmişdi. 1988-ci ildə ölüm cəzasına məhkum edilmiş 5, 1989-cu ildə 6, 1990-cı ildə 3 şəxs barəsində ölüm hökmləri icra edilmişdi. Bundan üç il sonra ölüm hökmləri icra olunmamışdı. Yalnız 1993-cü ilin fevral ayında 8 nəfər barəsində ölüm hökmləri tələsik icra edilmişdi. Ölüm cəzasının icrasına 1993-cü ilin iyun ayından faktiki moratorium qoyulmuşdu.

Ölüm hökmünün ləğvini bir sıra amillər zəruri edirdi. Məlum olduğu kimi, Azərbaycan Respublikasının konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etmişdi. Həmin məqsədə nail olmaq üçün Azərbaycanda ümumbəşəri dəyərlərə və inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanan qanunvericilik bazası yaradılırdı. Bu siyasətin ardıcıl və məqsədyönlü davam etdirilməsi üçün zəruri tədbirlər həyata keçirilirdi. Məramı dünyəvi, hüquqi dövlət qurmaq olan Azərbaycan Respublikasında hər bir insanın təbii və ayrılmaz hüququ olan yaşamaq hüququna əsaslı təminatlar verilmiş və insanın həyatdan məhrum edilməsi yolverilməz hesab olunmuşdu.

Konstitusiyada ölüm cəzası tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı, xüsusilə ağır cinayətlərə görə müstəsna cəza tədbiri kimi göstərilmiş və daimi cəza növü kimi nəzərdə tutulmamışdı. İnsan ləyaqətinə, bütövlükdə insan hüquqları ideyasına zidd olan bu cəzanın tətbiqi, hansı dəlillərə əsaslanmasından asılı olmayaraq demokratik cəmiyyətdə qeyri-insani və amansız tədbir kimi qiymətləndirilirdi.

Prezident Heydər Əliyevin məktubunda yazılırdı:

*“1992-ci ildə müstəqillik və demokratiya şüarları ilə hakimiyyətə gələn AXC-Müsavat liderləri totalitar rejimlərə xas olan antihumanist, qeyri-insani qanunların icrasını davam etdirirdilər. Bununla da onlar əhalidə qorxu, vahimə hissi, müstəqil dövlətin gələcəyinə inamsızlıq əhval-ruhiyyəsi yaratmağa can atırdılar. Müstəqilliyin qorunması, ərazi bütövlüyünün bərpası, dövlət təhlükəsizliyinin təmin edilməsi və ordu quruculuğu üçün təxirəsalınmaz tədbirlərin görülməsi zəruri olduğu halda ölüm hökmlərinin icrası vacib ümumdövlət tədbiri kimi ortaya atılmışdı.*

622 Əliyev H.Ə. Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi haqqında Milli Məclisə müraciət. 3 fevral 1997-ci il // Müstəqilliyimiz əbədidir. XIV kitab, s. 206-210.

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini cəmi bir aya yaxın müddətdə həyata keçirmiş Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbərov 1992-ci il iyunun 16-da 7 nəfərin bağışlanma haqqında vəsatətlərini, əslində buna səlahiyyəti olmadığı halda, rədd etmiş və bu barədə müvafiq fərmanlar imzalamışdı. Belə ki, 1992-ci il iyunun 7-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkiləri nəticəsində Əbülfəz Elçibəyin Azərbaycan Respublikasının Prezidenti seçilməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarı 1992-ci il iyunun 13-də qəbul edilmiş və seçkilərin nəticələri rəsmən elan olunmuşdu. O zaman qüvvədə olmuş Azərbaycan Respublikasının Prezidenti seçkiləri haqqında 1991-ci il 26 iyun tarixli Azərbaycan Respublikası qanununun 18-ci maddəsinə əsasən seçkilərin nəticələrinin rəsmən elan olunduğu gündən Əbülfəz Əliyev Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə başlamış hesab edilirdi.*

*Beləliklə, Əbülfəz Elçibəy Azərbaycan Respublikasının Prezidenti vəzifəsinin icrasına başlamış olduğu halda onun əfv etmə səlahiyyətlərini qanunsuz olaraq İsa Qəmbərov həyata keçirmişdir".*[623]

Məktubda yazılırdı ki, bundan əlavə, İsa Qəmbərov həmin fərmanları imzalayarkən əfv məsələlərinə baxılması qaydaları pozulmuş, o dövrdə Azərbaycan Respublikasının Prezidenti yanında Bağışlama Məsələləri Komissiyası fəaliyyət göstərməmişdi. Bu komissiya yalnız 1992-ci il iyulun 12-də təşkil edilmişdi.

Məktubdan aydın olurdu ki, Prezident Əbülfəz Elçibəy 1993-cü il yanvarın 5-də ölüm cəzasına məhkum olunmuş 2 şəxsin vəsatətlərinin rədd edilməsinə dair fərman imzalamışdı. Bundan sonra Əbülfəz Elçibəy həmin şəxslərdən birinin barəsində hökmün qanuniliyinin yoxlanılmasını Azərbaycan Respublikasının Prokurorluğuna tapşırmış, lakin yoxlama başa çatdırılmadan ölüm hökmü icra edilmişdi.

İnsan həyatına belə laqeyd münasibət Azərbaycan cəmiyyətində vaxtilə hökm sürmüş hərc-mərcliyin və özbaşınalığın nəticəsi idi. Bu isə öz növbəsində insan hüquq və azadlıqlarının kobud surətdə pozulmasına gətirib çıxarmışdı.

Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra əmin-amanlıq, ictimai-siyasi sabitlik yaradılmış, vətəndaş cəmiyyəti bərqərar edilmiş, insanların həyatına təhlükə yaradan silahlı dəstələr və terrorçu qruplar zərərsizləşdirilmiş, dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alınmış, cinayətkarlar məsuliyyətə cəlb edilərək layiqli cəzalarını almışdılar. Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi Azərbaycanda insanların dinc, təhlükəsiz yaşamasına, qanunun aliliyinin bərqərar edilməsinə zəmin yaratmışdı. Digər tərəfdən, hüquqi islahatların aparılması, cinayət qanunvericiliyinin humanistləşdi-

623 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə məktubu. 03.02.1998 //ARMMA, f.2941, siy.1, iş 574, v. 133-134.

rilməsi, insan hüquqlarının və azadlıqlarının qorunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdi. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanda ölüm hökmünə faktiki olaraq moratorium qoyulmuşdu. Hətta vətən və xalq qarşısında ən ağır cinayətlər törədən, 1991-1993-cü illərdə hakimiyyətsizlikdən istifadə edib torpaqları düşmənə təslim edən Rəhim Qazıyev, separatçı Əlikram Hümbətov, təxribat və terror törədən Elçin Əmiraslanov, dövlət çevrilişi cəhdlərinin təşkilatçıları Surət Hüseynov və Cavadov qardaşlarının əlaltıları və qanunsuz silahlı dəstələrin azğınlaşmış üzvləri, Tarix Quliyev və bu kimi qatillər, təhlükəli canilər barəsində ölüm hökmləri icra olunmamışdı.

Bilavasitə Heydər Əliyevin rəhbərliyi altında cinayət-hüquq siyasətinin humanistləşdirilməsi ilə bağlı görülən işlər, o cümlədən cinayət məcəlləsinin ölüm cəzasını nəzərdə tutan 21 maddəsinin sanksiyalarından bu cəzanın çıxarılması, qadınlara, 65 yaşına çatmış kişilərə ölüm cəzasının tətbiqinin qadağan edilməsi, 1705 məhbusun əfv edilməsi, o cümlədən ölüm cəzasına məhkum edilmiş 12 şəxsin əfv olunaraq cəzalarının azadlıqdan məhrumetmə ilə əvəz edilməsi və amnistiya qaydasında 17 mindən artıq şəxsin müxtəlif cəzalardan azad edilməsi və onların yenidən cəmiyyətə qayıtması üçün şərait yaradılması Azərbaycanda demokratik, hüquqi dövlətin təzahürləri idi. Bütün bunlar Azərbaycan xalqının çoxəsrlik ənənələrindən irəli gəlir, ən yüksək dəyər olan insan həyatının qorunmasına təminat verir, cəmiyyəti humanistləşdirir, insan ləyaqətinə hörmət və ehtiramı, bütünlükdə Azərbaycanda demokratiyanın inkişafını göstərir, xalqda nikbin gələcəyə inam hissini yaradırdı.

Məktubda yazılırdı:

*"Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm.*

*Ölüm cəzasının ləğvini məhz bu siyasətin məntiqi nəticəsi kimi qiymətləndirirəm.*

*Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut edir...*

*Şübhə etmirəm ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatları da indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətlərini dərk edərək bəyanata tərəfdar çıxacaq və bu amansız cəzanın ləğv edilməsinə səs verəcəklər".*[624]

Məktubda daha sonra vurğulanırdı:

*"Eyni zamanda, ölüm cəzasının ləğvi məsələsi müzakirə edilərkən Azərbaycanda mövcud reallıqlar və ilk növbədə Ermənistan tərəfindən torpaqlarımızın*

624 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə məktubu. 03.02.1998 //ARMMA, f.2941, siy.1, iş 574, v.135-136.

*işğal ediməsi nəzərə alınmalıdır. Şübhəsiz ki, müharibə zamanı hər bir dövlətin bu cəza növünü tətbiq etmək hüququ saxlanıla bilər. Bu müddəa, həmçinin beynəlxalq hüquq normalarına uyğundur".*[625]

Müraciətə baxan Milli Məclis fevralın 10-da Azərbaycanda ölüm hökmünün ləğv edilməsi haqqında qanunu qəbul etdi.

Ölüm hökmünün ləğv edilməsi haqqında qanunun qəbul olunmasının böyük əhəmiyyəti var idi. Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzası ləğv edildi. Bu, tarixi hadisə olmaqla bərabər cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində atılan qətiyyətli addım və bütövlükdə hüquq sistemində həyata keçirilən islahatların mühüm mərhələsini təşkil edir, ölkənin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha göstərirdi.

1998-ci il fevralın 22-də Azərbaycan Respublikasının Prezidenti insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsinə dair tədbirlər haqqında fərman imzaladı. Fərmana uyğun olaraq, insan hüquqlarının daha etibarlı qorunmasına yönəlmiş konsepsiya, əsas prinsiplər və prioritet istiqamətlər işlənib hazırlandı. Bir müddət sonra, həmin ilin iyunun 18-də Azərbaycan Respublikasının Prezidenti İnsan hüquqlarına dair Dövlət Proqramı haqqında sərəncam imzaladı.[626] Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili vəzifəsinin yaradılması insan hüquqlarının qorunmasında mühüm vasitə oldu.

Ölkədə sosial, siyasi və iqtisadi sahələrdə digər demokratik islahatlar həyata keçirildi. Kütləvi informasiya vasitələri haqqında qanun qəbul edildi. 1998-ci il avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti söz, fikir və informasiya azadlıqlarının təmin edilməsi haqqında əlavə tədbirlər haqqında fərman imzaladı.[627] Fərmana əsasən, Nazirlər Kabineti yanında mətbuat və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarə ləğv edildi. Qeyd etmək lazımdır ki, bütün sovet dövründə mətbuat, nəşrlər və digər kütləvi informasiya vasitələri üzərində dövlət nəzarəti mövcud olmuşdu. Nazirlər Kabineti yanında mətbuat və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarə hələ 1966-cı il oktyabrın 27-də yaradılmışdı. 1990-cı il dekabr ayının 5-də Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə onun yeni əsasnaməsi təsdiq edilsə də, əslində bu idarənin fəaliyyətində heç bir ciddi dəyişiklik baş verməmişdi. 1996-cı il noyabrın 15-də Dövlət sirri haqqında Azərbaycan Respublikasının qanunu qəbul edildikdən sonra idarənin iş metodlarında cid-

625 Yenə orada.
626 Azərbaycan Respublikası. 1991-2001. Bakı, 2001, s.102.
627 Əliyev H.Ə. Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında. 6 avqust 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVII kitab, s.71-76.

di dəyişikliklər edildi. Buna baxmayaraq, idarə fəaliyyətini yeni şəraitə uyğun qura bilmədiyi üçün ləğvi məsələsi gündəliyə gəlmişdi. Göstərilən sərəncama uyğun olaraq idarə ləğv edildi. Ölkə tarixində ilk dəfə olaraq kütləvi informasiya vasitələrinə sərbəstlik verildi.

Azərbaycan dövlətinin həyata keçirdiyi demokratik islahatlarının göstəricisi olan bu tədbirlər daxili tələbatdan doğur, ölkənin beynəlxalq nüfusunu artırır və rolunu möhkəmləndirirdi. Bütün bu islahatlarla yanaşı Azərbaycan dövlətinin qarşısında dayanan ən vacib vəzifələrdən biri Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini dinc siyasi vasitələrlə tənzimləmək idi.

## *12.4. Minsk qrupu həmsədrlərinin təklifləri*

Azərbaycanda daxili ictimai-siyasi sabitliyin yaradılması, neft müqavilələrinin imzalanması, dünya dövlətləri ilə əlaqələrin tədricən qaydaya düşməsi və beynəlxalq təşkilatlarla əməkdaşlıq Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətində mövqelərini möhkəmləndirirdi. Münaqişənin nizamlanmasına münasibətdə tərəflərin mövqelərinin toqquşması ATƏM üzvü olan ölkələrin dövlət başçılarının 1994-cü il dekabrın 5-6-da Macarıstanın paytaxtı Budapeştdə keçirilən zirvə toplantısında özünü göstərdi. Toplantıda Prezident Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak edirdi.[628] ABŞ Prezidenti Bill Klinton, BMT baş katibi Butros Butros Qali və b. çıxış edərək münaqişənin tənzimlənməsi məsələsində çoxtərəfli sülh səylərini müdafiə etdilər.

Heydər Əliyev dekabrın 6-da zirvə görüşündə etdiyi nitqində Azərbaycan ərazilərinin işğal edildiyini, azərbaycanlıların öldürüldüyünü, yaralandığını, əlil olduğunu, əsir düşdüyünü, doğma ocaqlarından qovulduğunu, çadır şəhərciyində yaşamağa məcbur olduğunu, işğal edilmiş ərazilərdə şəhər və kəndlərin dağıdıldığını, bütün evlərin, məktəblərin, xəstəxanaların yandırıldığını və qarət edildiyini, ən qədim mədəniyyət abidələrinin məhv edildiyini fakt və materiallarla iştirakçıların diqqətinə çatdırdı.[629]

Ermənistan Prezidenti Levon Ter-Petrosyan isə çıxışında millətlərin öz müqəddəratını təyinetmə prinsipini bu münaqişəyə tətbiq etməyə, Azərbaycanın

628 CSCE. Budapest summit. 1994. Journal №2. // OSCE Archive in Prague. OSCE Budapest summit. 1994. File №210.

629 Əliyev H.Ə. ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə çıxış. 6 dekabr 1994-cü il // Müstəqilliyimiz əbədidir. II kitab, s.573-576.

Dağlıq Qarabağ regionunun erməni icmasını münaqişədə iştirak edən tərəflərdən biri kimi qəbul etdirməyə cəhd göstərdi.

Levon Ter-Petrosyan ilə keçirdiyi görüşdə Heydər Əliyev hamı üçün ədalətli sülhün təmin olunması, işğal edilmiş ərazilərin boşaldılması və məcburi köçkünlərin ev-eşiklərinə qayıtması şərtlərini irəli sürdü. Ermənistan Prezidenti isə guya ölkəsinin blokadada saxlanılması, millətlərin öz müqəddəratını təyin etməsi və Dağlıq Qarabağın statusu haqqında ümumi ifadələr işlətməklə münaqişənin tənzimlənməsindən yayınmağa çalışdı.

Zirvə görüşündə "Dağlıq Qarabağ münaqişəsinə dair ATƏT-in fəaliyyətinin fəallaşması" adlı 5 bənddən ibarət qətnamə qəbul edildi.[630] Rusiyaya Minsk qrupunda həmsədrlik səlahiyyəti verildi, ATƏM isə 1995-ci il yanvarın 1-dən etibarən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) çevrildi.

Bu zaman Minsk qrupunun fəaliyyəti əsasən üç istiqamətdə davam edirdi: atəşkəs rejiminin gücləndirilməsi; hərbi münaqişənin dayandırılması məqsədi ilə böyük siyasi saziş bağlamaq üçün danışıqlar prosesinin davam etdirilməsi; humanitar məsələlərin həll edilməsi.

1995-ci il avqustun 28-də ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə şəxsi nümayəndəsi vəzifəsi təsis olundu.

Prezident Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyətinin ATƏT-in 1996-cı il dekabrın 2-3-də keçirilən Lissabon zirvə görüşündə iştirakında əsasən aşağıdakı məqsədlər güdülürdü: toplantının kürsüsündən və keçirilən ikitərəfli görüşlərdən istifadə edərək münaqişənin əsl mahiyyətini, davakar separatizm və onun nəticələrini, Ermənistanın beynəlxalq birliyin iradəsinə hörmətsizlik etməsini, BMT və ATƏT prinsiplərini pozmasını, siyasətinin ümumavropa təhlükəsizliyi üçün təhlükə olmasını çatdırmaq və işğalçı ölkənin əməllərinə qiymət verilməsinə nail olmaq; münaqişənin tənzimlənməsinə dair başlıca prinsipləri yekun sənədinə və qəbul edilən bəyanatlara daxil etmək; dünyanın diqqətini bu məsələyə yönəltmək.[631]

Zirvə görüşündə etdiyi nitqində Heydər Əliyev Ermənistanın hərbi təcavüzü və onun nəticələri üzərində dayandı, beynəlxalq sülhün qorunmasında ATƏT-in rolunu yüksək qiymətləndirdi, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edildiyini, Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyini diqqətə çatdırdı və nizamasalmada kompromisli üsulun tərkib hissələrini açıqladı: Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycan

630 Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi. Zirvə görüşü. Budapeşt. 6 dekabr 1994-cü il. II. Regional məsələlər. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ATƏM fəaliyyətinin fəallaşması // "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, №2, s.117-118.

631 OSCE. Lisbon summit. 2-3 December, 1996 // OSCE Archive in Prague. Lisbon summit. 2-3 December, 1996. Journal 1 and 2. Documents. List of participiants. File №226.

Respublikasının tərkibində Dağlıq Qarabağ regionunun bütün əhalisi üçün təhlükəsizliyin təminatı.[632]

Azərbaycan dövlətinin ATƏT prinsipləri əsasında ərazi bütövlüyünü qorumaq şərti ilə Dağlıq Qarabağ regionuna ən yüksək status vermək təklifi Minsk qrupunun bütün üzvləri tərəfindən qəbul olunsa da, Ermənistan razılaşmadı. Lissabon zirvə görüşünün yekun bəyannaməsinin 20-ci maddəsi mübahisələrə səbəb olduğundan Azərbaycan bütün sənədə konsensus vermədi. Heydər Əliyevin Levon Ter-Petrosyan ilə keçirdiyi görüş də nəticəsiz olduqda ABŞ-ın vitse-prezidenti Albert Qor vəziyyətdən çıxış yolunu belə təklif etdi:

*"...sənədlərdən heç birisi barədə konsensus yoxdur. Azərbaycan bütün mətni əhatə edən öz kvadratşəkilli mötərizələrini götürmədi. Sual belədir: Biz sənəddə əksini tapmalı olan tarazlıq barəsində razılığa gələrək, 20-ci maddənin mahiyyətini götürə bilərikmi və 20-ci maddənin bu mahiyyətini sənəddə deyil, ATƏT-in indiki sədrinin bəyanatına daxil edə bilərikmi? Bu, yaranmış vəziyyətdə mümkün olarsa, bəlkə onda Azərbaycan bütün sənədin ətrafındakı öz kvadratşəkilli mötərizələrini götürməyə razılıq verərdi".*[633]

Azərbaycan tərəfi Albert Qorun təklifi ilə razılaşdı. ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kottinin bəyanatında münaqişənin tənzimlənməsinə dair iştirakçı dövlətlər tərəfindən *(Ermənistan istisna olmaqla – M.Q.)* aşağıdakı prinsiplərə razılıq verilirdi: Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü; Azərbaycanın tərkibində Dağlıq Qarabağ regionuna ən yüksək dərəcəli özünüidarəetmə hüququ verən öz müqəddəratını təyinetmə əsasında Dağlıq Qarabağın sazişlə müəyyən edilmiş hüquqi statusu; tənzimlənmə müddəalarına bütün tərəflərin riayət etməsini təmin edən qarşılıqlı öhdəliklər daxil olmaqla Dağlıq Qarabağın və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi.[634]

Zirvə görüşündən sonra ATƏT-in həmsədrlik institutunda dəyişiklik baş verdi. 1997-ci il yanvarın 1-dən etibarən Minsk prosesini həmsədrlər qismində ABŞ, Rusiya və Fransa aparmağa başladılar.

Minsk qrupu çərçivəsində 1997-ci il aprelin 1-5-də Moskvada keçirilən ilk görüşdə nizamasalmanın iki mərhələdən ibarət olduğu aydınlaşdı: birinci mərhələdə silahlı münaqişənin dayandırılması haqqında saziş layihəsinin işlənib hazırlanması və müzakirəsi, ikinci mərhələdə isə Azərbaycan, Ermənistan və maraqlı tərəflərin – Azərbaycanın Dağlıq Qarabağ regionunun erməni icması və

632 Əliyev H.Ə. ATƏT-in Lissabon zirvə görüşündə nitq. 2 dekabr 1996-cı il // Müstəqilliyimiz əbədidir. VIII kitab, s.89-93.

633 Əliyev H.Ə.ATƏT-in Lissabon zirvə görüşünün yekun iclasında nitq. 3 dekabr 1996-cı il // Müstəqilliyimiz əbədidir. VIII kitab, s.95.

634 Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Zirvə görüşü. Lissabon. 3 dekabr 1996-cı il. Əlavə 1. ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatı // "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, № 2, s. 120.

azərbaycanlı əhalisinin nümayəndələrinin iştirakı ilə və habelə onların iştirakı olmadan Minsk qrupunun iclasları keçirilməli idi.

Moskva görüşündə Azərbaycan tərəfi əsas diqqətini Ermənistanın Şuşa və Laçını boşaltması məsələsinə yönəltdi. Ermənistan isə Dağlıq Qarabağ regionunun erməni icmasının təhlükəsizliyi məsələsini status məsələsi ilə əlaqələndirdi. Azərbaycan diplomatiyası status məsələsinin Minsk konfransında müzakirə ediləcəyini bildirdi.

Azərbaycan tərəfi Rusiyanın Ermənistana qanunsuz olaraq silah göndərməsi məsələsini gündəliyə gətirərək Minsk qrupundan bu məsələyə münasibət bildirməsini istədi. Münaqişə bölgəsinə silah göndərilməsinin vəziyyəti gərginləşdirəcəyi qənaətində olan Minsk qrupu məsələyə dair aparılan təhqiqatın nəticələrini gözləməyi tövsiyə etdi.

Minsk qrupu çərçivəsində görüşlər 1997-ci ilin aprel ayından etibarən dayandırıldı, onu həmsədrlərin regiona səfərləri əvəz etdi. Rusiya, Fransa və ABŞ-dan olan həmsədrlər V.Lozinski, J.Blo və S.Telbott münaqişənin nizama salınmasına dair təklifləri ilə 1997-ci il iyunun 1-də Ermənistan və Azərbaycana gəldilər.[635] Həmsədrlər münaqişənin nizamlanmasına dair hərtərəfli saziş layihəsini tərəflərə təqdim etdilər. Paket həlli adlandırılan bu layihə iki hissədən ibarət idi.[636] Paket həlli tərəflərin bütün mübahisəli məsələlərə dair ilkin razılıq əldə etməsini, razılaşmanın qarşıdakı sülhün bütün problemlərini və aspektlərini əks etdirən paketdə toplanmasını və bu hərəkətlərin gələcəkdə gerçəkləşdirilməsini nəzərdə tuturdu. Buna əsasən, silahlı münaqişə dayandırılmalı və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusuna dair razılaşma əldə edilməli idi.

Münaqişənin tənzimlənməsinə dair təklifə Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları da münasibətlərini bildirdilər. Kolorado ştatının inzibati mərkəzi olan Denverdə keçirilən böyük səkkizlərin toplantısı çərçivəsində görüşən ABŞ Prezidenti Bill Klinton, Rusiya Prezidenti Boris Yeltsin və Fransa Prezidenti Jak Şirak 1997-ci il iyunun 20-də Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə kömək edilməsi barədə birgə bəyanat imzaladılar.[637] Bəyanatda dövlət başçıları münaqişənin davam etməsindən narahatlıqlarını bildirir, onun bütün Qafqaz regionunda iqtisadi və ictimai inkişafı, rifahı ciddi surətdə sarsıtdığını qeyd edir, 1 milyondan çox adamın evlərindən didərgin düşdüklərini göstərir, atəşkəsin davam etməsini müsbət qiymətləndirir, münaqişənin tənzimlənməsinə kömək edəcəkləri vədini verir, Azərbaycan və Ermənistan

635 Armenia – Azerbaijan conflict. GRS. Issue Brief. September 24, 1997, p.7.
636 Muradova B. Ə. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ATƏT-in rolu. Namizədlik dissertasiya işinin avtoreferatı. Bakı, 2009, s.20.
637 Declaration by president Jacques Chirac of France, president Boris Yeltsin of the Russian Federation and president William J. Clinton of the United States of America on the Nagorno Karabakh conflict. June 20, 1997 // OSCE Archive in Prague. File: Nagorno Karabakh.

rəhbərlərinin birbaşa görüşlərinin keçirilməsini tövsiyə edirdilər. ABŞ, Rusiya və Fransa prezidentləri Minsk qrupu həmsədrlərinin yeni təkliflərini bəyənirdilər.

Minsk qrupunun üç həmsədr ölkəsinin dövlət başçılarının imzaladıqları ilk bəyanat əhəmiyyətli idi. Onlar münaqişənin tənzimlənməsində maraqlı olduqlarını bəyan edirdilər.

Azərbaycan tərəfi Denver bəyanatını münaqişənin sülh yolu ilə həlli istiqamətində mühüm addım kimi qiymətləndirərək Minsk qrupu çərçivəsində fəaliyyətə tərəfdar olduğunu bildirdi.

Bəyanatın verilməsindən bir müddət sonra, iyulun 18-də Minsk qrupunun həmsədrləri Y.Yukalov (Rusiya), J.Vojye (Fransa) və C.Pressel (ABŞ) regiona səfər edərək münaqişənin nizama salınması üzrə məsləhətləşmələr keçirdilər. Azərbaycan tərəfinin paket həlli layihəsi ilə bağlı konstruktiv məsləhətləşmələrə başlamağa hazır olmasına baxmayaraq, Ermənistan təklif olunan yanaşmanı rədd etdi. Beləliklə, paket həlli gerçəkləşmədən kənara qoyuldu.

Həmsədrlər 1997-ci il sentyabrın 19-23-də bölgəyə növbəti səfərləri zamanı münaqişənin mərhələli həllinə əsaslanan yeni təklif təqdim etdilər. Həmin təklif ilk mərhələdə 6 rayonun (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) işğaldan azad olunmasını, ATƏT-in sülhyaratma əməliyyatlarının başlanmasını, məcburi köçkünlərin azad olunmuş ərazilərə qayıtmasını və münaqişə bölgəsində əsas kommunikasiya vasitələrinin bərpasını nəzərdə tuturdu. İkinci mərhələdə isə Laçın və Şuşa məsələləri həll edilməli, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusunun əsas prinsipləri qəbul olunmalı və ATƏT-in Minsk konfransı çağırılmalı idi. Azərbaycan tərəfi bu təklifləri qəbul etdi.

Mərhələli həll planı Minsk qrupu həmsədrlərinin səyləri ilə, artıq qeyd edildiyi kimi, 1997-ci il oktyabrın 10-da Strasburqda keçirilən Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının ikinci zirvə toplantısı çərçivəsində Heydər Əliyev və Levon Ter-Petrosyan arasında keçirilən görüşdə müzakirə edilmişdi. Görüş ərəfəsində isə Azərbaycan tərəfi ATƏT-in Minsk qrupunun həmsədrlərinin yeni təkliflərinə müsbət münasibət bildirmişdi. Bu təkliflərdə münaqişənin iki mərhələdə həlli nəzərdə tutulurdu. Birinci mərhələdə bütün erməni silahlı qüvvələri Azərbaycanın işğal edilmiş altı rayonundan çıxarılmalı; məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtmalı; müharibə nəticəsində dağıdılmış bütün kommunikasiyalar bərpa edilməli idi. İkinci mərhələdə isə Şuşa və Laçın rayonları da azad edilməklə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusu məsələsi həll olunmalı idi.

Ermənistan tərəfi də ATƏT-in Minsk qrupunun həmsədrlərinin verdikləri son təklifləri müzakirə etməyə razı olduğunu bildirdi. Görüş zamanı belə bir

fikir ifadə edildi ki, münaqişə sülh yolu ilə aradan qaldırıla bilər və bu proses Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplərə əsaslanmalıdır.

Görüşün sonunda Heydər Əliyev və Levon Ter-Petrosyanın münaqişənin siyasi vasitələrlə, ilk növbədə danışıqlar yolu ilə həllinə sadiq olduqlarını vurğuladıqları birgə bəyanatda yazılırdı:

*"Azərbaycan və Ermənistan belə hesab edirlər ki, Minsk konfransı həmsədrlərinin Minsk qrupu çərçivəsində göstərdikləri fəallıq münaqişəyə cəlb olunmuş bütün tərəflərin konstruktivliyi şəraitində həmin münaqişənin aradan qaldırılması işində real irəliləyişə nail olmağa imkan verə biləcək bazanın yaradılmasına yönəlmişdir. Azərbaycan və Ermənistan belə hesab edirlər ki, Minsk qrupu həmsədrlərinin son təklifləri Minsk qrupu çərçivəsində danışıqların yenidən başlanması üçün ümidverici əsasdır".*[638]

Fransaya səfər çərçivəsində oktyabrın 15-də Parisdə Diplomatiya Akademiyasında çıxış edən Levon Ter-Petrosyan bildirdi ki, Dağlıq Qarabağın əhalisinin təhlükəsizliyini, həmçinin Dağlıq Qarabağ ilə Azərbaycan arasında birbaşa danışıqları təmin etmək lazımdır. Ermənistan Prezidentinin məsələyə yanaşmasında baş verən dəyişikliklər, artıq qeyd edildiyi kimi, Xəzər dənizinin Azərbaycan sektorundan hasil ediləcək əsas neftin Ermənistan ərazisindən keçərək Türkiyəyə çatdırılması üçün boru kəmərinin tikintisi barədə də müzakirələrin getməsi ilə bağlı idi. Levon Ter-Petrosyanın fikrincə, Azərbaycan Dağlıq Qarabağı anklav vəziyyətində saxlamaq ideyasından, Xankəndi isə müstəqilliyi birinci plana irəli sürmək ideyasından imtina etmişdi. O, Dağlıq Qarabağ regionunun öz müstəqilliyindən və Ermənistana birləşmək ideyasından imtina etməsini müsbət qiymətləndirdiyinə işarə edirdi.[639]

Noyabr ayında ATƏT-in Minsk qrupunun həmsədrlərinin regiona səfəri zamanı Azərbaycan tərəfi münaqişənin mərhələli həllinə dair təklifləri qəbul etdiyini bir daha bildirdi.

Minsk qrupu həmsədrləri 1997-ci il dekabrın 2-də regiona səfər zamanı mərhələli həll planının həyata keçirilməsi məsələlərini müzakirə etdilər. Heydər Əliyev həmsədrləri ləng işləməkdə tənqid etdi. Minsk qrupu adından danışan Yuri Yukalov Yerevan və Xankəndidə apardıqları müzakirələrdən sonra "uzlaşmaya problem çıxarmayan" Bakıya gəldiklərini dedi. ATƏT-in planına görə, çoxmillətli sülhməramlı qüvvələr Tərtər – Horadiz xətti boyunca yerləşdirilməli, ilk mərhələdə Qubadlı, Kəlbəcər, Zəngilan, Cəbrayıl, Ağdam və Füzuli rayonları

638 Azərbaycan və Ermənistan prezidentlərinin görüşündə Ermənistan – Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair müzakirə və danışıqların yekunu barədə məlumatın və mətbuat üçün birgə bəyanatın mətninin elan edilməsi. 10 oktyabr 1997-ci il // Müstəqilliyimiz əbədidir. XII kitab, s. 305-306.

639 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 244.

boşaldılmalı, ərazilər minalardan təmizlənməli, köçkünlər yurdlarına dönməli, ikinci mərhələdə isə Azərbaycanın Dağlıq Qarabağ regionunun statusu müəyyənləşdirilməli, Şuşa və Laçından erməni qoşunları çıxarılmalı və normal hala qaytarılmalı idi.[640]

ATƏT-in üzv olduğu ölkələrin Xarici İşlər Nazirləri Şurasının 1997-ci il dekabrın 17-18-də Kopenhagendə keçirilən altıncı görüşündə[641] çıxış edən Azərbaycanın xarici işlər naziri üzv ölkələrin onun prinsiplərinə riayət etmələrinin, bu sahədə birgə səylərin vacibliyini qeyd etdi, Azərbaycan üçün təhlükənin ölkə ətrafında gedən geosiyasi şəraitdən və Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaradılmış münaqişədən doğduğunu göstərdi, ATƏT ölkəsi olan Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün, insanın ali hüququ olan yaşamaq hüququnun pozulduğunu, Ermənistanın təcavüzünün ağır nəticələrini qeyd etdi. BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal edilmiş ərazilərinin qeyd-şərtsiz azad edilməsinə dair dörd qətnaməsinin, Lissabon zirvə görüşündə üzv dövlətlərin qəbul etdikləri üç prinsipin münaqişəni tənzimləmək üçün hüquqi baza yaratdığını, Azərbaycan tərəfinin münaqişənin mərhələli həllinə tərəfdar olduğunu vurğuladı.[642]

Xarici İşlər Nazirləri Şurası Minsk qrupu həmsədrlərinin hesabatını dinlədi.[643] Ona dair qəbul edilən qərarda münaqişənin tənzimlənməsində irəliləyiş olduğu qeyd edilir, həmsədrlərin səyləri bəyənilir, onlarla tam həmrəylik bildirilir və işi davam etdirmək tapşırılırdı. Xarici İşlər Nazirləri Şurası həmsədrlərin təklifləri əsasında danışıqların bərpasını tövsiyə etdi.[644]

Ölkəsinin düşmüş olduğu vəziyyəti real qiymətləndirən Ermənistan Prezidenti Levon Ter-Petrosyan Kopenhagen prinsiplərini qəbul etdi. Onun fikrincə, Ermənistan mövcud halda güclü olsa da, bir neçə ildən sonra zəifləyərək indiki mövqelərini saxlaya bilməyəcəkdi. Levon Ter-Petrosyanın bu mövqeyindən sonra Ermənistanda vəziyyət mürəkkəbləşdi. Baş nazir Robert Koçaryan və müdafiə naziri Serj Sarkisyan onun əleyhinə çıxdılar. Rusiya tərəfi Ermənistandakı vəziyyəti sabitləşdirməyi müzakirə etmək üçün 1998-ci ilin

640 Karabağda çözüm 1998'e kaldı // "Zaman" gazetesi, İstanbul, 1997, 7 Aralık.

641 18-19 December 1997 (Copenhagen). 6th Council of Ministers of Foreign Affairs. Journal No. 2 // OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.31-33.

642 Выступление министра иностранных дел Азербайджанской Республики Гасана Гасанова на СМИД ОБСЕ. Копенгаген, 18 декабря 1997 года // OSCE Archive in Prague. Copenhagen. 1997. 6-th Ministerial Council Meeting. File №261.

643 Report by the co-charmen of the OSCE Minsk Conference on Nagorno Karabakh to the Ministerial Council of the OSCE. Copenhagen, 18 December, 1997 // OSCE Archive in Prague. OSCE Ministerial Council. Copenhagen. 18-19 December, 1997. File №254.

644 Chairman's summary. // OSCE Archive in Prague. OSCE Ministerial Council. Copenhagen. 18-19 December, 1997. File №254.

fevral ayının əvvəllərində Levon Ter-Petrosyanı Moskvaya səfərə dəvət etmişdi. ABŞ Rusiyanın təklifi ilə razılaşaraq bildirmişdi ki, vəziyyəti sabitləşdirmək üçün Yerevana vaxt vermək lazımdır. Lakin Levon Ter-Petrosyanın mühafizə xidmətinin rəhbəri öldürüldü, özünə isə xəbərdarlıq edildi. Nəticədə Ter-Petrosyan Moskvaya getməkdən imtina etdi və təhdidlərə məruz qaldığından istefa verdi.

Bu zaman Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəhbərliyində dəyişiklik baş verdi. 1998-ci il fevralın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov işdən azad edildi. Həmin vəzifəyə Tofiq Zülfüqarov[645] təyin olundu.

Ermənistanda yaranmış vəziyyət diqqətlə izlənilirdi. ABŞ hökumətində belə hesab edirdilər ki, Ermənistan prezidenti vəzifəsinə vətəndaşlıq senzi uyğun gəlməsə də, Azərbaycanda doğulan baş nazir Robert Koçaryan gətiriləcəkdir. Elə də oldu. Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətrafında dinc azərbaycanlı əhalinin məhv edilməsində xüsusi ad çıxarmış Robert Koçaryan mart ayında hakimiyyətə gəldi. Münaqişənin nizama salınması prosesində imkanları məhdudlaşan Ermənistanda vaxt udmaq və vəziyyətdən çıxmaq üçün ölkə daxilində qarşıdurma, silahlı təzyiq və terror yoluna keçən radikal hərbçilər təklif olunan mərhələli həllə qarşı çıxdılar. Robert Koçaryan münaqişənin mərhələli həllinə dair Ermənistanın əvvəlki razılığını geri götürdü. Həmsədrlərin bölgəyə növbəti səfəri zamanı rəsmi mövqeyini bəyan edən Ermənistan rəhbərliyi danışıqları uzatmaq məqsədi ilə münaqişənin tənzimlənməsinin Xankəndidən asılı olduğunu deyərək, Bakı ilə Xankəndi arasında birbaşa danışıqların aparılması tezisini irəli sürdü.

Bundan sonra həmsədrlər münaqişənin tənzimlənməsinə dair yeni variantlar üzərində işləməyə başladılar. 1998-ci il noyabrın 9-da Azərbaycana səfər edən həmsədrlər Jorj Vojye (Fransa), Yuri Yukalov (Rusiya) və Donald Kayzeri (ABŞ) Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul olunarkən ümumi dövlət konsepsiyasına əsaslanan təklifi təqdim etdilər.[646] Bu təklifə əsasən, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə respublika formasında dövlət və ərazi vahidi statusu verilməli və o, Azərbaycanın Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan ilə birlikdə ümumi dövlət təşkil etməli idi. Azərbaycan tərəfi Ermənistanın bilavasitə hərbi təcavüzü nəticəsində yaradılmış qondarma qurum ilə ümumi dövlət yarada bilməzdi. Təklif Azərbaycan Respublikasının suverenliyinə və Lissabon zirvə görü-

645 Tofiq Zülfüqarov (1959 ) – Azərbaycan Respublikasının 4-cü xarici işlər naziri (1998-1999). Azərbaycan Respublikasının Latviya Respublikasında (2005-2010), Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri (2007-2015).

646 Əliyev H.Ə. ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündəki söhbətindən. 9 noyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 211-217.

şünün prinsiplərinə zidd olduğundan Azərbaycan dövləti noyabrın 19-da həmsədrlərə rəsmi məktub yazaraq onları rədd etdi.

Heydər Əliyev noyabrın 25-də ATƏT-in fəaliyyətdə olan sədri, Polşanın xarici işlər naziri Bronislav Geremekin[647] rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən Azərbaycan tərəfinin ümumi dövlət təklifini rədd etməsinin səbəblərini və ölkəsinin mövqeyini bir daha əsaslandırdı.[648] Heç bir beynəlxalq hüquqi əsası olmayan bu təklif Dağlıq Qarabağ bölgəsini müstəqil dövlət və ərazi birliyi kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabərhüquqlu ümumi dövlət statusu verir, Ermənistanın Azərbaycana qarşı təcavüzünü qanuniləşdirir, Azərbaycanı ərazisinin bir hissəsindən məhrum edirdi. Heydər Əliyev Ermənistanın sülh yolundan boyun qaçırdığını ATƏT-in fəaliyyətdə olan sədrinin diqqətinə çatdırdı.

Ermənistan tərəfi isə Rusiya, ABŞ və Fransanın Yerevandakı səfirlərinə məktub göndərərək danışıqları canlandırmaq üçün ümumi dövlət təklifini əsas kimi qəbul etdiyini bildirdi.

Azərbaycan ümumi dövlət təklifini rədd etdikdən sonra Minsk prosesi çıxılmaz vəziyyətə düşdü və fəaliyyəti zəiflədi. Bundan sonra heç bir yeni təklif irəli sürülmədi.

### *12.5. 1998-ci il prezident seçkiləri*

1998-ci il Azərbaycan Respublikasında prezident seçkiləri ili idi. 1993-cü ilin oktyabrından ötən beş il ərzində Heydər Əliyev Azərbaycanı nəinki parçalanmaq, dövlət kimi yox olmaq təhlükəsindən qorumuşdu, həmçinin siyasi, iqtisadi, sosial həyatın müxtəlif sahələrində islahatlar həyata keçirməyə başlamış, ölkənin beynəlxalq aləmlə sabit və məqsədyönlü əlaqələrini genişləndirmiş və inkişaf etdirmişdi. Xarici siyasətin əsas prinsipləri və istiqamətləri dəqiq müəyyənləşdirilmişdi. Dövlətin xarici siyasətdə təkqütblülükdən və təkistiqamətlilikdən imtina olunmuş, tarazlaşdırılmış xətt qəbul edilmişdi.

1998-ci il iyunun 9-da Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında Azərbaycan Respublikasının qanunu qəbul edildi. Qəbul edilmiş qanun Azərbaycanda prezident seçkilərini sərbəst, azad, ədalətli keçirmək

647 Bronislav Geremek (1932-2008) – Polşanın xarici işlər naziri (1997-2000).

648 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT sədri Bronislav Geremekin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir // "Azərbaycan" qəzeti, 1998, 28 noyabr; Əliyev H.Ə. ATƏT-in hazırki sədri Polşanın xarici işlər naziri Bronislav Geremek ilə təkbətək görüşdəki söhbətdən. 25 noyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 261-265; Əliyev H.Ə. ATƏT-in hazırki sədri Polşanın xarici işlər naziri Bronislav Geremek ilə təkbətək görüşü başa çatdıqdan sonra nümayəndə heyətlərinin görüşündə çıxış. 25 noyabr 1998-ci il // Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 266-274.

üçün özündə bütün tələbləri əks etdirirdi və ümumi demokratik prinsiplərə uyğun idi. Seçkilərin keçirilməsinə xüsusi əhəmiyyət verən, demokratik prinsiplərin Azərbaycanda ardıcıl surətdə tətbiq edilməsini mühüm vəzifə hesab edən hakimiyyət orqanları qanun layihəsi müzakirə olunarkən ATƏT-in Demokratiya İnstitutu və ABŞ-ın Milli Demokratiya İnstitutu ilə məsləhətləşmələr aparmışdı.[649]

Prezident Heydər Əliyev seçkidə iştirak etmək istəməsə də, Azərbaycan xalqı ona böyük dəstək nümayiş etdirdi. Ölkədə yaradılmış dörd seçici birliyinin və 11 təşəbbüs qrupunun üzvləri, eləcə də Heydər Əliyevin namizədliyini irəli sürmək üçün imza toplamış yüz minlərlə seçici 1998-ci il avqustun 7-də Heydər Əliyevə müraciətlə xahiş etdilər ki, keçiriləcək prezident seçkilərində iştirak etməyə razılıq versin.[650] Bu təkidli müraciətlərə cavab olaraq Heydər Əliyev bildirdi:

*"Mən bu münasibətlə onu deyə bilərəm ki, indiyə qədər mənim həyatım həmişə Azərbaycan xalqının iradəsinə tabe olmuşdur. Mən həyatımın mənasını həmişə xalqa xidmətdə görmüşəm. Son illər, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra öz xalqına xidmət etmək hər bir azərbaycanlı üçün böyük şərəfdir. Keçmişdə etdiyim xidmətlərin nə qədər böyük olmasına baxmayaraq, mən müstəqil Azərbaycana xidmət etməyi həyatımın ən mənalı, ən əhəmiyyətli hissəsi hesab edirəm. Ona görə də mən bu növbəti prezident seçkilərindən də kənarda qala bilmərəm".*[651]

Beləliklə, Heydər Əliyev xalqın xahişi ilə oktyabrın 11-də keçiriləcək prezident seçkilərində iştirak etməyə razılıq verdi.

Qeyd etmək lazımdır ki, müxalifət partiyaları seçkini boykot etmişdi. 1992-1993-cü illərdə Azərbaycanı məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuş bir sıra siyasi qüvvələr yenidən pozucu fəaliyyətlərini davam etdirirdilər. Onlar seçkini boykot etməklə qarışıqlıq yaratmaq niyyətində idilər. AXCP *(AXC əsasında 1995-ci ildə Azərbaycan Xalq Cəbhəsi Partiyası – AXCP yaradılmışdı – M.Q.)* 1998-ci ilin yayında "Müxalifətin mitinq taktikası" və "AXCP-nin iqtidara qarşı təbliğat mübarizəsi" adlı proqramlar hazırlamışdı. Obyektiv problemləri qabardıb faciə kimi təqdim etmək, şantaj, yalan məlumatlar, kütləvi çıxışlar, vətəndaş itaətsizliyi, pozuculuq fəaliyyəti, kəskin ittihamlarla hakimiyyəti cəmiyyətə xəyanətkar obrazında təqdim etmək, sosial-iqtisadi infrastrukturları dağıtmaq, hətta cəbhədə atəşkəsin pozulmasına nail olmaq, sosial partlayışlar törətmək, cəmiyyətlə

649 Respublikanın şəhər və rayon icra hakimiyyəti başçılarının iştirakı ilə keçirilən müşavirədə giriş sözü və yekun nitqi. 14 iyul 1998-ci il // Heydər Əliyevin nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. Elektron resurs. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf. s. 422.

650 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı // "Azərbaycan" qəzeti, 1998, 12 avqust.

651 Yenə orada.

iqtidar arasında qarşıdurma yaratmaq və digər pozucu tədbirlər planlaşdırılmış, həyata keçirilməsi üçün səylər göstərilməyə başlanmışdı.[652] Bütün bu fəaliyyətlər demokratiyadan uzaq olub dövlət və xalq əleyhinə yönəlmişdi.

Prezident seçkiləri ərəfəsində pozucu müxalifət partiyalarının SİDSUH (Seçki İslahatları və Demokratik Seçkilər Uğrunda Hərəkat) kimi cəlbedici ad daşıyan qeyri-formal təşkilatda birləşmələri, həmin ilin iyul-sentyabr aylarında təxribat törətməklə, qan tökülməsinə nail olmaqla cəmiyyəti hərəkətə gətirmək cəhdləri gözlənilən nəticəni vermədi. Müxaliflərin rəsmi şəkildə ayrılmış yerdə deyil, Azadlıq meydanında mitinq keçirmək bəhanəsi ilə sentyabrın 12-də aralarında daş, butulka, kəsici alətlərlə silahlanmış 200 nəfərə yaxın şəxsin polislə qarşıdurmasını törətməsi nəticəsində yaralananlar oldu. Bütün çağırışlara baxmayaraq, xalq müxalifətin zorakı tələblərini müdafiə etmədi.

Azərbaycan Milli İstiqlal Partiyasının namizədi Etibar Məmmədov yaranmış şəraiti əlverişli siyasi imkan kimi dəyərləndirərək boykotçu qüvvələrin tərəfdarlarının da səsini almaq üçün seçkiyə qatıldı. Seçkidə həmçinin Müstəqil Azərbaycan Partiyasından Nizami Süleymanovun, Azərbaycan Kommunist Partiyasından Firudin Həsənovun, Qeyrət Partiyasından Əşrəf Mehdiyevin, Azərbaycan Sosial Rifah Partiyasından Xanhüseyn Kazımlının namizədliyi qeydə alınmışdı. Geniş təbliğat-təşviqat kampaniyası aparılırdı. Namizdələr üçün televiziya və radioda öz platformalarını seçicilərə çatdırmaq üçün imkanlar yaradılmışdı.

1998-ci il oktyabrın 11-də ölkədə növbəti prezident seçkiləri keçirildi. Azərbaycan Respublikasında keçirilən sayca dördüncü prezident seçkiləri həm də 1995-ci ildə qəbul edilmiş ilk konstitusiya əsasında keçirilirdi.

Seçkilərdə 3 milyon 358 min 465 seçici iştirak etmişdi. Heydər Əliyev səslərin 77,6%-ini, müxalifətin əsas namizədi hesab edilən Etibar Məmmədov 11,8%-ni, Nizami Süleymanov 8,2%-ni, Firudin Həsənov 0,9%-ni, Əşrəf Mehdiyev 0,9%-ni, Xanhüseyn Kazımlı 0,3%-ni toplamışdı. 0,3% seçici heç bir namizədə səs verməmişdi.

Beləliklə, Heydər Əliyev seçkilərdə inamlı qələbə qazandı. Seçkilər Azərbaycan xalqının iradəsini əks etdirirdi.

Prezident seçkilərində Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin inamlı qələbə qazanması davamlı və sabit inkişafa zəmanət verirdi. Lakin xalqın böyük əksəriyyətinin dəstəyini almış Heydər Əliyevin bu parlaq qələbəsi azad, ədalətli və demokratik seçkilərdə qalib gələ bilməyəcəklərini yaxşı bilən bəzi müxalif siyasi partiyaların və onların ətrafında birləşən qrupların qeyri-demokratik, pozuculuq fəaliyyətlərini

652 Azərbaycan tarixi. 7 cilddə. VII cild (1941-2002-ci illər). Bakı, 2008, s. 293-294.

daha da artırdı. İstər prezident seçkilərini qondarma bəhanələrlə boykot, istərsə də seçkilərdə iştirak edən, lakin rəqabətdə məğlub olan müxalif siyasi partiyalar sosial dayaqlarının son dərəcə məhdud olduğunu görüb fəaliyyətlərində Azərbaycanda hökm sürən demokratik mühitin imkanlarından istifadə etmək əvəzinə, açıq-aşkar qarşıdurma yolunu seçərək konstitusiyaya zidd, demokratik olmayan üsullara əl atdılar.

Müxalifət nümayəndələrinin parlamentdə təmsil olunmasına, müxalifət qəzetlərinin maneəsiz və heç bir senzura qoyulmadan böyük tirajla çıxmasına, müxalif partiyaların və onların müxtəlif birləşmələrinin azad fəaliyyət göstərməsinə, sərbəst şəkildə aksiyalar keçirməsinə, ümumiyyətlə, mövcud iqtidarın müxalifətin fəaliyyəti üçün qanunla bütün zəruri şəraiti yaratmasına baxmayaraq, onlar siyasi mübarizədə legitim üsullardan istifadə etmək əvəzinə şər və böhtan kampaniyasına başladılar. Bunun əsas səbəbi ondan ibarət idi ki, müxalifətin sosial bazası çox zəif idi və xalqın əksəriyyəti tərəfindən dəstəklənmirdi.

Artıq qeyd edildiyi kimi, prezident seçkiləri haqqında qanunun qəbul edilməsi seçkilərin demokratik, azad, ədalətli keçirilməsi üçün şərait yaratsa da, SİDSUH deyilən quruma daxil olan partiyalar və qruplar prezident seçkilərində iştirak etməkdən boyun qaçırmış, seçkini pozmağı, xalqı mühüm siyasi tədbirdən yayındırmağı, aranı qarışdırmağı qarşılarına məqsəd qoymuşdular. Onlar Azərbaycan Respublikası Prezidentinin vətəndaş həmrəyliyinə nail olmaq istiqamətində atdığı addımlara məhəl qoymadan seçkiləri qəsdən pozmağa cəhd etmiş, seçkilər haqqında qanunda lüzumsuz dəyişikliklər edilməsi və seçkilərin başqa vaxta keçirilməsi iddiası ilə çıxış etməyə başlamışdılar. Seçki ərəfəsində mitinq, piket və küçə yürüşləri təşkil etmiş, lakin həmin tədbirlərdə cəmiyyətin çox az bir hissəsinin iştirak etməsi səbəbindən öz istəklərinə nail ola bilməmişdilər. Artıq qeyd edildiyi kimi, radikal müxalifətin sıralarına seçkidə məğlub olmuş Etibar Məmmədov AMİP-lə, Nizami Süleymanov MAP-la, Əşrəf Mehdiyev isə öz tərəfdarları ilə qatılmışdı. Müxalifət demokratik yolla seçilmiş prezidentin fəaliyyətinə mane olmaq, iğtişaşlar yaratmaq və hakimiyyətə qanunsuz yollarla gəlmək istəyirdi. Noyabrın 7-də AMİP qanunsuz küçə yürüşü keçirməyə cəhd etdi. Bir gün sonra isə qondarma SİDSUH tərəfindən törədilən təxribat nəticəsində ictimai asayişi qoruyan hüquq mühafizə orqanlarının əməkdaşlarına xəsarət yetirildi. Bütün bu hərəkətlər Azərbaycan dövlətinin müstəqilliyinə xələl gətirmək məqsədi güdürdü.

Baş vermiş hərəkətlərlə əlaqədar olaraq Milli Məclisin noyabrın 10-da keçirilən iclasında 5 bənddən ibarət qərar qəbul edildi.[653] Qərarda prezident seçkilərinin nəticələrini heç bir əsas olmadan inkar edən radikal, dağıdıcı müxalifətin

653 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 320.

qanunlara və xalqın iradəsinə zidd olan hərəkətləri pislənilirdi; dövlətçiliyə və onun beynəlxalq nüfuzuna qarşı təxribat kimi qiymətləndirilirdi; dövlət orqanlarından tələb edilirdi ki, qanunvericilikdə nəzərdə tutulmuş bütün tədbirləri həyata keçirsinlər; milli mənafelərə zidd hərəkətlərin, ictimai-siyasi sabitliyin pozulmasına yönəldilmiş cəhdlərin mövcud qanunlar çərçivəsində qarşısını almaq üçün bütün vasitələri qətiyyətlə tətbiq etsinlər; Ədliyyə Nazirliyinə və Mətbuat və İnformasiya Nazirliyinə tövsiyə edilirdi ki, KİV-lərdə yoxlanılmamış, böhtan və təxribat xarakterli materialların yayılmasının qarşısını almaq məqsədi ilə qanunda nəzərdə tutulmuş hüquqi vasitələrin tətbiqini təmin etsinlər.

Pozuculuq hərəkətlərinin Azərbaycan Respublikasının beynəlxalq layihələrə qoşulduğu və böyük konfranslara ev sahibliyi etdiyi bir zamanda baş verməsi ölkənin beynəlxalq əlaqələrinin genişlənməsini və zəif olmasını istəyən qüvvələrin niyyəti ilə eynilik təşkil edirdi. Lakin xalq müxalifətin ardınca getmədi.

### *12.6. Avropa Şurasına tamhüquqlu üzvlük və fəaliyyətlər*

Prezident seçkilərindən sonra Azərbaycan Respublikası Avropa Şurasına tamhüquqlu üzv olmaq üçün əməkdaşlığı genişləndirmək məqsədilə əlavə tədbirləri reallaşdırdı. 1999-cu il mayın 14-də Azərbaycan Prezidentinin imzaladığı Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında sərəncamı[654] əməkdaşlığın inkişafında müstəsna rol oynadı. Həmin sərəncamda Azərbaycan qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılması və Avropa Şurasının bir sıra konvensiyalarına qoşulması məsələlərinin öyrənilməsi tövsiyə olunurdu. Sərəncamın yerinə yetirilməsi nəticəsində Azərbaycan Respublikasında bir sıra məcəllə və qanunlar Avropa Şurası ekspertlərinin tövsiyələri nəzərə alınmaqla qəbul edildi.

1999-cu ilin oktyabr ayında vəzifəsindən azad olunan xarici işlər naziri Tofiq Zülfüqarovun yerinə Vilayət Quliyev[655] təyin edildi.

Hakimiyyətin qarşısında dayanan vəzifələrdən biri kütləvi informasiya vasitələrinin azad və sərbəst fəaliyyətinin qanuni bazasını möhkəmləndirmək

654 Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamı. 14 may 1999-cu il // Azərbaycan Respublikası qanunvercilik toplusu. 31 may 1999-cu il, №5, maddə 319. Bakı, 1999.

655 Vilayət Quliyev (1952) - Azərbaycan Respublikasının sayca 5-ci xarici işlər naziri (1999-2004). Azərbaycanın Polşadakı (2004-2010), Macarıstandakı fövqəladə və salahiyyətli səfiri (2010-2021).

idi. Məlum olduğu kimi, ölkədə müxtəlif ideya istiqamətli kütləvi informasiya vasitələri fəaliyyət göstərirdi. Senzura da ləğv edilmişdi. Bununla belə, kütləvi informasiya vasitələri haqqında qanunun qəbul edilməsinə böyük ehtiyac duyulurdu. Qanunun demokratik norma və prinsiplərə cavab verməsi üçün 1999-cu il iyulun 27-dən başlayaraq parlamentdə geniş müzakirələr aparılırdı. 1992-ci ildə qəbul edilmiş qanundan fərqli olaraq yeni qanun söz azadlığı ilə yanaşı, vətəndaşların şəxsiyyətinin qorunması, söz azadlığı adı altında sui-istifadə hallarının qarşısının alınmasını da nəzərdə tuturdu. Yeni layihənin mühüm xüsusiyyətlərindən biri də mətbuatın inkişafına dövlət dəstəyinin gücləndirməsi ilə bağlı idi.

Milli Məclisin 1999-cu il dekabrın 7-də keçirilən iclasında kütləvi informasiya vasitələri haqqında qanun qəbul edildi.[656] 10 fəsil, 62 maddədən ibarət olan qanunun məqsədi kütləvi informasiyaların axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını, habelə mətbuatın, informasiya agentliklərinin, televiziya və radio təşkilatlarının vətəndaşların tam, doğru-dürüst və operativ informasiya almaq hüququnun həyata keçirilməsinə yönəldilmiş fəaliyyətinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən etmək idi. Qanunda kütləvi informasiya vasitələrinin azadlığı, qanunun tətbiq sahəsi, istehsalı və yayılması, dili, informasiya azadlığının əsasları, senzuranın yolverilməzliyi, məlumat almaq hüququ, antiinhisar tədbirləri, kütləvi informasiya vasitələrinin azadlığından sui-istifadənin yolverilməzliyi, informasiyanın elan edilməsinə yol verilməyən xüsusi hallar, reklamın yayılması, kütləvi informasiya vasitələrinin təşkilinin hüquqi əsasları, təsis edilməsi, ixtisaslaşmış kütləvi informasiya vasitələri, kütləvi informasiya vasitəsinin istehsalının və yayımının dayandırılması və ya ona xitam verilməsi, kütləvi informasiya vasitələrinə sponsorluq, mətbu nəşrin istehsalının hüquqi əsasları, məsul şəxslərin səlahiyyətləri, çap məhsulunun yayılma qaydası, istinad məlumatı, televiziya və radio fəaliyyətinin hüquqi əsasları, dövlət və özəl teleradio təşkilatı, təkzib, düzəliş, jurnalistin hüquqları, vəzifələri, statusu və b. məsələlər öz əksini tapmışdı. Kütləvi informasiya vasitələrinin inkişafı üçün hüquqi baza yaradan və mövcud olan boşluqları aradan qaldıran qanunda yazılırdı:

*"Azərbaycan Respublikasında kütləvi informasiya vasitələri azaddır".*[657]

Qanunun qəbul edilməsi Azərbaycan Respublikası dövlətinin siyasətinin əsl mahiyyətini göstərməklə yanaşı, geniş beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə əlavə imkanlar yaradırdı.

656 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 clilddə. II cild, s. 337.
657 Yenə orada, s.338.

Həyata keçirilən tədbirlər Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv olması üçün zəmin yaradırdı. Nəhayət, 2001-ci ildə Azərbaycanda monitorinq keçirən Avropa Şurası Parlament Assambleyası qurumun Nazirlər Komitəsinə belə bir tövsiyə verdi: Azərbaycan Respublikası Avropa Şurasının üzvlüyünə dəvət edilsin; Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikasına altı yer ayrılsın; Azərbaycan Respublikasına üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə imkan vermək üçün bütün yardımçı proqramlar bəyənilsin və bu istiqamətdə onunla əməkdaşlıq edilsin. Nazirlər Komitəsi həmin tövsiyələri qəbul etdi.

Azərbaycanın təşkilata tamhüquqlu üzv olması məsələsi 2001-ci il yanvarın 3-də Heydər Əliyevin Avropa Şurası Nazirlər Komitəsinin sədri, Latviyanın xarici işlər naziri İndulis Berzins[658] başda olmaqla nümayəndə heyəti ilə danışıqlarda müzakirə edildi.[659]

Yanvarın 10-da Azərbaycan dövlət başçısı Avropa Şurasının 1949-cu il mayın 5-də London şəhərində imzalanmış nizamnaməsinə[660] Azərbaycan Respublikasının qoşulması haqqında sərəncamı imzaladı. Bunun ardınca Prezident Heydər Əliyev Fransaya səfər etdi.[661] 2001-ci il yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edildi. Bu münasibətlə keçirilən toplantıda Prezident Heydər Əliyev başda olmaqla Azərbaycandan nümayəndə heyəti iştirak edirdi. Avropa Şurasının binası qarşısında Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı. Mərasimdə nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti dedi:

*“Biz ölkəmizin Avropa Şurasına qəbuluna yalnız indiyə qədər gördüyümüz işlərə, həyata keçirdiyimiz islahatlara verilən qiymət deyil, həm də ölkəmizə və xalqımıza doğru uzadılan dost əli kimi qiymətləndiririk və ona görə də bir sıra problemlərin vahid Avropa ailəsi daxilində həllini tapacağına inanırıq”.*[662]

Prezident bu üzvlüyü bütün Azərbaycan tarixində ən mühüm hadisə kimi qiymətləndirərək bildirdi ki, Azərbaycan xalqı öz Şərq köklərindən ayrılmayaraq Qərb sivilizasiyasının sintezinə əsaslanan nadir bir mədəniyyət yaratmış, Qərbin mütərəqqi dəyərlərini Qafqazda, Yaxın və Orta Şərqdə yaymışdır.

658 İndulis Berzins (1957) – Latviya Respublikasının xarici işlər naziri (1999-2002).

659 Azərbaycan Prezidenti Heydər Əliyev Avropa Şurasının nümayəndə heyətini qəbul etmişdir // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə. Bakı, 2010, s. 3-12.

660 Avropa Şurasının nizamnaməsi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə. Bakı, 2010, s. 5-15.

661 Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul olunması ilə əlaqədar təntənəli mərasim // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 104-105.

662 Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 105-106.

Azərbaycanın dövlət başçısı Avropa Şurası Parlament Assambleyasının sessiyasında nitq söyləyərək ölkədə aparılan islahatlardan, beynəlxalq konvensiyalara qoşulmasından, kütləvi informasiya vasitələrinin və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin sərbəstliyindən danışdı.[663]

Rəsmi qəbuledilmə mərasimindən sonra Azərbaycan Respublikası bir neçə sənədi imzaladı.

Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi tarixi hadisə olmaqla böyük əhəmiyyət daşıyırdı. Azərbaycan Avropa ailəsinə qovuşurdu. Tamhüquqlu üzv qəbul edilmək təkcə görülmüş işlərə, həyata keçirilmiş islahatlara verilən qiymət deyil, həm də Azərbaycan Respublikasının müstəqilliyinə hörmətin və Avropa ailəsində özünəlayiq yer tapacağına inamın nümunəsi idi. Bununla Azərbaycan Respublikası dövləti qitə problemlərinin həllində yaxından iştirak etmək, ölkə qanunvericiliyini daha da təkmilləşdirmək, Avropa konvensiyalarına qoşulmaq və əsas insan hüquq və azadlıqlarını qorumaq üçün yeni imkanlar qazanırdı.

Tamhüquqlu üzv olduqdan sonra Azərbaycan Respublikasının Avropa Şurası ilə əməkdaşlığının istiqamətləri artdı. Bunlar əsasən Avropa Şurası çərçivəsində beynəlxalq-hüquqi müqavilələrə qoşulmaq; milli qanunvericiliyi modernləşdirmək və uzlaşdırmaq, məhkəmə prosedurunu təkmilləşdirmək; insan hüquqları, söz və informasiya azadlığını qorumaq üçün təminat mexanizmini qurmaq; cəmiyyətin bütün təbəqələri üçün sosial ədalət mühitinin yaradılmasına və qorunmasına yardım etmək; mədəni irsin mühafizəsi, idmanın inkişafına yardım etmək, ətraf mühiti qorumaq; demokratik prosesləri möhkəmləndirmək və s. sahələri əhatə edirdi.

Azərbaycan əməkdaşlıq istiqamətində daha bir addım atdı. 2001-ci il fevralın 9-da Azərbaycan Respublikasının Avropa Şurasının yanında diplomatik nümayəndəliyi təsis edildi.[664] Təşkilatda Azərbaycanın daimi nümayəndəsi təyin olundu.

Azərbaycan Respublikası Avropa Şurası Parlament Assambleyasının sessiya iclaslarında tamhüquqlu üzv kimi iştirak etməyə başladı. Milli Məclisin deputatı İlham Əliyevin rəhbərliyi altında parlament nümayəndə heyəti AŞPA iclaslarında Ermənistanın təcavüzkarlıq siyasətinin mahiyyətini üzv ölkələrə çatdırmağa, Azərbaycan üçün əhəmiyyətli məsələlərdə Avropa ölkələrinin dəstəyini qazanmağa nail oldu. Assambleyanın 2001-ci ilin aprel sessiyasında nümayəndə

663 Avropa Şurası Parlament Assambleyasının sessiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 107-111.

664 Azərbaycan Respublikasının Avropa Şurasının yanında diplomatik nümayəndəliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının qanunu. 9 fevral 2001-ci il // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi, 2001. II hissə, s. 58-59.

heyəti "Ermənistanda və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar haqqında", "Azərbaycan mədəni irsinin zəbt edilməsi və dağıdılması barədə", "Azərbaycan Respublikasında ekoloji vəziyyət barədə" sənədlərini sessiya iştirakçıları arasında yaydı. "Avropanın iqtisadi və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizəsi" məsələsinin müzakirəsi zamanı İlham Əliyev çıxış edərək Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi nəticəsində Dağlıq Qarabağ bölgəsində və onun ətrafında narkotik bitkilərin becərilməsi və onların nəqli, habelə qanunsuz silahlı birləşmələrin hazırlanması məsələlərinə diqqəti cəlb etdi, Avropa Şurasını işğal edilmiş ərazilərin azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması üçün Ermənistana təsir etməyə çağırdı.

Parlament Assambleyasının payız sessiyasında nümayəndə heyətinin ünvanladığı Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması barədə yazılı sorğu 43 ölkənin nümayəndələrinin iştirakı ilə müzakirə edildi. Nazirlər Komitəsi sorğu üzrə yekdilliklə qəbul olunan qərarında beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərə, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə dəstəyini təsdiq etdi, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla həll edilə biləcəyini bildirdi. Qərarda belə bir müddəa əhəmiyyətli idi ki, ərazi əldə etmək üçün gücdən istifadə edilməsi qəbulolunmazdır və ondan irəli gələn heç bir nəticə qanuni tanına bilməz.

Sessiyanın sentyabrın 25-də keçirilən iclasında beynəlxalq terrorizm məsələsinin müzakirəsi zamanı çıxış edən İlham Əliyev Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinin və ətraf rayonlarının tam nəzarətsiz ərazilər olduğunu, qanunsuzluq hökm sürən bu ərazilərdə Ermənistan xüsusi idarələrinin təkcə Ermənistan üçün deyil, digər ölkələrdən gələn terrorçuların hazırlanması üçün düşərgələr yaratdığını, narkotik maddələrin istehsalı və daşınması üçün istifadə etdiyini bildirdi.

Nümayəndə heyəti Azərbaycan Respublikası üçün daha iki mühüm sənədin – "Avropada təhsilin gələcək inkişafı konteksində Azərbaycanda qaçqınların və məcburi köçkünlərin təhsil hüquqları" və "Ermənistan – Azərbaycan (Dağlıq Qarabağ) münaqişəsinin həlli ilə bağlı təkliflər" adlı sənədlərin Parlament Assambleyası tərəfindən qəbul edilərək yayılmasına nail oldu.

Əməkdaşlıq prosesində Azərbaycan dövləti Avropanın qabaqcıl dəyərlərinə yiyələnmək istiqamətində tədbirləri gerçəkləşdirdi. Ölkədə siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqları və b. haqqında qanunlar qəbul edilmişdi. 2001-ci ilin sonlarına olan məlumata görə, Azərbaycan Respublikasında 30-dan çox siyasi partiya, 1300-dən çox qeyri-hökumət təşkilatı qeydiyyatdan keçmişdi. İnsan hüquqlarının qorunması sahəsində 30-dan çox qeyri-hökumət təşkila-

tı fəaliyyət göstərirdi. Ölkədə qadın hüquqlarının qorunması sahəsində 20-dək qeyri-hökumət təşkilatı var idi. Azərbaycan Respublikası 2001-ci ilin sonunadək insan hüquqları sahəsində 26-dan çox beynəlxalq konvensiyaya qoşulmuşdu. Beynəlxalq aktlarda və Azərbaycan Respublikası konstitusiyasında bəyan edilmiş insan azadlıqlarının həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə bir sıra qanunlar qəbul edilmişdi. 2001-ci ilin sonlarına olan məlumata görə, Azərbaycanda 500-dən çox kütləvi informasiya vasitəsi, islam, rus pravoslav, gürcü pravoslav, yəhudi (dağ yəhudiləri və aşkenazilər), alman lüteran və b. icmaları təmsil edən 300-dən çox dini təşkilat fəaliyyət göstərirdi. Azərbaycanda din dövlətdən ayrı olsa da, dövlət dinin inkişafına qayğı göstərirdi. Dini tolerantlıq mövcud idi. 2001-ci ildə artıq 1300 məscid və dini icma, BDU-nun İlahiyyat fakültəsi, 22 mədrəsə, Bakı İslam Universiteti, onun Sumqayıt, Mingəçevir və Zaqatala şəhərlərində filialları mövcud idi. Azərbaycan ərazisində 3 xristian konfessiyasını – pravoslavlıq, katoliklik və protestanlığı təmsil edən 85 xristian dini icması fəaliyyət göstərirdi. Bundan əlavə, ölkədə 5 yəhudi sinaqoqu mövcud idi. Azərbaycanda hər bir vətəndaş və insan dinə münasibətini müstəqil müəyyənləşdirir, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və ya yaymaq hüququna malik idi. Qanun hər bir şəxsin dinə münasibətini müəyyənləşdirməsində, dini etiqadında, ibadətində, dini ayin və mərasimlərin icrasında iştirak etməsində, dini öyrənməsində qanunla müəyyən olunmuş hallar (insan ləyaqətini alçaldan və insanpərvərlik prinsiplərinə zidd olan dini cərəyanlar) istisna olmaqla, heç bir maneəyə yol vermirdi.

AŞPA-nın 2002-ci il yanvarın 20-25-də keçirilən sessiyası[665] çərçivəsində Azərbaycan Respublikasının Avropa Şurasına üzv olmasının ildönümü münasibətilə çıxış edən İlham Əliyev ötən ili səmərəli qiymətləndirərək ölkəsinin Avropa dəyərlərinə töhfə verdiyini vurğuladı.[666]

Yanvarın 24-də terrorizmə qarşı mübarizə və insan hüquqlarına hörmət məsələsi müzakirə olunarkən İlham Əliyev çıxış edərək erməni terror təşkilatlarının törətdikləri terror aktları üzərində dayandı. Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxladığına diqqəti cəlb etdi.[667]

665 Milli Məclisin nümayəndə heyəti Strasburqa gəlmişdir // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə. Bakı, 2010, s. 15.
666 Azərbaycanın Avropa Şurasına daxil olmasının ildönümünə həsr edilmiş təntənəli mərasimdə Milli Məclisin AŞPA-dakı nümayəndə heyətinin başçısı İlham Əliyevin çıxışı // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 19-20.
667 Milli Məclisin AŞPA-dakı nümayəndə heyətinin başçısı İlham Əliyevin çıxışı // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 21-23.

Sessiya zamanı Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyev qurumun sədr müavini və büro üzvü seçildi. Bu, Azərbaycan tarixinin parlaq səhifələrindən idi.

AŞPA-nın 2002-ci ildə keçirilən sessiyasının gündəliyinə Azərbaycan, Gürcüstan və Ermənistanda qaçqın və məcburi köçkünlərin vəziyyəti, kimyəvi silahların ətraf mühitə təsiri və digər məsələlər daxil edilmişdi. Nümayəndə heyətinin rəhbəri İlham Əliyev iyunun 24-də Avropa Şurasının baş katibi Valter Şvimmer ilə görüşərək Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına və onun nəticələrinə dair fakt və materialları çatdırdı. Baş katib kommunikasiyaların açılmasının münaqişənin tənzimlənməsində irəliyə doğru bir addım olacağına inanırdı. Lakin belə bir düşüncə yanlış idi. Çünki kommunikasiyaların açılması təcavüzkar ölkəni daha da gücləndirəcək və torpaqların işğal altında qalması davam edəcəkdi.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Avropa Şurasının insan hüquqları üzrə komissarı ilə görüşərək azərbaycanlı qaçqın və məcburi köçkünlərin vəziyyəti haqqında danışdı. Sessiya iclasında Cənubi Qafqazda qaçqın və məcburi köçkünlər məsələsi müzakirə olunarkən çıxış edən İlham Əliyev Azərbaycandakı qaçqın və məcburi köçkünlərin sayını, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalını sessiya iştirakçılarının diqqətinə çatdırdı və "əhalinin ümumi sayına nisbətdə qaçqınların sayı təkcə Avropada deyil, bütün dünyada ən böyük göstəricidir" – dedi. Ermənistanın təcavüzünün nəticələri üzərində dayanan İlham Əliyev Azərbaycan hökumətinin qaçqın və məcburi köçkünlərin vəziyyətini yaxşılaşdırmaq üçün etdiyi səylərdən də danışdı.[668]

Payız sessiyasında Ermənistanın və Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin müzakirəsi zamanı Ermənistana dair qətnamə qəbul edilərkən AŞPA deputatlarının tam əksəriyyəti Ermənistanın işğalçı dövlət olduğunu, Azərbaycan ərazilərini zəbt etdiyini, 1 milyondan çox azərbaycanlını qaçqın və məcburi köçkünə çevirdiyini söyləyərək, Ermənistanın qəsbkarlıq siyasətini kəskin tənqid etdilər. Azərbaycana dair qəbul edilmiş qətnamədə Azərbaycanın Avropa Şurasına daxil olmasından ötən il yarım ərzində aparılan islahatlar yüksək qiymətləndirilir, Ermənistanın hərbi təcavüzünün nəticələri ətraflı əks olunur, işğal edilmiş ərazilərin adları çəkilir, qaçqın və məcburi köçkünlərin ağır vəziyyəti qeyd edilirdi.[669]

Avropa Şurası Parlament Assambleyasının 2003-cü il martın 31-də yaz sessiyası zamanı Nazirlər Komitəsinin AŞPA-nın müxtəlif tövsiyələrinə və yazılı sual-

668 Azərbaycan parlamentinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin çıxışı // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 451-452.

669 Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar. Bakı, 2004, s.16.

larına cavabları yayıldı.[670] Cavablar arasında AŞPA-nın Ermənistan, Azərbaycan və Gürcüstanda qaçqınların və məcburi köçkünlərin vəziyyəti adlı 1570 saylı tövsiyəsinə Nazirlər Komitəsinin cavabı da var idi. Sənəddə Nazirlər Komitəsi qaçqınların və məcburi köçkünlərin hüquqlarının bərpası üçün bölgədəki münaqişələrin həllinin vacibliyini bəyan etməklə yanaşı, həmin insanların öz torpaqlarına dönməsi və onların təhlükəsizliyinin təmin edilməsi hüququnu bir daha qeyd-şərtsiz təsdiqləyirdi; bölgədəki mövcud münaqişələrin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həllinin zəruriliyini bəyan edirdi; Azərbaycanın işğal edilmiş ərazilərində erməni əhalisinin yerləşdirilməməsinə dair AŞPA-nın tövsiyəsinə qoşulur, Ermənistanı həmin ərazilərdə qeyri-yerli əhalini məskunlaşdırmamaq üçün konkret tədbirləri həyata keçirməyə dəvət edirdi. İclasda çıxış edən İlham Əliyev Ermənistanı təcavüzkar ordusunu Azərbaycanın zəbt olunmuş ərazilərindən geri çəkməyə çağırdı.[671]

Azərbaycan tərəfi Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həll olunmasına dair 2003-cü ildə bir sıra təkliflər verdi. Kompromis qərar layihəsi razılaşdırılaraq Nazirlər Komitəsinin oktyabrın 9-da keçirilən iclasında qəbul edildi. Nazirlər Komitəsi Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində öhdəliyin yerinə yetirilməsi ilə bağlı son iki ildə real irəliləyişin olmadığını göstərir, münaqişə nəticəsində yaranmış qaçqın və məcburi köçkünlərin ağır vəziyyətindən təəssüfləndiyini bildirir, münaqişənin beynəlxalq hüquq və Avropa Şurasının norma və prinsipləri əsasında həll edilməsinin vacibliyini vurğulayır, Minsk qrupu həmsədrlərini fəaliyyətlərini artırmağa çağırırdı.[672]

Azərbaycan Respublikası və Avropa Şurası arasında əməkdaşlıq faydalı oldu. Əməkdaşlığın gedişində ölkə haqqında həqiqətlər, xüsusən Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi, qaçqın və məcburi köçkünlərin vəziyyəti barədə obyektiv informasiya üzv ölkələr arasında yayıldı. Azərbaycanın beynəlxalq mövqeləri və dövlət müstəqilliyi möhkəmləndirildi. Ölkə həyatının demokratikləşdirilməsi prosesi gücləndi, Azərbaycan Avropa ailəsinin bərabərhüquqlu üzvü oldu. Azərbaycanın Avropa ilə Şərq ölkələri arasında etibarlı körpü rolu artdı. Əməkdaşlıq Avropa Şurası üçün də faydalı oldu, təşkilatın nüfuzu və coğrafiyası genişləndi.

670 Avropa Şurasının Nazirlər Komitəsi Ermənistanı Azərbaycanın işğal olunmuş ərazilərini məskunlaşdırmamağa çağırır // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə. Bakı, 2010, s.145-146.

671 AŞPA sədrinin müavini və büro üzvü İlham Əliyevin çıxışı // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə. Bakı, 2010, s. 146-147.

672 Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəliyinin fəaliyyətinə dair qısa məlumat (oktyabr-noyabr, 2003) // "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr-dekabr, №5, s. 111-112.

***

Fəsildə öyrənilənlərdən aydın olur ki, 90-cı illərin ortalarından etibarən ölkədə sosial-siyasi, iqtisadi və digər sahələrdə islahatların aparılması zərurətə çevrilmişdir. Xeyli mürəkkəb və çətin olan torpaq islahatı uğurla həyata keçirilmişdir. Ölkədə infllyasiyanın səviyyəsi aşağı salınmış, tədrici iqtisadi inkişafa nail olunmuş, vətəndaşların, xüsusən qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində zəruri addımlar atılmışdır.

İslahatlarla paralel olaraq Avropa Şurası ilə qarşılıqlı faydalı əməkdaşlıq qurulmuşdur. Əməkdaşlıqda başlıca məqsəd Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla tənzimlənməsi üçün əlavə imkanlar və ölkə daxilində islahatların aparılmasına dəstək qazanmaq olmuşdur. Aparılan iş nəticəsində Azərbaycan Respublikasına Avropa Şurasında xüsusi dəvət olunmuş qonaq statusu verilmişdir. Demokratikləşdirmə və insan hüquqlarının qorunması sahəsində islahatlar həyata keçirilmişdir. Kütləvi informasiya vasitələri sahəsində dərin islahatlar aparılmışdır. Ölkədə ölüm hökmü ləğv edilmişdir.

Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məqsədilə yaradılmış Minsk qrupu həmsədrlərinin müxtəlif vaxtlarda irəli sürdükləri paket həll, mərhələli həll və ümumdövlət planları reallaşdırılmamışdır. Ermənistan Azərbaycan ərazilərinin işğalını davam etdirmişdir.

1998-ci ildə keçirilən növbəti prezident seçkilərində Azərbaycan xalqı Heydər Əliyevi yenidən dövlət başçısı seçmişdir. Bundan sonra islahatlar xətti dərinləşdirilmişdir. Ölkədə sabitliyi pozmağa çalışan qüvvələrin niyyətləri baş tutmamışdır.

Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi diplomatiya tarixinin mühüm səhifələrindən biri olmuşdur. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisi nümayəndə heyətinin rəhbəri İlham Əliyevin gərgin səyləri və bacarığı sayəsində Ermənistanın hərbi təcavüzünün nəticələrini pisləyən qətnamələr qəbul edilmişdir. Bütün bunlar Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmiş və nüfuzunu artırmışdır.

# 13-cü FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASI NEFT VƏ QAZ İXRAC EDƏN ÖLKƏYƏ ÇEVRİLİR

### *13.1. Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft, Bakı – Tbilisi – Ərzurum qaz boru kəmərlərinin təməlinin qoyulması*

Bütün müqavimətlərə və təzyiqlərə baxmayaraq, Azərbaycan Respublikası enerji strategiyasını həyata keçirməkdə davam edirdi. Qısa müddətdə Bakı – Supsa neft boru kəməri tikildi. Kəmərin tikintisi 1995-1997-ci illərdə başlamış gərgin səylərin nəticəsi idi.[673] Onun tikintisinə 590 milyon dollar vəsait xərclənmişdi. Bütövlükdə 1998-ci ildə Azərbaycanın neft sənayesinə 2 milyard 200 milyon dollar vəsait qoyulmuşdu.[674] Gündəlik maksimum ötürmə gücü 115 min barel neft olan boru kəmərinin işə düşməsi nəticəsində Azərbaycan neftinin "Azəri Layt" adı altında Qərb marşrutu ilə göndərilməsinə başlanıldı. Supsada hər birinin tutumu 250 min barel olan dörd terminal tikildi. 1999-cu il aprelin 17-də Bakı – Supsa neft boru kəmərinin və Supsa yerüstü terminalının açılışı oldu.[675] Açılış mərasimi iştirakçılarına göndərdiyi təbrik məktubunda ABŞ Prezidenti Bill Klinton Bakı – Supsa boru kəmərinin açılışı ilə çoxdan gözlənilən məqsədin – Xəzər regionunun neft və qazını dünya bazarlarına çatdırmaq üçün neft boru kəmərləri şəbəkəsi yaradılmasının həyata keçirildiyini vurğulayırdı. Bu kəmər Şərq – Qərb dəhlizinin təməl daşı olacaq, bütün Qafqaz və Mərkəzi Asiya ölkələrinin inkişafına kömək edəcəkdi.[676] Elə həmin gün Poti – İliçovski – Varna bərə keçidinin də təntənəli açılışı oldu. Transqafqaz dəhlizinin tərkib hissəsi olan bu xətlə Ukrayna ərazisindən Qara dəniz, Gürcüstan, Azərbaycan,

673 Əliyev H.Ə. Bakı – Supsa neft kəmərinin açılışına həsr olunmuş təntənəli mərasimdə nitq. 17 aprel 1999-cu il // Müstəqilliyimiz əbədidir. XX kitab, s.15-22.
674 Əliyev H.Ə. Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzindəki görüşdə nitq. 26 aprel 1999-cu il // Müstəqilliyimiz əbədidir. XX kitab, s.107.
675 Qərb neft kəməri və Supsa terminalı işə başladı // "Azərbaycan" qəzeti, 1999, 18 aprel.
676 ABŞ Prezidenti Bill Klintonun Bakı – Supsa ilkin neft xəttinin rəsmi açılışının iştirakçılarına məktubu. 15 aprel 1999-cu il // "Azərbaycan" qəzeti, 1999, 18 aprel.

Türkmənistan və Özbəkistan vasitəsi ilə isə yüklərin şərqdən qərbə, qərbdən də şərqə daşınması təmin ediləcəkdi.

Bakı – Supsa neft boru kəmərinin açılışının böyük əhəmiyyəti var idi. Bu, ilk Qərb marşrutu olub, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinə sanki hazırlıq mənası daşıyır və Azərbaycanın mövqelərini gücləndirirdi.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağında əldə edilmiş nəticələrin 1999-cu il iyulun 12-də keçirilən təqdimat mərasimində Böyük Britaniya, ABŞ, Norveç, Rusiya, İtaliya, Fransa, İran və Türkiyənin Azərbaycandakı səfirləri, "Şahdəniz" yatağına dair imzalanmış müqavilənin həyata keçirilməsinin iştirakçısı olan xarici şirkətlərin nümayəndələri iştirak edirdilər. Konsorsiumun prezidenti Endi Honvud, "Statoyl" şirkətinin maliyyə nəzarəti meneceri İnge Layf Rulendsholm, ARDNŞ-in vitse-przidenti Xoşbəxt Yusifzadə[677] çıxış edərək əldə olunmuş nəticələr barədə məlumat verdilər.

Toplantıda nitq söyləyən Prezident Heydər Əliyev Azərbaycanın enerji diplomatiyasının keçdiyi yola, qazanılan nəticələrə və gələcək perspektivlərinə diqqət yetirdi.[678] Qeyd etmək lazımdır ki, bu zaman "Şahdəniz" yatağına 367 milyon dollar sərmayə qoyulmuşdu.

Belə bir vaxtda ATƏT-in İstanbulda keçiriləcək zirvə görüşü zamanı neft sahəsində əməkdaşlığa dair sənədlərin imzalanmasına hazırlıq işləri gedirdi. Azərbaycan bu tədbirə və imzalanacaq sənədlərə böyük əhəmiyyət verir, müzakirə ediləcək məsələlərlə bağlı bir sıra dövlətlərlə geniş məsləhətləşmələr aparırdı. 1999-cu il noyabrın 8-də Heydər Əliyev tərəfindən qəbul edilən ABŞ-ın Azərbaycandakı səfiri Stenli Eskudero[679] dedi:

*"Cənab Prezident, artıq çoxları Sizi təbrik etmək üçün öz növbələrini gözləməkdədirlər. Çünki Sizin apardığınız siyasətin nəticəsində həm Sizin çox böyük tarixi qələbəniz, həm də Amerikanın tarixi qələbəsi hesab edirik ki, yaxın zamanlarda İstanbulda dörd böyük layihə üzrə müqavilənin, sənədin imzalanması gözlənilir. Şübhəsiz ki, bunların ən başlıcası əsas boru kəməri barədədir. Məndə olan məlumatlara görə, İstanbulda Transxəzər qaz kəmərinin çəkilməsi barədə də ümumi anlaşmanın imzalanması gözlənilir. Şübhəsiz ki, bu böyük layihə də məhz Sizin təşəbbüsünüzlə meydana çıxan layihələrdən biridir və ümidvarıq ki, bu da müvəffəqiyyətlə başa çatacaqdır.*

677 Xoşbəxt Yusifzadə (1930) – tanınmış neftçi geoloq. AMEA-nın həqiqi üzvü. ARDNŞ-in vitse-prezidenti (1994-2000). 2004-cü ildən birinci vitse-prezident.

678 Əliyev H.Ə. Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağında əldə edilmiş nəticələrin təqdimat mərasimində nitq. 12 iyul 1999-cu il // Müstəqilliyimiz əbədidir. XX kitab, s.460-472.

679 Stenli Eskudero (1942) – ABŞ diplomatı. ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri (1997-2000).

*...Amerika Birləşmiş Ştatları Xəzər regionundan dünyaya ixrac olunacaq bu enerji ehtiyatlarını dünyanın malı etmək üçün Sizin göstərdiyiniz qətiyyətli səyləri çox yüksək qiymətləndirir".*[680]

Nəhayət, noyabrın 18-də ATƏT-in İstanbul zirvə görüşü zamanı tarixi bir hadisə baş verdi. Azərbaycan, Gürcüstan və Türkiyə neft boru kəmərinin Bakı – Tbilisi – Ceyhan xətti ilə inşasına dair sənədi imzaladılar.[681] Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Qazaxıstan Respublikası arasında İstanbul bəyannaməsi, Transxəzər qaz kəməri barədə, Türkmənistan qazının Türkiyəyə və Avropaya ixracı barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında hökumətlərarası bəyannamə, Azərbaycan ilə Türkiyə arasında Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən qarşılıqlı anlaşma memorandumu imzalandı.

Mərasimdə nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl, ABŞ Prezidenti Bill Klinton, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev və Türkmənistan Prezidenti Saparmurad Niyazov imzalanan sənədlərin əhəmiyyətini vurğuladılar. Böyük siyasi məqsədlər daşıyan bu sənədlərin əhəmiyyəti var idi. Sənədi imzalayan dövlətlərin birmənalı olaraq mənəvi və siyasi dəstək vermələri Azərbaycan Respublikasının beynəlxalq mövqelərini gücləndirir və nüfuzunu artırırdı.

Bu zaman dünya mətbuatında Xəzər nefti ətrafında gedən mübarizəyə dair müxtəlif mülahizələr irəli sürülürdü. Məsələn, "Nyu York Tayms" qəzetinin yazdığına görə, Xəzər probleminin mərkəzində Bill Klinton hökumətinin bu bölgəni və onun neftini Rusiyanın nüfuz dairəsindən qoparıb çıxarmaq məqsədi dayanırdı. ABŞ Prezidenti bəyan etmişdi ki, onun siyasətinin ümdə məqsədlərindən biri Xəzər nefti üçün İrandan və Rusiyadan asılı olmayan boru kəmərinin tikilməsi həyata keçirilməyə yaxındır.[682]

Neft strategiyası Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına təkan verən ciddi amil oldu. Neft şirkətləri ilə əməkdaşlıqdan gözlənilən neft gəlirləri-

680 Əliyev H.Ə. ABŞ-ın Azərbaycan Respublikasındakı səfiri Stenli Eskudero ilə görüşdə söhbət. 8 noyabr 1999-cu il // Müstəqilliyimiz əbədidir. XXIII kitab. Bakı, 2008, s. 51-52.

681 Əliyev H.Ə. Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının əraziləri ilə Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə respublikaları arasında sazişin imzalanması mərasimində nitq. 18 noyabr 1999-cu il // Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 147-149.

682 "Nyu York Tayms" Xəzər bölgəsində coğrafi-siyasi problemlər haqqında // "Azərbaycan" qəzeti, 1999, 29 dekabr.

nin ölkənin sosial-iqtisadi tərəqqisinə sərf edilməsi Azərbaycanın dövlət siyasətinə çevrildi. Neft yataqlarının xarici şirkətlərlə birgə işlənilməsindən gələn mənfəət neftinin satışından daxil olan valyuta vəsaitlərinin və digər vəsaitlərin toplanması, səmərəli istifadə edilməsi, həmin vəsaitlərin əsas sahələrin inkişafına və sosial-iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsindən ötrü Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 1999-cu il dekabrın 29-da Dövlət Neft Fondu yaradıldı.[683]

Neftin nəqli problemlərsiz də deyildi. 2000-ci ilin yanvar ayında neftin nəqli Çeçenistan ərazisində dayandırıldı. Azərbaycan tərəfi bu məsələnin həlli üçün geniş diplomatik-siyasi fəaliyyətə başladı. Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayev[684] 2000-ci il martın 9-da Birləşmiş Ştatların Xəzər hövzəsi enerji diplomatiyası məsələləri üzrə böyük müşaviri, səfir Elizabet Cons[685] ilə görüşdü. Söhbət zamanı Elizabet Cons regiona səfəri zamanı keçirdiyi görüşlər barədə məlumat verdi. Onun Qazaxıstana səfərinin gedişində Astananın *(İndiki Nur-Sultan – M.Q.)* Bakı – Tbilisi – Ceyhan layihəsinə qoşulması barədə memorandum imzalanmış və Qazaxıstan hökuməti ilə sazişin və digər sənədlərin imzalanması üçün işlərə başlamaq barədə razılıq əldə olunmuşdu. ABŞ diplomatının fikrincə, sənədin qəbul olunmasında Valeh Ələsgərov[686] başda olmaqla ARDNŞ nümayəndə heyəti böyük rol oynamışdı. ABŞ diplomatının dediyinə görə, bu zaman Malayziyada səfərdə olan Prezident Nursultan Nazarbayev ölkəsinə dönən kimi Elizabet Consu qəbul edərək Qazaxıstanın enerji ehtiyatlarının Azərbaycan və Gürcüstan ərazisindən keçirilməsi üçün mövcud olan şəraitdən razılığını bildirmiş, "Kaşağan" yatağından hasil edilən neftin Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri ilə nəqlində əməkdaşlığın davam etdiriləcəyini demişdi. Elizabet Cons Tbilisidə olmuş, Moskvaya səfər edərək Viktor Kalyujnı[687], "LUKoyl" neft şirkətinin prezidenti Vahid Ələkbərov və digər şəxslər ilə görüşmüşdü. Viktor Kalyujnı ilə görüşdə Xəzər mərkəzinin yaradılması məsələsi müzakirə edilmişdi. ABŞ diplomatının sözlərinə görə, bu mərkəz Xəzərin ekoloji problemləri, o cümlədən ətraf mühitin mühafizəsi, balıq sər-

683 "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı // Azərbaycan Respublikasının qanunvericlik toplusu, Bakı, 1999, №12, maddə 720.

684 Hafiz Paşayev (1941) – Azərbaycan Respublikasının ABŞ-dakı (eyni zamanda Meksika və Kanadada) fövqəladə və səlahiyyətli səfiri (1992-2006). Azərbaycan Respublikası xarici işlər nazirinin müavini (2006-2018). ADA Universitetinin rektoru (2006-cı ildən).

685 Elizabet Cons (1948) – ABŞ-ın Qazaxıstan Respublikasında səfiri (1995-1997). Dövlət katibinin Avrasiya və Avropa məsələləri üzrə köməkçisi (2003-2004).

686 Valeh Ələsgərov (1946) – tanınmış neftçi-mühəndis. Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini (2005-2020).

687 Viktor Kalyujnıy (1947) – Rusiyanın yanacaq və energetika naziri (1999-2000). Xarici işlər nazirinin müavini (2000-2004).

vətlərinin qorunması problemləri ilə məşğul olacağı təqdirdə ABŞ həmin ideyanı müdafiə edəcəkdi. Yalnız belə olduqda ABŞ yaradılması nəzərdə tutulan mərkəzə maliyyə vəsaiti ayıra bilərdi.[688]

Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə mane olan amillərə diqqəti yönəldən Hafiz Paşayev layihədə irəliləyiş olmasına baxmayaraq, Vaşinqtondakı Kato İnstitutu və Karnegi fondunun ona mənfi münasibət bəslədiyini bildirdi. Bir sıra mərkəzlər layihənin həyata keçirilməsindən sonra ABŞ – Rusiya münasibətlərinin pisləşəcəyindən narahat idilər. Bütün bunlardan narazılığını bildirən Azərbaycan Respublikasının səfiri eyni zamanda Nyu Cersi ştatından olan demokrat konqresmen F.Pollonenin Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin əleyhinə olan çıxışlarına da diqqəti cəlb etdi. Elizabet Cons həmin instututların 5-6 ay əvvəl belə mövqedə olduqlarını, Qazaxıstanın Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri layihəsinə qoşulmağa razılıq verməsindən sonra vəziyyətin dəyişdiyini söylədi. F.Pollonenin çıxışına gəlincə isə onun ermənipərəst mövqedə olduğunu və kimsənin onu ciddi qəbul etmədiyini vurğuladı. Sonda söhbət "Şahdəniz" yatağından çıxarılan qazın alınmasına dair Azərbaycan – Türkiyə sazişinin imzalanması və qaz boru kəmərinin inşası barədə oldu. ABŞ bu layihəni qəti şəkildə müdafiə edirdi.

Boru kəmərlərinin təhlükəsizliyi məsələlərinin vacib olduğuna diqqəti cəlb etməklə yanaşı, Azərbaycan tərəfi eyni zamanda neft və qaz yataqlarının mühafizəsi sisteminin yaradılmasını da təklif edirdi. Bu sahədə iki ölkənin əməkdaşlığı terrorizm əleyhinə mübarizə şəraitində mümkün ola bilərdi, çünki o, 907-ci düzəlişin fəaliyyət çərçivəsinə daxil deyildi. ABŞ diplomatı Ağ ev administrasiyasının boru kəmərlərinin təhlükəsizliyinin mühafizəsi barədə xüsusi məruzə üzərində işlədiyini və konqresə göndəriləcəyini söylədi.

ABŞ-ın məsələyə yanaşması enerji sahəsində əməkdaşlığın davam etdirilməsinə imkan verir, Azərbaycanın qətiyyətinin artmasına kömək edir, digər ölkələrin də mövqelərinə təsir göstərirdi.

Məlum olduğu kimi, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə dair sənədlər imzalansa da, tranzit xərcləri barədə məsələdə Gürcüstan ilə razılaşdırıla bilməyən bir sıra məqamlar qalırdı. Gürcüstan bəzi şərtlər irəli sürür, daha böyük tranzit tarifləri tələb edirdi. Bu şərtlər iqtisadi nöqteyi-nəzərdən heç bir çərçivəyə sığmırdı. Məsələni müzakirə etmək üçün Azərbaycan və Gürcüstanın nümayəndə heyətləri görüşmüşdülər. ARDNŞ-də bu işlə məşğul olan Valeh Ələsgərov Gürcüstana səfər etmişdi. Azərbaycanın məqsədi neft boru kəmərinin keçirilməsinə dair kommersiya sazişi imzalamaq və məsələni həll etmək idi. Kəmərin tikintisinin yubadılması bu layihədə işti-

688 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə, I hissə, s. 340.

rak edən ölkələrin hamısı üçün zərərli olub, onların mövqeyində tərəddüdlər yaradırdı. Məsələləri həll etmək üçün 2000-ci il martın 22-23-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Gürcüstana rəsmi səfər etdi.[689] Səfərdə məqsəd ikitərəfli münasibətlərə dair geniş müzakirələr aparmaq, həllini gözləyən Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri ilə neftin tranzit tarifilə bağlı məsələləri həll etmək və müvafiq sənədləri imzalamaq idi.

Heydər Əliyev əvvəlcə Eduard Şevardnadze ilə iki saatadək təkbətək görüşərək Azərbaycan neftinin Gürcüstan ərazisindən tranzit tarifləri məsələsini müzakirə etdi.[690] Azərbaycan güzəştə getdi və neftin tranzit nəqli üçün Gürcüstana verilən pay artırıldı. Neftin Gürcüstan ərazisindən tranziti üçün hər 1 tona təqribən 1,3 dollar tarif məbləği müəyyənləşdirildi. Neftin tranzitindən Gürcüstan ildə 25-30 mln. dollar gəlir əldə edəcəkdi. Prezidentlər kommersiya sazişlərinin imzalanması və sənədləri aprel-may aylarında parlamentlərə ratifikasiya üçün təqdim etmək barədə razılığa gəldilər. Bu, dövlət başçılarının həll etdiyi ən mühüm məsələ idi. Onlar enerji daşıyıcılarının beynəlxalq bazarlara nəqlinə dair Transxəzər əməkdaşlığı prosesinin hərtərəfli inkişafında və dərinləşdirilməsində maraqlı olduqlarını bildirdilər.

Şimal marşrutu ilə neftin nəqlində yaranmış problem də həll olundu. 2000-ci ilin aprel ayının ortalarında Çeçenistan ərazisindən keçməyən neft boru kəməri istifadəyə verildi və Novorossiysk limanına nəqli bərpa edildi.

2000-ci il aprelin 28-də ABŞ Dövlət Departamentində ABŞ, Türkiyə, Azərbaycan və Gürcüstan nümayəndələri Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin yekun sənədini imzaladılar. Azərbaycan, Türkiyə və Gürcüstan parlamentləri sənədi təsdiq etdi. Azərbaycan dövləti neft strategiyasını daha qətiyyətlə həyata keçirməkdə davam edirdi. Mayın 9-da Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan neftin nəqli ilə bağlı hökumətlərarası protokol imzalanması neft strategiyasının reallaşdırılmasına yönələn mühüm addım oldu.

Heydər Əliyevin 2000-ci il sentyabrın 12-də ABŞ-a səfəri zamanı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Amerikanın "Monkrif oyl" və Türkiyənin "Türk Petrolları" şirkətləri arasında "Murovdağ" və "Kəlaməddin" yataqlarında hasilatın pay bölgüsünə dair saziş imzalandı.[691] Bu, ARDNŞ-in xarici neft şirkətləri ilə imzaladığı sayca 20-ci müqavilə idi. Qeyd etmək lazımdır ki, bütövlükdə

689 Yenə orada, s. 342.
690 Əliyev H.Ə. Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə təkbətək görüşdəki söhbətdən. 22 mart 2000-ci il // Müstəqilliyimiz əbədidir. XXVI kitab. Bakı, 2009, s. 19-20.
691 Əliyev H.Ə. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amerikanın "Monkrif oyl" və Türkiyənin "Türk Petrolları" şirkətləri arasında "Murovdağ" və "Kəlaməddin" yataqlarında hasilatın pay bölgüsünə dair sazişin imzalanma mərasimində nitq. 12 sentyabr 2000-ci il // Müstəqilliyimiz əbədidir. 30-cu kitab. Bakı, 2010, s. 72-77.

Azərbaycanın neft sektorunda görülən işlərin 30%-i ABŞ şirkətlərinin payına düşürdü.

Enerji sahəsində Azrbaycan – ABŞ əməkdaşlığı digər ölkələrə də təsir edirdi. Belə ki, 2000-ci il sentyabrın 24-də qazax neftinin Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri ilə nəqlinə dair Qazaxıstan ilə Azərbaycan arasında protokol imzalanmasından sonra işlər daha da sürətləndirildi. Kəmərin tikintisi üçün sponsorlar qrupu formalaşdırıldı. ARDNŞ, BP, "Yunokal", TPAO, "İtoçi", "Remko", "Delta Hess Sponsor Qrup" 2000-ci il oktyabrın 3-də Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə dair sponsorlar qrupu olduqlarını elan etdilər. Oktyabrın 17-də isə Bakıda "Azərbaycan Respublikası hökuməti ilə əsas ixrac boru kəməri iştirakçıları və tranzit əraziyə malik ölkənin hökuməti arasında saziş" və "Bakı – Tbilisi – Ceyhan xam neft kəməri layihəsinin mühəndis işləri və layihələşdirilməsi üçün maliyyələşdirmə və əməkdaşlıq sazişi" imzalandı. Oktyabrın 18-də Tbilisidə ABƏŞ ilə Gürcüstan, oktyabrın 19-da isə bu şirkət ilə BOTAŞ arasında müvafiq sazişlər imzalandı.

Böyük tarixi əhəmiyyət daşıyan sənədlərin imzalanma mərasimindəki çıxışında Prezident Heydər Əliyev dedi:

*"Sazişlərin imzalanması bu sahədə yeni bir mərhələ açacaqdır, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin əməli surətdə tikintisinə başlanacaqdır".*[692]

Kəmərin tikintisi barədə texniki-kommersiya sazişləri imzalanarkən layihənin sponsorlar qrupunda iştirak payı aşağıdakı kimi bölüşdürülmüşdü: ARDNŞ – 50%, BP – 25,41%, "Yunokal" – 7,48%, "Statoyl" – 6,37%, TPAO – 5,02%, "İtoçu" – 2,92%, "Remko" – 1,5%, "Delta Hess" – 1,55%. Vəsaiti olmadığından Azərbaycan payının bir hissəsini Fransa və Kanada şirkətlərinə verdi. 2001-ci il fevralın 8-də ABŞ-ın "Şevron" şirkəti də Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin sponsorlar qrupuna daxil oldu. Həmin ilin martında ABŞ dövlət katibi Kolin Pauell[693] birmənalı olaraq bildirdi:

*"Biz Bakı – Tbilisi – Ceyhan boru kəmərinin tikintisini müdafiə etməkdə davam edəcəyik".*

May ayında isə ABŞ Prezidenti Corc Buş özünün elan etdiyi milli energetika siyasətində Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru neft kəmərinin tikintisini müdafiə etdi.

Bu zaman "Şahdəniz" strukturundan təbii qazın hasil edilməsi Azərbaycanın mövqelərini daha da möhkəmləndirdi. 2001-ci ilin martında Azərbaycan ilə

692 Müstəqil Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməsində yeni mərhələ (Azərbaycan Prezidenti Heydər Əliyev Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəməri layihəsi barədə sazişlərin imzalanması mərasimində iştirak etmişdir) // "Azərbaycan" qəzeti, 2000, 18 oktyabr.

693 Kolin Pauell (1937) – ABŞ-ın 65-ci dövlət katibi (2001-2005). ABŞ Prezidentinin milli təhlükəsizlik məsələsi üzrə müşaviri (1987-1989).

Türkiyə arasında 89,2 mlrd. $m^3$ həcmində qazın (ildə 6,6 mlrd. $m^3$) 15 il müddətinə Bakı – Tbilisi – Ərzurum, daha sonra isə Avropaya nəqlinə dair hökumətlərarası saziş imzalandı. Eduard Şevardnadzenin sözlərinə görə, qaz kəmərinin fəaliyyət göstərdiyi müddət ərzində Gürcüstan büdcəsinə 7 mlrd. dollar vəsait daxil olacaqdı. Uzunluğu 1050 (800, 1030) km olan qaz boru kəmərinin 2004-cü ildə işə salınması planlaşdırılmışdı. Gürcüstan ərazisindən keçən Azərbaycan qazının 5%-ni pulsuz alacaqdı. Bundan əlavə, Gürcüstan 20 il ərzində 1 min $m^3$ qaz üçün 55 dollar ödəməklə 500 mln. $m^3$ qaz ala bilərdi. Türkiyə Azərbaycan qazının 1000 $m^3$-ni 35 dollara alacaqdı.[694] Azərbaycan üçün bu zaman əsas məsələ Avropa bazarına çıxmaq perspektivi idi.

Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin başlıca mühəndislik işləri layihəsi 2001-ci il mayın 15-də tamamlandı. Həmin gün Bakıda keçirilən iclasda təkcə Azərbaycan neftinin Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri xəttini təmin edəcəyi məlum oldu. Azərbaycanın enerji diplomatiyasının böyük uğuru olan bu hadisə ixrac boru kəmərinin önünü açmış oldu.[695]

### *13.2. Boru kəmərlərinin əleyhinə olan qüvvələrin səylərinin boşa çıxması*

Əsas ixrac neft boru kəmərinin tikintisinə müqavimət göstərənlər səylərini dayandırmamışdılar. Xəzər dənizinin hüquqi statusuna dair keçirilən görüşlər nəticə vermir, Azərbaycana qarşı edilən təzyiqlər səngimirdi. Ona görə də Azərbaycan tərəfi ABŞ və digər ölkələrlə geniş məsləhətləşmələrini davam etdirdi. Xəzər ətrafında yaranmış vəziyyəti və enerji məsələlərini müzakirə etmək üçün Azərbaycan Respublikasının ABŞ-dakı fövqəladə və səlahiyyətli səfiri Hafiz Paşayev ABŞ Prezidentinin və dövlət katibinin Xəzərin enerji diplomatiyası üzrə xüsusi müşaviri, ABŞ-ın Türkmənistandakı keçmiş səfiri Stiven Mənn ilə 2001-ci il mayın 17-də görüşdü. Görüşün əvvəlində Stiven Mənn bir neçə gündən sonra Viktor Kalyujnı ilə danışıqlar aparmaq üçün Moskvaya gedəcəyini, iyulun 26-da Bakıda olacağını, iyulun 27-də "Şahdəniz" yatağından çıxarılacaq neftin nəqli ilə bağlı keçiriləcək toplantı zamanı Azərbaycan – Gürcüstan – Türkiyə qaz boru kəmərinin tikintisinə dair sənədlərin imzalanması mərasimində iştirak edəcəyini bildirdi. ABŞ hökuməti Azərbaycan ilə Gürcüstan arasında tranzit tariflərinə dair razılaşmadan məmnun qalmışdı. Çünki Gürcüstan ağır iqtisadi vəziyyətdə və böyük enerji asılılığında idi. Qaz boru kəməri üçün yüksək tranzit tarifləri Gürcüstan büdcəsinə ciddi kömək idi. ABŞ tərəfi BP şirkətinin rəhbəri Con

694 Бутаев А. Каспий: зачем он Западу, с.333-334.
695 Erdal Güven. Sir Browne'un bir bildiği var // "Radikal" gazetesi, İstanbul, 2001, 24 Haziran.

Braun[696] ilə Gürcüstana qış mövsümündən əvvəl yardım olunması imkanlarını müzakirə etmişdi. Şirkət Gürcüstana kömək etməyə söz vermişdi. Öz növbəsində ABŞ Gürcüstan tərəfi ilə birlikdə xüsusi işçi qrup təsis etmişdi. Həmin qrup qış mövsümü ərzində enerji sektorunun idarə olunması və təşkilati problemlərin həlli ilə məşğul olmalı idi. Gürcüstanın əsas problemi iri müəssisələr tərəfindən ödəmələrin aparılmaması və əhalinin ağır maliyyə vəziyyəti idi.

Azərbaycan səfiri Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft, Bakı – Tbilisi – Ərzurum qaz boru kəmərləri layihələrinin Vaşinqtondakı bəzi analitik mərkəzlərin və etnik qrupların iqtisadi və siyasi məqsədlərə uyğun gəlməsinə şübhə ilə yanaşdıqlarını bildirdi. Belə mövqenin yanlış olduğu şübhə doğurmurdu. Tikintiyə tərəfdar olanların layihənin həyata keçirilməsinə böyük inamı var idi. Ən başlıcası, uzun tərəddüdlərdən sonra BP şirkətinin Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə dair qərar qəbul etməsi bu məsələdə böyük rol oynamış, karbohidrogen ehtiyatlarının, həcminin nəzərdə tutulan layihələri həyata keçirmək üçün kifayət etməsi barədə bəyanat verməsi şübhələrə son qoymuşdu.[697]

Görüşdə Rusiya ilə Türkiyə arasında "mavi axın" boru kəmərinin tikintisinə və İrandan Türkiyəyə qaz verilməsi məsələlərinə ABŞ-ın münasibəti də müzakirə edildi. ABŞ hökuməti Qara dənizin dibi ilə qaz boru kəmərinin çəkilişinə etiraz etmirdi. Bir sıra texniki çətinliklərə baxmayaraq, artıq bu tikintiyə başlanılmışdı. Türkiyənin indiki tələbatına görə qazın nəqli həcmi əvvəllər nəzərdə tutulduğu kimi 16 mlrd. kub metr deyil, 8 mlrd. kub metrə qədər ola bilərdi. Amerikalı diplomatın məlumatına görə, Türkiyə rəsmiləri İrandan qaz idxalını artırmaq niyyətində deyildilər. Bütövlükdə Ankara "mavi axın" xətti və "Şahdəniz" qazını almaq üzərində dayanırdı. ABŞ tərəfinin fikrincə, Transxəzər qaz boru kəmərinin tikintisi layihəsi böyük sual altında idi.

Bu zaman ABŞ diplomatiyası iki əsas istiqamətdə fəaliyyət göstərirdi: birincisi, regiondan qazın Türkiyə ərazisindən keçərək Avropaya nəqli üçün Xəzər dənizində, xüsusən onun Azərbaycan sektorunda qaz ehtiyatlarının ümumi həcmini müəyyənləşdirməyə çalışırdı. ABŞ hökuməti bu məsələni Avropa İttifaqı nümayəndələri ilə müzakirə edərkən məlum olmuşdu ki, mövcud şəraitdə Avropa istehlakçılarının daha çoxu Rusiya qazını almağa meyillidirlər. Qaz boru kəmərlərinin şaxələndirilməsi barədə ABŞ-ın təklifi Avropada müdafiə edilmişdi. İkincisi, Qazaxıstan neftinin Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinə qoşulmasına nail olmaq idi. Belə olduqda layihənin gəlirliliyi artacaqdı.[698]

696 Con Braun (1948) – BP şirkətinin prezidenti olmuşdur. 1969-1983-ci illərdə Alyaska, Nyu York və Londonda neft və qazın kəşfiyyatı və çıxarılmasında müxtəlif vəzifələrdə çalışmışdır.
697 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə, I hissə, s. 346.
698 Yenə orada.

Azərbaycan tərəfinin fikrincə, boru kəməri layihələrinin həyata keçirilməsi şübhə doğurmurdu və bütün nəqliyyat dəhlizi regiondan Avropaya getməli idi. Bununla əlaqədar olaraq ABŞ administrasiyasının səyləri, Böyük İpək yolu layihəsinin dəstəklənməsi region ölkələrinin suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsində mühüm rol oynayacaqdı. ABŞ Avropa İttifaqı ilə olan birgə layihələrin həyata keçirilməsi nəticəsində avtomobil, dəmiryol və limanların tikintisi və s. infrastrukturun inkişafında rol oynaya və digər ölkələr də bu işə qoşula bilərdilər. Özbəkistan öz pambığını Azərbaycan və Gürcüstan ərazisindən keçirməklə Avropaya daşımaq niyyətində idi. Bu isə Rusiya ərazisindən keçməkdən 3 dəfə ucuz başa gəlirdi.

Görüşdə daha sonra Xəzər dənizinin hüquqi statusu məsələsi müzakirə edildi. ABŞ tərəfi bu məsələnin tezliklə həll ediləcəyinə şübhə ilə yanaşırdı. Amerikalı diplomatın sözlərinə görə, tərəflər son variant üzərində razılığa gələ bilmədikləri üçün Türkmənistanın oktyabr ayında keçirilməsini təklif etdiyi sammitin vaxtı dəyişdirilmişdi.

Söhbətin sonunda 907-ci düzəlişin energetika sahəsində ABŞ – Azərbaycan əməkdaşlığına vurduğu ziyan barədə fikir mübadiləsi aparıldı. ABŞ hökuməti regionda çalışan daha çox beynəlxalq neft və qaz kompaniyalarının diqqətini boru kəmərlərinin təhlükəsizliyi məsələlərinə cəlb etməyə tərəfdar idi. Ağ ev ərazilərindən boru kəmərləri keçən ölkələrə kəşfiyyat, milli təhlükəsizlik, hərbi və b. sahələrdə yardım etməyi planlaşdırırdı. ABŞ tərəfinin fikrincə, belə qarşılıqlı fəaliyyəti ictimaiyyətin diqqətini cəlb etmədən həyata keçirmək məqsədəmüvafiq idi. Amerika tərəfinin məlumatına görə, təkcə 2000-ci ildə Kolumbiyada neft boru kəmərlərinə 1100 hücum edilsə də, yenə fəaliyyət göstərirdi. ABŞ diplomatının fikrincə, boru kəmərlərinə dair çoxlu müzakirələrin keçirilməsi potensial sərmayədarları qorxuda bilərdi. Ona görə də müzakirələri tez bir zamanda başa çatdırmaq faydalı idi.

Azərbaycan səfiri erməni lobbisinin konqresdə fəaliyyətini gücləndirdiyini ABŞ diplomatının nəzərinə çatdıraraq bildirdi ki, onlar hətta nümayəndələr palatasına boru kəmərlərinin Ermənistandan keçməsi zəruriliyini əsaslandıran layihə də təqdim etmişlər. Ermənilər konqresdəki lobbiləri vasitəsi ilə kəmərlərin maliyyələşdirilməsində iştirak edən təşkilatlara təsir edə bilərdilər.

Boru kəmərlərinin təhlükəsizliyinin mühafizəsi üçün Azərbaycandakı kadrların hazırlıq və təlim keçməsi məsələsi üzərində dayanan Azərbaycan səfiri 907-ci düzəlişin buna mane olduğunu bildirdi. Məhz həmin düzəliş ucbatından Pentaqon Azərbaycan ilə tam şəkildə əməkdaşlıq edə bilmirdi.

Stiven Mənn ilə keçirilən görüş enerji sahəsində əməkdaşlığın perspektivlərini və görüləcək işləri müəyyənləşdirmək baxımından əhəmiyyətli idi. Müzakirələr tərəflərin məsələyə münasibətdə baxışlarının eyni olduğunu göstər-

di. Bu zaman Xəzər neftinin bolqar – yunan, Transbalkan, Ukrayna, Rumıniya və b. marşrutlarla dünya bazarlarına çıxarılması məsələləri də müzakirə edilsə də, artıq Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri barədə qərar qəbul edilmişdi.

Müxtəlif səviyyələrdə göstərilən müqavimətlərə və təzyiqlərə baxmayaraq, Azərbaycan tərəfi işlərini davam etdirdi. 2001-ci il iyunun 19-da Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi üzrə mühəndislik işləri başlandı. Boru kəmərinin Ermənistandan deyil, Gürcüstandan keçməsi barədə qərarın qəbul olunması erməni dairələrini və lobbisini məyus etmişdi.

Azərbaycan tərəfi İran ilə aralarında mövcud olan məsələləri müzakirə etmək üçün bəzi diplomatik addımlar atdı. 2001-ci il iyulun 2-də Azərbaycan Respublikasının Tehrandakı səfiri Abbasəli Həsənov İİR Ali Milli Təhlükəsizlik Şurasının katibi Həsən Ruhani[699] ilə görüşərək Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri, Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibinin dəvət məktubunu ona təqdim etdi.

Həsən Ruhani Azərbaycan ilə əlaqələrin regionda İran üçün böyük əhəmiyyət kəsb etdiyini, Azərbaycan Respublikası ilə əlaqələrin inkişafında ölkəsinin maraqlı olduğunu dedi. O, bunun səbəbini hər iki ölkə xalqlarının tarixi, mədəni və dini bağlılığında görürdü. Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının üzləşdiyi bir çox çətinliklərin aradan qaldırılmasında İranın hərtərəfli yardımına toxunan Həsən Ruhani İİR ali rəhbərliyinin xalqın istək və arzularını əsas tutaraq digər ölkələrlə əlaqələr qurduğunu bildirdi. Onun fikrincə, İran xalqı bu əlaqələrin qurulmasını istəmiş, dövlət də öz növbəsində xalqın və ölkənin mənafeyini əsas tutaraq həmişə Azərbaycan ilə əlaqələrin inkişaf etdirilməsi üçün çalışmışdı. İran rəhbərliyi hər iki xalqın iradəsini və istəyini əsas tutaraq regionda qardaş, qonşu və dost bir ölkə kimi əlaqələrin inkişafını, qarşılıqlı problemlərin danışıqlar yolu ilə çözülməsini istəyirdi. İki ölkə arasında elə bir əsaslı problemin olmadığını qeyd edən Həsən Ruhani kiçik bir siyasi iradə göstərilməsi ilə bu xırda məsələlərin həllinin mümkünlüyünə toxunaraq bildirdi ki, Azərbaycan və İran xalqlarının mənafeyi, Azərbaycanın və İranın təhlükəsizliyi, regionda sülh və əmin-amanlığın bərqərar edilməsi həmin problemlərin həllini tələb edir. O, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində ölkəsinin tutduğu mövqeyə toxunaraq Azərbaycan xalqının ədalətli hüququnun bərpa edilməsinin İran üçün çox vacib olduğunu söylədi. İran Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə biganə qalmır, regionun təhlükəsizliyini milli maraqları baxımından qiymətləndirir, gedən prosesləri diqqətlə izləyir və bu məsələyə həssaslıqla yanaşırdı. Həsən Ruhani Qafqaz regionunda İranın sülh və əmin-a-

699 Həsən Ruhani (1948) – İran İslam Şura Məclisinin üzvü (1980-2000). Təhlükəsizlik Şurasının katibi (1989-2005). İİR Prezidenti (2013-2021).

manlıq üçün Azərbaycana hərtərəfli kömək göstərməyə həmişə hazır olduğunu bildirərək, məntəqəyə xarici qüvvələrin cəlb edilməsini təhlükəsizlik baxımından düzgün olmayan siyasət kimi qiymətləndirdi.[700]

İran tərəfi Xəzər dənizinin hüquqi statusunun həlli məsələsini milli mənafeyi baxımından çox vacib hesab edir, bu məsələdə Azərbaycan ilə əməkdaşlığa xüsusi yer verirdi. Xəzər məsələsində Rusiya və Qazaxıstanın ortaq məxrəcə gəldiyinə toxunan Həsən Ruhani Azərbaycan, İran və Türkmənistanın da səylərinin birləşdirilməsinin vacibliyini qeyd edərək Aşqabad ilə heç bir fikir ayrılığının olmadığını vurğuladı. İran tərəfi Azərbaycan Respublikası ilə də bu məsələyə dair anlaşma əldə etməyi mümkün sayırdı. Həsən Ruhani qarşılıqlı müzakirələr zamanı "bir-iki neft yatağı" üstündə əlaqələrin pisləşməsini yersiz saydığını, bu barədə razılıq və güzəşt əldə edilməsinin mümkünlüyünü vurğuladı. İran hökuməti Xəzər dənizinə xarici ölkələrin cəlb edilməsi siyasətini milli mənafeyi və təhlükəsizliyi baxımından məqbul hesab etmir, bu məsələdə 1921 və 1940-cı illərdə SSRİ ilə imzaladığı müqavilələrə əsaslanırdı.

Xəzər dənizinin hüquqi statusunun təyin edilməsi məsələsinə toxunan Azərbaycan səfiri bu məsələnin həllinin Xəzəryanı ölkələrin birlikdə razılığı əsasında mümkünlüyünü bildirərək qeyd etdi ki, məsələ təkcə Azərbaycana və İrana aid olsaydı, çoxdan həllini tapardı. O, məsələnin Xəzəryanı beş ölkəyə aid olduğundan konsensus əsasında həll olunmasına dair Azərbaycanın mövqeyini izah etdi. Səfir ikitərəfli əlaqələrin inkişaf etdirilməsini Xəzər dənizinin hüquqi statusunun həlli məsələsi ilə bağlanması və paket şəklində həll edilməsi fikrinin düzgün olmadığını vurğulayaraq bildirdi ki, mövcud olan imkanlardan istifadə edib yalnız iki tərəfə aid olan məsələlər həll edilməlidir.

Həsən Ruhaninin Azərbaycan Respublikasına səfəri ərəfəsində İran qəzetləri İran İslam Respublikasının regionda yerləşən ölkələrin problemlərinin aradan qaldırılmasında hərtərəfli kömək göstərməyə hazır olduğunu yazır, bu ölkəni regionun birləşməsi naminə Qafqazda, xüsusilə Xəzər dənizində regional təhlükəsizliyin və qarşılıqlı inamın yaradılmasının tərəfdarı kimi səciyyələndirirdi. "Resalət" qəzeti 19 iyul tarixli nömrəsində yazırdı ki, guya Xəzər sahilində yerləşən ölkələr arasında Azərbaycan İranın gərginliyi azaltmaq siyasətinin əksinə siyasət yürüdür, bəzi məsələləri şişirtməklə, xaricilərin regiona ayaq açmalarına imkan verməklə inamsızlıq yaratmağa və İran İslam Respublikasının məqsədlərinə nail olmamasına çalışır.

İran İslam Respublikası Ali Milli Təhlükəsizlik Şurasının katibi Həsən Ruhaninin başçılıq etdiyi nümayəndə heyəti 2001-ci il iyulun 19-21-də Azərbaycan Respublikasında rəsmi səfərdə oldu. İyulun 20-də nümayəndə heyə-

700 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 349.

tini Prezident Heydər Əliyev qəbul etdi.[701] Görüşdə iki ölkə arasında münasibətlərin inkişaf etdiyi, təkcə Naxçıvandan hər gün gediş-gəliş edənlərin sayının 4 min nəfərə yaxın olduğu qeyd edildi. Heydər Əliyev İranı Azərbaycan üçün dost, qonşu və qardaş ölkə adlandırdı. Bu dostluğun qədim tarixi kökləri var idi. İki ölkəni bir-birinə bağlayan milli-mənəvi, dini dəyərlər və adət-ənənələr eyni idi. Heydər Əliyev Azərbaycan – İran münasibətlərinin Gürcüstan və Ermənistan ilə münasibətlərə bənzəmədiyini qeyd edərək dedi:

*"Burada oturanlar və ölkələrimizdəki insanlar hamısı bir-birinə bənzəyir. Məsələn, burada sizə bənzəyən azərbaycanlılar nə qədərdir. Amma sizə bənzəyən bir erməni, gürcü tapa bilməzsiniz. Eləcə də sizin səfər yoldaşlarınızın hamısı haqqında bunu demək olar... Çünki bu, bizim bir kökdən olduğumuzı, genetik köklərimizin bir olduğunu göstərir".*[702]

İranın Ermənistana təsir imkanlarını işə salmasını istəyən Heydər Əliyev Şimal-Cənub dəmiryol xəttinin əhəmiyyətini, Cənubi Qafqazda Azərbaycanın digər respublikalarla müqayisədə daha əlverişli mövqedə olduğunu vurğuladı. Azərbaycan tərəfi İranın ərazi bütövlüyünü tanıyırdı.

Danışıqların yekununda Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurası ilə İİR Ali Milli Təhlükəsizlik Şurası arasında əməkdaşlıq haqqında memorandum imzalandı.

Səfərdən dərhal sonra, iyulun 21-də İİR xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini, İİR Prezidentinin Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələsi üzrə xüsusi nümayəndəsi Əli Ahəni Azərbaycan Respublikasının Tehrandakı səfiri Abbasəli Həsənovu nazirliyə dəvət etdi. Görüşdə İran tərəfi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə BP şirkətinin "Alov", "Şərq" və "Araz" *(İran bu yataqları "Əlborz" adlandırır – M.Q.)* yataqlarında neft kəşfiyyatı və qazma işlərinə başlaması haqqında məlumata malik olduğunu qeyd edərək, yataqların Xəzər dənizinin guya İrana məxsus 20%-lik ərazidə yerləşdiyini vurğuladı, Azərbaycan tərəfinin guya belə qanunsuz hərəkətlərin qarşısını alacağına ümidini bildirdi. Xəzər dənizində Azərbaycan Respublikasının iştirakı ilə baş verən bütün hadisələr üçün Azərbaycanın məsuliyyət daşıdığını bildirən Əli Ahəni qanunsuz halların qarşısının tezliklə alınmasını istədi.[703] Görüşün sonunda "Alov", "Şərq" və "Araz" yataqlarında ARDNŞ ilə BP şirkətinin apardığı neft kəşfiyyatı və qazma işlərinə başlanmasına dair İran tərəfinin təqdim etdiyi etiraz notasında yazılırdı ki, 25 iyun 1998-ci il, 17 sentyabr 1998-ci il notalarında qeyd edildiyi kimi, göstərilən neft yataqlarında araş-

701 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının nümayəndə heyətini qəbul etmişdir. 20 iyul 2001-ci il // Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab. Bakı, 2005, s.344-351.

702 Yenə orada, s. 346.

703 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 352.

dırma, öyrənmə, kəşfiyyat, istehsal və hər hansı digər fəaliyyət üçün İran İslam Respublikası dövlətindən icazə alınmalıdır. Notada bu yataqlarda adı çəkilən tədbirlərin həyata keçirilməsi İİR-in qanuni hüquqlarına və milli mənafelərinə zidd olaraq qiymətləndirilir və xüsusi olaraq vurğulanırdı ki, İran İslam Respublikası heç bir ölkəyə və xarici şirkətə bu məntəqədə yuxarıda qeyd olunan fəaliyyətin yerinə yetirilməsinə icazə verməyəcəkdir.

Həsən Ruhani iyulun 23-də Böyük Britaniyanın İİR-dəki səfiri Nik Braunu Ali Milli Təhlükəsizlik Şurasına dəvət edərək BP şirkətinin göstərilən məntəqədə qazıntı-kəşfiyyat işləri aparmasına etiraz bildirdi. İİR Xarici İşlər Nazirliyi mətbuat mərkəzinin rəisi Həmid Rza Asəfi iyulun 24-də keçirdiyi mətbuat konfransında bununla əlaqədar olaraq dedi:

*"Azərbaycan Respublikası hökuməti və neft şirkətləri İran İslam Respublikasının diplomtik addımından və "Əlborz" neft məntəqəsi barədə tutduğu mövqedən xəbərdar idilər. Gözlənilirdi ki, Azərbaycan Respublikası İran İslam Respublikasının yumşaq xəbərdarlığını dərk edəcək və hər hansı anlaşılmazlığın artmasına səbəb ola biləcək addımları atmayacaqdır".*[704]

Daha sonra bildirdi ki, İran İslam Respublikası Xəzəryanı ölkələr arasında müzakirələrin sürətləndirilməsinə tərəfdardır və Xəzər dənizinin hüquqi statusunun həlli məsələsində qarşılıqlı razılaşma, Xəzəryanı ölkələrin mənafelərinə ehtiramla yanaşma yolunu ən münasib yol sayır və Xəzər dənizini sülh, dostluq və əməkdaşlıq dənizi kimi görmək niyyətindədir, İran özünün hüquq və mənafelərini qətiyyətlə müdafiə edəcəkdir.

Bundan bir gün sonra, iyulun 25-də Xəzər dənizində münaqişə baş verdi. İran hərbi təyyarə və gəmiləri Azərbaycanın xarici şirkətlərlə müştərək işlənən "Alov" və "Şərq" yataqları və "Geofizik-3" gəmisi üzərinə hücuma keçərək atəşə tutdular, iki ölkə arasında su sərhədini göstərən işarənin birini dağıtdılar. Bu, Azərbaycan – İran münasibətlərində xoşagəlməz hal idi. Hadisədən sonra Tehran qəzetləri əvvəlki illərlə müqayisədə İran – Azərbaycan əlaqələri haqqında daha çox yazılar dərc etmişdilər. Demək olar ki, bütün mərkəzi mətbuat orqanları tərəfindən toxunulan bu mövzu qəzetlərin birinci səhifələrinə çıxarılmış, böyük hərflərlə cəlbedici başlıqlar – "İranın addımı müdafiə ilə əlaqədar olduğundan qanunidir", "İranın tədbirləri məntiqidir, İngiltərə tez başa düşdü", "Xəzəryanı ölkələr münaqişə olmayan yerlərdə fəaliyyət göstərməlidirlər", "Xəzər NATO-nun ərazisi deyildir", "Azərbaycan Xəzər dənizi hövzəsində özbaşına addım atmaq fikrindədir" və s. verilmişdi.

Azərbaycan tərəfi İrana etiraz notası verərək məlum hərəkətləri pislədi və Xəzər dənizində hərbi dəniz donanmasını hazırlıq vəziyyətinə gətirdi. Böyük dövlətlər Azərbaycanın ədalətli mövqeyini müdafiə etdilər. Xəzər dənizində

704 Yenə orada.

bu qarşıdurmadan narahat olan ABŞ Dövlət Departamentinin mətbuat katibi F.Rikers Birləşmiş Ştatların Xəzər dənizində münaqişədən narahat olduğunu bildirərək, İranın hərəkətlərinin Xəzər dənizinin hüquqi statusunun dinc yolla müəyyənləşdirilməsi ilə bir araya sığmadığını vurğuladı.

Belə bir şəraitdə Türkmənistan da siyasətini sərtləşdirdi. 2001-ci il iyulun 27-də Türkmənistan Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə nota göndərərək Xəzər dənizində Azərbaycanın guya hüquqa zidd hərəkətlərinə qarşı etirazını bildirdi. Azərbaycan tərəfi belə əsassız iddiaları rədd etdi.

İranın hərəkətlərinin səbəbləri və konkret məqsədləri var idi. Bu ölkə Xəzər dənizinə digər dövlətlərin daxil olmasını milli maraqlarına zərbə kimi qiymətləndirir, "Əsrin müqaviləsi" həyata keçirildikdən sonra Azərbaycanın güclənəcəyindən və İranda tarixi torpaqlarında yaşayan azərbaycanlılar üçün cəlbedici olacağından narahat idi. Ərazisinin kiçik, əhalisinin sayının az olmasına baxmayaraq, Azərbaycan Respublikasının varlığını İranda bəzi dairələr təhdid kimi qiymətləndirirdilər. Digər tərəfdən, İran özü neft ixtac edən bir ölkə idi. 1978-1979-cu illər islam inqilabından sonra ABŞ ilə münasibətlərin pozulması səbəbindən İran neft sənayesi bir sıra problemlərlə üzləşmişdi. Azərbaycan Respublikasının Qərb ölkələri ilə əməkdaşlıq edərək neft ixrac edən mərkəzlərdən birinə çevrilməsi, dünyanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başlaması İranda bəzi dairələr tərəfindən qısqanclıqla qarşılanırdı. İran hakimiyyəti Qərb kapitalının regiona gəlməsini özünün milli maraqlarına təhdid kimi qiymətləndirirdi.

Münaqişə baş verdikdən bir neçə gün sonra, avqustun 7-də İran xarici işlər nazirinin müavini, İran Prezidentinin Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələləri üzrə xüsusi nümayəndəsi Əli Ahəni Moskvaya səfər etdi. O, avqustun 8-də Rusiya xarici işlər nazirinin müavinləri Viktor Kalyujnı, Aleksandr Losyukov[705] və Aleksandr Avdeyev[706] ilə görüşərək Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələsi barədə ikitərəfli məsləhətləşmələr keçirdi. Onlar Xəzər dənizində əməkdaşlıq məsələlərində mütəmadi olaraq Rusiya – İran məsləhətləşmələrinin keçirilməsinin, hüquqi status qəbul edilənədək 1921-ci il fevralın 26-da və 1940-cı il martın 25-də imzalanmış müqavilələri hüquqi əsas kimi götürməyin vacibliyini vurğuladılar. Tərəflər beş Xəzəryanı dövlətin ümumi razılığı ilə hüquqi statusun müəyyən edilməsinin, Xəzər dənizində qarşılıqlı sərfəli əməkdaşlığın və dənizin mineral, xüsusilə də neft-qaz ehtiyatlarından istifadənin möhkəm hüquqi əsasının qurulmasının vacibliyini qeyd etdilər, Xəzəryanı dövlətlərin zirvə görüşünün çağırılmasına da

705 Aleksandr Losyukov (1943) – Rusiya xarici işlər nazirinin müavini (2000-2004).
706 Aleksandr Avdeyev (1946) – Rusiya xarici işlər nazirinin müavini (1996-1998), birinci müavini (1998-2002).

tərəfdar oldular. Viktor Kalyujnı Xəzəryanı ölkələr arasında yaranan narazılıqların silah işlətmədən, mehriban qonşuluq münasibətləri ruhunda danışıqlar yolu ilə həll olunmasına dair Rusiyanın qəti mövqeyini bəyan etdi.

Moskvadan sonra Türkmənistana səfər edən Əli Ahəni avqustun 10-da Türkmənistan Prezidenti Saparmurad Niyazov, xarici işlər naziri Rəşid Meredov[707], Türkmənistan Nazirlər Kabineti sədrinin neft-qaz məsələləri üzrə müavini Q.Muradov ilə keçirdiyi görüşlərdə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi, neft-qaz sahəsində görülən işlər və s. məsələləri müzakirə etdi. Tərəflər Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşünün keçirilməsinin vacibliyini vurğuladılar.

Müzakirələr Azərbaycanın enerji siyasətinə qonşu dövlətlərin xüsusi maraq göstərdiklərini və həssaslıqla yanaşdıqlarını göstərirdi. Azərbaycan isə daha qətiyyətlə neft strategiyasını həyata keçirir, qonşu ölkələrlə mehriban münasibətlərinin davam etdirilməsinə çalışır və məsləhətləşmələri aparırdı. İran tərəfinin keçirdiyi danışıqlar Azərbaycanın da diqqətindən kənarda qalmadı. Azərbaycan Respublikasının İrandakı səfiri Abbasəli Həsənov 2001-ci il avqustun 12-də İran XİN MDB ölkələri idarəsinin rəisi Əlirza Biqdeli ilə görüşərək Əli Ahəninin Rusiya və Türkmənstana səfərlərinin nəticələri ilə maraqlandı. Səfər barədə məlumat verən və ölkəsinin Xəzərdə heç bir sərhəd tanımadığını söyləyən İran diplomatı Xəzərin hüquqi statusu müəyyənləşdirilənə qədər İran və Rusiyanın 1921 və 1940-cı il müqavilələrinə əsaslanacaqlarını bildirdi. Eyni zamanda İran diplomatının səfərindən bir həftə əvvəl Ermənistanın rəsmi nümayəndə heyətinin Aşqabadda olduğunu və təbii qaz almaq barədə razılıq əldə edildiyini və hətta alınacaq qazın qiymətləri müəyyənləşdirildikdən sonra gələcəkdə tikiləcək İran – Ermənistan qaz kəməri ilə nəql olunacağı barədə fikir mübadiləsi apardığını dedi. İran tərəfi Azərbaycanın Xəzər dənizində Türkiyə və İsrail ilə birlikdə hərbi təlimlər keçirəcəyi barədə yayılan xəbərlərdən narahat idi.

İran diplomatı "Alov", "Şərq" və "Araz" neft yataqlarına dair verdiyi üç notaya Azərbaycanın məhəl qoymadığına, Ali Milli Təhlükəsizlik Şurasının katibi Həsən Ruhaninin səfərinin ilk günü tədqiqat gəmisinin qeyd olunan əraziyə göndərilməsinə etiraz edərək ölkəsinin verdiyi notanın arxasında hərbi güc dayandığını vurğulayırdı. Belə yanaşma tamamilə yanlış idi, çünki iki ölkə arasında sərhəd Astara – Həsənqulu xəttindən keçirdi. İran tərəfi bu ərazidən vaxtilə istifadə edə bilməməsini Azərbaycanın Dağlıq Qarabağ regionunun işğal edilmiş ərazisi ilə müqayisə edərək bildirdi ki, vaxtilə haqqımızdan istifadə edə bilməməyimiz heç kimə ərazimizə təcavüz etməyə imkan vermir. İran diplomatının sözlərinə görə,

707 Rəşid Meredov (1960) – Türkmənistanın xarici işlər naziri (2001-ci ildən). Baş nazirin müavini (2003-cü ildən).

Xəzərin sahilyanı ölkələr arasında beş bərabər hissəyə bölünməsi barədə artıq Rusiya və Türkmənistan ilə razılıq əldə edilmişdi, Azərbaycanın bu məsələyə razılıq verəcəyi təqdirdə Qazaxıstanı razı salmaq asan idi.

İranın mövqeyi münasibətləri gərginləşdirdiyindən və tərəflərə faydalı olmadığından xarici işlər naziri Vilayət Quliyev İranın xarici işlər naziri Kamal Xərrazi ilə telefonla danışdı. Bundan sonra hər iki ölkənin mətbuatında gərginlik yaradan məqalələrin dərci azaldı.

Azərbaycan Respublikası qətiyyətli hərəkət edərək İran İslam Respublikasına və Türkmənistana verdiyi notasında mövqeyini bir daha bəyan etdi, Xəzər dənizindəki işlərini davam etdirdi. Azərbaycana beynəlxalq aləmdən də dəstək gəldi. NATO blokunun üzvü olan Türkiyə Azərbaycanı müdafiə etdi. Türkiyə hərbi hava qüvvələrinin təyyarələri Azərbaycana gələrək Bakı səmasında uçdular.[708]

Bundan sonra İran da Xəzər dənizindəki sektorunda kəşfiyyat işlərinə başladı. 2002-ci il fevralın 2-də İran İslam Respublikası İslam Şurası Məclisinin Təhlükəsizlik və xarici siyasət komissiyasının neft naziri B.Zənganənin və XİN-in Xəzər dənizi məsələsi üzrə məsul şəxslərinin iştirakı ilə keçirilən iclasında komissiya üzvlərinə sahilyanı ölkələr ilə aparılan danışıqlar, əldə olunan razılaşmalar və həyata keçirilən tədbirlər barədə hesabat verildi. B.Zənganəyə Neft Nazirliyinin ən tez bir zamanda Xəzər dənizində fəaliyyətini genişləndirmək, neft və qaz yataqlarının kəşfiyyatına və məlum yataqların istismarına başlamaq tövsiyə olundu. Qeyd etmək lazımdır ki, B.Zənganə hələ yanvar ayında Əlcəzairdə dünyada təbii qaz istehsal edən ölkələrin toplantısı zamanı Əl-Cəzirə televiziya kanalına müsahibəsində bildirmişdi ki, İran xarici neft şirkətlərinin Xəzər dənizində fəaliyyətinə etiraz etmir və yaxın zamanlarda İran da Xəzər dənizində mövcud yataqların istismarına başlayacaqdır.

Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisindən narahat olan qeyri-hökumət təşkilatları fəaliyyətlərini dayandırmamışdılar. Onlar 2002-ci ilin iyun ayında Dünya Bankının prezidenti Ceyms Vulfonsona, Avropa İnvestisiya Bankının prezidenti Filipp Meystada, Avropa Yenidənqurma və İnkişaf Bankının direktoru Jan Lemerə, ABŞ İdxal-İxrac Bankının prezidenti Con Robsona və b. məktub göndərərək regionda neft və qaz istehsalının, xüsusən Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin sosial inkişaf, insan hüquqları, ekologiya və təhlükəsizlik sahələrində nəticələrindən narahatlıqlarını bildirərək kəmərin tikintisinin dayandırılmasını tələb etdilər. Lakin onların əsassız tələbləri nəzərə alınmadı.

İstər ayrı-ayrı dövlətlərin Azərbaycanın daxili işlərinə kobud müdaxiləsi cəhdləri, istərsə də arxalarında bəzi qrupların dayandığı qeyri-hökumət təşkilatlarının təzyiqləri Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin

708 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə, s. 358.

tikintisinə mane ola bilmədi. Kəmərin tikintisi üzrə sponsorlar qrupu 2002-ci il avqustun 1-də Londonda BTC Co şirkətini qurdular. Şirkətin səhmdarları aşağıdakılar idi: ARDNŞ – 25%, BP – 38,21%, "Yunokal" – 8,90%, "Statoyl" – 9,58%, TPAO – 7,55%, "Eni" – 5%, "İtoçi" – 3,4%, "Amerada Hess" – 2,36%. Şirkətin direktorlar şurasının qərarı ilə nəticələri 2001-ci ilin sonlarında elan edilmiş tender əsasında ümumi uzunluğu 1760 km olan kəmərin Azərbaycandan keçən hissəsinin (442 km) tikintisi Yunanıstanın CCİC şirkətinə, Gürcüstan ərazisindən keçən (248 km) hissəsinin, eləcə də Azərbaycan və Gürcüstanda nasos stansiyalarının tikintisi Fransanın "Spie Capag" şirkətinin rəhbərlik etdiyi və ABŞ-ın Petrofac şirkətinin daxil olduğu birgə müəssisəyə, Türkiyədən keçən (1070 km) hissəsinin tikintisi BOTAŞ şirkətinə həvalə edildi. Neft boru kəməri çoxlu çaylardan, 3 min metr hündürlükdə olan dağlardan keçəcəkdi. Avqustun 2-də bəyanat verən ABŞ hökuməti şirkətin qurulmasını bəyəndi və onu Xəzər bölgəsinin neftini dünya bazarına ixrac etmək sahəsində mühüm addım kimi qiymətləndirdi.

2002-ci il sentyabrın 18-də Səngəçal sahil terminalında Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin təməli qoyuldu.[709] Bu münasibətlə keçirilən mərasimdə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri, ABŞ-ın energetika naziri Spenser Abraham[710] iştirak edirdilər.

Təməlqoyma mərasimində nitq söyləyən Prezident Heydər Əliyev dedi:

*"...boru kəmərlərinin sayı artır. Təbiidir ki, bunlar çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, bizim gördüyümüz işlər, Bakı-Tbilisi-Ceyhan siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər".*[711]

Çıxış edən Türkiyə Prezidenti Əhməd Necdət Sezər[712] Bakı – Tbilisi – Ceyhanın əfsanədən çıxaraq gerçəkliyə çevrildiyini dedi. Bu layihələri Xəzəryanı ölkələr ilə Qərb dövlətləri arasında ticarət körpüsü və siyasi körpü adlandırdı.[713]

Gürcüstan Prezidenti Eduard Şevardnadze kəməri Azərbaycan və gürcü xalqlarının Avroatlantik məkana inteqrasiyası kimi qiymətləndirdi.[714]

709 Azərbaycan, Türkiyə, Gürcüstan prezidentləri Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimində iştirak etmişlər // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 618.

710 Spenser Abraham (1952) – ABŞ-ın energetika naziri (2001-2005).

711 Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 619-622.

712 Əhməd Necdət Sezər (1941) – Türkiyə Respublikasının 10-cu Prezidenti (2000-2007).

713 Türkiyə Prezidenti Əhməd Necdət Sezərin nitqi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 623-625.

714 Gürcüstan Prezidenti Eduard Şevardnadzenin nitqi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 625-626.

Spenser Abraham çıxışında boru kəmərini Şərq – Qərb enerji dəhlizində mərkəzi komponent adlandırdı.[715] Onun fikrincə, bu, Xəzəryanı ölkələrin suverenliyi və müstəqilliyinin möhkəmləndirilməsinə, iqtisadi əməkdaşlığına və dünya iqtisadiyyatına inteqrasiyasına təkan verəcəkdi.

Boru kəmərinin təməlinin qoyulmasının böyük siyasi, geoiqtisadi və geosiyasi əhəmiyyəti var idi. Azərbaycanın on ilə yaxın apardığı enerji siyasətinin və neft diplomatiyasının konkret nəticəsi olan bu hadisə ilə regionun geosiyasəti dəyişirdi. ABŞ politoloqu Zbiqnev Bjezinskinin fikrincə, Bakı – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin başa çatması ilə Azərbaycan və onun qonşuları dünya iqtisadiyyatı ilə müstəqil kanal əldə edəcəkdilər.[716]

Bakıda başlanan təməlqoyma mərasimi Türkiyədə davam etdirildi. Sentyabrın 26-da Adanada Ceyhan terminalının təməli qoyuldu. Artıq Azərbaycan neftinin Gürcüstandan keçərək Türkiyə ərazisi ilə Aralıq dənizinə çıxarılması tarixi reallığa çevrilirdi.

Lakin bu zaman təhlükəli bir addım atıldı. 2002-ci ilin sonlarında “LUKoyl” “Əsrin müqaviləsi”ndən çıxdı. Şirkətin prezidenti həmin qərarı “LUKoyl”un əsas diqqətini bundan sonra operatoru olduğu layihələrin, o cümlədən ARDNŞ ilə bağlanmış saziş əsasında “Yalama /D-222” layihəsinə cəmləşdirmək niyyəti ilə izah etdi.[717] Əslində belə bir qərarın qəbul edilməsinə təsir edən başlıca amil siyasi iradə idi. Bununla əlaqədar olaraq Rusiyanın xarici işlər naziri İqor İvanov[718] açıq şəkildə deyirdi ki, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri iqtisadi və təhlükəsizlik baxımından qeyri-rentabelli sayılır, boru kəmərlərinin Gürcüstandan keçərək Türkiyəyə getməsi Rusiyanın milli təhlükəsizliyi üçün qorxu yaradır, biz yalnız Rusiyanın tarixi və siyasi maraqlarının nəzərə alınacağı təqdirdə bu istiqamətdə əməkdaşlığa qoşula bilərik. Lakin edilən təzyiqlər Azərbaycanın enerji siyasətini dayandırmaq gücündə deyildi. 2003-cü il fevralın 27-də Bakıda toplanan konsorsium “Şahdəniz” təbii qaz layihəsinin həyata keçirilməsi üçün yekdilliklə qərar qəbul etdi. Beləliklə, Türkiyə və Azərbaycan çox əhəmiyyətli olan daha bir layihənin həyata keçirilməsi üçün addım atdılar.[719]

Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin əleyhinə olan qüvvələr fəaliyyətlərini dayandırmadıqlarından və tikintisinə mane olmağa çalışdıqlarından Azərbaycan da bir sıra tədbirləri həyata keçirdi. Böyük Britaniya siyasi-iqtisadi dairələrinin və ictimaiyyətinin diqqətini Bakı – Tbilisi – Ceyhan əsas ixrac

715 ABŞ-ın energetika naziri Spenser Abrahamın çıxışı // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 627-628.
716 Бжезинский З. Выбор. Глобальные господство или глобальное лидерство. Пер. с англ. М., 2005, с.103.
717 Алекперов В. Каспийский регион и развитие мировой нефтяной индустрии (обзор лекции) // Газ. ”Бакинский рабочий”, 2003, 10 сентября.
718 İqor İvanov (1945) – Rusiya Federasiyasının xarici işlər naziri (1998-2004).
719 Fikret Ertan. Hazar’dakı son gelişmeler // “Zaman” gazetesi, İstanbul, 2003, 6 Mart.

neft boru kəmərinin üstünlüklərinə yönəltmək və bu ölkədə fəaliyyət göstərən bir sıra ətraf mühiti mühafizə qeyri-hökumət təşkilatlarının BTC layihəsinin əleyhinə apardıqları kampaniyaya əks-təsir etmək məqsədilə Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Krallığındakı səfirliyinin dəstəyi, "Vətən" Azərbaycan diaspor cəmiyyətinin təşəbbüsü və "LSE Hayek Society" ilə birgə 2003-cü il martın 18-də London İqtisadiyyat və Siyasi Elmlər Məktəbində BTC mövzusunda toplantı keçirildi. Toplantıda Böyük Britaniya Xarici İşlər Nazirliyinin nümayəndələri, bu ölkədə akkreditə olunmuş xarici ölkə səfirliklərinin diplomatları, işgüzar dairələrin, ictimaiyyət və akademik dairələrin nümayəndələri, mətbuat işçiləri, qeyri-hökumət təşkilatları, eləcə də Böyük Britaniyadakı azərbaycanlı və erməni icmasının nümayəndələri iştirak edirdilər. BTC layihəsinin yaranma tarixi, siyasi, iqtisadi, hüquqi üstünlükləri və həyata keçirilmə prosesi barədə məlumat verən məruzəçilər onu Qafqaz üçün faydalı və qlobal olmaqla yanaşı, regionda sabitliyin və əmin-amanlığın bərqərar olması baxımından misilsiz adlandırdılar. Neft boru kəmərinin Azərbaycan, Gürcüstan və Türkiyə iqtisadiyyatı üçün sərfəli olması ilə yanaşı, boru kəmərlərinin keçəcəyi yerlərdə münaqişələrin, işsizlik probleminin həllinə müsbət təsir edəcəyini, xüsusən Gürcüstan iqtisadiyyatı üçün layihənin əhəmiyyətli olacağını, layihədə ən yaxşı mövqenin Azərbaycana məxsus olduğunu dedilər. Layihəyə etiraz edən qrupların iddialarının əsasının olmadığı və yalnız müəyyən siyasi qruplar tərəfindən təşkil edildiyi vurğulandı.

Bundan bir müddət sonra, 2003-cü il mayın 23-də Gürcüstanın Tetri Skaro şəhərində Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin bu ölkənin ərazisindən keçəcək hissəsinin də təməli qoyuldu.

Azərbaycan enerji sahəsində tərəfdaşları ilə münasibətlərini daha da sıxlaşdırdı. 2003-cü il iyulun 30-da ABŞ-a səfər edən Qazaxıstan Respublikasının Baş nazirinin müavini, energetika və mineral ehtiyatlar naziri vəzifəsini icra edən Vladimir Şkolnik[720] Karnegi mərkəzində Xəzər dənizinin Qazaxıstan sektorunun inkişafı məsələləri barədə çıxış edərək Xəzər dənizinin Qazaxıstana aid sektorunun inkişafına dair dövlət proqramının hazırlanmasına dair məlumat verdi, Xəzər dənizində neft yataqlarının işlənilməsi prosesini müsbət qiymətləndirdi, Qazaxıstan tərəfinin Rusiya və Azərbaycan ilə Xəzərin delimitasiyasına dair imzaladığı sazişləri xüsusi olaraq vurğuladı. Bu sənədlər Xəzər dənizində geniş fəaliyyətin aparılması üçün bünövrə idi. Onun sözlərinə görə, bu zaman Qazaxıstan nefti Rusiya üzərindən CPC boru kəməri vasitəsilə dünya bazarlarına çıxarılırdı. 2006-2010-cu illərdə isə neftin hasilatı artacaq və yeni boru kəmə-

720 Vladimir Şkolnik (1949) – Qazaxıstan Respublikasının energetika, sənaye və ticarət naziri (1999-2000). Baş nazirin müavini (2000-2002), eyni zamanda energetika və mineral ehtiyatlar naziri vəzifəsini icra edən (2006-cı ilədək).

rinə ehtiyac duyulacaq, tikilməkdə olan BTC-dən istifadə ediləcəkdi. Qeyd etmək lazımdır ki, bu illərdə Qazaxıstan 52 mln. ton neft hasil edirdi. Onun 9 mln. tonu ölkə daxilində emala sərf edilir, 43 mln. tonu isə ixrac olunurdu. CPC vasitəsi ilə 13 mln. ton neft ixrac edilirdi. Çin də Qazaxıstan neftini almaqda maraqlı idi.

Beləliklə, 1994-2003-cü illərdə Azərbaycanın dənizdə və quruda neft-qaz ehtiyatlarının xarici şirkətlərlə birgə işlənilməsinə dair müqavilələrin ümumi sayı 22, iştirakçı ölkələrin sayı 15, təmsil olunan şirkətlərin sayı 23 oldu.[721] Azərbaycan Respublikasının enerji diplomatiyasının böyük uğuru nəticəsində ölkə yeni bir inkişaf mərhələsinə qədəm qoydu.

### *13.3. Neft strategiyasının ilkin nəticələri*

Neft strategiyasının uğurla həyata keçirilməsinin Azərbaycan üçün sosial-iqtisadi, siyasi, mədəni və mənəvi-psixoloji baxımdan bir sıra əhəmiyyətli nəticələri oldu. Xarici sərmayələrin cəlb edilməsi ölkənin təkcə gələcək inkişafı üçün deyil, onun mövcud olması, siyasi sabitliyin təmin edilməsi, separatçılığın qarşısının alınması, dövlətin qüdrətlənməsi, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, xalqın yaxşı yaşayışının təmin edilməsi və geniş quruculuq işlərinə başlanması üçün başlıca vasitə oldu. Ölkədə təbii sabitliyin bərqərar edilməsi və müstəqil dövlət quruculuğu üçün geniş tədbirlərin həyata keçirilməsinə başlandı. Neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin və iri investisiyaların cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcıları bazarına Azərbaycanın çıxışı təmin olundu. Azərbaycan neftinin dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün çoxlu ixrac boru kəmərləri sistemi quruldu. Rusiyanın Novorossiysk və Gürcüstanın Supsa limanları vasitəsi ilə Azərbaycan nefti nəql edildi. Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə başlanıldı. Boru kəmərinin tikintisinin aparıldığı rayonlarda yeni iş yerləri açıldı, əhali inşaat işlərinə cəlb edildi. İnfrastruktur yenidən quruldu. Kəmər marşrutu boyunca 17 tikinti sahəsində 10 min nəfər işçi çalışırdı. Onların 2200-dən çoxu azərbaycanlı idi.[722]

Neftdən gələn gəlirlər ölkə əhalisinin sosial ehtiyaclarının ödənilməsinə, dövlətin iqtisadi tərəqqisinin və qüdrətinin təmin edilməsinə yönəldildi. Qərbin qabaqcıl texnologiyası Azərbaycana gətirildi. Ölkədə tikinti-quruculuq işləri genişləndirildi.

721 Camalov Y. Heydər Əliyev Azərbaycanın yeni neft strategiyasının memarıdır // "Xalq qəzeti", 2004, 16 yanvar.

722 Bakı–Tbilisi–Ceyhanın təməlinin qoyulmasının bir ili tamam oldu // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 374.

Sosial-iqtisadi cəhətdən Azərbaycan yeni bir inkişaf dövrünə qədəm qoydu. Ölkəyə xarici sərmayələr cəlb edildi. 1994-2002-ci illərdə Azərbaycan iqtisadiyyatına qoyulmuş sərmayələrin həcmi təqribən 13 milyard dollar təşkil edirdi. Bunun 9,6 milyard dolları və ya 72,4%-i birbaşa xarici sərmayələr idi. Təkcə 2002-ci ildə qoyulan xarici sərmayənin həcmi 2,8 milyard dollar təşkil etmişdi. Bu da 1994-cü illə müqayisədə 9 dəfə çox idi.[723] Xarici sərmayələr əsasən neft-qaz sektorunda konkret layihə və proqramların həyata keçirilməsinə yönəldilmişdi.

Azərbaycanın neft strategiyası ölkədə “holland xəstəliyi” yaratmadı. Məlum olduğu kimi, 1960-1970-ci illərdə Niderland Krallığında neft və qaz hasilatı zamanı sənayenin inkişafı və iqtisadiyyatın digər sahələri unudulmuş, əhali dövlət yardımlarından asılı vəziyyətə düşmüşdü. Azərbaycanda isə belə olmadı. Ermənistanın təcavüzü nəticəsində ərazilərinin bir hissəsinin işğal edilməsinə, qaçqın və məcburi köçkünlərin olmasına baxmayaraq, Azərbaycan Respublikasında həyatın bütün sahələrində böyük tərəqqinin əldə edilməsi əsl Azərbaycan möcüzəsi idi. Ölkədə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirildi. Azərbaycan hökuməti gələn gəlirlərdən və sərmayələrdən səmərəli istifadə etdi. “Əsrin müqaviləsi” imzalandıqdan sonra Azərbaycanın qeyri-neft sektoruna 2,78 milyard dollar və ya ildə orta hesabla 309 milyon dollar sərmayə qoyuldu. Xarici kreditlər hesabına ölkədə 35 layihə həyata keçirildi. Ölkədə qaz, drenaj-suvarma sistemlərinin bərpası, Mil-Muğan kollektorunun, Xanarx kanalının tikintisi, Binə hava limanının inşası, müasir təchizatı, ölkənin elektrik sisteminin yenidən qurulması, Yenikənd SES-in, Şimal DRES-in, Mingəçevir SES-in, Ələt – Qazıməmməd avtomobil yolunun tikintisi, dağ rayonlarının, kəndli təsərrüfatının inkişafı və kreditləşdirilməsi, Transqafqaz dəmiryolunun bərpası, “Koka-Kola” müəssisəsi, “European Tobacco Baku”, “Qaradağ-Sement”, “Baku Stil Kompani”, “Qafqaz” konserv zavodu, “Xıllı” nərə balıq zavodu, yüzlərlə ticarət mərkəzi, kiçik və orta sahibkarlıq müəssisələri və s. tikildi.[724] Ölkədə yüz minlərlə iş yerləri açıldı, yoxsulluğun səviyyəsi aşağı salındı, yollar tikildi, tikinti-abadlıq işləri genişləndirildi, parklar salındı.

Enerji diplomatiyasının həyata keçirilməsi nəticəsində ölkə böhrandan çıxdı. İqtisadi islahatlar genişləndirildi. Azərbaycan dövləti enerji təhlükəsizliyini təmin etdi.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitlərindən Ermənistanın təcavüzkar və etnik təmizləmə siyasəti nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş adamların problemlərinin həlli məqsədilə istifadə edildi. Onlar üçün qəsəbələr tikildi. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 22 avqust

723 Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir, s.93.

724 Haqverdiyev O. Zəfərlərlə keçən illər (prezident seçkiləri ərəfəsində ölkənin sosial-iqtisadi inkişaf meyillərinə bir nəzər) // “İqtisadiyyat və audit” jurnalı, Bakı, 2003, №9, s.21-23.

tarixli 562 №-li, 2001-ci il 7 sentyabr tarixli 577 №-li, 2002-ci il 13 may tarixli 700 №-li fərmanlarının icrasına uyğun olaraq qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün 80 milyon manat vəsait ayrıldı. 2003-cü ilin sonlarında Neft Fondunun vəsaitləri 815 milyon dollar təşkil edirdi.[725]

Bakının "Neft Akademiyası" kimi dünyanın enerji siyasətində rolu artdı. Azərbaycanlı mütəxəssislər dünyada daha da şöhrət qazandılar.

Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməyə başlanması xalqda mənəvi-psixoloji ruh yüksəkliyi yaratdı. Dövlətə və hakimiyyətə olan inam artdı. Ölkədə təbii ictimai-siyasi sabitlik bərqərar oldu. Davamlı inkişaf dövrü başlandı. Demokratikləşdirmə sahəsində qanunvericilik aktları qəbul edildi. Təhsil, səhiyyə və s. sahələrdə islahatlar aparıldı. Müasir tipli yeni tibb müəssisələri, yüzlərlə məktəb binası tikildi. Azərbaycanlı gənclərin xarici ölkələrin qabaqcıl universitetlərində təhsil almaları üçün geniş imkanlar açıldı.

Güclü Azərbaycan Ordusu yaradıldı. Ordunun təchizatı yaxşılaşdırıldı. Azərbaycan xalqının özünə inamı artdı. Bütün bunlar neft strategiyasının ölkə daxilində yalnız ilk nəticələri idi.

Enerji strategiyasının həyata keçirilməsinin Azərbaycan Respublikası üçün mühüm beynəlxalq nəticələri oldu. Azərbaycan dövlətinin beynəlxalq mövqeləri gücləndi və siyasi-strateji əhəmiyyəti artdı. Azərbaycan ilə münasibətlər qurmaq istəyən ölkələrin sayı çoxaldı, xaricdən edilən təzyiqlərin miqyası zəiflədi. Azərbaycanı dəstəkləyən ölkələrin sayı artdı, beynəlxalq əlaqələri genişləndi.

Azərbaycan Respublikası əhalisinin sayının az, ərazisinin kiçik olmasına baxmayaraq, özündən dəfələrlə böyük və güclü dövlətləri birləşdirən, əməkdaşlığa cəlb edən ölkə oldu, qarşıdurma deyil, əməkdaşlıq meydanına çevrildi. Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa ilə Asiya arasında siyasi və ticarət əlaqələrinin genişlənməsində, Qafqaz dəhlizinin inkişafında, İNOQEYT, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlət oldu.

Azərbaycan Respublikasının beynəlxalq və regional təşkilatlarda nüfuzu artdı. Azərbaycan haqqında həqiqətlərin dünyaya çatdırılmasında yeni imkanlar qazanıldı. Neft strategiyası Azərbaycanda təbii sabitliyin qurulub möhkəmlənməsində başlıca amillərdən biri oldu.

Zəngin təbii sərvətləri olan Azərbaycan Respublikası müstəqil siyasət yürüdərək Avropadan Cənubi Qafqaza və Mərkəzi Asiyaya qədər uzanan və inkişaf edən geosiyasi, geoiqtisadi sistemdə tranzit, neft və qaz paylaşdıran, dünyanın

725 Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir, s. 100.

enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan bir ölkəyə çevrildi. Rusiyalı mütəxəssis Vladislav İnozemtsevun[726] yazdığı kimi, enerji siyasətinin həyata keçirilməsi nəticəsində Azərbaycan dünya bazarını enerji ehtiyatları ilə təchiz etməklə yanaşı, özünü Mərkəzi Asiyada hasil edilən neft və qazın Qərbi Avropa bazarlarına nəqlinə nəzarət imkanı olan ölkə kimi təsdiq etdi.[727] Azərbaycan Avropanın enerji təhlükəsizliyində qovşaq bir ölkəyə çevrildi.

Azərbaycan neftinə beynəlxalq marağın artdığı və iri neft şirkətlərinin sərmayələr qoyaraq fəaliyyət göstərdikləri bir zamanda beynəlxalq terrorizmə qarşı mübarizədə əməkdaşlıq məsələləri böyük əhəmiyyət kəsb edirdi.

### *13.4. Azərbaycan Respublikasının beynəlxalq terrorizmə qarşı mübarizədə iştirakı*

ABŞ-da 2001-ci il sentyabrın 11-də dünyanı dəyişən bir hadisə baş verdi. "Əl-Qaidə" terrorçuları tərəfindən qaçırılan təyyarələrlə Nyu Yorkda Dünya Ticarət Mərkəzinin dağıdılması və Vaşinqtonda Pentaqon binasının vurulması dünyanı silkələdi. Bu hadisəyə qədər əgər hərbçilər ABŞ-ın müdafiəsi haqqında həyəcanla danışırdılarsa, ondan sonra geniş təbəqələr də terror təhlükəsi barədə həqiqəti dərk etdilər. Terror aktlarının törədilməsi təsadüfi olmayıb, uzun illər boyu yürüdülən siyasət və həll edilməyən Yaxın Şərq problemi ilə sıx bağlı idi. Bu, təkcə ABŞ-ın deyil, bütün dünyanın siyasi həyatına, beynəlxalq münasibətlərə ciddi təsir edən hadisə oldu. Ondan sonra dünyada sülh və təhlükəsizlik məsələlərinə, terrora qarşı mübarizəyə və dünya quruluşuna baxış dəyişdi. Dünyanın özündə və beynəlxalq münasibətlərdə də dəyişiklik baş verdi. Tarazlaşdırılmış beynəlxalq münasibətlər sisteminin yerini dinamik beynəlxalq münasibətlər tutdu. ABŞ Prezidenti dünya ölkələrinə müraciətlə "ya siz bizimləsiniz, ya da bizim əleyhimizəsiniz" deyərək qəti mövqe nümayiş etdirmələrini istədi.

ABŞ-ın çağırışına ilk cavab verən ölkələrdən biri Azərbaycan Respublikası oldu. Sentyabrın 11-də Prezident Heydər Əliyev ABŞ-da baş verən hadisələr barəsində bəyanat verdi.[728] Bəyanatda Azərbaycan dövləti baş vermiş terror aktlarını və terrorçuluğun bütün təzahürlərini pisləyir, terroru dəhşətli bəla

726 Vladislav İnozemtsev (1968) – Rusiya iqtisadçısı və filosofu.
727 İnozemtsev V. Kiçik məkanda böyük siyasətlər: Azərbaycanın geosiyasi arenada gələcək planları nədir? // "Azerbaijan Focus", Bakı, 2009, №1(1), s.69.
728 Amerika Birləşmiş Ştatlarının Nyu York və Vaşinqton şəhərlərində baş vermiş dəhşətli terror hadisələri ilə bağlı Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 865-866.

kimi qiymətləndirir, terrorçuluğa qarşı həmişə mübarizə apardığını qeyd edir, terrorçuluq əleyhinə mübarizədə ölkəsinin əməkdaşlığa hazır olduğunu bildirir və dünya birliyinin səylərini dəstəkləyirdi. Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti "2001-ci il sentyabrın 11-də baş vermiş terror aktlarının günahsız qurbanlarının xatirəsinin yad edilməsi haqqında" sərəncam imzaladı. Azərbaycan dövləti terrorizmə qarşı mübarizədə ABŞ-ın mövqeyini birmənalı olaraq müdafiə etdi və ölkənin hava məkanını açdı.

Heydər Əliyev sentyabrın 12-də ABŞ-ın Azərbaycandakı səfiri Ross Vilsonu qəbul edərək ölkəsinin terrorçuluğu və terroru pislədiyini bir daha bəyan etdi. ABŞ-a dəyən hər hansı zərəri Azərbaycan Respublikasına dəyən zərər kimi qiymətləndirdi və terrorçuların tapılmasında ölkəsinin imkan daxilində Birləşmiş Ştatlara yardım etməyə hazır olduğunu bildirdi.[729] Belə qətiyyətli mövqe Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun daha da möhkəmlənməsinə kömək etdi.

Azərbaycan Respublikasının birmənalı mövqeyi ABŞ ilə əməkdaşlıq və tərəfdaşlıqdan strateji münasibətlərə doğru yeni mərhələni açırdı. Bütün bunlar diqqətdən kənarda qalmadı. ABŞ-ın bəzi mətbuat orqanları Azərbaycanın strateji əhəmiyyətini önə çəkməyə başladılar, bəziləri isə hələ də erməni lobbisinin təzyiqləri altında ehtiyatlı davranırdılar.

Terror aktlarından sonra ABŞ Əfqanıstanda "Sarsılmaz azadlıq" adlı antiterror əməliyyatına başladı. Əməliyyatın başlıca məqsədinin terrorçu təlim mərkəzlərini və onların infrastrukturlarını dağıtmaq, "Əl-Qaidə" təşkilatının liderlərini tutmaq, Əfqanıstanda terror fəaliyyətini dayandırmaq və bu ölkəyə humanitar yardım göstərmək elan edildi. Antiterror əməliyyatında ABŞ ilə yanaşı, Böyük Britaniya və Fransa da iştirak edirdi.[730]

Antiterror əməliyyatı zamanı ABŞ tərəfi Azərbaycan Respublikasının mühüm hərbi-strateji rolunun olduğunu bir daha dərk etdi. Qafqaz – Xəzər dənizi regionu Fars körfəzinə və bu zonada yerləşən İran və İraqa yaxın idi. NATO-nun Avropadakı qüvvələrinin komandanı C.Conson Qafqaz hava dəhlizini Əfqanıstandakı koalisiya qüvvələri ilə Avropadakı bazalar arasında böyük əhəmiyyət daşıyan xətt kimi qiymətləndirir, bu regionu Mərkəzi və Cənub-Qərbi

729 Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ səfirini qəbul etmişdir // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 866-868; Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Ross Vilson ilə görüş. 12.09.2001 // Müstəqilliyimiz əbədidir. 36-cı kitab. Bakı, 2011, s. 61-64.

730 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. II hissə, s.228.

Asiya ölkələrində azad bazar iqtisadiyyatını və demokratiyanı yaymaq prosesində əsas coğrafi məntəqə hesab edirdi.[731]

Birləşmiş Ştatların Azərbaycana münasibətində dəyişiklik baş verdi. ABŞ administrasiyası "Azadlığa dəstək aktı"na 907-ci düzəlişin qüvvəsinin dayandırılması üçün Prezidentə səlahiyyət verilməsi barədə konqresə müraciət etdi. ABŞ dövlət katibi Kolin Pauel konqresin 8 nüfuzlu üzvünə məktubla müraciət edərək Azərbaycana qarşı qadağanın aradan qaldırılmasını dəstəkləməyə çağırdı.[732] Sonralar, oktyabrın 24-də ABŞ senatı 907-ci düzəlişin dayandırılması üçün ABŞ Prezidentinə səlahiyyət verilməsinə dair təşəbbüsü səsvermə yolu ilə qəbul etdi. Bu sənədə əsasən ABŞ Prezidenti 907-ci düzəlişin dayandırılmasını aşağıdakı şərtlər əsasında həyata keçirə bilərdi: antiterror mübarizəsində ABŞ-ın səylərini, Amerika hərbi qüvvələrinin əməliyyat hazırlığını, koalisiya tərəfdaşlarını dəstəkləmək, Azərbaycanın sərhəd təhlükəsizliyini təmin etmək üçün. Ayrıca maddədə qeyd edilirdi ki, bu addım Azərbaycan – Ermənistan münaqişəsinin sülh yolu ilə həlli ətrafında aparılan danışıqlara maneə törətməməli və yaxud Ermənistana hücum xarakterli əməliyyatlara əsas yaratmamalıdır.[733]

Qeyd etmək lazımdır ki, Ermənistanın dövlət səviyyəində yürütdüyü terror siyasətindən və erməni terrorçularının terror aktlarından zərər görmüş Azərbaycan Respublikası hələ 11 sentyabr terror aktlarına qədər BMT Təhlükəsizlik Şurasının terrorçuluq əleyhinə müvafiq tədbirlərin görülməsinə dair qətnamələrinə uyğun olaraq artıq müəyyən addımlar atmış, beynəlxalq hüquq sahəsində terrorçuluğa qarşı mövcud olan beynəlxalq konvensiyalara, o cümlədən terrorizm əleyhinə mübarizəyə dair BMT çərçivəsində qəbul edilmiş 10, Avropa Şurası çərçivəsində qəbul edilmiş 1 sənədə qatılmışdı.[734]

Azərbaycan Respublikası terrorizmə qarşı mübarizənin hüquqi bazasını möhkəmləndirmək üçün əlavə addımlar da atdı. Milli Məclisin oktyabrın 1-də keçirilən iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin göndərdiyi məktub əsasında[735] 1999-cu il dekabrın 9-da BMT Baş Məclisi tərəfindən qəbul edilmiş terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında

731 Гаджиев К. Размышления о последствиях "пятидневной войны" для геополитики Кавказа // Журн. "Мировая экономика и международные отношения", М., 2009, №8, с.39.
732 907-ci düzəlişin aradan qaldırılmasına ümid artır // "Azərbaycan" qəzeti, 2001, 21 oktyabr.
733 ABŞ senatı 907-ci düzəlişin ləğv olunmasına yekdilliklə səs verdi // "Azərbaycan" qəzeti, 2001, 26 oktyabr.
734 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. II hissə, s.229.
735 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə məktubu. 27.09.2001 // ARMMA, f. 2941, siy. 1, iş 909, v.11.

beynəlxalq konvensiyaya qoşuldu.[736] Bununla əlaqədar olaraq oktyabrın 5-də keçirilən iclasda yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında Azərbaycan Respublikası qanununa bəzi əlavə və dəyişikliklər edildi.[737]

Artıq qeyd edildiyi kimi, terror aktlarından sonra ABŞ Əfqanıstanda "Sarsılmaz azadlıq" adlı antiterror əməliyyatına başlamış, Taliban rejimi devrilmiş və Əfqanıstanda yeni hökumət qurulmuşdu. Onun normal fəaliyyət göstərməsini təmin etmək və yerli səhra komandirlərinin hakimiyyətini dağıtmaq üçün BMT Təhlükəsizlik Şurasının 2001-ci il dekabrın 20-də 1386 №-li qətnaməsi qəbul edildi. Qətnaməyə əsasən Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (BTYQ) quruldu. Qüvvələrin mandatı 6 ay müəyyənləşdirilsə də, bu müddət artırıla bilərdi. Sayının 5 min nəfərədək olması nəzərdə tutulan beynəlxalq qüvvələrin tərkibində iştirak edən ölkələr bütün xərcləri öz üzərlərinə götürürdülər.

ABŞ tərəfi Azərbaycandan həmin qüvvələrin tərkibində iştirak etməyi xahiş etdi. Azərbaycan dövləti BTYQ-yə yalnız maddi-texniki dəstək vermək niyyətində idi. BTYQ və Əfqanıstanda yerləşən ABŞ qüvvələri arasında ziddiyyətlər olduğu təqdirdə amerikan qüvvələri Floridada yerləşən Mərkəzi qərargah vasitəsi ilə son sözə sahib olacaqdı. Böyük Britaniya Əfqanıstanda 1500 nəfər kontingent ilə təmsil olunurdu. Almaniya 1500, Fransa 800, İspaniya 700 nəfərlik, İtaliya, Niderland Krallığı, Danimarka, Yunanıstan, Norveç də qüvvələrinin Əfqanıstana göndəriləcəyini bəyan etdilər. NATO-nun tərəfdaş ölkələri olan Avstriya, İsveç, Finlandiya və Rumıniya da hərbçilərini göndərəcəklərini bildirdilər.

Müsəlman ölkələrindən Türkiyə, İordaniya və Malayziya Əfqanıstanda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etmək əzmində olduqlarını bəyan etdilər. Türkiyə 261 əsgərdən ibarət bölüyünü Əfqanıstana göndərməyə hazırlaşırdı. Onlardan 6 nəfəri beynəlxalq qərargahda fəaliyyət göstərməli idi.

ABŞ beynəlxalq qüvvələrin tərkibində müsəlman ölkələrinin, xüsusən Sülh naminə tərəfdaşlıq proqramında iştirak edən dövlətlərin iştirakına müsbət yanaşır və bunun baş tutması üçün səylə çalışırdı. Həmin məqsədlə Azərbaycan Respublikasının antiterror fəaliyyətdə iştirakına dair məsələləri müzakirə etmək üçün 2001-ci il dekabrın 15-də ABŞ-ın müdafiə naziri Donald Ramsfeld[738] Bakıya səfər etdi.[739] Bu, ABŞ-ın müdafiə nazirinin Azərbaycana ilk səfəri idi. Səfər zamanı nazir Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən

736 Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında beynəlxalq konvensiyaya Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının qanunu. 01.10.2001 // ARMMA, f. 2941, siy. 1, iş 909, v.9.

737 2001-ci il oktyabrın 1-dən 5-dək Azərbaycan Respublikası Milli Məclisinin iclaslarında qəbul olunmuş qanun və qərarlar // ARMMA, f. 2941, siy. 1, iş 909, v.36-38.

738 Donald Henri Ramsfeld (1932) – ABŞ-ın müdafiə naziri (1975-1977; 2001-2006).

739 907-ci düzəliş bu günlərdə aradan qaldırılacaqdır // "Azərbaycan" qəzeti, 2001, 16 dekabr.

qəbul olundu.[740] Görüşdə 907-ci düzəlişin ləğvi və terrorizm əleyhinə mübarizədə ikitərəfli hərbi əməkdaşlığın perspektivləri haqqında məsələlər müzakirə edildi. Amerika tərəfi Azərbaycanın ABŞ-da terror hadisəsi baş verdikdən sonra beynəlxalq terrorizmə qarşı mübarizə alyansında iştirak etməyə razılıq verdiyini və hazırlığını yüksək qiymətləndirdi, konqresin 907-ci düzəlişin ortadan qaldırılması məsələsinə baxdığını bildirdi. Səfər zamanı Azərbaycanın beynəlxalq qüvvələrin tərkibində iştirakına dair razılıq əldə edildi.[741]

2002-ci il yanvarın 25-də ABŞ Prezidenti C.Buş 907-ci düzəlişin fəaliyyətinin bir il müddətinə dayandırılmasına dair sənədi imzaladı.[742] Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayevin qeyd etdiyi kimi, 11 sentyabrdan əvvəl Qafqaz və Orta Asiya barəsində ABŞ-ın bəyan etdiyi coğrafi-strateji maraq və məqsədlər demokratiya və bazar iqtisadiyyatının inkişafı, bu regiondakı ölkələrdə müstəqil dünyəvi dövlətlərin möhkəmlənməsi, Xəzərin enerji ehtiyatlarının istifadəsi ilə bağlı idisə, 11 sentyabr hadisələrindən sonra Amerika – Azərbaycan münasibətlərində vacib keyfiyyət dəyişkənliyi baş verdi. Amerika hökuməti terrorizmə qarşı mübarizədə Azərbaycanın rolunu və əhəmiyyətini dərk edərək 907-ci düzəlişə həmişə bəyan etdiyi etirazını əməli tədbirə çevirə bildi. Bu dəfə nəhayət, ABŞ-ın milli maraqları erməni lobbisinin maraqlarına üstün gəldi.[743]

907-ci düzəlişin fəaliyyəti dayandırıldıqdan sonra ABŞ tərəfi Azərbaycan Respublikası ilə hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığı genişləndirdi. 2002-ci il yanvarın 29-da Azərbaycanda səfərdə olan ABŞ dövlət katibinin Avrasiya və Avropa məsələləri üzrə müavini xanım Elizabet Cons ilə Heydər Əliyevin görüşündə siyasi, hərbi və təhlükəsizlik sahəsində ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olundu.[744] Bundan sonra Azərbaycan tərəfi Əfqanıstanda BTYQ-də iştirak etməklə bağlı fəaliyyətə başladı.

Nyu Yorkda keçiriləcək Dünya İqtisadi Forumunun illik iclasında iştirak etmək üçün ABŞ-a səfər edən Azərbaycan Respublikasının Prezidenti 2002-ci il yanvarın 30-da Dünya Ticarət Mərkəzinin dağıntılarına baş çəkdi.[745] Daha sonra,

740 Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-ın müdafiə nazirini qəbul etmişdir // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 1080-1082.

741 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. II hissə, s. 231.

742 ABŞ Prezidenti Corc Buş 2002-ci il yanvarın 25-də konqresin ona verdiyi səlahiyyətlərdən istifadə edərək "Azadlığa dəstək aktı"na 907-ci düzəlişin qüvvəsinin dayandırılması haqqında müvafiq sənədləri imzalamışdır // "Dirçəliş-XXI əsr" jurnalı, Bakı, 2002, yanvar, № 47, s. 63.

743 Paşayev H. ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi // "Dirçəliş-XXI əsr" jurnalı, Bakı, 2003, avqust, №66, s. 97.

744 Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-ın dövlət katibinin müavinini qəbul etmişdir // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 63-64.

745 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a səfəri // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 79.

fevralın 1-də açılan Dünya İqtisadi Forumunun "Mərkəzi Asiyada sabitlik" mövzusuna həsr olunmuş iclasında etdiyi çıxışında ABŞ-da baş verən terror aktlarından sonra dünyanın daha çox narahat olduğunu, separatizm və terrorun təhlükə törətdiyini qeyd etdi və separatizmin terror forması aldığını vurğuladı.[746]

Prezident Heydər Əliyev Azərbaycan silahlı qüvvələri tağımının Türkiyə silahlı qüvvələrinin tərkibində Əfqanıstanda sülhyaratma əməliyyatlarında iştirakına razılıq verməyə dair Milli Məclisə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, BMT Təhlükəsizlik Şurasının 2001-ci il dekabrın 20-də qəbul etdiyi qərara əsasən Əfqanıstan ərazisində sülhməramlı qüvvələrin, o cümlədən NATO və onu müdafiə edən ölkələrin əsgərləri əməliyyat keçirəcəkdir.

Məsələ Milli Məclisin noyabrın 15-də keçirilən iclasında geniş müzakirə edildi və müvafiq sənəd qəbul olundu.[747] Azərbaycan silahlı qüvvələrinin bir tağım - 30 nəfər olmaqla sülhməramlı tədbirlərdə iştirak etməsi planlaşdırılırdı. Yüksək tələblərə cavab verən, NATO tələblərinə tamamilə uyğun olan, şəxsi heyəti ingilis və digər dilləri bilən bu tağım Türkiyə tağımını əvəz edəcəkdi. Onun bütün maliyyə xərclərini Türkiyə tərəfi öz üzərinə götürürdü.[748]

Böyük əhəmiyyət daşıyan bu qərar həm Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıqda vacib tərəfdaş olduğunu, həm də dünya siyasətində rolunun artdığını göstərirdi. Azərbaycan Ordusu eyni zamanda beynəlxalq təcrübə qazanırdı.

Bununla yanaşı olaraq, Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının İraqla əlaqədar müvafiq qətnamələrinin, o cümlədən 1441 (2002) saylı qətnaməsinin yerinə yetirilməsinə yönəldilmiş ABŞ-ın başçılığı ilə beynəlxalq koalisiyanın səylərini və fəaliyyətini dəstəklədi. Azərbaycan Respublikası beynəlxalq koalisiyanın üzvü kimi İraqda sülhməramlı əməliyyatlarda iştirakını əsas götürərək beynəlxalq koalisiya qüvvələrinin tərkibində Azərbaycan Respublikası silahlı qüvvələrinin kontingentinin göndərilməsi barədə müttəfiqlərlə razılığa gəldi. Ona görə də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 6-da Milli Məclisə məktub göndərərək razılıq verilməsi məsələsinə baxmaq üçün təqdim etdi.[749]

Milli Məclisin mayın 7-də keçirilən iclasında 150 azərbaycanlı əsgər və zabitin İraqda sülhməramlı qüvvələrin tərkibində iştirakına icazə verildi.[750] Bu,

746 Dünya iqtisadi forumunun iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 83-84.
747 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 383.
748 Yenə orada.
749 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə məktubu. 06.05.2003 // ARMMA, f.2941, siy. 1, iş 1086, v. 93.
750 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 386.

Azərbaycan dövlətinin beynəlxalq məsələlərdə rolunun yüksəldiyini, etibarının artdığını və vacib tərəfdaş olduğunu göstərirdi.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, Azərbaycan dövlətinin apardığı fəal xarici siyasət öz nəticəsini vermişdir. Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru və Bakı – Tbilisi – Ərzurum qaz kəmərlərinin əsası qoyulmuşdur. Bu layihələrin əleyhinə olan qüvvələr fəallaşmış və müxtəlif üsullarla onların reallaşdırılmasına mane olmağa çalışmışlar. Erməni lobbisi, diasporu və bəzi ölkələr Xəzər dənizinin Azərbaycan sektorundan çıxan neft və qazın daşınmasına mane olmağa çalışmış və müxtəlif iddialar irəli sürmüşlər. İran Xəzərdə insident, mübahisə yaratmışdır. Azərbaycan dövləti qəti mövqe nümayiş etdirmişdir. Cavab olaraq böyük dövlətlər Azərbaycan Respublikasını müdafiə etmişdir. Türkiyə silahlı qüvvələrinin təyyarələri Bakı səmasında uçuşlar keçirmişlər. Azərbaycan dövləti xarici tərəfdaşlarla əməkdaşlığını daha da genişləndirərək yeni müqavilələr bağlamışdır. Enerji strategiyası ilkin nəticələrini vermişdir. Azərbaycan iqtisadiyyatına sərmayə qoyulmuş, yeni fabrik, zavodlar inşa edilmiş, iş yerləri açılmış, sosial-iqtisadi inkişafa nail olunmuşdur. Əhalinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində geniş tədbirlər həyata keçirilmişdir.

ABŞ-da 2001-ci il 11 sentyabrda törədilən terror hadisəsindən sonra Azərbaycan Respublikası birmənalı olaraq beynəlxalq terrorizm əleyhinə mübarizəyə qoşulmuşdur. Azərbaycan Respublikasının Prezidenti bununla bağlı müvafiq sənədləri imzalamışdır. ABŞ Prezidenti Azərbaycana qarşı 1992-ci ilin payızında tətbiq edilmiş ədalətsiz 907-ci düzəlişin fəaliyyət müddətini bir il müddətinə dayandıran qərar qəbul etmişdir. Azərbaycan əsgərlərinin Əfqanıstan və İraqda sülhməramlı qüvvələrin tərkibində iştirak etməsi beynəlxalq nüfuzunun artmasına, təcrübə toplamasına kömək etmişdir.

# 14-cü FƏSİL

## DÖVLƏT İDARƏÇİLİYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ: AZƏRBAYCAN YENİ ÜFÜQLƏR QARŞISINDA

### *14.1. Dünya azərbaycanlılarının təşkilati birliyinin yaradılması*

Azərbaycan hakimiyyəti həm ölkə daxilində islahatlar apararaq dövlət idarəçiliyini təkmilləşdirir, həm də xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin daha səmərəli qurulması və birliyinin təşkilati əsaslarının yaradılması üçün səylər edirdi.

Məlum olduğu kimi, azərbaycanlıların dünya ölkələrinə səpələnməsinin bəlli bir tarixi keçmişi vardır. Azərbaycanın şimal torpaqları çar Rusiyası tərəfindən işğal edilib ilhaq olunduqdan sonra Azərbaycan coğrafi cəhətdən iki yerə bölündüyü kimi, xalq da iki fərqli ölkədə yaşamalı olmuş, Şimali Azərbaycan və Cənubi Azərbaycan ifadələri meydana çıxmışdır. 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Cümhuriyyəti 1920-ci ilin aprelində bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra azərbaycanlılar xarici ölkələrə mühacirət etmişdilər. Onlar əsasən qonşu İran və Türkiyədə məskunlaşmışdılar. Bu isə bir sıra amillərlə bağlı olmuşdu. İlk növbədə, onlar belə hesab edirdilər ki, işğala tezliklə son qoyulacaq və Azərbaycan yenidən müstəqilliyinə qovuşacaqdır. Coğrafi baxımdan yaxın olduğu üçün siyasi mühacirətin nümayəndələri Azərbaycan ilə əlaqə saxlaya bilirdilər. Digər tərəfdən, o illərdə Avropa ölkələrində azərbaycanlıların dini inanclarını icra etmək üçün şərait yox idi. Azərbaycanlıların mühacirətinin növbəti dalğası İkinci Dünya müharibəsindən sonra olmuşdu. Müharibədə əsir düşən və Stalin repressiyalarından qorxaraq vətənə qayıtmayan azərbaycanlılar Avropa ölkələrində və ABŞ-da məskunlaşmağa başlamışdılar. Stalinin ölümündən sonra nisbi yumuşalma baş versə də, xaricdə yaşayan azərbaycanlıların vətənlə əlaqəsi istiqamətində ciddi addımlar atılmamışdı. Ancaq 70-80-ci illərdə bu sahədə bəzi təşəbbüslər göstərilmiş və xaricdə yaşayan azərbaycanlıların sayı barədə arayış hazırlanmışdı.[751] 1969-cu ildə haki-

751 *Bax:* Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər), s. 412-442.

miyyətə gələn Heydər Əliyev hesab edirdi ki, harada və hansı sistemdə yaşamasından asılı olmayaraq azərbaycanlılar dünyada aparılan soyuq müharibənin tərkib hissəsi olan ideoloji, psixoloji müharibədə iştirak etməməli, kommunist ideologiya şəraitində Azərbaycan SSR-in qazandığı uğurları görməlidirlər. O, xaricdə yaşayan azərbaycanlılarla əlaqələrə dair qurumun yaradılması barədə Mərkəzə dəfələrlə məktublar yazmışdı. 1973-cü il avqustun 28-də Azərbaycan KP MK Bürosunun iclasında Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin nəzdində xaricdə yaşayan həmvətənlərlə əlaqə şöbəsi yaradılmışdı. Heydər Əliyevin təklifi əsasında xarici ölkələrdə yaşayan azərbaycanlıların sayına dair arayış hazırlanmışdı. O, "Vətən" cəmiyyətinin yaradılması barədə Mərkəzə məktubla müraciət etmişdi. Lakin SSRİ Nazirlər Soveti yanında DTK və SSRİ Xarici İşlər Nazirliyi arasında bu məsələ barəsində fikir ayrılığı hökm sürürdü. "Vətən" cəmiyyətinin yaradılmasına tərəfdar olan SSRİ DTK sədri Yuri Andropov[752] belə hesab edirdi ki, xaricdə yaşayan azərbaycanlıların antisovet təbliğatda iştirak etməmələri, sovet sistemi şəraitində ölkənin inkişafını görmələri və onu təbliğ etmələri üçün tədbirlər həyata keçirilməlidir. SSRİ xarici işlər naziri A.Qromıko[753] isə belə hesab edirdi ki, cəmiyyətin yaradılması İranda narazılıqla qarşılanar və iki ölkə arasında problemlər yaranar. Nəticədə SSRİ Xarici İşlər Nazirliyinin mövqeyi qalib gəlmişdi. Buna baxmayaraq, Heydər Əliyevin sədrliyi altında Azərbaycan KP MK Bürosunun 1976-cı il 5 oktyabr tarixdə keçirilən iclasında Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin işini yaxşılaşdırmaq tədbirləri haqqında qəbul edilən qərarın 5-ci bəndində yazılırdı ki, Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti xaricdəki həmvətənlərlə aparılan işi canlandırsın.[754] Yalnız 1987-ci ildə Azərbaycanda "Vətən" cəmiyyəti yaradılmışdı. 1991-ci il dekabrın 16-da isə Heydər Əliyevin sədrliyi altında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarı ilə 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi bayram edilməsi haqqında qərar qəbul edilmişdi.

SSRİ dağıldıqdan sonra da azərbaycanlılar dünyanın müxtəlif ölkələrinə səpələnmişdirlər. Onların vətənlə əlaqəsinin saxlanılması vacib idi. Heydər Əliyevin dünya azərbaycanlılarının birliyinin yaradılmasına xüsusi diqqət yetirməsi həm bu amillərdən, həm də Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış münaqişəyə son qoymaqda milli birliyin formalaşması tələbatından irəli gəlirdi.

752 Yuri Andropov (1914-1984) – SSRİ DTK sədri (1967-1982). Sov İKP MK-nın Baş katibi (1982-1984). SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri (1983-1984).

753 Andrey Qromıko (1909-1968) – SSRİ xarici işlər naziri (1957-1985). SSRİ Nazirlər Soveti sədrinin birinci müavini (1983-1985). SSRİ Ali Sovetinin sədri (1985-1988).

754 *Daha ətraflı bax:* Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər), s. 412-442.

Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra bu sahədə xeyli işlər görülmüşdü. Dövlət başçısı belə hesab edirdi ki, dünyada yaşayan azərbaycanlılar ölkədə baş verən proseslərə biganə qalmamalı, təşkilati baxımdan birləşərək ümumi məsələlərin həllinə yardım etməyə çalışmalıdırlar. Ona görə də Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq Dünya azərbaycanlılarının birinci qurultayının keçirilməsi haqqında 2001-ci il mayın 24-də sərəncam imzaladı. Sərəncamda yazılırdı:[755]

*"...bu vaxta kimi atılmış addımların nəticələrinin təhlili göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, müstəqil Azərbaycan Respublikasının həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının təmin edilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasına xidmət edən mütəşəkkil, sanballı bir qüvvəyə çevrilməsi yolunda hələ çox iş görülməlidir".*[756]

2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən birinci qurultay Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil oldu. Qurultayın işinə başlaması tarixinin 9 noyabr seçilməsi əbəs deyildi. Məlum olduğu kimi, 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul edilmiş və o, Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuşdu. Bu, bütün dünya azərbaycanlılarını tək bayraq altında birləşməyə dəvət etmək anlamına gəlirdi.

Qurultayda 36 ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak edirdi. Azərbaycan Respublikasının 130-dan çox dövlət və ictimai qurumundan, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlarından, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonağın təmsil olunduğu qurultayda xaricdəki soydaşlarla sistemli iş aparılmasını təşkil etmək və milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü. Qurultaydakı nitqində Heydər Əliyev dedi:

*"Bu barədə müəyyən xidmətlər göstərmək üçün biz dövlətimizin tərkibində Azərbaycan diasporu ilə iş üçün xüsusi bir orqanın yaradılması haqqında da qərar qəbul edəcəyik. Güman edirəm ki, belə mərkəzləşmiş orqan, yəni Azərbaycan icmaları ilə daim əlaqə saxlayan orqan həm icmaların və ümumiyyətlə, Azərbaycan*

755 Əliyev H.Ə. Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında. 24.05.2001. // Müstəqilliyimiz əbədidir. 34-cü kitab. Bakı, 2011, s. 175-178.
756 Yenə orada, s. 177-178.

*diasporunun formalaşmasına, həm də bizim əlaqələrimizin daha da inkişafına xidmət edəcəkdir".*[757]

Bu ideya Azərbaycan diasporunun formalaşdırılması prosesini sürətləndirməyə xidmət edirdi. 2002-ci il iyulun 5-də Azərbaycan Respublikasının Prezidenti Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında fərman imzaladı. Fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb edən tarixi sənəd oldu. Xaricdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə olan problemlərin aradan qaldırılmasında əhəmiyyətli addımlar atmağa və diasporun fəaliyyətini milli maraqların gerçəkləşdirilməsi istiqamətində mərkəzləşdirməyə imkan verdi.

### *14.2. 2002-ci il 24 avqust konstitusiya referendumu*

Azərbaycanın sürətli inkişafı, habelə cərəyan edən beynəlxalq və daxili siyasi proseslər, müxtəlif təşkilatlarla əməkdaşlığın qurulması, dövlət aparatının təkmilləşdirilməsi qanunvericilik bazasının, ən başlıcası isə Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş konstitusiyasında dəyişiklikləri zəruri edirdi.

Məlum olduğu kimi, Azərbaycan tarixində ilk dəfə olaraq 1995-ci il noyabrın 12-də müstəqil dövlətin hüquqi təməlini təşkil edən konstitusiya ümumxalq səsverməsi yolu ilə qəbul olunmuşdu. Dünyada bu sahədə mövcud olan demokratik, mütərəqqi təcrübəni əks etdirən konstitusiya ötən illər ərzində özünü tamamilə doğrultmuş və Azərbaycanda demokratik, hüquqi, dünyəvi, unitar dövlət və vətəndaş cəmiyyəti quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi üçün əsaslı zəmin yaratmışdı. Konstitusiya xalqın iradəsini ifadə edərək, insan və vətəndaş hüquqları və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi elan etmiş, demokratik dünya ölkələri ailəsinə inteqrasiya məqsədi ilə həyata keçirilən hərtərəfli islahatlar üçün möhkəm qanunvericilik bazasını təmin etmişdi. Lakin qanunların, xüsusən dövlətin əsas qanununun yeni şəraitə uyğunlaşdırılması və daha da təkmilləşdirilməsi zərurəti meydana gəlmişdi. Eyni zamanda, müstəqil Azərbaycanın getdikcə inkişaf etməsi, ölkənin Avropaya inteqrasiyasının güclənməsi, üzv olduğu beynəlxalq təşkilatlar qarşısında öhdəliklər götürməsi konstitusiyanın mətnində müvafiq dəyişikliklər aparılmasını

757 Əliyev H.Ə. Dünya azərbaycanlılarının I qurultayında nitq. 09.11.2001 // Müstəqilliyimiz əbədidir. 36-cı kitab, s. 436.

tələb edirdi. Birincisi, ötən müddət ərzində ölkədə insan hüquqları müvəkkili – ombudsman və Konstitusiya Məhkəməsi yaradılmışdı. Onları konstitusiyaya daxil etmək lazım idi. İkincisi, parlament seçkiləri qarışıq, yəni həm proporsional, həm də majoritar qaydada keçirilirdi. Proporsional qaydada 25, majoritar qaydada isə 100 deputat seçilirdi. Lakin ölkə əhalisinin heç də hamısı siyasi partiyaların üzvü deyildi. Proporsional qaydada seçilən deputatlar seçici ilə əlaqə saxlaya bilmirdilər. Üçüncüsü, Prezident öz səlahiyyətlərini icra edə bilmədikdə onun səlahiyyətləri Milli Məclisin sədrinə keçirdi. Azərbaycanda prezident idarə üsulu olduğundan bu səlahiyyət Baş nazirə keçməli idi. Belə vəziyyət qarışıqlıq yaradırdı. Bütövlükdə konstitusiyada dəqiqləşdirmələr aparmağa ehtiyac yaranmışdı. Dəyişikliklərin edilməsinin zərurəti barədə Heydər Əliyev deyirdi:

*"Bu mənim təşəbbüsümdür, bu məsələləri referenduma mən çıxarmışam. Bu o deməkdir ki, mən onları zəruri hesab edirəm. Çünki demokratik dövlətimizin ilk konstitusiyasını qəbul etdiyimiz vaxtdan 7 il keçmişdir. Bu müddət ərzində dünyada və ölkəmizdə çox şey dəyişibdir. Konstitusiyamız referendumda qəbul olunduğuna görə – bu da yaxşı haldır, ona parlament vasitəsilə, hər kəsin istədiyi kimi dəyişikliklər etmək olmaz, dəyişikliklər ancaq ümumxalq səsverməsi, referendum yolu ilə edilə bilər. Ona görə də mən təklif olunan dəyişiklikləri referenduma, ümumxalq səsverməsinə çıxartdım. Hesab edirəm ki, xalq səs verəcəkdir".*[758]

Referendumun keçirilməsi məsələsini ölkənin, demək olar ki, əksər qabaqcıl, mütərəqqi qüvvələri dəstəkləyirdi. Yalnız bir neçə müxalifət partiyası pozucu fəaliyyət göstərməyə çalışır, dəyişiklik məqsədi ilə səsverməyə çıxarılacaq maddələrin məqsədlərini təhrif edərək insanlara çatdırır və referendumun baş tutmasına mane olmaq üçün cəhdlər göstərirdilər. Lakin bu cəhdləri geniş xalq kütlələri dəstəkləmirdi. Referendumu boykot etmək tərəfdarı olan 20 müxalif siyasi partiyanın avqustun 20-də metronun 20 Yanvar stansiyasından Qələbə dairəsinə qədər keçirdikləri yürüş – mitinqdə cəmi iki min nəfərə qədər insan iştirak etmişdi. Bu məsələdə müəyyən xarici qüvvələr də maraqlı idi. Lakin Azərbaycan Respublikasının Prezidenti ölkədəki siyasi prosesdə bütün siyasi qüvvələrin aktiv iştirakını ümdə məsələ hesab edir, referenduma dair müxtəlif tərəflərin mövqeyini demokratiyanın təzahürü kimi qiymətləndirirdi. O, referendumla bağlı müxtəlif siyasi qüvvələrin iştirakı ilə ATƏT tərəfindən təşkil olunan dəyirmi masalar haqqında fikrini ifadə edərkən deyirdi:

*"Bilirsiniz, o "dəyirmi masa"nın ikisinə baxdım. Çox yaxşı təəssürat bağışladı. Mən ATƏT-in bu təşəbbüsünü alqışlayıram. Referendum ərəfəsində belə "dəyirmi*

758 Əliyev H.Ə. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş konstitusiyasının təklif olunan dəyişikliklərlə əlaqədar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yerli və xarici jurnalistlərin suallarına cavab. 24 avqust 2002 // Müstəqilliyimiz əbədidir. 40-cı kitab. Bakı, 2012, s. 175.

*masa"nın keçirilməsi çox faydalıdır. Faydalıdır ona görə ki, bir tərəfdən, referenduma çıxarılan düzəlişlərin, dəyişikliklərin təbliğatıdır.*

*İkinci tərəfdən, bizim müxalifətdə olan partiyaların aparıcıları dəfələrlə deyirlər ki, onlara öz fikirlərini bildirmək üçün televiziyada imkanlar verilmir. Bunlara televiziyada 4-5 saat imkan verilir və orada bütün partiyaların nümayəndələri – bəzən onların başçıları danışırlar, bəzən təmsilçiləri – qeyri-hökumət təşkilatlarının nümayəndələri, iqtidarın nümayəndələri danışırlar, Yeni Azərbaycan Partiyasının nümayəndəsi danışır. Yəni çox canlı müzakirə gedir, hərə öz fikrini bildirir. Onlar öz fikrini bildirirlər, iqtidar nümayəndələri, hansı ki, referendumu irəli sürüblər, onlar da öz fikrini bildirir, xalq da görür. Bu, çox yaxşı şeydir. Mən bunu çox yüksək qiymətləndirirəm və buna görə ATƏT-ə təşəkkür edirəm. Xalq da görür ki, məsələ nə yerdədir. Mən bundan çox razıyam. Düşünürəm ki, bu, referendumun uğurla keçməsinə kömək edəcəkdir".*[759]

Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2002-ci il tarixli 722 saylı fərmanı ilə "Azərbaycan Respublikasının konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası referendum aktının yeni layihəsi təsdiq olundu. İyulun 29-da ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar 8-ci sessiyasında "Konstitusiya dəyişiklikləri haqqında referendum aktının layihəsi barədə" məsələ müzakirə edildi. Növbədənkənar sessiya 45 deputatın müraciətinə uyğun olaraq Azərbaycan Respublikası konstitusiyasının 88-ci maddəsinin ikinci hissəsinə əsasən çağırılmışdı. Sessiya iclasını açan parlamentin sədri vurğuladı ki, ümumxalq səsverməsinə çıxarılacaq məsələləri şərti olaraq beş qrupa bölmək olar:

*"Birinci qrupa insan hüquqlarının qorunmasının əlavə təminatları ilə bağlı məsələlər daxildir. Hesab edirəm ki, ombudsman təsisatının konstitusiyaya daxil edilməsi, ombudsmana və vətəndaşlara birbaşa Konstitusiya Məhkəməsinə şikayət vermək imkanının yaradılması, yaşamaq hüququna əlavə təminatların nəzərdə tutulması insan hüquqları və azadlıqlarının daha yüksək səviyyədə qorunmasına şərait yaradacaq və eyni zamanda, ölkə qanunvericiliyini Avropa insan hüquqları konvensiyasına uyğunlaşdıracaqdır.*

*İkinci məsələ seçki sistemində nəzərdə tutulan dəyişikliklə bağlıdır. İndiyə qədər parlament seçkiləri qarışıq seçki sistemi üzrə aparılırdı. Proporsional qaydada, partiya siyahısı üzrə 25, majoritar sistem üzrə isə 100 deputat seçilirdi. Nəzərdə tutulan dəyişiklik edildikdən sonra parlament seçkiləri yalnız majoritar sistem üzrə keçiriləcəkdir. Son illər dünyanın seçki sistemlərində gedən proseslər göstərir ki, hətta ənənəvi olaraq proporsional seçki sistemindən istifadə edən*

759 Əliyev H.Ə. Respublikanın və xarici ölkələrin kütləvi informasiya vasitələrinin nümayəndələri üçün keçirdiyi mətbuat konfransı. 13 avqust 2002 // Müstəqilliyimiz əbədidir. 40-cı kitab, s. 125.

*ölkələrdə də majoritar seçkilərə keçmək meyili yaranmışdır. Deməli, nəzərdə tutulan bu dəyişiklik həm Azərbaycan dövlətinin xarakterinə, həm də dünyada gedən proseslərə tam uyğundur.*

*8 milyon əhalisi olan Azərbaycanda 4 milyon seçici vardır. Yeni Azərbaycan Partiyası da daxil olmaqla, bütün partiyaların cəmi 350 min üzvü vardır. Beləliklə, Azərbaycan üçün sırf majoritar seçki sisteminə keçmək parlament deputatlarının məsuliyyətini artırmaq, onları birbaşa seçicilərdən asılı vəziyyətə salmaq, demokratiyanı inkişaf etdirmək deməkdir.*

*Üçüncü məsələ Prezident vaxtından əvvəl vəzifədən getdikdə onun səlahiyyətlərinin kim tərəfindən icra edilməsi ilə bağlıdır. Hazırda konstitusiyanın 105-ci maddəsinə görə, Prezident vaxtından əvvəl vəzifədən getdikdə, üç ay ərzində növbədənkənar prezident seçkiləri keçirilməli və bu müddətdə onun səlahiyyətlərini Milli Məclisin sədri icra etməlidir. Hesab edirəm ki, bu, hipotetik, yəni yalnız fərziyyə şəklində mövcud olan bir haldır. Əminəm ki, möhtərəm Heydər Əliyevin dövründə belə bir hal olmayacaqdır. Referendum aktının layihəsində isə nəzərdə tutulur ki, belə bir hal baş versə, Prezidentin səlahiyyətlərini Baş nazir icra etməlidir. Bu, tamamilə məntiqidir. Prezident idarə üsulu olan ölkələrin əksəriyyətində, o cümlədən ABŞ-da, Rusiyada, Fransada bu variant mövcuddur. Növbədənkənar seçkilərə qədər 3 ay ərzində icra səlahiyyətlərinin həyata keçirilməsinin icra hakimiyyəti strukturunda Prezidentdən sonra gələn ən yüksək vəzifəli şəxsə - Baş nazirə verilməsi hakimiyyət bölgüsü baxımından da məqsədəuyğundur. Burada parlament sədrinin hüquqlarının azaldılmasından və ya məhdudlaşdırılmasından söhbət gedə bilməz. Ölkənin ali qanunvericilik orqanının rəhbəri kimi parlament sədri öz funksiyalarını yerinə yetirir. Hesab edirəm ki, bu cür qayda bizim konstitusiya quruluşumuzu daha da təkmil edir.*

*Dördüncü qrup məsələlər məhkəmə hakimiyyətinin rolunun artması ilə əlaqədardır. Apellyasiya məhkəmələri hakimlərinin Prezidentin təqdimatı əsasında parlament tərəfindən təyin edilməsi, Ali Məhkəmənin, Prokurorluğun səlahiyyətlərinin dəqiqləşdirilməsi, Prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi bu qəbildən olan dəyişikliklərdir.*

*Beşinci qrup məsələlər isə redaktə xarakteri daşıyan, konstitusiyada işlənən ayrı-ayrı müddəaların və ifadələrin dürüstləşdirilməsi ilə bağlı dəyişikliklərdir. Bunlarda məqsəd konstitusiyanın mətnini daha da dəqiqləşdirməkdir".*[760]

Ümumxalq səsverməsinə çıxarılan bütün məsələlər aktual və zəruri olub, Azərbaycan dövlətinin hüquqi bazasının təkmilləşdirilməsinə yönəlmişdi. Bu dəyişikliklərin qəbul edilməsi cəmiyyətin və dövlətin daha sürətlə inkişaf

760 Milli Məclisin növbədənkənar sessiyası // 29.07.2002. https://azertag.az/xeber/milli_maclisin_novbadankanar_sessiyasi-965199.

etməsinə yaxşı imkanlar açırdı. Lakin özünü müxalifət adlandıran bəzi radikal qruplar Azərbaycanın inkişafına xidmət edən bu təşəbbüsə mənfi münasibət bildirirdilər.

Parlamentin sədri deputatları müzakirədə fəal, konstruktiv iştiraka dəvət edərək onu da xatırlatdı ki, referendumun vaxtının dəyişdirilməsi, Prezidentin təqdim etdiyi referendum aktının layihəsində dəyişikliklər olunması Milli Məclisin deyil, Prezidentin müstəsna səlahiyyətinə daxildir.

Çıxış edən deputatlar bildirdilər ki, ümumxalq səsverməsi mühüm siyasi hadisədir və konstitusiyaya dəyişikliklər və əlavələr edilməsi zərurətdən doğmuşdur. Azərbaycan Respublikası prezident idarə üsulu olan ölkə olduğundan proporsional seçki sistemindən imtina etmək təbii və qanunauyğun idi. Əhalinin 95 faizindən çoxu siyasi partiyalardan kənarda olduğundan vətəndaşların siyasi partiyalara deyil, ayrı-ayrı şəxslərə səs verməsi məntiqə tam uyğun idi.

Azərbaycan xalqı həqiqətən demokratik, hüquqi, dünyəvi bir dövlət, cəmiyyət yaratmaq istəyirdi və Prezident Heydər Əliyev tərəfindən irəli sürülən referendum aktı bu meyarlara kifayət qədər xidmət edirdi. Referendum aktının layihəsində nəzərdə tutulan dəyişikliklər Azərbaycanda həyata keçirilən konstitusiya islahatlarının davamı olub, ölkə həyatında baş verən inkişafla bilavasitə bağlı idi. Çünki həyatın təkmilləşməsi zəminində qanunların da mükəmməlləşməsi zərurəti yaranırdı. Təklif edilən dəyişikliklərin qəbul olunması ölkədə demokratiyanın inkişafına xidmət, insan hüquq və azadlıqlarının daha da mükəmməl qorunmasına kömək edəcəkdi. Bu dəyişikliklər həm də Azərbaycanın hüquq məkanının Avropa məkanına inteqrasiya etməsini sürətləndirəcəkdi. Konstitusiyaya ediləcək dəyişikliklərin zəruriliyi Azərbaycanın mötəbər beynəlxalq təşkilatlara üzv olması və bir sıra beynəlxalq konvensiyalara qoşularaq öhdəliklər götürməsi ilə də bağlı idi. Majoritar sistem daha nüfuzlu və xalqın etimadını qazanmış şəxslərin Milli Məclisə seçilməsinə şərait yaratmalı idi. Proporsional qaydada seçilən deputatlar konkret seçicilər qarşısında məsuliyyət daşımırdılar və onların problemlərini həll etmək imkanlarından məhrum olurdular.

Konstitusiyaya təklif edilən əlavə və dəyişikliklər 2002-ci il avqustun 24-də ümumxalq səsverməsinə (referenduma) çıxarıldı. Azərbaycan Respublikası Mərkəzi Referendum Komissiyasının səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası ümumxalq səsverməsinin göstərilən tarixdə keçirilməsini təmin etdi. Mərkəzi Seçki Komissiyasının 24 iyul 2002-ci il tarixli 92/343 saylı qərarına uyğun olaraq referendum aktının layihəsi qruplaşdırılıb, 8 hissəyə bölünərək səsvermə bülleteninə daxil edildi.

Ümumxalq səsverməsi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası referendum dairələri dairə seçki komissiyalarının səslərin hesablanması haqqında protokollarına əsasən müəyyən etdi ki, ölkə üzrə 100 referendum dairəsindən (42 saylı Xankəndi referendum dairəsi istisna edilməklə) 99-da səsverənlər siyahılarına daxil edilmiş seçki hüququ olan 4449260 Azərbaycan Respublikası vətəndaşından 3731051 nəfəri və ya 83,86 %-i referendumda iştirak edərək səs vermişdir.[761]

99 referendum dairəsində səsverənlər siyahılarına daxil edilmiş vətəndaşların yarısından çoxu səsvermədə iştirak etdiyinə və onların yarısından çoxu referendum aktı layihəsinin bütün hissələrinin lehinə səs verdiyinə görə ümumxalq səsverməsinə çıxarılmış "Azərbaycan Respublikasının konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası referendum aktının layihəsi "Referendum haqqında" Azərbaycan Respublikası qanununun 41-ci maddəsinin üçüncü hissəsinə əsasən qəbul edilmiş sayıldı.

Konstitusiyanın 3-cü maddəsinin III hissəsinə edilən əlavəyə əsasən vergilər və dövlət büdcəsi, amnistiya və əfvetmə, müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi barədə referendum keçirilə bilməzdi. 83-cü maddəyə edilən dəyişikliklə konstitusiyadan proporsional seçki sistemi anlayışı çıxarıldı, 88-ci maddədə edilən dəyişikliyə görə, Milli Məclisin sessiyaları yaz və payız sessiyaları şəklində adlandırıldı.

Mühüm dəyişikliklərdən biri 105-ci maddə ilə bağlı idi, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini yerinə yetirə bilmədiyi hallarda onun səlahiyyətlərinin ötürülməsi ilə bağlı məsələlərə həsr olunmuşdu.

Edilmiş bu əlavə və dəyişikliklər konstitusiyanın qəbulundan sonrakı dövrlərdə ölkədə demokratiyanın sürətli inkişafından irəli gəlməklə, onların çox hissəsi respublikanın, Avropa Şurası kimi mötəbər beynəlxalq quruma tamhüquqlu üzv kimi qəbul edilməsi və ölkənin bu qurum qarşısında götürdüyü bir sıra öhdəliklərlə, o cümlədən insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı şəkildə qorunması məqsədi ilə bağlı idi. Əsas qanuna ümumxalq referendumu əsasında edilmiş prinsipial dəyişikliklər proporsional seçki sisteminin ləğvini, fövqəladə hallarda Prezident səlahiyyətlərinin Baş nazirə keçməsini, eləcə də prezident seçkilərinin nəticələrinin sadə səs çoxluğu (50+1 faiz) prinsipi ilə hesablanmasını, habelə hökumətin Milli Məclis qarşısında illik hesabatla çıxış etməsini, siyasi partiyaların ləğvi səlahiyyətlərinin Konstitusiya

761 Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə 24 avqust 2002-ci ildə keçirilmiş ümumxalq səsverməsinin (referendumun) yekunları haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı. // http://www.e-qanun.az/framework/16449.

Məhkəməsindən alınaraq ümumi yurisdiksiyalı məhkəmələrə verilməsini, alternativ hərbi xidmət növünün formalaşdırılmasını, Respublika Prokurorluğuna və Ali Məhkəməyə qanunvericilik təşəbbüsü ilə çıxış etmək səlahiyyətinin verilməsini, vətəndaşlara Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək imkanının yaradılmasını nəzərdə tuturdu. Bu dəyişikliklər mahiyyət etibarilə insan və vətəndaş hüquq və azadlıqlarının konstitusion təminatını gücləndirməyə xidmət etməklə yanaşı, eyni zamanda, hakimiyyətin qolları arasında hüquqi tarazlığın təmin olunmasına yönəlmişdi.

### *14.3. Azərbaycan yeni üfüqlər qarşısında*

2003-cü ilin ortalarından etibarən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin səhhəti pozulmuşdu. Azərbaycan xalqını və Azərbaycan Respublikası ilə sıx əməkdaşlıq edən dövlətləri ölkənin gələcəyinin necə olacağı düşündürürdü. Onlar Azərbaycanda sabitliyin olmasında və Heydər Əliyev siyasətinin davam etdirilməsində maraqlı idilər. Belə bir şəraitdə Artur Rasizadə Baş nazir vəzifəsindən azad edilməsi haqqında ərizə yazdı. O, Baş nazirin birinci müavini təyin edildi.

Prezident Heydər Əliyev 2003-cü il avqustun 2-də Milli Məclisə 1/341 saylı məktub göndərərək İlham Əliyevin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi məsələsini müzakirəyə təqdim etdi. Qeyd etmək lazımdır ki, o vaxta qədər İlham Əliyev Milli Məclisin deputatı və Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri olaraq dünya ictimai-siyasi dairələrində geniş tanınırdı. Bilavasitə onun səyləri ilə Assambleyada Ermənistanın hərbi təcavüzünü pisləyən 30-a qədər sənəd qəbul edilmiş və ya yayılmışdı.[762] Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti və birinci vitse-prezidenti olaraq ölkə və dünya iqtisadiyyatını dərindən bilirdi. Heydər Əliyevin məktubunda yazılırdı:

*"Azərbaycan Respublikası konstitusiyasının 109-cu maddəsinin 4-cü bəndinə uyğun olaraq İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi üçün razılıq verilməsi məsələsi müzakirənizə təqdim edilir".*[763]

762 Qasımlı M., Hüseynov C. Azərbaycanın baş nazirləri, s.128-133.
763 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə məktubu. 02.08.2003 // ARMMA, f.2941, siy. 1, iş 1100, v.111.

Məsələ Milli Məclisin avqustun 4-də keçirilən növbədənkənar iclasında geniş müzakirə edildi.[764] Yekunda belə bir qərar qəbul olundu:

*"İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilsin".*[765]

İlham Əliyev müstəqil Azərbaycan Respublikasının sayca yeddinci Baş naziri oldu və bu vəzifədə 2003-cü ilin avqust-noyabr aylarında işlədi.

Baş nazir İlham Əliyev 2003-cü ilin sentyabr ayında BMT Baş Məclisinin 58-ci sessiyasında Azərbaycan Respublikası nümayəndə heyətinin rəhbəri kimi nitq söyləyərək Azərbaycan tarixində möhtəşəm bir ilkə imza atdı. "Dünya müdiriyyəti" adlandırılan BMT Baş Məclisində dərin məzmunu və strateji hədəfləri ilə seçilən bu nitq Azərbaycan diplomatiya tarixinin parlaq səhifələrindən biri oldu. O zamana qədər Azərbaycan Respublikasının baş nazirlərindən heç biri BMT kürsüsündən nitq söyləməmişdi.

Baş Məclisin sessiya iclasındakı nitqi ərəfəsində İlham Əliyev jurnalistlərə müsahibəsində deyirdi:

*"...Azərbaycanın ən ağrılı problemi – Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında danışacağam. Bu, Azərbaycanın ən mühüm problemidir. Biz ümidvarıq ki, BMT-dörd qətnamə qəbul edən təşkilat bundan sonra öz səylərini daha da gücləndirəcəkdir. Hər halda, biz buna inanmaq istəyirik. Düzdür, bu qətnamələrin heç bir real təsiri olmadı, işğalçı dövlət bunlara məhəl qoymadı. Amma, hər halda, beynəlxalq hüquq normaları var. Əgər bu təşkilat qətnamələri qəbul edibsə, gərək çalışsın ki, onlar həyata keçirilsin".*[766]

İlham Əliyevin 2003-cü il sentyabrın 24-də BMT Baş Məclisində etdiyi nitqi təkcə ilk olması ilə deyil, həm də vacib məsələlərin gündəliyə gətirilməsi ilə diqqəti cəlb etdi. Baş nazir, ilk növbədə, İraq ətrafındakı hadisələrin beynəlxalq təhlükəsizlik sistemindəki kövrək yerləri üzə çıxardığını bildirdi, BMT-ni bu məsələdə tənqid edərək dedi ki, artıq birinci dəfə deyildir Təhlükəsizlik Şurası üzvlər arasındakı qarşılıqlı anlaşılmazlığa görə qərarlarını tətbiq edə və müvafiq olaraq vəziyyətlə bağlı lazımi reaksiya göstərə bilmir. Bu cür anlaşılmazlıqlar həm İraq ətrafında, həm də digər münaqişə və böhranlarla bağlı məsələlərdə Təhlükəsizlik Şurasının fəaliyyətinə mənfi təsir göstərməkdə davam edir. Azərbaycan Respublikasının Baş naziri vurğuladı:

764 Əliyev İ.H. İnkişaf – məqsədimizdir. I kitab. Bakı, 2008, s. 12-14.
765 İ.H.Əliyevin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 04.08.2003 // ARMMA, f.2941, siy. 1, iş 1100, v. 109.
766 Əliyev İ.H. Birləşmiş Millətlər Təşkilatı İqamətgahında jurnalistlərə müsahibə. 23 sentyabr 2003-cü il // İnkişaf – məqsədimizdir. I kitab, s.188.

*“İndi artıq aydındır ki, mövcud BMT mexanizmləri zamanın tələbinə cavab vermir, bununla bağlı Birləşmiş Millətlər Təşkilatında islahat vacib məsələyə çevrilmişdir. Təhlükəsizlik Şurasının da islahatına ehtiyac vardır, orada da həm bu günün reallıqları, həm də yarıməsrlik reallıqlar öz əksini tapmalıdır.*

*Azərbaycan baş katib Kofi Annanın islahatlarla bağlı məlum təkliflərini, xüsusilə Təhlükəsizlik Şurası üzvlərinin genişlənməsi ideyasını dəstəkləyir. Biz BMT mexanizmlərinin yenidən işlənməsi, xüsusilə də veto hüququna yenidən baxılması kimi məsələlərdə şuranın daimi üzvlərinin xoş məramına ümid edirik.*

*Biz ümid edirik ki, indi beynəlxalq icma öz səylərini birləşdirə bilib birləşmiş və bölünməz İraqın bərpası və güclənməsi işinə yönəldəcəkdir və bütün İraq xalqının azad iradəsinə əsaslanmış demokratiya qurmağa yardımçı olacaqdır. Bu prosesdə iştirak etməyə hazırlığını bildirən ölkəmiz artıq İraqın təhlükəsizliyi və sabitliyi işinə öz töhfəsini verməyə başlamışdır”.*[767]

İlham Əliyev Bağdadda BMT nümayəndəliyinin iqamətgahına qarşı terror aktının bütün beynəlxalq birliyi lərzəyə gətirdiyini qeyd etdi. Onun fikrincə, baş verənlər terror qarşısında dünyanın nə qədər aciz olduğunu bir daha göstərmişdi və sübut edirdi ki, terrorçular istənilən cür cinayətə hazırdırlar. Baş nazir qəti mövqe ortaya qoyaraq bildirdi ki, burada yeganə cavab terror yolunu seçənlərə qarşı amansız, rəhmsiz savaş olmalıdır, fərqi yoxdur, terrorçular bu terror aktlarını hansı məqsədlə həyata keçirirlər. Bu savaşda ayrı-seçkiliyə və ikili standartlara yer olmadığını vurğulayan Baş nazir belə ifadə etdi:

*“Ermənistanın ölkəmizə qarşı başladığı təcavüzün, işğalın və terrorun qurbanına çevrilmiş Azərbaycan artıq illər boyudur ki, terrorizmə qarşı təkbaşına savaşır. Terrorizmə qarşı mübarizədə səyləri gücləndirmək barədə beynəlxalq icmaya çağırışlarımız cavabsız qaldı. Yalnız 2001-ci ilin 11 sentyabrından sonra həyəcan təbili çalındı.*

*Terrorizmi törədən səbəblərin, eləcə də onun yayılması üçün münbit şərait yaradan amillərin kökü kəsilməsə, terrorizmə qarşı mübarizədə uğur heç vaxt mümkün olmayacaqdır. Digər tərəfdən, bütün dünyadakı, eləcə də Cənubi Qafqazdakı münaqişələri daimi terror praktikası və onun dövlət səviyyəsində dəstəklənməsi şəraitində həll etmək mümkün deyildir.*

*Biz yadda saxlamalıyıq ki, separatçı və ekstremist qüvvələrin yaradıb inkişaf etdirdiyi terrorçu qruplar, adətən, qeyri-qanuni nəzarət ərazilərində, yəni separatçılıq və xarici təcavüz nəticəsində əmələ gəlmiş “boz zonalar” deyilən ərazilərdə fəaliyyət göstərirlər. Bu, nəzarətsiz “boz zonalardan” biri Azərbaycan Respublikasının Ermənistan hərbi qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsi və*

767 Əliyev İ.H. Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 58-ci sessiyasında çıxış. 24 sentyabr 2003-cü il // İnkişaf-məqsədimizdir. I kitab, s.190-191.

*digər əraziləridir. Terrora qarşı hərtərəfli mübarizə apararaq və münaqişələrin beynəlxalq hüquq normaları əsasında həllinə çalışaraq, beynəlxalq icma gücdən qətiyyətlə istifadə etməlidir. Bu, ədalətli və qanunun aliliyini bərpa edə biləcək yeganə yoldur".*[768]

İlham Əliyev vurğuladı ki, Azərbaycanın nümayəndə heyəti bu yüksək kürsüdən beynəlxalq icmanın diqqətini davam edən Ermənistan – Azərbaycan münaqişəsinə dönə-dönə cəlb etmişdir. Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin üzərində dayanan Baş nazir dedi:

*"Təhlükəsizlik Şurasının 4 qətnamə qəbul etməsindən artıq 10 il keçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir. Bununla belə, Ermənistan bu qətnamələri saymazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk qrupu isə bununla bağlı heç bir adekvat qərar qəbul etmirlər. Azərbaycan beynəlxalq hüquq normalarına və prinsiplərinə əsasən münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildiribdir. Biz bu yöndə səylərimizi davam etdirməkdə israrlıyıq və beynəlxalq icmanın fəal iştirakına ümid edirik".*[769]

Baş nazir münaqişənin tənzimlənməsində Azərbaycan dövlətinin qəti mövqeyini açıq şəkildə aşağıdakı kimi bəyan etdi:

*"Azərbaycan heç zaman "mövcud reallıqlar" əsasında həll variantı ilə razılaşmayacaq və torpağının bir qarışını belə heç kimə verməyəcəkdir! Azərbaycanın səbri sonsuz deyil və heç kim bundan sui-istifadəyə cəhd etməsin! Məsələnin həll olunmamasına görə məsuliyyət işğalçı Ermənistanın üzərinə düşür, işğalın qurbanı olan Azərbaycanın üstünə yox. Beynəlxalq icmanın tutduğu passiv müşahidəçi mövqeyi yaranmış çıxılmaz vəziyyəti daha da gərginləşdirə bilər.*

*Ermənistan yalnız Azərbaycan ərazilərini tərk etdikdən və bununla da münaqişənin sülh yolu ilə həllinə əsas yarandıqdan sonra Azərbaycanla normal dövlətlərarası münasibətlərə və əməkdaşlığa ümid edə bilər. Bizim beynəlxalq hüquq qaydalarına əsaslanan konstruktiv təkliflərimizi rədd etməklə Ermənistan özünün əsl məqsədini – Azərbaycanın işğal olunmuş torpaqlarını öz ərazisinə qatmaq niyyətini nümayiş etdirir.*

*Ermənistanın rəhbərliyi təcavüzkar millətçilik, militarizm, separatizm və terrorizm ideologiyasını əsas tutmaqda davam edərək öz xalqını ən dərin böhran uçurumuna sürüyür. Əraziləri genişləndirmək və ətrafda düşmən axtarmaq hisslərinin milli ideya kimi aşılandığı cəmiyyətdə heç vaxt demokratiya və plüralizm kök sala bilməz".*[770]

768 Yenə orada, s.191.
769 Yenə orada, s.191-192.
770 Yenə orada, s.192-193.

BMT kürsüsündən Baş nazir İlham Əliyev Ermənistana xəbərdarlıq etdi:

*"Ermənistanda dərk etməlidirlər ki, belə getsə, Azərbaycanla hazırkı münaqişə vəziyyəti nəinki həll olunmayacaq, həm də Ermənistanın özünün ciddi daxili sosial və iqtisadi problemlərini daha da pisləşdirəcəkdir".*[771]

Beynəlxalq birliyin bu məsələdə laqeydliyini tənqid edən Baş nazir vurğuladı:

*"Təəssüf hissi ilə bildirirəm və bunu hamı anlamalıdır ki, beynəlxalq icmanın fəaliyyətsizliyi bu pozucu siyasəti davam etdirməkdə Ermənistanın özünə arxayınlığını gücləndirməyə xidmət edir. Həm ATƏT-in Minsk qrupu, həm də BMT-nin Təhlükəsizlik Şurası təcavüzkarın qarşısından geri çəkildilər və bununla öz fəaliyyətlərinin və niyyətlərinin ciddi surətdə davam etdirilməsini şübhə altına aldılar.*

*İşğalçının cəzalandırılmaması nəinki bütün beynəlxalq təhlükəsizlik sistemini, həm də beynəlxalq hüququn prinsipləri və normalarını ciddi surətdə şübhə altına almağa başlayır.*

*Bu cür münasibət beynəlxalq icmaya bir çox hallarda baha başa gəlibdir.*

*Biz Təhlükəsizlik Şurasına müraciət edirik ki, yuxarıda sadalanan 4 qətnamə ilə bağlı lazımi tədbirlər görülməsini təmin etsin və gözləyirik ki, təmas xəttində, eləcə də işğal olunmuş ərazilərdə cinayətkar və təcavüzkar əməllərə son qoyulacaq, işğalçı qüvvələr Azərbaycan ərazilərindən qeyd-şərtsiz, dərhal və tamamilə çıxarılacaqdır".*[772]

İlham Əliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələri üzərində də dayanaraq bəyan etdi:

*"Münaqişə təxminən 1 milyon azərbaycanlını evsiz-eşiksiz qoymuşdur. Aydındır ki, qarşıdan gələn qış qaçqın və köçkünlər üçün daha bir sınağa çevriləcəkdir. Onlardan yüz minlərlə nəfər hələ də çadır düşərgələrində yaşamaqda davam edir. Azərbaycan hökuməti öz məhdud ehtiyatlarından istifadə edərək onların əzablarını yüngülləşdirmək üçün əlindən gələni edir. Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti öz qərarı ilə qaçqın və köçkünlər üçün evlər tikilməsinə 70 milyon ABŞ dollarından artıq vəsait ayırmışdır.*

*Beynəlxalq icmanın yardımını yüksək qiymətləndirərək biz, eyni zamanda, yardımın azalmasından narahatlıq keçiririk. Biz BMT-nin müvafiq agentliklərini, donor ölkələri, qeyri-hökumət təşkilatlarını təkidlə inandırırıq ki, diqqətlərini Azərbaycanın öz torpaqlarından zorla qovulmuş insanların problemlərinə yönəltsinlər və onların ehtiyaclarına adekvat cavab versinlər. Problemin uzunmüddətli həllinə gəldikdə isə, əlbəttə ki, bunun əsasında Ermənistanla Azərbaycan arasında münaqişənin aradan qaldırılması və qaçqın-köçkünlərin öz yerlərinə qayıtması durur.*

771 Yenə orada, s.193.
772 Yenə orada.

*Bu münaqişə Azərbaycanın iqtisadiyyatına ağır zərbə vurmuşdur".*[773]

Baş nazir Azərbaycan dövlətinin səyləri ilə problemlərin həlli istiqamətində görülən işləri BMT üzvlərinin diqqətinə çatdırdı:

*"...daxili ehtiyatlarımızı səfərbər edərək biz sosial-iqtisadi böhrana üstün gəlməyi, sabitlik və inkişaf yolu ilə irəliləməyi bacardıq. Azərbaycan Respublikasının Prezidenti zati-aliləri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və tətbiq olunmuş iqtisadi islahatlar və neft strategiyası artıq konkret nəticələrini verməyə başlamışdır. Bu islahatlar makroiqtisadi sabitliyə və yüksək iqtisadi göstəricilərə gətirib çıxarmışdır.*

*Bazar iqtisadiyyatına keçid və sahibkarlığın inkişaf etdirilməsi iqtisadiyyatda özəl sektorun payını 73 faizə çatdırdı. Ölkə əhalisinin sayı ilə müqayisədə birbaşa xarici sərmayələrə dair rəqəmlər göstərir ki, Azərbaycan keçid iqtisadiyyatı ölkələri arasında liderdir. Orta hesabla illik iqtisadi artım 8-10 faiz təşkil edir.*

*Azərbaycanın təşəbbüsü ilə Xəzər dənizindəki karbohidrogen ehtiyatlarının işlənilməsini və dünya bazarına çıxarılmasını nəzərdə tutan genişmiqyaslı transregional layihələrin tətbiq olunması Şərq – Qərb dəhlizi boyunca yerləşmiş ölkələrin sosial-iqtisadi inkişafı üçün yeni imkanlar açır. Bu layihələr də tarixi İpək yolunun bərpa olunması üçün nəzərdə tutulur".*[774]

Baş nazir daha sonra ölkədə aparılan islahatlar üzərində dayanaraq bildirdi ki, radikal siyasi islahatların həyata keçirilməsi və eləcə də demokratik cəmiyyətin inkişaf etdirilməsinə münbit şərait yaratmış daxili siyasi sabitlik olmasaydı, bu tərəqqi mümkün olmazdı. Əlavə etdi ki, bu günlər Azərbaycan demokratiyası növbəti yetkinlik və möhkəmlik sınağının ərəfəsindədir. Oktyabrın 15-də Azərbaycan Respublikasında prezident seçkiləri keçiriləcəkdir. Ölkədə əsl azad və ədalətli seçki keçirilməsi üçün qanunvericilik bazası mövcuddur. Bu yaxınlarda qəbul olunmuş Seçki Məcəlləsi həm yerli, həm də beynəlxalq səviyyədə geniş müzakirələrdən keçib və beləliklə, ən yüksək beynəlxalq standartlara uyğundur. ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatları təmsil edən çoxsaylı müşahidəçilər və eləcə də yerli müşahidəçilər prezident seçkilərinin keçirilməsini izləyəcəklər. Qlobal səviyyədə demokratiyanın qələbəsi, sosial tərəqqi və davamlı inkişaf yoxsulluq problemləri və iqtisadi göstəricilər üzrə müxtəlif ölkələr və regionlar arasındakı kəskin fərqlər həll olunmadan mümkün deyildir. Bununla bağlı minilliyin inkişafı məqsədləri adlanan proqramın həyata keçirilməsi xüsusilə vacib xarakter alır.

773 Yenə orada, s.193-194.
774 Yenə orada, s.194-195.

İlham Əliyev yoxsulluğa qarşı mübarizə məsələləri üzərində dayanaraq bildirdi ki, bunun üçün inkişaf etmiş ölkələr keçid dövrünün iqtisadiyyatını yaşayan ölkələrin problemlərinə daha çox fikir verməlidirlər. Azərbaycan inanırdı ki, çoxtərəfli ticarət sistemində tərəflərin tərkibi genişləndirilərsə, inkişaf etməkdə olan ölkələrə və keçid iqtisadiyyatını yaşayan ölkələrə beynəlxalq ticarət təşkilatında xüsusi, fərqli münasibət göstərilərsə, bunun qlobal inteqrasiyanın uğuruna böyük xeyri dəyər.

Ölkəsinin mövqeyini təqdim edən Baş nazir dedi:

*"...qəti inanırıq ki, sivilizasiyalar və mədəniyyətlər arasında dialoqu inkişaf etdirmək vacibdir. Yalnız dialoq və xoş məram vasitəsilə biz inamsızlıq və qarşıdurmanı məğlub edəcək, ümumi təhlükələrə və çətinliklərə qarşı birləşib bir qüvvə kimi çıxış edə biləcəyik".*[775]

Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev nitqində beynəlxalq aləmdə yaranmış ağır şəraitdən birlikdə hərəkət edərək çıxmağın yollarını da göstərdi. O, BMT kürsüsündən ölkənin milli maraqlarının təmin edilməsi və Azərbaycanın haqq səsinin dünyaya çatdırılması üçün böyük siyasi məharətlə yararlandı.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti xaricdə yaşayan azərbaycanlılarla iş aparmaqdan ötrü vacib tədbirlər görmüşdür. Dünya azərbaycanlılarının birinci qurultayı keçirilmişdir. Qurultayda nitq söyləyən Heydər Əliyev dünya azərbaycanlılarının qarşısında dayanan vəzifələri dəqiq müəyyənləşdirmiş və hamını Azərbaycan naminə birləşməyə səsləmişdir. Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi qurulmuş, daha sonra Diaspor Komitəsinə çevrilmişdir. Həmvətənlərlə işin sistemli aparılmasına başlanılmışdır.

Ölkədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində islahatlar dərinləşdirilmişdir. Keçirilən konstitusiya referendumuna qəbul edilmiş maddəyə görə, Milli Məclisə proporsional seçki sistemi ləğv edilmiş və yalnız majoritar seçki sistemi saxlanılmışdır. Əgər əvvəllər Prezident səlahiyyətləri Milli Məclis sədrinə keçə bilərdisə, referendum nəticəsində bu səlahiyyətlərin Baş nazirə keçməsinə dair maddə qəbul edilmişdir.

775 Yenə orada, s.195-196.

Aparılan islahatlar dövlət idarəçiliyinin daha da səmərəli olmasına, ölkədə təbii sabitliyin bərqərar edilməsində, milli birlikdə və tərəqqinin əldə edilməsində mühüm rol oynamışdır.

Azərbaycan Respublikası beynəlxalq fəaliyyətini genişləndirərək BMT-də islahatların aparılmasına dair təkliflərini irəli sürmüşdür. Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev 2003-cü ilin payızında BMT Baş Məclisində nitq söyləyərək təşkilatda islahatların zəruriliyini əsaslandırmış və Ermənistanın hərbi təcavüzünə son qoyulmasından ötrü çağırışlar etmişdir. Bildirmişdir ki, Azərbaycan dövləti ərazilərinin işğal altında qalması ilə barışmayacaq, bir qarış torpağını güzəştə getməyəcək və necə olursa-olsun onu azad edəcəkdir.

İlham Əliyev BMT Baş Məclisində Azərbaycan Respublikasının nitq söyləyən ilk Baş naziri olmuşdur. Nitq Azərbaycan diplomatiya tarixinin parlaq səhifələrindən biridir.

Bu zaman Azərbaycan Respublikası növbəti prezident seçkiləri ərəfəsində idi...

# NƏTİCƏ

Ümumiyyətlə, 1991-2003-cü illərdə müstəqil Azərbaycan Respublikası siyasi tarixinin ən vacib məsələlərinin araşdırılmasından aşağıdakı ümumiləşdirilmiş elmi nəticələri çıxarmaq olar.

Azərbaycan xalqının dövlət müstəqilliyini bərpa etməsi ərəfəsində SSRİ-nin beynəlxalq vəziyyəti mürəkkəb olaraq qalmışdır. Bu mürəkkəblik hələ 70-ci illərin sonlarında Əfqanıstana sovet müdaxiləsindən sonra yaranmış SSRİ və ABŞ arasında münasibətlərində mövcud olan gərginliklə və qarşıdurma ilə səciyyələnmişdir. 1985-ci ildə Mixail Qorbaçov sovet rəhbəri olduqdan sonra iki ölkə arasında münasibətlərdə soyuqluq tədricən aradan qaldırılmağa başlamışdır. Sosial-iqtisadi, siyasi və hərbi cəhətdən zəif olduğu üçün Qərb qarşısında güzəştlərə getməyə məcbur olan SSRİ öz qoşunlarını Əfqanıstandan çıxarmışdır.

Əfqanıstanda sovet hərbi avantürasının boşa çıxması və dünyada baş verən digər proseslər İkinci Dünya müharibəsindən sonra SSRİ-nin hökmranlığı nəticəsində yaradılmış Avropanın sosialist ölkələrinə də təsir etmişdir. Uzun illər boyu Moskvanın hökmlərindən əziyyət çəkən Avropanın sosialist ölkələrinin xalqları müstəqil inkişaf yollarını seçmişlər. Avropada sosializm sisteminin iflasa uğraması ilə Şərq və Qərb arasında ideya-siyasi və hərbi qarşıdurmaya son qoyulmuşdur. Beynəlxalq münasibətlərin Yalta-Potsdam sisteminin dağılması ilə İkinci Dünya müharibəsindən sonra dünyada iki sistem ölkələri arasında yaranmış soyuq müharibə başa çatmışdır. SSRİ İkinci Dünya müharibəsində hərb gücünə Şərqi Avropada əldə etdiklərinin çoxunu itirmişdir. SSRİ və Qərb ölkələri arasında “sanitar kordon”u rolunu oynayan Avropanın sosialist ölkələrinin öz inkişaf yollarını seçməsi ilə yeni dünya nizamı formalaşmağa başlamışdır. ABŞ dünyanın yeganə fövqəldövlətinə çevrilsə də, çoxqütblü dünyaya keçid olmuşdur.

Dünyada baş verən proseslər və Avropada sosializm sisteminin dağılması SSRİ-də daxili ictimai-siyasi və iqtisadi şəraitə də təsir etmişdir. Avropada sosializm sistemini qoruya bilməyən sovet rəhbərliyinin başlıca qayğılarından biri bundan sonra SSRİ-nin mövcudluğunu saxlamaq olmuşdur. Sovet İttifaqı rəh-

bərliyinin uğursuz siyasəti ölkə daxilində şəraiti daha da ağırlaşdırmış və böhranı dərinləşdirmişdir. Sovet dövlətinin zəif və həssas yeri olan milli münasibətlər kəskinləşmiş və mərkəzdənqaçma meyilləri artmışdır. Milli münasibətlər baxımından SSRİ-nin mövcudluğundakı zəncirdə ən zəif halqa Cənubi Qafqaz və Baltikyanı respublikalar idi.

SSRİ-nin türk, müsəlman respublikalarına mənfi münasibət bəsləyən Mixail Qorbaçov belə hesab edirdi ki, bu respublikalar sovet rəhbəri Leonid Brejnevin hakimiyyəti illərində xeyli irəli getmişlər və müstəqilliklərini elan etməyə hazırdırlar. Ona görə də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev vəzifəsindən uzaqlaşdırıldıqdan bir neçə gün sonra sovet rəhbərinin ətrafında olan erməni xadimlərinə arxalanan Ermənistan SSR-in Azərbaycana qarşı əsassız ərazi iddiaları və daxili işlərinə qarışması nəticəsində Dağlıq Qarabağ Muxtar Vilayətində separatçılıq başlamış və qarşıdurma yaranmışdır. Keçirilən qanunsuz mitinqlərdə vilayətin Azərbaycandan qopardılaraq Ermənistana verilməsinə dair səsləndirilən əsassız tələblərin qarşısını Mərkəz almamışdır. Vilayətdə qəbul edilən qanunsuz qərarlara etiraz edən dinc azərbaycanlılarla erməni silahlıları arasında toqquşmalar baş vermişdir. Ermənilər Əsgəranda iki azərbaycanlı gənci öldürmüşlər. Onlar Dağlıq Qarabağ münaqişəsinin ilk qurbanları olmuşlar.

Ermənistanda tarixi torpaqlarından vəhşicəsinə qovulan azərbaycanlıların Azərbaycana gəlməsi ağır olan vəziyyəti daha da kəskinləşdirmişdir. Onlardan fərqli olaraq ermənilər Azərbaycanda rahat yaşamaqda davam etmişlər.

Belə bir şəraitdə Mərkəzin, Ermənistan xüsusi xidmət orqanlarının, erməni kilsəsinin təxribatı nəticəsində Sumqayıtda qanlı hadisə törədilmişdir. Hadisələrin icraçısı və erməni təşkilatlarına pul ödəmədikləri üçün öldürülən ermənilərin qatili əvvəllər məhkum edilmiş erməni Eduard Qriqoryan olmuşdur. Sumqayıt hadisəsinin törədilməsində başlıca məqsəd azərbaycanlılarla ermənilərin birlikdə yaşamasının mümkün olmadığını göstərmək və Azərbaycana təzyiq etmək olmuşdur. Bundan bir neçə ay sonra Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov vəzifəsindən çıxarılmış, onun yerinə milli ruha yad olan, kosmopolit, bacarıqsız Əbdürrəhman Vəzirov gətirilmişdir. Respublikada vəziyyət düzəlməmiş, böhran daha da dərinləşmişdir.

Ermənistandan azərbaycanlıların vəhşicəsinə deportasiyası, Dağlıq Qarabağ Muxtar Vilayətində baş verən qanunazidd hərəkətlər Azərbaycan xalqının hiddətini coşdurmuşdur. Yenicə yaradılan Azərbaycan Xalq Cəbhəsinin fəalları bir neçə rayonda hakimiyyəti ələ keçirmiş və SSRİ – İran sərhədində məftilləri sökmüşlər. Bu hadisə Azərbaycanda baş verən proseslərə “islam fundamentalizmi” damğası vurmaq üçün sovet xüsusi xidmət orqanları tərəfindən təşkil edilmiş-

dir. Eçmiədzin kilsəsinin təşkilatçılığı ilə Bakıdakı ermənilərə qarşı təxribat törədilmişdir. Sovet xüsusi xidmət orqanları əhalinin informasiya ala bilməməsi və xalqa birbaşa müraciətlərin edilməsinin qarşısını almaq məqsədi ilə Azərbaycan televiziyasının enerji blokunu partlatmışlar. Bundan sonra sovet rəhbərliyinin əmri ilə Bakıya yeridilən sovet ordu hissələri dinc əhaliyə qarşı kütləvi qırğın törətmişdir. Azərbaycanın digər rayonlarında da günahsız adamlar öldürülmüşdür. Bu qanlı hadisədən sonra Moskvaya qaçan Əbdürrəhman Vəzirovun yerinə Ayaz Mütəllibov gətirilmişdir.

20 Yanvar hadisəsinə etiraz olaraq Azərbaycan xalqı şəhidlərinə 40 gün matəm saxlamış, fabrik və zavodlar işləməmişdir. Bununla da bir-biri ilə sıx bağlı olan sovet iqtisadiyyatı dağılmağa başlamışdır. Etimadı itirən Kommunist Partiyasına qarşı çıxan üzvlərinin çoxu partiya biletlərindən imtina etmişlər. Bu isə dövlətin ideoloji əsasının sarsıdılmasında mühüm rol oynamışdır. Ölkəni xarici hərbi müdaxilədən və təhdidlərdən qorumalı olan ordunun və xüsusi xidmət orqanlarının xalqa qarşı cinayətkar əməllər törətməsi dövlətin güc sturkturlarına olan inamı sarsıtmışdır.

Bu zaman Moskvada sərt nəzarət altında yaşamasına baxmayaraq, ailə üzvləri ilə Azərbaycan nümayəndəliyinə gələn Heydər Əliyevin keçirdiyi mətbuat konfransı, verdiyi bəyanat, çətin və mürəkkəb şəraitdə xalqının yanında olması Azərbaycan tarixinin dönüş anlarından biri olmuşdur. Bundan sonra yolunun Mərkəz ilə bir olmadığı qənaətinə gələn Azərbaycan xalqı gələcəyini dövlət müstəqilliyində görmüşdür.

Moskvada yaşamaq mümkün olmadığından Bakıya gələn Heydər Əliyevə Azərbaycan rəhbərliyi yaşamağa imkan vermədiyi üçün o, doğulduğu Naxçıvana getməyə məcbur olmuşdur. Blokada şəraitində yaşayan Naxçıvan əhalisi ümidlərini Heydər Əliyevin zəkasına, qətiyyətinə, bilik və bacarığına bağlamışdır.

Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxiləsinin davam etməsi, tarixi torpaqlarında yaşayan azərbaycanlıların vəhşicəsinə qovulması nəticəsində respublikada ağır sosial-iqtisadi, siyasi, mənəvi-psixoloji böhran dərinləşmişdir. Belə gərgin şəraitdə, 1990-cı illin sentyabrında Azərbaycan SSR-in Ali Sovetinə seçkilərdə müxalifətin nümayəndələrinin də seçildiyi parlament formalaşdırılmışdır.

Respublika rəhbərliyinin törətdiyi bütün maneələrə baxmayaraq, xalq Heydər Əliyevi Naxçıvan MSSR Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı seçmişdir. Ağsaqqal deputat olaraq Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən iclasında hələ sovet dövləti, kommunist sistemi və ideologiyasının mövcudluğuna baxmayaraq, Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözləri çıxarılmış, Azərbaycan

Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq qəbul edilmiş və Bakıya həmin atributları qəbul etmək təklif edilmişdir. SSRİ-nin inkar etdiyi bu bayrağın qəbul edilməsi ilə qədim Naxçıvan müstəqil Azərbaycan dövlətinin təməlinin qoyulduğu yer olmuşdur.

1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin iclasında respublikanın adı Azərbaycan Respublikası adlandırılmış və Cümhuriyyətin bayrağı dövlət bayrağı olaraq qəbul edilmişdir. SSRİ-nin saxlanılmasına dair Azərbaycanda keçirilən referendum Naxçıvanda boykot edilmişdir.

Ölkədə şərait getdikcə ağırlaşdığından bir qrup şəxsin 1991-ci il avqustun 19-da etdiyi dövlət çevrilişi cəhdi iflasa uğradıqdan sonra SSRİ-nin dağılması sürətlənmişdir. Bu proses Azərbaycana da təsir etmişdir. Parlamentdə 1991-ci il avqustun 30-da dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə qəbul edilmişdir. Bundan bir neçə gün sonra, sentyabrın 8-də Azərbaycan Respublikasında ilk prezident seçkisi keçirilmişdir. Ayaz Mütəllibovun prezident seçilməsi respublikada şəraiti yaxşılaşdırmamış, Ermənistandan qovulmuş qaçqınların gəlməsi onu daha da ağırlaşdırmışdır. Mərkəz isə Ermənistanın Azərbaycanın daxili işlərinə qarışmasının qarşısını almamışdır.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edilmişdir. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmuşdur. Azərbaycan xalqı planlı sosialist təsərrüfat sistemindən azad bazar iqtisadiyyatına, təkpartiyalı sistemdən çoxpartiyalı sistemə, diktaturadan demokratiyaya, qapalı cəmiyyətdən açıq cəmiyyətə keçid yolunu götürmüşdür.

Azərbaycan Respublikası ilk addım olaraq BMT-yə üzv olmaq və Ermənistanın qanunazidd hərəkətlərini dayandırmaq üçün suveren dövlətlərin parlamentlərinə müraciət etmişdir. Lakin həmin çağırışlara məhəl qoymayan Ermənistan fəaliyyətlərini daha da genişləndirmişdir.

Ermənistandan göndərilmiş silahlı quldur dəstələri Azərbaycan dövlət xadimlərinin olduğu helikopteri Qarakənd kəndinin səmasında vuraraq onları öldürmüşdür. Bundan sonra Azərbaycan dövləti DQMV-ni ləğv etmişdir.

Mürəkkəb proseslərin gedişində Rusiya, Ukrayna və Belarus respublikalarının rəhbərləri SSRİ-inin varlığına son qoyan sənədi imzalamışlar. Müstəqil Dövlətlər Birliyi yaradılmışdır.

SSRİ-nin dağılmasından sonra Ermənistanın Azərbaycana qarşı açıq hərbi təcavüzü başlanmışdır. İşğalçı ölkə uzun müddət mühasirədə saxladığı Xocalı şəhərində mülki azərbaycanlı əhalini etnik və dini əlamətə görə kütləvi şəkildə öldürməklə soyqırım törədərək bəşəriyyətə və sivilizasiyaya qarşı ağır cinayət etmişdir. Xocalıda törədilən soyqırımdan sonra ölkədə vəziyyət pişləşmiş, iste-

faya gedən parlamentin sədri Elmira Qafarovanın yerinə Yaqub Məmmdov seçilmişdir. Az sonra istefa verməyə məcbur olan Prezident Ayaz Mütəllibovun səlahiyyətlərini Yaqub Məmmədov icra etməyə başlamışdır.

Azərbaycan Respublikası BMT-yə üzv qəbul edilmişdir. Ermənistanın hərbi müdaxiləsi nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini dinc yollarla tənzimləmək üçün 1992-ci ilin martında ATƏM-in Minsk qrupu yaradılmışdır. Minsk konfransını çağırmaq barədə razılıq əldə edilsə də, Ermənistanın işğalçılıq siyasəti ucbatından uğursuz olmuşdur.

İran İslam Respublikasının təşəbbüsü ilə Tehranda Azərbaycan və Ermənistan rəhbərlərinin görüşü keçirilmiş və müvafiq sənəd imzalanmışdır. Lakin işğalçı Ermənistan Qafqazın konservatoriyası və Azərbaycan mədəniyyətinin beşiklərindən olan Şuşa şəhərini 1992-ci il mayın 8-də işğal etmişdir. Şuşanın işğalı Azərbaycanda şəraiti gərginləşdirmişdir.

Şuşa şəhərinin işğalından sonra Ayaz Mütəllibovun hakimiyyətə qayıtmaq cəhdi ölkədə ağır olan şəraiti daha da kəskinləşdirmişdir. Buna etiraz edən Azərbaycan Xalq Cəbhəsi silahlı çevriliş edərək dövlət və hökumət binalarını tutmuşdur. Ayaz Mütəllibov Moskvaya qaçmışdır. Yaqub Məmmədov parlamentin sədri vəzifəsindən istefa vermişdir. Parlamentdə sədrin seçilməsi məsələsi müzakirə edilərkən bəzi deputatlar tərəfindən görkəmli dövlət və siyasi xadim, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin namizədliyi barədə fikirlər səsləndirilsə də, nəzərə alınmamışdır. İsa Qəmbərov parlamentin sədri seçilmiş və prezident səlahiyyətini icra etməyə başlamışdır.

Azərbaycanda yaranmış mürəkkəb şəraitdən istifadə edən təcavüzkar Ermənistanın Laçın rayonunu işğal etməsi nəticəsində sakinlər məcburi köçkünə çevrilmiş, tarix və mədəniyyət abidələri, yaşayış evləri, sosial-mədəni obyektlər dağıdılmış, Dağlıq Qarabağ regionu ilə quru əlaqəsi yaradılmışdır.

Mürəkkəb bir şəraitdə keçirilən prezident seçkilərində AXC nümayəndəsi Əbülfəz Elçibəy Prezident seçilmişdir. O, Azərbaycan Respublikasının sayca ikinci prezidenti olmuşdur. Beləliklə, Azərbaycan Respublikasında AXC-Müsavat iqtidarı qurulmuşdur.

Azərbaycanda hakimiyyətə gələn qüvvələr sosial-iqtisadi, siyasi şəraiti yaxşılaşdıra, qaçqın və məcburi köçkünlərin problemlərini həll edə, Ermənistanın hərbi təcavüzünü dayandıra bilməmişlər. Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvanda dözülməz şərait yaranmışdır. Buna baxmayaraq, Azərbaycana qarşı ABŞ-da Azadlığa dəstək aktına əlavə olaraq ədalətsiz 907-ci düzəliş qəbul edilmişdir.

Ölkədə şəraitin getdikcə ağırlaşması bir qrup ziyalını narahat etdiyindən çıxış yolunu Naxçıvanda yaşayan Heydər Əliyev şəxsiyyətində görmüşlər. 91

nəfər Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını və ona sədr seçilməsini xahiş etmişdir. Heydər Əliyevin sədrliyi ilə yaradılmış YAP yeni siyasi qüvvə olaraq tarixi zərurətdən meydana çıxmışdır.

Ermənistanın hərbi təcavüzünü dayandırmaq, daxildəki problemləri həll etmək üçün Azərbaycan hakimiyyətinin qəbul etdiyi qərarlar səmərəsiz olmuş, şərait getdikcə daha da ağırlaşmışdır. Bundan istifadə edən təcavüzkar Ermənistan Basarkeçər (Vardenis) rayonu istiqamətindən hücuma keçərək Kəlbəcər rayonunu işğal etmişdir. Rayon əhalisi məcburi köçkünə çevrilmiş, sosial-mədəni obyektlər, yaşayış evləri, tarix və mədəniyyət əraziləri yerlə-yeksan edilmişdir.

Azərbaycan dövlətinin müraciətləri əsasında BMT Təhlükəsizlik Şurası işğalçı qüvvələrin Kəlbəcərdən tezliklə çıxarılmasını nəzərdə tutan 822 saylı qətnaməsini qəbul etmişdir. Lakin Ermənistan qətnamənin tələblərini yerinə yetirməmişdir.

Azərbaycanda hərbi və mülki hakimiyyət arasında mövcud olan ixtilaflar daha da kəskinləşmişdir. Gəncədə hərbi hissədə qiyam baş vermişdir. Qiyamı yatırtmaq üçün digər hərbi hissədən hücum edilmiş və qan tökülmüşdür. Tək dövlət, tək millət, tək bayraq, tək vətən olan Azərbaycan Respublikası dağılmaq, ölkə parçalanmaq və xalq isə vətəndaş müharibəsi təhlükəsi qarşısında dayanmışdır.

Hakimiyyətin dövlət idarəçiliyində səriştəsizliyi və təcavüzkar Ermənistanın Azərbaycanın ərazilərinin işğalını dayandıra bilməməsi iqtisadiyyatın, sosial-siyasi həyatın, millətin mənəvi-psixoloji böhranına gətirərək ümumi böhran yaratmışdır. Dövlət müstəqilliyinin itirilməsi təhlükəsi yaranmışdır.

Yaranmış ağır şəraitdən çıxış yolunu tapa bilməyən hakimiyyət xalqın təkidli tələbləri qarşısında geri çəkilərək, çarəsiz qalıb Naxçıvandan Heydər Əliyevi Bakıya dəvət etmişdir. Milli Məclisin iclasında çıxış edən Heydər Əliyev silahlı qarşıdurmanın baş verdiyi Gəncə şəhərinə jurnalistlərlə gedərək vəziyyətlə yerində tanış olmuşdur. Bakıya qayıtdıqdan sonra parlamentin iclasında çıxış etmiş və Milli Məclisin sədri seçilmişdir. Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqı vətəndaş müharibəsindən, ölkəni parçalanmaqdan, dövləti dağılmaqdan xilas etmək üçün xilaskarlıq missiyası olmuşdur. Bu qayıdış müstəqil Azərbaycan Respublikasının tarixinin mühüm səhifələrindən biridir.

Ölkədə yaranmış ağır şəraitdə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin heç kimə xəbər vermədən Bakını tərk edərək doğulduğu Naxçıvan Muxtar Respublikasının Kələki kəndinə getməsi şəraiti daha da mürəkkəbləşdirmişdir. Geri dönmək barəsində ona edilən müraciətlər nəticə verməmişdir.

Azərbaycanda yaranmış qarışıq vəziyyətdən istifadə edən Ermənistan Ağdam rayonunu işğal etmişdir. Rayon əhalisi məcburi köçkünə çevrilmiş, tarix və mədəniyyət abidələri, sosial-mədəni obyektlər, fabrik və zavodlar, yaşayış evləri dağıdılmışdır.

Azərbaycan Respublikasının tələbinə əsasən toplanan BMT Təhlükəsizlik Şurası işğalçı qüvvələrin tezliklə, tamamilə və qeyd-şərtsiz çıxarılmasına dair 853 saylı qətnaməni qəbul etmişdir. Lakin təcavüzkar ölkə qətnamənin tələblərini yerinə yetirməmişdir. Hərbi əməliyyatları genişləndirən Ermənistan Füzuli və Cəbrayıl rayonlarını işğal etmişdir. Yaşayış binaları, sənaye və kənd təsərrüfatı, sosial-mədəni, tarix və mədəniyyət obyektləri dağıdılmış, əhali məcburi köçkünə çevrilmişdir.

Belə bir şəraitdə xaricdən dəstək alan separatçı qüvvələrin Azərbaycanı şimaldan və cənubdan parçalamaq cəhdləri artsa da, Heydər Əliyevin səyləri nəticəsində iflasa uğramışdır. Xalq ayağa qalxaraq separatçıları qovmuşdur.

Prezident Əbülfəz Elçibəy Kələki kəndinə getdikdən sonra ölkədəki yaranmış ağır vəziyyətdən çıxmaqdan ötrü etimad referendumu keçirilmişdir. Referendumda iştirak edənlərin mütləq əksəriyyəti ona etimad göstərməmişdir. Bundan sonra Prezident səlahiyyətləri Heydər Əliyevə keçmişdir. Heydər Əliyevin başlıca vəzifəsi dövlətin müstəqilliyini qoruyub saxlamaq, ölkəni dağılmaqdan, xalqı vətəndaş müharibəsindən xilas etmək, Ermənsitanın davam edən hərbi təcavüzünü dayandırmaq olmuşdur.

Dövlətin xarici siyasəti yenidən qurulmuşdur. Təkqütblü xarici siyasət xəttindən imtina edən Azərbaycan Respublikası MDB-yə üzv qəbul edilmişdir.

1998-ci il oktyabrın 3-də Azərbaycan Respublikasında prezident seçkiləri keçirilmişdir. Müxtəlif siyasi partiyaların nümayəndələrinin və müstəqil şəxslərin iştirak etdiyi seçkidə seçicilərin mütləq əksəriyyəti Heydər Əliyevə səs vermişdir. Heydər Əliyev Azərbaycan Respublikasının sayca üçüncü Prezidenti seçilmişdir.

Təcavüzkar Ermənistan ərazi işğallarını davam etdirmişdir. Azərbaycan Respublikasının tələblərinə əsasən toplaşan BMT Təhlükəsizlik Şurası qəbul etdiyi 874 saylı qətnaməsində işğalçı qüvvələrin işğal etdiyi ərazilərdən çıxmasını tələb etmişdir. Lakin Ermənistan buna məhəl qoymamışdır.

Qarışıqlıqdan istifadə edən təcavüzkar Ermənistan Zəngilan rayonunu işğal etmişdir. Azərbaycan Respublikasının tələbələrinə əsasən toplanan BMT Təhlükəsizlik Şurası 884 saylı qətnaməni qəbul etmişdir.

Ölkədə yaranmış ağır şəraitə baxmayaraq, Heydər Əliyev ayrı-ayrı silahlı dəstələrin yerində mütəşəkkil, vahid ordu qurulması işlərinə başlamışdır. Məhz onun Ali Baş Komandanlığı altında Azərbaycan Ordusunun keçirdiyi uğurlu

Horadiz əməliyyatı nəticəsində bir sıra ərazilər işğalçılardan azad edilmişdir. Bu, milli ruhu və qələbə əzmini yüksəldən hadisə olmuşdur.

Fəal beynəlxalq fəaliyyət yürütməyə başlayan Prezident Heydər Əliyev ilk xarici səfərini Fransa Respublikasına etmişdir. Səfərin Fransaya edilməsinin dərin mənası olmuşdur. Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyi 1920-ci ilin yanvar ayında Parisdə de-fakto olaraq tanınmışdı. Səfər o demək idi ki, Azərbaycan Respublikası daim müstəqil dövlət kimi yaşayacaqdır. Fransa inqilabı dünyaya azadlıq, bərabərlik və qardaşlıq prinsiplərini gətirmişdi. Azərbaycan bu prinsiplərə sadiq qalacağını və demokratiya yolu ilə inkişaf edəcəyini bir daha bəyan etmişdir. Bu səfər ilə Azərbaycan dövləti erməni lobbisinin və diasporunun güclü olduğu Fransa ilə qarşılıqlı faydalı əməkdaşlıq qurmaq istəyini bildirmişdir. Keçirilən danışıqlar və imzalanan sənədlər qarşılıqlı münasibətlərin hüquq-müqavilə bazasının yaradılması və inkişafı baxımından əhəmiyyətli olmuşdur.

Heydər Əliyevin Türkiyəyə ilk rəsmi səfəri zamanı keçirilən danışqlar və imzalanan sənədlər həm ikitərəfli, həm də regional əməkdaşlıqda müstəsna rol oynamış, qarşılıqlı münasibətlərdə yeni keyfiyyət mərhələsinin başlanğıcını qoymuşdur. Münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsi üçün vacib işlər görülmüşdür.

Ermənistanın hərbi təcavüzünü dayandırmaqdan ötrü MDB Parlamentlərarası Assambleyasının təşəbbüsü ilə Qırğızıstanın paytaxtı Bişkekdə müvafiq protokol imzalanmışdır. Dağlıq Qarabağ regionunun azərbaycanlı əhalisi nəzərdə tutulmadığı üçün Azərbaycan tərəfi həmin protokolu imzalamamış, lakin sonradan bəzi qeydlərlə imza atmışdır. Münaqişə zonasına sülhməramlı qüvvələr yerləşdirilməsə də, atəşkəs rejimi qurulmuş, “nə sülh, nə də müharibə” şəraiti yaranmışdır.

Azərbaycan dövlətinin atəşkəsə getməsi real şəraitdən doğmuşdur. Prezident Heydər Əliyev atəşkəsə ölkənin inkişafının açarını tapmaqda, xalqın həyat şəraitini yaxşılaşdırmaqda, güclü ordu yaratmaqda, dövləti qurmaq və möhkəmləndirməkdə, torpaqları təcavüzkar Ermənistanın işğalından azad etməkdə bir vasitə kimi baxmışdır.

Ermənistan isə atəşkəsə getməklə Azərbaycan ərazilərinin işğalını “oldu-bitdi” kimi qələmə vermək və danışıqları uzatmaq məqsədi güdmüşdür.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının qarşısında dayanan başlıca vəzifələrdən biri təbii sərvət olan nefti milli sərvətə çevirmək, ölkə qarşısında dayanan vacib sosial-iqtisadi problemləri həll etmək və beynəlxalq mövqeləri möhkəmləndirmək olmuşdur. Hələ SSRİ-nin mövcudluğunun son illərində bir sıra iri xarici şirkətlər Azərbaycan neftinə maraq

göstərmiş və əməkdaşlıq üçün ilk addımlar atılmışdır. Lakin ölkə daxilində baş verən mürəkkəb proseslərin və belə əməkdaşlığın əleyhdarlarının fəaliyyətlərinin təsiri altında danışıqlar çətinliklərlə üzləşmişdir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra neft sahəsində əməkdaşlıqda yeni bir mərhələ başlanmışdır. Əməkdaşlığa mane olan xarici qüvvələrin təzyiqlərinə baxmayaraq, Heydər Əliyevin gərgin səyləri ilə işlənib hazırlanmış neft strategiyasının nəticəsində Xəzər dənizinin Azərbaycan sektorundan hasil ediləcək neftə dair iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalanmışdır. Bununla da təbii sərvət olan neftin milli sərvətə çevrilməsi istiqamətində ilk dəfə beynəlxalq sənəd imzalanmışdır. Böyük tarixi əhəmiyyət daşıyan bu müqavilənın imzalanması ilə Azərbaycan dövləti və xalqının tarixində yeni bir səhifə açılmışdır. "Əsrin müqaviləsi"nin imzalanması ölkənin bütün sahələrdə inkişafının təməlini təşkil etmiş və açarı olmuşdur.

Neft strategiyasının əleyhinə olan düşmən qüvvələr fəaliyyətlərini daha da genişləndirmişlər. Sui-qəsd nəticəsində bir neçə dövlət xadimi qətlə yetirilmiş, bəzi məhbuslar təcridxanadan qaçırılmışdır. 1994-cü ilin oktyabrında dövlət çevrilişi cəhdi baş vermişdir. Bütün bu qanunsuz hərəkətlərin qarşısı Heydər Əliyevin yenilməz iradəsi və qətiyyəti sayəsində alınmışdır. Prezidentin çağırışına səs verərək hakimiyyəti müdafiə edən xalq dövlət çevrilişinin əleyhinə çıxmışdır. Çevrilişdə əli olan Baş nazir vəzifəsindən azad edilmiş, Milli Məclisin deputatı statusundan məhrum edilmiş və həbs olunmuşdur.

1995-ci ilin martında Xüsusi Təyinatlı Polis Dəstəsi dövlət əleyhinə qiyam qaldırmışdır. Lakin Heydər Əliyevin qətiyyəti və yenilməz iradəsi nəticəsində qiyam yatırılmış, cinayətkarların bir qismi atışma zamanı öldürülmüş, bir qismi isə həbs edilmişdir. Bundan sonra ayrı-ayrı şəxslərin və qrupların Azərbaycan Respublikasında sui-qəsdlər, çevrilişlər və dövlət əleyhinə qiyam qaldırmaqla hakimiyyətə gəlmək istəklərinə son qoyulmuşdur. Dövlət əleyhinə baş verən bütün qanunsuz hərəkətlərin qarşısının alınmasında Heydər Əliyev şəxsiyyəti, yenilməz iradəsi, qətiyyəti, xalqın rəhbərinə olan inam və etimadı müstəsna rol oynamışdır.

Azərbaycanın neft strategiyasının həyata keçirilməsinə mane olmaq istəyən dövlətlər Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməməsini bəhanə gətirərək təzyiqlər etmişlər. Lakin Azərbaycan dövləti onları rədd edərək fəaliyyətini davam etdirmişdir. Bununla paralel olaraq, Xəzər dənizinin hüquqi statusuna dair ikitərəfli və çoxtərəfli danışıqlar da aparılmışdır.

Məlum olduğu kimi, dövlətin xarici siyasəti daxili siyasətinin davamı olsa da, Heydər Əliyev böyük məharət və ustalıqla dünya tarixində nadir rast gəlinən

geniş və səmərəli beynəlxalq fəaliyyət həyata keçirərək ölkə daxilindəki bir sıra problemləri uğurla həll etmişdir. Bundan sonra sosial-iqtisadi, siyasi və b. sahələrdə geniş islahatlar üçün zəmin yaranmışdır.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edilsə də, 1995-ci ilədək ölkənin əsas qanunu olan konstitusiya hələ qəbul edilməmişdi və sovet dövründə, 1990-cı ildə formalaşdırılmış Milli Məclis fəaliyyət göstərirdi. Ölkə qarşısında dayanan başlıca vəzifələrdən biri Azərbaycan Respublikasının konstitusiyasının qəbul edilməsi və Milli Məclisə birinci seçkilərin keçirilməsi olmuşdur.

Prezident Heydər Əliyevin sədrliyi ilə yaradılan konstitusiya layihəsini hazırlayan komissiya dünya təcrübəsinə və ölkə ənənəsinə uyğun olaraq sənədi hazırlamışdır. Eyni zamanda yeni seçki qanunu da işlənilmişdir.

1995-ci il noyabrın 12-də həm birinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirilmiş, həm də müstəqil dövlətin ilk konstitusiyası ümumxalq səsverməsi ilə qəbul edilmişdir. Qanunverici orqan çoxpartiyalı sistem əsasında formalaşdırılmışdır. Milli Məclisin ilk iclasında Prezident Heydər Əliyev geniş nitq söyləyərək ölkənin keçdiyi yolu dərindən təhlil etmiş və parlamentin qarşısında dayanan mühüm vəzifələr barədə danışmışdır.

Milli Məclisin formalaşdırılmasının və konstitusiyanın qəbul edilməsinin böyük tarixi əhəmiyyəti olmuşdur. Ölkə yeni bir inkişaf mərhələsinə qədəm qoymuş və geniş islahatlara başlanmışdır.

Konstitusyasının qəbul edilməsi və I çağırış Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilər nəticəsində parlamentin formalaşmasından sonra dövlətin beynəlxalq əməkdaşlığının daha da genişləndirilməsi üçün yeni imkanlar yaranmışdır. Qarşıda dayanan vəzifələrdən biri strateji məqsədlər naminə Azərbaycan Respublikasının dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevrilməsindən ötrü səmərəli ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq qurmaq və təhlükəsiziliyi təmin etmək olmuşdur. Azərbaycan Respublikasının beynəlxalq fəaliyyətinin başlıca məqsədlərindən biri Avropa İttifaqı ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq quraraq təbii sərvətlərini dünya bazarlarına çıxarmaq, ölkə qarşısında dayanan sosial-iqtisadi problemləri həll etmək, dövlətin beynəlxalq mövqelərini möhkəmləndirmək, müdafiə qüdrətini artırmaq, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini həll etmək olmuşdur. Tarixi Böyük İpək Yolunun reallaşdırılması istiqamətində atılan addımlar nəticəsində Azərbaycan Respublikasının dünyanın nəhəng nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevilməsi strategiyası həyata keçirilmişdir. Azərbaycan Respublikasının beynəlxalq mövqeləri möhkəmlənmiş, dünya və region siyasətində rolu artmışdır.

Neftin dünya bazarlarına çıxarılması planları və ölkənin əlverişli nəqliyyat-kommunikasiya mərkəzi kimi fəaliyyət göstərməsi üçün beynəlxalq təhlükəsizlik tədbirlərinin görülməsi daim aktual olduğundan Azərbaycan Respublikası soyuq müharibə başa çatdıqdan sonra dünyada yeganə hərbi-siyasi blok kimi mövcud olan NATO ilə geniş əməkdaşlıq qurmuşdur. Cənubi Qafqaz regionunun risklərlə dolu olması, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi, Azərbaycan tərəfinin mövqelərinin beynəlxalq səviyyədə müdafiəsinə ehtiyac duyması, təkcə hərbi deyil, eyni zamanda siyasi təşkilat olan NATO ilə əməkdaşlıq Azərbaycan Respublikasının dövlət müstəqilliyinə beynəlxalq təminat verilməsi baxımından əhəmiyyətli olmuşdur. Yeni şəraitdə Azərbaycan üçün zəruri olan ordu quruculuğu məsələsində elm, texnologiya və iqtisadiyyat baxımından dünyanın qabaqcıl ölkələrinin üzv olduğu NATO-nun təcrübəsi müəyyən rol oynamışdır.

Qeyd etmək lazımdır ki, əməkdaşlıqda təkcə Azərbaycan maraqlı olmamışdır. Azərbaycan Respublikasının əlverişli coğrafi-siyasi və strateji mövqeyi, zəngin təbii sərvətləri NATO üçün cəlbedici və əhəmiyyətli rol oynamışdır.

Azərbaycan Respublikasının dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevrilməsi və onun təhlükəsizliyinin təmin edilməsi məqsədilə həyata keçirilən fəaliyyətlə paralel olaraq müzakirə edilən ən mühüm məsələlərdən biri Xəzər dənizinin Azərbaycan sektorundan hasil edilən neftin dünya bazarlarına çıxarılması olmuşdur. Neftin dünya bazarlarına hansı marşrutlarla çıxarılması məsələsi çoxlu mübahisələr doğurmuşdur. Azərbaycan Respublikasının dünya okeanına və açıq dənizlərə birbaşa çıxışı olmadığı üçün neft ya Rusiya, ya İran, ya Gürcüstan, ya Türkiyə, ya da Ermənistan üzərindən çıxarıla bilərdi. Rusiya ərzisindən keçən Bakı – Novorossiysk boru kəməri iqlim şərtləri üzündən ilin müəyyən hissəsini işləmədəyindən, Şimali Qafqazda terror aktları törədildiyindən və sabitsizlik davam etdiyindən neftin bu ərazindən keçirilməsi riskli olmuşdur. Rusiya istənilən zaman terror hadisələrini bəhanə gətirərək boru kəmərlərini bağlaya və ondan Azərbaycan Respublikasına qarşı siyasi təzyiq vasitəsi kimi istifadə edə bilərdi. Türkiyə hökuməti də boğazların həddindən artıq yüklənməsini əsas gətirərək şimal marşrutunun əleyhinə çıxmışdır. Neftin İran ərazisindən keçərək dünya bazarlarına çıxarılması ABŞ-ın bu ölkəyə qarşı tətbiq etdiyi sanksiyalar səbəbindən mümkün olmamışdır. Neft Türkiyə ərazisindən dünya bazarlarına boru kəməri ilə ya Gürcüstan, ya da Ermənistandan keçərək çıxarıla bilərdi. Gürcüstan ərazisində hələ çarizm dövründən fəaliyyət göstərən Bakı – Batum boru kəməri mövcud idi. Lakin bu ölkə ərazisindəki münaqişələr səbəbindən neftin ixracı riskli olmuşdur. Neftin Ermənistan ərazisindən keçməklə Naxçıvandan Türkiyənin Ceyhan limanına

çatdırılması ən münasib olar və ucuz başa gələrdi. Bununla Ermənistanın hərbi təcavüzü nəticəsində blokadada saxlanılan Naxçıvanın enerji problemləri də həll edilərdi. Lakin Ermənistan Azərbaycana qarşı hərbi təcavüzünü dayandırmağı və ərazilərin işğalına son qoymadığı üçün boru kəmərinin bu ərazidən keçirilməsi mümkün olmamışdır.

Bütün bu problemlərlə yanaşı neft şirkətlərinin rəhbərləri Bakı – Ceyhan xəttinin bahalı olduğunu bəhanə gətirərək etiraz etmişlər. Eyni zamanda bəzi ölkələr tərəfindən bu xəttin əleyhinə dünyanın bir sıra qeyri-hökumət təşkilatları da təbliğat aparmışlar.

Problemin həll edilməsində müstəsna tarixi rolu Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyev oynamışlar. Heydər Əliyevin ABŞ, Rusiya, Türkiyə və Böyük Britaniyanın dövlət və hökumət rəhbərləri, şirkət başçıları ilə keçirdiyi görüşlər və İlham Əliyevin ABŞ-da şirkət rəhbərlərinə kəmərin strateji və geosiyasi əhəmiyyətini izah etməsindən sonra məsələ yoluna qoyulmuşdur. Buna baxmayaraq, Xəzər dənizinin Azərbaycan sektorundan hasil edilən neftin dünya bazarlarına Gürcüstan ərazisindən keçirilməklə çıxarılmasına mane olmaq üçün qaba metodlar işə salınmışdır. Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə sui-qəsd edilmiş, Azərbaycan Respublikasına təzyiq göstərmək üçün Şimali Qafqazda antiterror adı altında hərbi əməliyyatlar aparılmış, quru və dəniz yolları bağlanmışdır. Azərbaycanın uğurlu diplomatik-siyasi fəaliyyəti nəticəsində bu cəhdlər uğursuzluğa düçar olmuşdur.

Enerji diplomatiyasını uğurla həyata keçirmək üçün Heydər Əliyev neftin ixracını iki mərhələyə bölmüşdür: ilkin ixrac nefti və əsas ixrac nefti. Bununla bağlı olaraq Rusiya və digər dövlətlərlə müvafiq sənədlər imzalanmış, şimal marşrutunun təhlükəsizliyi üçün təminat əldə edilmişdir. İlkin neft şimal marşrutu olan Bakı – Novorossiysk boru kəməri ilə ixrac edilmişdir. Bu, əslində Rusiya tərəfindən Xəzər dənizinin Azərbaycan sektorunda hüquqlarının tanınması demək olmuşdur.

İlkin Qərb marşrutu kimi Bakı – Supsa kəməri seçilmiş və tikilmişdir. 1998-ci ildə Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi günlərində ABŞ, Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistanın imzaladığı Ankara bəyannaməsi ilə Bakı – Tbilisi – Ceyhan ixrac neft boru kəməri əsas ixrac neft boru kəməri kimi qəbul edilmiş və tikintisinə başlanılmışdır. Bununla da, Azərbaycan dövlətinin enerji diplomatiyasının həyata keçirilməsində bir mərhələ arxada qalmışdır.

90-cı illərin ortalarından etibarən ölkədə sosial-siyasi, iqtisadi və digər sahələrdə islahatların aparılması genişləndirilmişdir. Xeyli mürəkkəb və çətin olan torpaq islahatı uğurla həyata keçirilmiş, inflyasiyanın səviyyəsi aşağı salın-

mış, tədrici iqtisadi inkişafa nail olunmuş, vətəndaşların, xüsusən qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində vacib qərarlar qəbul edilmişdir.

Demokratik islahatlar genişləndirilmişdir. Bu məqsədlə Avropa Şurası ilə qarşılıqlı faydalı əməkdaşlıq qurulmuşdur. Əməkdaşlıqda başlıca məqsəd Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla tənzimlənməsinə dair əlavə imkanlar əldə etmək, ölkə daxilində demokratik islahatların aparılmasına beynəlxalq dəstək qazanmaq olmuşdur. Aparılan iş nəticəsində Azərbaycan Respublikasına Avropa Şurasında xüsusi dəvət olunmuş qonaq statusu verilmişdir. Kütləvi informasiya vasitələri sahəsində dərin islahatlar həyata keçirilmişdir. İnsan hüquqlarının qorunması istiqamətində mühüm tədbirlər görülmüşdür. Ölkədə ölüm hökmü ləğv edilmişdir.

1998-ci ildə keçirilən növbəti prezident seçkilərində Azərbaycan xalqı Heydər Əliyevə yenidən etimad göstərmişdir. Bundan sonra islahatlar xətti dərinləşdirilmişdir. Ölkədə sabitliyi pozmağa çalışan qüvvələrin niyyətləri baş tutmamışdır.

Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmək Azərbaycan Respublikasının diplomatiya tarixinin mühüm səhifələrindən biri olmuşdur. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisi nümayəndə heyətinin rəhbəri İlham Əliyevin gərgin səyləri və bacarığı ilə Ermənistanın hərbi təcavüzünün nəticələrini pisləyən qətnamələr qəbul edilmişdir. Həmin sənədlər hərbi təcavüz haqqında həqiqətlərin Avropa ölkələrinə çatdırılmasında mühüm rol oynamış, Azərbaycan Respublikasının beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə kömək etmişdir.

Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məqsədilə ATƏT-in Minsk qrupu həmsədrlərinin müxtəlif vaxtlarda irəli sürdükləri paket həll, mərhələli həll və ümumi dövlət təklifləri reallaşdırılmamışdır. Təcavüzkar Ermənistan beynəlxalq hüquq normalarını pozmaqda davam etmişdir.

Azərbaycanın neft və qaz ixrac edən ölkəyə çevrilməsi strategiyası reallaşdırılmağa başlanmışdır. Azərbaycan dövlətinin apardığı fəal xarici siyasət nəticəsini vermiş, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft və Bakı – Tbilisi – Ərzurum qaz boru kəmərlərinin əsası qoyulmuşdur. Bu layihələrin əleyhinə olan qüvvələr fəallaşmış və müxtəlif üsullarla onların reallaşdırılmasına mane olmuşlar. Erməni lobbisi, diasporu, eyni zamanda bəzi dövlətlər Qərb şirkətlərinin Xəzər dənizinin Azərbaycan sektorundan çıxan neft və qazın daşınmasına mane olmağa çalışmış, müxtəlif iddialar irəli sürmüşlər. İran Xəzərdə insident yaratmışdır.

Azərbaycan Respublikası qətiyyət göstərmişdir. Böyük dövlətlər də Azərbaycan Respublikasını müdafiə etmişlər. Türkiyə silahlı qüvvələrinin təyyarələri Bakı səmasında uçuşlar keçirmişlər.

Azərbaycan dövləti xarici tərəfdaşlarla enerji sahəsində əməkdaşlığını daha da genişləndirərək yeni müqavilələr bağlamışdır. Qazaxıstanın Bakı – Tbilisi – Ceyxan əsas ixrac boru kəmərinə qoşulması böyük geosiyasi və geoiqtisadi əhəmiyyət daşımışdır. Azərbaycan vacib tranzit ölkəyə çevrilmişdir.

Enerji strategiyası özünün ilkin nəticələrini vermişdir. Azərbaycan iqtisadiyyatına sərmayə qoyulmuş, yeni fabrik, zavodlar inşa edilmiş, iş yerləri açılmış, sosial-iqtisadi inkişafa nail olunmuşdur.

ABŞ-da 2001-ci il 11 sentyabr tarixində törədilən terror hadisəsindən sonra Azərbaycan Respublikası birmənalı olaraq beynəlxalq terrorizm əleyhinə mübarizəyə qoşulmuş və hava məkanını koalisiya qüvvələri üçün açmışdır. Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizəyə fəal qoşulmasının dərin səbəbləri var idi. Çünki Azərbaycan dövləti və mülki əhali erməni terrorundan, Ermənistanın dövlət səviyyəsində dəstəklədiyi terror siyasətindən əziyyət çəkmişdi. Terrorizmə qarşı mübarizəyə dair bir sıra konvensiyalara qoşulmuş Azərbaycan Respublikası əlavə olaraq müvafiq beynəlxalq sənədləri imzalamışdır. Belə bir addımın Azərbaycan – ABŞ münasibətlərinə böyük təsiri olmuşdur. ABŞ Prezidenti Azərbaycan Respublikasına münasibətdə 1992-ci ilin payızında tətbiq edilmiş "Azadlığa dəstək aktı"na edilən ədalətsiz 907-ci düzəlişin fəaliyyətini bir il müddətinə dayandıran qərar qəbul etmişdir.

Azərbaycan əsgərləri Kosovo, Əfqanıstan və İraqda sülhməramlı qüvvələrin tərkibində iştirak etmişlər. Bu isə beynəlxalq hərbi əməkdaşlıqda təsirli amillərdən biri olmuşdur.

Bütün bunlarla paralel olaraq, dünya azərbaycanlılarının birliyinin təşkilatı əsaslarının yaradılması və Azərbaycan Respublikasında siyasi sistemin təkmilləşdirilməsi məsələləri gündəlikdə dayanmışdır. Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti xaricdə yaşayan azərbaycanlılarla iş aparmaqdan ötrü vacib qərarlar qəbul etmişdir. Bakıda Dünya azərbaycanlılarının birinci qurultayı keçirilmişdir. Qurultayda nitq söyləyən Heydər Əliyev qarşıda dayanan vəzifələri dəqiq müəyyənləşdirmiş və hamını Azərbaycan naminə birləşməyə səsləmişdir. Az sonra Xaricdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi qurulmuş və həmvətənlərlə işin sistemli aparılmasına başlanılmışdır.

Ölkədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində islahatlar dərinləşdirilmişdir. Keçirilən konstitusiya referendumunda qəbul edilmiş maddələrdən birinə görə, Milli Məclisə proporsional seçki sistemi ləğv edilmiş və yalnız majoritar seçki sistemi saxlanılmışdır. Digər tərəfdən, əgər əvvəllər Prezident

səlahiyyətləri Milli Məclis sədrinə keçə bilərdisə, referendum nəticəsində həmin səlahiyyətlərin Baş nazirə keçməsinə dair maddə qəbul edilmişdir.

Azərbaycan Respublikası beynəlxalq fəaliyyətini genişləndirərək BMT-də islahatların aparılmasına dair təkliflərini irəli sürmüşdür. Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev 2003-cü ilin payızında BMT Baş Məclisində nitq söyləyərək təşkilatda islahatların zəruriliyini əsaslandırmış, Ermənistanın hərbi təcavüzünə son qoyulmasından ötrü çağırışlar etmiş və birmənalı olaraq bildirmişdir ki, Azərbaycan dövləti torpaqlarının işğal altında qalması ilə barışmayacaq, bir qarışını kimsəyə güzəştə getməyəcək, bütün vasitələrlə onu azad edəcəkdir. Bu nitq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə və rəsmi dairələrinə çatdırılmasında müstəsna rol oynamışdır. İlham Əliyev Azərbaycan Respublikasının BMT Baş Məclisində nitq söyləyən ilk Baş naziri olmuşdur.

Bu zaman Azərbaycan Respublikasında növbəti prezident seçkilərinə hazırlıq işləri görülürdü. Ölkə yeni üfüqlər qarşısında dayanmışdı...

# BİBLİOQRAFİYA

## I. MƏNBƏLƏR

### Arxivlər


- ATƏT-in Praqa Arxivi.
- Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (ARMMA).
- Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi (ARDTXA).
- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi (ARXİNA).
- Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivi (ARPİİSSA).
- Azərbaycan SSR Ali Sovetinin Arxivi (ASSRASA).
- The National Security Archive of the USA. The George Washington University in Washington.
- Российский государственный архив новейшей истории (РГАНИ)


### Nəşr edilmiş sənədlər

*Azərbaycan dilində*


- Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 8 iyul 1996-cı il // "Azərbaycan" qəzeti, 1996, 9 iyul.
- Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). I-V cildlər. Bakı, 1996-1999.
- Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15.02. 1992. Bakı,1992, № 3 (856).
- Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15.07.1992. Bakı, 1992, №13 (866).

- Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 20 yanvar 1998-ci il // "Xalq qəzeti", 1998, 22 yanvar.
- Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəliyinin fəaliyyətinə dair qısa məlumat (oktyabr-noyabr, 2003 ) // "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr-dekabr, №5.
- Azərbaycan Respublikasının Avropa Şurasına qəbul edilməsi barədə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin müraciəti. 13 iyul 1996-cı il // İnsan hüquqları. Bakı, 2001.
- Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında Azərbaycan Respublikası qanununun qüvvəyə minməsi qaydası barəsində Azərbaycan Respublikası Ali Sovetinin qərarı // Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31.12.1991. Bakı, 1991, № 24 (853).
- Azərbaycan Respublikasının Konstitusiyası (əsas qanunu). Bakı, 1995.
- Azərbaycan Respublikasının qanunvericilik toplusu, Bakı, 1999.
- Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında konstitusiya qanunu. 1989-cu il 23 sentyabr. Bakı, 2009.
- Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə. Bakı, 2010; 2001. II hissə. Bakı, 2010; 2002. I hissə. Bakı, 2010; 2003. I hissə. Bakı, 2010; 2003. II hissə. Bakı, 2010.
- Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər) / Toplayan və tərtib edənlər: Fərhad Vahabov, Vəli Axundov, Elman Qasımov. Bakı, 2005.
- Dünya birliyi dövlətlərinin parlamentlərinə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının müraciəti. 3 mart 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 mart 1992-ci il. Bakı, 1992, № 5 (858).
- Dünya birliyi dövlətlərinin parlamentlərinə müraciət haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. 13 mart 1992-ci il; Dünya birliyi dövlətlərinin parlamentlərinə müraciət. 13 mart 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 mart 1992-ci il. Bakı, 1992. № 5 (858).
- Heydər Əliyev və Şərq: 6 cilddə. I kitab: Türkiyə; II kitab: Türkiyə; IV kitab: İran. / Tərt.-müəl. Q.Allahverdiyev, V. Sultanzadə. Red. M.Qurbanlı. Bakı, 2005, 2006.
- Qətiyyətin təntənəsi (Sənədli xronika). Bakı, 1995.
- Müqavilələr toplusu. I cild. Bakı, 2008.

*Rus dilində*

- Нагорный Карабах: разум победит. Документы и материалы. Баку, 1989.
- О Нагорно-Карабахской Автономной Области. Закон Азербайджанской ССР. Баку, 1987.
- Чаладзе Т. Карабахский геноцид: обреченный Ходжалы. Документальная хроника. Баку, 2009.

**Azərbaycanın dövlət xadimlərinin əsərləri**

*Azərbaycan dilində*

- Elçibəy Ə. Bu, mənim taleyimdir. Bakı, 1992.
- Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, 1992.
- Əliyev H. Ə. Azərbaycan nefti dünya siyasətində. IV kitab. Bakı, 1997.
- Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. 1-46-cı kitablar. Bakı, 1997-2013.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir. Birinci kitab. Bakı, 2008.

*Rus dilində*

- Алиев И. Каспийская нефть Азербайджана. М., 2003.
- Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993. Bakı, 2004.
- Гасанов Г. Азербайджан – Европа: на пути к интеграции. Баку, 2003.
- Муталибов А. Карабах – черный сад. Документальное повествование. М., 2001.

**Beynəlxalq təşkilatların nəşr edilmiş sənədləri**

*Azərbaycan dilində*

- NATO məlumat kitabı. Brüssel, 2005.
- Avropa İttifaqının Dağlıq Qarabağa dair bəyanatı. 7 aprel 1993-cü il // "Diplomatiya aləmi" jurnalı, Bakı, 2004, yanvar-mart, №6.

*İngilis dilində*

- Resolution 822 (1993) Adopted by the Security Council at its 3205th Meeting on 30 Aprel 1993 // Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. 1994. The Ministry of Foreign Affairs of the Azerbaijan Republic. Baku, 1994.

- Resolution 874 (1993) Adopted by the Security Council at its 3292nd Meeting on 14 October 1993 // Aggression of the Republic of Armenia Against the Azerbaijan Republic. Information Bulletin. Baku, The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, 1994.
- Security Council. Resolution 884 // Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. Baku, The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, 1994.
- U.N.Resolution 853 (1993) Regarding the Armenia Azerbaijani Conflict United Nations Security Council July 29, 1993 // Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, 1994.

*Rus dilində*

- Венский документ 1990 г. переговоров по мерам укрепления доверия и безопасности. Вена, 1990.
- Декларация сессии Североатлантического Совета. Брюссель, 10-11 января 1994 г. // НАТО Ревиве. Брюссель, 1994, №1, февраль.
- Итоговое коммюнике заседания Североатлантического Совета на уровне министров. Стамбул, 9 июня 1994.
- Международное публичное право. Сборник документов. T.I. M., 1996.


**Digər ölkələrin nəşr edilmiş sənədləri**

*Türk dilində*


- Türk dış politikası. Kurtuluş savaşından bugüne olgular, belgeler, yorumlar. Cilt II. 1980-2001. Editör: Baskın Oran. İstanbul, 2015.


*Rus dilində*


- Верховный Совет Армянской ССР. Созыв 11-й. Сессия 7. Стенографический отчет. 15 июня 1988 г. Ереван, 1988.
- Концепция внешней политики Российской Федерации // Внешняя политика и безопасность современной России. Т. 2. М., 1999.
- О введении в действие Закона СССР о порядке решения вопросов, связанных с выходом союзной республики из СССР от 3 апреля 1990 года. Постановление Верховного Совета СССР // Ведомости Верховного Совета СССР. М., 1990, №15.

- О несоответствии Конституции СССР актов по Нагорному Карабаху. Постановление Президиума Верховного Совета СССР от 10 января 1990 г. // Ведомости Верховного Совета СССР. М., 1990, № 3.

*İngilis dilində*

- U.S. Hopes for Acceptance of Nagorno Karabakh plan. State Depatment Report. 3 May 1993. // United States Information Service. 1993.


## II. ÜMUMİ ƏDƏBİYYAT


*Azərbaycan dilində*

- Arıxov C.C. Azərbaycan – Gürcüstan iqtisadi əməkdaşlığında neft amili. Bakı, 2008.
- Aslanlı A. Qarabağ problemi: tarixi, mahiyyəti, həll prosesi. Bakı, 2009.
- Azərbaycan. Oktyabr - 94, mart - 95. Qəsd: dövlət çevriliş cəhdlərinin xronikası. Bakı, 1995.
- Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar. Bakı, 2004.
- Azərbaycan Respublikası xalq deputatlarının siyahısı. Bakı, 1991.
- Azərbaycan Respublikası Milli Məclisinə seçkilər. 07 noyabr 2010-cu il. Seçkilərin nəticələri ilə bağlı yerli və beynəlxalq təşkilatların mövqeyi/ Tərt. ed. M. Zülfüqarlı. Bakı, 2010.
- Azərbaycan Respublikası. 1991-2001. Bakı, 2001.
- Azərbaycan tarixi. 7 cilddə. VII cild (1941-2002-ci illər). Bakı, 2008.
- Bjezinski Z. İkinci şans: üç prezident və Amerika fövqəldövlətinin böhranı. Bakı, 2009.
- Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti. III kitab. Bakı, 2015.
- Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Tərtibçilər: Nazim İbrahimov, İbrahim Şükürov. Bakı, 1994.
- İsmayılov F. Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri və müasir dövr. Bakı, 2009.
- Kəlbizadə E., Baxşıyeva Y., Əzimov Ə. Ermənistan İran İslam Respublikasının Qafqaz siyasətində. Bakı, 2019.
- Qasımlı M. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı, 1993.

- Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı,1996.
- Qasımlı M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997.
- Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006.
- Qasımlı M. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920). Bakı, 2014.
- Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə. Bakı, 2015.
- Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. II hissə. Bakı, 2015.
- Qasımlı M. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). Bakı, 2016.
- Qasımlı M., Hüseynov C. Azərbaycanın baş nazirləri. Bakı, 2005.
- Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild. Bakı, 2018.
- Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild. Bakı, 2018.
- Qayıdış (1990-1993). Təkmilləşdirilmiş və yenidən işlənilmiş ikinci nəşri. Bakı, 2008.
- Muradova B. Ə. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ATƏT-in rolu: Namizədlik dissertasiya işinin avtoreferatı. Bakı, 2009.
- Nəsibli N. Azərbaycanın geopolitikası və neft. Bakı, 2000.
- Rəcəbli H., İbayev V. Avropa Şurası. Bakı,1999.
- Terror: hadisələr, faktlar, sübutlar. Bakı, 2016.
- Üçüncü minillikdə geosiyasətin üfüqləri (məqalələr toplusu). Bakı, 2018.
- Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir. Bakı, 2004.

*Türk dilində*

- Aslanlı A., Hesenov İ. Haydar Aliyev dönemi Azerbaycan dış politikası. Ankara, 2005.
- Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992 – Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü. Ankara, 2001.

- Qasımlı M. Azerbaycan türklerinin milli mücadele tarihi. 1920-1945. İstanbul, 2006.

*Rus dilində*

- Бжезинский З. Выбор. Глобальные господство или глобальное лидерство / Пер. с. англ. М., 2005.
- Бутаев А. Каспий: зачем он Западу? М., 2004.
- Горбачев М.С. Перестройка и новое мышление для нашей страны и для всего мира. М., 1987.
- Из войны и хаоса Азербайджан: рождение республики. Торун, 2009.
- Казимиров В.Н. Мир Карабаху. Посредничество России в урегулировании нагорно-карабахского конфликта. М., 2009.
- Никсон Р. На арене. Воспоминания о победах, поражениях и возрождении. М., 1992.
- Очерки истории Министерства иностранных дел России. Т.II. 1917-2002. М., 2002.
- Помпеев Ю. Кровавый омут Карабаха. Баку, 1992.
- События вокруг НКАО в кривом зеркале фальсификаторов (сборник материалов). Баку, 1989.
- Совет Европы: основные направления деятельности и результаты. М., 1995.
- Федоров Ю. Каспийская нефть и международная безопаность. Выпуск 1. Аналитический доклад по материалам международной конференции. М., 1996.
- Шеварднадзе Э. Когда рухнул железный занавес. Встречи и воспоминания. Пер. с немецкого. М., 2009.
- Этнополитические конфликты в Закавказье: их истоки и пути решения. Центр международного развития и конфликтологии. Мэрилендский Университет. Kolledj Park Merilend. США, 1996.

*İngilis dilində*

- Armenia – Azerbaijan conflict. GRS. Issue Brief. September 24, 1997.
- Crossant M. P. The Armenian – Azerbaijan conflict, causes and implications /M.Crossant. London: Praeger, 1998.
- Crossant Michael P. The Armenian-Azerbaijan conflict, causes and implications. London: Praeger, 1998.
- Glenn E. Curtis, ed. Azerbaijan: A Country Study. Washington: GPO for the Library of Congress, 1995.

- Historical facts vs. The Armenian Myths. Baku: Apostrof, 2010.
- Howorth Jolyon. Security and Defence policy in the European Union. New York: Palgrave Macmillan, 2007.
- In Armenian captivity (Tortures, Murders, Terror, Vandalism, Genocide). Baku, 2008.
- John Roberts. Caspian Pipelines. London: The Royal Institute of International Affairs, 1996.
- Markar Melkonian with Seta Melkonian. My Brother's Road: An American's Fateful Journey to Armenia. London and New York: I.B.Tauris, 2007.
- Membership Action Plan.Washington DC. 23-24 April 1999.
- Milanova N.K. The conflict over Nagorno Karabakh 1992-2002: Ten years of missed conflict resolution opportunities. Two volumes. Second volumes. To the University of Excter as a thesis for the degree of doctor of philosophy in politics. November 2002.
- Tavares Rodrigo. Regional security. The capacity of international organizations. London and New York: Routledge Taylor and Francic Group, 2010.
- The Alliance strategic concept. Washington DC. April 1999.
- Tomas de Wall. Black Garden. Armenia and Azerbaijan through Peace and War. New York and London: New York University Press, 2003.


## III. MƏQALƏLƏR

*Azərbaycan dilində*


- ABŞ Prezidenti Corc Buş 2002-ci il yanvarın 25-də konqresin ona verdiyi səlahiyyətlərdən istifadə edərək "Azadlığa dəstək aktı"na 907-ci düzəlişin qüvvəsinin dayandırılması haqqında müvafiq sənədləri imzalamışdır // "Dirçəliş-XXI əsr" jurnalı, Bakı, 2002, yanvar, № 47.
- Haqverdiyev O. Zəfərlərlə keçən illər (prezident seçkiləri ərəfəsində ölkənin sosial-iqtisadi inkişaf meyillərinə bir nəzər) // "İqtisadiyyat və audit" jurnalı, Bakı, 2003, №9.
- İnozemtsev V. Kiçik məkanda böyük siyasətlər: Azərbaycanın geosiyasi arenada gələcək planları nədir? // "Azerbaijan Focus", Bakı, 2009, №1(1).
- Novruzov V. Yeni Azərbaycan quruculuğunun etibarlı sabahına təminat // "İqtisadiyyat və audit" jurnalı, Bakı, 2003, №9.

- Paşayev H. ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi // "Dirçəliş-XXI əsr" jurnalı, Bakı, 2003, avqust, №66.
- Zeyno Baran. Azərbaycan – gələcəyi dərk edərək // "Azerbaijan Focus", Bakı, 2009, №1 (1).

*Türk dilində*

- Kamer K. Azerbaycan'ın dış politikası // Emine Gürsoy-Naskali ve Erdal Şahin (Der.). Bağımsızlıklarının 10 Yılında Türk Cumhuriyetleri. Haarlam, Hollanda, 2001.

*Rus dilində*

- Баланчино С. Углубление партнерства – ключ к долгосрочной стабильности в Европе // "Вестник НАТО", Брюссель, 1997, №5.
- Выступление министра Пеньи на пресс-конференции в Стамбуле 27 мая // ЮСИА, 1998, 3 июня.
- Гаджиев К. Размышления о последствиях "пятидневной войны" для геополитики Кавказа // Журн. "Мировая экономика и международные отношения", М., 2009, №8.
- Госдепартамент об енергоресурсах Туркменистана и Ирана // ЮСИА, 1997, 9 сентября.
- Джозеф Меллот. Конференция "Мировые перекрестки" завершила свою работу. Начинается претворение ее решений в жизнь // ЮСИА, 1998, 3 июня.
- Джозеф Меллот. Конференция "Перекрестки мира" открывается в Стамбуле // ЮСИА, 1998, 30 мая.
- Джозеф Меллот. От громких заявлений к упорной работе – таков настрой участников конференции "Мировые перекрестки" // ЮСИА, 1998. 2 июня.
- Мусаева Г. Нефтяные интересы Великобритании на Южном Кавказе (1991-2013 гг.) // Qafqazşünasların Birinci Beynəlxalq Forumunun materialları. 17-18 aprel 2017-ci il. Bakı. 2017.
- Мусаева Г. Политические и экономические аспекты нефтяных договоров, подписанных между Азербайджаном и Великобританией (1991-2013) // Azərbaycan Milli Elmlər Akademiyasının Sosial Elmlər jurnalı, Bakı, 2019, № 2.
- Мусаева Г.М. Нефтяной фактор в азербайджанской политике Великобритании: история и современность // Вопросы национальных и федеративных отношений. М., 2019. Т.9, № 10(55).

- ОПИК выделяет 30 млн. долларов на поддержку Закавказского фонда. // ЮСИА, 1998, 2 июня.
- Пархалина Т. О природе Трансатлантических отношений на современном этапе развития // Jurn. "İnternationale Politik", Berlin, 2001, №6.

*İngilis dilində*

- Aleskerov V. Achieving Azerbaijan's Strategic Vision: Negotiating the "Contract of the Century" // Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku, 2009.
- Chronology of terrorist acts commited in the course of the Armenia – Azerbaijan conflict // "Diplomatiya aləmi" jurnalı, Bakı, 2008, № 18-19.
- Ellman M.The NATO economics colloqium on the Soviet economy // "NATO Review", 1991, №2.
- Jack F. Matlock, Jr. The former Soviet Union Etnonationalism and US interess and values // Washington: Ethnic conflict and regional instability: implications for missions. Edited by Robert L.Pfaltzgraff, Jr.Richard, H.Shultz, Jr., U.S.Government printing office, 1994.
- John J.Mareska. A Peace Pipeline to end the Nagorno Karabakh Conflict // "Caspian Crossroads", Washington, 1995, №1.
- Kamer K. The Nagorno Karabakh conflict from its inception to the peace process // "Armenian Studies", Ankara, 2001, June-July-August, №2.
- Musayev T.F. From territorial clams to belligerent occupation legal appraisal // Bakı: "Diplomatiya aləmi" jurnalı, 2008, № 18-19.
- Seyidov S. Democracy, Human Rihts and Foreign Policy: From Winston Churshill to Heydar Aliyev // Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku, 2009.
- Svente E. Cornell. Turkey ant the conflict in Nagorno Karabakh: A delicate balance // "Middle East Studies", 1999, January, №1, vol. 34.
- Starr F. Emerging directions of Azerbaijan's Foreign Policy // Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku, 2009.
- Terry D. Adams. Baku Oil diplomacy and "Early oil" 1994-1998: an external perspective // Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku,2009.

# IV. QƏZETLƏR


*Azərbaycan dilində*

- "Azərbaycan"
- "Xalq qəzeti"
- "Kaspi"
- "Səs"

*Türk dilində*

- "Cumhuriyet"
- "Dünya"
- "Güneş"
- "Hürriyyet"
- "Milli Gazete"
- "Milliyet"
- "Ortadoğu"
- "Öncü"
- "Radikal"
- "Tercüman"
- "Türkiye"
- "Zaman"

*İngilis dilində*

- "The Boston Globe"
- "The New York Times"
- "The Sunday Times"
- "The Times"
- "The Washington Times"
- "Time"
- "Turkish Daily News"

*Rus dilində*

- "Бакинский рабочий"
- "Известия"
- "Правда"

# V. İNTERNET RESURSLARI


- http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf.
- http://www.e-qanun.az.
- http://www.science.gov.az/news/open/15254.
- https://azertag.az/xeber/milli_maclisin_novbadankanar_sessiyasi-965199.
- www.azerbaijan.az/economy/strategy

9789952546217

Çapa imzalanıb: 16.12.2021
Format: 70x100 16/1. Ofset kağızı.
Həcmi: 24 ç.v. Tiraj: (I z.) 300 nüsxə.

*Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.*
Bakı şəh., ak. Z. Xəlilov küç. 33
Tel: (+99412) 538 87 39 / 538 50 16
bdumetbee@gmail.com
www.bsu.edu.az